**ƏLİ RZAYEV**

# Ş Ə X S İ Y Y Ə T
# D Ö V L Ə T
# M Ö C Ü Z Ə ...

***Əlavələr və***
***dəyişikliklər edilməklə***
***II buraxılış***

**Bakı – "Təknur" – 2017**

Elmi redaktor: **M.Ə.Cəfərquliyev**
*– hüquq üzrə elmlər doktoru, professor*

Rəyçilər: **R.C.Əzimova**
*– fəlsəfə üzrə elmlər doktoru, professor, əməkdar elm xadimi*

**H.S.Qurbanov**
*– hüquq üzrə elmlər doktoru, professor*

**Əli Rzayev. Şəxsiyyət. Dövlət. Möcüzə...**
**Bakı, "Təknur", 2017, 540 səh.**

«Şəxsiyyət. Dövlət. Möcüzə... » adlı dərs vəsaiti üç problemə üzvi bağlılıqda, dünyəvi və dini elmlərin vəhdətində tarixi, sosial və hüquqi prizmadan baxılır.

İnsan fərd və şəxsiyyət kimi cəmiyyət və dövlətin yaradıcısı, hakimiyyətin mənbəyi, idarəetmənin subyekt və obyekti olmaqla insan-şəxsiyyət-dövlət-dövlət hakimiyyəti-dövlət aparatı və dövlət idarəetməsi-dövlət qulluğu-insan qapalı sxemi üzrə fəaliyyət göstərir.

Kitabda şəxsiyyətin məzmunu, dövlətin təşəkkülü və mahiyyəti, dövlətçilik haqqında böyük mütəfəkkirlərin fikirləri, Şumer və Quran möcüzələri, Şərq mədəniyyətinin Qərbə transformasiya yolları müxtəlif aspektlərdə təhlil edilir və bu sahə ilə əlaqədar çoxsaylı hikmətli sözlərdən istifadə edilir.

Kitab elm və təhsil sahəsində tələbə auditoriyası üçün dərs vəsaiti kimi və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN: 977-9952-443-05-7**

**© Əli Rzayev, 2017**

# KİTABIN İÇİNDƏKİLƏR

Ön söz (***M.F.Məlikova)***........................................................ 8
Ön söz (***V.Məmmədəliyev)***....................................................*11*
Ön söz ***(V.Əliyev)***...............................................................................*15*
Giriş.............................................................................................. 19

## I BÖLMƏ. ŞƏXSİYYƏT

**I fəsil. İnsan və şəxsiyyət anlayışlarının kompleks təhlili**
1. İnsan fenomeni................................................................ 32
1.1. İnsanın canlı aləmdə yeri........................................ 39
2. Şəxsiyyət kateqoriyası................................................ 52
2.1. Şəxsiyyətin xarakterik xüsusiyyətləri................. 61
2.2. Şəxsiyyət ləyaqəti........................................................ 81
2.3. Şəxsiyyət statusu ........................................................ 102
3. Böyük şəxsiyyətlərin həyat və fəaliyyətlərində oxşar və fərqli cəhətlər............................................................... 106

## II BÖLMƏ. DÖVLƏT

**II fəsil. Dövlət mexanizmi**
2.1. Dövlət mexanizmi: məzmunu ................................ 118
2.2. Dövlət: anlayışı, təşəkkülü və mahiyyəti............ 140
2.2.1. Dövlətçilik və dövlət.............................................. 147
2.2.2. Dövlət suverenliyi.................................................... 151
2.2.3. Dövlət və cəmiyyət münasibətləri..................... 156
2.2.4. Dövlətin tarixi tipləri və idarəçilik formaları .... 163
2.3. Hüquqi dövlət və vətəndaş cəmiyyəti ................. 169

**III fəsil. Nümunəvi dövlətlərin yaradılmasında böyük şəxsiyyətlərin yeri və rolu**


3.1. Likurq qanunları və Sparta aristokratik dövləti ........ 177

3.2. Solonun islahatları və Afina quldarlıq demokratiyası ........ 183

3.3. Serviy Tulliy və Roma aristokratik respublikası ........ 193

3.3.1. Roma imperiyasının yaranması, yüksəlişi və süqutu ........ 206

3.4. Medison və ABŞ demokratik konstitusion respublikası ........ 210

3.4.1. ABŞ Konstitusiyasında respublika quru luşunun ideya kökləri ........ 221

3.4.2. A.Tokvilin ABŞ demokratiyası haqqında fikirləri ........ 225


**IV fəsil. Dövlət haqqında qədim dövr filosofların təlimləri**


4.1. Fales – Şərq elmini Yunanıstana gətirən ilk filosof ........ 228

4.2. Pifaqor – Pifaqorçular ittifaqının və metempsixoz ideyasının banisi ........ 232

4.3. Konfutsi – Çinin rəmzi simvolu ........ 237

4.4. Heraklit – «Qaranlıq» və «Ağlayan» təxəllüslü filosof ........ 246

4.5. Sokrat – «Daim danışan» ən böyük filosof ........ 251

4.6. Demokrit– «Atomizm» nəzəriyyəsinin banisi, «Gülən» təxəllüslü filosof ........ 259

4.7. Platon – «İdeal dövlət» ideyasının banisi ........ 267

4.8. Aristotel – «Ensiklopedik zəka», «Universal mütəfəkkir» .......... 275
4.9. Siseron – «Dövlət haqqında» klassik əsərin müəllifi, bütün zamanların böyük natiqi .......... 283

**V fəsil. Dövlət haqqında şərq müdrikləri və filosofların fikirləri**
5.1. əl-Fərabi – «Şərqin Aristoteli» .......... 292
5.2. İbn Sina – «Müdrik» ləqəbli ensiklopedik filosof və «Dahi təbib» .......... 299
5.3. Nizamülmülk – dünya şöhrətli «Siyasətnamə» əsərinin müəllifi, «Nizammiyə» mədrəsəsinin banisi. .......... 305
5.3.1. «Nizammiyə mədrəsəsi» və Sədi Şirazi .......... 311
5.4. Nizami Gəncəvi – ilk utopik cəmiyyət ideyasının banisi .......... 317
5.4.1. Nizami Gəncəvi və Firdovsi .......... 324
5.5. Nəsirəddin Tusi – Müsəlman İntibahının ən nəhəng ensiklopedik alimi .......... 329
5.6. «Kəlilə və Dimnə» – Şərqin monumental ədəbi abidəsi .......... 334

**VL fəsil. Dövlət haqqında orta əsrlərdə və yeni dövrdə avropa mütəfəkkirlərinin baxışları**
6.1. N.Makiavelli – «Makiavellizm»in banisi .......... 339
6.2. F.Bekon – «Texnokratik-elmikratik-utopik cəmiyyət» ideyasının banisi .......... 349
6.3. T.Hobbs – Dövlətin yaranması haqqında «Klassik müqavilə nəzəriyyəsinin banisi .......... 353
6.4. C.Lokk – «Hakimiyyətlərin bölgüsü konsepsiyasının» yaradıcısı .......... 359

6.5. Ş.Monteskye – «Klassik hakimiyyətlər bölgüsü» konsepsiyasının banisi........................................ 365
6.6. J.J.Russo – əsərləri həyat təcrübəsindən bəhrələnmiş ensiklopedik filosof...................................... 373

## III BÖLMƏ. MÖCÜZƏ

**VII fəsil. Şumer möcüzəsi**

7.1. İtmiş Şumer tarixinin dirçəlişi: görünən tərəflər...... 384
7.1.1. Şumerlərin bəşəriyyətə verdiyi yeniliklər.......... 389
7.1.2. Şumer sivilizasiyasının mənbəyinin sirləri........ 396
7.1.3. Şumerlərin mənşəyi və dili haqqında ehtimallar.......................................................................... 398
7.2. Şumerlərin siyasi hakimiyyəti .............................. 403
7.2.1. Şumer mədəniyyətinin başqa xalqların mədəniyyətinə təsiri................................................................ 409

**VIII fəsil. Krit mədəniyyətində və Roma sivilizasiyasında şərq izləri**

8.1. Krit mədəniyyətində Şərq izləri............................. 413
8.2. Roma sivilizasiyasına Şərqin təsiri ........................ 416
8.3. Skandinavların əcdadlarının – Vikinqlərin Abşerondan Norveçə köç etməsi............................................ 423
8.4. Şərq və Avropa elminin sintezi: əsas istiqamətlər.................................................................................. 428

**IX fəsil. Quran möcüzəsi**

9.1. Quranda inkar olunmaz elmi həqiqətlər............. 432
9.1.1. Su möcüzəsi................................................................ 458

9.2. Həzrəti Məhəmmədin (s) elm və davranışla bağlı kəlamları ..... 462
9.3. Həzrəti Əli – İslamda ən parlaq sima ..... 469
9.3.1. Həzrət Əli və xəlifəlik ..... 479

Nəticə ..... 487
Kitaba verilmiş rəylər ..... 494
Dövlətçiliklə bağlı insan dünyagörüşünə təsir edən əsər (***Habil Qurbanov***) ..... 497
"Şəxsiyyət. Dövlət. Möcüzə..." adlı kitab haqqında təəssüratlarım (***Afaq Rüstəmova***) ..... 502
Əli Rzayevin "Şəxsiyyət. Dövlət. Möcüzə..." adlı fundamental monoqrafiyasına dair bəzi fikir və mülahizələr (***Sənan Həsənov***) ..... 510
Dövlətçiliyin fəlsəfi, mədəni əsasları (***R.C.Əzimova***) ..... 515
Əli Rzayevin "Şəxsiyyət. Dövlət. Möcüzə..." kitabı haqqında rəy (***Əbülhəsən Abbasov***) ..... 522
Əli Rzayevin «Şəxsiyyət. Dövlət. Möcüzə...» adlı dərs vəsaitinə rəy (***Azər Mustafayev***) ..... 524
Zamanın təhlili yeni siyasi-hüquqi baxışda ***(Rəna Mirzəzadə)*** ..... 527

İstifadə olunmuş ədəbiyyat ..... 533

# ÖN SÖZ

Yaradıcı fəaliyyətin müəyyən mərhələsində zəngin biliklər və tədqiqat vərdişlərinin toplanılması ilə şüuraltı olaraq onları ətrafdakılarla bölüşmək, elm üçün köklü və dərin əhəmiyyət daşıyan problemlər üzrə öz fikirlərini, ideyalarını, gəldiyi nəticələri ictimaiyyətin mühakiməsinə çıxarmaq, onları özünün elmi və praktiki təcrübəsinin yüksəkliyindən qiymətləndirmək ehtiyacı və arzusu yaranır.

Lakin belə istək və arzular müəyyən mənada yalnız emosional əhval-ruhiyyənin və narahatlıqların ifadəsi deyil. Onlar həm də dərin düşüncələrin, elmi axtarışların, mütəmadi olaraq bir-biri ilə çarpışmada olan fikirlərin, şübhələrin və inancların məhsulu, nəticəsidir. Bu, oxucular qarşısında onların artıq sınanmış konsepsiyalarla, elmi hipotezalarla və onların müxtəlif həll variantları ilə tanış etmək, tədqiqatçıların elmi yanaşmalarının konqlomeratından ən düzgün olanı, əsaslandırılmışı, həyati baxımdan vacib və bəlkə də prioritet olanını seçmək və onların mahiyyətini düşüncə süzgəcindən keçirmək və anlamaqla bağlı daxilən dərk edilmiş vəzifədir.

Bu gün stolumun üstündə prof. Ə. Rzayevin «Şəxsiyyət. Dövlət. Möcüzə...» adlı davamlı və gərgin əməyin məhsulu kimi ictimaiyyətin, dərrakəli və diqqətli oxucunun ixtiyarına buraxılmış kitab durur. Kitabla tanışlığın ilkin addımı adəti üzrə geniş diapazonlu məsələləri əhatə edən mündəricatın öyrənilməsindən başlayır ki, bu da qeyri-ixtiyari olaraq insanı kitabın məzmununun – şəxsiyyətin, dövlətin anlayışından tutmuş dövlət haqqında mütəfəkkirlərin qədim dövrdən başlayaraq yeni dövrümüzədək təliminə, islam və onun yaradıcılarına qədər əks olunmuş məsələlərin pozitiv şəkildə mənimsənilməsinə kökləndirir. Görundüyü kimi, tədqiqat

predmeti müxtəlif araşdırma metodlarının tətbiqini tələb edəcək qədər geniş və əhatəlidir. Bununla belə, qeyd etmək zəruridir ki, araşdırma predmeti müxtəlif səciyyəlidir, baxılan məsələlərin dairəsi hüquqşünaslığın müxtəlif sferalarını – ümumi dövlət və hüquq nəzəriyyəsini, konstitusiya hüququnu, inzibati hüququ, dövlət və hüquq haqqında təlimlər tarixini (Qərbi Avropanın və Şərqin mütəfəkkir və filosoflarının təlimləri), islam dininin (dinin banisinin və onun ardıcıllarının) ayrı-ayrı göstərişlərini və s. əks etdirir.

Kitabın ümumi məzmununun içərisində bizi daha çox dörd yarımparaqrafı əhatə edən üç paraqrafdan ibarət olan «Dövlət mexanizmi» adlanan ikinci bölmənin ikinci fəsli maraqlandırdı. Mündəricatdan da göründüyü kimi, fəslin məzmunu kifayət qədər tutumludur. Dövlət mexanizminin məzmunu, dövlətin anlayışı, onun təşəkkülü və mahiyyəti, dövlətçilik və dövlət, dövlət suverenliyi, dövlət və cəmiyyət münasibətləri, dövlətin tarixi tipləri və dövlət idarəçilik formaları, hüquqi dövlət və vətəndaş cəmiyyətinin mahiyyətinin təhlili elmi baxımdan diqqəti cəlb edir. Bu fəslə həmçinin bütövlükdə dövlətin, xüsusən də dövlət orqanlarının vətəndaş cəmiyyəti ilə qarşılıqlı münasibətini və qarşılıqlı əlaqələrini əks etdirən dövlət və cəmiyyətin nisbəti məsələləri daxil edilmişdir.

Təqdirəlayiq haldır ki, müəllif araşdırma predmetinin bu və ya digər komponentlərini xarakterizə edərkən onlara özünün münasibətini ifadə edir (məsələn, dövlət mexanizminin, dövlət suverenliyinin anlayışı və s. məsələlər üzrə), bir çox mübahisəli məsələlər üzrə həmin sahənin elmi nailiyyətlərinə əsaslanmaqla özünün yanaşmasını ortaya qoyur, hüquqi kateqoriyalara dair müəllif tərifini verir.

Bütövlükdə müəllifin mükalimələri, onun tərəfindən se-

çilmiş mövzunun məsələlərinin qoyuluşu elmi maraq kəsb edir və onun bilik və məlumatlılığının genişliyi, hüquqi hadisələrin dərindən dərk edilməsi arzusu haqqında şəhadət verir. Qədim dövrdən başlayaraq görkəmli mütəfəkkir və filosofların dövlət haqqında baxışlarının və təlimlərinin məntiqi ardıcıllıqla təhlil edilməsi müəllifin gərgin əməyinin nəticəsidir.

Mütəfəkkir, filosof və dövlət xadimlərinin hikmətli kəlamlarından əsər boyu yeri düşdükcə istifadəsi əsərin məzmununu zənginləşdirir, maraqlı, oxunaqlı edir və oxucunu düşündürür.

«Şəxsiyyət. Dövlət. Möcüzə…» əsəri öz məzmununa görə dəyərli olmaqla, elm və təhsil sahəsində geniş oxucu kütləsi üçün zəngin məlumatlarla dolu bir kitabdır.

Kitabı oxuyan şəxs dövlət haqqında elmin müxtəlif sahələri üzrə bilik əldə edir, öyrənilməsi uzun müddət tələb edən məsələlərə dərhal cavab tapır və dünyagörüşü genişlənir.

Həcm etibarilə o qədər də böyük olmayan ön sözümü (kitabın ikinci bölməsinin ikinci fəsli ilə bağlı) müəllifə xoş arzularımı ifadə etməklə bitirmək istərdim.

*AMEA-nın müxbir üzvü,*
*hüquq elmlər doktoru, professor*
***M.F.Məlikova***

# ÖN SÖZ

Professor Əli Rzayevin «Şəxsiyyət. Dövlət. Möcüzə...» əsəri demək olar ki, üç kitabı özündə birləşdirməklə üç müxtəlif üzvi bağlı problemi əhatə edir. Bu problemlərin əsas predmeti insanla bağlıdır. İnsan həm şəxsiyyət, həm də cəmiyyətin və dövlətin yaradıcısı, hakimiyyətin mənbəyi, idarəetmənin subyekti və obyekti olmaqla, bütün möcüzələrin iştirakçısıdır. Kitabda dünyəvi və dini məsələlərin vəhdətdə, sistemli şəkildə baxılması multikulturalizmin əyani göstərcisidir. Qədim dövrlərdə Şərqdə ilk olaraq dinin təşəkkülü, dövlətin yaranmasında teoloji nəzəriyyə, islam xilafəti nümunəsində ideal müsəlman dövlətinin yaranması və sonradan başqa ölkələrə transformasiyası bu problemin öyrənilməsini ön plana keçirir.

Müəllifin bu kitabının üçüncü bölməsində dini mövzular Quran ayələri, Hz Məhəmmədin (s) kəlamları, Hz Əlinin elmi baxışları yönündə izah edilir və istifadə edilən səmimi, sadə və səlist üslub isə kitabın hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitab “bir nəfəslə oxunan kitablar” ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənər və yazılanların doğruluğunu inkar edə bilməzlər.

Kitabı oxuyub araşdıran hər kəs bu əsərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsəri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər görüşlərin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən bizə əmanət edilmiş və möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının cəsarətli səyləri ilə qorunan dövlət müstəqilliyi Azərbaycan xalqı üçün milli-mənəvi dəyərlərimizin bərpası, milli kimlik və tarixi köklərimizə qayıdış üçün tarixi əhəmiyyətli şərait yaratmışdır. Bu şəraitdən yararlanan tədqiqatçı və alimlərimiz tərəfindən son illərdə azərbaycançılıq ideologiyasının tərkib hissəsi olan ənənəvi dini dəyərlərimiz, Azərbaycanın çoxəsrli dinlərarası tolerantlıq tarixi, bu unikal dünyagörüşünün keşiyində duran tarixi fenomenlərin araşdırılması istiqamətində maraqlı təşəbbüslər həyata keçirilmişdir.

Quran heç də elmi, ensiklopedik, cəbr, həndəsə, fizika, astronomiya və s. mövzulardan bəhs edən kitab deyil, özünün də dəfələrlə bəyan etdiyi kimi, insanların doğru yola yönəlməsi üçün göndərilmiş hidayət, moizə və hikmət kitabıdır. Əlbəttə, Quran dinləyicilərinin fərqini, eləcə də dünyanın sonunadək bütün millətləri və dövrləri nəzərə alaraq hidayət və öyüd-nəsihət metodunda elmi mövzulara da toxunmuş, on dörd əsr öncə bəşər övladının zehnindən keçməyən bəzi elmi kəşfləri birbaşa, yaxud dolayı yollarla bəyan etmişdir. Müqəddəs Quran həm də Məhəmməd peyğəmbərin (s) davamlı möcüzəsi sayılır. İslam etiqadına əsasən, bu müqəddəs Kitabın bütün kəlmə, ayə və surələri AllahTəala tərəfindən Həzrət Peyğəmbərə (s) vəh onun edilmiş və ərsəyə gəlməsində bəşər rolu olmamışdır.

Kitabda maraq doğuran cəhətlərdən biri Hz Əlinin elmi baxışları, dövlət idarəçiliyi haqqında fikirləridir. Hz Əlinin elmi fikirlərmi dilinin zənginliyi, nitqinin yığcamlığı, səlistliyi, anlayışlığı, təmizliyi haqqında biliyi, onun xütbələri, hikmətli kəlamları nəsihətləri və məktublarından ibarət olan

ayrı ayrı xalqların dillərinə tərcümə olunan «Nəhcul-Bəlağə» toplusunda əks olunmuşdur. «Nəhcul-Bəlağə» kitabı İslam və bütün dünya mədəniyyəti inciləri siyahısına ölməz bir əsər kimi daxil olmuşdur. Bu kitab islam mədəniyyətinin ensiklopediyası olub, hərtərəfli əbədi bir kitabdır və onda hər bir əbədi kitabda olduğu kimi təsbih, məcaz, təmsil, misal, mütənasiblik qafiyəyə malikdir və bir çox müxtəlif elmlərin əsaslarından urfan, fəlsəfə, kəlam, əxlaq, ictimayyət, siyasət, idarəetmə, iqtisadiyyat, fiqh, təfsir, tarix, təbiətşünaslıq və digər elmələrdən bəhs edilir.

İslam dünyası yunan filosofları ilə tanış olmazdanöncə hind, yunan və s. fəlsəfi məktəblərinə aid kitabları ərəb dilinə tərcümə etməzdən əvvəl Hz Əlini Sokrat və Aristotelə bərabər tuturlar.

Yeni tarixi şəraitdə Azərbaycanın qarşılaşdığı böhranlardan çıxaraq özünə güvənməsi üçün ümummilli dirçəliş konsepsiyasına böyük ehtiyac var idi. Bu ideologiya, həm milli adət-ənənələrə və dini-mənəvi dəyərlərə söykənməli, həm də Azərbaycanın çağdaş dünyaya qovuşmasını təmin etməlidi. Deməli, yenicə müstəqilliyə qədəm qoyan ölkə dünyada gedən demokratiya, inkişaf və qloballaşma prosesindən geridə qalmamalı, həm milli mədəniyyətini və simasını, mənəvi özəlliyini yaşatmalı, həm də başqa mədəniyyət və dinlərlə dözümlülük şəraitində münasibət qurmalı idi. Bu olduqca çətin və həssas məsələnin düzgün həlli üçün düşünülmüş və ölçülüb-biçilmiş addımlar atılması tarixi zərurət kimi qarşıya qoyulmuşdu. Sovet ideologiyasının sürətlə çökməsindən sonra, Azərbaycan xalqının yenidən öz millimənəvi dəyərlərinə qayıdışı təbii bir prosesə çevrildi və burada İslam xüsusi bir yer tutdu. Ümumiyyətlə, İslam Azərbaycan xalqının çox önəmli və zəngin milli-mənəvi atributu sayılır və bu ölkənin

beynəlxalq aləmdə gerçək siyasi, iqtisadi müstəqilliyini qoruması, öz milli simasını və varlığını saxlaması üçün həmin zəngin xəzinəyə müraciət etməsi lazım gəlir.

Əsərdə diqqəti cəlb edən hallardan biri, lakonik şəkildə və məntiqi ardıcıllıqla itmiş Şumer tarixinin dirçəlişi, Şumerlərin bəşəriyyətə verdiyi yeniliklər, onların mənşəyi və dili, siyasi hakimiyyət haqqında tarixi aspektdə təhlilidir. Qədim dövrdə Şərq mədəniyyətinin Krit, Roma mədəniyyətinə təsiri və Şərq və Avropa elminin qarşılıqlı əlaqə və sintez məsələlər olduqca maraqlıdır. Kitabın yazılışında rus və azərbaycan ədəbiyyatından, müqəddəs kitabımız Qurani Kərimdən və internet materiallarından geniş istifadə edilmişdir.

Qloballaşan dünyada dünyəvi və dini elmləri sintezdə və vəhdətdə baxmaq ən vacib aktual məsələlərdən biridir. Bu nöqteyi nəzərdən Professor Əli Rzayevin «Şəxsiyyət. Dövlət. Möcüzə...» adlı kitabı böyük maraq kəsb edir geniş tələbə auditoriyası üçün dərs vəsaiti və oxucu kütləsi üçün isə zəngin məlumat mənbəyi kimi istifadə oluna bilər.

Akademik<br>V.Məmmədəliyev

# ÖN SÖZ

*Tarix keçmişin şahidi, həqiqətin çırağı, canlı yaddaşın həyat müəllimi, uzaq keçmişin xəbərçisidir*

***Siseron***

Professor Əli Rzayevin "Şəxsiyyət. Dövlət. Möcüzə..." adlanan bu kitab ixtisas və elmi dərəcəsindən, peşəsindən asılı olmayaraq geniş oxucu kütləsi üçün yazılmış Qədim dövrdən indiyədək bəzi bilmədiyimiz, eşitmədiyimiz yeniliklərə, dünyəvi və dini baxışların sintezindən ibarət çox maraqlı məlumatlarla diqqəti cəlb edir.

Şumer problemi son iki yüz ildə ən populyar və maraqlı, məsələlərdən biri kimi gündəmdədir. XIX əsrin ortalarına qədər tarixçilər Mesopotamiyada – Dəclə və Fərat çayı hövzəsində, bu iki çay arasında yaşamış Şumerlər haqqında ziddiyyətli və əksər hallarda təhrif olunmuş məlumatlara malik idi. İngilis diplomatı Henri Raulinson tərəfindən (1837) Bagaston qayalarında mixi (xətti) işarələrdən ibarət yazı, İngilis arxeoloqu Ş. Leyard (1847), Rəssam Hörmüzün (1853), Assuriya paytaxtı Nineva xarabalıqlarında aşkar etdikləri çoxsaylı gil kitabələrdə mixi yazılar oxunduqdan sonra məlum olmuşdur ki, bu yazılar nə Bibliyada, nə antik müəlliflərin təsəvvüründə olmayan, e.ə. dördüncü minillikdə yaşamış, hardan gəldikləri məlum olmayan Semit tayfalarına yad mədəniyyətli bir xalqa – Şumerlərə mənsubdur və e.ə. II minillikdə onların etnik linqivistik mədəniyyətini yerli xalqlar mənimsəmişlər. Bütün yazılanlar təsdiq edir ki, Şumer sivilizasiyasının təsiri müxtəlif yollarla, müəyyən dəyişikliklrə məruz qalmaqla əvvəl akadlara, semitlərə, sonra xetlərə, qədim babillərə, assuriyalılara, kassitlərə, xaldeylərə, e.ə. 538-

ci ildə isə farslara – əhmənilər sülaləsinə keçmişdir. Minillər ərzində yaddan çıxmış zəngin sivilizasiya yaradıcısı Şumerlər haqqında sensasion məlumutlar yayılır. Şumer problemləri ilə məşğul olan amerikalı Ş.Kramer danılmaz faktlarla sübut edir ki, Babilistanda elmi kəşflərin əksəriyyəti Şumerlərdən götürülmüşdür.

Kramerin «Tarix Şumerlərdə başlayır» əsərində şumerlərin dünyada ilk olaraq 39 yenilik icad etdiyi göstərilir. Onlardan: ilk mixi yazı, gil kitab, ilk məktəb, ilk ikipalatalı parlament, kərpic bişirmək və filizdən metal almaq üçün 1500 dərəcədə istilik verən kürəni, bəşəriyyətin tarixini dəyişən tuncu, suvarma kanallarını ixtira etmiş, ilk qanunlar toplusu hazırlanmış, ilk şəhər-dövlət yaratmış, cəbr, həndəsə və riyaziyyatı tətbiq etmiş, astronomiya və astrologiyanı bilməklə günəş ay təqvimi hazırlanmış, bahar bayramı (Novruz) keçirməyə başlanmış, səhiyyə sahəsində yeniliklər – diaqnoz qoyulması, müalicə kursu yazılması, genetikanın təhlili, DNT quruluşunun müəyyən edilməsi, gözdə kotorakın əməliyyat olunması və s göstərmək olar. Bizə elə gəlir ki, Şərqdə hələ də torpaq altında yatan və insanlara məlum olmayan Şumerlərin sirli dünyası tam aşkarlanmayıb.

Müəllif Şumer problemini geniş təhlil edərək göstərir ki, Şumerlərin bəşəriyyətə verdiyi ədəbiyyat siyahısında Şumer əfsanələrinin toplandığı, sonralar Akkad dilinə tərcümə olunan «Gilqamış dastanı»-dır Ş. Kramerin fikrincə bu dastanda olan əfsanə və rəvayətlər yəhudilər tərəfindən mənimsənilmiş, onlardan isə xristianlar qəbul etmişlər. Bibliyada yazılan hekayət qədim yəhudi müəlliflərinin yazdığı orijinal əfsanə deyil, bu Corc Smitin Babildə «Gilqamış haqqında dastan»-ın 11-ci cədvəlinin sirrini açıqladıqdan sonra məlum olmuşdur. «Daşqın» haqqında Babil mifi şumer mənbələrinə istinad edir.

Kitabda şumerlərin mənşəyi və dili haqqında problem məsələlərə toxunulur və bunun hər zaman mübahisəli olmaqla bu gün də öz həllini tapmadığı vurğulanır. Tədqiqatçılar onların türk tayfaları olduğu və dilinin türk dilli olduğunu qəbul edir. Məşhur ingilis alimləri Q. Çayli və H. Leyard Şumerlərin turanlar olduğunu, onların Dəclə və Fərat çayları hövzəsində məskən salaraq ətraf ərazilərdə yaşayan ibtidai qəbilələrin heyrətli nəzərləri altında dünya sivilizasiyasının şəhərini açdığını göstərirlər. Ön Asiyanın qədim dövr tarixinin görkəmli tədqiqatçısı, məşhur şumeroloq Fr. Hommel Şumerlərin türk tayfalarından olduğunu qəti etiraf etmiş, Şumer dilində 350 sözün türkcə şərhini vermişdir, araşdırma aparmışdır.

Dünya şöhrətli şumeroloq, Şumerlər haqqında ən yeni və mötəbər əsərin müəllifi Vooley yazırdı: «Şumerlər türkdür, onların türk olmasına əsas sübut: 1) dil sübutu; 2) geoloji və arxeoloji sübut». Alman alimi Q. Viqner göstərir ki, bizə gəlib çatmış ən qədim qaynaqlar semit dilində deyil, Şumer dilində yaranıb. Bu dil əsas əlamətlərinə görə türk dilinə uyğun iqtisadi quruluşlu dildir və semit dillərinin quruluşundan tamamilə fərqlidir.

K.Marks hakimiyyəti qədim dövr üçün nümunə olan Şumerlərin hakimiyyətini "hərbi demokratiya" adlandırıb. Bu hakimiyyət xalq yığıncağından, qəbilə başçılarından təşkil olunmuş ağsaqallar şurasından onların seçdiyi hərbi başçıdan və çardan ibarət idi. Şumerlərin ilk yaratdıqları şəhər-dövləti sonralar Yunanlar şəhər-polis kimi adlandırmışlar.

Şumer gil lövhəciklərindəki mətnləri 30 il müddətində öyrənən Amerika tədqiqatçısı Zaxariya Sitçinin Şumerlərin sivilizasiya mənbəyini kənar planetdən gəlmələrlə əlaqələndirir.

Ə.Rzayevin kitabında yığcam, lokanik, məntiqi ardıcıllıqla yazılanlar maraqlı və düşündürücü olmaqla, Dünya elm və mədəniyyətində Yaxın Şərqin xüsusi yeri və möhtəşəmliyi oxuculara çatdırılır, qədim tariximiz yada salınır, bizi kökümüzə, etnik mənşəyimizə nəzər salmağa sövq edir, Quranın ecazkarlığını, İslamda müdriklik rəmzi olan Hz Əlinin ensiklopedik elmi baxışları bizə çatdırılır. İstifadə olunan müdriklərin, filosofların və dövlət xadimlərinin hikmətli kəlamları kitabı daha da oxunaqlı və məzmunlu edir.

Professor Əli Rzayevin "Şəxsiyyət. Dövlət. Möcüzə..." kitabı elm, təhsil sahəsində dərs vəsaiti kimi istifadə oluna bilər, geniş oxucu kütləsi üçün isə dəyərli məlumatlarla dolu zəngin bir əsərdir.

*AMEA-nın müxbir üzvü,*
*tarix elmlər doktoru, professor*
***V.Əliyev***

# GİRİŞ

*Öz bildiyinizi başqalarına öyrədin, onları yazıb qoyun, özünüzlə o dünyaya aparmayın. Bilik insandan sonra başqaları tərəfindən istifadə edilən yeganə sərvətdir.*

***Hz. Məhəmməd peyğəmbər (s)***

*Həqiqəti öyrənməkdə üç məqsəd ola bilər: onu axtararaq hər zaman həqiqəti tapmaq; həqiqəti tapan zaman onu təhlil etmək; nəhayət təhlil edəndə onu yalandan fərqləndirmək.*

***Paskal***

***Elm yaxşı zamanlarda sərvət, pis zamanlarda isə sığınacaq və gözəl yol göstərəndir.***

***Aristotel***

Təcrübə göstərir ki, dövlət başçısı dövləti iki yolla idarə edir. Birincisi, dövlət başçısı mövcud dövlətçilik sisteminə qoşulur və onun qayda və tələblərinə uyğun fəaliyyət göstərir, bu sistemə müəyyən kosmetik dəyişikliklər apara bilir.

İkincisi, dövlətin çətin anında hakimiyyətə gələn dövlət başçısı köhnə sistemin bəzi proqressiv elementlərini, inkişaf etmiş dövlətlərin qabaqcıl təcrübəsini qəbul edir və tam yeni mükəmməl sistem yaradır. Bir aforizmdə deyilir: *«Xalqın taleyi, süquta surətlə yaxınlaşanda onu yalnız dahi xilas edə bilər»* (Hegel).

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə dövlət həyatında hökm sürən hərcmərclik, məmur özbaşınalığı, bir sözlə qanunsuzluq qısa bir müddətdə aradan qaldırılır, dövlət və cəmiyyətin fəaliyyəti hüquqi müstəviyə keçirilir. İlk olaraq siyasi, hüquqi və iqtisadi islahatlar aparılır, Müstəqil Azərbaycanın ilk Konstitusiyası (1995) qəbul

edilir və tam yeni dövlətçilik sistemi yaradılır. Heydər Əliyev tərəfindən yaradılan dövlətçilik sistemi AR Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.

Şəxsiyyət dövlətlə vəhdətdə olmaqla dövlətçilik sistemi ilə birbaşa üzvi bağlıdır. Dövlətçilik sistemi mükəmməl deyilsə, dövlət mexanizmi effektli fəaliyyət göstərə bilmir.

Məlumdur ki, **dövlət mexanizmi** *insan-dövlət-dövlət hakimiyyəti-dövlət aparatı – dövlət idarəetməsi-dövlət qulluğu – insan sxemi üzrə fəaliyyət göstərir.* Onun mənası insan cəmiyyətində olan təbii hüquqlarından dövlətdə vətəndaş hüququna keçir, hakimiyyətin mənbəyi olan xalq yaranır. Xalq qanunverici, icra və məhkəmə hakimiyyətlərindən ibarət dövlət aparatının yaradılmasında birbaşa və dolayısı ilə iştirak edir. Bir sözlə dövlət təzahürləri insan tərəfindən yaradılır və insana, onun rifahına xidmət edir.

Dövlət aparatı struktur planda statik vəziyyətdə olur, ona dinamiklik verən, hərəkətə gətirən insanlar – kadrlardır (siyasi elita və dövlət qulluqçusu). Dövlət aparatının bütün fəaliyyəti dövlət idarəetməsi səmərəliliyindən, yəni idarəetmə subyektinin və idarə olunan obyektin, onlar arasında qarşılıqlı, birbaşa və əks əlaqədə, qarşılıqlı təsirindən əmələ gəlir, sosial və iqtisadi sahədə inkişaf təmin edilir.

Şəxsiyyətin təməlini təşkil edən *insan sosial varlıq, təbiətin bir parçası, ictimai münasibətlərin məhsulu, cəmiyyətin yaradıcısı olmaqla, dövlət-hüquq təzahürlərinin əsas elementidir.* İnsan fenomeni haqqında qədim dövrdən başlayaraq mütəfəkkirlərin klassik fikirləri vardır. *İnsan cəmiyyətdə sosial mühitin bilavasitə təsiri ilə şəxsiyyət statusu alır.* Şəxsiyyət fərd olaraq sosial funksiyaları mənimsəmə prosesində fərdi şüurun inkişafından yaranır. *Sosiologiyada şəxsiyyət anlayışı fərdin sosial keyfiyyətlərinin məcmusu kimi ifadə edilir.* Şəx-

siyyət cəmiyyətin, sosial sahənin dəyişməsi və inkişafından asılı olaraq dəyişir və inkişaf edir.

İnsan canlı təbiətin bir parçası olduğuna görə o təbiətlə harmoniyadadır. Bütün canlılar qəlbə malik olduğundan, təbiətdə ierarxiya yaradır və onda aşağı hissədə bitki və ortada heyvan, yuxarıda isə insan qəlbləri yerləşir. Canlı aləm iyerarxiyasının alt hissəsində olan bitki qəlbinin funksiyasına – özünü yaşatmaq və özünü artırmaq; heyvani qəlbin funksiyasına – bitki qəlbində olanlar və əlavə olaraq hissiyat; insani qəlbdə həm bitki, həm də heyvani qəlbinə aid olanlarla, yəni özünü yaşatmaq, özünü artırmaq, hissiyatla yanaşı nitq qüvvəsi və düşüncə, şüur əlavə olunur. Odur ki, insanın şüuru və nitq qabiliyyəti ondan götürülərsə heyvani mərtəbəyə düşür. *«İnsan kamilliyə çatanda bütün heyvanlardan üstündür, lakin qanunsuz və ədalətsiz yaşayanda onlardan aşağıdır» (Aristotel).*

Qədim dövrdən başlayaraq filosoflar insan qəlbinin saflaşdırılması, ağılın kamilləşməsi, ağıl-ürək əlaqələrinin mahiyyəti məsələlərinə böyük diqqət yetirmişlər. İntibah dövrünün görkəmli humanisti **E.Rotterdamski** yazır: *«İlahiləşmiş ruh, yəni ağıl bizim dövlətin qalası kimi başda yer alır, aydındır ki, bu bədənin ən yuxarı hissəsidir. O, səmaya yaxındır, incə sümükdən ibarət olmaqla zəifdir. Damarlarla, ehtirasla sıxıntıya salınmır, duyğu ilə daxildən və xaricdən çox yaxşı möhkəmlənib. Odur ki, bədəndə baş verənləri dərhal o bilir və onları dərhal tənzimləyir».*

Ölümə məhkum bədən *harislik* və *ehtirasa* meyilli olduğundan həmişə ruhu zəiflətməyə çalışır. Ehtiras yemək və eyş-işrətə həvəs göstərdiyindən, *bədənin hökmdarı ürək* ehtirası öz iqamətgahından aralı, *ürək qulaqcığı altında ciyərə və bağırsaqlara* göndərilir. E. Rotterdamski davam edərək göstərir ki, *bədənə görə biz heyvandan o yana keçə bilmirik,*

*ruha görə isə ilahiyə yaxınıq, ilahiyə birləşirik*[1].

Kitabda dövlət və dövlət hakimiyyəti haqqında konsepsiyalar irəli sürən, təcrübədə dövlətçiliyə yenilik gətirən böyük şəxsiyyətlərin spesifik əlamətləri üç vektorda – zaman, məkan və siyasi mühit prizmasında baxılaraq onların formalaşmasına, konsepsiyalar yaratmasına, müdriklik zirvəsinə çatmalarına təsir edən amilləri, həyat fəaliyyətində oxşar və fərdi cəhətləri qısa şəkildə göstərilir və oxuculara çatdırmaq məqsədi daşıyır.

Müasir dövrdə elmi ədəbiyyatlarda dövlətin təbiəti, mənşəyi haqqında çoxsaylı baxışlar mövcuddur. Onlardan dövlətin yaranması haqqında ideal dövlət konsepsiyasını (Platon), ideal müsəlman dövlətini, müqavilə nəzəriyyəsini (T.Hobbs, C.Lokk, J.J.Russo, B. Spinoza), hüquqi dövlət konsepsiyasını (İ.Kant) və s. göstərmək olar.

XIX əsrdən başlayaraq hüquqi ədəbiyyatda *hüquqi dövlət ideyası* ön plana keçir. Bu ideyanın əsas prinsipi siyasi hakimiyyətin təşkili və həyata keçirilməsində hüququn üstünlüyüdür. Burada hüquqi dövlət və vətəndaş cəmiyyətinin üzvi bağlılığı, *demokratikləşmənin prioritetliyi, hakimiyyətlərin bölgüsü, konstitutsiya məhkəməsinin mövcudluğu, qanunun aliliyi, qanun qarşısında hamının bərabərliyi, insan və vətəndaşın hüquq və azadlıqlarının qanunvericiliklə müdafiəsi, qanunların həyata keçirilməsinin real və təsirli nəzarət mexanizminin olması* və digər prinsiplər ön plana keçir.

Kitabda Qədim dövrdə nümunəvi dövlətlərin yaradılmasında Likurqun, Solonun, Serviy Tulliyin rolu: Likurq qanunları və Sparta aristokratik dövləti; Solonun islahatları və Afina quldarlıq demokratiyası; Serviy Tulliyin islahatları və Roma Aristokratik Respublikası; Ən yeni dövrdə Medisonun demokratik yönümlü dövlətlər üçün nümunə sayılan ABŞ

---
[1] Мир философии. Часть II, М.: Полит. лит., 1991, с.263.

demokratik konstitusiyasının yaranmasında rolu yarım fəsillərdə təhlil edilir.

Qədim dövr filosoflarının (Fales, Pifaqor, Konfutsi, Heraklit, Sokrat, Demokrit, Platon, Aristotel, Siseron) təlimləri, Orta əsrlərdə Şərq müdriklərinin (əl-Fərabi, İbn Sina, Nizamülmülk, Nizami Gəncəvi, Nəsirəddin Tusi) fikirləri, Orta əsrlərdə və Yeni dövrdə Avropa mütəfəkkirlərinin (N.Makiavelli, F.Bekon, T.Hobbs, C.Lokk, Ş.Monteskye, J.J.Russo) baxışları göstərilir.

Kitabda Şumer möcüzəsi (İtmiş Şumer tarixinin dirçəlişi, Şumerlərin bəşəriyyətə verdiyi yeniliklər, onların mənşəyi və dili, siyasi hakimiyyəti və başqa mədəniyyətlərə təsiri), Quran möcüzələri (Quranda elmi həqiqətlər, Həzrəti Məhəmmədin (s) elm və davranışla bağlı kəlamları, Həzrət Əlinin elmi təfəkkürü) təhlil edilir. Axırıncı yüz illikdən yeni texnologiyanın tətbiqi və elmin inkişafı nəticəsində əldə olunan yeni kəşflərin və ixtiraların dərindən təhlili göstərir ki, bütün bunlar 1400 il bundan əvvəl İlahidən nazil olmuş Qurani-Kərimdə dəqiqliklə göstərilmişdir.

Kitabda Qədim dövrdə ən inkişaf etmiş Krit mədəniyyətinin və Roma sivilizasiyasının çiçəklənməsində Şərqin təsiri tarixi faktlarla əsaslandırılır və Şərq elminin Avropaya transformasiya yolları göstərilir.

Kitabda minilliklərlə torpaq altında sirrini gizlətmiş Şumer sivilizasiyasının başqa Avropa və Şərq xalqlarının mədəniyyətinə təsiri (Kromer yazdığı kimi "Tarix Şumerlərdə başlayır"), Qafqazdan Lidiyaya ordan isə İtaliyaya və Korsika adasına köç etmiş etrusklərin Roma sivilizasiyasında danılmaz rol oynaması və öz mədəniyyətini, yüksək texnologiyasını romalılara transformasiya etdirməsi (Roma imperiyasının dövlət atributları – taxt-tac, üst geyim paltarı, döyüş arabası, başa qoyulan güldən düzəldilmiş çələng və s.)göstərilir, Kor-

sikada doğulmuş Napoleon Bonopartın DNK-sının Qafqaz xalqlarına məxsus olması təsadüf olmadığı əsaslandırılır.

Böyük Azərbaycan şairi Şəhriyar demişdir "Qafqazdır ki, Aurupanı doğub, İranı doğub, Hindi doğub. Qafqaz əcəb sərzəmindir".

Kitab başqa bir sensasyon fakt ilə – dörd dəfə Azərbaycanda (1981-2000) olmuş, cəsur dənizçi, alim və okeonoqraf Tur Xeyerdalın Qədim Vikinqlərin – Norveclərin Qafqazdan – Azərbaycandan Skandinaviyaya köç etməsi haqqında ideyasıdır. Bu ideyanı aşağıdakılarla əsaslandırırlar[1]:

*Birinci*, Vikinq skletinin DNK-sının Qafqaz xalqları və azərbaycanlıların DNK-sına uyğun olması, *ikincisi*, hələ XIII əsrdə İsland tarixçisi Snappe Sturlussonun 1220-1240-cı illərdə tarix qoyduğu salnaməsində vikinqlərin Karolu Ordenin başçılığı ilə buzlaqlar əriyəndə Şimala – Norveçə köç etməsi göstərməsi. *Üçüncüsü*, Qobustanda petroqriflərdə tapılan gəmi təsvirlərinin skondinavların ulu babası – vikinqlərə məxsus olması, *dördüncüsü*, atasının ideyasının və tədqiqatlarının davamçısı olan Tur Xeyerdal-Mladşiy ABŞ-a viza alanda ona Qafqaz irqinə mənsubluğunun göstərilməsi.

*Rus mütəfəkkiri R.U.Çadaev demişdir*: «*Şərqi öyrənin, bu, bəşəriyyətin ənənələrinin böyük muzeyidir*», Hegel deyirdi: «*Fiziki günəş Şərqdən, mənəvi-özünüdərkin daxili günəşi – Qərbdən gəlir*». Azərbaycan ədəbiyyatşünası Y.Qarayev yazırdı, «*İnsanın ilahi mənşəyi Şərqdə, heyvani mənşəyi Qərbdə kəşf olunub».*

Şumer və Quran möcüzələri məsələlərinin ön plana keçirilməsinin əsas məqsədi *«Bütün təbiətdə olanlar kökdən pöhrələnir və öz soy-kökünə qayıdır, torpaqdan yaranan torpağa çevrilir*» prinsipi əsasında Şərqdə Şumerlərdə yaranmış si-

[1] http://azerbaijan.travel/az/region/153-Qobustan-(Qorugu)

vilizasiyanın və elmin dünyaya yayılması və geriyə qayıdış ənənəsinin getməsini göstərməkdir. Ərəb xilafəti dövrü antik irsin Şərqə transformasiyasını İngilis tarixçisi G.Bernal *«Əks qayıdış»* kimi sərrast xarakterizə edir.

Keçmişə baxış aforizmlərdə aşağıdakı kimi ifadə olunur. «*Keçmişi oxumaq gələcəyi öyrənmək üçündür*» (Azərbaycan atalar sözü); «*Keçmişinə xor baxan, gələcəyinə kor baxar*» (Türk atalar sözü); «*Bəşəriyyət baxışlarını keçmişə yönəldərək gələcəyə gedir*» (Qubyemo Ferero); «*İndi kim olduğunu bilmək istəyirsənsə, keçmişdə kim olduğunu öyrən; nə olacağını bilmək istəyirsənsə, nə etdiyini öyrən*» (Çin atalar sözü); «*Keçmişi olmayan xalqın gələcəyi yoxdur*» (O.Süleymanov); «*Xalq həmişə öz kökünü yadda saxlamalıdır*» (H.Əliyev); «*Keçmiş qarşısında baş əy, gələcək qarşısında qollarını çırmala*» (N.Menken).

«*Müasir insan keçmişi hərtərəfli təhlil etməklə hazırkı məsələlərin həlli üçün müəyyən qərara gəlməyi bacarmalı və gələcəkdən xəbər verməlidir*»[1].

Kitabda böyük filosof və mütəfəkkirlərin aforizmlərindən (müdrik kəlamlardan) geniş istifadə edilmişdir. Aforizmin gücü onun qısa və yığcam olmasındadır. Öz lakonikliyinə («lakonik» sözü Lakoniya adasında – Spartada tətbiq edildiyindən onun adı ilə tətbiq edilmişdir. Orada danışıq qısa olmayanda natiqi kəsib mahiyyəti üzrə danışması tələb olunurdu) və mənalığına görə aforizmlər xüsusilə tez anlaşılan olduğundan, asan yadda qaldığından insanların şüuruna və davranışına mühüm təsir vasitəsidir. *«Aforizm daha çox fikrin daha az sözlərlə ifadəsidir*» (Abu Turxan); «*Aforizm - bu fikirlərin cəbridir!*» (Q.Aleksandrov).

Aforizmlərin ən bariz nümunəsi Afinada Delf məbədin-

---

[1] Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.11

də yazılmış yeddi yunan müdrikinin kəlamlarıdır: *«Hər şeyi əvvəldən fikirləş»* (Periandr); «*Vaxtı dəqiqliklə nəzərə al*» (Pittak); «*Heç zaman həddini aşma*» (Solon); «*Zamin olarsan – ziyan görərsən*» (Fales); «*Ölümü yaddan çıxarma*» (Xolon); «*Ən yaxşısı azlıqdadır*» (Biant); «*Hər şeydə ölçü – budur ən yaxşısı*» (Klebul).

Şərqin müdrik atalar sözündə isə deyilir: əgər sənin planların bir illikdirsə – darı səp, əgər planların on illəri nəzərdə tutursa – ağac ək, əgər planın əsrlərə hesablanıbsa – adam tərbiyə et.

Ədəbiyyatda və leksikonda bəzi dövlət xadimlərinin geniş istifadə olunan hikmətli sözlərindən bəzilərini göstərmək məqsədəuyğundur: *«Arzu varsa – min üsul var, arzu yoxdursa, min səbəb var»*. «*Qısa danış, cəld get*». «*Dövlət gəlirləri ilə ehtiyatlı davranmaq lazımdır, onlar haqqında Tanrıya hesabat verirəm*» (I Pyotr);

«*Qalibi mühakimə etmirlər*». «*Qanun qəbul edərkən, özümü ona tabe olunanın yerinə qoyuram*». «*Hər bir rus qəlbinin dərinliklərində heç bir nəfər də əcnəbini sevmir*». «*Səfehliyə qarşı heç bir dərman tapılmayıb*». «*Düşüncə və sağlam məna peyvənd olunmayan çopurluq deyil*». «*Bir günahsızı mühakimə etməkdənsə, on günahkara bəraət vermək yaxşıdır*» (II Yekaterina);

«*İnsan var – problem var, insan yoxdur – problem yoxdur*». «*Vacib deyil kim və necə partiyada səs verəcək, amma olduqca vacibdir ki, kim və necə səsləri hesablayacaq*». «*Harda pul var – orda şeytan var*». «*Kadrlar hər şeyi həll edir*» (Stalin);

«*Avropa» sözünü siyasətçilər başqa dövlətlərdən öz adından deyə bilmədiyini tələb edəndə istifadə edirlər*». «*İnqilabları dahilər fikirləşir, fanatiklər həyata keçirir, onların məhsulundan heç bir rolu olmayan adamlar istifadə edir*». «*Sən

*keçmişinə güllə atsan, onda sənin gələcəyini topla vuracaqlar»* (O.Bismark);

*«Ən vicdanlı adamın əli ilə yazılmış altı sözü mənə versəniz, mən onda elə şey taparam ki, ona görə onu asa bilərlər». «Yaxşı qanunlar pozulursa əhəmiyyətsizdir». «Balaca qığılcım böyük alov yaradır». «Dövləti idarə etmək üçün az danışıb çox qulaq asmaq vacibdir». «Öz fikrini gizlədə bilməyən adam idarəetməni də bacarmaz»* (Rişelye).

*«Anarxiya həmişə mütləqiyyətə gətirir». «Müdriklər fəlakətdən yuxarıda, axmaqlar ondan aşağıda olur». «Kim yuxarıda dayanırsa, hamının nəzərindədir, o özündə kəskin hərəkətə yol verməməlidir». «Böyüklükdən gülünc vəziyyətə düşmək – bir addımdır». «Dövlət xadiminin ürəyi onun başında olur». «Duranı nadir halda müdafiə edirlər, yıxılanı isə çoxları itələyirlər». «Təbii olmayan heç nə mükəmməl deyil». «Ümidsizlik ölümə gedən yolun başlanğıcıdır». «Süngü ilə nə istəsən etmək olar, amma onun üzərində oturmaq olmaz». «Qısa və aydın olmayan kimi yazın»* (Napoleon);

*«Azart oyunu – bu xəsisliyin uşaqları, ədalətsizliyin bacısı, pis niyyətin anasıdır». «Özbaşınalığa əsaslanmış hakimiyyət, çox asanlıqla azadlıq xarabalıqları üzərində qurulur». «Pis kompaniyada olmaqdansa, tək olmaq yaxşıdır». «Mənim prezident postuna hərəkətim edama gedən cinayətkarın hiss etdiyi kimi müşayət olunur»* (C.Vaşinqton);

*«Qanunların icrası, onu qəbul etməkdən vacibdir». «Kiçik torpaq sahibi – dövlətin ən qiymətli hissəsidir». «Hamıya eyni hüquq, heç kəsə xüsusi imtiyaz». «Həqiqətdən qorxmayan insan, yalandan qorxmamalıdır». «Öz bədənini, onun hissələrini, funksiyalarını və hərəkətini bilmək onu məmnun edən biliklərin ən əsasıdır». «Mən görməmişəm ki, insanların vicdanlılığı onun var-dövləti ilə artsın»* (T.Cefferson);

*«Mən düşmənləri dosta çevirməklə qalib gəlirəm». «Atları keçiddə dəyişmirlər» (A.Linkoln); «Səhv buraxmaqdan qorxma, səhvi təkrarlamaqdan qorx». «Heç nə etməyən heç zaman səhv etmir». «Ən müvəffəqiyyətli siyasətçi – bu hamıdan çox və bərkdən hamıya məlum olanı təkrar edəndir»* (T.Ruzvelt).

Kitabda istifadə olunan aforizmlərlə bağlı aşağıdakı kitablardan istifadə olunmuşdur[1].

Kitaba «Şəxsiyyət. Dövlət. Möcüzə...» adı böyük dilçi alim, mərhum akademik T.Hacıyevin tövsiyəsi ilə verilmişdir.

Kitabın məzmunu Allahın əsas möcüzələrindən sayılan, dünyanın incisi və zinəti, bəşəriyyətin yaradıcısı insanın cəmiyyətdə və dövlətçilik sistemində yeri və rolu aşağıda asan və başadüşülən sxemdə oxuculara çatdırılır.

Kitabın ikinci nəşrində görkəmli, ensiklopedik təfəkkürlü mərhum akademik Azad Mirzəcanzadənin təbiət, cəmiyyət və sənətə dair mürəkkəb məsələləri geniş oxucu kütləsinin qavraya bildiyi sadə dildə təhlil etdiyi, faktik zənginliyi, orijinallığı və məntiqi ardıcıllıqla şərh etdiyi insan – ətraf mühit və onların üzvü qarşılıqlı təsirinə dair problem-

---

1 Энциклопедия афоризмов: Мысль в слове. М.: Аст, 2003; Мудрость тысячелетий. Энциклопедия. Автор-составитель В. Балязин. М., ОЛМА-Пресс, 2003; Nizami. Hikmət və nəsihətlər. Aforizmlər. B., 1992; Əli Polad. Həzrət Əli. Bakı., 2004; Əli Polad. Üç min ilin hikməti. B., Oskar nəşriyyatı, 2007; Aforizmlər. Tərcümə edən Anar Əli. Bakı, Qanun, 2013; Самые остромные афоризмы и цитаты. Вожди от Ивана Грозного до Сталина М.: Астрель, 2013; Большая книга афоризмов К. В. Дущенко Изд. 12-ое, исправл. М.: Эксмо, 2012; Лучшие афоризмы о любви. Составитель Н. Б. Булчаков. Ростов Н/Д, Владис, 2011; Афоризмы: по иностранным источникам (сост. П. П. Петров и 3-е изд. М., Прогресс, 1985; Мысли и афоризмы (состав. П. Ландесман) В. Азернешр, 1962; Воронцов В. Л. Симфония разума. М.: Молодая гвардия. 1976; Книга афоризмов. Избранное из избранных (Составитель С. Халилов. М.: Альфа-М, 2012 ).

lər mürəkkəbdən tutmuş sadə məsələlərə qədər rəngarəng mozaik şəkildə verilmiş «Yaradıcılıq haqqında düşüncələr» (1984) və «О пути в XXI век» (2001) əsərlərindən «Şəxsiyət Dövlət Möcuzə...» kitabının ruhuma uyğun müəyyən əlavələr edilmişdir.




Dəyərli oxuculara çatdırmağı lazım bilirəm ki, az tirajla çap olunmuş «Şəxsiyət Dövlət Möcuzə...» kitabı qısa müddətdə populyarlıq qazanmış, geniş oxucu marağına səbəb olmuşdur.

Kitab haqqında görkəmli hüquqşünas alimlərin, filosofların nüfuzlu qəzet («Azərbaycan», «Xalq qəzeti», «Respublika», «Elm» qəzetləri) və jurnallarda (AMEA-nın Fəlsəfə İnstitutunun «Elmi əsərlər», «Qanun», BDU-nun «Beynəlxalq hüquq və inteqrasiya problemləri» və b.) və müəllifin adına

daxil olmuş çoxsaylı rəylərdə «Şəxsiyət Dövlət Möcuzə…» əsərinə yüksək qiymət verilir, orijinal fikirlər söylənilir (kitabın sonunda bəzi rəylər haqqında qısa məlumat verilir).

Kitabın dəyəri barədə inandırıcı və sevindirici bir müsbət rəy də M.F.Axundov adına Azərbaycan Milli kitabxanasından daxil olmuşdur. Orada qeyd edilmişdir:

Hörmətli Əli müəllim!

«M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası zəngin inkişaf yolu keçərək böyük əhəmiyyətə malik nəşrləri mühafizə edən mədəni sərvətlər xəzinəsidir.

Cəmiyyətin intellektual-mənəvi potensialının inkişafında əvəzsiz xidmətləri olan bu elm ocağı respublikada ən böyük universal kitabxanadır. Hər gün bu elm ocağına yüzlərlə oxucu müraciət edir.

Təqdim etdiyiniz 2016-cı ildə çapdan çıxmış «Şəxsiyyət. Dövlət. Möcüzə...» adlı monoqrafiyanız digər kitablarınız kimi geniş oxucu marağına səbəb olmuşdur. Həmin kitabın bir nüsxəsi milli arxiv fondumuzda, bir nüsxəsi ümumi oxu zalında, digər bir nüsxəsi isə humanitar elmlər zalında oxucuların istifadəsinə verilmişdir.

Gün ərzində bu kitaba 35-40 oxucu tələbatı olur. Təqdim etdiyiniz bu kitabda digər əsərləriniz kimi çoxsaylı oxucularımız, xüsusilə tədqiqatçılar üçün çox faydalı olacaqdır».

Sizə minnətdarlığımızı bildirir və gələcək əməkdaşlığa ümid edirik!

Hörmətlə,

*Kitab fondlarının formalaşdırılması*
*şöbəsinin müdiri*
***G.İbrahimova***

# I BÖLMƏ.

# Ş Ə X S İ Y Y Ə T

# I FƏSİL

~~~~~~~~

# İNSAN VƏ ŞƏXSİYYƏT ANLAYIŞLARININ KOMPLEKS TƏHLİLİ

• *İnsan həyatı – anidir, onun mahiyyəti həmişə axındır, duyğu dumanlıdır, bədənin bütün quruluşu etibarsızdır; qəlb dayanıqsızdır, tale sirlidir, şərəf qeyri-mötəbərdir. Bir sözlə, bütün bədənə aid olanlar axına, bütün ruha aid olanlar yuxuya və tüstüyə oxşardır.*

***Mark Avreliy***

• *Fitrətin əvvəli, sayların sonu, Sənsən, Adəm oğlu, unutma onu.*

***Əbülqasim Firdovsi***

• *İnsan böyük bir varlıqdır və içində hər şey yazılıdır, lakin qaranlıqlar və pərdələr qoymur ki, öz içindəkiləri oxusun.*

***Cəlaləddin Rumi***

## 1. İnsan fenomeni

• *ALLAH qatında insandan üstün heç bir varlıq yoxdur.*

***Həzrəti Məhəmməd (s)***

• *Ey insan! Sən özünü kiçik zərrə sanırsan. Halbuki səndə aləmlər vardır.*

***Həzrəti Əli***

• *Hər şeyin ölçüsü insandır.*

***Pifaqor***

Bəzi leksikoloqlar «insan» sözünün «ins» (yaxud «uns») kökündən düzəlib, aydın olmaq, yaxud ünsiyyətdə olmaq mənasını ifadə etdiyini bildirir[1].

[1] Məhəmməd Reyşəhri. İnsan: Quran və hədisdə. Bakı, 2012, s.15
~~~~~~~~

Şəxsiyyət həmin insandır, yalnız ictimai, sosial məxluqdur. Şəxsiyyətin psixoloji xüsusiyyəti insanın sosial təbiətindən, həyat şəraitindən və fəaliyyətindən, təlim və tərbiyəsinin təsiri ilə formalaşır. Hər bir demokratik dövlətin fəaliyyəti insan - cəmiyyət - dövlət - dövlət hakimiyyəti - dövlət aparatı - dövlət idarəetməsi - dövlət qulluğu - insan sxemi üzrə aparılır. Bu sxemin xarakterik xüsusiyyəti ondadır ki, bütün dövlət hüquq təzahürləri – dövlət – dövlət hakimiyyəti – dövlət aparatı – dövlət idarəetməsi – dövlət qulluğu vahid sistem təşkil etməklə, onların hər biri insan tərəfindən yaradılır və onun maraqlarına xidmət edir.

İnsan (fərd), şəxsiyyət, ailə, cəmiyyət və dövlət-insan sxemində insanın roluna mütəfəkkirlər diqqət yetirir və onların fikrincə insan necədirsə, cəmiyyət və dövlət də o cürdür, insan özünü necə idarə edirsə, insan toplusunun yaratdığı dövlətdə o cür idarə olunur, insanda hansı xüsusiyyətlər varsa, o xüsusiyyətlər axır nəticədə cəmiyyət və dövlətdə cəmləşir.

Dövlət mexanizmini hərəkətə gətirən, sistemə dinamiklik verən əsas element insandır. Filosof Rəfiqə Əzimova özünün *«İnsanşünaslıq XXI əsrin elmidir»* əsərinin *«İnsan – əsrin beyni – zəmanəsinin daşıyıcısıdır»* yarım fəslində göstərir ki, *«İnsanın keçmiş olduğu yola yenidən nəzər yetirməsi güman etməyə əsas verir ki, XXI əsrdə də insan həmçinin ona qədər olanları və bu gün onu «qidalandıranın» hamısını özündə toplayıb cəmləşdirmişdir. İnsan özü haqqında bildiklərinin və özü haqqında bilmədiklərinin hamısının daşıyıcısıdır. İnsan addım-addım, uşaqlıqdan yeniyetməlikdən-gənclikdən başlayaraq yetkinlik çağına qədər cəmiyyətin müəyyən hallarında da icazə verilməmiş standartlarına qovuşur. Təbiətin özü nə qədər rəngarəngdirsə də, insan təbiəti də o qədər çox tonallıdır. İnsan təbiəti təbiətin özü kimi bəzən sirlərini asanlıqla*

*vermir»*[1].

İnsan cəmiyyətdə şəxsiyyət, dövlətdə vətəndaş, idarəetmədə idarəetmə subyekti və idarəolunan obyekt keyfiyyətində çıxış edir. İnsan yer üzündə canlı orqanizmlərin inkişafının ali dərəcəsində ictimai tarixi fəaliyyətin və mədəniyyətin subyekti kimi yaranıb. O ictimai münasibətlərin məhsulu olmaqla həm də onların yaradıcısıdır. Öz təbiətinə görə insan sosial məxluq olaraq bioloji və sosial cəhətdən dialektik vəhdətdə, qarşılıqlı təsirdə və əlaqədə olurlar.

***İnsan fenomeni*** – sosial varlıq olmaqla təbiətin bir parçası, cəmiyyətin yaradıcısı və istənilən sosial-iqtisadi sistemin əsas elementidir. O, bir tərəfdən şüura malik olub ətraf mühiti dərk etmək və onu dəyişdirmək, yenidən yaratmaq qabiliyyətinə malik bioloji məxluq, digər tərəfdən ictimai məxluqdur. Təbiət insan həyatı kimi tam hərəkətdə, yaradıcılıqda, mübarizədə inkişaf edir. Təbiət və insan böyük inkişaf prosesinin – təkamülün eyni cür iştirakçılarıdır[2].

İyirminci əsrin görkəmli mütəfəkkiri alman sosioloqu, filosofu, sosial psixoloqu E.From (1900-1980) demişdir: *«İnsan özünü, ağlını və təssəvvür gücünü dərk etməklə heyvanlara xarakterik olan «harmoniyanı» pozdu. Bu xüsusiyyətlərin yaranması ilə insan qəribə anomaliyaya çevrildi. O, təbiətin bir hissəsi olmaqla onun dəyişdirə bilmədiyi təbiət qanunlarına tabedir. O, təbiətdən kənarda durur və buna baxmayaraq onun bir hissəsidir»*[3].

İnsan anlayışı müəyyən mənada ailə, millət, sinif bir-

---

1 Əzimova R. İnsanşünaslıq – XXI əsrin elmidir. Bakı: Tərcümə, 2012, s.42.

2 Коркунов Н. И. История философии и права. С.-Петербург, 1908, с.7

3 Мир Философии. Часть II, М.: Полит, лит. 1991, с.67

liklərindən böyükdür, geniş əhatəlidir, onlardan yüksəkdə durur[1]. İnsan müxtəlif aspektlərdə ayrı-ayrı elmlərin: fəlsəfənin, psixologiyanın, sosiologiyanın, etikanın, fiziologiya və biologiyanın mövzusudur. Hər bir insan fərd olmaqla onu başqalarından fərqləndirən *psixi xüsusiyyətləri* (temperament, xarakter, qabiliyyət), *psixoloji keyfiyyətləri* (təsəvvür, təfəkkür, iradə, diqqət və s.), *psixi vəziyyəti* (emosiya, hiss, arzu, fikir, əhval-ruhiyyə), *sosial-psixoloji cəhətləri* (motiv, maraq, tələbat, mənafe və s.) vardır.

İnsanda zərərli hissiyyat yaranmasın deyə səbəb ilə hissiyyatın arasında ağıl və məntiq görməlidir. İnsan emosiyası anadan gəlmədir, məntiq sonradan qazanılır. Əgər bu iki hipostaz vahid halında birləşsə, axırı uğurla qurtaran iş başlanar[2].

İnsan əl-Fərabiyə görə təbiətin inkişaf tacıdır və öz psixi xüsusiyyətlərinə görə heyvanat aləminin nümayəndələrindən fərqlənir. «İnsan» anlayışını Fərabi müxtəlif tərəflərdən – bioloji, psixika, fiziki, intellektual, mənəvi və ictimai-siyasi təhlil edir. Fərabinin təliminə görə insan dərk edən subyekt, ətraf reallığı, təbiəti dərketmə obyekti kimi çıxış edir.

**T.Hobbs** «Leviofan» əsərində göstərir ki, cəmiyyət strukturunun ilkin hüceyrələri – insanlar olmadan dövlət ola bilməz. İnsan təbiətlə cəmiyyət arasında aralıq bölmədir. İnsan bütün sosial dəyərlərin ölçüsüdür. **K.Marksın** təbirincə, «İnsanın mahiyyəti abstrakt deyil, ayrıca fərdə xasdır. Əslində o bütün ictimai münasibətlərin məcmusudur». **Hegel** göstərir ki, fərdlərin birliyi dövlətin həqiqi məzmunu və məqsədidir. Fərdlər dövlətin ümumi həyat tərzini yaşamağa

---

1 Краткий словарь по социологии. М.: Политиздат 1989, с.9

2 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.49

məhkumdur, onların hər birinin təminatının, fəaliyyətinin və davranışının xüsusi xarakterliyi, çıxış nöqtəsi və nəticəsi ümumilik gücünə malik substansial dövlətdir[1].

Əsrlər boyu yoxlanılmış bir həqiqəti həmişə yadda saxlamaq lazımdır: «İnsan – bütün sərvətlərin meyarıdır».

**R.Ouen** insanın mahiyyətini suallar qoyub onlara cavab verməklə açır:

– İnsan nədir? fiziki, ağıl və əxlaqi xüsusiyyətlərə malik, bir predmetlə məşğul olub o birinə antipatiyası ilə müşayət olunan xüsusiyyət və qabiliyyətə malik təşkil olunmuş məxluq və ya heyvandır;

Başqa heyvanlardan və ya təşkil olunmuş məlum məxluqlardan nə ilə fərqlənir? Bütün başqa heyvanlardan ağıl və əxlaqi xüsusiyyətlərinə görə üstündür, bü xüsusiyyətlərə görə onları öz hakimiyyətinə tabe edə bilir. Odur ki, o, heyvanların hökmdarı adlandırılır.

İnsan öz təbiətinə görə niyə antipatiya hiss edir? Ümumiyyətlə insan ona əzab verən fiziki, əqli və əxlaqı şeylərə nifrət edir.

İnsanın xoşbəxtliyi nədədir? Yaxşı hissiyatda və ya onun bütün təbii tələbatına mötədil təmin edilməsində görür[2].

Müasir antropologiya (insanşünaslıq) elminin əsasını qoymuş və iki Nobel mükafatı laureatı olan fransız mütəfəkkir və bioloqu Aleksis Karel (1873-1945) keçən əsrin əvvəllərində yazdığı «İnsan, tanınmayan varlıq» adlı kitabında göstərir ki, «Gerçəklik budur ki, insan mürəkkəb, anlaşılmaz, fərqləndirilməsi imkansız olan və asanlıqla tanınması mümkün olmayan varlıqdır». Karelinin sözlərinin xülasəsi bunlardan ibarətdir: 1. Elm insanı tanıma sahəsində indiyə-

1 Hegel A. Hüquq fəlsəfəsi. Bakı: Nərgiz, 2007, s. 40

2 Мир Философии. Часть II, М.: Полит. лит. 1991 s. 29, 30

dək elə də irəliləyiş əldə etməmişdir; 2. İnsan ayrılıqda, cəmiyyətdə, həmçinin xarici mühitlə əlaqədə öyrənən metod hələ mövcud deyil; 3. Hazırki elm sahələrinin mütəxəssislərinin öyrəndikləri insan real insan deyil, əksinə, həmin elm sahəsinin texnikalarının uyğunluğu bir kölgədir; 4. Elmin insanıtanıma sahəsində inkişaf etməməsinin səbəbi insana həqiqətinin dolaşıq və mürəkkəb olması və bu inkişafın qabağını alan maneələrin daimi olmasıdır[1].

**İ.V.Hötenin** fikrincə, bütün bəşəriyyət həqiqi insan sayılır və fərd o zaman şənlənə və zövq ala bilər ki, o öz dəyərini, öz mərdliyini hiss etsin. Höte özünə sual verir: Mən özüm kiməm? Mən nə etdim? Cavabında yazır: - mən nə görmüşəm, nə eşitmişəm, nə müşayət etmişəm, – onları yığıb və istifadə etmişəm. Mənim əsərlərim minlərlə fərdlərdən, cahillərindən və müdriklərindən, ağıllı və ağılsızlardan, ahıl yaşında, qocalıqda olanlardan bəhrələnmişdir. Onların hamısı mənə öz fikirlərini, öz qabiliyyətlərini, öz arzularını, yaşayış tərzini gətirdilər. Mən tez-tez başqalarının əkdiyini biçmişəm, mənim əməyim- kollektiv insanların əməyidir, o Höte adını daşıyır[2] .

İnsan fenomeni haqqında bəzi dünya klassikləri öz fikirlərini hikmətli kəlamlarla bildirmişlər. *«Yer üzərində ən böyük varlıq insandır, insanda isə ən qiymətli şey müdriklikdir» (Uilyam Hamilton); «İnsan düşünən, axtaran, yeni üfiqlərə çatmaq sevdası ilə səmanın və zamanın hər parçasından bir mərifət dərsi alan şəxsdir» (Füyuzat jurnalından); «İnsan olmasaydı, kainat da olmazdı» (Henri Lonqfello); «Möcüzələr çoxdur, lakin heç biri insan qədər fövqalədə deyidlir» (Sofokl); «İnsan kral və hakim kimi yaşaya bilər, lakin o insan kimi öl-*

1 Məhəmməd Reyşəhri. İnsan: Quran və hədisdə. Bakı, 2012 s.10,12
2 Мир Философии. Часть II, М.: Полит. лит. 1991, с.29

*məlidir». «Hər bir insan ay kimidir, onun heç kəsə göstərmədiyi işıqlanmayan tərəfi var» (Uevester); «İnsanın təyinatı ağıllı fəaliyyətidir». «İnsan kamilliyə çatanda bütün heyvanlvrdan üstündür, lakin qanunsuz və ədalətsiz yaşayırsa onlardan aşağıdır» (Aristotel); «İnsan nə vaxt ki, onda olanla kifayətlədikdə olduqca güclüdür, insanlardan yuxarı qalxmaq istəyəndə olduqca zəifdir» (J.J.Russo); «Nəcib insan ehtiyacı dözümlü keçirir, rəzil insan ehtiyac olanda pozğuna çevrilir». «İnsanlar öz təbiətinə görə bir birinə yaxındır, öz adətlərinə görə isə bir birindən uzaqdır». «Kamil adam hər şeyi özündə, cılız adam başqalarında axtarır». «Nəcib kişi hamı ilə həmrəylikdə yaşayır, rəzil adam özünə uyğunlarıni seçir» (Konfutsi); «İki eyni gücə malik insandan kim düzdürsə, o güclüdür» (Pifaqor); «Ədalət qüvvətli, qüvvətlər isə ədalətli olmalıdır» (Paskal); «İnsan həyatı ilə ölür, ölüm isə yaşayır» (Heraklit); «İnsan bir şagird, iztirablar isə onun müəllimidir, bir insan iztirab çəkməyincə özü-özünü tanıya bilməz» (Alfred de Misse); «İnsanlar bir biri üçün doğulub». «İnsan nə qədər özünü çox sevirsə, o qədər çox yad fikirlərdən asılı olar» (M.Avreliy); «İnsanlar var ki, sıfıra oxşayır: onların hər zaman qarşısına rəqəmlər qoylmalıdır» (Balzak); «Hər bir insan – bir dünyadır, onunla doğulur və onunla ölür; hər bir qəbir daşının altında dünya tarixi yatır» (H. Heyne). «İnsan dünyaya əli yumulu gəlir və elə bil ki, deyir: bütün bu dünya mənimdir; gedəndə əli açıq gedir, deyir: baxın özümlə heç nə aparmıram» (Talmud).*

Müəyyən bir cəmiyyət daxilində yaşayan hər bir insan öz bədən quruluşunda nizam, ahəng və qayda tapır, yaxud müəyyən nizama uyğun olaraq hərəkət etdiyini aşkar edir və eynilə belə də, digər insanların fəaliyyətinin də müxtəlif qaydalara uyğunluq və uyğunsuzluq cəhətlərini qiymətləndirir.

**Fərd naturalist –** *bioloji, şəxsiyyət isə dini-mənəvi, qeyri-na-*

*turalist kateqoriyadır və ruhun məhsuludur.* Fərd anlayışı insanın inkişafının erkən çağında baş vnrən konkret insanın bütöv, tam xüsusiyyətlərini ifadə edir. Fərd yalnız orqan və funksiyaların deferensasiya prosesində baş verən bioloji təkamülün məhsuludur. Fərd ən əvvəl genetik təzahürdür. Fərd həm irsən keçmiş genetik, həm də sosial mühitlə qazanılmış, tərbiyə nəticəsində əldə edilmiş xüsusi əlamətləri daşıyır. Fərd – ən əvvəl genotipik təzahürdür. Fərd genotipik təzahürlə yanaşı, həm də onun formalaşması ontogenezdə ömürboyu davam edir. Beləliklə fərdin anlayışının əsasında subyektin bölünməzliyi, tamlığı faktı və onun xarakterik xüsusiyyətlərin olmasıdır[1]. İnsan özünün fərdi keyfiyyətləri ilə deyil, həm də insan birliyinə məxsus olan keyfiyyətləri və əlamətləri ilə çıxış edir. İnsanın parlaq fərd olması, onun hələ şəxsiyyət olması demək deyildir.

## 1.1. İnsanın canlı aləmdə yeri

• *Qürurunu atan, təhqir və alçalmağa səbrlə dözən, qəzəbini və nifrətini saxlamağı bacaran, yaltaq və saxta nəzakətli olan, ona etibar olunan sirri yaymayan insan öz məqsədlərinə və yüksək mənsəbə çatır.*

***Kəlilə və Dimnə***

• *Öz bədənini, onun hissələrini, funksiyalarını və hərəkətini bilmək onu məmnun edən biliklərin ən əsasıdır.*

***T. Cefferson***

Ədəbiyyatda insanın canlı aləmdə yeri məsələsi **Aristotelin** klassik baxışları üzərində qurulmuşdur. Aristotelin fik-

1 Леонтьев А. Н. Деятельность, сознание, личность. Изд. второе. М., Политическая литература 1977, с.173-174

rincə, təbiətin bütün canlı aləmində istər bitki, istər heyvan və istərsə də insanda ruh (qəlb, nəfs) mövcuddur. O, canlı aləm nərdivanını ruh nərdivanına uyğun hesab edir. O, **«Etika»** əsərində yazır ki, harda həyat varsa, orda ruh (qəlb) vardır. O qəlbi çox geniş mənada: həyat, hərəkət, özünü artırma, dərketmə, hafizə və ağıl kimi təsvir edir. İnsanın bu qəlb nərdivanında yeri məsələsini aşağıdakı kimi izah edir.

**Aristotel** canlı aləm nərdivanında üç pillə ayırır. *Birinci pillədə* heyvan və insan üçün ümumi olan bitki qəlbi, *ikinci pillədə* – heyvan qəlbi və *üçüncü pillədə* insan qəlbi. *Bitki qəlbi* – qidalanma və özünü artırma (nəbatata xasdır), heyvan qəlbi bitki qəlbinə məxsus olanlar və əlavə duyğu, *insan qəlbi* – ən mürəkkəb olmaqla bitki və heyvan qəlbinə xas olanlar və əlavə ağıl, təfəkkür və düşüncə və nitq funksiyalarına malikdir[1].

**Nəsirəddin Tusi** «Əxlaqi-Nasiri» əsərində Aristotelin nəzəriyyəsini davam etdirərək nəfsin (qəlbin) kəmiyyət və keyfiyyət tərkibini – yəni bitki (nəbati), heyvani və insanın nəfs qüvvələri, onun növlərini, fərqli və ümumi cəhətlərini təhlil edir. O, ağıl kateqoriyalarının dərki, xeyirli və zərərli işləri fərqləndirə bilmək qüvvəsini – *nitq qüvvəsi,* faydalını əldə etməyə, məsələn yemək, içmək, əylənmək, şadlanmaq və s. təhrik edən qüvvə – *şəhvət qüvvəsi,* zərərliləri dəf etmək, maneələri aradan qaldırmaq, qələbə, üstünlük meyllərində özünü göstərən qəzəb qüvvəsi adlandırır. Burada nitq qüvvəsi yalnız insanlara xasdır. Nitq qüvvəsinin yeri fikir və bilik xəzinəsi olan *beyin*, qəzəb qüvvəsinin yeri – onun filtri coşğunluq bulağı və həyat çeşməsi olan *ürək;* şəhvət qüvvəsinin yeri həll edilmiş qidaları bədən üzvləri arasında paylaşdıran qara ciyərdə görürdü. Bəzən bu üç qüvvəni, yəni «nitq», «qəzəb» və «şəhvət»i üç nəfsə ayırırlar. Birinci *mələk*

1 Чанышев А. Н. Аристотель. М.: Мысль, 1984, с.91, 93

*nəfsi*, ikinci *«vəhşi nəfs»*, üçüncüsü *«heyvan nəfsi»* adlanır. Nəsirəddin Tusi insanın orta yerdə yaradıldığı fikrinə gəlir. Bu orta yerdən yüksəlib ülvi dərəcəyə çatmaq və ya yuvarlanıb ən aşağı alçaqlığa enmək insanın öz əlində olub bu əməl səy, fəaliyyət, ağıl və iradədən asılıdır. O öz nəfsini ağılı ilə idarə edə bilsə, yüksəkliyə qalxar, nəfsi öz başına buraxsa nəfsi onu aşağıya – heyvani mərtəbəyə sövq edər[1] . «Qəlb əl kimidir. əl alətlərin aləti olduğu kimi, ağıl formaların forması, hiss olunanın, həyata keçənin forması kimidir» (Aristotel); «Qəlb kor olduqdan sonra görmənin nə faydası» (Həzrət Əli); «Bizim nəzərimiz qəlbdədir, sudan, palçıqdan olan surətdə deyil» (Cəlaləddin Rumi); «Qəlb dənizə bənzəyir: fırtınaları, sakit vaxtları və daşqınları vardır. Bəzən də dərinliklərində incilər gizlənir». (Henrix Heyne); «Qəlbə nisbətdə ciddilik, bədənə nisbətdə utancaqlıq eyni şeydir» (Bekon).

Əl Qəzali dörd qüvvə ayırır. *Elm qüvvəsi, qəzəb qüvvəsi, şəhvət qüvvəsi, bu üçü arasında olan ədalət qüvvəsi.* Elm qüvvəsinin yaxşılığı və gözəlliyi ondan ibarətdir ki, danışdıqda doğrunu yalandan ayırd edə biləsən, əməldə yaxşını pisdən seçəsən, etiqad məsələsində isə haqqı batildən ayıra biləsən. Bu qüvvələrin hər birinin iki kənar həddi var həddini aşmaq və naqislik; bunların hər ikisi pisin xoşagəlməzidir.

Beləliklə, qəlb nərdivanında insan ağlına görə ən yüksəkdə durur. İnsanın ağlının mahiyyətini ruh və bədənin münasibətində təhlil etmək olar. Bütün bizim gücümüz ruh və bədəndir. Ruhun çox hissəsi hökm edən, bədən isə quldur. birincisi – bizdə tanrı ilə ümumidir, ikincisi – heyvanla. Odur ki, ən yaxşısı bədənin yox, ağılın köməyi ilə şərəfi axtarmaq lazımdır. Bizim fərəhləndiyimiz həyat qısa olduğundan daha çox hafizədə qalır, odur ki, var-dövlətin verdiyi şərəf və

1 Nəsirəddin Tusi. Əxlaqi-Nasiri Bakı, Elm, 1980. c.16

gözəllik tez keçəndir və şücaət isə çox gözəl və daimidir[1] .

Qədim dövrdən başlayaraq filosoflar bədən, ruh, ağılın qarşılıqlı əlaqələrini araşdırmağa səy göstərmişlər. Qədim yunan filosofu Aristotel bu məsələdə fəaliyyətinin üç dövrünə uyğun üç mərhələdə üç cür təhlil etmişdir. Əvvəl Aristotel öyrədir ki, ağıl ruha xasdır, ruh isə bədənlə, ölməzin ölümə məhkum olana nisbəti kimi antoqonistdir. İkinci mərhələdə ruh həyat gücü olduğu bədəndə yerləşdiyi və xüsusi orqanla onunla əlaqəli olduğunu göstərir, lakin ağılı ruhdan ayırmağa başlayır. Sonrakı mərhələdə Aristotel ruha bədənin entelexiyası kimi baxır; o ruh ölməz deyil, o bədənlə yaranır, ondan ayrılmazdır və bədənlə ölür, lakin ağıl ruhdan qeyri-maddi və ölməz kimi ayrılır. Bütün canlı təbii bədənin bütün tərəfləri – ruhun alətidir və ona görə mövcuddur. Ruh canlı bədənin səbəbi və başlanğıcıdır. Aristotelə görə ruh bir tərəfdən materiya ilə, digər tərəfdən ilahi ilə əlaqəlidir. Odur ki, psixologiya ruhun fiziki hissəsini, teologiya isə o biri hissəsini öyrənir. Ruh hökmdar kimi bədən üzərində, ağıl dövlət xadimi kimi bizim arzularımız üzərində hökmranlıq edir. Buradan aydındır ki, bədən üçün ruha tabe olmaq nə qədər təbii və əhəmiyyətlidir[2] .

Demokritin fikrincə, insan ruhu ən hərəkətli hamar və dairəvi olanlardan olub bədənə daxil olmaqla onda həyat təzahürü yaradır. Ruhun atomları odun atomlarına oxşardır. Demokritə görə ruh insanın əsasıdır, bədən isə onun damarıdır. İnsan daha çox bədənə yox, ruha qayğı göstərməlidir[3] .

---

1 Əbu Hamid əl Qəzali s 12.

2 Аристотель. Политика. Сочинение в 4-х т, Т.4. М.: Мысль, 1983, с.383

3 Коркунов Н. И. История философии и права. С. Петербург, 1908, с.21-24

Qurani-Kərim nöqteyi-nəzərdən insan, kökü torpaqdan olan cisimlə mənşəyi İlahi əmrdən qaynaqlanan ruhdan təşkil edilmiş bir varlıqdır. Əhli-beytin (ə) hədislərində insan bəzən ağıl və sürətdən, bəzən ağıl və şəhvətdən, bəzən isə yuxarı və aşağı aləmlərdən təşkil olunmuş varlıq kimi açıqlanır ki, bu tərifdən də, öz növbəsində, insanın cisim və İlahi ruhun birləşməsi anlayışının digər yöndən ifadə edilməsidir[1].

Orta əsrlərin görkəmli müsəlman filosofu **Əl Qəzali** (1059-1111) **«Kimyayi-səadət»** əsərində yazır, «özünü tanımaq istəyirsənsə bil ki, səni xəlq edərkən iki şeydən yaratmışlar: birinci bədən və ya tək adlanan zahiri qəlibdir ki, onu zahiri gözlə görmək olar; o birisi isə nəfəs, can və ürək adlanan batil mənadan ibarətdir ki, onu zahiri gözlə görmək olmaz, batildə olanı bəsirətlə tanımaq olar. Səndəki əsl həqiqət həmin batil mənadan ibarətdir, onlar başqa nə varsa ona tabedir, onun xidmətçisi və ordusu – yəni əsgəridir. *«Biz onu ürək adlandırırıq». «Öz ürəyinizin səsinə qulaq asın, o heç zaman aldatmır. Müdrik o adamdır ki, öz ürəyinin səsinə qulaq asır»*[2]*; «Ürək bizim yol göstərənimizdir. Bunu tanrının səsi, şüur, intuitiv hiss adlandırmaq olar»*[3]*.*

*«Ədəb ürəyin ağlıdır» (Heyns). «Ürək bizim yol göstərənimizdir. Bunu tanrının səsi, şüur, intutiv hiss adlandırmaq olar»; «İnsanın damarlarına bağlanmış bu ət parçası çox qəribədir. Onun adı ürəkdir. Əgər onun üçün bir ümud doğarsa, tamah onu zəlil edər, qəzəbləndikcə hirsi şiddətlənər, qorxu girərsə qaçar, zənginlikdən azar, yoxluqdan itər. O halda hər qusur onun üçün zərərlidir» (Həzrət Əli).*

---

1 Məhəmməd Reyşəhri. İnsan: Quran və hədisdə. Bakı, 2012 s.19

2 Первые 365 дней счастливой жизни: Коран, сунна, мудрость души. 2-е изд. испр. СПБ.: «Диля», 2010, с.87

3 Там же, с.342

Ürəyə hərdən ruh, bəzən də nəfs deyirlər. Biz ürək dedikdə, ruhun həqiqətini anlayırıq, ruh olmasa bədən murdar olar. Ruh tanrıya xas işlərdən, əmr aləmindəndir. Bilin ki, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Ruh bölünməz və ölçüyə sığmaz halda yaradılıb. Zahiri və batil qoşunların hamısı ürəyin fərmanı altındadır, o, bütün şeylərin əmri-hökmdarıdır. Bil ki, bədən sanki şəhərdir, əl-ayaq və başqa üzvlər şəhərin sənətkarlarıdır. Şəhvət, xərac, qəzəb şəhərin mühafizə dəstəsi, ürək isə hökmdarıdır. Ağıl padşahın vəziridir. Padşahın məmləkəti idarə etməsi üçün bütün bunların hamısına ehtiyac var. Ağıl – vəzir nə desə, şəhvət ona qarşı çıxır və məmləkətin xəzinəsində hər nə varsa, hamısını xərac bəhanəsi ilə almaq istəyir. Mühafizə hesab edilən qəzəb tünd, iti və kəskindir, öldürməyi, sındırmağı və töküb dağıtmağı xoşlayır. Ürək ağlın işarəsi ilə işləsə, şəhvət və qəzəbi ağlın fərmanı altında saxlasa, bədən adlı məmləkətin işi doğru gedər[1].

Qədim əfsanələrdə deyildiyi kimi nə ağıl ürəksiz yaşaya bilər, nə də ürək ağılsız. Adamlar çox vaxt bir-birini ona görə başa düşmürlər ki, bir qismi ürəyi ilə, digər qismi ağıl ilə yaşayır[2].

İntibah dövrünün görkəmli humanisti **E.Rotterdamskiyə** (1469-1536) görə insan son dərəcə bir-birindən fərqli iki hissədən ilahiyə oxşar ruhdan (qəlbdən) və dilsiz heyvana bənzər bədəndən ibarətdir. Bədənə görə biz heyvandan o yana keçə bilmirik, bəzi əlamətlərimizə görə ondan aşağıyıq. Ruha görə biz ilahiliyi qəbul etmək xüsusiyyətinə malik ol-

---

1 Əbu Hamid əl Qəzali. Kimyayi səadət, (Səadət Kimyası) İ. Nəcəfovun tərcüməsi ilə. Kompyuter yığımı, IV cilddə, c.1 B., 2013, s.83-85

2 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.29

maqla, ilahiyə birləşə bilərik. Əgər sənə bədən verilməsəydi sən ilahiləşə bilərdin, əgər sənə ruh verilməsəydi, sən heyvan ola bilərdin[1] *«Cismən sən heyvan, ruhən mələksən, ya torpağa gedirsən və ya sən göylərə qalxırsan» (Balzak).* Bunlar bir-birindən kəskin fərqlənən iki hissəni uğurla xoşbəxt ahəngdə birləşdirmişdir. Onlar bir-biri ilə ixtilafda olduğundan elə bil ki müxtəlifdirlər, lakin vəhdətdədir. Bədən ölümə məhkum olunduğundan görünən hər şeydən zövq alır, faninin izi ilə gedir və ağır olduğundan aşağı düşür. Onun əksinə olaraq, ruh özünün efir mənşəyinə görə əsarətdən qurtarmağa və yuxarıya can atır, o bilir ki, bu müvəqqətidir, odur ki, görünənlərə həqarətlə baxır və o həqiqəti və əbədiliyi axtarır. Ruh çətinlik keçmədən bədənə hökmranlıq edir və bədən isə çox məmnun halda ruha xidmət edir; əksinə, bəzi halda adi qaydaları pozaraq bədən ehtirası ağıl üzərində hökmranlıq etməyə can atır.

Qəzalinin təlimində qəlb mövzusu özəl yer tutur. Onun nəzərincə, insanın başqa varlıq nümunələrindən üstünlüyü onda olan mərifət istedadı ilə bəlli olur və bu ilahi mərifət isə yalnız qəlb vasitəsi ilə mümkündür. Ona görə qəlbi tanımaq və onun özəlliklərini və sifətlərini bilmək əsl din deməkdir. Qəzalinin nəzərincə qəlb ali ruhani həyatın məcmusundan ibarətdir, hiss və nəfs ona tabedir, ağıl isə onun bir hissəsidir. *«Qəlbinin güzgü kimi saf və təmiz olmasını istəyirsənsə, qəlbindən on ünsürü – acgözlüyü, ikiüzlülüyü, paxıllığı, söyüşkənliyi, qəzəbi, təkəbbürü, qanunsuzluğu, riyakarlığı, kini və yalanı çıxarıb at»* (Ömər Osmanoğlu). Qəlb ən yüksək dərəcədə peyğəmbərlərə məxsusdur, o kəsb etmə yolu ilə deyil, ilham və vəhy yolu ilə haqqın mərifətinə yetişir. Qəzaliyə görə, qəlb bir ayna kimidir və mərifət baxımından bu bənzərlik doğ-

---

1 Мир философии, часть II. М.: Полит. лит., 1991, с.12

rudur. Ayna hər hansı bir şeyin surətini əks etdirir, qəlb isə həqiqətləri əks etdirir. Aynanın bir şeyi düzgün əks etdirməsi üçün birinci, onun özü saf və cilalanmış olmalıdır. İkincisi isə, aynanın üstündəki pas və toz silinməlidir. Başqa yandan, ayna onu əks etdirən şeylə üzbəüz tutulmasa, yenə də onun təsviri tam düşməz.

Bütün bu şərtlər Qəzaliyə görə qəlb üçün də yetərlidir. Qəlb kamil və pak uşaq qəlbi kimi saf olmasa, həqiqətlərin təsviri orada açılmaz[1]. Rotterdamskiyə görə insanda hökm etmək vəzifəsini ağıl həyata keçirir. İlahiləşmiş ruh, yəni ağıl bizim dövlətin qalası kimi başda yer alır, aydındır ki, bu bədənin ən yuxarı hissəsidir. O səmaya yaxındır, incə sümüklərdən ibarət olmaqda zərifdir. Damarlarla, ehtirasla sıxıntıya salınmır, duyğu ilə daxildən və xaricdən çox yaxşı möhkəmlənib. Bir müjdəçi kimi onlara görə dövlətdə onun dərhal bilmədiyi heç bir qiyam baş verməz. Ölməyə məhkum ruhun hissəsi – bu insan üçün ölümcül və yaxud təngə gətirən hərislik və ehtirasdır və ruh ondan ayrılmışdır. Çünki boynunun arxası və diafraqma (qarın boşluğu ilə döş boşluğunu ayıran əzələ) arasında qəhrəmanlığa və qəzəbə aid olan ruhun hissəsi – ehtiras yerləşdirib. Əlbəttə qiyamların qarşısını almaq lazımdır, lakin onlar həddən artıq kobud deyil, odur ki onlara yuxarıdan və aşağıdan müəyyən ara qoyulmuşdur. Nəzərə alınmışdır ki, onların sıx əlaqəsi və yaxınlığı hökmdarın asudə vaxtına xələl gətirər. Digər tərəfdən ehtirasın yeməyə və içməyə həvəs göstərməsi onu hökmdarın iqamətgahından aralı ürək qulaqcığı altında ciyərə və bağırsaqlara göndərir. *«Mədənin hakimiyyəti olmasaydı heç bir quş ovçunun tələsinə düşməzdi, ovçunun özü isə tələ qoymazdı»* (Sədi Şirazi);

---

1 Əbu Hamid əl Qəzali. Kimyayi səadət, (Səadət Kimyası) İ.Nəcəfovun tərcüməsi ilə. Kompyuter yığımı, IV cilddə, c.1. B., 2013, s.83-85

*«Ehtiraslarını cilovlamağı bacaran adam şəhərləri fəth edən sərkərdədən güclüdür»* (Ernest Heminquey).

Rotterdamskiyə görə ilahiləşmiş müşavir – ruh yuxarı qalada yerləşməklə, öz əslini yada salır və natəmiz işlərlə və dəyişilməz şey haqqında fikirləşmir. Onun səltənəti ədalətlə idarə olunan fil sümüyündəndir[1]. *«Ruhun dayaqıqlığı ağılın və qəlbin tarazlığında mümkündür»* (Abu Turxan).

Beləliklə, *«ruhun həyatı bədənin həyatından yüksəkdir və ondan asılı deyil. Çox halda isti bədəndə özünü bitirmiş ruh olur və kök bədəndə ruh nazik və zəif olur. Deməli bizim üçün dünyanın bütün var-dövləti ruhumuzdadır» (Q.Tora). İnsanı bədən yox, ruh insan edir. Bədən güclü məşğuliyyət və həddən artıq yorğunluqda aşağı düşür; ruh təlim nəticəsində daha fəaliyyətli və hərəkətli olur, Əgər biz ruhən sağlam deyiliksə, biz heç zaman emosional, əqli və psixoloji sağlamlıq əldə edə bilmərik»[2]. «Ruhu müalicə etmədən, bədəni müalicə etmək olmaz» (Sokrat); «Güclü ruh zəifləmiş bədəni xilas edir» (Hippokrat); «Həqiqətin sirrini görmək üçün ruhun aynası təmiz olmalıdır» (Mövlana); «Keçmiş insan ruhunun vətənidir. Ona göprə tez-tez nə vaxtsa keçirdiyimiz hisslərin, hətta nə vaxtsa duyduğumuz qəm-kədərin həsrətini çəkirik» (Henrix Heyne); «İztirab çəkməmiş bir ruh səadətindən nə anlaya bilər» (Jorj Sand); «Ruh üçün sağlam bədən mehmanxana, xəstə bədən isə türmədir» (Bekon); «Düşünən şəxslər qocalanda da gənclik ruhunu saxlayırlar». Məsələ yaşda deyil (A.Mirzəcanzadə). Obrazla desək, insan həm mərkəzəqaçma qüvvəsi, həm də*

---

1 Мир Философии. Часть II, М.: Полит. лит., 1991, с.12-13

2 Первые 365 дней счастливой жизни: Коран, сунна, мудрость души. 2-е изд. испр. СПБ: «Диля» 2010.

*mərkəzdənqaçma qüvvəsi qaydası ilə yaşamalıdır*[1]. *«Bədəni öldürənlərdən çox ruhu öldürəndən qorxun» (Platon); Makedoniyalı İsgəndərdən soruşdular: - Qərbdən Şərqə qədər uzanan bu ölkələri neçə tutdun? Halbuki keçmiş hökmdarın ömrü, xəzinəsi, mal-dövləti səndən artıq olmuş, lakin sənin qədər fəthlər edə bilməmişlər. İsgəndər dedi: - Səbəb budur ki, hər bir ölkəni açdıqda camaatı incitmədim, şahlara hörmət edib, adlarını çəkdim.*

Ruhun insan fəaliyyətində rolunu müdriklərin, filosofların kəlamlarında da görmək olar. Aleksandr Makedonskiyə sual verəndə ki, sən niyə Aristotelə atan Filipdən çox hörmət edirsən. O cavab verib: *atam – mənim bədənimi tərbiyə etdi, məni göydən yerə endirdi. Aristotel mənim ruhumu tərbiyə etdi, məni yerdən göyə qaldırdı*[2]. *«Ruh bədəndən üstün olduğu kimi, müəllim də atadan üstündür. Çünki ata bədəni, müəllim isə ruhu inkişaf etdirir. Şəxsiyyəti valideyn, ruhu isə müəllim tərbiyə edir» (Miqel de Servantes); «Ağıl ruhun hissəsidir» (Qəzali); «Ağıl – bu bütün şeylərin sahibi və hökmdarıdır» (Siseron); «Əgər sən istəyirsən ki, hamı sənə tabe olsun, onda özünü ağlına tabe et» (Seneka); «Ağıl bədənin sahibi olub əmələ nəzarət edir və ürəyə tabedir. Ağıl üçün qida təlimdir»*[3] . *«Ağıllı adamın işi ondadır ki, o, öz fikirlərini təbiət qanunlarına uyğun işə qoyur... həqiqəti gözləyir, yanlışlıqdan uzaq olur, məlum olmayanı mühakimə etmir» (Epiktet). «Nə vaxt ki, tale istəyir insanı məhv etsin, onda onun ağlını alır» (Publilis Cup).*

---

1 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.44

2 Таранов П. Философия сорока пяти поколений. М.: АСТ, 1999, с153

3 Первые 365 дней счастливой жизни: Коран, сунна, мудрость души. 2-е изд. испр. СПБ: «Диля» 2010, день 18

*«İnsana arxadır onun kamalı,*
*Ağıldır hər kəsin qüvvəsi, malı».*

***(Nizami Gəncəvi)***

*«İyirmi yaşında insan üzərində arzu, otuz yaşında – ağıl, qırx yaşında – düşüncə durur» (Franklin); «Harda ağıl işləyir, orda ürək istirahət edir» (Buffler); «Ağıl ürəyin kölgəsidir» (E.Miyanesi); «Ruha tabe olan ağıl ilahiləşməkdir, ona tabe olmamaq iblislikdir» (M.İkbal); «Ağıl yox, ürək fikir yaradır» (Monteskye); «Bütün bədənə aid olanlar axına, bütün ruha aid olanlar yuxuya və tüstüyə oxşayır» (Mark Avreliy); «Ağılsız şərəf və var-dövlət möhkəm olmayan mülkiyyətdir», «İnsanın cismani gözəlliyində əgər ağıl gizlənmirsə, o heyvana bənzəyir» (Demokrit); «İdarəetməni yalnız ağılın köməyi ilə aparmaq lazımdır» (Samfer). «Ağıllı bədbəxtlik, ağılsız xoşbəxtlikdən yaxşıdır» (Epiktet); «Təbiət hər bir səhifəsi dərin məzmuna malik yeganə kitabdır» (Epikür); «Ağıllı, əxlaqlı və ədalətli yaşamaqdan xoş yaşamaq olmaz və əksinə, xoş yaşamaqdan ağıllı, əxlaqlı və ədalətli yaşamaq mümkün deyil» (Epikür); «Ağıllı xoş şey üçün yox, xoş olmayandan qurtulmaq üçün hərəkət edir» (Aristotel); «İnsanın ağlı özündə başqa qabiliyyətləri birləşdirir, hamısından çətin və hamısından sonra inkişaf edir» (J.J.Russo); «Hər şeyi təqdir elə, qoy sənin üçün birinci yerdə ağıl dursun; ona imkan ver ki, sənə rəhbərlik etsin» (Pifaqor); «Nə qədər az yesəniz, o qədər çox yaşayarsız. Yadda saxlayın ki mədənin üçdə birini yemək, üçdə birini su ilə doldurun və birini boş saxlayın»[1]. «Bilik heç vaxt ağılın yerini vermir» (Pifaqor); «Ağılsızın ağıllıdan bir üstünlüyü var: o həmişə özündən razıdır» (Napoleon); «Xəyal ağlın ayaqlarıdır» (Lao Tszi-En); «Sən üç yolla ağıllı ola*

---

[1] Первые 365 дней счастливой жизна: Коран, сунна, мудрость души. 2-е изд, испр. СПБ «Диля» 2010, день 156

*bilərsən: 1) təcrübə yolu ilə; bu, ən ağır yoldur, 2) tənqid yolu ilə; bu, ən asan yoldur, 3) düşüncə yolu ilə; bu, ən nəcib yoldur», «İnsanın xoşbəxtlik və bədbəxtlik açarı, kamillik və naqislik sükanı onun ağılı və iradəsinin ixtiyarına verilmişdi» (Nəsirəddin Tusi); «Sizin ağıl və ehtirasınız-qəlb dənizində üzən qəlbin sükanı və yelkənidir. Əgər sizin yelkən cırılsa və ya sükan sınsa, siz yalnız dalğalar üzərində və ya axın üzrə aparılacaqsız və ya açıq dənizdə hərəkətsiz duracaqsız» (D.Djebron); «Ağıllı insanlar cəmiyyətin qan damarıdır» (Daniel Defo); «Gördüyün işi əvvəlcə ağıl tərəzisi ilə ölç» (Qərtan Təbrizi); «Bütün nemətlərin başlanğıcı və sonu ağıldır» (Epikür); «Dəmir işlənməsə paslanar, su qaldıqca iylənər, insan ağlı işləmədikcə kütləşər» (Leonardo da Vinçi), «Sizə ağlınız hakim edirsə – padşahsınız, vücudunuz hökm edirsə – kölə» (Mark Parsi Katon).*

Bütün qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, ruhla bədən bir-biri ilə o qədər sıx bağlıdır ki, bədənin sağlamlığı ruhun, ruhun sağlamlığı bədənin dayanıqlığını saxlayır və insan qoyduğu məqsədlərə təmkinlə və ağılla nail olur. *«Bədən nə qədər zəif olarsa, o daha çox ağalıq edir, nə qədər sağlamdırsa, o qədər itaət edir»* (J.J.Russo). Ruhun sağlamlığı üçün bütün bədənin, xüsusilə əsəb sistemi və mədənin sağlamlığı lazımdır, əsəb dərk etməni asan və yaxşı qəbul etməli, bu təsəvvürdə baş verənləri tez və düzgün ruha ötürməlidir. Ruhun möhkəmliyinin və gücünün inkişafına kömək edən bədənin möhkəm və sağlam olmasının vacibliyinə baxmayaraq, insan həyatında aparıcı və əsas rolu ruh oynayır. **Epikurun** fikrincə, *«xoşbəxt həyatın məqsədi sağlam bədən və coşğun ruhdadır, buna isə, bədənin iztirabları ruhun səksəkəliyini aradan qaldırmaqla nail olmaq olar»*[1]. Qədim

---

1 Гримак Р. Резерв человеческой психики. М.: Политиздат, 1989, с.84

dövrdən başlayaraq insanı dövlətlə müqayisə ediblər: Platon insanı *«mikrodünya»*, dövləti isə *«makrodünya»* adlandırmış, yəni insanı *kiçik ölçüdə dövlət,* dövləti isə *böyük ölçüdə insan* adlandırmışdır. Şərq filosofları insanı mikrokosmos, təbiəti makrokosmos kimi əlaqələndirirlər, insanın dörd ünsürlə müqayisə edirlər: *torpağı sümüyə və ətə, suyu fleqmaya, odu – qana, qəlbi efirə bənzədirlər*[1].

Əl-Fərabi cəmiyyətə insan orqanizmi kimi baxmış, *fərizətli şəhəri canlı məxluqa saxlamaq üçün orqanlarının bir birinə kömək edən sağlam bədənə oxşatmışdır;* T.Hobbs dövləti ölçüsünə və gücünə görə fərqlənən süni insan kimi təsvir edir: *o insanı prujin və çarxların köməyi ilə işləyən saat mexanizminə oxşadır. Ürəyi purjinə, əsəbləri əlaqələndirici saplara, bədənin bütün üzvlərinin hərəkətini əlaqələndirən oynaqları-çarxlara oxşadır. Analoji hal dövlətə də xasdır. Dövlət hakimiyyəti – süni ruh, vəzifəli şəxslər – süni oynaqlar, mükafatlandırma və cəza – əsəblər, firavanlıq və bolluq – güc, dövlət müşavirləri – hafizə, ədalət və qanunlar – süni ağıl və iradə, vətəndaş həmrəyliyi – sağlamlıq, ixtişaş – xəstəlik, vətəndaş müharibələri – ölümdür; J.J.Russo siyasi orqanizmə insan orqanizminə oxşar canlı orqanizm kimi baxır: ali hakimmiyyət – onun başı, qanunlar və adətlər – onun beyni, əsəbləri və düşüncəsi – məhkəmə və magistrat orqanları, iradə və hissləri – ticarət, sənaye və kənd təssərüfatı – ağzı və mədəsi, maliyyə – qanı, iqtisadiyyat – ürəyi, vətəndaşlar – bədənin üzvləridir.*

Fransız mütəfəkkiri J.Dementi insanı mexaniki qurulmuş maşına bənzədir.

1 Ибн аль-Мукаффа. Калила и Димна 1989, М.: Худож.лит., 1986,с.8

## 2. Şəxsiyyət kateqoriyası

• *Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər kəs özü seçir.*

***Heydər Əliyev***

• *İnsanın sərvəti öz şəxsiyyəti olmalıdır.*

***Atatürk***

• *İdeal Şərq – insanın kamilləşməsi, İdeal Qərb – cəmiyyətin kamilləşməsidir.*

***Əbu-Turxan***

**Şəxsiyyət** sözü latınca persona sözünün tərcüməsidir. Bu səhnədə insanın geyimi və ya xarici görünüşü, bəzən isə bu geyimdə sifəti gizlətmək üçün, məsələn maskanı ifadə edir. Şəxsiyyətə başqasının sözlərini və hərəkətlərini özününkü kimi və ya bu sözlər və ya hərəkətləri həqiqət və ya fiksiya (uydurma) kimi başqa insanın sözləri və ya hərəkətlərini təsvir edən kimi baxılır[1]. Əgər insanın sözü və hərəkətinə onun özününkü kimi baxılırsa, onda bu insan *təbii şəxsiyyət* kimi görünür. Əgər bu insanın sözələri və hərəkətləri başqasına məxsusdursa, bu şəxsiyyət *uydurma* və ya *süni şəxsiyyət* adlanır.

**Siseron** belə deyirdi: *Mən üç şəxsiyyəti – özümün həqiqi şəxsiyyətini, öz rəqibimin və hakimin şəxsiyyətini daşıyıram*[2].

Cəmiyyətdə insan fərd, şəxsiyyət statusu alır. İnsana nisbətən şəxsiyyət daha dar anlayışdır. İnsan bioloji xüsusiyyət yaratmasına baxmayaraq, onun inkişafının müəyyənedici amili təbiət yox, şəxsiyyəti yaradan sosial əhəmiyyətli key-

1 Коркунов Н.И. История философии и права. С.-Петербург, 1908, с.132

2 Томас Гоббс. Левиофон или материя, форма и власть государства церковного и гражданского. М., 1936, с.139

fiyyətlər tutur. Şəxsiyyətə yalnız ictimai və sosial məxluq kimi baxılır. Şəxsiyyət insanın ictimai tarixi və ontogenetik inkişafının nisbətən sonrakı məhsuludur. İnsanın bədən orqanları insanın həyat fəaliyyətinin orqanlarına çevrildiyi anda, insan – funksional orqanların məcmusu kimi şəxsiyyətin özü yaranır. Bu mənada şəxsiyyətin yaranma prosesi sosial gerçəkliyin gücü ilə bioloji materialın dəyişməsi prosesi kimi çıxış edir[1].

İnsan təbii varlıq kimi bu və ya başqa fiziki konstruksiyası, əsəb sistemi, temperamenti və bioloji təlabata uyğun dinamik gücə malik fərddir. İnsan şəxsiyyəti fərdlərin iştirak etdiyi ictimai münasibətlərdən yaranır. Burada transformasiya olunan şərait və onun fərd kimi bəzi xüsusiyyətləri dəyişilir və şəxsiyyətin formalaşmasında səbəb yox, nəticəni təşkil edir.

Hər bir şəxsin həyatının daha məqsədəyönlü, daha təsirli edən müəyyən bir «həyat sistemi» – həyat tərzi olmalıdır. Şübhəsiz ki, insanın şəxsiyyətindən, qarşısında duran həll edilməli məsələlərin təbiətindən asılı olaraq bu sistemlər cürbəcür ola bilər. Başqa sözlə həyat tərzini səciyyələndirən sistem, şəxsiyyətin tipini səciyyələndirən sistemdən, həlli şəxsiyyət qarşısında dayanan məsələlər sistemindən asılıdır[2].

Professor B.A.Petrov tələbələr qarşısındakı mühazirələrindən birində iş və həyat tərzini belə ifadə etmişdir:

1. Həkim məqsədə çatmaq üçün möhkəm iradəli olmalıdır. Ən başlıcası – istəkdir və arzuya çatmaq, inadla çalışmaq

---

1 Психология личности. Тексты под ред. Ю.Б.Гинненрейтер. Изд-во Московского Университета. 1982, с.15

2 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s. 45

lazımdır; cərrah, yaxud can həkimi olmaq – məsələnin yalnız yarısıdır.

2. Şəxsi təkmilləşmə! Həmişə irəli can atmaq! Nail olduğunla heç vaxt kifayətlənməmək! Bununla da ömrünüzün axırında deyəcəksiniz: həyatım boş keçməyib!

3. Sizi həm sevinc, həm məyusluq gözləyir, həm nifrət, həm də minnətdarlıq. Sizi soyuqqanlıq və cəsarət gözləyir.

4. Təkcə bilməyi yox, bacarmağı da öyrənin. Unutmayın ki, bacarıqlılar bildiklərindən qat-qat daha çox iş görə bilir. Bunu da unutmayın ki, elmsiz və təlimsiz, təkcə əməli fəaliyyət, kor-koranə təcrübəyə gətirib çıxarır.

5. Həqiqəti sevin, düz olmağa çalışın. Doğruluq həyatda olduğu kimi təbabətdə də, cərrahiyyədə də vardır. Həqiqəti söyləmək üçün irəliyə can atın!

6. Həmişə qəlbən cavan olmağa çalışın!

7. Ümummi mənafeyini şəxsi mənafedən yüksək tutun![1].

Şəxsiyyət fərd olaraq, insan münasibətlərində həyata keçirilən proseslərin inteqrasiyasının məhsulu olub sosial funksiyaları mənimsəmə prosesində fərdin inkişafında yaranır. Şəxsiyyət dayanıqlı sosial əhəmiyyətli əlamətlərin sistemi, fəaliyyətin və ünsiyyətin fəal predmeti vasitəsilə sosial münasibətlər sisteminə daxil olan ictimai inkişaf mərhələsi kimi fərdi xarakterizə edilir[2]. Sosiologiyada şəxsiyyət anlayışı fərdin sosial keyfiyyətlərinin məcmusunu ifadə edir. Bu keyfiyyətlər nisbi, şərti olaraq obyektiv və subyektiv keyfiyyətlərə bölünür. Şəxsiyyətin harmonik inkişafı üç əsas cəhə-

---

1 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.16-17

2 Кант И. Трактаты и письма. М., 1974, с.144

ti: mənəvi, əxlaqi və fiziki inkişafı özündə birləşdirir[1].

Şəxsiyyət sözü yalnız insana münasibətdə işlənilir, həm də onun inkişafının bəzi mərhələsində başlanır. əl-Fərabi yazır ki, biz «heyvan şəxsiyyəti» və ya yeni doğulmuşun şəxsiyyəti demirik. Şəxsiyyətin, həm də fərd anlayışı həyat subyektinin bütövlüyünü ifadə edir. Şəxsiyyət genotipə şərtlənmiş bütövlük deyil: şəxsiyyət doğulmur, şəxsiyyət inkişaf prosesində yaranır.

Şəxsiyyət həm də fərd subyektinin münasibətlərinin həyata keçirilməsi prosesinin inteqrasiyasının, insanın ictimai tarixi və ontogenetik inkişafının sonrakı məhsuludur. İnsan təbiətin məxluqu kimi bu və ya başqa ontogenetik inkişaf gedişində dəyişilən fiziki konstruksiyaya, əsəb sistemi tipinə, temperamentə, bioloji təlabatların dinamik gücünə, effektivliyə və çoxlu başqa əlamətlərə malikdir[2].

Şəxsiyyət insanlarla qarşılıqlı fəaliyyətdə formalaşır, öz təlabatını təmin etməklə yanaşı, öz davranışını tənzimləyir. Şəxsiyyətin formalaşması fasiləsiz proses olub, bir birini əvəz edən ardıcıl mərhələlərdən ibarətdir. Onun keyfiyyət xüsusiyyətləri konkret şəraitdən asılıdır. İnsanın şəxsiyyət kimi formalaşmasında təbii və süni amillər böyük rol oynayır. İnsanların münasibətində, onların istifadə etdiyi qida məhsullarınnın tərkibində qeyri-təbii, yəni sünilik ön mövqeyə keçir. Əgər əvəllər insan münasibətlər, onların danışıqları və istifadə etdikləri qida məhsulları əksəriyyətcə təbii idisə hal-hazırda onlarda qeyri-təbiilik üstünlük təşkil edir. İnsanların həyat tərzində yalan ön plana keçir, geni dəyişilmiş və

---

1 Ахмедов Дж.Г., Рагимов Ф.Н. Личность и труд. Б.: Азернешр, 1981, с.8

2 Леонтьев А.Н. Деятельность, сознание, личность. Изд. второе. М.: Политическая литература, 1977, с.177

insan sağlamlığına zərərli maddələrin həddən artıq istifadə edildiyi ərzaq məhsullarının həcmi artır.

Hər bir insan şəxsiyyət kimi müəyyən sosial tipə aid edilir: müsbət və mənfi, tərəqqipərvər və mühafizəkar, inkişaf etmiş və inkişaf etməmiş, harmonik və birtərəfli. Bu gün cəmiyyətdə kəskin fərqlənən iki ziddiyyətli şəxsiyyət tipi ilə rastlaşırıq: bir qismi nəcib, digəri rəzil. Bir qismi qürurlu, özünə hörmət edən, öz yerini bilən, digəri riyakar, başqalarına qulluq göstərməklə yaşayan, özündən yuxarıya yaltaqlanan, aşağını əzən; bir qisminin xarici məni cazibədar olmayan, daxili məni isə xeyirxah, cəzb edici olan, digəri xarici məni, yəni formaca cazibədar, daxili məni isə iblis olan, bir qismi bilikli, həqiqi alim, digəri alim diplomu alıb elmdən uzaq olan; bir qrup ədalətli və doğruluğu sevən, digəri ədalətsiz və nəfəsi yalanla gedib-gələn; bir qismi ona məxsus statusların hamısına riayət edən, digəri statuslarda vəzifə statusunu irəli verib qalan statusları unudan, digərləri vətəndaş statusundan tutmuş bütün statuslarına əməl edən, bir qismi var-dövlətlə yox, mənəviyyatca zəngin, digəri mənəviyyatdan uzaq, cibi dolu, qəlbi boşdur;

Hz. Məhəmməd Peyğəmbər (s) demişdir: *insanların bir qismi ya biliklidir, ya da bilik əldə etməyə çalışırlar, bir qismi isə biliksizdir və bilik əldə etməyə çalışmır, belə adamlardan xeyir gözləmə; İnsana ağıl və şüur, əxlaq və iradə, seçmək və bəyənmək gücü verilmişdir. İnsan bəzən heyvan kimi nəfsi qüvvələrin təsiri altında olur.*

Amerika idealist filosofu və psixoloqu **U. Djems** (1842-1910) 1902-ci ildə yazdığı **«Şəxsiyyət»** əsərində şəxsiyyətin tərkib elementlərini üç qrupa: *fiziki, sosial və mənəvi şəxsiyyətlərə bölür.* U. Djems yazır ki, ... mənim özümün dərkim tam olaraq ikidir – bir hissəsi dərk olunan və bir hissəsi dərk

edən, bir hissəsi obyekt və bir hissəsi subyektdir. Bu iki tərəfi fərqləndirmək lazımdır. Onlardan biri «Şəxsiyyət», digəri «Məndir». Onun fikrincə ən geniş mənada insanın şəxsiyyəti onun mənim adlandırdığı: fiziki və mənəvi keyfiyyətlərlə yanaşı, paltarı, evi, həyat yoldaşı, uşaqları, dostları, onun şöhrəti, əməyi, adı, onun atı, yaxtası və kapitalı təşkil edir. Bizim hər birimizin bədən quruluşu *fiziki şəxsiyyət;* başqa insanlar tərəfindən etiraf olunması *sosial şəxsiyyət;* konkret götürülmüş mənəvi qabiliyyət və xüsusiyyətlər, təfəkkürün ayrı-ayrı vəziyyətlərinin tam birləşməsi *mənəvi şəxsiyyət* hesab olunur[1] .

Şəxsiyyətin təsnifatı məsələsi sistem halında həll edilməlidir. Özü də şəxsiyyəti səciyyələndirən sistemlərin sabit birləşmələrinin müəyyən edilməsi və bütün bunlara bir toplu, bir sistem kimi baxılması əsasında. Bu vaxta qədər belə bir təsnifat olmamışdır. Buna görə də şəxsiyyət tipini nəzərə almayan, insana «ümumiyyətlə insan» kimi baxmaq sayəsində verilən məsləhətlər heç də həmişə səmərəli olmur. Onlar adama elə bir şey sırıya bilərlər ki, bu, yalnız başqasına, məsələn, məsləhətçinin özünə xeyir verə bilər. Şəxsiyyətə xassələrinin mürəkkəblik dərəcəsi ilə fərqlənən sistem kimi baxmaq olar. Cürbəcür adamlar vardır: əhatə olunduqları ictimai və təbii mühitin müxtəlif təsirlərinə eyni hərəkət, eyni əksul-əməllə cavab verən «sadə» şəxsiyyətlər, cavab hərəkətləri, əksul-əməli rəngarəng olan daha mürəkkəb şəxsiyyətlər[2].

K.Leonqord şəxsiyyət tipologiyasının quruluş yollarını

---

1 Психология личности. Тексты под ред. Ю.Б.Гинненрейтер. Изд-во Московского Университета. 1982, с.61

2 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.6

təklif edir.

Şəxsiyyətin təmiz şəkildə əsas tipləri ayrılır, yəni özlüyündə əsas fonların qamması yaradılır. Sonra isə yarım tonlar, mümkün səslənmə modulyasiyası tədqiq olunur.

Temperamentin müxtəlifliyinin tədqiqi, həmçinin dünya bədii ədəbiyyatında şəxsiyyət surətinin öyrənilməsi təklif olunur. Şəxsiyyət tipologiyasının prolemi şəxsiyyəti xarakterizə edən sistemli ölkələrin əhəmiyyətinin dayanıqlı ahəngindən müəyyən edilməsi əsasında, sistemli baxışın köməyi ilə həll etmək mümkündür. Heç bu günə qədər bu cür tipologiya yoxdur. Sistem keyfiyyətində şəxsiyyət mürəkkəblik dərəcəsinə görə xarakterizə oluna bilər. Şəxsiyyətləri əhatə edən ictimai və təbii mühitin müxtəlif təsirlərinə eyni cür reaksiya ilə xarakterizə olunur. Sadə şəxsiyyətlər ola bilər ki, müxtəlif cavab hərəkətləri rəngarəng olan mürəkkəb şəxsiyyətlər ola bilsin. İnsan böyüyüb inkişaf etdikcə daha çox məşq etmiş, təlim görmüş bədənə (əzələlərə, ciyərlərə, ürəyə) və əsəb sisteminə malik olmalıdır. Əsəb sisteminin məşqi, hər şeydən əvvəl, cavab hərəkətlərinin cürbəcürlüyü və mürəkkəbliyinin artmasıdır[1].

Psixoloqlar insan üçün prinsipial ümumi olan insan şəxsiyyətinin bəzi tipoloji keyfiyyətlərini müəyyən etməyə nail olmuşlar.

**Birinci tip** – ekstravertiv şəxsiyyət təsəvvürə yox, ən çox qavrama tərəfə diqqət yetirilir. Bu cür tipli insan ətraf, kənar stimulun təsirinə düşür. İnformasiya və təsəvvür almaq üçün orda olur. Bu, insanlar üçün səthi təfəkkür xarakterlidir ki, bu da onların yüngül inamlılığını müəyyən edir. Xarici qıcıqlandırıcılar birbaşa reaksiyanın nəticəsi üçün impulsivlik sayılır.

---

1 Мирзаджанзаде А.Х.О пути в XXI век. Баку, Oskar, 2001, с.11-12

**İkinci tip** – introvertiv şəxsiyyət ən çox təsəvvürləri ilə yaşayır. Bu insanlar düşünməyə meyilli olub, hərəkətə zəif hazırlıqlıdır.

Birinci tip şəxsiyyətlərdən idmançılar, kolleksionerlər, səyyahlar, həmçinin yerdəyişməyi sevənlər daxildir. İkinci tip şəxsiyyətlərə çoxu musiqi, rəssamlıq sənətinə, ədəbiyyata meyil göstərirlər[1].

İnsan və şəxsiyyət haqqında XVII əsrin alman hüquqşünası **Pufendorfun** klassik təbii hüquq təlimi haqqında əsərləri o dövrün fəlsəfi sisteminə güclü təsir etmiş və XIX yüzilliyin əvvəllərinə qədər məktəblərdə dərslik kimi istifadə olunmuşdur. Onun təbii hüquq təlimi üç əsərində verilmişdir[2]. Onun fikrincə Tanrı insanlara hər bir şey istehsal etmək qabilyyəti verdiyindən, bu qaydaları öyrənmək zəruridir. İnsan təbiətini tədqiq edəndə biz görürük ki, onun bədənin mükəmməliyi ilə yanaşı, insan və başqa canlılardan fərqi ona təqdim olunan obyektlər haqqında düzgün anlayış vermək, onları bir biri ilə müqayisə etmək, məlum prinsiplərdən məlum olmayan həqiqəti tapmaq, predmetlərin nisbətini mühakimə etmək qabilyətindədir. Bundan başqa, insan təbiətin daimi dəyişilməz zəruri hərəkət qaydalarına tabe deyil: o, lazım bildiyi kimi hərəkət edərək öz fəaliyyətini istədiyi məsələyə yönəldə bilər.

Bunun üçün təbiətdən insana ağıl və iradə verilib. Onun fəaliyyətində iradə mənəvi şeylərin əsasını təşkil edir. İradə insana təbii şeylərə və fiziki hərəkətlərə, qaydalara ahəng yaradan xüsusi atribut verir. Pufendorf mənəvi şeyləri maddi kimi verir. Onun fikrincə mənəvi şeylər öz-özlüyündə

---

1 Мирзаджанзаде А.Х.О пути в XXI век. Баку, Oskar, 2001, с.12

2 Коркунов Н.И. История философии и права. С.-Петербург, 1908, с.133

mövcud deyil, yalnız təbii şeylərin anlayışıdır. Mənəvi şeylərin mənbəyində yalnız insan iradəsi yox, həm də Tanrının iradəsi durur. Tanrı istəmir ki, insanlar heyvan kimi yaşasın, öz hərəkətində heç bir qaydalara tabe olmasın, bunun üçün mənəvi şeylər müəyyən edir. Beləliklə mənəvi və həmçinin təbii şeylər öz başlanğıcını Ilahidən alır. O maddi şeyləri üç hissəyə bölür: 1) insan şəxsiyyətinin özü; 2) onun hərəkətləri; 3) təbiətin və ya insan fəaliyyətinin yaratdığı və təbiəti təkmilləşdirən şeylər[1] .

İnsanların mənəvi vəziyyətinə münasibət kimi mənəvi şəxsiyyətlər durur. Burda şəxsiyyət kimi, hər bir insana ayrılıqda və ya bir neçəsinin birləşməsi kimi baxılır. Sadə şəxsiyyət ümumi və xüsusi olur. Bir tərəfdə dövlət başçıları, magistratlar, müşavirlər, əsgərlər və b., digər tərəfdə vətəndaşlar, sakinlər, əcnəbilər, kişi, ata, arvad, uşaq durur. Eyni qaydada mürəkkəb şəxsiyyətlər ümumiyə, məsələn dövlət, senat, parlament və xüsusiyə, məsələn ailə, sex və b. bölünür. Mənəvi keyfiyyətlər formal (məsələn, titul) və ya həqiqi (hakimiyyət, hüquq və vəzifə) kimi də bölünür. Mənəvi keyfiyyətlər dəyəri olan şeylərə və ya şəxslərin – ləyaqət və ya hərəkətlərinə aiddir. Bu növün xüsusi adı yoxdur. Mənəvi şeylər müəyyən vəziyyətdə – statusda müəyyən edilir[2] .

Şəxsiyyət və cəmiyyətin qarşılıqlı münasibəti kontekstində şəxsiyyət siyasi sistemin subyekti kimi çıxış edir. Beləliklə, insanlar yalnız cəmiyyətdə, ictimai münasibətlərdə şəxsiyyət statusu alır. Şəxsiyyətlə cəmiyyətin qarşılıqlı münasibətləri dövlət-vətəndaş münasibətlərinə transformasiya olunur və dövlət cəmiyyət adından, şəxsiyyət dövlət-hüquq

---

1 Коркунов Н. И. История философии и права. С.-Петербург, 1908, с.154

2 Там же, с.155

kateqoriyası keyfiyyətində vətəndaş kimi çıxış edir.

Xarici ölkələrin Konstitusiya hüququnda Şəxsiyyətin konstitusion vəziyyətinə onun vətəndaşlıq, hüquq, azadlıq və vəzifələri, şəxsiyyətin hüquqi vəziyyətinin prinsipləri və hüquq və azadlıqlarının realizəsinin təminatı elementləri daxil edilir[1].

## 2.1. Şəxsiyyətin xarakterik xüsusiyyətləri

• *İnsan atalarından çox zəmanəsinə bənzər; hər zəmanənin öz adamları var; İnsanın təbiəti əmdiyi südlə bağlıdır.*

***Hz. Məhəmməd Peyğəmbər (s)***

• *Qabiliyyətliyə həsəd aparırlar, istedadlıya zərər vururlar, dahilərə yaltaqlıq edirlər.*

***N. Paqanini***

• *Hakimiyyətлик etməyi əvvəl öz evində öyrən.*

***Hilon***

Şəxsiyyət birini digərindən fərqləndirən keyfiyyətlərə malikdir. Onlardan avtoritet, xarakter, qabiliyyəti və iradi xüsusiyyətləri xüsusilə əhəmiyyətlidir.

Şəxsiyyətin avtoriteti onun seçdiyi rəhbərlik tiplərinə görə *demokratik, avtokratik və liberal rəhbərlik formaları ilə müəyyən edilir.*

**Demokratik rəhbərlik** formasında rəhbər demokratik prinsiplərə əməl etməklə səlahiyyətlərinin bir hissəsini özündə saxlayır, qalan hissəsini aşağıya – tabeçiliyində olanlara ötürür, onlarla həmişə təmasda olur, onların fıkir və

---

1 Конституционное право зарубежных стран. Учебник И.О.Бандаренко, Д.Е.Волкова, Д.А.Гараджаев. Харьков: Право, 2015, с.194

məlumatları, sosial tələblərini dinləyir, idarəetmədə hər bir vəzifəli şəxsin iştirakını təmin edir. Bu rəhbərlik formasında inandırma metodu əsas götürülür, kollektivdə qarşılıqlı inam və əlverişli mühit yaradılır, hər bir işçi kollektivdə öz rolunu və əhəmiyyətini hiss edir, əməyinin nəticəsinə görə obyektiv qiymətini alır. Bu tip rəhbərdə operativlik, ədalət, geniş dünyagörüşü, yüksək peşəkarlıq, səriştəlilik, kollektiv üzvləri ilə işləmək bacarığı və s. keyfiyyətlər olmalıdır.

**Avtokratik rəhbərlik** formasını seçən vəzifəli şəxs öz fəaliyyətini mərkəzləşdirilmiş vahid rəhbərlik prinsiplərinə uyğun qurur, tabeçiliyində olanlara fəallıq göstərməyə imkan vermir, onların fəaliyyət istiqamətlərini özü həll edir. Avtokrat rəhbər kollektiv üzvləri ilə əlaqəni zəif qurduğundan kollektivdə real vəziyyəti bilmir, bütün məsələləri onu əhatə edən şəxslərlə həll edir. Bu tip rəhbərlikdə, tabeçilikdə olan insanlarda stress vəziyyəti yaranır. Ədəbiyyatda stressə aşağıdakı səbəblərdən yarandığı göstərilir:

1. İşin nəticəsi üçün lazımi qədər məsul və cavabdeh olmayanda. 2. Həll edilən məsələ lazımi qədər dəqiq və aydın verilməyəndə. 3. İş ilə həddən artıq yüklənəndə. 4. Qulluqçunun gələcəyi qeyri-müəyyən olanda və rəhbərliyin işçi haqqında fikri məlum olmayanda. 5. İşçinin tapşırılmış işi görmək üçün lazımi qədər ixtisası çatmayanda[1]. Çox hallarda avtokrat rəhbərlik olan kollektivdə yaltaqlıq və ikiüzlülük adət şəkli alır, mənəviyyatlı, qabiliyyətli insanlar ətrafında qeyri-sağlam mühit yaradılaraq vəzifədən uzaqlaşdırılır. Avtokrat rəhbər öz fəaliyyətini «inandırmaq» metoduna uyğun qura bilmədiyindən, «qorxutmaq», «cəzalandırmaq» yolunu seçir.

1 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.53

**Liberal rəhbərlik** üçün anarxiya, özbaşınalıq, bir-birini eşitməmək səciyyəvidir. Rəhbərlik üçün sərtlik elementi xas deyil, işçilər arasında minimum fəallıq mövcud olur. Liberal rəhbərlik – vəzifəyə təsadüfi düşmüş, zəif xarakterli, təcrübəsiz, bacarıqsız, naşı və səriştəsiz, idarə etmək qabiliyyəti olmayan insanlara xasdır.

Şəxsiyətin xalq içərisində **avtoriteti** onun keyfıyyət göstəricisi kimi başa düşülür. Məlumdur ki, avtoritet onun daşıyıcısı olan subyektlə obyektin qarşılıqlı münasibətində yaranır. *«Rəhbərlik etmək, yəni adamları öyrətmək və tərbiyələndirmək üçün gərək mənəvi haqqın olsun»* (H.Əliyev).

**Avtoritet** *(alm. Autorität, lat. auctoritas – «hakimiyyət, təsir») – ümumi mənada:* dəyərli və dəyərə əsaslanmış, onun ilə birləşmiş hakimiyyət; *dar mənada* – əqli təsir, hörmətə təşviq edilən, üstün sahiblik və tanınmış hakimiyyət və ya görkəmli hikmət, bilik və fəziləti ilə tanınma. Malik olduğu titula, tutduğu vəzifəyə, statusa və s. əsaslanmış fərdin təsiri[1].

Avtoritet onun daşıyıcısı subyektin yüksək nailiyyətlərinin, biliyinin, bacarığının, təcrübəsinin, qabiliyyətinin, onun cəmiyyətdə xüsusi mövqeyinin, bəşəriyyət üçün əhəmiyyətinin sosial qeyri-zorakılıq əsasında həyatda, elm sahəsində obyekt tərəfindən müsbət rolunun etirafıdır.

**F.Engels** «Avtoritet» haqqında məqaləsində avtoriteti bir tərəfdən başqasına iradəsinin zorla qəbul edilməsi, digər tərəfdən, avtoritetə tabeçiliyin şərtləndirilməsi kimi görür[2].

Şəxsiyyətin (vəzifəli şəxsin) avtoriteti biri-birindən ayrılmaz iki mənbədən yaranır. Birinci, vəzifəli şəxsə başqa şəxslərə təsir imkanı və siyasi hakimiyyət verən vəzifə statusu ilə müəyyənləşdirilən *formal avtoritet* (obyektiv faktor),

1 https//ru Wikipedia. org/ wiki/ Авторитет
2 К.Маркс, Ф. Энгельс. Пол. соб. соч. Т. 18, с.133

ikinci isə ictimaiyyətlə münasibətdə şəxsi keyfiyyətləri ilə *yaradılan qeyri-formal avtoritet* (subyektiv faktor). **Formal avtoritet** vəzifə ilə müəyyən olunur. Vəzifə iyerarxiyasının yuxarı pilləsində duran şəxslərə qanunvericiliklə verilmiş böyük hüquqlar, imtiyazlar, digər üstünlüklər onların formal avtoritetinin yüksək olmasına imkan yaradır. **Qeyri-formal avtoritet** vəzifəli şəxsin başqa insanlarla münasibətində və birgə fəaliyyətdə formalaşır. **Rəhbərin real avtoriteti** – vəzifə avtoriteti ilə şəxsi avtoritetin vəhdətindən yaranır. Qulluq mövqeyi, əlbəttə, avtoritetin mənbəyidir. O, rəhbərə öz şəxsi keyfiyyətlərini göstərməyə imkan verir, lakin vəzifə avtoriteti şəxsi avtoritetin çatışmazlıqlarını uzun müddət heç cür ört-basdır edə bilmir. *Vəzifəli şəxs* işə başlayarkən onda yalnız formal avtoritet olur, sonralar o, iradəliliyi, prinsipiallığı, kollektivlə münasibətdə özünün iradi və əxlaqı keyfiyyətləri ilə, kollektiv üzvlərinin sosial-məişət qayğılarına qalmaqla, işi peşəkarlıq və səriştəliliklə yaxşı təşkil etməklə qeyri-formal avtoritet qazanır. *«İnsan avtoritetsiz mövcud ola bilməz, bununla belə avtoritet həqiqətin gətirdiyi qədər səhvlər gətirir» (İ.Hote); «Ağıl avtoritetdən yox, avtoritet ağıldan gəlir. Hər hansı avtoritet ağılla etiraf olunmursa, gücsüzdür» (B. Skott).*

Şəxsiyyətin seçdiyi rəhbərlik tipləri və avtoriteti onun xarakteri ilə sıx bağlıdır.

**Xarakter** insanın ətraf gerçəkliyə münasibətdə yaranan insan davranışının özünə məxsus adət halını almış xasiyyətidir. Xarakteri üç amil müəyyənləşdirir: irsiyyət, ictimai mühit və özünü tərbiyələndirmə. Xarakterə – bitkin şəklə düşmüş iradə kimi baxılır. *«Yapon psixoloqları qan qrupu əsasında insan xarakterin müəyyən etmişlər. 1-ci qan qrupu yaxşı dostlardır; 2-ci qan qrupu ifratçılardır, tez-tez həyəcan və*

*təşfiş keçirirlər; 3-cü qan qrupu hökmlü və yaradıcı şəxslərdir; 4-cü qan qrupu filosoflardır» (D.Karnegi). Xarakteri üç amil formalaşdırır. İrsiyyət, ictimai mühit, və özünü tərbiyə. «Hər bir insanda üç xarakter var: birinin adına xarakteri yazırlar, digəri özü özünü artırır, üçüncüsü həqiqətdə olan xarakter» (V.Hüqo). «Kimdə xarakter nizamlanıbsa, onun həyatı da gözəl qurulub» (Demokrit); «Əgər insan xarakteri şəraitlə yaradılırsa, o halda lazımdır ki, şəraiti insani etmək» (K.Marks); «Yaxşı xarakter bütün həyat üçün sərvətdir» (Qezlift); «Xarakter prinsipə uyğun hərəkət etmək qabiliyyətidir» (Kant). «Xarakteri kamil (mükəmməl) etməyə hər gün həyatda axırıncı günü keçirmək kimi baxmaq lazımdır» (M.Avreliy); «Tale xarakterdə özünü göstərir» (Akumadova Ryunaske).*

İnsan xarakterinə görə zəif, möhkəm və qətiyyətli olur.

Xarakter şəxsiyyətin başqa tərəfləri – *temperament*[1] və qabiliyyəti ilə qarşılıqlı əlaqəlidir. Qədim dövrlərdən başlayaraq temprament haqqında hamı tərəfindən qəbul edilmiş Hipokratın verdiyi təsnifat – *sanqvinik, xolerik, melanxolik və fleqmatik* temperamentlər üzrə insanları bir-birindən fərqləndirmək mümkündür.

**Sanqvinik temperamentli** insan çox hərəkətli, dinamik olur, ürəksıxıcı fıkirlərdən şən əhval-ruhiyyəyə yüngül keçid edir. O tip insanı depressiya halına salmaq çox çətindir. Müxtəlif adamlarla asanlıqla ümumi dil tapır, öz təbii gülərüzlülüyü ilə ətrafdakıların əhval-ruhiyyəsini qaldırır, təklikdən çox nadir hallarda qorxur.

**Xolerik temperamentli** insan hər şeyi sürətlə və emo-

---

1 Temperament – insanın psixoloji, proseslərinin və davranışlarından gələn dinamikanı müəyyənləşdirərək onun fərdi xüsusiyyətləridir. Психология. учеб. Под ред. проф. В. А. Крутского. М.: Просвещение, 1974, с.212.

siya ilə edir, onu ətrafdakıların heyrətinə səbəb olan və tez özündən çıxarmaq səciyyəvi haldır. O tez-tez fikrini dəyişir, növbəti dəqiqədə nə edəcəyi məlum olmur. Onun üzünə gülən hər bir insana isti münasibət göstərir.

**Melanxolik temperamentli** insan hər şeyi ürəyinə salır, hər şeydən şübhələnir, ah-vay etməyi sevir, bunu ən çox xəyalında edir; bu tip insan hər şeyi təmkinlə edir, komfortu, rahatlığı, səliqə-səhmanı, sakitliyi sevir, özündən çox razıdır, neqativ işlərə getmir. Onu tələskənliyə gətirmək mümkün deyil. *«Bütün yaxşı və görkəmli insanlar – melanxolik olurlar» (Aristotel).*

**Fleqmatik temperamentli** insan astagəl, sakit, tələsməyən, ağır xüsusiyyətlərdir. Fəaliyyətini əsaslı düşünülmüş, inadlı qurur. Bir qayda olaraq başladığı işi axıra çatdırmır. Fleqmatikdə bütün psixi proses yavaş gedir. İnsanlara münasibətdə fleqmatik həmişə düzdür, sakitdir, ünsiyyətcildir, əhvalı həmişə sabitdir. Fleqmatik temperamentli insan dözümlüdür, soyuqqanlıdır, təmkinlilikdir.

Fleqmatik temperamentli insan beş tövsiyəyə əməl edir: qarşısındakı insanı özü qədər ağıllı hesab edir; təlimata düzgün əməl edir; hər zaman gözlənilməyən bir hadisəyə hazır olur; onun fikrincə qoçaqlıq ağılı, cəsarət isə zirəkliyi əvəz edə bilməz; hər bir şeyi hiss etməyi və yadda saxlamağı bacarır.

Qədim dövrlərdən başlayaraq bütün xalqları və millətləri yetkin şəxsiyyətlərin formalaşdırılması məsələləri düşündürmüşdür. Şəxsiyyətin psixi xüsusiyyətləri onun təhsil və tərbiyəsi ilə yanaşı, sosial təcrübəsindən, onun həyat şəraitindən və fəaliyyətindən asılıdır.

**Kantın «Antropologiya»** əsərində şəxsiyyətin fərdi xüsusiyyətləri, insan xarakterinin təsviri bu gün də öz əhəmiy-

yətini itirməmişdir. O, qeyd edir ki, tərbiyə və özünütərbiyə məsələləri fonunda insanların xarakteri möhkəmlənir, öz-özünə, öz qərar və hərəkətlərinə inam keyflyyətləri oyadır, daimi təlimlə hər zaman insan cəmiyyətin xoşbəxt üzvü vəziyyətinə çata bilir.

İnsan ömrünün təxminən yarıdan çoxu təlim, tərbiyə və təhsilə gedir. Məlumdur ki, təhsillə iki əsas funksiya həyata keçirilir. Birinci halda, bilik və bacarığın ümumilikdə əldə edilməsindən və nəticədə xarakterin formalaşmasından söhbət gedirsə, ikinci halda, ayrı-ayrı şəxslərin fərdi keyfıyyətlərinin – qabiliyyət, istedad və dahilik xüsusiyyətlərinin təhsil prosesində aşkarlanmasından gedir.

**Qabiliyyət –** bəzi fəaliyyətlərin mənimsənilməsində ifadə olunan şəxsiyyətin xarakteristikasıdır. Şəxsiyyətin qabiliyyətinin inkişaf səviyyəsi və dərəcəsi istedad və dahilik anlayışında ifadə olunur.

İnsanın qabiliyyətinin və istedadının aşkar edilməsində onun uşaq yaşlarında, ilk növbədə, ailədə valideynlər və sonra isə məktəbdə müəllim əsas rol oynayır. Şagirdlərin bir qismi aristokratik ailələrə mənsubdur: onlar cəmiyyətdəki vəziyyətlərinə layiq təhsil alır, dil, musiqi, yaxşı rəftar və s. öyrənirlər. Beləliklə, validenlərin səyi nəticəsində onlar, demək olar ki, hələ dünyaya gəlməmiş modelləşmiş, necə deyərlər müəyyən qəlibə salınmışdır. Digər qismi daha sadə ailələrə mənsub olanlardır. Belə ailələrdə uşaqlar ciddi nizamdan uzaq, qadağanı az, sərbəstliyi daha çox, geniş şəraitdə və beləliklə yaradıcılıq mahiyyətini büruzə vermək və inkişaf etdirmək imkanları olmur[1]. Böyük dahi şəxsiyyətlər nailiyyətlərini müəllimlə bağlayırlar.

---

1 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.102

Ədəbiyyatda müəllimin başlıca vəzifələrinə – şagirdləri sevməli və onların şəxsiyyətinə hörmət etməli, qabiliyyətini və istedadını lazımi istiqamətə yönəltməlidir. Bunun üçün müəllimlər üçün yeddi şərt qoyulur: 1) dediyi dərsi mükəmməl bilməli; 2) fəlaliyyəti biliyinə müvafiq gəlməli; 3) təlim üçün bəxşiş gözləməməli; 4) şagirdləri ilə öz övladları kimi rəftar etməli; 5) bilik və fəaliyyətinin üstünlüyünə dərin inamı olmalı, bu inamı şagirdlərə aşılamalı və bununla da onlara xoşbəxtlik yolunu göstərməlidir; 6) şagirdlərə qarşı rəhmdil və dözümlü olmalı; 7) şagirdlərin əqli inkişafına və bilik səviyyəsinə müvaviq olaraq dərsi pillə-pillə keçməlidir[1].

Şagirdlərə isə aşağıdakı keyfiyyətlər tövsiyə olunur: 1) təbiətcə saflıq; 2) sual verməkdə cəsarətlilik, müəllimin dediklərini kor-koranə qəbul etməmək; 3) maddi və ailə çətinliklərinə laqeyd olmalı; 4) əvvəlcə biliklərin əsasını öyrənməli, sonra isə təfərrüatına dalmalı; 5) mövcud fikir ayrılıqları ilə tanış olmalı; 6) biliklərin qarşılıqlı münasibəti, xeyirxah rəftar və dolanışıq vasitələri barədə daima fikirləşməli; 7) heç bir məxfiliyə yol vermədən biliyə fədakarlıqla sadiq qalması, bu şərtlə ki, dərslərində müvəffəqiyyət qazanmayanda özünü itirməməli; 8) yaxşı müəllim tapmaq arzusu; 9) müəllimə dərin hörmət etməli[2].

*«İnsan öz qabiliyyətini yalnız işə tətbiq edəndə öyrənə bilər» (Seneka); «İmkan olmadan qabiliyyət az əhəmiyyətlidir. Qabiliyyət bizə aşırıma çatmağa, xarakter isə özünü saxlamağa kömək edir»[3].* Bildiyimiz kimi, insan hazır qabiliyyətlərlə

1 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.91-92

2 Yenə orada, s.91-92

3 Первые 365 дней счастливой жизни: Коран, сунна, мудрость души. 2-е изд, испр. СПБ «Диля» 2010, с.302

dünyaya göz açmır. O, anadan olarkən onun anatomik fizioloji xüsusiyyətləri və zəif inkişaf etmiş sinir sistemi diqqəti cəlb edir. Bu təbii imkanlar onun gələcək inkişafı üçün təməl rolunu oynayır. Hər bir insan orqanizmində çox qiymətli zəka rüşeym şəklində yaşayır. Onun içərisində, adətən, biri (bəzən ikisi, üçü) ən parlaq, ən güclü olur. Əgər insana bu ruşeymi inkişaf etdirməyə imkan verilsə özünün əsas dayaq nöqtəsini, öz yerini tapır. İnsan öz qabiliyyətini araşdırmaq üçün, öz orqanizminin «mexanikasını», istedadının, arzusunun formalaşmasında iştirak edən bütün komponentləri bilməlidir. M.Dubinin göstərir ki, *«hər bir insanın öz dahiliyi olmasına baxmayaraq, bütün həyatı boyu beyinin verə biləcəyi imkanların milyardda birindən çox istifadə etmir»*[1]. Aydındır ki, hər bir normal insanın müxtəlif keyfiyyətlərinin geniş diapozonu olur, bu keyfıyyətlər içərisində biri daha parlaq zirvə olur. İnsanlar gənc yaşlarında bu zirvəni, öz qabilıyyət və istedadının siqnallarını tutanda, faydalı olur. Bu keyfıyyətlərin aşkarlanmasında uşaqlıq yaşından aldığı təlim və tərbiyəsi əsas rol oynayır. *İstedadlı adamlarda* yüksək hafizəyə malik olmaqla məntiqi və yaradıcı təfəkkür, nitq, təhlil etmək, müşahidə qabiliyyəti və s. inkişafda olur.

**İstedad** *orijinallığı, yenilikçiliyi, yüksək təkmil və ictimai əhəmiyyətləri ilə fərqlənən fəaliyyət məhsulunun yaranmasına imkan verən qabiliyyət yığımıdır*[2].

*«Xəyal canlandırır, ağıl müqayisə edir, zövq bəyənib seçir, istedad icra edir» (Qastan Levis); «İstedad, əql və kamal iki növdür: biri fitri, yəni anadan gəlmə, digəri əməli, yəni təcrübə vasitəsilə əldə edilən. İnsanlarda olan fitri istedad, taxtadakı yanma qabiliyyətinə bənzər. Taxtaya od dəyməmiş yana bil-*

1 Пакелис В. Твои возможности человек. М.: Знание, 1984, с.21
2 Там же, с.17

*mədiyi kimi, fitri istedad, əql və kamal da təcrübə və vərdiş olmadan özünü göstərə bilmir. Alimlər demişlər ki, təcrübəni insanda əql və kamal oyadır» (Kəlilə və Dimnə). «İstedad daha asta xarakter axınında yaranır» (Hote); «İstedadın üçdə biri duyğudan, üçdə biri hafizədən ibarətdir» (Dossi); «Tam hissəyə necə aiddirsə, ağıl istedada elə aiddir» (Labruyuer); «İncəsənətin iki əjdaha təhlükə törədir: peşəkarlığı olmayan istedad və istedadı olmayan peşəkar» (Frans); «İstedad və qabiliyyəti olanlar özlərini aşağı vəziyyətdən ali dərəcəyə çatdırır, iradəsi zəif, əqli kəm olanlar isə yüksək mövqedən aşağı rütbəyə enirlər. Yüksək dərəcəyə qalxmaq cox çətin, oradan aşağı enmək isə olduqca asandır. İstedadlı və bacarıqlı adamın vəzifəsi kiçik, nüfuzu az, düşməni çox olsa da, o, əql və kamalı sayəsində özünü büruzə verər, xalq arasında özünə layiq şöhrət tapar» (Kəlilə və Dimnə); «Hünər sahibləri həmişə istedadı olmayan paxıl adamlar tərəfindən məhv edilər, alçaq və rəzil adamların nifrət və qəzəbinə səbəb olarlar. İstedadsız, paxıl, alçaq və rəzil adamlar istedadlı və alicənab adamlardan çox olduqlarına görə həmişə qalib gələrlər. Xəsis səxavətlini gördükdə, cahil alimlə bir məçlisə düşdükdə, axmaq ağıllı ilə söhbət etdikdə ürəkləri sıxılıb qanları qaralar. İstedadsız adamlar hünər sahiblərini pisləməkdə o qədər ifrata vararlar ki, onların hətta oturuş və duruşlarını belə günah paltarına geyindirər, ona xəyanət və cinayət bəzəyi vurarlar. Beləliklə səadət və xoşbəxtlik hesab edilən hünər və istedadı ədavət və bədbəxtliyə çevirərlər...» (Kəlilə və Dimnə); «İstedaddan məhrum gənc qocadır» (J.J.Russo);*

**Dahilik** isə bu və ya başqa yaradıcılıq sahələrində prinsipial dəyişikliklər həyata keçirməyə – «era yaratmağa», imkan verən istedadın yüksək pilləsidir. Ədəbiyyatda dahilik haqqında «nurlanma», səmadan (kosmosdan) gəlmə və mə-

lum olmayan səbəblərdən yaranması fikirlər vardır.

J.J.Russo öz dahiliyini və ictimai sistem haqqında bilgiləri səmadan gələn «nurlanma» ilə, *Mendeleyev* öz kimyəvi elementlərinin dövri sitemini yuxuda görmüş, kağıza köçürmüş və bir yerdə düzəliş etməklə dövriyyəyə buraxmışdır[1]. İbn Sina bəzən elmi məsələləri yuxuda görərmiş.

Dahilik haqqında bir neçə nəzəriyyə mövcuddur: *birinci, irsi nəzəriyyə; ikinci, patoloji nəzəriyyə, üçüncü, ilahidən gələn dahi nəzəriyyəsi, dördüncü, bütün insanların dahilik imkanı olması nəzəriyyəsidir*[2] *.*

Əksəriyyətin qəbul ediyi **irsi nəzəriyyədir.** Bu nəzəriyyə tərəfdarları, dahiliyin nəsildən nəslə sirli enerjinin yığılıb irs üzrə verilməsini göstərirlər. İnsanın təşəkkülündə, xasiyyətində, əqli keyfiyyətlərində irsiyyətin təsirini donmaq həqiqəti donmaq deməkdir. Müəyyən genetik əlamətlərin nəsildən-nəslə keçməsi mexanizmi şübhəsiz, müəyyən rol oynayır[3]. Bu ideyanı təsdiq edən çoxlu faktlar var. Buna nümunə kimi, Sebastyan Baxın geneoloji ağacında 56 musiqiçinin olduğu göstərilir.

Patoloji nəzəriyyə. Nadir hallarda orqanizmin lazımi tərəfə pozulması nəticəsində bu və ya başqa seçilmişlərdən yaranan dahilik başa düşülür. Bu nəzəriyyəyə görə insanlarda dahiliyin yaranmasında psixikanın pozulmasını əsas gətirirlər. Bu patoloji nəzəriyyədə beyinin normadan və fiziki parametrlərdən kənara çıxması əsas hesab edilir. «Dahi dəlilik qarışığı olmadan mövcud olmur» (Aristotel).

Hacıbəyovlar ailəsinin artıq üçüncü nəsli davam edir, özü

---

1 Пакелис В. Твои возможности человек. М.: Знание, 1984, с.20

2 Пакелис В. Твои возможности человек. М.: Знание, 1984, с.17

3 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.128

də cəmi 100 il ərzində. İnsanın təşəkkülündə, xüsusiyyətində, əqli keyfiyyətlərində, dahilik qabiliyyətində irsiyyətin təsirini danmaq həqiqəti danmaq deməkdir. Müəyyən genetik əlamətlərin nəsildən-nəslə keçməsi mexanizmi, şübhəsiz, müəyyən rol oynayır. Lakin onu kor-koranə sitayişə çevirmək heç vəchlə yaramaz.

XVIII əsrdə fransız filosofu Helvesi özünün məşhur *«Ağıl haqqında»* traktatında istedad və onun yüksək forması olan dahiliyin irsdən asılı olmadığını göstərir. Bu nəzəriyyəyə görə bütün insanlar eyni ağıla (rüşeymə) və həmçinin inkişaf üçün irsi imkanlara malik olur. Bu nəzəriyyəyə görə insan cəmiyyətdə həyat prosesində aldığı tərbiyə və təhsillə müəyyən edilən dahilik yaranır[1]. *«Hər bir uşaq müəyyən mənada dahi, hər bir dahi müəyyən mənada uşaqdır. Onların hər ikisinin doğmalığı sadəlövhlükdə və sadəlikdədir» (A.Şopenqauer).*

Dahiliyi aralarında keçid olan iki qütbə ayırmaq olar. Bir qütb nümayəndələri, ənənəyə görə «İlahidən gələn», başqa nümayəndələri «özündən gələn» dahilərə bölünürlər.

**İlahidən gələn dahilər** bir qayda olaraq uşaqlıq çağlarında öz qabiliyyəti ilə fərqlənirlər. Həyat yolunun başlanğıcında tale onlara əlverişli şərait yaradır, onların psixi həyatının əsasını təşkil edən vəzifələri və əməksevərliyi ilə kortəbii, qeyri-iradi, yaradıcılıq impulsu vəhdətdə birləşir.

**Özündən olan dahilər** yavaş, bəzən gecikməklə inkişaf edir, tale onlarla olduqca sərt davranır. *Özündən olan dahi təlimində insanlar fenomenal iş qabiliyyətini işə salmaqla biliyə və fəaliyyətə üstünlük verirlər.* Burda fantastik olaraq taleyinə və özü özünə qalib gəlir. Onların çoxu uşaqlıq və gənclik çağı azqabiliyyətli və hətta bəzən küt təssəvürü yaradır.

Dahilər haqqında klassiklərin müxtəlif aforizmləri var-

1 Пакелис В. Твои возможности человек. М.: Знание, 1984, с.16

dır. Onlar: *«Dünyada dahilərin iştirakı olmadan heç bir zaman heç bir böyük iş mümkün deyil» (Volter); «İstedad insanın hökmdarlıq etdiyi qabiliyyət, dahi insanın özü üzərində hökmranlıq edən istedadıdır» (Lauel); «Dahi heç kəsi görmür və məqsədə atəş açır və ona düşür». «Dahinin funksiyası ondadır ki, onun fikirlərini iyirmi ildən sonra ağıldan kəmlər mənimsəyir». «Dahi öyrənmək mümkün olmayanları ixtira edən istedaddır» (İ.Kant); «Dahi: sizin bilmədiyiniz, sizə aydın olmayan üsullarla problemləri həll etmək qabiliyyəti olan insandır» (F. Kerant); «İstedad işləyir, dahi yaradır» (Şumon); «Dahi bir faiz ruhlanmaq, doxsan doqquz faiz tərləmədən gəlir» (Edison); «Ağılın genişliyi, iradə gücü və qəlbin fəallığı – budur dahilik» (Didro); «Dahi mümkün olmayan çətinliyi fərqləndirməkdir». «Dahi şəxslər – öz erasını əsrini işıqlandırmaq üçün yanan meteordur» (Napoleon); «Dahi məlum istiqamətə cəmləşmiş fikirlərin səbridir (Nyuton); «Dahi görünməyəni görmək, olmayanın şəklini çəkmək qabiliyyəti, duyulmayanı hərəkətə gətirmək formasıdır» (J.Juver); «Dahi iz qoyur, istedad o izlə bildiyi kimi gedir» (Quskov); «Dahi böyük səbrin töhfəsidir» (J.Byufon); «Təbiət dahi, cəmiyyət məşğulluq – xoştəm verir» (Benald); «Milli entuziazm dahinin böyük beşiyidir» (Amvel); «Uşaqlarda təbiətin dahiliyi istirahət edir» (Köhnə hikmətli söz); «Dahi təəccüb yaradır, xarakter hörmət oyadır». «Dahi insanlar ağılla, xarakterli insanlar vicdanla hərəkət edirlər» (Şelqunov); «Alimlər yolu düz, dahi əyri yolla gedir» (U.Bleyk). «İstedad qoyulmuş məsələni başqalarından yaxşı edir, dahi – başqasının ağlına girməyən məsələləri qoyur» (A.Şopenqauer); «Nə vaxt ki səfeh vəzifə tutur, ona dahi kimi baxırlar» (K.Qalvesiy); «Böyük dahilərin bioqrafiyası başqalarından qısa olur, belə ki, onların bütün həyatı yaradıcılığa həsr olunub» (R.Emerson).*

R.Çukovskiy *«İkidən beşə qədər»* kitabında yazır: iki yaşından başlayaraq istənilən uşaq qısa müddətdə dahi linqvist (dilçi) olur. Həqiqətdə uşaq qısa müddətdə ağıllı və əməksevər olur. Hər bir uşaqda son dərəcədə güclü fantaziya olan təkrarolunmaz yaradıcılıq laboratoriyası uşaq yaradıcılığının sirrlərini gizlədir. Kifayətdir ki, uşağın çəkdiyi şəkilə baxasan və orada çoxsaylı kəşflərin olduğunu görərsən[1] .

Konfutsi uşaq psixologiyasını «müdriklik dərsliyi» hesab etmişdir: bəlkə ona görə ki, əgər həqiqətən olmuş şeylərə diqqətlə baxsaq, onlar bizim özümüzə tərəf yönəldilmiş böyüdücü şüşəyə bənzər. Uşaqlar əsərlərin «bədiiliyini» sanki hiss edirlər.

Hər bir uşaq – kiçik ev ensiklopediyasıdır – insan yanlışlıqlarının və özünütəşkilin nadir nümunəsidir; ta qədimlərdən sənətkarın səcdə etdiyi sərvətdir. İnsan təfəkkürünün çoxəsirlik sərgüzəşti uşağın hər gün etdiyi sadə səhvlərlə dolu olmuşdur. Uşağı adi müşahidə etməkdən alınacaq xeyri müəyyən etmək hələ çətindir[2].

Ədəbiyyatda uşaq hissiyyatının inkişafının 4 mərhələsi ayrılır: 1) iki yaşına qədər davam edən «sensomotor hissiyyat» mərhələsi; bu mərhələ onunla səciyyələnir ki, sadə fəza təsəvvürləri və əşyalar birbaşa görmə və ya kinestatik fəaliyyətlə müəyyən edilir; 2) uşağın 2-dən 5 yaşlarınadək dövrü ədəbiyyatdan əvvəlki düşünmə ilə səciyyələnir: o, əşyanın varvlığını başa düşür və xarici görünüşünü təsvir edə bilir, lakin zamanın təsiri ilə yaranan dəyişiklikləri, transformasiyaları anlaya bilmir; 3) 5-10 yaş arasındakı müəyyən əməliyyat mərhələsində əgər şərtlər kafi qədər əyanidirsə,

---

1 Пакелис В. Твои возможности человек. М.: Знание, 1984.с.14

2 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.86

uşaq məntiqi məsələləri düz həll edə bilir; 4) 10-15 yaşlarında formal əməliyyat dövrü adlanır və uşağın güman etdiyi, fərz etdiyi məsələlər barəsində, real hadisələr və onların nəticələri haqqında məntiqi mühakimələr yürüdür[1].

Uşağın qeyri-adiliyi ilə bağlı olmuş bir faktı göstərmək yerinə düşər. *«Böyük bir təşkilatın rəhbəri səhər piyada işə gedərkən həyətdə oynayan dörd, beş yaşlarında sarışın uşaq görür və ondan soruşur ki sən kimin balasısan? O isə cavabında sizin böyüyünüzün. Rəhbər öyrənir ki, bu uşaq onun rəhbərlik etdiyi təşkilatda işləyən şöbə müdirinin oğludur. O işə gəldikdən sonra şöbə müdirin təcilii yanına çağırıb ona uşağın söylədiklərini nəql edir və onun evdə özünü təşkilatın rəhbəri kimi qələmə verməsinə iradını bildirir. Şöbə müdiri tez evə qayıdıb oğlunu tənbeh edir və deyir: Sən bilirsən kimə nə demisən? Ertəsi gün rəhbər evdən işə gedəndə uşaq onun arxasınca düşüb bərkdən qışqıraraq, onu atasına satdığına görə «satqın» adlandırır. Rəhbər işə qayıdan kimi bu biabırçılığın qarşısını almaq üçün şöbə müdirini yanına çağıraraq oğluna çatdırmaq üçün ona bir qutu şirniyyat hədiyyə verir və xahiş edir ki, uşağa desin ki, daha onunla işi olmasın».*

Məşhur istedadların və dahilərin əksəriyyəti **güclü hafizəyə** malik olurlar. *«Hafizəsiz dahilər olmur». «Hafizə arzu etdiyimizi düşünərək müşayət etdiyimiz, danışdığımız və fikirləşdiyimiz hər şeyi saxlaya bildiyimiz kompyuterdə olan sərt disk kimidir». «Hafizə əgər o yeniləşməsə, müəyyən müddətdə üzü hamarlanaraq hərflərlə örtülmüş mis lövhə kimi olur» (C.Lokk).*

Güclü hafizəyə görə *Yuli Sezar, Makedoniyala İsgəndər* üç min nəfərdən artıq əsgərin *adlarını və sifətlərini*, Afina sərkərdəsi *Femiskol* iyirmi min nəfər Afinalının adını və

1 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.87

sifətini yaddaşında saxlarmış, *E. Ooon* iki min beş yüz kitabı əzbər bilib və hər bir hissəsini fikirləşmədən demiş, güclü hafizəyə malik olan *İbn Sina* (o kitabı oxumurdu, vərəqləyirdi, gözünü səhifədə bir qədər saxlayırdı) bir ay müddətində Buxara əmirinin kitabxanasında oxuduğu ən nadir kitablarda yazılanları yaddaşında saxlamış və klassik əsərlərinin yazılmasında istifadə etmişdir[1].

Müasir psixologiya da xarakterinə görə hafizəni üç növə: *canlı surət, emosional və məntiqi hafizəyə bölür.* Bütün bu növlərin biri digərindən azda üstünlüyü olmaqla yanaşı yaşayır, hər bir insanda bunların hamısı var və onlar qarşılıqlı əlaqəlidir. Lakin bunlardan biri üstünlük təşkil edir. Hazırda hafizə haqqında *uzun müddətli, qısa müddətli, operativ və ya aralıq hafizə* anlayışları istifadə olunur.

Şəxsiyyətin formalaşması, onun istedad və dahiliyi **iradənin** sayəsində aşkar olunur və inkişaf edir. Rus mütəfəkkiri *V. B. Belinski* hesab edir ki, istedadlı insanın əsas xüsusiyyəti bütün maneələri aradan qaldırmağı təmin edən güclü iradənin, etiqadda mətanətliyin və böyük işgüzarlıq qabiliyyətinin olmasıdır. O deyirdi ki, dahilik heç bir təsirdən əyilmədən geri çəkilməyən insanın hər şeyə qalib gələ bilən güclü iradəyə sahib olmasıdır[2].

*«Güclü iradə sahibi – niyyət aydınlığı ilə inadla ona çatmaq səyini özündə birləşdirən insandır, bu yolda qarşısına çıxan hər cür maneləri dəf etmək bacarığına malik şəxsiyyətdir. Bütün bu iradə keyfiyyətləri ya dərin gizli halda, ya cüzi dərəcədə, demək olar ki, hamıda vardır[3]. «İradəli adam» istə-*

---

1 Пакелис В. Твои возможности человек. М.: Знание, 1984, с.31

2 Там же, с.21

3 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.34

*yir, iradəsiz isə istəmək istəyir» (B.Şou).*

**İradə** – seçilmiş məqsədə gözüyumulu getmək bacarığı deyil, özü və cəmiyyət üçün əhəmiyyətli işi ağıllı və məqsədyönlü müəyyənləşdirmək bacarığı və onu yerinə yetirməyə çalışmaqla tələsmədən maneələri aradan qaldırmaq üçün optimal variantı seçmək və həyata keçirməkdir. Məlumdur ki, çətinliklər insanda onu dəf etmək qabiliyyəti yaradır. Həyat hər bir şəxs qarşısında daima bu və ya başqa sədlər çəkir, maneələr qurur. İnsan onları dəf etmək üçün bütün gücünü, bacarığını, əqli və hissi imkanlarını cəmləşdirib səfərbər edir. İnsanı fərqləndirən ən ali cəhət onun maneələri dəf etməkdə inadkarlığıdır.

Maneə nə qədər çətin və mürəkkəb olarsa insanın gizli ehtiyat qüvvəsi bir o qədər gərgin fəaliyyət göstərir. Təsadüfi deyil ki, talelərini xoş keçirənlər də iradə aparatı zəif olur. Onlar, demək olar ki, yaradıcılıq zirvəsinə yüksələ bilmirlər, onların gizli ehtiyat qüvvəsi istifadə edilməmiş qalır. O. Balzak yazır: *«İradə istedaddan da böyük iftixar predmeti ola bilər və olmalıdır. Əgər istedad təbii qabiliyyətlərin inkişafıdırsa, güclü iradə və instinktlər, meyillər üzərində dəqiqəbaşı qazanılan qələbədir. İradə olmayan yerdə qələbə də yoxdur»*[1]. *«İradə gücün alətidir» (Syuares).* Maneə və çətinlikləri aradan qaldırmaq üçün insanın fiziki, intellektual və mənəvi qüvvəsini səfərbər edən psixi gərginliyin xüsusi vəziyyəti olan iradənin gücü mühümdür. *«Hər şeydə nəyə niyyət qoyurdumsa, həmişə müvəffəqiyyət qazanmışam, ona görə ki, bunu mən istəmişəm». «Mən heç nədə tərəddüd etməmişəm, bu isə başqa insanlardan mənə üstünlük verirdi» (Napoleon); «Özünə inam müvəfəqiyyətin sirridir». «Tanrı tərəfindən verilən özünə, öz imkan və gücünə inan». «Həyatı yaxşılaşdırmaq qabiliyyəti*

1 Əli Polad. Üç min ilin hikməti. B.: Oskar, 2007, s.250

*sizdən kənarda yox, sizin daxilinizdədir»[1].*

Hər bir iradə gücü iki mərhələdən keçir. *Birinci, hazırlıq mərhələsi* – burada məqsədlər aydınlaşır, məqsədə çatmaq üçün yollar, imkanlar və vasitələr müəyyən olunur və qərar qəbul edilir. Burada görkəmli fizika alimi Uilerin məsləhəti ciddi əhəmiyyət kəsb edir. *«Cavabını bilmədiyini heç vaxt hesablamağa girişmə. Hər bir hesablamadan əvvəl təqribi götür-qoy etmək lazımdır: qərara gəlməzdən qabaq sadə fiziki anlayışlara (simmetriya, dəyişməzlik, itməzlik) əl atmalı, hər bir anlaşılmazlığa mümkün cavabları fikirləşməli[2]. «İnsanda elə daxili inam olmalıdır ki, bütün bədbinlikləri yandırıb kül edə bilsin».*

*İkinci, icra mərhələsi* – burada qəbul olunmuş qərarların icrası həyata keçirilir. İradəni həyata keçirərkən «məqsədə uyğunluq» əsas götürülməli: insanda aydın məqsədlilik, qətiyyətlilik, inadcılıq, təmkinlilik, cəsarət, hünər, intizamlılıq keyfiyyətləri olmalıdır.

**İradəli əməl –** məqsədi dərk etmək, ona nail olmağa can atmaq, dəlilləri, imkanları və onları artırıb-azaldan amilləri nəzərə almaq – bütün bunların ardıcıl toplusundan yaranır.

İnsan nə qədər ki, mübarizə edir (həqiqət yolunda, vəzifə uğrunda, ümumiyyətlə istənilən çətin, yüksək məqsədə çatmaq üçün – dissertasiya müdafiə etmək arzuladığı vəzifəni tutmaq, mükafat almaq və s.), sağ-salamatdır. Mübarizə sona çatan kimi, iradi aparatı zəifləyir və insan xəstələnir[3].

İradə problemi insanın emosional və mənəvi həyatı ilə

1 Первые 365 дней счастливой жизни: Коран, сунна, мудрость души, 2-е изд, испр. СПБ «Диля», 2010, с.89

2 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.50

3 Yenə orada, s.52

sıx bağlı olub, monoteist quruluşda birinci dərəcəli rol oynayır. Böyük xristian teoloqu və filosofu Avqustin iradənin insan şəxsiyyətinin dərketmə amillərindən daha əhəmiyyətli və əsas olduğunu göstərir. İradə ağlın ayrıca bir təzahürü kimi özünü göstərir. Ağılda yalnız parlaq ideyalar, iradədə isə bu ideyalarla yanaşı, həqiqi duyulan ideyalar əks olunur. Nəticədə iradə və ağıl eynilik təşkil edir[1]. İradə insanın özünü idarəetməsində prinsipial əhəmiyyət daşıyan iradədən kənar insan nə özünü, nə ailəsini, son nəticədə dövlət idarəetməsi mümkün deyil. İradənin hesabına insan əvvəl özünü, sonra başqalarını idarə edə bilər. Əgər iradə yoxdursa və ya zəifdirsə, əsəb sistemi bədənin üzvlərinin koordinasiya funksiyasını yerinə yetirə bilmir və nəticədə o, nə özünü, nə də onda hakimiyyət olmasına baxmayaraq, idarəetməni həyata keçirə bilməz.

O insanlarda iradə aparatı işə düşür ki, onların özlərinə inamın emosional-iradi xüsusiyyətləri var, özlərini işləməyə, öz diqqət və fikirlərini müəyyən məsələlərə mərkəzləşdirməyə məcbur edə bilirlər. Böyük şəxsiyyətlərin hamısı fikirlərini əsas məqsədə cəmləşdirmək qabiliyyətinə malik olublar. Təsadüfi deyil ki, əksər məşhur adamların həyatı öz iradələrini dönmədən, böyük mübarizələrdə, fasiləsiz maneələri dəf etməkdə keçirmişdir. Əksinə, taleləri enişsiz-yoxuşsuz olan insanlar həyatda yüksək məqsədlərinə çata bilmir və onların potensial qüvvələri istifadəsiz qalır. Odur ki, hər bir insan özünü düzgün dərk etməklə, özünə inanmaqla və ətraf mühitə düzgün münasibətdə olmaqla cəmiyyətdə öz yerini layiq seçə bilir və psixoloji komforta nail olur.

*«Bizim şəxsiyyətimiz – bir bağ, iradə isə onun bağbanı-*

1 Соколов В. З. Спиноза. М.: Мысль, 1997, с.125

*dır» (Şekspir); «Qətiyyətlik və iradə zəif ağıla güc üzərində üstünlük verir» (J. Vern); «İradə düzgün mühakimə ilə birləşən məqsəd yönlülükdür» (Aristotel); «İradəsi olmayan insan sükanı və kompası olmayan, hər dəfə külək əsərkən öz istiqamətini dəyişən gəmiyə oxşayır» (S. Smayls); «İnsanı məcbur etmək olur, yəni başqalarının hakimiyyətinə tabe etdirmək olar, azad iradəni isə öz-özlüyündə məcbur etmək olmaz» (Hegel); «Kim istəyir ki, öz iradəsini inkişaf etdirsin, maneləri yox etməyi öyrənməlidir» (İ.P.Pavlov); «Ciddi, dərin, həqiqi iradə ən əvvəl məqsədə çatmaqda inamla uyğunlaşmalıdır» (L.Höte); «İradəli və səbrli insan məğlub olmaz» (Maris Materlink); «Əgər insan Allahın iradəsinə tabedirsə, o halda o təbiətdə harmoniyada olur» (İ.Kant); «İnamı zəif olan başqalarında da inam oyada bilməz»; «Beynimizin qəbul edə bilməsi üçün əvvəlcə ürəyimizin inanması gərəkdir» (Uilyam Ceyms); «Harda nə fikirləşirsinizsə, siz nə eşidirsinizsə, nə haqda danışırsınızsa, bütün bunlar sizin inamınızın ifadəsidir». «Öz həyatınızı dəyişməmişdən əvvəl, öz inamınızı, adət etdiyiniz fikirlərin gedişini dəyişin»[1]. «Problemin həll olması və qeyri-müəyyənlik bizim inkişafı surətləndirir»[2].*

---

1 Первые 365 дней счастливой жизни: Коран, сунна, мудрость души. 2-е изд, и спр. СПБ «Диля» 2010,с.33

2 Там же, с.23

## 2.2. Şəxsiyyət ləyaqəti

*• İşlərin xeyirlisi orta səviyyədə olandır; bir şey tikəndə bünövrəsinə haram daş qoymayın, çünki o daş tikintinin dağılmasının təməlidir.*

***Hz. Məhəmməd Peyğəmbər (s)***

*• Müdrikin ləyaqəti uzaq ölkəyə səyahəti və dağın zirvəsinə qalxmağı xatırladır: uzaq xarici ölkəyə yol birinci addımdan başlayırsa, dağın zirvəsinə qalxmaq dağın ətəyindən başlayır.*

*• Ləyaqətli kişi üç şeydə özünü qorumalıdır: gənclikdə həyat gücü sönməmiş hissiyatdan, həyat gücünün möhkəmləndiyi yetkin illərində ixtilafdan, həyat gücünün zəiflədiyi vaxtında xəsislikldən qorumalıdır.*

***Konfutsi***

*• Mən güman edirəm ki, mənim hesab etdiyim ən böyük rütbələrdən şərəflisi- vicdanlı adamın adını saxlamağa məndə həmişə möhkəmlik və ləyaqətlilik çatacaqdır.*

***C.Vaşinqton***

Ağıllı insanlarda **ləyaqət** amili həmişə ön planda olmaqla onların həyat fəaliyyətində bu fenomen xüsusi əhəmiyyət daşıyır.

Sokrat bütün etik təliminin əsasını insanın fəaliyyətinin ilahi qaydalarına şüurlu tabe olmasında görürdü. Şüurlu insanlar bilikli olurlar. Odur ki, Sokrata görə ləyaqət biliklə yaranır[1].

Qəlb nərdivanında İnsan ruhunun strukturu Aristotelin «Etika» əsərində geniş təhlil edilir. Bu əsərdə insan ruhunun iki əsas hissədən: ağıl və həvəs hissindən ibarət olduğu göstərilir. Ruhun ağıl və həvəs hissinin öz qüsurlu və lə-

[1] Коркунов Н. И. История философии и права. С.-Петербург, 1908, с.16

yaqətli tərəfi vardır.

Aristotel ləyaqətin mahiyyətini açaraq iki ifrat qüsurlu tərəfin (əksikliyin) ortasını seçməkdə görürdü. Onun fikrincə *«Ləyaqəti olan adam ortanı seçəndir – bu «iki qüsurlu tərəfin ortasında olanı, yəni bir həddən artıq, və ya həddən az olmaqdır». «Heç nəyi həddən artıq etməməkdir».*

Aristotel ləyaqəti iki hissəyə ayırır. Bir hissəsi – ruhun ağıl hissəsi – *dionoetik və ya intellektual ləyaqət, digər hissəsi qəlbin effekt (həyacanlı) hissəsi – etik və ya iradlı ləyaqət və ya xarakter ləyaqəti* adlanır. Aristotelə görə ləyaqət təbiətdə verilmir, yalnız imkan dərəcəsində əldə edilir. Onun fikrincə dionoetik ləyaqəti *təhsillə,* etik ləyaqəti isə *tərbiyə* ilə əldə etmək olar. O, insan ləyaqətini bədənin yox, ruhun ləyaqəti adlandırır və xoşbəxtliyi ruhun fəaliyyəti hesab edir. İnsanın öz taleyinə və müvəffəqiyyətinə cavabdeh sayır. Ümumi istiqaməti nəzəri ağılla praktik müdriklik, mühakiməlilik və təcrübi fəaliyyətlə müəyyən edir[1].

Ləyaqətlə bağlı aşağıdakı aforizmlər vardır:

*«Bütün insanlar üçün ləyaqət – mərdlik, düşüncəlilik, müdriklik və böyüklükdür» (Platon); «Dövlətin ləyaqəti axır nəticədə onu yaradan şəxsiyyətlərin ləyaqətindən asılıdır» (Mill); «Ləyaqət sağlam ruhdur, sağlamlıq bədənin ləyaqətidir» (P. J. Prudon); «Mülayimlik həyatın zövqlülüyünü artırır» (Demokrit); «Ləyaqət daxili gözəllikdən, gözəllik isə xarici ləyaqətdən başqa bir şey deyildir» (Bekon); «Mərdlik qorxu ilə şücaət arasında olanlardır» (Aristotel); «Ləyaqət haqqında düşünmək hələ ləyaqətli olmaq deyil, fikirdə ədalətli olmaq əməldə ədalətli olmaq deyil» (Aristotel); «Həddən artıq ciddiliyin və həddən artıq möhkəmliyin hər ikisindən kənar durun».*

1 Аристотель. Политика. Сочинение в 4-х т, Т.4. М.: Мысль, 1983, с.26-73

*«Ləyaqətlilərin ən böyük igidliyi vətənə məhəbbətdən başlayır». «Kim ki, ləyaqətli adamı satır, o özü özünü satır» (J.J.Russo); «Riyakarlıq – ləyaqətin düşmənidir. Ləyaqətsizdə nə şərəf, nə də namus olur» (A.Suvarov); «Ləyaqətli insan hətta zəiflikdə və çatışmamazlıqda da güc götürə bilər» (R.Emirson); «Ləyaqətli adam qüsurlu işlərdən özünü saxlayır və ona səy göstərmir» (B.Şou). «Dostluq etmək üçün ortanı gözləyən insan tapmırsansa, hökmən ya ədalətsiz və ya ehtiyatlı adamla razılaşırsan». «Tələsən adam qabağa keçməyə cəhd göstərir, ehtiyatlılar isə heç nə etmir» (Konfutsi); «Heç kəs nə yeməkdə nə də içməkdə ölçünü keçməməlidir» (Pifaqor); «Qızıl paslanmadığı kimi, ləyaqətə də rüsvayçılıq yapışmır» (Pifaqor); «Nə vaxt ki ləyaqət itir, şöhrətpərəstlik ona uyğun olanları, xəsislik isə istisnasız olaraq hər şeyi zəbt edir» (Monteskye); «Hər şeyin, o cümlədən nifrətin də həddi var» (Napoleon); «İnsanlar hər şeyin ölçüsünü bilsinlər. Bu qayda hər kəsə aid olmalıdır» (Taleyran); «Həqiqi ləyaqət çay kimidir – dərin olduqca daha lal axır» (Manten); «Səadətli olmaq ləyaqət, səadəti dərk etmək şərəfdir» (Mariya Ebner-Eşenbax); «Rəzil və çirkin adamları heç bir bəzək gözəlləşdirə bilməz və dövlət onları dəyişdirib sədaqətli edə bilməz. Əgər zorla, süni surətdə belə bir iş etmək istəsələr, bu, itə qızıl xalta vurmağa bənzər» (Kəlilə və Dimnə). «İnsanı bütün heyvanlardan ayıran, onu dünyanın bütün sirlərinə vaqif edən dörd şeydir: hikmət, əql, təmkin və ədalət. Alimlik, savad və hər şeyi ətraflı düşünə bilmək – hikmətə; tədbir, səbr, nəzakət, mərhəmət – əqlə; həya, alicənablıq, özünü ələ almaq və özünü dərk etmək təmkinə; doğruluq, vədi yerinə yetirmək, yaxşı işlər görmək və xoşxasiyyətli olmaq – ədalətə daxildir» (Kəlilə və Dimnə);*

*İşini ölçüyə uyğun qur hər an*
*Ortadır faydalı az-çox olmaqdan;*
*Bir inci saflığı varsa da suda*
*Artıq içiləndə dərd verər su da*

**(Nizami Gəncəvi);**

Qeyd olunduğu kimi diaqnostik ləyaqət təhsil, elm və biliklə yaranır. Elm haqqında mütəfəkkir və alimlərin çoxlu hikmətli sözləri var:

*«Bütün elmlərin açarı sual işarəsindədir». «Övladım, vaxtının bir hissəsini elm öyrənməyə ayır. Çünki heç bir şey elmdən uzaqlaşmaq kimi insanın ömrünü məhv etmir» (Həzrəti Loğman); «Elm ancaq nəcib xasiyyətli insanların əlində olanda fayda verir» (Sokrat); «Elm insanın tacı, var dövlət isə boğazdan sallanmış boyunbağıdır» (Covanni Viko); «Elmin öz mənbəyi etibarlı, əbədidir; fəaliyyətində nə zamanla, nə də məkanla məhdudlaşmır: həcminə görə ölçüsüz, vəzifəsinə görə sonsuzdur» (Andre Verte); «Elm hüdudsuz bir okeandır; mən və bəzi dostlarım bu okeandan bir neçə damlanı içmək fürsətini əldən vermədik» (İsaaki Nyuton); «Elm çox vaxt biliklə qarışdırılır. Bu kobud səhvdir. Elm təkcə bilik deyil, həm də şüurdur» (Klyuçevski); «Elmin hüdudları üfüq xəttinə oxşayır: biz ona nə qədər yaxınlaşsaq, o, bizdən bir o qədər uzaqlaşır» (Pyer Buast); «Ən faydalı iş cavanlıqda elm öyrənmək və qocalıqda öyrəndiklərini saf-çürük etməkdir (Marsees Sesiro); «Qədimdə insanlar elmi kamilliyə çatmaq naminə öyrəndikləri halda, bu gün dünyanı fəth etmək naminə öyrənirlər» (Konfutsi); «Həqiqi elm nə rəqabət bilir, nə ətalət – onun yeganə məqsədi həqiqətdir» (Asturo Qraf); «Vicdansız elm ruhun çöküntüsüdür» (Fransua Rable); «Təbiət insanı zülmətlə dövrələyir və onu daimi işığa doğru getməyə məcbur edir. Bu işıq*

*isə elmdir» (Höte); «Elmli adamlarda savad olduğu kimi, saf adamlarda da vicdanlılıq qiymətlidir» (J.J.Russo); «Elm adamı üçün işin uğurlu olması üçün – 1. Elmə məhəbbət. 2. Böyük səbr. 3. Müşahidə və məlumat toplamaqda ciddi-cəhd. 4. Lazımi qədər ixtiraçılıq qabiliyyəti və sağlam mühakimə gərəkdir» (C.Darvin); «Kim siyasət və əxlaqı ayrıca öyrənmək istəyir, o nə birincidən və nə də ikincidən heç nə başa düşməyəcək»; «Elm maldan xeyirlidir. Elm səni qoruyur, malı isə sən qoruyursan. Mal xərcləndikcə azalar, eli isə xərcləndikcə artar. Malın gətirdiyi şöhrəm omun qurtarmasıyla sona çatar». «Elm iki cürdür: doğuşdan gələn və sonradan qazanılan. Doğuşdan gələn elm olmasa, sonradan qazanılan faydalı olmaz. Elm əməllə birlikdədir. O halda elmi olan əməl edər». «Ürək gözlərin kitabıdır» (Həzrət Əli); «Neçə-neçə alim var ki, cəhaləti onu öldürməkdə və daşıdığı elmdən faydalanmamaqdadır» (Həzrət Əli); «Elmsiz ürək – işıqsız göz kimidir» (M.Avxadi); «Elm təşkil olunmuş biclikdir» (O. Spenser); «Elm ideyaların dramıdır» (Eynşteyn); «Elm bütün dillərdə eynidir» (H. Cavid); «Elm dünyanın həqiqi sahibi kimi vaxtaşırı olaraq paytaxtını Şərqdən Qərbə, Qərbdən Şərqə dəyişir» (Dj Afqan); «Nəzəriyyə – bu qəlbdir, təcrübə elmin vicududur. Nəzəriyyyəsiz fikir dəryasında və faktlar meşəsində asanlıqla azmaq olar» (D.Mendeleyev).*

Bu gün elmə elmi əsərlərə laqeyd münasibət bəslənilir.

Mərhum akademik Azad Mirzəcanzadə yaşadığı müasir dövr üçün elmə baxışları belə ifadə edirdi: *«Elmi kitabxanalarda saxlanılan ədəbiyyat toplusunun yarısına əl dəyməyib, heç vaxt heç kimi maraqlandırmayıb. O birisi yarısını isə oxucu tərəfindən yalnız bir dəfə tələb olunub. Elmi kitabxanalara ayaq basmayan elmi işçilərə, aspirantlara, müəllimlərə az rast*

*gəlinmir»[1].*

Elmi inkişaf qanunun A.Mirzəcanzadə belə təhlil edir. Birinci qanunda: elmin irəliləyişi keçmiş nəsillərdən qalmış irsi biliyin miqdarı ilə düz mütənasibdir, yəni irsiyyət nə qədər çoxdursa, artım da bir o qədər çox olur. İkinci qanun kristallaşma qanunudur; bu böyük ünsürlərin ölçü, kiçik ünsürləri sayca artması yolu ilə inkişaf edən sistemlərə məxsusdur. Kollektiv böyüdükcə işin çox hissəsi nisbətən az adamla görülür. Nəticə: alimlərin ümumi sayı «görkəmli alimlərin» sayına mütənasib olmalıdır. «Görkəmli» alimlərin sayını artırmaq üçün «sadə» alimlərin sayını artırmaq yolu ilə deyil, elmin təbiətini dəyişdirmək yolu ilə getmək lazımdır. Üçüncü qanun – yeni biliyə köhnənin arası kəsilmədən və qanunauyğun genişlənməsi kimi baxan toplama qanunudur. Dördüncü qanun – surətli artımdan azalmaya keçmək – «Pryos səviyyəsinə çatmaq»... hesablamalara görə Arximed dövründən zəmanəmizə qədər əsaslı tədqiqatçılar, dəyəri təqribən 30 milyard dollardır, bu da ABŞ-ın 12 gündə buraxdığı məhsulun dəyərindən azdır[2].

Aristotel kimi *əl-Fərabi* də insan ləyaqətini şüurlu və dionoetik növlərə bölür. Birinciyə müdriklik, düşüncəlilik və ağıl kəskinliyini daxil edir. Bunlar insanlarda rüşeym halında olur. İnsan yaxşı işləri həyata keçirməklə ləyaqətə çatır. Dionoetik ləyaqətə ədalətliliyi, mülayimliyi, şəxsiyyətliliyi, igidliyi aid edir[3]. Platon hər bir qızıl ortanın iki ifrat tərəfi-

---

1 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.107-108

2 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.109-111

3 Касумжанов А. Х. Абу Насир аль-Фараби О государстве. М.: Мысль, с.155.

ni göstərir. *O, düzgünlüyü* lovğalıqla istehza arasında; *ünsiyyətliyi* təlxəkliklə kobudluq arasında, *həyalılığı* utancaqlıqla sırtıqlıq arasında, *mehribanlığı* – şitliklə yaltaqlıq arasında, *mərdliyi* – qorxaqlıqla ağılsız qoçaqlıq arasında görürdü.

*İbn Sinanın* fikrincə, ləyaqətli insan özündə dörd keyfiyyəti tərbiyə etməlidir. Onlar: psixi həvəslə əlaqədar təmkinlilik, nifrətlə əlaqədar qorxmazlıq, gücləri ayırd etməklə əlaqədar kamillik, qeyd olanlarla əlaqədar ədalətlilikdir.

*Nəsirəddin Tusi* hər bir ləyaqətin qarşısında iki qüsur – rəzalət olduğunu göstərir. *Hikmətin qüsuru – səfehlik və əbləhlik, şücaətinki – dəlisovluq və ağciyərlik, xiffətinki cibgirlik və süstlük, ədalətinki* – zalımlıq və məzlumluqdur.

*Əl-Qəzalı* göstərir ki, orta xətt isə bəyənilən və gözəldir. İki əks kənar arasında olan orta hal tükdən də nazikdir və Quranda işarə edilən düz yol (sirati-müstəqim) həmin orta yoldur . Allahı-Təala bütün əxlaq yolları arasında hər iki kənar tərəfi rədd etmiş və pisləmiş, orta yolu getməyə əmr etmişdi: *«Onlar xərclədikdə nə ifratçılıq, nə də xəsislik edər, bu ikisinin arasında orta bir yol tutarlar (Əl-Firqun)»; Allah orta yolla üstünlük verir. Allahı-Təala Rəsula (s) deyib: «Nə əldən çox bərk ol, nə də əlini tamamilə açıb israfçılıq et» (Əl. İsra, 29) Nə çox sıxıb xəsislik etmə, nə də hər şeyi verib heç nəsiz qalma*[1].

Azərbaycan dramaturgiyasının banisi, materialist filosof və ictimai xadim *M. F. Axundzadə* yazırdı ki, ağıllı adamların fikrincə ləyaqətli insan yeddi vəzifə yerinə yetirməlidir: 1) pis əməllərdən qaçmalı; 2) yaxşılıq etməyə çalışmalı; 3) zülmü dəf etməyə çalışmalı; 4) öz həmnövləri ilə cəmiyyətdə müvafiq yaşamalı; 5) elm ardınca getməli; 6) elmi yaymağa çalışmalı; 7) qayda və qanunların mühafizəsi uğrunda mü-

1 Əbu Hamid əl Qəzali. Kimyayi səadət, (Səadət Kimyası) İ. Nəcəfovun tərcüməsi ilə. Kompyuter yığımı, IV cilddə, B., 2013, s.58.

barizə aparmalı. Əgər insan onların hamısını yerinə yetirirsə kamil adam sayılır. Əgər bəzilərini yerinə yetirib bəzilərini yetirməyibsə, naqis adam sayılır. Əgər bu göstərilən yeddi əməldən heç birini yerinə yetirməyibsə, bəşəriyyət dairəsindən çıxaraq heyvanlıq dairəsinə daxil olur[1].

Azərbaycan mütəfəkkiri *A.Bakıxanov* göstərir ki, ləyaqətli o adama demək olar ki o hər işində ifrat tərəfdən yox, həddən az və həddən artıqdan imtina edib orta bir yolu özünə şüar edə və bu vasitə ilə arzusuna nail ola, rahatlıq və sağlamlıq əldə edə bilər. Hər şeydə orta vəziyyət yaxşıdır, azadlıq ifrat dərəcəyə çatdıqda, özbaşınalığa çevrilir. Beləliklə, maddi çətinlik pərişanlıq və kədərə səbəb olduğu kimi, təmtəraq da ehtiyaca və kədərə səbəb olur. Hər bir böyük və kiçik iş üzrə orta bir hədd vardır ki, bütün hallarda bəyənilən və rahatlıq axtaranlar üçün zəruridir[2].

Hər bir şəxsin həyatında müəyyən məqsədi olmalıdır: *«İnsanın bütün arzularını təmin edin, lakin həyat məqsədini əlindən alın, onda görərsiniz o necə də bədbəxt və aciz məxluqa çevriləcək. Deməli, insan ləyaqətinin və insan xoşbəxtliyinin məğzi arzunun təlimatında deyil... Həyat məqsədindədir»[3].*

*Ləyaqət və müdriklik bir-birini tamamlayan kateqoriyalardır. «Müdriklikdə üç qabiliyyət meydana gəlir: gözəl qərarlar vermək, səhvsiz danışmaq və lazım olanı etmək» (Demokrit); «Müdrik qanunverici qanunlar qəbul etməkdən yox, onların bu cəmiyyət üçün yararlığının öyrənilməsindən başlayır» (J.J.Russo); «Müdriklik əldə etmək hələ hakimiyyət deyil, lazımdır ondan istifadə edəsən». «Müdrikli ədalət çox demək-*

---

1 M.Cəfər. Mütəfəkkirin şəxsiyyəti. Bakı: Azərnəşr, 1966, s.6

2 Bakıxanov A. Seçilmiş əsərləri. B., 1984., s.25.

3 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.13

*dir, ədalətsiz müdriklik heç nədir» (Siseron); «Müdriklər fəlakətdən yuxarıda, axmaqlar ondan aşağıda olur» (Napoleon); «İnsan üçün ən yaxşı qələbə özü-özünü fəth etməkdir». «Ən güclü insan özünü idarəetməyi bacaran insandır» (Seneka). «Dünyada ən çətin şey özünü dərk etmək, ən asan şey isə məsləhət verməkdir» (Fales). «Öz yerini bilsən, heç kəs səni qaldırmağa cəsarət etməz» (Amerika atalar sözü); «Düz və ya əyri, pis və ya yaxşı arasındakı fərqi dərk et». «Özünüinkişaf – bu uzun müddətli prosesdir. Elə yaşayın ki, sizin həyatınızın fəlsəfi əsası onun keyfiyyətlərinin daimi yaxşılaşdırılması olsun». «Xoşbəxtlik hər gün yeni bir şey öyrənməkdən gəlir». «Ən yaxşısı özün qarşısında cavab verməyi bacarasan». «Başqalarını öyrənməyə səy etməmişdən qabaq özünü dərk et». «Özünüzün güclü və zəif tərəflərini öyrənin». «Siz özünüzə qalib gəlmədən heç zaman başqalarına qalib gələ bilməzsiniz»[1].*

İnsanın ləyaqət məsələsində əsas amil *özünə nəzarət, özünü dərketmə, özünü tanıma, özünə qiymətdir*[2].

**Özünə nəzarət** sosial nəzarətin tərkib hissəsi olmaqla, İnsanın öz davranışını, motivlərini və niyyətlərini sərbəst tənzimləməsidir. Özünə nəzarət mexanizmi, ictimai həyat fəaliyyəti prosesində insanın öz hərəkətlərində, niyyətlərində, mənəvi keyfiyyətlərində tədricən yaranan inandırma, hissiyyat, vərdiş, özünü dərketmə, özünü qiymətləndirmə, özünü tərbiyəni əhatə edir. *Pis heç nə danışma və etmə, hətta sən tək olan da belə. Ən çox başqalarından yox, özün-özündən utanmağı öyrən*[3].

---

1 Первые 365 дней счастливой жизни: Коран, сунна, мудрость души. 2-е изд. испр. СПБ «Диля», 2010, день 103, 12, 62, 79, 127

2 Rzayev Ə. H. Dövlət nəzarəti: nəzəriyyə və praktika. Bakı: Elm, 2008, s.110

3 Первые 365 дней счастливой жизни: день.58

*Berdyayev N.D. «İnsanın təyinatı haqqında» əsərində yazır ki, «hələ yunanlar başa düşürdü ki, insan filosofluq etməyə başlamaq üçün yalnız özünü dərk etməlidir. İnsan üçün varlığın sirri insanın özündə gizlənir... İnsan təfəkkür predmeti olmaqla yanaşı, həm də dərk edəndir. İnsan özündə ağıl və dəyərlər daşıyan məxluq, inkişaf edən məxluq, sosial məxluq və dərk etmək və dərk etməmək mübahisəsindən xəstələnmiş məxluqdur»[1]. Sokrat Delf* məbədində gördüyü hikmətli yazı, *«özünü dərk et»* onun fəlsəfi təliminin əsasını təşkil etmişdir. Onun fikrincə özünü dərk etməyən başqalarını da dərk edə bilməz. *Heraklit* göstərirdi ki, hər bir adamda özünü dərk etmək qabiliyyəti var, ondan yalnız düzgün istifadə etmək lazımdır[2]. *L.Feyerbax* göstərirdi ki, kamil insan təfəkkür gücünə, iradə gücünə və hissiyyat gücünə malik olur. Təfəkkür gücü dərk etməkdə işıqdır, iradə gücü – xarakterin enerjisi, hissiyyat gücü – sevməkdir. İradə də, təfəkkür də və hissiyyat da insanın ali mütləq mahiyyəti və onun varlığının məqsədidir. Əsl insan düşünən, sevən və iradəsi olanlardır[3].

Ədəbiyyatda kamilləşmə hərəkətini, şərti olaraq dərketməni *təbii* (fitri, instinktiv) və *qeyri-təbiiyə* ayırırlar. İnsanın elm və bilik qazanmaqla tədricən əldə etdiyi dərketmə qeyri-təbii dərketmə sayılır. İnsan özünü dərk etmək prosesində daxili *«mənin»* mahiyyəti aşkar olur. *«İnsanda iki adam var: biri zülmətdə oyaqdır, digəri isə işıqda uyuyub» (X.Cabran); «Olduğun kimi görün göründüyün kimi ol» (Mövlana Cəlaləddin Rumi).*

*Daxili «mən» haqda təlim Sokratın adı ilə bağlıdır. Sokrat deyirdi «uşaqlıqdan başlayaraq hər dəfə nəyisə etmək istəyən-*

---

1 Мир Философии. Часть II, М.: Полит, лит. 1991, с.56

2 100 Великих мыслителей. М.: Вече, 2002, с. 40

3 Фейербах Л. Сущность христианства, 2004, с.116

*də birdən hansısa daxili səs eşidilirdi. Mənə belə gəlir ki, o səsə qulaq asmaq xeyirlidir. Mən o səsə qulaq asmayıb dövlət işində məşğul olsaydım, məhv olmuşdum, vəzifəyə getmək nə özünə və nə də sizə xeyir gətirmişdir. Mənimlə dostlarımdan nə vaxt kimsə məsləhətləşirsə bu səs eşidilir[1].* Həmin bu instinkti məhz Sokrat İlahidən gələn səs, «dayman» onu bəzi hərəkətlərdən çəkindirən, özünün daxili orakulu sayır və iqrar edirdi ki, hər bir kəs bu ilahi səsə malikdir, amma ona qulaq asmaq lazımdır ki, onun verdiyi məsləhətləri dinləyib düzgün hərəkət edə biləsən.

Obyektiv həqiqətin şübhəsiz məhdudluğunu qəbul etmək, fəlsəfi düşüncəni insanın özünü müşahidəsinə yönəltmək, bu düşüncəni elmin yeni sahəsinə, məhz mənəviyyata istiqamətləndirmək, müəyyən məntiqi, dəqiq anlayışların zəruriliyini göstərmək, elmin yeni metodunu kəşf etmək Sokratın ən böyük xidmətidir.

Sokratın daxili səs məsələsini Platon dəfələrlə Sokratın dialoqlarında təkrar edir. Ksenofont «Xatirələrində», Aristotel «Ritorikasında», Siseron «Fəlsəfi traktatında», Plutarx «Sokratın dayman haqda» kitablarında buna müraciət olunmuşdur[2]. *«Hər birimizdə biri digərinin etdiyinə irad tutan iki insan var»(Q.Şenkeviç).*

Məşhur rus filosofu *N.A.Berdyayev* yazırdı: «İnsanda şübhəsiz iki «mən», həqiqi real və dərin «mən» mövcuddur və təsəvvürlə və ehtirasla yaradılan saxta, aşağıda duran «mən»». Şəxsiyyət uzun proseslə məndə olmayan «məni»

---

1 Sipovski V.D. Sokrat və onun dövrü (tarixi oçerk), Bakı: Elm, 1995. s.75

2 Платон. Государство. Сочинение в 3-х т-х. Т.3. М.: Мысль, 1971, с.694

seçməklə, sıxışdırmaqla formalaşır[1].

Rus alimi *N.Sankevic* yazır: *«Hər birimizdə iki insan yaşayır və biri o birinin əməllərini həmişə inkar edir».*

Böyük rus yazıçısı *L.N.Tolstoy* bu məsələni özünəməxsus şəkildə təsvir edirdi. O yazır: *İnsanda elə bil ki, iki mən var, elə bil ki, onlar bir-biri ilə yola getmir, bir-biri ilə mübarizə edir və bir-biri ilə ziddiyyətdədir.*

Həyatda bir qism adamlarda zahiri və daxili məni bir-birinə uyğun gəlmir, bəzi adamlarda isə hər ikisi bir-birini tamamlamış halda olur. İnsanın *zahiri və batili* geniş mənada öz ifadəsini *forma və məzmunda* tapır. Bəzən zahiri və forması gözəl və cazibədar olanlar batildə və məzmunca kinli və qəddar olurlar. Onların xarici diqqəti cəlb etdiyi halda, daxili dayazdır və ya daxili məni məzmunca zəngin, zahiri isə formaca çirkindir. Daxili iblis sifətli olanlar nə qədər ağıllı, yaxud səfeh, xeyirxah, yaxud bədxah olduğunu və nə düşündüyünü bilmək olduqca çətin olur, onları müəyyən etmək üçün zaman tələb olunur. Onlar özlərinə xeyirxah, mehriban və səmimi ürəkdən istəyən ən əziz şəxs obrazına istənilən anda girə bilirlər. *Platon* «Dövlət» əsərində *əməldə pis olub, yaxşı insan kimi görünənlər, görkəmdən yaxşı insan olub özünü yaxşı göstərə bilməyənlər* məsələsinə toxunmuşdur. Onun fikrincə insan göründüyü kimi olmalı, olduğu kimi görünməlidir *Qədim Yunan təmsilçisi Ezop deyirdi: «Gözəl sözlərin arxasında çox çirkin əməllər, əzəmətli görkəmin arxasında isə miskin əməllər gizlənə bilər»; Azərbaycan atalar sözündə yaxşı deyilir: İnsan forma ilə (geyimlə) qəbul edilir, məzmunla (ağılla) yola salınır. «Olduğun kimi görün, göründüyün kimi ol» (Mövlana Cəlaləddin Rumi).*

İnsanın daxili məni dinamik, daimi dəyişən, inkişaf edən,

1 Мир Философии. Часть II, М.: Полит. лит. 1991, с. 29, 30

təkmilləşən, dialektik prosesdir. İnsanın uşaqlıq dövründə onun məni irsi və genetik xüsusiyyətlər daşımaqla daha məhdud xarakter daşıyır. O böyüdükcə ətraf mühitin, təlim və tərbiyənin təsiri ilə dünyagörüşü zənginləşir, «mən»də olan bu məhdudluq azalır. İnsan bəzən özünün zahiri mənini – fiziki simasını özünün psixoloji surətinə - daxili aləminə qarşı qoyur. Belə halda insanın özündə ikiləşmə yaranır. Onda iki mən formalaşır. Bunları şərti olaraq hamı üçün olan mən, bir də «örtülü», «gizli», «özü üçün» mən adlandırmaq olar[1]. *«Özünə nəzarət – bu, gücdür, öz emosiyanızı idarəetmə qabiliyyətiniz varsa, siz ruhən güclüsünüz»[2].*

Hər bir adamın «mən»ində davamlı və dəyişən, qüvvətli və zəif, fəal və passiv, xeyirxah və bədxah münasibətləri bildirən xassələri düzgün müəyyən etmək əsas şərtdir. İnsanın forma və məzmunu, zahiri ilə batili arasında uyğunluq və ya fərq, ümumiyyətlə daxili məni irsdən gələn genetik, həm də sosial mühitdə qazanılmış, tərbiyə nəticəsində əldə edilmiş xüsusiyyət və əlamətlərlə şərtləndirilir. Odur ki, bəzi insanlarda daxili mən mələk təbiətli, xeyirxah olur, digərlərində isə şeytan sifətli olmaqla, ikiüzlü, yalançı, ləyaqətsiz, şöhrətpərəst olurlar.

İnsanın formalaşmasında sosial mühitin böyük rolu əvəzedilməzdir. *A.Bakıxanov «Təzhibi-əxlaq»* əsərində yazırdı: *«Hər kəs hər hansı bir cəmiyyət içərisində yaşarsa, o cəmiyyətin əxlaqını mənimsəyir».*

Fransız materialistləri bildirirdilər ki, insan baxışları və hissləri ətraf mühitlə, yəni *birinci təbiətlə, ikinci cəmiyyətlə* formalaşır. Onların təliminə görə insanın mənəvi aləmi ət-

---

1 Bayramov Q. İnsan və zaman. Bakı, 1992, s.33-36.

2 Первые 365 дней счастливой жизни: Коран, сунна, мудрость души. 2-е изд. испр. СПБ «Диля», 2010, день 277

raf mühitin məhsuludur. İnsan vəziyyəti üçün faydalı olan ictimai münasibətlər yaxşı, onun üçün ziyanlı olan ictimai münasibətlər pis hesab olunur[1]. Bununla da insan dünyaya gəldikdə ilk növbədə mövcud şəraitlə üzləşir, cəmiyyətin müəyyən bir mərhələsində yaşayıb fəaliyyət göstərir. Cəmiyyətin qanun və qaydalarını, sosial, siyasi, iqtisadi, mədəni normalarını mənimsəyir, ona uyğun hərəkət edir.

A.Bakıxanova görə əxlaq, mənəviyyat müəyyən sosial tarixi şəraitin, konkret dövrün, tərbiyənin və mühitin məhsuludur. Mühit və tərbiyə insan mənəviyyatının inkişafında həlledici rol oynayır. Onların arasında qarşılıqlı əlaqə vardır. Mühit insanın mənəviyyatına müsbət və ya zərərli təsir göstərdiyi kimi, insanlarda fəaliyyətləri, əxlaqi xüsusiyyətləri ilə sosial mühitə, cəmiyyətin mənəvi əxlaqi vəziyyətinə bu və ya başqa dərəcədə təsir edir.

Hər bir normal insanın müxtəlif keyfiyyətlərin geniş diapozonuna malik olmaqla yanaşı, şəraitin təsirindən meydana gələn fərdi keyfiyyətlərə malik olur. İnsan cəmiyyətin qanun və qanunauyğunluqlarını, davranış, norma və prinsiplərini nə qədər bilir və dərk edirsə onlara əməl edir, özünə nəzarət güclü olur. Bunun üçün təlim və tərbiyə əsas şərtlərdəndir.

Qədim Çin mütəfəkkiri **Konfutsi** deyirdi ki, *bütün insanlar öz təbiətinə görə bir-birinə yaxındır, öz aralarında tərbiyələnmə gedişində fərqlənirlər. Yenini dərk etmək üçün köhnəni öyrənmək lazımdır. Təlim təfəkkürsüz, təfəkkür təlimsiz heç nədir. O «Lun-yuy» («Söhbət və mühakimələr»)* kitabında insanın formalaşmasında biliyin əhəmiyyəti haqqında çox dəyərli fikirlər söyləmişdir. *Nə vaxt ki, insanlığa can atılır, lakin öyrənmək, oxumaq istəmirlər, bu yanlış, ağılsızlığa gətirir. Nə vaxt ki, öz ağlını kamilləşdirmək istəyirlər, lakin öyrənmək*

1 Мир Философии. Часть II, М.: Полит. лит. 1991, с.30

*istəmirlər, bu yanlış intizamsızlığa gətirir. Nə vaxt ki, doğru olmağa can atırlar, lakin öyrənmək istəmirlər, bu yanlış ziyan gətirir. Nə vaxt ki, haqlı olmağa can atırlar, lakin öyrənmək istəmirlər, bu yanlış kobudluğa gətirir. Nə vaxt ki, cəsarətli olmağa can atırlar, lakin öyrənmək istəmirlər, bu yanlış hərc-mərcliyə gətirir. Nə vaxt ki, mətanətli olmaq istəyirlər, lakin öyrənmək istəmirlər, bu düşüncəsizliyə gətirir*[1]*. Təlim və tərbiyə haqqında aşağıdakı aforizmlər çox dəyərlidir: «Təhsil və tərbiyə gənclərə sağlam düşüncə, qocalara təsəlli, kasıblara var dövlət, varlılara bəzək verir» (Diogen); «Yaxşı insan olmaq təbiətdən yox, ən çox təlimdən yaranır». «Təhsil üçün üç şey lazımdır: təbii qabiliyyət, təlim və vaxt». «Tərbiyə xoşbəxt günlərdə insanın bəzəyi, bədbəxt günlərdə sığınacaq yeridi»; (Demokrit); «Bizim qarşılaşdığımız insanların tərbiyəsinə görə on nəfərdən doqquzu mehriban və ya kinli, xeyirli və ya xeyirsiz olur» (C.Lokk); «Xalqın təhsili hökumətin birinci məqsədi olmalıdır» (Napoleon); «Uşaqların gələcəyi aldıqları tərbiyədən asılıdır» (Höte); «Heç bir ata-ana uşağına gözəl tərbiyədən daha yaxşı bir miras qoya bilməz» (Həzrəti Məhəmməd (s)); «Tərbiyə ana qucağında başlayır, hər deyilən kəlmə isə uşağın şəxsiyyətini formalaşdıran bir kərpicdir» (Namik Kamal); «Tərbiyə ağılın müəllimi, düşüncə isə rəhbəridir» (Lohann Lavater); «Tərbiyənin qayəsi insanlarda olan qabiliyyətləri inkişaf etdirməkdir» (Platon); «Təhsilə və dəyişikliyə qabiliyyət insanların heyvanlardan ayrılan daha bir əlamətidir. Təhsil və dəyişiklik həyat qanunudur. Yeni ideya və dəyişikliyə açıq olun»*[2]*; «Kamil insan özü-özlüyündə ciddi, böyüklərə xidmət edərkən ehtiramı əldən verməyən, xalqa qarşı çox incə olan və*

---

1 100 Великих загадок истории. М., Вече, 2002, с.49

2 Первые 365 дней счастливой жизни: Коран, сунна, мудрость души. 2-е изд. испр. СПБ «Диля» 2010, день 108

*onları idarə edərkən ədalətli davranan şəxsdir» (Konfutsi)*[1].

Təhsil, təlim və tərbiyənin şəxsiyyətin formalaşmasında rolun qədim dövrdən başlayaraq mütəfəkkirlərin elmi təlimlərində böyük diqqət yetirilmişdir. *Sokrat* göstərirdi ki, hər bir insan müvəffəqiyyətə çatmaq üçün biliyə yiyələnməli və təlim keçməlidir. *«Yalnız bir Allah var- bilik, və yalnız bir iblis var-cahillik». «Bilikdən güclü hes nə yoxdur, o həmişə və hər yerdə zövq verir və başqa şeylərə meylliyi arxada qoyur» (Sokrat).* Xüsusən istedadlı insanlar üçün siyasi bacarığın uğuru tərbiyə və bilikdədir. *«Bilik cəvahirat saxlanılan xəzinədir, ona açar isə təcrübədir» (Tomas Fuller); «Elm kitabın yox, kitab elmin nəticəsi olmaldıdır». «Nə qədər biliriksə, o qədər bacarırıq». «Bilik gücdür, güc bilikdir». «Biliyi mübahisə xatirinə, başqalarına nifrət və öz xeyri üçün, şərəf, hakimiyyət və başqa məqsədlər üçün yox, həyatda xeyirli olmaq xatirinə mənimsəmək lazımdır» (Bekon); «Kitabı sevin, lazım olmayanı oxumayın» (Antisfen); «Lazımi qədər biliyin olmaması özünə əzaba çevrilir». «Elə öyrənin ki, həmişə öz biliyinizi, çatışmamazlığını hiss etmiş olasız, həmişə öz biliyini, itirməkdən qorxasız» (Konfutsi); «Cahillik – ən böyük şərdir, pis mənimsənilmiş bilik daha pisdir» (Platon); «Bilik heç cür ağılın yerini vermir» (Pifaqor); «Savadlı adam təvazökar, nadan isə lovğa olar» (İngilis atalar sözü); «Bilik insanlar arasında fərq yaradır» (C.Lokk); «Çox oxumaq lazımdır ki, bir az az biləsən» (S.Monteskye); «Bildiklərinə əməl etməyən alim başqasını geydirdiyi halda özü çılpaq olan iynə kimidir» (Əl-Qəzali); «Bilik məcburidir, inam azaddır» (N.Berdyayev); «Bilik və təhsil – müxtəlif şeylərdir. Məktəbdə alınan biliyin özü deyil, yalnız onu əldə etməyə kömək edir». «Təhsil – bahadır, bilik – pulsuzdur. Həqiqi bilik üçün tək ödəniş – bilik almaq üçün sərf*

1 Первые 365 дней счастливой жизни: Коран, сунна, мудрость души. 2-е изд. испр. СПБ «Диля» 2010, день112.

*olunan vaxtdır»*[1]*. «İnsanlar nə qədər az bilirsə, onlar biliyinin geniş olduğunu düşünür». «Helmli insan, işin əvvəlini, sonunu bilən, keçmişi, gələcəyi düşünən bir alimdir. Onda həm elm, həm də helm vardır. Dünyada bu iki məziyyətin birləşməsindən daha yüksək fəzilət ola bilməz...» (Kəlilə və Dimnə);*

*«Cahilin zəhməti hədərdir, hədər».*
*Zəmanə tanrıdan biliklə qurtarar,*
*Biliyə sahib ol, dünyanı qazan*
***(Nizami Gəncəvi).***

Platon *«Dövlət»* əsərində düzgün tərbiyə və təlimin insanlarda yaxşı təbii başlanğıc rolunu oynadığını, kim hansı yöndə tərbiyə alırsa, onun gələcək yolunun bütövlükdə o cür olacağını göstərmişdir. O, ruhun yaxşı halını bədənin yaxşı durumda olması üçün şərt olduğunu qeyd edərək, bədən üçün - gimnastika, ruh üçün – musiqinin əsas olduğunu dəfələrlə təkrarlayır. *«Gimnastika bədənin gözəlliyini musiqi isə insanın qəlbini düzəldir»; «Mütənasiblik, gözəllik və sağlamlıq üçün yalnız elm və incəsənət sahəsində təhsilli olmaqla yanaşı, bütün həyat boyu fiziki təlim və gimnastika ilə məşğul olmaq tələb olunur» (Platon); «Gimnastika insanın gəncliyini uzadır» (C.Lokk); «Gəzinti və hərəkət beyinin fəallaşmasına və fikrin aydınlığına kömək edir» (J.J.Russo).*

Məlumdur ki, insan psixologiyasında onun var-dövləti artdıqca olunanla kifayətlənmir. *«Əlindəkinə qane olomayana dünyanı da versən, qane olmayacaq» (Seneka); «Ən varlı adam qənaətcil adamdır. Ən yoxsul isə xəsis adamdır» (Nikola Samfor).*

İnsan həyat boyu həmişə əl çatana nail olandan sonra

---

1 Первые 365 дней счастливой жизни: Коран, сунна, мудрость души. 2-е изд, и спр. СПБ «Диля» 2010, ден 96, 119

onun üçün o, qiymətdən düşür və əlçatmaz şeylərə can atır. **Maslov** *özünün ilk dəfə 1943-cü ildə çap olunmuş məşhur* **«Tələbatlar iyerarxiyası»** *kitabında insan tələbatlarını beş səviyyəyə bölən tezis irəli sürmüşdür.* Onların aşağısı *fizioloji* - təxirəsalınmaz tələbatlar – (aclıq, hava, susuzluq, yuxu, sığınacaq); *təhlükəsizlik* – psixoloji zərərdən təhlükəsizlik tələbatı; *sevmək* (sevmək və sevilməyin güclü arzuları), *hörmət* – yaxşı ad, nüfuz və başqaları tərəfindən etiraf olunmaq tələbatı; *özünüifadə* - özünütəsdiqin kəskin arzuları. Eyni adamlar arasında *yaxşı olmaq tələbatı*[1]*.* Maslova görə aşağı səviyyədə tələbatlar ödəniləndən sonra əhəmiyyətini itirir, növbəti tələbatların isə əksinə olaraq əhəmiyyəti artır. Fizioloji tələbat və təhlükəsizlik hissi tələbatlar içərisində əsasdır. Onlar təhlükə altında olanda, insan onun müdafiəsi üçün iyerarxiya tələbatları üzrə yuxarıdan aşağı səviyyəyə enir. Yuxarı səviyyədə tələbat müəyyən mənada insani olub şəxsiyyəti müəyyən edir. *Maslova* görə bəzən aşağı tələbat ödənilmədən yuxarı tələbat meydana gələ bilər. Fizioloji tələbat başqa tələbatların meydana gəlməsi üçün əsasdır.

*Hessen* insan tələbatı təmin olunduqca onun aldığı ləzzətin, həzzin psixofizioloji qanununu belə şərh edir: 1. Müəyyən bir maddi nemətə tələbat ödənildikcə insanın ondan aldığı ləzzət, həzz azalır. 2. Əgər bütün tələbləri tamamilə təmin etmək mümkün deyilsə, onda təminatı elə səviyyədə saxlamaq lazımdır ki, hər bir maddi nemətdə ləzzət, həzz almaq mümkün olsun»[2].

---

1 Баркер А. Как еще лучше … управлять людьми. М.: ГРАНД, 2002, с.49-58; Адаир Д. Исскуство управлять людьми и самим собой: концепция безусловного успеха. М.: Эксмо, 2008, с.367-376

2 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.22

*Demokritin fikrincə, o adam varlıdır ki, onun arzusu kasıbdır. Hər şeydə gözəl ortadır: Həddən artıq olmayan və həddən az olmayanlar mənim ürəyimcədir.* Demokrit cismani xoşbəxtliyi və zövqü valehedici saydığı ruhi səadətdən fərqləndirir, hətta bir-birinə qarşı qoyur. O göstərirdi ki, *«İnsanı nə cismani gücü, nə də pul xoşbəxt edir. Demokritə görə xoşbəxtlik – ruhun yaxşı vəziyyətində, onun təmkinliyində, harmoniyasında, simmetriyasında və qəlbin vahiməli olmamasındadır»*[1].

Bir filosof demişdir ki, gözlü o adamdır ki, özünü görə bilsin. İnsanın özünə münasibəti onun təbiətə, cəmiyyətə, ailəyə, digər insanlara, əməyə, xalqa və s. olan münasibətlər sistemi ilə əlaqəli şəkildə inkişaf edir. Hər bir insan daxili imkanları, mənəvi keyfiyyətləri əsasında özünün kim olmasını dərk edir, özünü tanıyır və özünü tərbiyə edir.

*Özünütanıma* – kamilləşmə istedadına malik insanın özünü tanıması nəzərdə tutulur. İnsan elm öyrəndikcə, öz mənəviyyatını paklandırdıqca özünü daha yaxşı tanıyır. Bu barədə Sokratın dedikləri çox ibrətamizdir. Onu sofistlərlə müqayisə edib deyəndə ki, sən sofistlərdən müdriksən o, bununla razılaşar və söyləyərdi; *«Bəli, mən onlardan müdrikəm, ona görə ki, mən bircə onu bilirəm ki, heç nə bilmirəm, amma onlar heç nə bilmədiyi halda elə bilirlər ki, hər şeyi bilirlər».*

Özünütanımada *özünütərbiyə* əsas amildir. İnsan öz həyatının dirijorudur, partiturası isə xarici mühitdir. Özünütərbiyə mədəniyyətinin ən ilk mərhələsi özünü idarəetmə mədəniyyəti – özünüdərketmədir. Özünütərbiyə özünə nəzarətin tərkib hissəsi olub, insanın mənəvi fəaliyyəti və qabiliyyətinin inkişafı, özündə əxlaqi şüurun formalaşması, müsbət keyfiyyətlərin təkmilləşdirilməsi, mənfi keyfiyyətlərin aradan qaldırılmasını ehtiva edir. Özünətərbiyənin məqsədi

1 100 Великих мыслителей М.: Вече, 2002, с.66

insanın öz elmi və əməli fəaliyyətini düzgün tənzimləməsi və onun həqiqi kamillik yoluna yönəldilməsidir. Özünütərbiyə insan fəaliyyətinin məhdudlaşdırılması yox, bu fəaliyyətə istiqamət verilməsini nəzərdə tutur. Özünətərbiyənin məzmunu və istiqaməti həmişə insanın yaşadığı və inkişaf etdiyi mühitdən asılıdır. Əbu Nəsir əl-Fərabi hesab edir ki, insanlar doğrudan da eyni cür olur və ətraf mühit tərbiyəsinin təsiri üzündən bəzisi mərdimazarlıq, başqaları isə xeyirxahlıq yoluna qədəm qoyurlar[1].

İnsan ləyaqəti onu qanunlara və adət-ənənələrə tələb olunan qaydada əməl olunması ilə birbaşa əlaqədardır. Qanunlar isə ilahi, yazılmamış təbiət qanunlarından yaranır. İlahi qanunlar sözün həqiqi mənasında öz əksini Quranda tapıb. Ləyaqətli insan bu həyatı şərəfli yaşayır və səbrlə yoluna qoyur. Həyat və səbr haqqında müdriklər demişdir. *«Həyat meşəyə bənzəyir, uzaqdan baxanda gözəl görünür, amma içərisinə girəndə sıxıntı verir». «Həyatın ilk əlli ili mətn, qalan illər isə şərhdir» (Artur Şopenqauer); «Elə yaşa ki, sanki sabah öləcəksən, elə oxu ki, sanki əbədi yaşayacaqsan» (Mahatma Qandi); «Ömürün qısalığından gileylənərək həmişə illəri tələsdirirlər. Uşaq ikən tez böyümək, məktəbdə ikən işləmək, işləyərkən tez mənsəbə çatmaq, sonralar isə təqaüdə çıxmaq haqqında fikirləşirik» (Tomas Edison);*

*«Həyat beşiklə məzar arsında sınaq müddətidir» (Balzak); «Həyat üç gündən ibarətdir: dünən, bu gün, sabah» (Həzrət İsa); «Çıxacağım yerə səbri nərdivan edirəm» (Cəlaləddin Rumi); «Hər bir müdrikliyin əsası səbrdir» (Platon); «Vaxt da müəllim kimidir: problemləri səbrlə, tədricən yoluna qoyur» (Ezra Kornel); «İradəli və səbrli insan məğlub olmaz» (Ma-*

1 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.29

*ris Materlink); «Vaxt bütün qapıları səbrli insanların üzünə açır» (Çin atalar sözü); «Tələskənlik kədərin, səbr isə sevincin açarıdır» (Fars atalar sözü); «Əsl hünər bolluq içində səbr etməkdir» (Əl-Qəzali); «Səbr insana əvvəlcə zəhər kimi görünür, lakin buna öyrənişəndən sonra bal olur. Səbri olmayanlar nə qədər də yoxsuldurlar» (Uilyam Şekspir); «Səbr ümidin təməli, ümid isə xoşbəxliyin açarıdır» (Tombis Karlyel).*

Beləliklə, şəxsiyyətin kamilləşməsi üçün onun özünü dərk etməsi, qanun, adət-ənənə, davranış qaydalarına, mənəvi dəyərlərə əməl etməsidir. Bunun üçün insan təhsil, tərbiyə almaqla ləyaqətə, kamilliyə çatmalı, daxili «mən»ini saflaşdırmalıdır.

## 2.3. Şəxsiyyət statusu

• *Ağıldan daha faydalı bir mal, özünü bəyənməkdən daha qorxunc tənhalıq, tədbir kimi düşüncə, təqva kimi üstünlük, əxlaq kimi dost, ədəb kimi miras, uğur kimi ticarət, savab kimi qazanc, təfəkkür kimi elm, fərzə riayət kimi ibadət, həya və səbr kimi iman, təvazökarlıq kimi gəlir, elm kimi şərəf, helm kimi izzət, məsləhət kimi dəstək yoxdur.*

***Həzrət Əli***

• *Vəzifə insana heç bir şey vermir, sadəcə olaraq, səlahiyyət verir. Qalan hər bir şey onun ağlından, zəkasından, biliyindən, mədəniyyətindən asılıdır.*

***Heydər Əliyev***

• *Dövlət məmurları özlərini təvazökar aparmalıdır, hesab etməməlidir ki, onların hansısa xüsusi statusu var. Onların statusu insanlara xidmət etmək, insanların problemini həll etmək, onlara qayğı göstərmək, insanları incitməməkdir.*

***İlham Əliyev***

Status (lat. «status» – hüquqi vəziyyət)[1] ictimai münasibətlərində subyektlər arasında sosial əlaqəni təmin edən, cəmiyyətin sosial təşkilinin əsas elementi kimi çıxış edir.

Status çoxmənalı abstrakt termin olmaqla stabil əhəmiyyətli obyekt və subyektin stabil əhəmiyyətli parametrlərinin məcmusunu ifadə edir. Sadələşdirilmiş şəkildə obyektin və ya subyektin statusu – bu onun istənilən iyerarxiyada, strukturunda, sistemində vəziyyətidir.

Şəxsiyyətin statusu onun *sosial* və *hüquqi* statusundan yaranır. Statusun köməyi ilə şəxsiyytin davranışı qaydaya salınır, rəsmiləşdirilir və reqlamentləşdirilir. Status: 1) İnsanın,

1 Словарь иностранных слов. 16- изд. М., 1988, с. 48

dövlət, dövlət orqanının və ya beynəlxalq təşkilatın hüquqi vəziyyətini müəyyən edən hüquq və vəzifələrin məcmusudur; 2) İnsanın gözlənilən və mümkün davranışının dövlət tərəfindən müəyyən edilməsidir; 3) İnsanın hüquq və vəzifələri, onun cəmiyyətdə mövqeyidir; 4) Sosial davranış və sosial rolunun modelidir. Sosiologiyada şəxsiyyətin müxtəlif status tipləri müəyyən edilir: *təbii status; inteqral status; peşəkar-fəaliyyət statusu; sosial-psixoloji status; temporal status, mərqinal status*[1]. Statusların bir neçə təsnifat variantı vardır: *birinci*, insanın (fərdin), şəxsiyyətin, müəyyən peşəkar fəaliyyətlə məşğul olan insanların, müəyyən dövlətin, millətin və s. statusu; *ikinci*, sosiologiya elmi üçün ənənəvi olan insanın (fərdin) və şəxsiyyətin sosial, hüquqi, peşə, iqtisadi, mülkü, maddi və b. statusu.

Şəxsiyyətin statusu, onun dövlət və cəmiyyətdə vəziyyəti, yeri və rolu konstitusiya, qanunlar və digər normativ-hüquqi aktlarla müəyyən edilir. Birinci, hər bir insan *şəxsi statusa* malikdir. **Şəxsi status** hər bir insanın sosial-psixoloji xüsusiyyətlərinə əsaslanır; *İkinci, vətəndaş statusuna malikdir.* Vətəndaşın vəzifələri və hüquqları Konstitusiyada təsbit olunmuşdur; *Üçüncü vəzifəli şəxs statusu daşıyır.* Beləliklə, şəxsiyyətə xas olan bütün statuslar dialektik olaraq qarşılıqlı təsirdə olub bir-birini tamamlayır.

Bundan başqa, statusun digər növləri: *anadangəlmə, əldəolunan, adına yazılan, qarışıq, şəxsi, peşə, istedad, siyasi, demoqrafik, dini və s. statuslar* mövcuddur. Anadangəlmə statusa insanın anadan olanda (cinsi, irqi, milləti, bioloji vəziyyət) meydana gələn status daxildir. İnsanın öz əqli və fiziki fəaliyyəti ilə əldə edilən statusda (iş, əlaqə, vəzifə, post və s.) əks

---

1 Рзаев А. Г. Социально-правовой статус должностного лица: Сущность и проблемы. Баку, Уникал, 2014, №1, с.102

olunur. Şəxsiyyətlərin bir qrupu elm yolunda gedərək alim statusu əldə edir. A.Mirzəcanzadə R.Selyeyə istinad edərək bu prinsiplə alimləri üç qrupa bölür: «ifaçı», «düşünən» və nəhayət marağının heç də elmlə əlaqəsi olmayanlar. Belə təsnifat dərketmənin inkişafındakı üç mərhələni nəzərdə tutur – fərdilik, xüsusilik və ümumilik cəhətləri[1]. *Adına yazılan statusa* (yaş, ailədə status) və həyat boyu dəyişilən status daxildir.

Şəxsiyyətin statusu sosial-psixoloji xüsusiyyətlərə əsaslanır. Şəxsiyyət: *cəmiyyətdə insan (fərd), dövlətdə konstitusiya və mülki hüquq normaları ilə tənzimlənən vətəndaş, dövlət orqanlarında çalışan vəzifəli şəxs statuslarına malikdir.*

Sosial status «ikili məna» daşıyır. Belə ki, hər bir insan ictimai iyerarxiyada tutduğu yerə uyğun müəyyən sosial statusa malik olmaqla yanaşı, eyni zamanda o özündə ata, məmur, nazir, deputat, siyasi partiya üzvü, ruhani, ateist və b. statusları birləşdirir.

Hüquqi satus insanın əsas hüquq və vəzifələri, həmçinin dövlət orqanlarının səlahiyyətləri konstitusiyada və qanunlarda təsbit olunmalıdır.

Şəxsiyyətin **hüquqi statusuna –** onun öz funksiyalarını yerinə yetirmək üçün verilmiş hüquq və vəzifələrin vəhdəti kimi baxılır. Şəxsiyyət kimi öz funksiyalarını tutduğu vəzifəyə müvafiq olaraq ona verilmiş *vəzifə borclarının (qulluqçu nə etməlidir) və hüquqlarının (qulluqçu nə edə bilər)* yerinə yetirilməsi ilə həyata keçirilir. Şəxsiyyətin statusunda ön planda vəzifə borcları durur və onun yerinə yetirilməsində müvafiq hüquqların olmasını şərtləndirir. Vəzifə hüquqsuz, hüquq vəzifəsiz olduqda, fəaliyyət mümkün olmur.

---

1 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.36

Şəxsiyyətin hüquqi statusu anlayışına onun cəmiyyətdə və dövlətdə yerini müəyyən edən hüquqi vəziyyətin əsas institusional xüsusiyyətləri daxildir. Şəxsiyyətin ümumi statusuna həm ümumi, həm xüsusi, fərdi, sahə və b. statusları daxildir.

*Ümumi hüquqi status* – bu, dövlətin vətəndaşının, cəmiyyətin üzvünün konstitusion statusudur. O, şəxsiyyətin başqa hüquqi statusları üçün əsas, bütün statuslar üçün eyni olan cari şəraitdən asılı olmayan statusdur; konstitusion statusu şəxsiyyətin cəmiyyətdə və dövlətdə hüquqi vəziyyətini müəyyən edən şəxsiyyətin konstitusion hüquq və vəzifələri, konstitusion prinsipləri olduğu konstitusiya normalarının cəmidir. Konstitusiyada hüquq və vəzifələr xüsusi, fərdi, sahə və başqa hüquq statusları üçün bünövrə rolunu oynayır.

*Xüsusi hüquqi status* – qanunvericilikdə baxılan spesifik əlavə və hüquqi vəzifə imtiyazları olan vətəndaşların müəyyən kateqoriyasının spesitfik xüsusi say statusudur.

*Fərdi hüquqi status* – fərdi statusdur; konkret insanın şəxsləndirilmiş hüquq və vəzifələrinin cəmidir. Bu status insanın həyatı da dəyişilməklə birgə dəyişir.

*Şəxsiyyətin sahə statusuna* AR-nın Mülki, İnzibati hüquqpozmalar, Cinayət, Əmək və s. məcəllələrdə tənzimlənən Mülki hüquq, İnzibati hüquq, Cinayət hüquq, Əmək statusları və s. daxildir. Şəxsiyyətin sahə statusu mülki, inzibati, cinayət, əmək hüququ və b. təsbit olunan hüquq, azadlıq, vəzifələrdən ibarətdir. Şəxsiyyətin xüsusi fərdi və başqa statusları konstitusion statusla ziddiyyət təşkil etməməlidir. Əksinə, onlar üçün Konstitusion status əsas prinsiplərə uyğun olmalıdır.

Beləliklə, şəxsiyyətin çoxlu statusları var və ondan düzgün istifadə olunması zəruridir. Bəzən şəxsiyyət bütün sta-

tusları bir tərəfdə qoyur, yalnız vəzifə statusundan istifadə edir, onunla nəfəs alır, qalan statusları arxa plana keçirir, bəzən isə dövlətdə şəxsiyyətin statuslarının bünövrəsi olan vətəndaş statusunu unudur, vətəndaşa ikrah hissi ilə baxır, vətəndaşın rifahına zidd göstəriş və qərarlar qəbul edir, lakin vəzifədən çıxandan sonra həmin qərarları özü yerinə yetirməyə məcbur olur.

## 3. Böyük şəxsiyyətlərin həyat fəaliyyətlərində oxşar və fərqli cəhətlər

• *Elə adamlar axtarın ki, onlarla söhbət yaxşı kitaba bərabər olsun. Elə kitablar da axtarın ki, mütaliəsi filosoflarla söhbətə dəysin.*

***Bəhmənyar***

• *Nadanlar elmə həqarətlə baxır, savadsızlar ona heyran olur, müdriklər isə ondan bəhrələnirlər.*

***Fransis Bekon***

• *Keçmişdən təcrübə götürürük, təcrübə əsasında bizim praktiki ağılın ən canlı hissəsi yaranır.*

***Qerder***

Bu yarım fəsildə əsas məqsəd dövlət və dövlət hakimiyyəti nəzəriyyəsi konsepsiyaları irəli sürən, təcrübədə dövlətçiliyə yenilik gətirən şəxsiyyətlərin; Qədim dövrdə: Likurq (e.ə. IX və ya VII ə.), Solon (e.ə.640-560), Fales (e.ə. 625-547), Serviy Tuliy (578-534), Pifaqor (e. ə. 576-496), Konfutsiy (e. ə. 551-479), Heraklit (e. ə. 544-483), Demokrit (e. ə. 460-360), Sokrat (e. ə. 469-399), Platon (e. ə. 427-347), Aristotel (e. ə. 384-322), Siseron (e. ə. 106-43). Orta əsrlərdə: əl-Fərabi (870-950), İbn Sina (980-1037), Nizamülmülk (1018-1092), Nizami Gəncəvi (1141-1209), Nəsrəddin Tusi (1201-1274), N.Makiavelli (1469-1527), Yeni dövrdə: F.Bekon (1561-1626) T.Hobbs (1588-1679), C.Lokk (1632-1704), Ş.Monteskye (1689-1755), J.J.Russonun (1712-1778) yaradıcılığına zaman, məkan, siyasi mühit, şərait prizmasından baxmaq və tarixin süzgəcindən keçirməklə onların şəxsiyyət kimi formalaşmasına, konsepsiyalar yaratmasına və müdrikliyin zirvəsinə çatmasına təsir edən amilləri, həyat fəaliyyətlərində oxşar və fərqli cəhətləri qısa şəkildə göstər-

mək və oxuculara çatdırmaqdır. Bu müdrikləri başqa insanlardan fərqləndirən əsas cəhətlər:

*1) fitri istedadın, dahilik qabiliyyətinin, güclü hafizənin, daxili inamın, möhkəm və sarsılmaz iradənin, işgüzarlıq, qətiyyətlik, məqsəd aydınlığı, fikir və mühakimələrin inandırıcılığı, uzaqgörənliyi, çətinliklərə sinə gəlmək, keyfiyyətlərin və dönməz xarakterin* olması. Məlumdur ki, fitri istedad dahilərdə özünü uşaqlıq çağında göstərir. İbn Sina 10 yaşında Quranı əzbər bilirdi, Hobbs 14 yaşında latın dilini mükəmməl öyrənmiş, Horasi 11 yaşında Leyden universitetidə oxuyurdu.

*Nadir istedadı və dahilik qabiliyyəti olan şəxslər güclü iradə və inam hesabına yenişli-yoxuşlu, kələ-kötürlü yolları dözümlülüklə və səbrlə davam etdirirlər. əl-Fərabi Aristotelin «Metafizika» əsərini on dəfələrlə oxuduqdan sonra başa düşmüş və bu əsərə təfsir yazmış, İbn Sina isə «Metafizika» əsərini 40 dəfədən çox oxumuş, yalnız əl-Fərabinin bu əsərə təfsirini oxuyandan sonra başa düşmüş və əl-Fərabini Aristoteldən sonra özünün «ikinci müəllimi» adlandırmışdır;*

*2) yaşayıb, yaratdığı mühitin, şərait və siyasi vəziyyətin təsiri;*

*Farslara qarşı Yunan şəhər-dövlətlərini birləşdirən Afina dəniz ittifaqının yaranması Afinanın Yunanıstanda güclü siyasi və mədəniyyət mərkəzinə çevrilməsinə və elmin inkişafına səbəb olmuş, bu inkişaf yunan koloniyaları vəsitəsi ilə Aralıq dənizi ölkələrinə də keçmişdi. Afina quldarlıq demokratiyasının süqutu, Roma dövlətinin, Roma aristokratik respublikasının çiçəklənməsinə, Afina və şərq elminin Romaya transformasiyasına və Romanın dünya sivilizasiya mərkəzinə çevrilməsinə şərait yaratmışdır.*

*Orta əsrlərdə yaranan İslam Xilafətinin fars mədəniyyətini və dövlətçiliyini mənimsəməsi, xilafətin paytaxtının Bağ-*

*dada köçürülməsi və orda elm mərkəzinin – müdriklər evinin, (Akademiyaya oxşar) yaranması ilə «Şərq İntibahının» başlanmasına, Şərq və Yunan klassiklərinin əsərlərinin ərəb dilinə tərcümə olunmasına və xilafətdə formalaşmış dünya şöhrətli mütəfəkkirlərin əl-Fərabi, İbn Rüşd, Əl-Biruni, Nizamülmülk, Nizami Gəncəvi, İbn Sina və Nəsirəddin Tusinin və.b əsərlərinin yaranmasına və onların İspaniyanın Kordova vasitəsi ilə və başqa yollarla Avropaya çatdırılmasına səbəb olmuşdu.*

*XIV–XVI əsrlərdə qədim dövr o cümlədən Antik Roma əzəmətini və onun mədəniyyətini bərpa etmək ideyasına əsaslanan İtaliya İntibah–Renessans dövrünü yaşamış, böyük rəssamlar, heykəltaraşlar və mütəfəkkir filosoflar yetişmişdi.*

*Avropada sənaye inqilabı feodalizmə – mütləqiyyətə son qoymuş aqrar sivilizasiyanın industrial sivilizasiyaya keçməsinə - yeni dövrün başlanmasını, kapitalizmin bərqərar olmasını təmin etmiş, sənayenin sürətlə inkişafına, yeni sosial təbəqənin formalaşmasına və sinfi mübarizənin güclənməsinə, İngiltərədə, Fransada inqilabların və vətəndaş müharibələrinin baş verməsinə, dövlət quruluşunun dəyişdirilməsinə, yeni ideyaların əmələ gəlməsinə, F.Bekon, T.Hobbs, C.Lokk, S.Monteskye, J.J.Russo və böyük filosofların bu ərəfədə formalaşmasına və demokratik yönümlü dövlət idarəçilik sisteminin yaranmasına səbəb olmuşdu;*

*3) Avropada qədim dilləri, əsasən latın və yunan, şərqdə isə fars və ərəb dillərini öyrənmələri; Siseron yunan dilini, Hobbs latın dilini, əl-Fərabi ərəb dili də daxil olmaqla 70-ə yaxın dil bilirdilər;*

*4) dövrünün qabaqcıl, tanınmış alimlər və filosoflardan mükəmməl təhsil almaları; Bu kamil insanlar elm, bilik sahibi, filosof təbiətli olmaqla o dövrün əsas elmlərini öyrənmişdilər;*

*5) nadir tapılan qədim kitablardan və zəngin kitabxana-*

*lardan istifadə etmələri;*

*İbn Sina Buxara əmirini müalicə etdiyindən onun nadir kitablar saxlanılan kitabxanası – saray kitabxanasından bir ay müddətinə istifadə etmək imkanı qazanır. O tərcümeyi-halında yazırdı: bu kitabxanada insanın eşitmədiyi və görmədiyi, mənim də nə əvvəllər, nə də sonradan eşitmədiyim kitablar var idi. Mən bütün əhəmiyyətli kitabları öyrəndim. (sonralar bu kitabxana yanır – bəzi versiyalara görə bu kitablar başqalarının əlinə düşməsin deyə İbn Sina yandırtdırıb). Nəsirəddin Tusi 20 ildən çox qartal yuvası sayılan «Ələmut» qalasında sürgün həyatı keçirərkən orda da zəngin kitabxanadan istifadə etmişdir. Makiavelli və Monteskye qədim dövr və Roma mütəfəkkirlərinin nadir əsərlərini dərindən mənimsəmişdilər; Russo öz evlərində olan böyük kitabxanada və xanım de Varansın evində onun antik müəlliflərin və digərlərinin əsərlərin oxumuş, ABŞ Medison Konstitusiyasın yaradarkən qədim dövr kitabları T.Ceffersonun Fransadan gətirdiyi çox saylı əsərləri oxumuşdur;*

*6) dünya sivilizasiyasının yarandığı Şumerlərin ölkəsinə – İki çay arasına və Misirə, zəngin tarixə və dövlətçiliyə malik Avropa ölkələrinə səyahət etmələri və ya bəzilərinin inkişaf etmiş Avropa ölkələrində mühacir həyatı keçirmələri; Ç.Darvin səyahətin faydalılığını belə xarakterizə edirdi. Məndə növlərin mənşəyi haqqında ideya Britaniya gəmisində dünyaya səyahət edən zaman yaranmışdı. O yazırdı: «Mən səyahət zamanı təbiətdə olan dəyişiklikləri müşayət edir və qərara gəlirdim ki, canlı təbiətdə hərəkətverici mühərrikin köməyi ilə təbii seçmə baş verir. Səyahətdən sonra oxuyurdum və yenidən səyahət edirdim: budur mənim tərcümeyi-halım»[1]; Ş.Monteskye səyahət etdiyi Avropa ölkələrini belə xarakterizə edir. «Almaniya*

1 100 Великих мыслителей. М., Вече, 2002, с. 161

*səyahət üçün, İtaliya müvəqqəti yaşamaq üçün İngiltərə düşünmək üçün, Fransa həmişəlik yaşamaq üçün yaranmışdır». Bekon İtalya, Almaniya, İspaniya, Polşa, Danimarka və İsveçrəyə səyahətdən sonra «Avropanın vəziyyəti» haqqında qeydlərini yazmışdır. Sədi Şirazi yaxın və Orta Şərq ölkələrinin il boyu diyar-diyar piyada dolaşmış, Fars, Ümman dənizi, Hind okeanını, Aralıq dənizini ticarət gəmilərində müxtəlif sənət sahibləri, alim və savadsızlarla, dövlətli və yoxsullarla, mülkədar və kəndlilərlə oturub durmuş, onların həyat tərzi ilə tanış olmuş, xalqların adət ənənələri bütün dərinliyi ilə görmüş və bunları öz «Bustan» və «Gülüstan» əsərində məharətlə istifadə etmişdir. Şərq ədəbiyyatında Sədiyə qədər «Bustan»-a bənzər əsər tapmaq mümkünsüzdürsə, «Gülüstan»-a oxşar əsər tapmaq çətindir. «Gülüstan» Sədinin yaradıcılığının ixtirası sayılır;*

*7) dövrünün qabaqcıl mütəfəkkir və filosofları ilə canlı təmasda olmaları və onlarla elmi disskusiyalarda iştirak etmələri; Bu şəxslərin elmdə, nəzəriyyədə, fəlsəfi-siyasi ictimai fikirlərində prinsipial olmaqla biliklərini, gələcək elmin inkişafına yönəltmələri;*

*8) konsepsiyalarını yaradarkən onlara müəyyən müdriklərin ideyalarının və o zaman mövcud olmuş dövlət quruluşu modellərinin rolunun və təsirinin olması; Likurq Krit, Misir və başqa ölkələrin nümunəsində Spartada qanunvericilik əsasında güclü dövlət yaratması, Sparta nümunəsinə uyğun Platon ideal dövlət, Bağdadın timsalında əl-Fərabi ideal cəmiyyət konsepsiyalarını, C.Lokkun Kromvelə və respublika quruluşuna rəğbəti «hakimiyyətlərin bölgüsünü», C.Lokk P. Filmeranın «Patriarx, və ya Korolun təbii hakimiyyəti» kitabında hakimiyyətin ilahi mənşəyinin, feodal-teokratik konsepsiyanı tənqid əsasında öz məhşur «Dövlət idarəçiliyi haqqında» iki*

*traktat əsərini yazmışdır.*

*T.Hobbsun aristokrat təbəqə ilə sıx təmasda olması, onlara qarşı müsbət baxışları mütləq monarx hakimiyyətini saxlamaq üçün düşünülmüş, «dövlətin yaranmasında ictimai müqavilə nəzəriyyələrinin yaranmasına səbəb oldugunu göstərmək olar, Ş.Monteskyenin İngiltərə timsalında klassik hakimiyyətlərin bölgüsü konsepsiyasını yaratmışlar;*

*9) yüksək dövlət vəzifələrində işləmələri və ya dövlət başçılarının yaxın dairəsində olmaları.* Məsələn, əl-Fərabi, Nizamülmülk, İbn Sina, Nəsrəddin Tusi vəzir, F.Bekon lord, ali kansler, C.Lokk nazir, Siseron konsul, Makiavelli katib, «80»-lər şurasının üzvü olmuşlar;

10) əksəriyyətinin uşaqlığının ziddiyyətli keçməsi, bəzilərinin yetimçilik və imkansızlıq şəraitində böyümələri, bəzilərinin vaxtından əvvəl (T.Hobbs) dünyaya gəlmələri və ya doğulanda qüsurlu olmaları (Nyuton), anadan olandan sonra tez bir zamanda valideynlərini itirmələri (J.J.Russo). Buna baxmayaraq, bu şəxslərin bəziləri uzun ömür – Platon 80 il, Hobbs 92 il yaşamışlar. *İ.Nyuton Qalileyin və İngiltərədə böyük vətəndaş müharibəsinin başlandığı ildə anadan olmuşdur. Onun atası qəflətən öldüyündən o atasını görməmişdir. Nyuton vaxtından əvvəl, olduqca zəif, nəfəsi güclə gələn, başı bədəni üzərində dayanmayan (bunun üçün boynuna korset taxılırdı) vəziyyətdə qeyri-adi uşaq kimi doğulmuşdur. Onun yaşamasına ümidlər itmiş, dəfələrlə onu ölmüş hesab etmişlər və ilahidən kömək diləmişlər. Lakin Nyuton 85 il yaşamış, bütün dünyanı heyrətləndirən yerin cazibə qanunu daxil olmaqla üç mexaniki qanun kəşf etmişdir*[1]*;*

11) *təqiblərdən qorxaraq öz əsərlərini anonim müəllif adı ilə nəşr etdirmələri;*

1 Корцев В.П. Ньютон. ЖЗЛ. М.: Молодая гвардия, 1987, с.10

12) qədim dövrdə Yunanıstan ərazisində anadan olmuş uşaqların gələcək taleyini öyrənmək üçün valideynlərinin onları *Delf məbədinə aparmaları və orakulun* (yerdən gələn səs) səsinə qulaq asmaları; Likurq, Pifaqor, Sokrat, Platon və başqalarının müdrik olmalarını və yeniliklər gətirəcəklərini orakul əvvəlcədən xəbər vermişdir;

13) *mütəfəkkirlərin varislərinin–davamçılarının olmaması, ailə məsələlərinin, şəxsi həyatının arxa plana keçməsi, bəzilərinin ailə qurmaması.* Monteskye uşaqlarına qayğı göstərmiş, həyat yoldaşına böyük hörmət bəsləmiş, yalnız onu evdən bayıra buraxmamış, özü isə qadınların əhatəsində olmasını xoşlamışdır, J.J.Russo qadınlar (Varans, Baronessa Bezonavol, xanım Dyupe) hesabına öz karyerasını qurmuşdur. Sonralar ailə qurmuş, 5 uşağı olmuş, onları isə maddi imkansızlığa görə uşaq evlərinə vermişdir;

14) *bəzi müdriklər öz konsepsiyalarını, səmadan gələn «nurlanma» (J.J.Russo) və ya yuxuda (İbn Sina) görmələri ilə əlaqələndirir. J.J.Russo nurlanmasını belə təsvir edir: «Mən Venesens qəsrində həbsdə saxlanılan Didroya baş çəkməyə gedəndə, yolda birdən «nurlanma» hiss etdim, işıq axını gözlərimi qamaşdırdı, mən sarsıldım, başa düşülməyən həyəcan keçirtdim, ictimai sistem çox aydınlıqla qarşımda durdu, o qədər həyəcanlandım ki, az qaldı şüurumu itirim». Roman Rollan sonralar öz əsərində bu deyilənləri inandırıcı həqiqət kimi göstərmişdir*[1]*. İbn Sina bəzən elmi məsələləri yuxuda görürdü. Müsəlmanların müqəddəs kitabı «Qurani-Kərim» ilahidən nazil olmuş, dünyaya ilk sivilizasiya gətirən Şumerlərin başqa planetdən gəlmələrlə əlaqədar olmasını şumerşünaslar ehtimal edirlər;*

---

1 Манфред АЗ. Три портрета эпохи Великой Французской Революции. М.: Мысль, 1978, с.34

15) universal biliyə malik olmaları, gənclik illərində məşğul olduğu elm sahələrini qoyub, başqa istiqamətdə ölməz konsepsiyalar yaratmaları (Aristotel, C.Lokk gənclikdə həkimlik sənəti, əl-Fərabi, İbn Sina, J.J.Russo musiqi sənəti ilə məşğul olmuşlar. Onların əksəriyyəti həndəsə və riyaziyyat elmini yaxşı mənimsəmişlər. *Hobbs Evklidin «Həndəsənin başlanğıcı» kitabını oxuduqdan sonra öz siyasi traktatının məntiqini həndəsə üzərində qurmuşdur, Pifaqor «Ən müdrik rəqəmlərdir», «İlahi bu rəqəmlərin rəqəmidir», «Kainatın əsasını rəqəmlər təşkil edir» prinsipləri üzərində öz təlimini yaratmışlar. Platonun Akademiyasının qapısında yazılırdı: «Həndəsəni bilməyən heç kəs buraya daxil ola bilməz»;*

*16) bəziləri hökmdarların himayəsində olmalarına baxmayaraq yemək, içmək, geyməkdən həzz alıb, nəticəsiz və aqibəti olmayan arzu və məqsədlər ardınca getməmiş, saray alimi olmamış, zəngin və dəbdəbəli saray həyatından imtina etmiş və cüzi dolanışıqla kifayətlənmişlər. əl-Fərabi imkanlı olmasına baxmayaraq, saray xəzinəsindən gündə 4 dirhəmdən artıq pul götürüb xərcləməmişdir. I Şah Abbas Tusi dühasının şəxsiyyətinə böyük ehtiram bəslədiyindən, Tusi övladlarının yaşadığı Ordubad əhalisini vergidən azad etmişdir; Roma sərkərdəsi – Konsul Sulla Afinanı işğal edərkən oranın müdriklərinə ehtiram göstərərək oranı yandırmamış, yalnız Aristotelin lülə şəklində tapılmış, hörümçək toruna və toz basmış əsərlərini götürmüş, Romaya gətirmiş və onların öyrənilməsinə şərait yaratmışdır;*

*17) hər bir filosof özündən əvvəlki hansısa bir müdriki özünə ideal model kimi qəbul etmiş, onların ideyaları əsasında öz təlimlərini yaratmışlar.* Platon Sokratı və Pifaqoru, Siseron Platonu, əl-Fərabi, İbn Sina Aristoteli, Hegel Jan-Jak Russonu, Nəsirəddin Tusi yunan filosofları ilə yanaşı əl-Fərabi, Əl-Bi-

runini, İbn Sinanı özünə qaranlıqda məşəl kimi qəbul etmişlər;

18) əsas düşündürücü amillərdən biri Şərq alimlərinin əsərlərindən, onların ideya və konsepsiyalarından istifadə edən bəzi Avropa klassikləri (dövlətçiliklə bağlı əsərlərində) onlara istinad etməmələri. *T.Hobbsun traktatında göstərilən orqanik nəzəriyyə, müqavilə nəzəriyyəsi əl-Fərabinin ideal cəmiyyət əsərində, Kopernikin günəş kainat modeli, Darvinin təkamül nəzəriyyəsi, Nyutonun mexanika qanunlarının ruşeymləri Nəsrəddin Tusinin əsərlərində göstərilmişdir. Amerika qitəsinin mövcudluğunu da ilk dəfə N. Tusi demişdir.*

*Pifaqorun ruhun bir bədəndən başqasına keçməsi ideyası şərqdən, əsasən Misirdən, Avropadan rəqəmlərin kainatın əsasının təşkili haqqında təlimi şumerlərin 60, 120, 360 və s. rəqəmlərinə oxşardır, Demokritin atom nəzəriyyəsinin onun ilk müəllimi olmuş fars xaldeylərindən götürülməsi ehtimal olunur;*

19) filosoflar öz konsepsiyalarında da *nəzəriyyə və təcrübəyə vəhdətdə baxmışlar. Nəsirəddin Tusiyə görə elm başlanğıc, təcrübə son; elm səbəb, təcrübə isə nəticədir. Onlardan bir qrupu təcrübəni, yəni gördüklərini səyahət etməklə başqa ölkələrin dövlətçilik formasını, qanunlarını, orada yaşayan insanların həyat tərzini, milli ənənələrini öyrənmiş, sonra nəzəri cəhətdən zənginləşdirmiş və konsepsiyalar yaratmışlar (Platon, Pifaqor, Bekon, Hobbs, Monteskye, J.J.Russo və s). «Təcrübəni məharət yaradır, təcrübəsizliyi – təsadüf» (Aristotel); «Nəzəriyyə – qəlbdir, təcrübə elmin vicududur. Nəzəriyyəsiz fikir dəryasında və faktlar meşəsində asanlıqla azmaq olar» (D.Mendeleyev); «Kim ki, həyatını elmsiz praktikaya həsr edir, o, kompassız yola çıxan matrosa oxşayır; o heç zaman inanmır ki hara üzür» (Leonardo da Vinçi).*

*Bir qrupu isə yalnız tarixi faktları öyrənib təhlil etməklə öz konsepsiyalarını yaratmışdır. Aristotel heç yerə səyahət etmədən oxuduğu əsərlər, təhlil etdiyi 158 ölkənin dövlət idarəçilik formasını müqayisə etməklə, öz dahilik istedadından istifadə etməklə ölməz «Politiya» əsərini yaratmışdır. Makiavelli Qədim dövr, o cümlədən Roma tarixini və b. öyrənib Florensiyada baş verən gerçəkliklər ilə müqayisəli təhlil etməklə öz «Hökmdar» və başqa əsərlərini yaratmışdır. T.Cefferson, A.Hamilton, C.Medison və b. konstitusion islahatları ABŞ demokratik dövlətinin yaranmasını və bü gün də bütün dünya demokratik yönlü dövlətlərə nümunə olmasını təmin etmişdir.*

Bekon birinci filosofdur ki, öz fəlsəfəsini təcrübə elmi üzərində qurmuşdur;

20) bəzi filosofların öz əsərlərini *şifahi formada söyləmələri (Pifaqor, Konfutsi, Sokrat) və ya esse (qısa xülasə) şəklində yazmaları (əl-Fərabi, E. Bekon). Pifaqorun şifahi təlimi Pifaqorçuluq məktəbinin və Pifaqor davamçılarının əsas ideya xətti olmuşdur. Konfutsinin dediklərini tələbələri Lui Yuq – «Mühakimə və söhbət» əsərində cəmləşdirmiş, Sokratın təlimi Platonun dialoqlarında verilmişdir;*

21) bu müdriklərin hikmətli sözləri-aforizmləri ilə dünya elm və ədəbiyyatını zənginləşdirmişlər.

Yuxarıda göstərilən xüsusiyyətlərin əksəriyyətini universal olmaqla, hər bir müdrik və klassiklərdə də görmək mümkündür.

# II BÖLMƏ.

# D Ö V L Ə T

# II FƏSİL.
~~~~~~~~~
# DÖVLƏT MEXANİZMİ

• *Qanunverici hakimiyyət – dövlətin ürəyi, icra hakimiyyəti – beynidir.*
*Yalnız güclü dövlət öz vətəndaşlarının azadlığını təmin edir.*

***J.J.Russo***

• *Ailə dövlət və cəmiyyətin miniatürüdür.*

***Konfutsi***

• *İgidlik dövləti yaradır, fəzilət onu qoruyur; cinayətlər dövləti namussuzluğa, laqeydlik və qeydsizlik isə onu despotizmə aparır.*

***O. Mirobo***

## 2.1. Dövlət mexanizminin məzmunu[1]

• *Dünya zəhərli ilan kimidir. Dərisi yumşaq olsa da, içində yumşaq zəhər vardır. Aldanan cahil ona yönələr, ağıl sahibi isə ondan uzaqlaşar.*

• *Nəfsi ram, qazancı təmiz, niyyəti yaxşı, əxlaqı gözəl olan necə də xoşbəxtdir.*

***Həzrət Əli***

Dövlət mexanizmi dövlət hakimiyyəti, dövlət aparatı, idarəetmə və kadr vasitəsi ilə həyata keçirilir. «Mexanizm» ümumi istifadə olunan və ümumi elmi termindir. Xarici sözlər lüğətində «mexanizm» (yun. mexan alət, maşın): 1) ci-

---

1 Məzmun – predmeti yaradan elementləri xarakterizə edən əsas əlamət və münasibətlərin məcmusudur.
~~~~~~~~~

simlər sistemini göstərən hərəkətin verilməsi və dəyişilməsi üçün quruluşdur; 2) hər hansı sistemin daxili quruluşudur (qurğudur); 3) vəziyyət və proseslərin cəmidir[1].

Mexanizm təzahür və proses kimi xüsusiyyətlərinə: *birinci*, ən geniş mənada bu anlayış onun struktur quruluşunun mürəkkəbliyi; *ikincisi*, onun elementlərinin təşkilinin sistemliyi və uyğunluğu; *üçüncüsü*, dinamikliyə, müəyyən məqsədyönlü fəaliyyətə yönümlülüyü; *dördüncüsü*, özünü idarəetməyə və ya kənar idarəetməyə meylliliyi daxildir[2].

*«Dövlət mexanizmi»* termininin baza elementini *«mexanizm»* anlayışının özü tutur. Mexanizm öz konstruksiya və təyinatına görə müxtəlif olur, əksər halda maşın, pribor və qurğuların əsasını təşkil edir. Mexanizm idarəetməyə dinamiklik verir. *Hüquq elmində «mexanizm» anlayışı məcazi mənada işlədilir və hansısa sistemin daxili quruluşunu ifadə edir. Hər şeydən əvvəl bu termin təbii və texniki elmlərdən götürülmüşdür. «Mexanizm» anlayışını cəmiyyətin, dövlətin, iqtisadiyyatın, regionun, müəsisənin idarəetməsində tətbiq etmək olar.*

Milli və xarici elmi ədəbiyyatda dövlət mexanizminin çox aspektivliliyinə diqqət yetirilir və onun təşkilati, funksional xüsusiyyətləri, quruluş prinsipləri təhlil olunur. Milli hüquq elmində hazırda bu institutun vahid anlayışı problemi yoxdur və bu, həll olunmayıb.

Hüquqi ədəbiyyatda **dövlət mezanizmi** öz vəzifələrini və hakimiyyət funksiyaların həyata keçirməkdə sıx qarşılıqlı əlaqədə olan dövlət orqan və təşkilatlarının mürəkkəb sistemi»; «cəmiyyətin idarəetməsini həyata keçirən, dövlət

---

1 Словарь иностранных слов. 16- изд. М., 1988, с.317

2 Щундиков К. В. Правовые механизмы: основы теории. Государство и право, 2006, № 12, с.13

fəaliyyətinin əsas istiqamətləri realizə edən orqanların məcmusu» kimi baxılır.

«Dövlət idarə və təşkilatlarına verilmiş hakimiyyət səlahiyyətlərini, cəmiyyətin idarəetməsinin realizəsi üzrə öz fəaliyyətini bilavasitə həyata keçirən qanunvericilik prinsipləri əsasında daimi fəaliyyət göstərən orqanlar sistemi»; «Daimi funksiyalarını həyata keçirən dövlət hakimiyyətinə malik olan və ya olmayan bütün dövlət orqanları»; «Bir biri ilə qaşılıqlı əlaqəli dövlət orqanları və idarələrin tam iyerarxik sistemi»; «Dövlət hakimiyyətinin, dövlətin vəzifə və funksiyalarının və cəmiyyətin işlərinin idarəetməsini həyata keçirən orqanlar, ümumi işləri təmin edən fəaliyyət göstərən dövlət orqanları və dövlətin başqa əsas institutlar sistemi» kimi baxılır[1].

Müasir dövlət mexanizmi hakimiyyətlərin bölgüsü əsasında yaradılmış – dövlətin vəzifə və funksiyalarını bilavasitə həyata keçirən dövlət orqanları kimi qəbul edilir.

Dövlət mexanizmi anlayışını təhlil edərək aşağıdakı xarakterik əlamətləri ayırmaq olar:

Bu dövlət orqan və idarələrinin bütöv iyerarxik sistemidir. Onun bütövlüyü dövlət orqanlarının və idarələrinin təşkilinin və fəaliyyətinin vahid prinsipləri və onların vahid vəzifə və məqsədləri ilə təmin edilir.

Mexanizmin ilkin struktur hissəsi (elementləri) dövlət qulluqçularının işlədiyi dövlət orqanları və idarələrdir. Dövlət orqanları öz aralarında subordinasiya və koordinasiya ilə əlaqələndirilir.

Dövlət mexanizmində şaquli və üfiqi əlaqələr böyük

1 Рзаев А. Г. Государственный механизм и государственный аппарат: сущность и их соотношение. Elmi əsərlər, 2014, № 1 (22), с. 179

əhəmiyyət daşıyır. *Şaquli əlaqələr* – dövlət orqanlarının bir-birinin tabeçiliyini şərtləndirən iyerarxik əlaqələrdir. Bu əlaqələr növü yuxarı və aşağı orqanlar arasında birbaşa və əks əlaqə ilə təmin olunur. *Üfiqi əlaqələr* – subordinasiya əlaqələri əsasında ümumi vəzifələri yerinə yetirmək üçün hərəkətlərin koordinasiyası dayanır.

Dövlət hakimiyyətini təmin etmək üçün hər bir dövrün texniki səviyyəsinə, dövlətin keçinə bilmədiyi məcburetmə aparatı (silahlı qüvvələr, həbsxanalar) mövcuddur.

Mexanizmin köməyi ilə hakimiyyət praktiki həyata keçirilir və dövlətin funksiyaları yerinə yetirilir, öz vətəndaşlarının qanuni maraq və hüquqlarının etibarına təminat verilir və mühafizə olunur.

Dövlət mexanizmini başa düşmək üçün geniş yayılmış aşağıdakı baxışlar vardır:

– *birinci,* dövlət mexanizminə geniş və dar mənada baxılır. Dar mənada dövlət hakimiyyəti, geniş mənada – cəmiyytin sistemidir;

– *ikinci,* ənənəvi olaraq dövlət mexanizminə dövlət hakimiyyət aparatı, yəni dövlət orqanları sistemi kimi baxılır (dövlət mexanizmi və dövlət apparatı eynilik təşkil edir);

– *üçüncüsü,* dövlət mexanizminə bütün dövlət orqanları: təşkilat, müəsisə və əlaqələrin sistemi kimi xarakterizə olunan genişlənmiş şəkildə baxılır, yəni dövlət mexanizmi – bu yalnız dövlət hakimiyyət orqanlarıqnın qanunverici, icra, məhkəmə yox, dövlət təşkilatları, müəssələri, idarələri (təhsil, elmi, səhiyyə və b.) və həmçinin maddi əlavələr (ordu, mühafizə orqanları, islah əmək müəssələri və b.) cəmi kimi baxılır;

– *dördüncü,* dövlət mexanizmi – dövlət orqanlarının funksiya göstərməsi və dinamikasıdır.

Dövlət mexanizminin strukturu onun daxili quruluşu, onun bölmələrinin yerləşmə qaydaları, onların bir birinə tabeçiliyi, nisbəti və qarşılıqlı əlaqəsi kimi başa düşülür. Əgər struktur sistemin təşkilini göstərirsə, mexanizm sistemin funksional rolunu göstərir. Başqa sözlə, struktur sistemin daxili təşkilinin topologiyasını, mexanizm bu sistemin təsir mexanizmi, funksiya göstərməsini əks etdirir. Beləliklə, struktur idarəetmənin statistikasını, mexanizm onun dinamikasını göstərir. Yalnız mexanizm daxilində statistik elementlərin mexanizmi daxili qarşılıqlı təsirin dinamikasının vəhdəti dövlət mexanizm sistemini yaradır.

XX əsrin 30-cu illərində L.Bertalanfi sistemli təhlil fikrini irəli sürmüşdür ki, bu da obyektin xassələrini onun hisslərinin xassələrinə əsasən müəyyən etməyi nəzərdə tutur.

Onun fikrincə tədqiq olunan obyektə sistem halında baxılması üçün o bu tələblərə cavab verməlidir:

1. Obyekt (bütöv) xırda sistemlərdən (hissələrdən) ibarət olmalıdır.

2. Xırda sistemlərin bir sistem halında birləşdirilməsi qarşıya qoyulan məsələnin formula edilməsiniə (tədqiqatın məqsədinə) kömək etməlidir.

3. Xırda sistemlərin bütöv sistemdəki əlaqəsini səciyyələndirən xüsusiyyətlər müəyyən olmalıdır.

4. Sistem özü daha böyük sistemin bir hissəsi olmalıdır[1].

Hələ qədim yunan filosofu Anaksaqor demişdir: *«Kiçik ən kiçik deyil, həmişə ondan da kiçiyi var. Belə ki, varlığı nə qədər çox bölsən, yenə bölünməklə yox olmaz».* «Tikəni» - xırdanı nəzərə almaq və təhlil etmək – elm və incəsəntin ən güclü

1 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.3-4.

imkanlarından biridir[1].

Sistemlərin əksəriyyəti Pareto qaydası üzrə işləyir: qaydaya görə sistemi səciyyələndirən çoxlu amildən yalnız bəzisi mühümdür. Həqiqətən sistemlərin əksəriyyətində amillərin 20%-i sistemin 80%-ni müəyyən edir, amillərin yerdə qalan 80%-i isə yalnız 20% üçün səciyyəvidir. Professor Ayzenkinin tədqiqatı çox maraqlıdır: əqli inkişafın 80% toxumdan gəlir (genetik səbəblər) və yalnız 20%i ətraf mühitin təsirindəndir. Yenə də eyni 80% və 20%[2].

Hər sistem – tam və ayrı-ayrı hissələrdən təşkil olunur. Odur ki, dövlət mexanizminə orqanların sistemli əlaqələri xarakterikdir. Belə ki, dövlət orqanlarının vəhdəti və onların qarşılıqlı təsiri olmadan yekcins fəaliyyət mümkünsüzdür. Sistemlilik istənilən dövlət təzahürünə lazımi yekdil, koordinasiya, subordinasiya, müəyyən məqsədyönlülük və effektivlik verir.

Sistem özünün mövcudluğunu saxlamaq üçün qarşılıqlı əlaqəli hissələr arasında münasibət də göstərir. Hissələr arasında qarşılıqlı təsir ilə sistem yaranır. Beləliklə, *sistem anlayışı ümumi məqsədlərə çatmaq, bütövlüyü saxlamaq üçün müəyyən vaxt kəsiyində onu qaydaya salmaq və tənzimləməklə xarakterizə olunan çox saylı əlaqəli hissələrin, komponentlərin qarşılıqlı təsiri kimi ifadə olunur.* Sistemin səciyyəvi əlamətləri: bütövlük, yəni onu təşkil edən elementlərin xüsusiyyətlərinin cəm və tamda ayrılmaması; tamın daxilində, yerindən asılı olaraq, hər bir xüsusiyyətin qarşılıqlı asılılığın, öz xüsusiyyətlərinin mühitlə qarşılıqlı təsir prosesində göstərir; strukturluğu – sistemin davranışı ayrı-ayrı elementlərin yox, bu elementlərin birlikdə olanda xüsusiyyətidir; iyerarxikliyi

1 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s. 39.

2 Yenə orada, s.42-43.

– sistemin hər bir elementi imperativ keyfiyyət yönümlüdür, sistemin elementlərini qarşılıqlı təsirdə edir; sistemin qoyulmuş məqsədə çatmaq üçün qarşılıqlı təsirin nizamlamasıdır. Sistemin əsas komponentlərinə sistemin elementləri, elementlər arasında qarşılıqlı münasibət, alt sistem, sistemin strukturu daxildir.

Ədəbiyyatda sistemi təşkil edən elementlərin, onların qarşılıqlı əlaqə, qarşılıqlı təsir və qarşılıqlı asılılığını göstərmək üçün sistemə iyerarxiya və mürəkkəbliyi üzrə təsnifatı verilir. Təsnifata iyerarxiya üzrə 3-ü cansız, 1-i aralıq, 4-ü isə canlı sistemlərə aid 8 səviyyədə baxılır:

– *birinci səviyyə,* statik sistemlərdir. Bu, struktur sistemlərin sxemi olub hər bir sahənin təşkilati dərkidir. Məsələn, Yer kürəsinin, günəş sisteminin kartası və ya atom və molekullarının formasını göstərmək olar;

– *ikinci səviyyə,* sadə dinamik sistemlərdir. Buna əvvəldən bütün hərəkəti müəyyənləşdirilmiş saat mexanizmini göstərmək olar;

– *üçüncü səviyyə,* termostatın təmsilində sadə kibernetik sistemlərdir. Bu səviyyə sistemin özünü tənzimləməsi və verilmiş hüdudda müəyyən tarazlığın saxlanmasına imkan verən informasiyanın verilməsi və yayılması prosesini nəzərdə tutur;

– *dördüncü səviyyə,* açıq və ya özünübərpa sistemləridir. Bu səviyyə canlı və cansız arasında səddir. Bunu hüceyrələr səviyyəsi də adlandırmaq olar;

– *beşinci səviyyə,* canlı bitki səviyyəsi. Burda hüceyrələr arasında funksiyaların bölünməsi nəticəsində köklər, yarpaqlar, toxumlar və s. qruplaşmasında əks olunur;

– *altıncı səviyyə,* heyvanat aləmidir. Bitkilər aləmində olduğu kimi, onlarda yüksək inkişaf etmiş hiss orqanları

yoxdur, buraya xüsusi informasiya qəbuledicisi (gözləri, qulaqları və b.) əsəb sisteminin olması və beyin mərkəzinin hərəkət və davranış üçün imkan verən informasiyanın təşkil edilməsi daxildir;

– *yeddinci səviyyə,* insandır. İnsan özünü dərk edir, onda yüksək inkişaf etmiş hafizə, nitq qabiliyyəti, məlumatı qəbul etmək və tutuşdurmaq qabiliyyətidir;

– *səkkizinci səviyyə* sosial təşkilatdır. Sosial təşkilat rabitə kanalları vasitəsilə sistemə birləşən oxşar rolların məcmusu kimi müəyyən edilir[1].

Ədəbiyyatda dövlət mexanizmi anlayışı ilə yanaşı, dövlətin mexanizmi,dövlət idarəetmə mexanizmi anlayışı istifadə edilir[2]. Hüquqi ədəbiyyatda dövlət mexanizmini statikada həyata keçirən orqanlar kimi, dövlət mexanizmini dinamikada isə dövlətin funksiyalaşma mexanizmi adlandırmaq təklif olunur. Dövlət hakimiyyət mexanizmini, bir qayda olaraq, ya dövlət aparatı və ya dövlət mexanizmi ilə eyniləşdirirlər. Dövlət idarəetmə mexanizmi anlayışına isə struktur təşkilati və «struktur funksional» kimi baxılır[3].

Hər bir dövlət təzahürü dövlətin xüsusiyyətlərinə, dövlət idarəçilik sisteminə, dövlət quruluşuna, dövlət rejiminə uyğun yaradılır və fəaliyyət göstərir.

1. Dövlətin təyinatına xalq üçün ölkənin suverenliyini, bütövlüyünü, müstəqilliyini, daxili və xarici təhlükəsizliyini qorumaq, hüquq qaydalarının və təbiətin mühafizəsi, insan hüquq və azadlıqlarına əməl edilməsi, cəmiyyətin rifahı-

---

1 Ханика Ф. де П. Новые идеи в области управления. М.: Прогресс, 1969, с.26-27

2 Рзаев А. Г. Государственной механизм и государственный аппарат: сущность и их соотношение. Elmi əsərlər 2014, № 1 (22), s. 179

3 Там же, s.181

nın yaxşılaşdırılması, onun maraqlarının ifadə edilməsi və digər məsələləri həll etmək üçün **dövlət** yaradılır. Odur ki, dövlət cəmiyyətdən «gəlir» və onun tələblərinə, maraqlarına, məqsəd və iradəsinə xidmət edir. Dövlətin yaranması ilə insanlar təbii hüququndan vətəndaş hüququna keçir və hakimiyyət formalarının yaranma mexanizmini müəyyən edir.

2. Cəmiyyət onu idarə etmək üçün dövlətə **hakimiyyət** verir və hakimiyyət formalarının yaranma mexanizmini müəyyən edir. Hüquqi ədəbiyyatda hakimiyyət anlayışından çox istifadə olunmasına baxmayaraq, geniş şəkildə tədqiq olunmamış və ümumi kateqoriya kimi elmi dövriyyəyə daxil edilməmişdir. Hakimiyyət anlayışına ümumi tərif olmadığından bu təzahürə çoxlu anlayış verilmiş, müxtəlif metodoloji məktəblər bu fenomeni başa düşməyə və izah etməyə səy göstərmişlər. Hakimiyyət insanlar tərəfindən və insanlar üçün yaradılan mürəkkəb ictimai münasibətdir. Dövlətin ilk əsasını təşkil edən substansiyası yalnız insanlardır. Dövlət çoxlu insanların, hakimlik edənlə və hakimiyyət altında olanların münasibətidir. Hakimiyyətdə əmr verən və bu əmrə tabe olan insanlar dövlətin substratının əsasıdır. Beləliklə, dövlətin obyektiv əsas elementləri olan insanlar axır nəticədə bütün zamanlarda fasiləsiz və ümumi qaydalara görə mövcud olur. Hakimiyyət münasibətlərinin olması dövlət üçün zəruridir. Bu münasibətlərsiz dövlət haqqında fikirləşmək mümkün deyil. Hakimlik etmək – bu, öz iradəsinin icrası üçün başqalarının iradəsini nəzərə almadan məcburetmə üsulundan istifadə etməkdir. Başqalarının iradəsinə qarşı isə öz iradəsin yalnız dövlət edə bilir[1].

Hakimiyyət iqtisadi, ideoloji və təşkilati-hüquqi mexa-

---

1 Еллинек Д. Общее учение о государстве. Изд. второе. С.-Петербург, 1908, с.30

nizmlər vasitəsilə insanların, sosial qrupların, siniflərin fəaliyyətinə və davranışın xarakterinə və istiqamətinə təsir imkanları ilə xarakterizə olunan sosial münasibətlər formasıdır[1].

Hakimiyyət hər bir insan birliyinin baza xüsusiyyətlərini müəyyən edir. Hər hansı bir cəmiyyət və dövləti hakimiyyətsiz təsəvvür etmək olmaz. Bu fenomenə, demək olar ki, insanın həyat fəaliyyətində bu və ya başqa formada rast gəlinir[2]. Bütün alim və siyasətçilər hakimiyyətin tabeçilik yaranan yerdə başlandığını göstərirlər. Bir insanın başqasına tabeçiliyi əsasında təbii (fiziki, intellektual) və sosial bərabərsizliklər (status, iqtisadi) yaranır. Hakimiyyət bir tərəfdən dövlətin bütün vətəndaşlarının maraqlarına, məqsədlərinə və iradəsinə söykənir, digər tərəfdən hər bir vətəndaşa şamil edilən davranış və fəaliyyət üçün ümumi qayda və normalar müəyyən edir.

**Postindustrial** sivilizasiya konsepsiyasının müəllifi, Amerika filosofu və mütəfəkkiri *E. Toffler özünün trilogiyasının «Hakimiyyət metamorfozu: XXI əsrin astanasında bilik, var-dövlət və güc»* adlı yekun hissəsini müasir sivilizasiyanın inkişafına həsr edib. Onun əsas ideyası ondadır ki, bəşəriyyətin inkişafı üç mərhələdən (dalğadan) ibarətdir. Hər bir dalğanın öz məhsulu var. Qədim dövrdə və orta əsrlərdə **doindustrial aqrar** dalğada əsas məhsul torpaq, **industrialda** - *satış və xammalın* əmtəə bazarı, üçüncü texnoloji dalğada – postindustrial dalğada əsas məhsul informasiyadır.

**Postindustrial fazada** «bizi hakimiyyət uğrunda qlobal

---

1 Энциклопедический словарь работников кадровой службы. М.: Инфра-М, 1999, с.40

2 Hayek F.A. Hüquq, qanunvericilik və azadlıq. 3 cilddə. I c., Qaydalar və nizam. Bakı: Qanun, 2002, s.21

döyüş gözləyir. Onun əsasında nə durur? Nə zor, nə pul; yalnız **bilik** durur. O, hesab edir ki, müasir hakimiyyət strukturu əzələ gücünü, var-dövləti və ya zoru gözləmir, onun parolu – ağıldır. Tofflerə görə, ölkənin inkişafını yeni mərhələdə təmin etmək üçün dağıdıcı dalğa, biliyə əsaslanmış yeni iqtisadiyyatın genişlənməsi durur.

Bu şəkildə sənaye inqilabı üç yüz il bundan əvvəl nəhəng maddi dəyərlər – istehsalat sistemi üçün əsası qoydu. O dövrdə zor, var-dövlət və bilik daha böyük əhəmiyyət daşıyırdı. Toffler göstərir ki, bilik hakimiyyət impulsunu və mənbələrin yaxşı cəhətlərini üstələyir. Müəyyən şəraitdə hər bir element başqasına nəzarət edir. Bu üç elementin hamısı doğma evdən tutmuş siyasi arenaya qədər bütün mərhələlərdə, demək olar ki, iştirak edir[1]. Hazırda bilik, zor, var-dövlət və aralarında qarşılıqlı münasibət cəmiyyətdə hakimiyyəti müəyyən edir. Maksimum hakimiyyət bu üç alətin məharətlə bir yerdə və lazımi qaydada istifadəsi ilə mümkündür.

Bilik özü-özlüyündə yüksək keyfiyyətli hakimiyyətin mənbəyi olmaqla, həm də güc və var-dövlətin mühüm komponenti idi[2].

*«Bilik elə yeganə hakimiyyətdir ki, onu hamı əldə edə bilər. Əgər onu əldə etmisənsə, hakimiyyət bir gücdür, güc isə hər şeydir» (Raxel). «Kəlilə və Dimnə» kitabında sual qoyulur: ölkəni idarə etmək, dövləti möhkəmlətmək, könülləri fəth edib ürəkləri ələ gətirmək üçün hökmdarın hansı xasiyyəti daha yaxşıdır, helm, səxavət, ya şücaət? Cavabında: həm hökmdarın əzəmət və şövkəti, həm rəiyyətin xoş və asudə yaşaması, həm*

---

1 Рзаев А. Г. Государственная власть: сущность и проблемы. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, 2014, № 2, с. 181

2 Тоффлер Э. Метоморфозы власти: знание, богатство и сила на пороге XXI века. М., ООО Аст, 2001, с.43

*dövlətin əbədi və möhkəmliyi üçün ən gözəl xasiyyət helmdir... Çünki səxavətlə bir tayfanı razı salmaq olar, şücaət hərdən bir kara gələr, helm isə həmişə, bütün işlərdə: həm camaatla rəftarda, həm ordu idarə etməkdə, həm rəiyyət dolandırmaqda işə yarar... Helmin əsas şərti ağıllı və təcrübəli adamlarla məsləhətləşmək, nadan və cahil adamlardan qaçmaqdır...»*[1]*; Helmli insan, işin əvvəlini, sonunu bilən, keçmişi, gələcəyi düşünən bir alimdir. Onda həm elm, həm də helm vardır. Dünyada bu iki məziyyətin birləşməsindən daha yüksək fəzilət ola bilməz...*

Ümumiyyətlə, hakimiyyət anlayışına əsasən dörd element daxildir: 1) hakimiyyət münasibətlərində ən azı iki tərəfin (hakim və tabeçi) olması; 2) ikinci tərəfin birinci tərəfə tabeçiliyi; 3) hakim tərəfin məcburetmə metodundan istifadə etmək hüququnun olması; 4) hakim tərəfin verdiyi sərəncam, göstəricilərin tabeçi tərəfindən yerinə yetirilməli olduğunu tənzimləyən hüquq normalarının mövcudluğu. Beləliklə, hakimiyyət iradi münasibət olub bir istiqamətdə əmr, tələb, qanun, norma və qaydaları verən subyektin, digər tərəfdən tabeçilik, riayət etmək, icra etmək funksiyası daşıyan obyektin olmasını şərtləndirir.

Ənənəvi olaraq dövlət hakimiyyəti strukturuna hakimiyyət subyekti (dövlət, əhali), hakimiyyət obyekti (hakimiyyət kimə istiqamətləndirilib), hakimiyyət münasibətlərinin məzmunu, dövlət hakimiyyətinin həyata keçirilmə rejimi (siyasi rejim), hakimiyyət ehtiyatları, kütləvilik, suverenlik, leqitimlik, leqallıq, vergi sismteminin mövcudluğu dövlət məcburiyyəti metodları sistemindən istifadə daxildir[2].

Ədəbiyyatda hakimiyyəti ictimai, dövlət və siyasi haki-

1 Kəlilə və Dimnə. Bakı: Azərnəşr, 1982, s.246

2 Рзаев А. Г. Государственная власть: сущность и проблемы. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, 2014, № 2, c. 184

miyyətə bölürlər. Digər bölgü də aparılır: hakimiyyətin subyektinə görə dövlət, partiya, həmkarlar, ordu, ailə (Aristotel yazırdı: dövlətdə hakimiyyət ailə başçısının hakimiyyətinin davamıdır); funksiyasına görə qanunverici, icra və məhkəmə hakimiyyətləri; hakimiyyət subyekt və obyektlərin qarşılıqlı təsirinə görə totalitar, avtoritar, liberal, demokratik; sosial bazasına görə poliarxiya (çoxların hakimiyyəti) oliqarxiya (maliyəçilərin və sənayeçilərin hakimiyyəti), plutokratiya (varlı yuxarılırın hakimiyyəti), teokratiya (ruhanilərin hakimiyyəti), partokratiya (partiyanın hakimiyyəti), oxloqratiya (kütlənin hakimiyyəti) hakimiyyətlərinə bölünür[1].

Ədəbiyyatda hakimiyyətə başqa təsnifat da verirlər: səriştəliliyə əsaslanmış rasional hakimiyyət; (və ya avtoritet) tabeçilikdə olanların istismarı ilə əlaqədar yalnız güclə əldə edilən irrasional hakimiyyət; hakimiyyəti saxlamaq üçün ənənəvi hakimiyyət; iqtisadi hakimiyyət; xarizmatik hakimiyyət (subyektin istisna xüsusiyyətlərinə görə); sözsüz intizama və birgə hərəkətə əsaslanmış hərbi hakimiyyət variantı fabokratiya (qorxu) hakimiyyəti; əmr və qərar qəbul edən çoxluqdan ibarət (avtoritet hakimiyyəti) hakimiyyət[2].

Cəmiyyətdə hakimiyyət adətlərə, dinə, ənənələrə, hüquqa, demokratik institutlara əsaslanır, dövlət hakimiyyəti isə iqtisadi, ideoloji, təşkilati-hüquqi mexanizmlər vasitəsilə insanların, sosial qrupların, siniflərin fəaliyyətinə, davranışının xarakterinə və istiqamətinə təsir imkanları ilə xarakterizə olunan sosial fəaliyyət göstərir[3]. *«Ağılsıza qılınc,*

---

1 Рзаев А. Г. Государственная власть: сущность и проблемы. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, 2014, № 2, с. 184.

2 Там же, s.185

3 Энциклопедический словарь работников кадровой службы. М.: Инфера-М, 1999, с.40

*vicdansıza hakmiyyət vermək eyni şəkildə təhlükəlidir» (Pifaqor); «Hökumət od kimidir – xidmətçilər təhlükəli və sahibi qəddardır» (C.Vaşinqton); «Şirin başçılıq etdiyi qoyunların qoşunu, qoyunun başçılıq etdiyi şirlər üzərində həmişə qalib gəlir» (Napoleon); «Yalnız tabe olmağı öyrəndikdən sonra hakimiyyəti ələ al» (Solon); «Hakimiyyət insanı həmişəlik özünə aludə edən dəhşətli narkotikdir» (A.Anatolyev); «Ən pis hökmldar odur ki, özünə hökm edə bilmir» (Mark Parsi Katon); «Ali hakimiyyətin zəifliyi xalq bədbəxtliyinin ən qorxulusudur» (Pifaqor).*

Dövlət hakimiyyəti funksiyalarına görə iki tərkib hissədən: **siyasi** və **inzibati** funksiyalardan ibarətdir. **Siyasi funksiyaların** xarakterik əlaməti onun dövlətin tələb və maraqlarına uyğun öz iradəsi ilə qəbul etdiyi qərarların bütün cəmiyyət üçün məcburi xarakter daşımasıdır. **İnzibati funksiyalar** isə siyasi qərarların həyata keçirilməsinin təmin edilməsini şərtləndirir: *Siyasi hakimiyyət siyasi rəhbərlik – siyasi elita, inzibati hakimiyyət isə dövlət qulluğu vasitəsilə həyata keçirilir.*

Siyasi hakimiyyətdə siyasət həmişə ön sırada olur.

***Siyasət***[1] *– dövlət hakimiyyətinin əldə edilməsi, qorunub saxlanılması və istifadə olunması ilə bağlı fəaliyyət sahəsidir.* Siyasi fəaliyyət müxtəlif sosial qruplar, siniflər və dövlətlər arası münasibətlər üzərində qurulur. Hakimiyyət problemi ilə bağlı olan hər hansı bir fəaliyyət siyasi xarakter daşıyır. Siyasət cə-

---

1 «Siyasət» termini Azərbaycan dilinə ərəb dilindən keçib. Sözün ərəb dilindəki hərfi mənası «at təlimi» deməkdir. Bir çox qərb ölkələrində, məsələn, ingilis dilli ölkələrdə, «Politics», almandilli ölkələrdə isə «Politik» terminini istifadə edirlər. «Politics/Politik» sözü yunan sözü olan «Polis» sözündən götürülüb. «Polis» sözünün mənası şəhər deməkdir. Siyasət sözünü müasir zamanda cəmiyyət daxilində aparılan məqsədyönlü bir iş kimi başa düşmək olar.

miyyətin inkişafının müəyyən mərhələsində yaranır və o xüsusi mülkiyyətə əsaslanan *istehsal* formalarının, sosial strukturun, mədəniyyətin formalaşdığı dövrdə təşəkkül tapmışdır. Müxtəlif *sosial qruplar* öz mənafelərini qoruyub saxlamaq üçün xüsusi idarəetmə aparatını yaradırlar. Siyasi hakimiyyət müxtəlif təsisat formaları vasitəsilə həyata keçirilir[1].

Ümumiyyətlə, siyasət anlayışı haqqında dövlət xadimlərinin və mütəfəkkirlərinin müxtəlif fikirləri var: *«Böyük siasəti kiçik maraqlardan asılı etmək olmaz» (H. Əliyev); «Siyasət – qeyri-dəqiq elmdir». «Siyasət şəraitə uyğunlaşmaq və hər şeydən, hətta qadağan olunandan da xeyir götürmək məharətidir» (O.Bismark); «Siyasətçidə ürək yoxdur, onda yalnız baş var». «Böyük siyasət – bu yalnız böyük işdə qəbul olunan sağlam mənadır» (Napoleon); «Dövlət üçün dövləti kitablardan oxuduğu qaydalarla idarə etməyə səy göstərən insanlardan təhlükəli heç nə yoxdur» (Rişelye); «Hər bir siyasi xadimin böyük məharəti onda deyil ki, axımın əksinə getsin, məharəti hər bir şəraiti öz xeyrinə döndərməyindədir» (Böyük Fridrix); «Siyasət keçmişi aydınlaşdıran, bu günə rəhbərlik edən və gələcəyi proqnozlaşdırmağa qabil təcrübə elmidir» (Makiavelli).*

Siyasətçilər ən çətin vəziyyətdə belə cürbəcür hiylə, kələk işlədib, çıxış yolu tapmaqla «heç nəyi» «bir şeyə» və «bir şeyi» «heç nəyə» çevirməyi bacarırlar. Dünyanın ən məşhur diplomatı olmuş Taleyran haqqında deyirlər: «Taleyran hər zaman xəstənin yatağı başında olmuş, həmişə onun nəbzini hiss etmiş və ürəyin dayandığını hamıdan əvvəl duyurdu. Başqaları hələ bir müddət meyidə qulluğu davam etdirdikləri halda o, neçə deyərlər, rəhmətlikdən əl çəkib, varisə tərəf tələsirdi»[1].

---

1 Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, s.13

3. Dövlət öz səlahiyyətlərini həyata keçirmək üçün dövlət hakimiyyəti simasında **dövlət aparatını** yaradır.

Dövlət aparatı dövlət mexanizmini möhkəmlətməyə və təkmilləşməyə yönəlmiş iqtisadi, elmi-texniki, sosial və mədəni tədbirlər həyata keçirir. **Dövlət aparatı** *dövlət mexanizminin tərkib hissəsi olmaqla, dövlətin məqsəd və funksiyalarını həyata keçirmək üçün Konstitusiyada təsbit olunan hakimiyyətlərin bölgüsü prinsipi əsasında yaradılmış orqanlar (qanunverici, icra və məhkəmə) sistemidir.*

Dövlət aparatı dövlətin müəyyən etdiyi qaydalar əsasında yaradılır; dövlət hakimiyyətə səlahiyyətlər verir, fəaliyyət qaydası dövlət tərəfindən müəyyən edilir və o, vahid dövlət sisteminin tərkib hissəsidir. Hazırda dövlət aparatının icra hakimiyyət qolu olan Nazirlər Kabinetinin strukturuna 20 nazirlik, 10 dövlət komitəsi, 2 dövlət administrasiyası, 4 dövlət xidməti və 1 dövlət fondu daxildir. Avropa ölkələri ilə müqayisədə Azərbaycanda dövlət nazirliklərinin sayı çoxdur. Məsələn, bu gün İtaliyada 14, Almaniyada və Belçikada 11, İspaniyada 9, ABŞ-da nazirlik səviyyəsində 11 federal hökumət qurumu vardır.

Azərbaycan Respublikasının Prezidenti *İlham Əliyev* Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan 10 Yanvar 2016-ci il tarixli iclasında demişdir:

*«Bu il biz struktur islahatları aparmalıyıq. Buna ehtiyac var. Ümumiyyətlə, daha da çevik, operativ idarəetmə mexanizmi işlənməlidir. Bəzi hallarda bəzi qurumlar bir-birinin fəaliyyətini təkrarlayırlar. Buna yol vermək olmaz.*

*Struktur islahatları mütləq aparılmalıdır. Bəzi hallarda süni şəkildə iş yerləri yaradılır. Misal üçün, insanlar işləmirlər, amma onlara maaş yazılır. Sonra o maaş onun-bunun cibinə*

*gedir. Bu hallara son qoyulmalıdır. Ona görə, çox ciddi maliyyə nəzarəti, ictimai nəzarət, dövlət nəzarəti olmalıdır. Lazım olmayan qurumlar ləğv edilməlidir və bu istiqamətdə yaxın gələcəkdə addımlar atılacaqdır».*

Sovetlər dövründə dövlət aparatına bir sinfin digərini əzmək mexanizmi- fəhlə diktaturası kimi baxılmış, yarandığı gündən sinfi mübarizədə bir alət kimi istifadə edilmişdir. Bu dövrdə dövlət hakimiyyəti dövlət aparatında cəmləşmiş, o isə öz növbəsində kommunist partiyası tərəfindən idarə edilmişdir. Q. V. Atamançuk hesab edir ki, Sovet dövründə bütün bizim bəlalarımız, əzablarımız, yoxsulluğumuz, geri qalmağımız, daimi böhranlar və başqa təzahürlərin əsas daxili mənbəyi, səbəbləri, hərəkətverici qüvvəsi dövlət aparatı olmuşdur[1].

Müasir dövlət aparatının yaranması Azərbaycanın müstəqillik və suverenlik əldə etdikdən sonra apardığı islahatlarla bağlıdır. İslahatlar nəticəsində dövlət aparatının tərkib hisəsinin bütün elementlərinin məzmun və mahiyyətində, strukturunda keyfiyyət dəyişikləri aparılmış, demokratik hüquqi dövlət, hakimiyyətlərin bölgüsü prinsipləri tətbiq edilmiş və inkişaf etmiş xarici ölkələr modelinin bəzi elementləri bazar münasibətlərinə və Azərbaycan xüsusiyyətlərinə uyğun transformasiya olunmuşdur.

Hazırda dövlət aparatı yeni mahiyyət kəsb edir və müxtəlif istiqamətlərdə fəaliyyət göstərir. Bir istiqaməti qanunvericilik fəaliyyəti, qanunların icrası və vətəndaşların məhkəmə müdafiəsi, digər istiqamət daxili qaydaları, təhlükəsizliyi, xarici əlaqələri möhkəmlətmək, dünya birliyi ilə qarşılıqlı münasibətləri genişləndirməkdir. *Dövlət aparatı bütün dün-*

---

1 Атаманчук Г.В. Сущность государственной службы. Издание второе, дополненное. М.: РАГС, 2008, с. 13

*yada qəbul olunduğu kimi üç istiqamətdə:* **idarəetmə; daxili və xarici təhlükəsizlik və hüquq qaydalarının qorunması** sahəsində fəaliyyət göstərir. Bu funksiyaların yerinə yetirilməsində seçilmiş idarəçilik formaları-monarxiya (mütləq, dualist, parlament monarxiyaları) və respublika (prezident, parlament, yarımprezident respublikaları); dövlət quruluş formaları (unitar, federativ, konfederativ) xüsusi əhəmiyyət daşıyır. Belə ki, hər bir idarəçilik və dövlət quruluş formasına uyğun dövlət aparatı, dövlət idarəetməsi və dövlət qulluğu seçilir.

4. Dövlət öz məqsəd və vəzifələrini mühüm funksiyalarından biri olan **dövlət idarəetməsi** ilə realizə edir. İdarəetmə o zaman həyata keçirilir ki, idarəetəmə təsiri idarəetmə subyekti tərəfindən real formalaşır, idarəolunan obyekt tərəfindən bu təsir şüurlu, düşünülmüş şəkildə qəbul edilir. İdarəeimə mexanizminin effektliyi subyektlə obyektin birbaşa və əks-əlaqələrinin düzgün qurulmasıdır. Obyektdən subyektə gedən əks-əlaqə kanalı üzrə məlumatların çatdırılması düzgün qurulmadıqda, obyektin real vəziyyəti subyektin nəzərindən kənarda qalır, obyektdə pərakəndəlik yaranır.

Bəşəriyyət yeni, üçüncü minilliyə daxil olmuşdur. Bu dövrdə hər hansı bir problemin **idarəetmə** və **dövlət qulluğu** olmadan, onlardan kənar həyata keçirilməsi mümkünsüzdür. Respublika müstəqilliyi, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, yeni iqtisadi sistemə - bazar iqtisadiyyatına keçid dövlət idarəetməsinə yeni prizmadan baxmağı, onun əsas inkişaf istiqamətlərini müəyyən etməyi tələb edir. Prinsipcə bütün dövlət təzahürləri idarəetmə ilə tənzimlənir və məzmun alır. Dövlət cəmiyyətin siyasi hakimiyyəti olmaqla öz məqsəd və vəzifələrini əsasən dövlətin və dövlət hakimiyyətinin əsas funksiyası olan *idarəetmə* vasitəsilə həyata

keçirir. Dövlət idarəetmənin subyekti, cəmiyyət isə onun obyekti kimi çıxış edir.

Dövlət idarəetməsi cəmiyyətin həyat fəaliyyəti prosesində insanların qarşılıqlı təsirini və əlaqələrini şüurlu nizamlamasıdır. Sovetlər dövründə dövlət idarəetmə anlayışına dövlət orqanlarının icra və sərəncamverici fəaliyyəti kimi baxılırdı[1].

Azərbaycan Respublikasında aparılan iqtisadi və hüquqi islahatlar nəticəsində dövlət idarəetmə sistemində köklü dəyişikliklər edilmişdir. Azərbaycanın yeni konstitusiyasında hakimiyyətlərin bölgüsü prinsipi tətbiq edildikdən sonra *dövlət idarəetmə orqanları icra hakimiyyəti subyektlrinə dəyişdirilmiş, əmək bölgüsü hakimiyyət bölgüsü ilə əvəz edilmişdir.* Buna baxmayaraq, idarəetmə öz əvvəlki mahiyyətində qalır. Həqiqətdir ki, bəşəriyyətin üçüncü minilliyə daxil olduğu dövrdə hər hansı bir problemin idarəetmədən kənar həyata keçirilməsi mümkünsüzdür. İdarəetmə ailədən tutmuş hər bir cəmiyyətin və dövlətin ayrı-ayrı elementlərinə (təşkilat, kollektiv, dövlət orqanına) xasdır. İdarəetmə orqanları və icra hakimiyyəti orqanları idarələrinin icra hakimiyyəti orqanları və icra hakimiyyəti orqanları aparatına dəyişdirilməsinə baxmayaraq dövlətin, dövlət aparatının idarəetmə funksiyası dəyişilməz qalır.

Dövlət cəmiyyətin siyasi hakimiyyətini təmsil etməklə öz məqsəd və vəzifələrini dövlət idarəetməsi vasitəsilə həyata keçirir. Dövlət idarəetməsini başqa idarəetmə forma və növlərindən fərqləndirən əlamət, onun iqtisadi, sosial, hüquqi, mədəni, təhsil, səhiyyə və s. sahələr daxil olmaqla, bütün cəmiyyəti əhatə etməsidir. İdarəetmə cəmiyyətin inkişaf

---

1 Атаманчук Г.В. Управление в жизнедеятельности людей. М.: РАГС, 2008, с. 39.

prosesində sadə əmək fəaliyyətindən mürəkkəbə, bir səviyyəli idarəetmədən çox səviyyəli dövlət idarəetməsinə keçir. İdarəetmənin mahiyyətini və mexanizminin hərəkət sxemini *klassik kibernetik sistem olan insanın özündə görmək olar.* **Kibernetika** (yunanca – idarəetmə məharəti) idarəetmə haqqında elm olmaqla o, texniki, bioloji, iqtisadi, sosial, inzibati və insan orqanizminin əsəb sistemində, cəmiyyətin idarə etməsində eyni prinsiplə fəaliyyət göstərir. *İnsan özü idarəedici blokdan – beyindən və idarəolunan blokdan – bədəndən və bu iki bloku bir-biri ilə əlaqələndirən birbaşa və əks-əlaqə kanallarından - əsəb, qan dövranı və başqa kanallardan ibarətdir.* İdarəetmə blokunda bilik, təcrübə və tərbiyə ilə əldə edilmiş və irsdən gələn proqram mövcuddur. Bu proqram üzrə sistem işləyir. Bu sistem universal olmaqla eyni qaydada ailədə, kollektivdə, dövlət orqanında və dövlətdə işləyir.

İnsan orqanizmi avtomatik idarəetmə funksiyasını yerinə yetirir. İdarəetmə mərkəzi sayılan beyində əsəb sisteminin mərkəzi yerləşir[1]. İnsanın əsəb sistemi möhkəmliyi ilə fərqlənir. O, əsəb toxumalarından, əsəb toxumaları isə əsəb hüceyrələrindən və neyronlardan ibarətdir. Əsəb sistemi iki mühüm funksiya: ətraf mühitlə insanı əlaqələndirir və orqanizmin bütün hissələrinin fəaliyətini *koordinasiya və idarə edir.* Ətraf gerçəkliyi əks etdirən şüur beyinin fəaliyyəti prosesində yaranır, inkişaf edir və formalaşır[2]. İdarəetmə idarəedən subyekt, idarəolunan obyektlər və bunların birbaşa və əks-əlaqələrindən ibarət bir sistemdir. İdarəetmənin mahiyyəti idarəedən və idarəolunan sistemin – idarəetmə subyekti

1 Рзаев А. Г. Управление жизнедеятельностью общества, государства и человека: сущность и характерные черты. Elmi əsərlər, 2014, №2(23), s.252

2 Психология, под ред. Крутского В. А. М.: Просвещение,. с.17

və obyektinin formalaşmasıdır. Bütün dövrlərdə idarəetmə problemi mütəfəkkirləri narahat etmişdir. *«İdarəetmə siyasətdir». «Siyasəti yaxşı bilən idarəni əlində saxlar» (Hz. Əli). «Hər kəndi, hər on kəndi, hər yüz kəndi, həmçinin həmin kəndi idarə edən ağsaqqal təyin olunmalıdır» (Manu qanunları); «Ən çətin sənət idarəetmə sənətidir» (K. Veber).*

Dövlətin cəmiyyətlə bağlılığı vətəndaşlar vasitəsilə, yəni onların Konstitusiyada təsbit olunmuş dövlət idarəetməsində praktiki iştirakını şərtləndirir. İdarəetmə subyektləri ilə istehlak dəyəri olan maddi, sosial və mənəvi məhsul istehsalı ilə məşğul olan idarəetmə obyektləri arasında sıx əlaqəlilik idarəetmə mexanizminin dəqiq fəaliyyətinin əsasıdır. Bu əlaqələr pozularsa, idarəetmə formal xarakter daşımaqla öz mahiyyətini itirir.

4. Dövlət mexanizmini-dövlət–dövlət aparatı və dövlət idarəetməsini hərəkətə gətirən və dinamiklik verən **canlı qüvvə - kadrlar (siyasi elita və dövlət qulluğu)** xüsusi rol oynayır. Kadrlar: dövlətin adından və onun tapşırığı ilə çıxış edərək, hakimiyyət gücündən istifadə edərək, onun səlahiyyətlərinə aid məsələləri həll edir; qanunvericiliyə uyğun dövlət iradəsini təmin edir, məcbur etməni həyata keçirir; vətəndaşların hüquq və azadlıqlarının təminatında fəal rol oynayır; hakimiyyət bölgüsü prinsipi əsasında hakimiyyət qollarının hamısında fəaliyyət göstərir; inandırma və məcburetmə metodlarından istifadə etməklə dövlətin təşkilati, nəzarət funksiyalarını həyata keçirir.

**Dövlət qulluğu** dövlətin rəhbərlik-siyasi hissəsinə yox, idarəetmə hissəsinə aiddir. Dövlət, rəhbərliyi siyasi vəzifələri tutan siyasi elita, idarəetməni isə onun əsas mexanizmi olan dövlət qulluğu vasitəsilə həyata keçirir. Bütün bunlar siyasi hakimiyyətin, dövlət idarəetməsinin və dövlət qulluğunun

əlaqələrinin və qarşılıqlı təsirinin məntiqi nəticəsini göstərir. Odur кi, dövlət qulluğunun hakimiyyət sistemində yeri və rolundan asılı olaraq, cəmiyyətin effektivliyi təmin olunur. Dövlət qulluğu dövlətin məqsəd və funksiyalarını həyata keçirmək üçün ona hakimiyyət (güc, məcburetmə, təhrik etmə, avtoritet) verilir və nəticədə dövlət-qulluq münasibətləri yaranır, dövlət bu münasibətlərin subyektinə çevrilir, iradi xüsusiyyətlər ön plana keçir, imperativlik yaranır, məcburetmə aparatı fəaliyyətə başlayır. *Dövlət qulluğu idarəetmə prosesində iki mövqedən çıxış edir. Birincisi,* dövlət qulluğunun tənzimləmə sahəsinə daxil olan dövlət hakimiyyət orqanları aparatının özündə idarəetmə münasibətlərinin tərəfləri – idarəetmə subyekti və idarəetmə obyekti qismində dövlət qulluqçusu çıxış edir. Bu halda dövlət qulluqçusu vəzifə iyerarxiyası üzrə yuxarı səviyyədə duran dövlət qulluqçusu üçün obyekt, aşağı üçün subyekt rolunu oynayır. *İkincisi,* idarəetmə mexanizmində subyekt qismində dövlət qulluqçusu, obyekt qismində istehlak dəyəri olan əmtəə istehsal edən idarə, müəssisə və təşkilat personalı çıxış edir. Burada subyektlə obyektin əlaqələrinin (birbaşa və əks-əlaqə) düzgün qurulması, bu əlaqələrin işlək və açıq olması, idarəetmə təsirinin idarəetmə obyektinə çatdırılması, obyektin bu təsiri şüurlu qəbul etməsi idarəetmə mexanizminin effektivliyini təmin edən əsas amillərdəndir.

## 2.2. Dövlət: anlayışı[1], təşəkkülü və mahiyyəti[2]

• *Dövlətin dayağını iki şey laxladır. Günahkar cəza almayanda, günahsız cəzalananda.*

***Heydər Əliyev***

• *Nə vaxt ki, dövlət ağılla idarə olunur, onda yoxsulluq və ehtiyac xəcalətli olur; nə vaxt ki, dövlət ağılla idarə olunmur, onda var-dövlət və şöhrət xəcalətli olur.*

***Konfutsi***

Dövlətin varlığının bütün tərəfləri dövlətçilik və ya dövlət haqqında elm və ayrı-ayrı tədqiqatlarda izah edilir. Dövlət haqqında tarixi tədqiqatlar göstərir ki, yer üzü (ayrı-ayrı) dövlətlərin xarabalıqları ilə örtülüb. Lakin tarixin qərq etdiyi bəzilərinin qırıntıları üzərində başqaları və ya əvvəl mövcud olmuş dövlətlər yaranır. Tarix elə bil ki, böük bir çaydır, həmişə özündə hər şeyi yığır, özündə saxlayır, xırdalayır və mənimsəməklə gələcək nəsillərə ötürür. Hər bir nəsil keçmişdən müəyyən irs alır, onlardan istifadə edir, zənginləşir[3]. Dövlət birgə yaşayış forması kimi fasiləsiz inkişaf etmiş, möhkəmlənmiş və onunla bərabər dövlət haqqında siyasi-hüquqi elm də inkişaf etmişdir[4].

Müasir dövrdə elmi ədəbiyyatda *dövlətin təbiəti,* mən-

---

1 Anlayış predmet və təzahürlərin əsas fərqli əlamətlərini əks etdirən idrak formasıdır, rəmzi mənada isə şifrələnmiş qıfılı (predmetin əsas əlamətlərini) açmaq üçün açar rolunu oynayır.

2 Mahiyyət daimi saxlanılan bütün variasiyalarda predmetin (təzahürün, prosesin) əsas əlamətlərini göstərən daxili keyfiyyətlərdir; mahiyyət öz təyinatına uyğun keyfiyyət göstəricilərinin sistemidir.

3 Атаманчук Г. В. Новое государство: поиск, иллюзии, возможность. Славянский диалог, 1996, с.38

4 Лазарев Г. М. Развитие государственной власти Древнего Мира. М.: Гос. изд-во. 1909, с.55

şəyi, ictimai həyatda rolu çoxəsrli, mübahisəli məsələlərdən olub, yeni baxışlarla səciyyələnir. Dövlətin təbiətini, onun insan həyatında yeri və rolu, onun yaranması və gələcək inkişafının amillərini, səbəblərini araşdırmağa və təhlil etməyə, demək olar ki, bütün dövrlərin filosof və mütəfəkkirləri səy göstərmiş, müxtəlif konsepsiyalar irəli sürmüşlər. Dövlətin yaranması haqqında *ideal dövlət konsepsiyası (Platon), könüllülük müqaviləsi (Demokrit), bioloji nəzəriyyə (Protaqor), patriarxal nəzəriyyə (Aristotel), xilafət nümunəsində ideal müsəlman dövləti, müqavilə nəzəriyyəsi (T.Hobbs, C.Lokk, J.J. Russo, B.Spinoza), teoloji yanaşma, hüquqi dövlət konsepsiyası (İ.Kant) və s.* mövcuddur.

Ədəbiyyatda dövlətin zəruriliyi *beş* nöqteyi nəzərdən əsaslandırılır: *dini-teoloji, fiziki, hüquqi, etik, və psixoloji*[1]. *Dini dövlət* ilahinin yaratdığı və tanrının razılığı ilə mövcud olur və ya *teoloji patriaxal,* orqanik, zorakılıq, psixoloji, ictimai müqavilə (təbii hüquq) nəzəriyyəsi, tarixi materialist nəzəriyyə[2]. Bu tip, qədim şərq dövlətlərinə və həm də Yunanıstan və Romaya xasdır.

*Fiziki və ya güc* nəzəriyyəsinə görə güclülərin zəiflər üzərində hakimiliyi kimi dövlətin hakimiyyət münasibətlərinin təbiətdən irəli gəldiyi etiraf edilir. Güc nəzəriyyəsi maddi olaraq teoloji təlimlə ziddiyyət təşkil edir. Teoloji təlim tanrının iradəsinə tabeçiliyi tələb etdiyi halda, fiziki güc nəzəriyyəsi sosial təkamülün kor-təbii qüvvələrinə tabeçiliyini şərtləndirir. Güc nəzəriyyəsinə qədimdə də rast gəlinir.

Hüquqi nəzəriyyə görə dövlət *hüququn* məhsuldur. Döv-

---

[1] Еллинек Д. Общее учение о государстве. Изд. второе. С.-Петербург, 1908, с.135

[2] Ümumi hüquq və dövlət nəzəriyyəsi: Dərslik (V.V. Lazerevin redaktorluğu ilə) Bakı: Qanun, 2014, s.44- 48

lətə ailə, patrimonal və ya müqavilə hüququ institutu kimi baxılır. a) *Dövlətin patriarxal nəzəriyyəsinə* görə dövlət tarixi olaraq ailənin genişlənməsindən yaranır. Yunanlar dövlətin yaranma prosesinə tədricən bir necə ailənin genişlənməsi, çoxlu belə böyümüş ailələrin bir sosial vəhdətdə birləşməsi kimi baxırdılar. Bu gün də Romada dövlətin ilkin ailə federasiyasının dərin izləri görünür[1]. Qədim Hindistan və Çində, onlara yaxın ölkələrdə dövlətin adekvat forması ilə patrioxal – paternalis konsepsiyaların da ifadə olunan böyük ailə və güclü qəbilə quruluşuna əsaslanan «asiya» həyat tərzi mövcud idi[2]. *Patrimonal nəzəriyyəyə* görə mülkiyyət qaydaları qədim dövrdə dövlət qaydarından əvvəldə olmuşdur. Siseron dövlətin yaranması motivini mülkiyyətin müdafiəsində görürdü[3]. Hüquqi nəzəriyyələrdə *müqavilə nəzəriyyəsi* daha mühüm olmaqla, dövlətin yaranmasının hüquqi əsasını müqavilənin tutduğunu əsaslandırır. Müqavilə nəzəriyyəsinin rüşeymlərini uzaq keçmişdə görmək olar. Dövlətdə öz mənşəyinə görə bir-biri ilə əlaqəsi olmayan insanların müqavilə əsasında birləşməsi ta qədimdən məlumdur. Protoqor insanların bir yerə yığılması, Platonun fikrincə Sofistlər ədalətsizlikdən qorunmaq üçün öz xoşu ilə qarşılıqlı razılıqdan dövlətin yarandığını göstərirdi[4]. Orta əsrlər elmi də müqavilə nəzəriyyəsinə dövlətin ilkin yaranması və dövlətdə hökmdarın müəyyən edilməsi təlimi kimi baxırdı.

Müəyyən dövrlərdə mütəfəkkir və filosofların ideya-

---

1 Еллинек Д. Общее учение о государстве. Изд. второе. С.-Петербург, 1908, с. 148

2 Атаманчук Г. В. Новое государство: поиск, иллюзии, возможность. Славянский диалог, 1996, с. 66-67

3 Еллинек Д. Общее учение о государстве. Изд. второе. С.-Петербург, 1908, с.144

4 Там же, с. 146

ları, dövlət xadimlərinin islahatları əsasında bir-birindən tam fərqli dövlət formaları yaranmışdır. *Spartada Likurqun qanunları əsasında aristokratik dövlət,* Yunanıstanda *polis-şəhər dövləti, Solon, Klisfen və Periklin* islahatları nəticəsində dünyada ilk olaraq *Afina demokratik dövlət forması, S.Tuliyın islahatları T.Lukresiya, M.Siseronun və b.* ideyaları əsasında Qədim Romada *aristokratik respublika dövlət forması (e.ə.509), N.Makiavellinin konsepsiyası əsasında İtaliya ərazisində, M.Lyuter, T.Myunserin, Almaniyada, B.Spinozanın, Hollandiyada, T.Hobbs, C.Lokkun,* İngiltərədə müxtəlif dövlət formaları yaranmışdır. Alman xalqının tarixinin və dövlət təşkilatının xüsusiyyətləri – Kansler Bismarkın səyi ilə mövcud çoxlu balaca krallıqlar, qraflıqlar, azad şəhərlər bir dövlətdə birləşdirilir.

Müqəddəs kitablarda da dövlət haqqında mütərəqqi fikirlər vardır. Məsələn, *Buddizm* dövlətin inkişafı və çiçəklənməsi üçün *yeddi bənddən* ibarət təlim formalaşdırmışdır: *birincisi*-xalq siyasi problemlərin müzakirəsi üçün mütəmadi yığılmalı, öz ölkəsini etibarlı müdafiə etməli, *ikincisi* – bütün sosial təbəqənin insanları həmrəy və mehriban yaşamalı və dövlət işlərini bir yerdə müzakirə etməli; *üçüncüsü* – qədim adətlərə hörmət etmək zəruridir, səbəbsiz onları dəyişdirməmək və vəzifə qaydalarına əməl etmək; *dördüncüsü* – cinsə və yaşa görə fərqi etiraf etmək, müəllim və yaşlılara hörmət etmək; *beşincisi* – valideynlərə ehtiram etmək, müəllim və yaşlılara hörmət etmək; *altıncı* – ulu babalara ehtiram göstərmək, səcdəgah-kilsə qarşısında ibadət etmək; cənazə duası oxutmaq və hər il onların qəbrini ziyarət etmək; *yeddinci* – ictimai tərbiyəyə əməl etmək, ləyaqətli insanları qiymətləndirmək və müəllimin təliminə əməl etmək, ona hədiy-

yələr vermək[1].

Dünya əhəmiyyətli ideyalar Fransada Volter, Ş.L.Monteskye, D. Didro, J.J.Russo, Q. Bebef adı ilə bağlıdır. Fransada azadlıq, bərabərlik və qardaşlıq şüarı altında Böyük Fransa burjuaziya inqilabının ideoloji əsasları bu ideyalardan bəhrələnmişdir. Böyük Fransa burjuaziya inqilabından sonra fransızların böyük intellektual əsasları olmasına baxmayaraq, onlar uzun müddət adekvat dövlət forması tapmamışdır. Fransada beş respublika mövcud olmuşdur. Yalnız 1958-ci ildə Şarl de Qolun avtoriteti və iradəsi hesabına yaradılan axrıncı beşinci respublika bu günədək sabitliyi saxlamaqla fəaliyyətini davam etdirir.

ABŞ-da Avropa intellektual potensialı əsasında T.Ceffersonun, T.Peynin, A.Hamiltonun, C.Medisonun və başqalarının müəllif olduğu Müstəqillik Bəyannaməsi, (iyul 1776), ABŞ Konstitusiyasının (1797) Hüquqlar haqqında Biletin (1791) qəbulu ilə dövlətçiliyin inkişafıfına tarixi sıçrayış vermişdir.

Ş.Monteskyenin irəli sürdüyü hakimiyyətlərin bölgüsü ideyası ilk olaraq ABŞ Konstitusiyasında tətbiq edilmişdir (1787). ABŞ konstitusiyası qəbul ediləndən sonra aşağıdakı fundamental prinsiplər həyata keçirilməyə başlandı:

– xalqın hökuməti xalq tərəfindən idarə olunur və xalq üçün mövcuddur;

– hakimiyyətlərin bölgüçü və qanunverici, icra və məhkəmə hakimiyyəti arasında qarşılıqlı əlaqə prinsipləri;

– nümayəndəli demokratiya, özəl şəxslərə qarşı istiqamətlənmiş (şəxsi azadlığın müdafiəsi və şəxsi ləyaqət), hökumət fəaliyyətinə nisbətdə prosedur və əhəmiyyətli məhdudiyyətlər qoyma;

– məhdudlaşdırılmış hökumət və federalizm;

---

1 Учение будды Элиста,1992, с. 208-209

– konstitusion qanunların həyata keçirilməsində mərkəzi mexanizm kimi məhkəmə araşdırması[1].

XVII əsrdə dövlətin hüquq və müqavilə ilə yaranması ideyası, XVIII əsr fərdi özbaşınalıqdan qorunmaq üçün liberal dövlət ideyası, xalq nümayəndəliyi və qanunvericilik ideyası; XIX əsrin birinci onilliyində R.Maleinin, İ.Kantın Almaniyada hüquqi dövlət nəzəriyyəsi, XIX əsrin 20-ci illərindən isə dövlət haqqında marksizm-leninizm nəzəriyyəsi yayılmışdır.

Hazırda dünya birliyinin inkişaf etmiş hissəsində dövlət-hüquq prosesləri üçün xarakterik olanlar aşağıdakılardır: *İnsan hüquq və azadlıqları, hüququn aliliyi, ictimai institutların sosial yönümlüyü, milli mənsubiyyyətdən asılı olmayaraq, vətəndaşların bərabər hüquqları, demokratizm.*

Hüquqi ədəbiyyatda dövlətin yaranması haqqında teoloji, arifmetik (klassik), hüquqi, sosioloji və texniki-kibernetik yanaşma[2] və ya teoloji, patriarxal, müqavilə və psixoloji nəzəriyyələr[3] vardır. Hələ keçən əsrin əvvəlində Qimploviç yazırdı ki, nə qədər dövlətşünas və filosof varsa, o qədər də dövlət anlayışı mövcuddur[4].

Hazırda uzun illər elmdə hökm sürən dövlət haqqında marksizm-leninizm təlimi öz hakimlik mövqeyini itirir, əsassız və qeyri-qənaətbəxş olduğu hesab edilir. Bu nəzəriyyəyə görə dövlətin mənşəyi xüsusi mülkiyyətin yaranması və cəmiyyətin antaqonist siniflərə bölünməsi ilə əlaqəlidir. Dövlət anlayışına «proletariatın diktaturası», hakim sinfin əzmək

---

1 Атаманчук Г. В. Новое государство: поиск, иллюзии, возможность. Славянский диалог, 1996, с.69

2 Чиркин В. Е. Государствоведение. Учебник. М.: Юристь, 1999, с.36-40

3 Məlikova M. F. Dövlət və hüquq nəzəriyyəsi. Dərslik. Bakı: Maarif, 1988, s.23-24

4 Гумплович Л. Общее учение о государстве. СПБ, 1910, с.36-37

aləti, bir sinfin və ya sosial təbəqənin və hakim partiyanın başqaları üzərində hakimliyi və zor mexanizmi kimi baxılırdı.

*Q. V. Atamançuk* dövlət anlayışına aşağıdakı kimi baxır:

– hazırda dövlət bütün dünyada çoxlu insanların qarşılıqlı əlaqə və qarşılıqlı təşkilinin *forma və mezanizmi* kimi çıxış edir;

– dövlət müəyyən *ərazidə yaşayan və hüququ* olan bilavasitə vətəndaşlıq vasitəsi ilə öz aralarında birləşən insanları əhatə edir. O, zadəgan qəbilə iearxiyasını aradan qaldırır və onların fərdi və sosial əlamətlərindən asılı olmayaraq, bərabər hüquqluğunu təsdiq edir;

– dövlət funksional olaraq öz vətəndaşlarının həyat fəaliyyətinin ümumi inteqrasiya olunmuş tələblərini, maraqlarını və məqsədlərini aşkar etməyə borcludur, məcburi davranış qaydalarını, qanunlar formasında ifadə edilən *ümumi iradəni* normativ verməli və təsbit etməlidir;

– dövlətin ümumi maraqları və normativ qaydaları praktiki həyata keçirilməli; həmçinin suverenliyi təsbit etmək üçün öz aparatı (müəyyən ehtiyatlar ilə peşəkar insanlardan ibarət) var;

– öz vətəndaşlarının beynalxalq münasibətlərini, azadlıqlarını, təhlükəsizliyini və dinc həyatını təmin edən, başqa ölkələrlə qarşılıqlı münasibətdə dövlət *rəsmi* olaraq cəmiyyətin maraqlarını ifadə edir[1].

Bütün elmi mənbələrdə, hazırda xarici ədəbiyyatda dövlətə demokratik mahiyyətdə *ərazi, əhali və hakimiyyət* triadasında təbii-ictimai bütövlük kimi baxılmışdır. Burada ərazi toxunulmazlığı, dövlətin və xalqın suverenliyi, dövlət hakimiyyət bölgüsü, vətəndaş azadlıqlarının və hüquq-

---

1 Атаманчук Г. В. Новое государство: поиск, иллюзии, возможность. Славянский диалог, 1996, с.5

larının tənzimlənməsi dövlətin əsas vəzifələrini təşkil edir.

Dövləti xarakterizə edən əlamətlərə daxildir: 1) hakimiyyət funksiyalarını yerinə yetirən xüsusi orqanlar və idarələr sistemi mexanizminin olması; 2) dövlət tərəfindən sanksyalaşdırılmış müəyyən normalar sistemi təsbit olunan hüququn mövcudluğu; 3) bu dövlətin yurisdiksiyasının qüvvədə olduğu müəyyən ərazinin olması[1].

## 2.2.1. Dövlətçilik və dövlət

• *Xalqın taleyi süquta sürətlə yaxınlaşanda onu yalnız dahi xilas edə bilər.*

***Hegel***

• *Dövləti xilas etmək üçün bir böyük adam kifayət edər.*

***Volter***

• *Dövlətçiliyin dövlətə nisbəti tamın hissəyə nisbəti kimidir.*

***Atamançuk Q.V.***

Elmi ədəbiyyatda dövlətçiliyi təşkil edən dövlət təzahürləri ayrı-ayrılıqda tədqiq olunmasına baxmayaraq, onların sistemli təhlili aparılmamışdır. Məlumdur ki, dövlət təzahürlərinin hər birinin özünə məxsus fərdi xüsusiyyətləri vardır. Bununla yanaşı, onların hamısında ümumilik, tarixilik, hamının maraqlarına uyğun kütləvilik prinsipləri xarakterikdir.

XXI əsrin başlanğıcında Azərbaycan dövlətçilik sistemində gedən islahatlar bu fenomenin mahiyyətini, onun struktur elementlərinin qarşılıqlı əlaqə və təsirinin tədqiqinin fundamental əhəmiyyət daşıdığını bir daha təsdiq edir. Bu sistemdə «dövlət-

1 Советский Энциклопедический словарь. М.: Советская Энциклопедия, 1987, 1600 с.330

çilik» kateqoriyasının və «dövlət» anlayışı ilə nisbətinin araşdırılması xüsusi əhəmiyyət daşıyır. Belə ki, heç bir dövlət müəyyən ictimai münasibətlər sistemindən kənar funksiya göstərə bilmir. Dövlətçilik hüquq elmində və siyasi praktikada yeni sahədir. Elmi ədəbiyyatda və siyasətçilərin çıxışlarında «dövlətçilik» və «dövlət» anlayışları çox halda eyniləşdirilir.

Dövlətin cəmiyyətdə rolu, onun şəxsiyyət və vətəndaş cəmiyyəti ilə nisbəti haqqında siyasi və hüquqi həyatın subyekti kimi, insanın və vətəndaşın statusu haqqında məsələlər müasir dövlətçiliyin mahiyyətini və əsasını təşkil edir.

Qeyd etmək lazımdır ki, milli elmdə dövlətçilik sisteminin kompleks tədqiqinin aparılmasına böyük ehtiyac var. Bizim fikrimizcə, eyni kökə malik olan «dövlət» və «dövlətçilik» anlayışlarına hissənin tamam nisbəti kimi baxılmalıdır. Hüquqi ədəbiyyatda dövlətçiliyin ən dar mənada belə dövlətə sinonim kimi baxılması qəbul edilmir.

Q. V. Atamançuk dövlətçiliyə dövlət, dövlət hakimiyyəti, dövlət aparatı, dövlət idarəetməsi, dövlət qulluğunun məcmusu kimi baxır. Onun fikrincə bu təzahürlər, elə bil ki, əlin beş barmağıdır, yalnız bir yerə sıxanda «yumruq» yaranır və onun imkanlarını formalaşdırır. Xarici ədəbiyyatda bu terminə dövlət və hüquqla əlaqəli «müxtəlif təzahürlərin cəmləşdiyi tutum kimi baxılır»[1]. Dövlətçilik sisteminin tərkib elementlərinə: 1) dövlətçiliyin funksiya göstərməsi prosesində bütün sistemin tarazlığını, balanslılığını, onun effektivliyini, möhkəmliyini saxlayan komponentlər; 2) dövlətçilik sisteminin daxilində yaranan və fəaliyyət göstərən, inkişaf edən komponentlər daxildir[2].

---

1 Корбанье Ж. Юридическая социология. М.: Прогресс, 1986, с.6

2 Зиданский В.А. Государство и личности в системе государственности. Государства и право, 2007, № 10, с.6

Dövlətçilik sistemində əsas rolu bir-biri ilə əlaqəli iki sistem dövlət – siyasi və hüquq sistemi tutur. Bunlar cəmiyyət çərçivəsində birləşir və bir-biri ilə qarşılıqlı təsirdə olur dövlətçiliyin nüvəsini təşkil edir.

Dövlətçilik sisteminin elementlərini aşağıdakı bloklarda birləşdirmək olar: İctimai münasibətlərdə, ən əsası siyasi sistemin mühüm tərkib hissəsi olan hakimiyyət münasibətlərinin əsas təşkilatçısı və tənzimləyici kimi *dövlət, dövlət hakimiyyəti* durur. Dövlətçiliyin alt sistemində, *dövlətlə şəxsiyyətin* qarşılıqlı münasibətində mənəviyyatın siyasi-hüquqi ifadəsi kimi ədalətlilik, humanizm, beynəlmiləlçilik, patriotizm, vətəndaşlıq və b. münasibətlərinə söykənən siyasi-hüquqi prinsiplər xüsusi rol oynayır. Dövlətçilikdə alt sistemin elementləri keyfiyyətində dövlətlə şəxsiyyət arasında qarşılıqlı münasibətlər: qarşılıqlı məsuliyyət, qanunçuluq, bərabər hüquq, insan hüquq və azadlıqlarına, onların maraqlarına ümumi hörmət, siyasi və ideoloji plüralizm, hüquqi və siyasi əhəmiyyətli fəaliyyət, subyektiv hüquq və vəzifələr və s. prinsiplər təşkil edir.

Dövlətçilik cəmiyyətin bütün hüquqi təşkilatlarını ifadə edən kompleks, inteqrasiyalaşdırılmış kateqoriya və sosial reallıqdır. Bütün dövlətçiliyin bünövrəsi və onun normativ əsasları hüquq sisteminin, onun əlaqələndirici və birləşdirici bölməsi **hüquqdur**. Hüququn xarakterinə görə hər bir cəmiyyətdə bütün dövlətçiliyinin mahiyyəti haqqında mühakimə yürütmək olar. Hüquq sistemi əsas elementi olan hüquqla yanaşı özündə başqa elementləri: hüquqi yaradıcılıq, ədalət məhkəməsi, hüquq praktikası müxtəlif hüquqi aktlar (normativ, hüquq tətbiqi və hüquq təsviri), hüquq normaları, hüquq münasibətləri, subyektiv hüquq və vəzifələr, hüquq idarələri (məhkəmələr, prokuror orqanları, vəkillər), həmçinin qanun-

çuluq, məsuliyyət, hüquq tənzimləmə mexanizmi, hüquq mədəniyyəti, pozitiv hüquq fəallığı, vətəndaşların təşəbbüsü və s. birləşdirir. Dövlətçiliyin təşkili və funksiya göstərməsi mexanizminin qarşılıqlı əlaqə və təsirinin daha prinsipial xüsusiyyətlərini ifadə edən ictimai-siyasi münasibətlərin məcmusu kimi **dövlət quruluşu** çıxış edir.

Azərbaycan dövlətçiliyi qədim tarixə malik olub insanların həyat fəaliyyətində mühüm yer tutur. Müsəlman Şərqində ilk olaraq 1918-ci il mayın 28-də dünyəvi, demokratik respublikanın əsasını qoymuş Azərbaycan Xalq Cümhuriyyəti – Azərbaycan dövləti yaradılmış və 23 ay fəaliyyət göstərmiş, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövlətçiliyi o zaman qabaqcıl xarici ölkələrin dövlət quruculuğu təcrübəsini öyrənməklə, Azərbaycanın tarixi ənənələrinə və milli dəyərlərinə uyğun formalaşmışdı. Azərbaycan Parlamenti yaradılmış, vətəndaşlıq haqqında qanun qəbul edilmiş, Azərbaycan dili dövlət dili elan edilmiş, dövlət rəmzləri – üçrəngli bayraq, gerb, himn yaradılmış, maarif-mədəniyyət ocaqları, Bakı Dövlət Universiteti, Qori seminariyasının Azərbaycan şöbəsi açılmış, 100 nəfər gənc Avropa ölkələrində təhsil almaq üçün göndərilmişdi.

Ümummilli lider Heydər Əliyev öz çıxışlarının birində göstərirdi: *«Xalqımızın böyük insanları 1918-ci il may ayının 28-də Tiflisdə Azərbaycanın «İstiqlal Bəyannaməsi»ni elan edərək respublikamızın müstəqilliyinin əsasını qoydular, Azərbaycan Xalq Cümhuriyyətini yaratdılar. Beləliklə, XX əsrin əvvəllərində Azərbaycanda xalqımız milli azadlığını bəyan etdi, öz milli dövlətini yaratmağa başladı. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması bizim vaxtilə itirilmiş dövlətçiliyimizi bərpa etdi, xalqımızın tarixində ilk dəfə demokratik prinsiplər əsasın-*

*da müstəqil Azərbaycan dövlətinin, hökumətinin yaranmasının əsasını qoydu. Keçən əsrin 90-cı illərinin ortalarından başlayaraq dövlətçiliyimizdə milli dəyərləri, Azərbaycan xalqının tarixi adət-ənənələrini saxlamaqla xarici ölkələrin tipoloji və ümumi sivil milli-mədəni sistemlərdən götürülmüş əlamət və elementlər vardır. Həm daxildən və həm də xaricdən qəbul edilmiş bütün bu müxtəlif əlamət və elementlər sintezi müasir demokratik, dünyəvi dövlətçiliyin yaranmasının şərtləndirilməsinə səbəb olmuşdur*[1].

Dövlətçiliyin formalaşmasına təsir edən amillərin təhlili böyük əhəmiyyət kəsb edir. Onlara daxili və xarici amilləri aid etmək olar. Bunların hər birinin xüsusi mürəkkəb strukturu vardır[2].

## 2.2.2. Dövlətin suverenliyi

• *Suverenlik dövlətin mütləq və daimi hakimiyyətidir.*

***Jan Baden***

• *Azərbaycanın Suverenliyi haqqında Konstitusiya Qanunu 1989-cu il 23 sentyabrda qəbul edilmişdir.*

Dövlətin əsas atributu olan suverenlik anlayışını **Jan Baden (1530-1596)** ilk olaraq elmi dövriyəyə buraxmışdır. O, dövləti ümumi suveren hakimiyyəti olan çoxlu təsərüfatın və ya ailələrin hüququ idarəetməsi kimi müəyyən edir. Suveren oğrular və quldurlar dəstəsindən fərqli olan hüquqi

---

1 Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. On beşinci kitab. Bakı: Azərnəşr. 1997, s.391-392

2 Бачило И.Л. Факторы, влияющие на государственность. Государство и право, 1993, №7, с.30

idarəetmədir. Belə dəstələrlə ittifaq, müqavilə və sülh bağlamaq, müharibə aparmaq olmaz. Hər hansı bir kollegiya üç nəfərdən az olanda yaradılmadığı kimi, dövlət də hökmən bir neçə ailədən (ən azı üç) ibarət olmalıdır. Dövləti təşkil edən ailələrin bir suveren hakimiyyət altında birləşməsi zəruridir. Ailələrin hakimiyyəti olmadan dövləti təşkil etmək mümkün olmur. Əgər dövlət cəmi üç ailədən təşkil olmuşdursa, onda hakimiyyət bir nəfərə, yaxud ikisinə və ya hətta hamısına məxsus ola bilər. Bununla yanaşı, dövləti təşkil edən ailələrdə nə isə ümumi olmalıdır, lakin digər tərəfdən Platonun istədiyi kimi mülkiyyəti ümumi etmək olmaz[1].

*Suverenlik dövlətin mütləq və daimi hakimiyyətidir.* Yer üzündə Tanrıdan sonra suveren dövlətdən böyük heç nə yoxdur. Suverenin əlamətlərinə: *birinci, hamı və hər bir insan üçün ümumi qanunlar vermək; ikincisi, sülh və müharibə dövrü hakimiyyətə qulluq etmək; üçüncü – vəzifəli şəxsləri təyin etmək; dördüncü, son instansiyada məhkəmə baxışını həyata keçirmək; beşinci – əfv etmək daxildir[2].* Baden üç idarəçilik formasını: monarxiya, aristokratiya, demokratiya ayırır. Qarışıq idarəçilik formasını o, mümkün hesab etmir, belə ki, suverenliyin atributu bölünməzdir. Onun fikrincə idarəçilik formalarından ən təbiisi və ən yaxşısı monarxiyadır. Dövlət bütün vətəndaşlar üçün ümumi tələbləri, maraqları, məqsədləri və iradəni ifadə edir. Dövlətin təhlili və fəaliyyəti üçün dövlətin idarəçilik və quruluşu formalarında siyasi rejim və başqa aspektlər mühüm əhəsmiyyət daşıyır. Baden hesab edir ki, cəmiyyətdə anarxiya yaranmasın deyə, monarx irsi olmalı və seçilməməlidir. Baden müxtəlif idarəçilik

---

[1] Коркунов Н.И. История философии и права. С.-Петербург, 1908, с. 117

[2] Там же, с.118

formalarından asılı olmayaraq, bütün dövlət hakimiyyətini həyata keçirmək üsullarına görə qanuni, votsin (mülkədar) və tiran hakimiyyətinə bölür[1].

Qanuni dövlətdə rəiyyət suverenin qanununa itaət edir, suveren isə rəiyyət üçün təbii azadlıq və mülkiyyəti saxlamaqla təbiət qanununa tabe olur. Mülkədar hakimiyyətində silahın gücü ilə təbii azadlığı, mülkiyyəti və insanları özünə tabe edən suveren onları ailə birliyinin atası kimi idarə edirdi.

Tiranlıq hakimiyyətində suveren təbii qanuna nifrət edir, azad insanlarla öz mülkiyyəti – qul kimi davranır. Dövlət quruluşu ilə idarəetmə qaydaları arasında fərqləri müəyyən edərək, Baden suverenliyin monarxa məxsusluğunu və orda idarəetmənin aristokratik və demokratik xarakterini müsbət dövlət quruluşu kimi qəbul edir. O, bu cür dövlətləri kral monarxiyası adladırır. Burada quruluş sadədir, idarəetmə mürəkkəb və mülayim idarəçilik formasının qarışığıdır[2]. Hakimiyyət irsi olanda onda düşmənçilik yaranır, insanlar fikirləşməyə başlayırlar ki, hökmdarlarda eşr-işrət və dəbədbəli həyat sürmək keyfiyyətləri ön plana keçir. Bu isə xalqda ona qarşı nifrət yaradırdı. Bu halda hökmdar qorxudan insanları alçaltmağa keçir və bu isə ona qarşı sui qəsdlər yaradan tiraniyaya aparıb çıxarır[3].

Xalq kütləsi keçmiş tiranı yıxaraq özünə yeni başçı seçir. Onlar isə özündən əvvəlki tiranın aqibətini yada salaraq öz fəaliyyətini ümumi xeyirə yönəldir; onların varisləri isə tamahkarlıq və şöhrətpərəstlik edərək, aristokratlıq idarəçiliyini oliqarxik formaya çevirirlər və tiranın aqibətinə tuş gə-

---

[1] Коркунов Н. И. История философии и права. С.-Петербург, 1908, с.119

[2] Там же

[3] Там же, с.113

lirlər. O zaman xalq idarəçiliyi yaranır; tezliklə bu forma tam intizamsızlığa – anarxiyaya gətirdi. Xalq yenidən monarxiyanı bərpa edir. Dövlət idarəçiliyinin bü cür dövr etməsi, əgər qonşu dövlətlərin qənimətinə çevrilmirsə, sonsuzdur və bütün dövlətlərə xasdır. Odur ki, düzgün və ya düzgün olmayan idarəçilik formaları eyni qaydada qeyri-mükəmməldir. Düzgün forma möhkəm olmadığına, qeyri-düzgün isə öz-özlüyündə yaramazlığına görə dayanıqsızdır. Onların monarxiya, aristokratiya və demokratiyanın bir yerdə baxılmasını şərtləndirən qarışıq idarəçilik formasını seçmək zəruridir. Məsələn, Romada Konsul və Senat monarxik və aristokratik idi, xalq tribunları yaranandan sonra onlara demokratik təsisat birləşdirdi. Bu qarışıq, müxtəlif başlanğıc Roma respublikasına mükəmməlik verdi. Bu mükəməllik isə senatla xalq arasında daimi çəkişmə ilə əldə edilmişdi[1]. Aristokratlarla xalq arasında ixtilaf Romanın azadlığının birinci səbəbi idi.

İtaliya mütəfəkkiri **Ganbatista Viko** 1725-ci ildə dövlət idarəçilik formalarının siklik xarakterini göstərmişdir. O, yeni elm – həqiqi tarixi istiqamətin müəllifidir.

Onun fikrincə, tarixi hərəkət tsiklik xarakter daşıyır. O, bəşəriyyətin inkişafını üç dövrə: Tanrı əsri, və ya teokratik; qəhrəmanlıq əsri və insan və ya vətəndaş əsrinə bölür. Qədim dünya öz tarixində bü üç dövrü keçirmişdir. Antik dövr mövcudluğunun sonlarında xristianlığın dirçəldilməsi ilə bəşəriyyət yenidən öz teakratik formasına qayıdır.

Vika dövlətin müqavilədən yox, hər bir idarəçilik forması üçün xüsusi əsaslardan yarandığını göstərir. Aristokratiyanın əsasında yoxsulların varlılardan asılılığı, zəif, avam və ac kütlə özünün müdafiəsi və yaşaması üçün güclülərə və

[1] Коркунов Н.И. История философии и права. С.-Петербург, 1908, с.114

varlılara öz azadlığını və əməyini verirlər. Onun fikrincə monarxiya xarici və daxili müharibələrin nəticəsində yaranır və azad dövlət demokratiya, hüquq və bərabərlik üzərində qurulur. Müxtəlif idarəçilik formasının yaranması da bu cürdür. Onların hər birinin ona güc verən prinsipi var. Aristokratiyada mənəviyatın və adətlərin hakimliyi olur, monarxiyada isə monarx, tanrının onu təyin etdiyini iddia edərək, avtoritet əldə etməyə səy göstərir. Azad dövlətdə qanunlar bütün xalqın iradəsi olduğundan qanunçuluq hökm sürür[1].

Ümumiyyətlə, dövlət anlayışı iki mənada istifadə olunur: birinci, kompleks institutlar və vəzifəli şəxslərdən ibarət siyasi təşkilat; *ikinci*, spesifik ərazi, milli-mədəni, tarixi və digər xüsusiyyətləri ilə xarakterizə olunan xüsusi şəkildə təşkil olunmuş insan birliyi. Dövlət – tarixən formalaşmış cəmiyyəti idarə edən şüurlu təşkil olunmuş sosial güc hesab olunur[2].

Dövlətə cəmiyyətin forması, onun rəsmi ifadəsi, məcburetmənin legitim mexanizmi, cəmiyyətlə insanların əlaqələndirici vasitəsi kimi də baxılır. Yalnız cəmiyyət və insan dövlətin əsasını və substratını təşkil edir. Dövlət cəmiyyətdən gəlir, onun kütləvi və legitim hakimiyyət gücüdür[3].

---

[1] Еллинек Д. Общее учение о государстве. Изд. второе. С.-Петербург, 1908, с.178

[2] Бутенко А. Г. Государство и его вчерашние и сегодняшние трактовки. Государство и право, 1973, с. 18

[3] Бачило И. Л. Факторы, влияющие на государственность. Государство и право, 1993, №7, с.19

## 2.2.3. Dövlət və cəmiyyət münasibətləri

• *Tarix insanlara müdriklik, poeziya–hərtərəflilik, riyaziyyat prinsipiallıq, təbiətşünaslıq dərinlik, əxlaq ciddilik, məntiq və ritorika özünü qoruma qabiliyyəti verir.*

***T. Maklay***

• *Həqiqəti qəbul etmək ağıllılıq, həqiqətlə yaşamaq və onu müdafiə etmək üstünlük, onu ucaltmaq üçün həyatını həsr etmək qəhrəmanlıqdır.*

***Seneka***

• *Xalqla olun, çünki Allahın əli onlardır; Xalqın qəlbi dövlət başçısının xəzinəsidir.*

***Həzrət Əli***

Cəmiyyət geniş mənada insanların tarixən təşəkkül tapmış birgə fəaliyyət formalarının məcmusu olub, canlı sistemin xüsusi, yüksək inkişaf mərhələsi kimi meydana gəlmişdir. Bu, özünü sosial təşkilatların, institutların, qrupların fəaliyyəti və inkişafında göstərir.

Bütün anlayışlar kimi cəmiyyət anlayışının nəinki elmdə, həm də gündəlik həyatda geniş yer tutmaqla müxtəlif mənaları var. Təsadüfi yaranmış bir neçə şəxsin ittifaqından başlayaraq, dövlətə qədər və hətta onun çərçivəsindən kənar bütün bəşəriyyətin bir biri ilə təmasına «cəmiyyət» sözü tətbiq edilir. Dövlət və cəmiyyət bəzi halda eyniləşdirilir və bəzən də bir birinə qaşı qoyulur.

Cəmiyyətin yaranması məsələləri qədim dövrlərdən başlayaraq, filosofların düşüncə obyekti olmuşdur.

*Əl-Fərabi* cəmiyyətin ilkin özəyini ailədə görür və onu qeyri-təkmil, xalqı isə təkmil cəmiyyət sayırdı. Məlumdur ki, siniflər meydana gəlməsindən əvvəlki dövrdə insanların başlıca birlik forması qəbilə və tayfa idi. Qəbilə və tayfa-

nın iqtisadi əsası ibtidai icma mülkiyyəti idi. Bütün tayfanı idarə etmək üçün *ümumi yığıncaqla yanaşı, icma şurası* kimi idarəetmə orqanı meydana gəlir. İctimai əmək bölgüsü mübadilə münasibətləri və əmlak bərabərsizliyi meydana gəldikdə, qəbilə və tayfa əsasında insanların yeni birliyi – xalq yaranır. Burada qan qohumluq əlaqələri istisna olunurdu. Fərabi xalqı üç əsas amilə görə bir-birindən: birinci təbii hüququna (əxlaqı, adət-ənənəsi), ikinci təbii psixoloji xüsusiyyətlərinə, üçüncü dilinə görə fərqləndirirdi.

*Demokrit insan cəmiyyətinin yaranması haqqında belə yazır: «vəhşi heyvanlardan qorunmaq üçün, onlar bir-birinə kömək etməyi öyrənirlər. Ümumiyyətlə,* **ehtiyac** *və təcrübə insan üçün hər şeydə öyrədən idi. Ehtiyacın təsiri ilə insanlar bir-biri ilə təmasda olurlar, icmada birləşirlər»*[1].

Demokritin ehtiyacın hərəkətverici qüvvəsi olduğu fikirlərini Platon «Dövlət» əsərində Sokratla Adimantonun dialoqunda istifadə etmişdir. Platon ideal dövlətin yaranmasmda insan təlabatlarına uyğun əmək bölgüsünü əsas götürür. O, Sokratın dilindən yazır: *«düşündüyünə görə bizlərdən hər birimiz öz-özünü təmin edə bilmədiyindən və bir çox başqalarına ehtiyac duyduqda cəmiyyət yaranır. Çoxlu ehtiyac içində olan çoxsaylı insanlar bir araya gəlirlər ki, birgə yaşasınlar və bir-birinə yardımçı olsunlar. Belə birgə yaşayış dövlət adlanır. Göründüyü kimi, dövləti bizim tələbatlarımız yaradır. Dövlət ona görə yaradılır ki, insanlar ünsiyyət qursunlar. Orda yalnız kimsə yox, bütövlükdə hamı xoşbəxt olsun»*[2].

*Aristotel* «Siyasət» əsərində göstərir ki, hər bir cəmiyyət və dövlət ümumyaşayış forması, münasibətidir. Bu münasibət isə ümumi rifaha xidmət edir. Beləliklə, Aristotel dövlət

---

[1] Bax: Луре С. А. Демокрит М, Наука, 1970, с.351.
[2] Bax: Platon. Dövlət. B.,1999, s.13, 74, 126

və cəmiyyətin mahiyyətini bir-birindən fərqləndirmir. Onun fikrincə insanların həyatı üçün lazımi tələbatları ödəmək, bir-birinə peşə xidməti üçün onların cəmiyyət və birləşməsindən yaranır. O, cəmiyyəti bir-birinə oxşamayan çoxlu hissələrdən, ən əvvəl insanlardan, sonra isə bir-birindən fərqlənən ailələrdən təşkil olduğunu göstərir[1].

Yaxın və orta Şərqi Avropanın intibah dövrü ilə müqayisəsinə səbəb orta əsrlərdə (IX-XIII əsrlərdə) əl-Fərabi, Nizamülmülk, Firdovsi, Nizami Gəncəvi, İbn Sina, Nəsrəddin Tusi və digər mütəfəkkirlər elmə böyük yeniliklər gətirmiş, Şərqin elmini bütün dünyada tanıtmışlar. Onların dövlət və cəmiyyət haqqında orijinal baxışları olmuşdur.

*Əl-Fərabinin* fkirincə, insanın mövcudluğu və təkmil olmaq üçün onlara çox sayda şeylər lazım olur və onun yaşaması üçün müəyyən tələbat və ehtiyaclar təkbaşına yerinə yetirilə bilmədiyindən başqalarına kömək üçün müraciət edir. İnsanlar bir-birinə maddi və mənəvi ehtiyaclarının ödənilməsində kömək üçün birlik – cəmiyyət yaradırlar. Cəmiyyət üzvlərinin əmək bölgüsü həmin cəmiyyətin daim mövcudluğuna və təkmilləşməsinə səbəb olur.

Əl-Fərabi hesab edir ki, qarşılıqlı münasibət və əməkdaşlıq iki amilə: *iqtisadi əməkdaşlıq və mədəni-qarşılıqlı münasibət və əməkdaşlığa* söykənir. O, cəmiyyətə insanların mənəvi birliyi fikrinə gəlir. Fərabi cəmiyyəti keyfiyyət və kəmiyyət əlamətlərinə görə xarakterizə edir. Bu əlamətlərə görə cəmiyyəti – tam cəmiyyət və qeyri-tam cəmiyyətə, tam cəmiyyəti öz növbəsində böyük, orta və kiçik cəmiyyətlərə bölür. Böyük cəmiyyətə yer üzünün bütün xalqlarının birliyi; orta cəmiyyət - yer üzünün bir hissəsinin xalqlarının birliyi; kiçik cəmiyyət xalqın yerləşdiyi ərazinin bir hissəsi – şəhər

[1] Bax: Аристотель. Политика. Соч. Т.4, 1983, с.380.

əhalisinin birliyi kimi baxır. Qeyri-tam cəmiyyət Fərabiyə görə kənddə, məhəllədə, küçədə insanların birliyidir. Ev – küçədəki birliyin bir hissəsi, küçə isə, öz növbəsində, məhəllə birliyinin üzvüdür[1].

*İbn Sina* göstərir ki, insanlar həyatlarını saxlamaq və təminatı üçün əmək bölgüsü əsasında cəmiyyətdə birləşirlər. İnsanın mövcudluğunu təmin etmək üçün birgə fəaliyyət lazımdır. Birgə fəaliyyət yalnız əməkdaşlıq vasitəsilə həyata keçirilir[2].

*Nəsirəddin Tusinin* fikrincə, cəmiyyətdən kənarda olan heç bir kəs heç nəyə nail ola bilməz. İnsanın yaşaması və müəyyən inkişaf pilləsinə çatması yalnız cəmiyyətdə mümkündür. Fərdin mövcudluğu üçün zəruri olan bütün maddi nemətlər yalnız cəmiyyətdə, qarşılıqlı münasibətlər və yardım vasitəsilə əldə edilə bilər. İnsanları birləşdirən siyasi təşkilatın, yaxud təsisatın yaranması ehtiyacdan irəli gəlmişdir. *«...Heç kəs təklikdə bir kamala çata bilməz. Beləliklə, bir-birinə kömək edən bütün insanları vahid bir bədən timsalında birləşdirən bir quruluşun yaranması zərurəti meydana gəlir. Bu quruluş və birliyin təzahur forması maddi və mənəvi nə varsa hamısını özündə etiva edən və canlı bir orqanizmi xatırladan dövlətdir»*[3] .

Fransız materialistlərindən *P. Qolbaxin* (1723-1771) fikrincə insan tək halda yaşaya bilməz və cəmiyyət yaradırlar, yəni onların birləşməsindən yeni münasibətlər və yeni vəzifələr yaranır. İnsanın başqalarına kömək ehtyiacı, öz növbəsində başqasına xeyir verməsi və nəticədə ümumi maraq

---

[1] Bax: Касумжанов А. Х. Ал-Насир Фараби. М.: Мысль, 1982, с.148; Басма А. И. Политические и правовые ученые Ал-Фараби. Авт.к.ю.н. Б. 1984, с.9.

[2] Bax: Сагодаев А. Б. Ибни-Сина. М.: Мысль, 1980, с.200-201.

[3] Bax: Nəsrəddin Tusi. Əxlai Nəsiri. B., Elm, 1989, s.180

yaranır[1].

Fransız filosofu, pozitivizm və sosiologiyanın əsasını qoyanlardan biri *O.Kont* (1798-1857) cəmiyyətin inkişafını müəyyən edən bəşəriyyətin intellektual təkamülünün üç mərhələlilik nəzəriyyəsini irəli sürmüşdür. Kont hesab edirdi ki, cəmiyyətin inkişafı idrakın forması ilə müəyyən edilir. Konta görə cəmiyyətin inkişafi *teoloji, metofiziki və pozitiv* mərhələlərdən keçir[2].

İngilis filosofu *Q.Spenser* (1820-1-903) cəmiyyəti canlı bədənə oxşadır. Cəmiyyətə təbii yolla yaranan və inkişaf edən orqanizm kimi baxır. Cəmiyyətin təkamülündə (ümumiyyətcə təkamüldə) üç cəhəti ayırır: birinci sadədən mürəkkəbə keçid (inteqrasiya və ya konsentrasiya); ikinci, həmcins və ya müxtəlif keçid (diferensiyasiya); üçüncü, naməlumdan məluma keçid (nizamla böyümə)[3].

Fransız sosioloji məktəbinin banisi, pozivitizmin görkəmli nümayəndəsi *E.Dürkheym* (1859-1917) cəmiyyətə *«... fərdlər vasitəsilə reallaşan hər cür ideyaların, etirafların və hisslərin kompozisiyası»* kimi baxır[4].

Onun fikrincə, cəmiyyətin inkişafını müəyyən edən əsas göstəricilər sosial gerçəkliyin tərkib hissəsi olan *sosial faktlardır.* O, bu faktları iki hissəyə: *metodoloji,* yəni maddi mühit, əhalinin sıxlığı – mənəvi və fiziki göstəriciləri, fərdlər arasında əlaqələrin intensivliyi və davamlılığı və s; *mənəvi-maddi olmayan faktlara* – şüuru əks etdirən kollektiv tədbirlər (din, əxlaq, hüquq və s.) ayırır. Onun fikrincə həmin sosial faktlar iqtisadi,

---

[1] Краткий очерк истории философии. М., 1960, с.215

[2] Bax: 100 Великих мыслителей..., с.410

[3] Краткий очерк истории философии..., с.554-555

[4] Bax: Qafarov İ. E. Dürkheym sosiologiyasının əsas prinsipləri. Dirçəliş, 2005, iyun-iyul, №88-89, s.157

psixoloji, fiziki amillər deyil, yalnız kollektiv şüurun məhsulu olan siyasi, mənəvi, hüquqi ideya, norma və dəyərlərdir.

E.Dürkheym N. Spenser tərəfindən əsası qoyulan və bu gün də öz aktuallığını itirməyən *funksionalizm* təlimini inkişaf etdirmişdir. Funksionalizm tərəfdarları cəmiyyəti canlı orqanizmlə müqayisə edirlər. İnsan orqanizmində ürək, beyin, mədə, qan dövranı və s. müxtəlif funksiyalar yerinə yetirməklə, orqanizmin bir sistemi kimi mövcudluğunu təmin edir. Cəmiyyət canlı təbiət kimidir. O, müxtəlif hissələrdən – hərbi, iqtisadi, mədəni, siyasi və s. sahələrdən ibarətdir. Qeyd olunan hissələrin (sahələrin) hər biri müəyyən vacib funksiyanı yerinə yetirir və cəmiyyəti bir sistem kimi təşkil edən komponentlər rolunda çıxış edir. E.Dürkheym bütün bunlardan belə nəticəyə gəlir ki, əgər cəmiyyət ayrı-ayrı hissələrdən ibarətdirsə və onlar bütöv sistemin fəaliyyət göstərməsi üçün təsir göstərirsə, onda sosial hadisələrin mahiyyətini məhz həmin hissələrin funksiyalarını təhlil etməklə izah etmək olar. Onun fikrincə «əgər insana zülm edilirsə, insan yalnız məhdud peşə funksioneri vəzifəsini yerinə yetirirsə, o, maşın səviyyəsinə endirilirsə, cəmiyyət inkişaf edə və çiçəklənə bilməz»[1].

Orta əsrlərdə Nizami Gəncəvi (1141-1209), yeni dövrdə Tomos Mor (1478-1535), T. Komponella (1568-1639), Frensis Bekon (1561-1629) öz əsərlərində ideal cəmiyyət və dövlət haqda öz utopik ideyalarını vermişlər.

Yeni dövrə qədər, demək olar ki, «cəmiyyət» termini dövlət anlayışını özündə birləşdirən daha geniş anlayışı ifadə etmək üçün istifadə olunurdu. T.Hobbsdan başlayaraq təbii hüquq nəzəriyyəsinə görə dövlət cəsmiyyətin əsasında yaranır, cəmiyyət özü isə dövlətə qədər mövcud olur. Aristo-

[1] Bax: Qafarov İ.E. Dürkheym sosiologiyasının əsas prinsipləri. Dirçəliş, 2005, iyun-iyul, №88-89, s.157-163.

tel dövləti cəmiyyətin növü kimi göstərir. Siseron isə təşkil olunmuş insan birliyinin bütün növlərini cəmiyyət anlayışına daxil edilir. Sonralar cəmiyytin diferensasiyası nəticəsində onun müdafiəsi və ona rəhbərlik etmək üçün dövlət yaranır. J.J.Russonun fikrincə dövlət öz maraq və davranışı qaydaları olan və müxtəlif kiçik cəmiyyətlərdən təşkil olunur. Bütün ayrı-ayrı fərdlər bir-biri ilə ümumi maraqlarla əlaqəlidir. Russonun bu mühakiməsi Hegelin vətəndaş cəmiyyəti konstruksiyasının əsasını təşkil etmişdir. Hegel vətəndaş cəmiyyətinə ailə ilə dövlət təsisatı arasında aralıq bölmə kimi baxırdı[1].

Cəmiyyətin sosioloji anlayışına insan əlaqələrinin bütün növləri daxildir. Məhşur alman dövlət və hüquq nəzəriyyəçisi Ellinek cəmiyyət anlayışını aşağıdakı kimi xaraterizə edir: 1) cəmiyyət ən geniş mənada insanlar arasında kənar aləmdə özünü göstərən psixoloji əlaqələrin məcmusudur; 2) bir-birini əlaqələndirici elementlərlə birləşdirən insanların ittifaqını, yəni insanların cəmini ifadə edir; 3) cəmiyyət dövlət istisna olmaqla bütün ictimai qrupları özündə birləşdirir.

Cəmiyyətin yaranması haqqında qədim dövrlərdən başlayaraq filosof və mütəfəkkirlərin müxtəlif baxışları vardır. Onlar: ideal cəmiyyət konsepsiyası (əl-Fərabi), ehtiyac və tələbat üzündən icmada birləşmə (Demokrit), zəruri tələbatı ödəmək, bir-birinə peşə xidməti göstərmək üçün birləşmək (Aristotel), əməkdaşlıqla birgə iştirak (İbn Sina), əmək bölgüsü əsasında birləşmə (Nəsirəddin Tusi), ideal cəmiyyət ideyası (Nizami Gəncəvi, T.Mor, Kompanella, K.Bekon), kommunizm cəmiyyəti (K.Marks, F.Engels, V.Lenin), vətəndaş cəmiyyəti (İ.Kant), açıq cəmiyyət (K.Perrer).

---

[1] Еллинек Д. Общее учение о государстве. Изд. второе. С.-Петербург, 1908, с.63

## 2.2.4. Dövlətin tarixi tipləri və idarəçilik formaları

• *Xalq dövlət üçün yox, dövlət xalq üçün mövcuddur.*

• *Böyük siasəti kiçik maraqlardan asılı etmək olmaz.*

***Heydər Əliyev***

Ümumiyyətlə, dövlətin tarixi başlanğıcı və dünyada mövcud olmuş çərçivədə yaranan yeni dövlətləri ciddi fərqləndirmək lazımdır. Birincisi, söhbət ədəbiyyatda ilkin dövlət və ikincisi – törəmə dövlət məsələsindən gedir.

Dövlətin əsas tarixi tiplərinə gəldikdə, dövlət tarixi təzahür olub həmişə öz idarəçilik formasını dəyişir. Dövlətin hər iki forması (ilkin və törəmə) müxtəlif şəkildə ümumi tipdən ayrılıb fərqlənir. Dövlətin həm sosial və həm də hüquqi formalarında müxtəlif mədəni mühitdə müxtəlif ifadələr alır[1]. Bütün dövlət təsisatlarının hər biri həmişə hərəkətdə olur, başlanğıc və sonu tam müxtəlif şəkil alır.

Tarixi tiplərinə görə Qədim Şərq dövlətlərinə Şumer, Misir, Babil, Fars, Assuriya, Hind dövlətləri daxil olmaqla, burda hüquqla dəqiq tənzimlənən institutlardan və nizamlanmış ədalət məhkəmələrindən ibarət idi[2].

Çox müəlliflər Ellin dövlətini uzun müddət antik dövlətlərlə eyniləşdirirdilər. Bu aspektdə Roma dövlətinin Yunan dövləti tipində olduğu gösətərilirdi. Yunan dövlətinin mühüm əlaməti fərdlərin dövlətə münasibətində hüquqsuzluğu etiraf olunurdu. Burada fərd elə bil ki dövlətdə əriyir və onun

---

[1] Коркунов Н.И. История философии и права. С.-Петербург, 1908, с.14

[2] Коркунов Н.И. История философии и права. С.-Петербург, 1908, с.211

üçün yaşayır. Antik azadlıq, fərdin vəzifə tutması, öz üzərlərində hökmranlıq edilməsi üçün qanun yaratmaq hüququnun olmasında idi.

Antik dövlətlər, Platonun və Aristotelin təliminə görə, ideal və empirik idilər. Roma dövləti yunan dövlətinin davamı kimi olmuş, sonralar öz mənşəyini saxlamaqla böyüyüb dünya dövlətinə çevrilmişdir. Antik dövlətlərin fasiləsiz daxili müharibələri onların parçalanmasına səbəb olurdu. Qədim dövrün siyasi inkişafı və təlimlər dövləti yalnız onun vahidliyində görürdü. Antik dövrdə dövlətə hakimlik edən və hakimiyyət altında olanlara bir birinə qarşı durmaq yad idi. Bununla da antik dövlətlər orta əsr dövlətlərindən, o cümlədən alman dövlətlərindən əhəmiyyətli dərəcədə fərqlənirdi. Əgər Yunanıstanda və Romada dövlət əvvəldən yaranmışdırsa da, ən yeni xalqlar öz dövlətlərini sərt və ağır mübarizədə qazanmalı idilər.

Orta əsrlərdə dövlət təsisatları zəif inkişaf etmiş, ibtidai şəkildə olmuş və tədricən təkamül nəticəsində həqiqi mənada dövlət kimi etiraf olunmuşdur. Orta əsr dövləti üçün dağınıqlıq, parçalanma, pərakəndəlik, daxili müharibələr xarakterik idi. Dövlətin yaranma prosesində dövlətin vahidliyi haqqında antik ideyaların təsiri özünü göstərirdi. Sərt təşkilatlar və dövlət hakimiyyətinin cəmləşdiyi mərkəzləşmiş Roma imperiyası haqqında təssəvürlər davam edir və orta əsrlərin böyük dövlətlərinin yaranmasına və inkişafına təsir göstərirdi[1].

Alman dövləti erkən dövrlərdə müəyyən ərazisi və möhkəm əlaqələri olmayan ayrı-ayrı xalqların ittifaqı idi. Alman dövləti ilk olaraq, mərkəzi ərazisi olmayan kənd təssərüfatı dövləti idi. Knyazların dövlət təşkilatlarından heç bir asılılığı yox idi. Bu isə öz başlanğıcında mərkəzləşmənin lazımi qayda-

---

[1] Коркунов Н.И. История философии и права. С.-Петербург, 1908, с.282

da olmamasını göstərirdi[1]. Almaniya dövləti öz başlanğıcında dualist xarakterliyini, yəni kralın hüquqları və xalqın hüquqları olub və orta əsrlərdə bu prinsip heç vaxt pozulmamışdır.

Dövlətin adı tarixən müxtəlif ölkələrdə müxtəlif olmuşdur. Yunanlarda dövlət şəhərlə eyniləşərək «Polis şəhər», Romada «civitas» – tam hüquqi vətəndaşların icması və ya bütün xalq üçün ümumi olan «respublika», Almaniyada «Reich» latınca reqnum (bu, knyazlığa uyğundur), orta əsrlərdə isə «torpaq» (land) adlandırılıb[2]. İtaliya dövlətlərindən adı repno «imperio», «terra», «sitta» sözü Venesiya, Florensiya və Genuyada dövlət xarakteri verirdi. XVI və XVII yüzillik dövründə «ştat» termini işlənməyə başlayır. Fransada hələ Baden (1576) dövləti göstərmək üçün respublika «estot» sözü istifadə edirdi ki, bu da dövlət formasını ifadə edirdi. Bəzi ölkələrdə imperia, derjava adlanırdı[3].

Müasir ədəbiyyatda **idarəçilik forması** ənənəvi olaraq ali dövlət orqanlarının struktur və qarşılıqlı münasibətilə müəyyən edilir. Çox hallarda bu orqanlar dövlət başçısı, parlament və hökumətlə məhdudlaşır.

Tarixən idarəçiliyin geniş yayılmış iki əsas – **monarxiya** və **respublika** forması mövcuddur.

*Monarxiya («monarchia»)* yunan sözü olub təkhakimiyyətlilik, mütləqiyyət deməkdir) idarəçilik formasında ali hakimiyyət irsi monarxa məxsus olur. Monarx (şah, sultan, çar, imperator) öz hərəkətlərinə görə yalnız Allah qarşısında məsuliyyət daşıyır. Monarx vəzifəsi ömürlükdür, o toxu-

---

[1] Коркунов Н.И. История философии и права. С.-Петербург, 1908, с.288.

[2] Там же, с.93

[3] Еллинек Д. Общее учение о государстве. Изд. второе. С.-Петербург, 1908, с.95

nulmazdır, öz postundan özü əl çəkməzsə dəyişdirilə bilməz.

Aristotelə görə monarxiya qədim, ilkin və ilahiləşmiş siyasi idarəçilik formasıdır. O, çar hakimiyyətini patriarxal və mütləq monarxiyaya ayırır. Monarxiya qədim dövrlərdə və orta əsrlrdə əsas idarəçilik forması olmuşdur. Quldarlıq dövlətlərində əsasən qeyri-məhdud monarxiya (bəzən teokratik formada) Qədim Şərq dövlətlərinin əksəriyyətində - Qədim Babilistanda, Midiyada və b. şərq istibdad forması mövcud olmuşdur.

Feodal dövlətləri üçün monarxiyanın *silki-nümayəndəlik, mütləq monarxiya* kimi növləri mövcud olmuşdur. Təmiz şəkildə monarx tarixdə qalmışdır. Hazırda mövcud olan monarxiya keçmiş monarxiyadan hakimiyyətin məhdudlaşdırılması ilə fərqlənir. Müasir dövrdə monarxiyanın üç növü – *mütləq (yarım mütləq), dualist və parlament* monarxiyası mövcuddur.

*Mütləq monarxiya* (təmiz şəkildə) konstitusiya və parlamenti olmayan monarxın hakimiyyətidir. Hazırda belə monarxiya yoxdur. Mahiyyətcə bu idarəçilik formasında dövlət hakimiyyəti bölünmür. Monarxiyaların əksəriyyətində teokratik əlamətlər xarakterikdir (əsas ərəb monarxlarına xasdır).

*Dualist monarxiyada* qanunları yalnız parlament qəbul edir, idarəetməni isə monarxın təyin etdiyi hökumət həyata keçirir. Bu cür idarəçilik forması XVIII-XIX əsrlərdə səlahiyyətləri genişlənən burjuaziya ilə zadəganlar arasında kompromislə yaranıb. İdeyaya görə monarx zadəganların, parlament isə əsasən burjuaziyanın maraqlarını təmsil etməli idi. Dualist monarxiyanın Almaniyada, Türkiyədə, Rusiyada (1905-ci ilə qədər) bəzi əlamətləri var idi.

*Parlament monarxiyası* – hökumət parlamentdə seçkidə çox yer qazanmış partiya və ya partiyalar tərəfindən formalaşdırılır. Beləliklə, ölkəni parlamenti çox mandatlı olan partiya və partiyalar koalisiya ilə idarə edir. Çox halda monarx

millətin simvoludur. O nazirləri təyin etmək və ya parlamentin buraxılması haqda akt qəbul edir. Monarxın parlamentin qəbul etdiyi qanunlara hətta veto hüququ yoxdur (Norveç, İsveç, Yaponiya) və ya çox ölkədə monarxın kral preroqativi var.

Müasir dünyanın inkişaf prosesində monarxiyanın sayının azalması müşayət olunur. İkinci dünya müharibəsindən sonra əvvəlki monarxiyalı idarəçilik forması olan Almaniyada, Yunanıstanda, Macarıstanda, Bolqarıstanda və b. respublika elan edilmişdir.

Monarxiya tərəfdarları bu idarəçilik formasının üstünlüyünü dövlət başçısı postunun siyasi dəyişikliklərdən asılı olmaması və monarxı heç bir siyasi partiyada iştirak etmədən hakimiyyətin sabitliyini təmin edən bir post hesab edirlər. İnkişaf etmiş ölkələrdə (Böyük Britaniyada, İspaniyada, Yaponiyada, Belçikada, Danimarkada və s.) monarx vəzifəsi əhəmiyyətli dərəcədə şərəfli olmaqla yanaşı, onun ölkə idarəetməsinə heç bir təsiri yoxdur.

Beləliklə, harda monarxiya saxlanılıb, orada konstitusion (qanunla məhdudlaşan) monarxa çevrilməklə, özündə müxtəlif variantlarda və nisbətdə o aristokratiya və demokratiya ilə ahəngdarlıq təşkil edir.

*Respublika idarəçilik forması* – ali hakimiyyət orqanlarının seçkili olması ilə xarakterizə olunur. Bu formanın tarixi kökləri qədim dövrdən başlayır. Afinada demokratik respublika, Romada aristokratik respublika, orta əsrlərdə şəhər-respublikaları mövcud olmuş, yeni dövrdən başlayaraq respublikanın müasir formaları geniş yayılmışdır. Hazırda dünya dövlətlərinin 5/6-da respublika idarəçilik forması vardır.

Müasir dövrdə bu formanın üç növü: *prezident respublikası, parlament respublikası və yarımprezident respublikası* mövcuddur.

Dünyanın əksər ölkələrində **prezident respublikası** forması tətbiq edilir. Bu formada qanunverici orqan, icra hakimiyyəti başçısı (o həm də dövlət başçısıdır) əhali tərəfindən seçilir və öz fəaliyyətlərində də müstəqildirlər.

Respublika idarəçilik forması dövlət hakimiyyətinin bölgüsü əsasında formalaşır. Qanunverici hakimiyyət parlamentə, İcra hakimiyyəti respublika prezidentinə məxsusdur. Burada xarakterik cəhət icra hakimiyyəti başçısı - prezident eyni zamanda dövlət başçısıdır.

*Prezident institutunun* axırıncı onilliklərdə xarici ölkələrdə, o cümlədən possovet məkanında coğrafiyası genişlənmiş və bu institut dinamiki təkamüldədir.

Azərbaycanda və başqa MDB dövlətlərində keçid dövründə prezident institutunun tətbiqi həm xarici və həm də daxili amillərdən asılı olmuşdur. Təhlil göstərir ki, keçid dövründə dövlət quruluşunun çox mürəkkəb məsələləri və problemlərinin həllində prezidentlik institutu mühüm rol oynayır. Bəzi ölkələrin konstitusiyalarında hakimiyyətin prezident modelinə üstünlük verildiyi halda, digərlərində parlament modelindən istifadə olunur.

Məlumdur ki, xarici ölkələrdə icra hakimiyyətləri *monist* və *dualist* hakimiyyətlərə bölünür. *Monist* hakimiyyətdə dövlət başçısını və icra hakimiyyətini təmsil edən prezident respublikasına, başqa sözlə bir orqan bütün icra səlahiyyətlərini həyata keçirir. Məsələn, ABŞ konstitusiyasında göstərilir ki, icra hakimiyyəti ABŞ prezidenti tərəfindən həyata keçirilir. Analoji normalar Latın Amerikası ölkələrinin əsas qanunlarında təsbit olunmuşdur; *Dualist* hakimiyyətdə icra hakimiyyəti yarı prezident və parlament respublikaları üçün xasdır. Burada icra hakimiyyəti *respublika prezidenti* ilə (Fransada, İtaliyada, AFR, Yunanıstanda, Portuqaliyada,

İrlandiyada, Finlandiyada, Avstraliyada) və ya Monarx (Böyük Britaniyada, Belçikada, Niderlandda, Norveçdə, İsveçdə, Danimarkada, İspaniyada) – dövlət başçısı tərəfindən təyin olunan *hökumət* (nazirlər kabineti) arasında bölünür.

Qanunvericilik hakimiyyət orqanları tərəfindən seçilən Prezidentlərin hüquqi statusuna görə, onlar tam dolğun icra hakimiyyətinə malik olmurlar və dövlət mənafeyini reallaşdırmağa imkanları son dərəcə məhdud olur. Belə prezidentlər nominal dövlət başçısı statusuna malik olurlar. Belə respublikalarda parlamentin alilik prinsipi elan edilir. Parlament respublikalarında hökumətin formalaşmasında prezidentin alilik prinsipi elan edilir. Parlament respublikalarında hökumətin formalaşmasnda prezidentin iştirakı sırf formal xarakter daşıyır.

## 2.3. Hüquqi dövlət və vətəndaş cəmiyyəti

• *Vətəndaş cəmiyyəti yaratmaq və möhkəmlətmək, demokratikləşmə prosesinin möhkəmləndirilməsi, hüquqi dövlətin qurulması şüar və ya niyyət deyil, bu, Azərbaycanın inkişafının əsas şərtidir.*

***Heydər Əliyev***

• *O dövlət demokratikdir ki, orda dədə-baba adəti ilə Allahlara səcdə edilir, valideynlərin hörməti saxlanılır, böyüklərə ehtiram göstərilir, qanunlara itaət olunur və bütün bunlarla yanaşı, həlledici qələbə böyük əksəriyyətlə qəbul edilən qərarlara məxsusdur.*

***Polibiy***

Dövlət cəmiyyətsiz mümkün olmadığı kimi, hüquqi dövlət vətəndaş cəmiyyətsiz mümkün deyil.

Qeyd etmək lazımdır ki, ədəbiyyatda hüquqi dövlət problemləri haqqında çoxsaylı əsərlər, tədqiqatlar olmasına baxmayaraq, onun müxtəlif aspektləri, anlayışı, əlamətləri, ümumi doktrinası haqqında mütəxəssislər arasında vahid baxış yoxdur[1].

Rusiya Federasiyası Konstitusiya Məhkəməsinin sədri h.e.d. V. D. Zorkin ədalətli olaraq qeyd edir ki, «Hüquqi dövlət problematikası hüquq nəzəriyyəsi və fəlsəfəsi sahəsində mütəxəsislərin daimi diqqət mərkəzində olmasına baxmayaraq, hazırda bu mövzunun prinsipial aspektlərindən heç biri haqda vahid baxış formalaşmayıb, hüquq elmində hüquqi dövlətin ümumi qəbul olunan doktrinası mövcud deyil. Hətta hüquqi dövlətin mahiyyətini əks etdirən ümumi əlamətlərin necə olması məsələsində də yekdillik yoxdur»[2].

Hüquqi ədəbiyyatda *hüquqi dövlət* fəaliyyəti normalara və hüququn fundamental prinsiplərinə bağlı olan, siyasi hakimiyyətin təşkili və həyata keçirilməsi hüququn üstünlüyü əsasında aparılan, qəbul olunan qanunların hüququn mənəvi ideyalarına zidd olmayan *dövlətin ideal tipi – hüquqi kateqoriyasıdır.* Hüquqi dövlət – dövlət hakimiyyətinin fərd və onların birliyi ilə qarşılıqlı münasibətlərin hüquq əsasında və hüquqa müvafiq təşkilini və fəaliyyyətini nəzərdə tutur. Hüquqi dövlət ideyası, ən əvvəl diktaturaya, despotizmə, avtoritarizmə və hüquq qaydalarının pozulmasına qarşıdır.

Hüquqi dövlətin formalaşması prosesi həyati tələbatdır. Bu anlayış yalnız dövlət çərçivəsində yox, eyni zamanda bütün cəmiyyətə aiddir. Hüquqi dövlət ideyası hansısa milli

---

[1] Рзаев А.Г. Государственная служба: организационно-правовые аспекты. Баку: Елм, 2013,с.6

[2] Зорькин В.Н. Развитие конституционного права России. М., 2001, с.52-53

təcrübə ilə əlaqədə yox, *mühüm prinsiplər* üzərində qurulur. Bu prinsiplərdən aşağıdakıları göstərmək olar: hüquqi dövlət və vətəndaş cəmiyyətinin üzvi bağlılığı; demokratikləşmənin prioritetliyi; dövlət hakimiyyətinin bölgüsü, yəni üç qola ayrılması prinsipinin tətbiqi; konstitusiya quruluşunun təminatçısı kimi Konstitusiya Məhkəməsinin mövcudluğu; qanunun aliliyi, onun hüquqi normalar iyerarxiyasının başında dayanması və yüksək hüquqi gücə malik olması; hüquq sisteminin əsasını təşkil edən normativ hüquqi aktların Konstitusiyaya zidd olmaması; qanunun hamı, o cümlədən idarəedən və idarəolunanlar üçün məcburi olması; qanun qarşısında hamının bərabərliyi, vəzifəli şəxslərin və dövlət orqanlarının fəaliyyətinin qanunun müəyyən etdiyi çərçivədən kənara çıxmaması; hüquq pozuntusuna görə cəzanın yalnız dəqiq müəyyən edilmiş prosedura və normalara uyğun aparılması; qanunların həyata keçməsi üçün onların obyektiv reallığı əks etdirməsi və insanlar tərəfindən şüurlu dərk olunması; dövlət və şəxsiyyətin qarşılıqlı məsuliyyəti; insanın əsas hüquqlarının, şəxsiyyətin hüquq və azadlıqlarının, sosial təminatının qanunvericilikdə real təsbiti; qanunların, digər normativ hüquqi aktların həyata keçirilməsinə real və təsirli nəzarət mexanizmin olması; öz vəzifə borclarını və hüquqlarını bilmək və onlardan düzgün istifadə etmək və hüquqa hörmətli münasibəti əks etdirən vətəndaşların hüquq mədəniyyətinin olması; siyasi və ideoloji plyüralizm və s.

Bir qayda olaraq dövlət cəmiyyətin, cəmiyyət isə dövlətin köməyi olmadan köklü məsələləri həll edə bilməz. Vətəndaş cəmiyyətinin inkişaf etmiş strukturu olmadan dövlət demokratik ola bilməz . Demokratik cəmiyyətin yeganə ümumi siyasi hakimiyyəti hüquqi dövlətdir. O ümumi bəşəri sərvət sayılmalıdır. Ədəbiyyatda müasir hüquqi dövləti üç növə bö-

lürlər: *konstitusion; demokratiklik; sosial.*

Hüquqi dövlətin qanunvericilik dövləti olması aksioma kimi qəbul edilir. Konstitusiyanın qəbulu hüquqi dövlətin formalaşması prosesinin mühüm tərkib hissəsidir. Azərbaycan Konstitusiyası cəmiyyətin yeniləşməsi və inkişafının prinsip və parametrlərini göstərir, siyasi, iqtisadi sistemdə kəmiyyət dəyişikliklərindən keyfiyyət dəyişikliklərinə keçidi əks etdirir. Konstitusiyaya görə, bütün dövlət mexanizminin funksiyası hakimiyyətin və onun prinsipləri çərçivəsində və əsasında fəaliyyət göstərir, vətəndaşların hüquq və azadlıqlarının təminatının və müdafiəsinin hüquqi əsasıdır. Odur ki, ədəbiyyatda hüquqi dövlət konstitusion dövlət hesab edilir. Burada söhbət sadəcə konstitusiyanın olmasından yox, hüquq sisteminin aliliyindən və ya onun ictimai avtoritetindən gedir. İstisna hal kimi qeyd etmək olar ki, Böyük Britaniyada yazılı Konstitusiyanın və Konstitusiya Məhkəməsinin olmamasına baxmayaraq, orada hüquqi dövlət qurulmuşdur. Hüquqi dövlətin nəzəri konsepsiyası və müvafiq təcrübəsi çoxəsrlik tarixə malikdir. O antik dövrə gedib çıxır. Hüquqi dövlət nəzəriyyəsinin rüşeymləri Qədim Yunanıstanda, Romada, Hindistanda, Çində öz dövrünün qabaqcıl insanlarının, müdrik filosoflarının, tarixçilərinin və hüquqşünaslarının mülahizələrində əks olunmuşdur.

Hüquqi dövlət termininin fəlsəfi əsasları klassik alman fəlsəfəsinin banisi *İ.Kant (1724-1804)* tərəfindən verilmişdir. Onun konsepsiyasında mərkəzi yeri insan və şəxsiyyət tutur. Kanta görə dövlət hüquqi qanunlara tabe olan insan çoxluğudur. Onun fikrincə, dövlətin rifahı mükəmməl hüquqdadır. Harada ki, dövlət konstitusiya əsasında fəaliyyət göstərir və xalqın ümumi iradəsini ifadə edir, o hüquqidir, orada vətəndaşların şəxsi azadlıqları, vətəndaş hüquqları məhdudlaşdı-

rıla bilməz. Dövlətin təyinatı təkmilləşdirilmiş hüquqdadır, onun quruluşu və rejimi hüquqa maksimum uyğunluğudur[1]. Məhz bu müddəalara görə Kant hüquqi dövlət nəzəriyyəsinin banisi sayılır.

İ.Kantın dövriyyəyə buraxdığı hüquqi dövlət termini (Rechtsetaot) alman ədəbiyyatında XIX əsrin əvvəllərində R. Fon Moleinın, K.T.Velkerin, Rudolf Qneysin və b. əsərlərində daha da populyarlaşdırılmışdır.

Dahi alman filosofu Hegelin fikrincə dövlət də hüquqdur, ancaq daha inkişaf etmiş, daha məzmunlu, şəxsiyyətin, ailənin və cəmiyyətin hüquqlarını tanıyan hüquq sistemidir. Hegelin konsepsiyasında hüquqi dövlət özbaşınalığa, güc işlətməyə və bütün qeyri-hüququ formalara qarşı yönəldilir. Onun fikrincə, hüquqi dövlətin mahiyyəti olan hakimiyyət bölgüsü ümumi azadlığın təminatı sayıla bilər[2].

Hüquqi dövlətin mahiyyətini *hüququn* təbiətini başa düşmədən şərh etmək mümkün deyil. Ənənəvi olaraq hüquq müəyyən olunmuş prosedura ilə qəbul olunan qanundan əvvəl gəlir və o qanunla təsbit olunduqda hüquqi güc alır, dövlət strukturu vasitəsilə realizə olunur. Hüquq yüksək effektli və məqsədəuyğun tənzimləyici olmaqla cəmiyyətdə köklü siyasi, iqtisadi, sosial məsələlərin həllinə kömək edir. Dövlət və hüquq cəmiyyətin iqtisadi bazisi üzərində üstqurumun müxtəlif hissələridir[3]. Hüquq insanların ümumi iradəsi ilə öz ictimai həyat fəaliyyətinin qaydaya salınmasında tələb və maraqlarını, şəxsiyyətin hüquq və azadlıqlarını, humanizmi,

---

[1] Кант И. Критика практического разума. Соч. В 6-и т-х, Т.4, ч.2. М.: Мысль, 1966, с.233

[2] 100 Великих книг. М., Вече, 2004,с.213

[3] Алексеев С. С. Общая теория права. В 2-х т-х. Т.1, М.: Юридическая литература, 1981, с.168

sosial ədaləti ifadə edir. Hüquqi dövlət qanunun[1] aliliyi prinsipi əsasında formalaşır.

Qanunun dövlətdə rolu və yeri məsələsi Qədim dövrdən başlayaraq bütün filosof və mütəfəkkirlərin tədqiqat obyekti olmuş və bu haqda onlar öz klassik fikirlərini bildirmişlər.

*«Qanun insanları, ağıl qanunları idarə edir» (Tomas Fuller); «Harda silahlar işləyir, qanunlar susur». «Hakim danışan qanun, qanun isə lal hakimdir» (Siseron); «Qanunları tərtib etmək asandır, nəinki onları idarə etmək» (Napoleon); «Yaxşı qanunlar pozulursa, əhəmiyyətsizdir» (Rişelye); «Harda qanunlar qurtarır, tiranlıq başlayır» (Uilyan Pitt Mladşiy); «Axmaq qanunlar yaxşı əllərdə yaxşı icra edilir, ən yaxşı qanunlar axmaq icraçıların əllərində ziyanlı olur» (Böyük Fridrix); «Biz azad olmaq üçün qanunun qulu olmalıyıq» (Siseron); «Gücün kimin tərəfində olmasının mənim üçün əhəmiyyəti yoxdur: əhəmiyyəli olan odur ki, qanun kimin tərəfindədir» (Viktor Hüqo); «Kamilliyə catan insan üçün elmlərdən ən gərəklisi qanunlar haqqında elmdir» (Platon); «Qanunlar dövlətin hökmdarıdır» (Alkidant); «Yaxşı qanunlar adətlərlə doğulur» (J. Juber); «Adət-ənənələr qanunlardan güclüdür» (V. Kambler); «Qanun qılınca bənzər: tiyəsi gücsüzün sinəsində, dəstəyi güclünün əlindədir» (U.Quffen); «Qanun dövlətin canıdır. Cansız bədən ölü olduğu kimi, qanunsuz dövlət də məhvə məhkumdur» (Demosfen); «Qanunlar hamı üçün eyni məna daşımalıdır». «Xeyirsiz qanun zəruri qanunları zəiflədir» (Monteskye);*

[1] Qanun anlayışı dar mənada müəyyən ictimai münasibətləri tənzimləyən imkan dairəsində dövlət məcbuetmə tədbirlərini təmin edən nümayəndəli (qanunverici) hakimiyyət orqanları tərəfindən xüsusi qaydada qəbul edilən normativ hüquqi aktdır; dar mənada isə konkret hüquq sitstemi çərçivəsində qüvvədə olan istənilən normativ hüquqi akit hesab olunur.

*«Qanun kölələr üçün məcburiyyət, azadlar üçün ehtiyacdır» (Demand); «Qanun tərbiyəyə arxalanmasa, nə qədər ədalətli olsa belə, o uzunömürlü sayıla bilməz» (Plutarx); «Qanun müdriklər üçün məşğuliyyətdir, axmaqlar üçün məhdudiyyətdir» (Şan Yan); «Xalq qanun yolunda öz yaşadığı qala divarları uğrunda vuruşduğu kimi vuruşmalıdır» (Heraklit); «O dövlət qüdrətlidir ki, onun vətəndaşları şaha itaət edir, şahları isə qanunlara» (Süleyman peyğəmbər); «O dövlət yaxşıdır ki, orda natiqdən daha çox qanuna qulaq asırlar» (Xilan); «Dövlət o zaman möhkəm olur ki, qanunlara əməl edilsin» (Evripid); «O yerdə ki hökmdar hökmdardır, təbəə təbəədir, ata atadır, oğul oğuldur, orda qayda-qanun var, əmin-amanlıq var» (Konfutsi); «Nə qədər yüksək olursan ol, qanunlar səndən yüksəkdir» (Solon); «Yazılı qanunlar ədalət keşikçiləridir» (Qorki); «Qanun xalqa məhəbbətin ifadəsidir» (Şan Szyunsu); «Əgər təbiətdə dövlətdə olduğu qədər qanunlar olsaydı, Tanrının özü onu idarəetmək vəziyyətində olmazdı» (L. Berns).*

Hüquqi dövlətin bərqərar olması üçün hakimiyyətlərin bölgüsü kimi obyektiv-hüquqi prinsip qeyri-şərtsiz həyata keçirilməlidir. Hakimiyyət bölgüsü, bir-birini çəkindirmək və tarazlaşdırmaq prinsipi demokratik Afinada, həm də Roma respublikasında təcrübədə yoxlanılmış antik mədəniyyətin böyük nailiyyətlərindən biridir. Hüquqi ədəbiyyatda və rəsmi sənədlərdə *hüquqi dövlət və vətəndaş cəmiyyəti* birgə ifadə olunur. Bunların arasında qarşılıqlı münasibətlər və əlaqələr aşağıdakı kimidir: *vətəndaş cəmiyyəti ilə hüquqi dövlətin bərabərliyi, cəmiyyətin dövlətə nəzarət etmək hüquqlarının olması və s. Vətəndaş cəmiyyətinin yaranması hüquqi dövlət və siyasi demokratiya ilə sıx əlaqəlidir.* Vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı və siyasi demokratiya tarixi fenomen olub, müəyyən inkişaf mərhələsində baş verir. Hegel hesab

edirdi ki, vətəndaş cəmiyyəti və dövlət sərbəst institutlar kimi eyniyyət təşkil edir. Onun fikrincə, vətəndaş cəmiyyətində özəl, dövlətdə isə ümumi maraqlar cəmləşir.

Hüquqi dövlət üçün *demokratikləşmə* əsas prinsipdir. Hüquqi dövlətin, dövlətçiliyin əsasını təşkil edən dövlət-hüquq institutlarının formalaşması və fəaliyyət göstərməsinin yalnız demokratik şəraitdə mümkün olması insanların əsas fikridir.

# III FƏSİL.

~~~~~~~~~~~

# NÜMUNƏVİ DÖVLƏTLƏRİN YARADILMASINDA BÖYÜK ŞƏXSİYYƏTLƏRİN YERİ VƏ ROLU

• *Bəşəriyyət keçmişdə yaranmış baxışları ilə gələcəyə gedir.*

***Ferrero***

• *Keçmişi oxumaq gələcəyi öyrənmək üçündür.*

***Azərbaycan atalar sözü***

• *İndi kim olduğunu bilmək istəyirsənsə, keçmişdə kim olduğunu öyrən; nə olacağını bilmək istəyirsənsə, nə etdiyini öyrən .*

***Çin atalar sözü***

## 3.1. Likurq qanunları və Sparta aristokratik dövləti

• *Likurq Kritin dövlət quruluşu, qanunverliciliyi, sadə və sərt həyat tərzi və Misirin döyüşçü kasta quruluşu əsasında Sokratın və Platonun ideal nümunəvi hesab etdikləri, insanların bərabərlik prinsipi üzərində Spartanın ideal aristokratik dövlət quruluşunu yaratmışdır.*

Tarixə qanunverici Likurq adı ilə düşmüş, getdiyi ölkələrə etdiyi səyahətlər zamanı o dövrdə ən inkişaf etmiş Krit şəhər-dövlətində olmuş, onun dövlət quruluşunu, qanunvericiliyini, sadə və eyni zamanda sərt həyat tərzini, Aralıq
~~~~~~~~~~~

dənizinin Asiya sahillərində zənginlik və zəriflikdə yaşayan İoniyaların yaşayışını və dövlət idarəçilik formasını, Misirdə döyüşçü kastasının quruluşunu öyrənmiş və gördüklərini müqayisə edərək öz ölkəsi Spartada köklü islahatlar aparmışdır[1].

Polis quruluşunun özünəməxsus variantlarından biri kimi Peloponnes dariy dövlətlərinin ən böyüyü Spartada yaranmışdır. Likurqun islahatları Spartanı vahid hərbi düşərgəyə çevirmişdir. Spartada tam hüquqlu vətəndaşlar Likurqun bütün qanunlarını dönmədən yerinə yetirənlər hesab edilirdi. Likurq öz dövlət quruluşunu mühüm siyasi prinsip – bərabərlik prinsipi üzərində qurmuşdur[2].

O, islahatlara:

1) iki çardan ibarət çar hakimiyyəti ilə xalq hakimiyyəti arasında tarazlığı yaratmaq üçün 28 nəfər yaşlı insanlardan ibarət ağsaqqallılar şurasını (Qerusi) və ağsaqallar hakimiyyətini (Qerantlar) yaradır və qanunlar qəbul etmək üçün Xalq yığıncağından istifadə edir;

2) vətəndaşların arasında bərabərlik yaratmaq üçün, onların torpaqlarını dövlət mülkiyyətinə götürür və heç kəsə heç bir üstünlük imkanı vermədən bərabər bölür;

3) qızıl və gümüş pulları dövriyyədən çıxarır, tərkibinə sirkə əlavə edilmiş dəmir pullarla əvəz edir. Bu pul Spartadan başqa yunan dövlətlərində işləmədiyindən Spartaya kənar sənətkarlar və tacirlərin gəlməsi dayandırılır. Varlının yoxsul üzərində üstünlüyü ləğv edilir;

4) təm-təraqlı, dəbdəbəli həyat tərzini sıxışdırmaq və

---

[1] Плутарх. Сравнительное жизнеописание. В двух т-х. Т.2 М.: Правда, 1994, с.94

[2] История Европы в 8-и т-х. Т.1. Древняя Европа. М.: Наука,1988, с.251-252

tamahkarlıq hissini tam məhv etmək üçün bütün vətəndaşlar bir yerdə ümumi masada yeməyə gəlməli idi. Öz evində yemək yasaq edilirdi;

5) evlənmək və uşaqların məsələsinə böyuk diqqət yetirilirdi. Qızlar uşaqların ana bətnində möhkəm olması üçün öz bədənini möhkəmləndirməli – qaçmalı, döyüşməli, disk və nizə atmalı idi;

6) uşaq anadan olandan sonra ağsaqqalların yanına gətirilir, onlar uşağa baxılır, əgər uşaq möhkəm və sağlam olurdusa onu atasına verir və 1/9 torpaq sahəsi ayırır, uşaq qüsurludursa, onu qayadan atırdılar. Uşaq 7 yaşına çatanda onları dövlət himayəsinə götürür, bir yerə yığır və onlardan «ağıl» bölməsi yaradırdılar. Uşaqlar ağsaqqalların nəzarəti altında bir yerdə yeyir, oynayır və birgə vaxt keçirirdilər. Oxumaq və yazmaq zəruri halda öyrədilirdi. İllər keçdikcə onların tərbiyəsi sərtləşdirilir, saçları dibindən qırxılır, onlara ayaqqabısız, paltarsız gəzməyi öyrədirdilər;

7) Spartada uzun danışmaq xoşlanılmırdı. Sparta Lakoniya ərazisində yerləşdiyindən bu qısa danişiq dövriyyəyə lakonik danışıq kimi düşmüşdür. Spartada xalq yığıncağı tərəfindən sesilən Ağsaqallar şurası və ya Qerusiya, 28 üzvdən – Qerantdan ibarət idi. Onlar bu yeri ömürlük tuturaq, öz hərəkətlərinə məsuliyyyət daşımırdılar. Ağsaqallar şurası üzvü olmaq 60 yaşına çatandan sonra mümkün idi. Spartada ağsaqallar şurası qanun layihələrinə baxır və cinayət işləri üzrə məhkəmə həyata keçirirdi. Çarlar Qerusiyanın üzvü olurdular və onun qərarlarına tabe idilər. Çarların funksiyası Qerusiyanı hərbi, dini və məhkəmə qərarları vasitəsilə məhdudlaşırdı.

Spartada dövlətin yaranması və ibtidai icma quruluşunun ləğvi e.ə. VIII-VII əsrə gedib çıxır. Spartanın bu dövründə

sosial və siyasi quruluş Likurqun qanunları ilə təmin olunmuşdu. Spartada dövlət quruluşu hakimiyyət içində icma təşkilatının bəzi əlamətlərini saxlamaqla hərbi demokratiyanın dövlət təşkilatına dəyişdirilməsi nəticəsində formalaşmışdı[1]. Sparta Afina quldarlıq respublikasından fərqli olaraq, özünə məxsus aristokratik dövlət idi. Spartanın dövlət quruluşu Krit dövlət quruluşuna yaxındır. Ehtimal olunur ki, Spartada Kritin dövlət quruluşu təqlid edilirmişdir. Deyilənə görə Likurq Kritlə qohumluq əlaqəsinə görə səyahətinin əsas hissəsini orda keçirmişdir[2].

Aristotel göstərirdi ki, Sparta və Krit dövlət quruluşuna, həmçinin bütün qalan dövlət quruluşlarına iki tərəfdən baxmaq lazımdır: birincisi, ən yaxşı dövlət quruluşunun qanunlarına uyğundur və ya uyğun gəlmir; ikincisi, bu qanunlar quruluşun özünün ruhu və əsas xüsusiyyətləri ilə hansısa ziddiyyət təşkil etmir ki, ümumi qəbul olunmuş qaydalara görə, gözəl quruluş istəyən dövlətdə vətəndaşlar qayğıdan azad olurlar[3].

Krit ilə Sparta qaydaları arasında əsasən oxşarlıq aşağıdakılar idi:

– *birincisi, Sissiti (yunan sissitia – birgə trapez)* yəni bütün vətəndaşların dövlət tərəfindən sanksiyalaşdırılmış bir yerdə yemək yeməsində (trapezdə) özünü göstərirdi;

– *ikincisi,* Spartalılar üçün torpağı plotlar, kritiyalılar üçün nepuqiklər (kölələr) becərirdi. Tropez Kritdə andriya, Spartada fidit adlanırdı. Sissitiyalar Kritdə və Spartada fərqli qurulmuşdu. Spartada hər bir kəs qoyulan bütün qaydala-

[1] История государства и права Под ред. О.А.Жидкова и др. Учебник в 2-х т-х, Т.1. М.: НОРМА ИНФРА-М, 2004, с.156

[2] Аристотель. Политика. Сочинение в 4-х т-х, Т.4. М.: Мысль, 1983

[3] Там же, с.431

ra riayət etməli, özləri bu xərcləri ödəməli idilər. Əks halda onlar vətəndaşlıq hüququndan məhrum olunurdı. Kritdə Sissiliyanın xərcləri ümumxalq xarakterli idi, onlar dövlətin əldə etdiyi ümumi məhsuldan, ümumi gəlirdən ödənilirdi. Ümumi dövlət xərcinin bir hissəsi, sissiliyalara, digər hissəsi kölələrin saxlanılmasına gedirdi. Beləliklə, hər kəsin: qadınların, uşaqların yeməkləri dövlət hesabına ödənilirdi. Aydın görünür ki, Spartalılar bunları Kritdən götürmüş və özlərinə uyğunlaşdırmışlar;

– *üçüncü*, siyasi quruluşa görə Spartada eforlar, Kritdə kosmalar eyni hakimiyyətə malik idilər. Eforlar xalq arasından seçilirdi. Buna görə xalqın mövcud dövlət qaydalarını saxlamaq üçün ali hakimiyyəti təmsil etmək hüququ var idi. Fərq onda idi ki, eforların sayı 5, kosmaların sayı isə 10 idi. Spartada Qerantlar; Kritdə həmin Qarantlar idi. Lakin Kritiyada bu şura adlanırdı. Kritiyada əvvəl çar hakimiyyəti var idi, sonralar isə ləğv edilərək, müharibə aparmağı kosmalar həyata keçirirdi;

– *dördüncü*, hər ikisində xalq yığıncağında hamı iştirak edirdi. Lakin bu yığıncağın sərbəst qərar vermək hüququ yox idi. O, yalnız Qerant və Kosmoların qərarını ləğv edə bilərdi;

– *beşinci*, qanunverici çoxlu tədbirlər görürdü ki, spartalılar öz xeyirləri üçün az yesinlər, çox uşaq doğulmasın deyə kişiləri qadınlardan ayırırdılar.

Likurq xalq yığıncağında bütün vətəndaşlara Delf məbədindən qayıdana qədər öz yaratdığı qanunların dəyişdirilməməsi barədə and içdirir. O, Spartaya qayıtmamaq üçün öz xoşu ilə aç qalaraq ölür ki, vətəndaşlar andlarını pozmasınlar. Spartalılar 5 əsr müddətində bu qanunlara sadiq qalaraq dəyişdirməmişlər. Sparta dövlət quruluşuna Sokrat müsbət münasibət bildirmiş, Platon öz ideal dövlət əsərində geniş

istifadə etmiş, Aristotel isə onu təhlil etmişdir.

Spartada Likurqa İlahi varlıq kimi ehtiram olunurdu. Likurqun insanlığı, ədalətliliyi, prinsipiallığı və s. haqqında Plutarx aşağıdakı rəvayəti yazır:

*«Spartanın çarı Likurqun atası öləndə öz taxtını böyük oğlu Polidakta verir, o isə öləndən sonra taxta qanuni varis Likurq idi və həqiqətən də o dövləti idarə edirdi. Likurq biləndə ki, Polidaktın arvadı hamilədir, elan edir ki, doğulan uşaq oğlan olsa, hakimiyyəti ona verib özü isə ona qəyyumluq edəcək. Çarın dul arvadı Likurqla gizli danışıq aparır və deyir ki, Likurq onunla evlənsə, uşağı zəhərləyər və onu çar edər. Likurq onun bu sözündən dəhşətə gəlir və onun təklifi ilə formal razılaşır və o uşağı doğandan sonra onunla evlənəcəyinə və uşağı öldürəcəyinə razılıq verir. Beləliklə, o çar arvadını aldada bilir və uşağın vaxtında doğulmasına nəzarəti gücləndirir və oğlan olarsa, uşağı ona gətirməyi, qız olarsa, anasına verməyi tapşırır. Doğulmuş oğlanı Likurqa gətirirlər. O isə, öz növbəsində, əyanları yığaraq onlara deyir: Spartalılar, bu sizin çardır! O uşağı taxta qoyur. Onun bu insanlığına və ədalətliyinə hamı əhsən deyir. Qadının özü, qohumları, o cümlədən qadının qardaşı bunu Likurqun hakimiyyəti əldə saxlamaq üçün gözdən pərdə asmaq istədiyi haqda şaiyələr buraxmağa başladılar. Likurq özündən şübhəlri atmaq üçün vətənini qoyub Kritə gedir. Spartalılar Likurqun getməsinə heyfslənir və ona geri qayıtmağı dəfələrlə xahiş edirlər. O, müəyyən vaxtdan sonra vətənə qayıdır və mövcud qaydaları dəyişdirməyə və köklü islahatlar aparmağa başlayır»*[1].

[1] Плутарх. Сравнительное жизнеописание. В двух т-х. Т.1. М.: Правда, 1990, с.94

## 3.2. Solonun islahatları və Afina quldarlıq demokratiyası

*• Solonun müxtəlif dövlət quruluşu elementlərini sintez edərək apardığı islahatlar Afina demokratik quldarlıq respublikasının yaranmasına yol açdı.*

*• Qanun hörümçək toru kimidir, güclülər vurub keçir, zəiflər ilişib qalır.*

*• Mən xalqa hakimiyyəti və azadlığı onun ehtiyac qədərində verdim. Onu namus və şərəfdən məhrum etmədim, lakin artıq hüquqlar da vermədim.*

***Solon***

*• Adama xoş gələni deyil, faydalı olanı məsləhət gör.*

*• İnsanın gözü də əli kimi təmiz olmalıdır.*

***Perikl***

Antik ənənəyə görə islahatçılar arasında görkəmli yeri Spartalı Likurq, Afinada *Solon (e.ə. 640-560)* tutur. Yeddi müdrikdən biri, Afina qanunvericisi Solon adlı-sanlı, lakin kasıblaşmış aristokrat ailədən çıxmış siyasətçi, cəsur döyüşçü, şair və natiq kimi tanınırdı.

E.ə. VI əsrin əvvələrində demosun aristokratlarla mübarizəsi çox kəskinləşmişdi. Bütün Attikada demos ilə aristokratlar arasında qanlı toqquşmalar olurdu. Demos özü yığıncaqlar düzəldir, aristokratlara qarşa birgə çıxış etmək haqqında razılığa gəlirdi. Ümumi üsyan hazırlanırdı. Xalq üsyanlarından qorxan aristokratlar demosa güzəştə getməyə məcbur olurlar. b. e. ə. 594-cü ildə demos və aristokratları ümumi razılığa gətirməyi və onları barışdırmasına siyasi xadimlərindən ən mötəbər və nüfuzlu barışdırıcı fiqur kimi Solona tapşırırlar. E.ə. 594-cü ildə qanunverici hüququ ilə ilk

arxant vəzifəsinə seçilən Solon geniş sosial, iqtisadi və siyasi qruplar arasında islahatlar həyata keçirərək, onlarla düşmənçilik edən daxili qruplaşmaların birliyini yaradır. Solon təşkil etdiyi xalq yığıncağının köməyinə arxalanaraq, islahatlar keçirir və demosun siyasi vəziyyətində və dövlətin idarə olunmasında dəyişikliklər edir.

Solonun Afina demokratiyası qarşısında xidməti vətəndaşların əsas kütləsinə köləlikdən və sosial deqradasiyadan müdafiəsinə təminat ümidi verir[1]. *Solon ilk olaraq kəndlilərin borcunu ləğv etdi. Borca görə xaricə satılmış Afinalılar dövlət hesabına alınıb vətənə qaytarıldı. Afinaya köçüb gəlmiş köçkünlərə vətəndaşlıq verilir, dördyüzlər şurası, andlar məhkəməsi yaradılır. Gələcəkdə də azad Afinalıların borca görə qul edilməsi qadağan olundu. Bu islahatlar borcların və borc üstündə köləliyin ləğv edilməsi sayəsində Afinada kəndli təsərrüfatını möhkəmləndirdi. Solonun ikinci tədbiri ölkədə olan ölçü və çəki sistemini dəyişdi. Ticarət və sənətkarlıq genişləndirildi.* Başqa yunan şəhərlərindən tacir və sənətkarlar Afinaya dəvət edildi və bəzi halda onlara vətəndaşlıq verildi.

Sosial sahədə imtiyazlar dəyişdirildi. Attikada vətəndaşlar *əmlaklarının miqdarına görə 4 dərəcəyə bölünürdü.* Onlar müxtəlif vəzifə daşımaqla müxtəlif hüquqlara malik idilər. Hüquq və vəzifələri Solon elə bölürdü ki, varlı vətəndaş böyük siyasi hüquqlar əldə etsin və bununla yanaşı böyük məsuliyyət daşısınlar. Vətəndaşların bu və ya başqa qrupa mənsubluğu illik məhsuldan asılı idi. Sonralar bu və ya başqa qrupa mənsubiyyət pul senzinə görə müəyyən edilirdi. Böyük dövlət vəzifəsini yalnız birinci üç qrup nümayəndələri tuta bilərdi. Az əmlaklı fetlər üçün xalq yığıncaqlarında və

[1] История Европы в 8-и т-х. Т.1. Древняя Европа. М.: Наука,1988, с.246

xalq məhkəməsində iştirak etmək hüququ saxlanılırdı[1].

Hərbi mükəlifiyyətlərə özlərini hərbi silahlarla təmin etmək dərəcəsinə görə birinci üç qrupa nümayəndələr daxil edilirdi. Odur ki, birinci qrupa daxil olan varlılar qoşunda və donanmada yüksək vəzifə tuturdular. Minik atı almağa vəsaiti olan adamlar süvari hissələrə qulluğa götürülürdü. Özlərinə yaraq-yasaq ala bilən kəndlilər Afina qoşununun əsas qüvvəsi olan ağır silahlı piyada hissələrə dəvət edilirdi. Dördüncü dərəcəyə daxil olan aztorpaqlı yoxsullar piyada qoşun hissələrində yüngül silahlı döyüşçülər kimi və ya hərbi gəmilərdə matroslar və avarçəkənlər kimi xidmət edirdilər.

Solon, Spartada Likurqun etdiyi kimi xalq yığıncağında Afinalıları məcburi and içdirirdi ki, 10 il müddətində onlar Solonun qanunlarını dəyişdirməyəcəklər.

Solonun əsas xidməti *aristokratiyanın çox imtiyazların ləğv etmək və bununla da demokratiyanın gələcək inkişafına yol açmaq oldu.* Bütün bunlara baxmayaraq, demosla aristokratlar arasında mübarizə uzun illər davam etmişdir. Bu, Afinada kəskin siyasi böhranla müşayət olunmuş və tiranlığın yaranmasına səbəb olmuşdu.

Başqalarından fərqli olaraq, Likurq və Solon hər ikisi həm yeni qanunlar, həm də dövlət quruluşu yaratdılar. *Solon Afinada axırıncı oliqarxiyanı ləğv etdi, sadə xalqın köləliyinə son qoydu, müxtəlif dövlət quruluşu elementlərini sintez edərək demokratiyanı yaratdı.* Solon, əvvəl mövcud olanları xüsusən Aeopaq və vəzifəli şəxslərin seçilməsi elementlərini saxladı, lakin xalq məhkəməsini təsis etməklə demokratiyanı bərqərar etdi. Solon sadə xalqa yalnız ən zəruri hakimiyyəti – vəzifəli şəxsləri seçmək və onların hesabatlarını qəbul etmək funksiyasını saxlayırdı (bu hüquq olmasaydı, o qul

[1] Словарь античности. М.: Прогресс, 1989, с.37

vəziyyətində və düşmənçilik əhval-ruhiyyəsində olardı), vəzifələrə isə aristokratların seçilməsini nəzərdə tuturdu[1].

Solonun islahatlı arxaik Afinanın, afina dövlətinin formalaşmaının dönüş nöqtəsi olmuşdur. Bu islahatlar afinaın sosial siyasi quruluşunu tam dəyişdirir.

*Solonun uzaqgörənliyi və müdrikliyi ilə bağlı çox söylənilən bir rəvayət xüsusilə maraqlıdır. Bir dəfə Solonu ərazisində qızıl yatağı olan, müharibədə çoxlu qənimət əldə edən, çoxlu var-dövləti olan Lidiyanın çarı, Krez öz ölkəsinə qonaq çağırır. Solon o ölkədə olanda Lidiya çarı bütün var-dövlətini, zənginliyini Solona göstərir, o isə buna əhəmiyyət vermir. Krez soruşanda ki, mənim bu qədər daş-qaş, var-dövlətim sənin heç xoşuna gəlmədi? Məndən xoşbəxt adam tanıyırsanmı? Solon cavabında deyir ki, çoxlu uşağı olan, vətən yolunda ölən, həmyerlisi Tepleni xoşbəxt sayıram. Solon deyir: Həyatda hər cür dəyişkənlik olur, sabah hər şey dəyişilə bilər. Bu, atletin yarışın sonuna çatmamış özünü qalib sayması kimidir. Solonun bu sözlərindən Krez narazı qalır. Bir neçə ildən sonra farslar hücum edir, Lidiyanı alır və Krezi əsir götürüb qəfəsə salırlar ki, tonqalda yandırsınlar. Qəfəs fars çarı Kirin yaxınlığında olur. Krez üç dəfə «ay Solon» deyərək bərkdən səs çıxardır.*

*Kir deyir soruşun görək o Solon kimdir? Krez ona Afinalı Solonun dediklərini söyləyir. Kir fikirləşir və Solonun söylədiklərini nəzərə alaraq, Krezi azad edir və ona bütün həyatı boyu hörmətlə yanaşır. Solonun müdrik kəlamı bir çarı ölümdən azad edir, digərini ağıllandırır*[2] .

Solonun islahatları Afina hadisələrinin gələcək inkişafı ilə alt-üst edildi, onun qanunları Afinalılar tərəfindən qəbul

---

[1] Аристотель. Политика. Сочинение в 4-х т, Т-4 М, Мысль, 1983, с.441

[2] Таранов П. Философия сорока пяти поколений М.: АСТ, 1999, с.20-21.

edilməsinə baxmayaraq, iğtişaşda olan partiyaların heç birini təmin etmədi. Afinada arxantlığın sonlanması islahatlardan narazılar artdı. Aristokratlar onların hüquqlarının azaldılmasına, demos isə islahatların radikal olmamasına narazı idilər. Solonun tərəfdarları isə ona təklif edirdilər ki, tiranlıq yaratmaq yolu ilə islahatları davam etdirsin.

Solon hakimiyyətdən gedəndən sonra hər tərəfdən edilən irad və hücumlar qarşısında duraraq, axırda ən yaxşı hal kimi öz mövqeyində dayanaraq, on illik (e.ə.593-583) ölkəni tərk edir. Solon Afinanı qoyub başqa ölkələrə səyahət edir. O səyahət zamanı Şərqi Aralıq dənizinin regionlarında olur. O Misirdə kahinlərlə ünsiyyətdə olur, kiprin çarı ilə dostlaşır lidiya paytaxtdı Sardinyada olur. Solon vətəndə olmayanda onun qanunları qüvvədə olur. Onların ləğvinə və dəyişilməsinə səy göstərilmir. O, bir də Afinaya ölümünə yaxın qayıdır. O, vətəndə olmayan müddətdə dövlətdə vətəndaş nifaqı və iğtişaş yenidən başlayır. 30 ilə yaxın bu vəziyyət güclənir və ya zəifləyir. e.ə. VI əsrdə Yunan dövlətinin çoxunda on illərlə davam edən sosial-siyasi böhran şəxsi hakimiyyət rejiminin yaranması ilə həll edilir.

Solonun islahatları çox uzun yaşamadı, tezliklə yeni qarmaqarışıqlıq və yeni çaxnaşma başlandı. Sarsılan dövlət bu və ya digər tərəfi müdafiə edə bilmədi, çoxluq azlıqdan güclü çıxdı. Xalqa aristokratik hökumətdən qurtarmağı və onlar üçün sakitlik yarada bilən rəhbər lazım idi. Bu zaman həmin aristokratlar arasından çıxmış, bir-biri ilə düşmənçilikdə olan rəhbərlər tapıldı. Xalq asanlıqla aristokratiyanı süqut etdirdi. Xalq bu rəhbər başçıları hansı idarəçilik formasından asılı olmayaraq, «*tiranlar*» adlandırırdı. Tiran sözü yunan dilində amansız, zülm edən, özbaşınalıq sözünün sinonimidir. Tiranın xalqla münasibəti başqa cür qurulurdu.

Tiranlar üzdə özlərini sadə, yəni başçı və demosun müdafiəçisi keyfiyyətində göstərirdi[1].

Lakin tiranlar o zaman yaranmış dövlət vəzifələrinin yerinə yetirilməsinə xidmət edə bilmirdilər. Siyasi özünüdərk, iqtisadi inkişafın tələbi və irəli gələn xarici hadisələr demos kütləsini hərəkətə gətirir. Dövlət hakimiyyətinin xalqın əlinə keçməsi üçün yeni siyasi dövr başlayır[2]. Növbəti siyasi böhrandan istifadə edərək tiran Pisistrat hakimiyyətə gəlir. Hakimiyyəti zəbt edərək o, siyasi düşmənlərini aradan götürməyə başlayır. Yeni hökmdara xoş gəlməyənləri məhkəməsiz və təhqiqatsız aradan götürur. Bütün ailəni və hətta bütün tayfanı vətəndən qovur, bütün mülkiyyətini isə öz xəzinəsinə keçirir.

Solonun konstiutusiyası tiran Pisistratın dövründə formal mövcud idi. Faktiki olaraq, dövlətdə hakimiyyət rəsmi heç bir vəzifə tutmayan bir nəfərə – tirana məxsus idi. Tiran Pisisrat qovulandan sonra təxminən e.ə. 509-507-ci illər arası dövlətin daxili birliyini möhkəmləndirmək üçün Afinanın demokratikləşməsi yolunda olduqca mühüm addım atıldı. Növbəti islahatların təşəbbüskarı qədim və varlı ailəsindən çıxmış *Klisfen* idi[3]. Klisfen gənc ikən ailəsi ilə birlikdə tiran Pisistrat tərəfindən Afinadan qovulmuş və onun cavanlığı vətəndən uzaqda keçmişdi. Tiran qovulur, ondan sonra Klisfen ailəsi ilə birlikdə vətənə qayıdır və aristokratlara qarşı müxafilətdə olan demosa başçılıq edir. Hakimiyyətin demokratikləşməsinin kəskinliyi yaranmış dövlət ehtiyacları, Klisfenin siyasətdə yeni islahatlar aparmasını surətləndirir.

Solondan 90 il sonra, e.ə. 509-cu ildə demokratlar öz

---

[1] История Европы в 8-и т-х. Т.1. Древняя Европа. М.: Наука,1988, с.245

[2] Лазарев Г. М. Развитие государственной власти Древнего Мира. М.: Гос. изд-во. 1909, с. 36

[3] История Европы в 8-и т-х. Т.1. Древняя Европа. М.: Наука,1988, с.249.

rəhbəri Klisfen ətrafında birləşərək dövlətin normal fəaliyyətinə mane olan qəbilə quruluşunun qalıqlarına həlledici zərbə vururlar. Klisfen aristokratların başçılıq etdiyi tayfa triblərinin siyasi əhəmiyyətini ləğv edərək dəyişqdirir. Hər bir fili özünüidarə edən fililərə verildi. Eyni siyasi hüquq verilən bütün əhali sinifləri birləşdirildi. Bu tədbir aristokratları müxalifət kimi birləşmək imkanlarından məhrum etdi. İslahatlar nəticəsində Attika 10 ərazi «tayfalra» (fililər) bölündü. Hər fili üç hissədən-trittidən ibarət idi. Trittinin biri varlı adamların üstünlük etdiyi kənd təssərüfatı düzənliyini, digəri demokratik əhval-ruhiyyəli matroslardan ibarət dənizkənarı rayon və üçüncü paytaxtın məhəllələrindən ibarət idi. Yeni fililərdə vətəndaşlar elə paylanmışdılar ki, üstünlük şəhərlərlilərin, yəni sənətkarların, tacirlərin, matrosların əlində idi. Kənd təssərüfatı düzənlikləri ikinci plana keçmişdi. Dörd yüzlər şurası ləğv edilir, onun yerinə isə hər filidən 50 nəfər olan beş yüzlər şurası yaranır. Klisfenin ixtira etdiyi «*Ostrakizm*»- siyasi tədbir kimi dövlətin problem yarada biləcək siyasi xadimlərinin on il müddətində hüququ ləğv edilmək və əmlakı müsadirə olunmaqla ölkədən qovulması tarixdə bir anormal yenilik kimi qalmışdır.

Afina demokratiyası yolunda maneə kimi Aeropaq dayanırdı. Afinada qeyri-formal olaraq Aeropaq xalq məclisinin qərarını ləğv edə, vəzifəli şəxsləri məsuliyyətə cəlb edə bilərdi. Bu səlahiyyətlər yunan-fars müharibəsində (492-479) daha da genişlənmişdi. E.ə. 462-ci ildə nəhayət Areopaqın bütün siyasi funksiyaları ləğv edilir.

Aristokratiyanı saxlamaqda ali hakimiyyəti varlılara verən Solonun «Timokratik» konstitusiyası daha mühüm rol oynayırdı. E.ə. 5-ci əsrin ortalrında Solonun tətbiq etdiyi dərəcələr ləğv edilir və bütün vəzifələrə vətəndaşlar əmlak

vəziyyətindən asılı olmayaraq, püşkatma yolu ilə təyin olunmağa başlayır.

Afina demokratiyasının daha böyük inkişafı Afinanın başçısı stratej *Periklin* adı ilə əlaqəlidir. Perikl bir şəxsiyyət kimi Afina xalqı üçün bir nümunə idi. Onun ən məşhur müdrik sözü «İnsanın gözü də əli kimi təmiz olmalıdır». Hər ildən bir seçilməli olan Perikl, yaxşı rəhbərliyinə görə 15 dəfə ölənə qədər «Strateg» seçilmişdir. Püşkatma yolu ilə vəzifəyə seçilmə tətbiq edilirdi. Aristokratik rejim dağıdılır. O zaman o, afina yunan dövlətlərinin başında durdu; öz qüdrətini artıraraq, milli ruhunu inkişaf etdirərək, Afinanı uzun müddət nəinki elladların ürəyi, həm də o zaman dünyanın mərkəzi etdi[1].

Afina Periklin rəhbərlik etdiyi dövrdə «bütün Ellada üçün məktəb idi», özündə tam demokratiya İnstitutlarını təsis etmiş, böyük dövlətlərarası yaranmış ittifaqın başında durmaqla müttəfiqlərdə demokratik quruluşu tətbiq edirdi və ya demokratik çevrilişə kömək edirdi[2]. Qeyd etmək lazımdır ki,Afinada demokratiyanın çiçəkləndiyi dövr bütün məşhur xadimlər, Perikl də daxil olmaqla, öz mənşəyinə görə yüksək dərəcəli aristokrat olmuşlar.

Bəşəriyyət tarixində ilk dəfə hər bir yoxsul vətəndaş dövlətin idarəetməsində iştirak edə bilərdi. Bu iştirakın mexanizmə görə, səsvermə yolu ilə *yalnız strateg, suvarilərin rəisi və xəzinədar* seçilirdi. Puşkatma hər bir vətəndaşın bərabər imkanlarını təmin edirdi. Hakimiyyətə ləkəli və ağıldan kəm olanların düşməməsi üçün – nəzarət qaydaları mövcud idi. Vəzifəli şəxs vəxifəyə başlamazdan əvvəl *yoxlamadan (do-*

---

[1] Лазарев Г. М. Развитие государственной власти Древнего Мира. М.: Гос. изд-во. 1909, с.39.

[2] Там же, с. 41

*kamisiyadan)* keçirdi[1]. Demokratiyanın axrıncı elementi *qulluğa görə maaş* verilməsi məsələsi Perikl tərfindən tətbiq edilir. Periklin təklifi ilə strateglərdən başqa Beş yüzlər şurasının üzvləri, məhkəmə iclasçıları, əsgərlər, matroslar və bütün vəzifəli şəxslərə maaş verilirdi.

Perikl əsri adlanan heyratamiz dövrü nəinki yunanların, hətta bütün bəşər tarixinin özündə belə bu günə qədər təsadüf etmək çətindir. Bu dövr üçün səlahiyyətli olan dahilər dövrünə dünya tarixində bir daha rast gəlinməyəcək[2] .

Sahil xəttinin girintili-çıxıntılı olması Yunanıstanı qədim dövrün ən açıq ölkəsi edirdi. Dəniz Yunanıstanın materik dərinliklərinə hər tərəfdən daxil olur; gəmiçilik üçün oranı sakit buxtaları isə əlverişli edirdi. Yunan şəhər dövlətlərinin tarixi taleyi təbiətin güclü amilləri – torpaq və iqlimlə sıx əlaqəli idi. Torpaq şəraiti və iqlim göstəricilərinə görə Yunanıstan həqiqətdə çiçəklənən ölkə idi və təbii zənginliyi onun böyük üstünlüyünü təmin edirdi. Əlverişli iqlim və məhsuldar torpaq, qulların əməyi Yunanıstanın inkişafını təmin edir və yunanları ruhlandırır, onlara yaradıcılıq və dövlət işləri ilə məşğul olmağa imkan verirdi[3] .

Dənizlə əhatə olunmuş, zərif dəniz havası ilə nəfəs alan yunanlar sağlam və fiziki gözəlliyi ilə başqalarından fərqlənirdilər. Onlarda həyat eşqi, gümrahlıq və ruhun gücü fəlsəfi yüksəlişi artırırdı. Afinaya o zamanlar hər tərəfdən eyni rəssamlar, artistlər, alimlər və mütəfəkkirlər, varlı, yaşlı və cavan adamlar axışıb gəlməkdə idi. Hər bir Afinalı gözəl an-

[1] Немировский А. И. История древного мира (Античность). В двух частях. Ч.1. М.: Владос, 2000, с. 255

[2] Sipovski V. D. Sokrat və onun dövrü (tarixi oçerk). Bakı: Elm, 1995, s. 3

[3] Лазарев Г. М. Развитие государственной власти Древнего Мира. М.: Гос. изд-во. 1909, с. 20

layırdı ki, heç bir yerdə, heç bir ölkədə müdriklər, alimlər elmə bu qədər maraq və həvəs göstərən adamlara təsadüf edə bilməz, bu qədər istedadlı gəncliyə isə heç bir yerdə rast gəlmək olmaz[1].

Dərin və ətraflı təhsil Afinada onu arzu eləyənlərin hamısına müyəssər olan bir şey idi. Başlıca təhsil məktəbi həyatın özü sayılırdı. Adam hətta üzündən oxuya bilməsə belə inkişaf etmiş sayıla bilərdi[2].

Yunanıstan qədim tarixə malik Şərqin mədəniyyətini mədəni-tarixi varislik prosesi ilə zənginləşdirdi. *O dövrdə Nil və Fərat vadisi dövlətlərinin zəngin mədəniyyəti gənc Elin mədəniyyətinə böyük töhfələr vermiş, Yunanıstanın dini və dövlət quruluşuna böyük təsir etmişdir[3]. Yunanıstanda hakimiyyətin inkişafı, dövlət təzahürünün mahiyyəti, demokratiyanın süqutu obyektiv və subyektiv amillərdən asılı idi. Obyektiv amillərə ilk olaraq iqtisadi fəaliyyəti* aid edirlər. Dövlət çevrilişlərində, hakimiyyətin bir formasını digəri ilə dəyişdirməklə əksər hallarda iqtisadi güclər nisbəti mühüm dövlət hadisəsi sayılırdı. Başqa mühüm obyektiv fəaliyyətin növü *müharibələr* idi. Yunanıstanın siyasi inkişafında azadlıq müharibələrinin xüsusi əhəmiyyəti olmuşdur. Obyektiv amili həyata keçirməkdə həlledici rolu *subyektiv amil kimi kütlənin əhval-ruhiyyəsi və siyasi dəyişiklik tuturdu.*

Afina demokratiyası uzun müddətdə əmələ gəlmiş cəmiyyətin iqtisadi quruluşunu dəyişdirib məhv etməmişdi. Xalq yenə də yoxsul və varlılara bölünmüşdü. Eyni zamanda qarşılıqlı nifrət əsasında qurulmuş sinfi mübarizə da-

---

[1] Sipovski V. D. Sokrat və onun dövrü (tarixi oçerk).Bakı, Elm, 1995, s.5

[2] Там же, s.16

[3] Лазарев Г. М. Развитие государственной власти Древнего Мира. М.: Гос. изд-во. 1909, с.20

vam edir və bu, dövlətin əsasını silkələyirdi. Demos dövlət idarələrində çoxluğun qərarlarının qanuniliyini qorumaq üçün varlı sinfə qarşı mübarizə edirdi.

Demokratlar varlılarla mübarizədə bir yol seçmişdi ki, o da zor hərakatı idi. Bu yolu Xalq məhkəməsi həyata keçirirdi. Varlıların var-dövlətinin müsadirə edilməsi xalqda zənginləşmə sistemi yaratdı. Müsadirə yoluna düşən xalq özünü dayandıra bilmədi. O vaxtdan demokratik hökumət faktiki olaraq ciddi şəkildə öz mövcudluğunu itirdi.

## 3.3. Serviy Tulliy və Roma aristokratik respublikası

*• Əsası Romul tərəfindən qoyulan Roma çarlıq dövründə daha da inkişaf edir, möhkəmlənir, altıncı çar Serviya Tulliyin islahatları nəticəsində demokratiyaya keçid yaranır.*

*• İnsanlar arasında təbii aristokratiyanın mövcudluğu ideyası ilə razıyam. Bunun üçün əsaslar – ləyaqət və istedaddır .*

***T. Cefferson***

Romada demokratiyaya keçiddə Serviy Tulliyin (e.ə. 578-534) islahatları xüsusi rol oynamışdır. Romada çarların idarəçiliyi yunanlarda olan qəhrəmanlıq dövrünün idarəçiliyi ilə oxşardır. Bu dövrün idarəçilik forması çarlıq idi. Bu hakimiyyət ilahi mənşəli sayılırdı. Çar insanlarla Tanrı arasında əlaqələndirici hesab olunurdu. Çarın iradəsi qədimdə müqəddəs adətlər və yazılmamış qaydalarla ifadə olunan Tanrının iradəsi ildə əlaqələndirilirdi. Bütün bunlar isə qədim çarların mühüm qanunvericilik funksiyası daşımasında özünü göstərirdi. Çar *kahinlik vəzifələrindən başqa, ali hakim*

*və ordunun başçısı vəzifələrini də daşıyırdı. Məhkəmə funksiyası, çox ehtimal ki, qədim olmaqla dini xarakter daşıyırdı.* Çarın məhkəmə qərarı Tanrının qərarı hesab olunurdu. Məhkəmə ittihamı isə «*Oemid*» adlandırılırdı.

Çar hakimiyyəti möhkəmlənib və genişlənərək öz ətrafında bütün qrupları birləşdirir. Çar öz xalqı haqqında Tanrı qarşısında məsuliyyət daşıdığını və öz rəiyətinə dua etdiyini elan edib onlar üçün qurban kəsirdi. O, öz xalqına Tanrıların mərhəmətini və ya kəramətini, yaxud da qəzəb və yoxsulluğunu çatdırırdı. Təhlil etdiyimiz dövrdə çar hakimiyyəti tayfaların köçü ətrafında baş verirdi və fasiləsiz müharibələrlə müşayiət olunurdu. Demək olar ki, bütün çar hakimiyyəti dövründə əsas yeri müharibələr tuturdu[1].

Çar hakimiyyəti inkişaf etdikcə onun ətrafında aristokrat təbəqəsi qruplaşırdı. Onun əsas nümayəndələri – tayfa ittifaqlarının başında olmaqla, onlarda çar adlanırdı. Çarla eyni üstünlüyə və toxunulmazlığa malik tayfa ittifaqlarının başçıları iearxiya təşkil edirdi. Ali hakimiyyət uğrunda çarlarla aristokratlar arasında qədimdə başlamış mübarizə təxminən e.ə. VIII əsrdə çevrilişlə nəticələndi və ali hakimiyyət aristokratların əlinə keçdi. Bu çevriliş Afinada, Spartada və b. yerlərdə baş verdi.

Roma cəmiyyəti *Romulun* dövründən başlayaraq zəngin yol keçmişdi. Troyalı Eneyin nəslindən olan Romul Romanın əsasını qoymuşdur. Romada müxtəlif mənşəyə malik olan, başqa dillərdə danışan, öz adət ənənələrini yaşayan əhali şəhər divarları arasında asanlıqla bir yerdə birləşərək vətəndaş cəmiyyəti yaradırdı. Romada vətəndaşların sayı artdıqca, mənəviyyatı yaxşılaşdıqca, yeni torpaqla genişlən-

---

[1] Лазарев Г. М. Развитие государственной власти Древнего Мира М.: Гос. изд-во. 1909, с.29

dikcə şəhər çiçəklənir və möhtəşəm olurdu. Hakimiyyət qanunlara əsaslanırdı, bu idarəçilik tərzi *çarlıq* adlanırdı. Romul yüz müdrik adam seçməklə *senatı* təsis edir. Senatorları şərəfləndirmək üçün yaşlarına görə onları «*atalar*», onların törəmələrini isə «*patrislər*» adlandırmışdır.

Seçilmiş atalar – öz müdrikliyi, güclü ağılları hesabına dövlətin rifahına səy göstərirdilər. Çar hakimiyyəti əvvəlcə azadlığın qorunmasına və dövlətin genişlənməsinə xidmət edirdisə, sonralar bu fəaliyyət özbaşınalığa çevrilir, idarəçilik tərzi dəyişilir və çarlar üçün bir illik hakimiyyət müddəti müəəyyən edilir və iki hökmdar seçilir[1]. Ümumiyyətlə, nə vaxt ki, dövlətə şərəf gətirilir, hakimiyyət şan-şöhrət və möhtəşəmliklə müşayət olunur, o halda igidlik zəifləməyə başlayır, yoxsulluq özünə nifrət yaradır, tamahkarlıq müsbət hal sayılır.

Monteskye *«Fars məktubları»* əsərində Romada çarlıq dövründə birinci beş çarın və Serviya Tullianın və Tarkvinin idarəçiliyini təhlil etmişdir[2]. O göstərirdi ki, birinci beş çarlıqda çarlar seçilirdi, senat çarın seçilməsində əsas rol oynayırdı. Çarın ölümündən sonra senat mövcud idarəçilik formasının saxlanılmasının labüd olub-olmaması məsələsini müzakirə edirdi. Əgər onun saxlanılmasının zərurəti olduğuna qərar verirdisə, onda öz sıralarından çarı seçmək üçün əyan təyin edilirdi. Burda əsas prinsip: 1) senat seçkini bəyənməli; 2) xalq onu təsdiq etməli; 3) fal açmalı idi. Əgər bu üç şərtdən biri mövcud olmurdusa, yenidən seçki keçirilirdi[3]. Dövlət quruluşu monarxik, aristokratik və xalq quruluşu idi; birinci

---

[1] Историки античности в 2-х т-х. Т.2. Древний Рим. М.: Правда, 1989, с.10

[2] Монтескье Ш. Персидское письмо. М.: Худ. лит., 1956, с. 303

[3] Историки античности в 2-х т-х. Т.2. Древний Рим. М.: Правда, 1989, с. 303

çarlıq dövründə hakimiyyət qolları arasında elə harmoniya qoyulmuşdur ki, nifrət və düşmənçilik olmasın.

*Çar ordunun başçısı və qurban kəsmək səlahiyyətlərini daşıyırdı. O, mülki və cinayət işlərinə baxan məhkəmə hakimiyyətinə malik idi, o, senata cağırış edir, xalq yığıncağını təşkil edir və bəzi işləri xalqın müzakirəsinə verirdi, qalan işləri isə senatla birgə həll edirdi. Senat böyük nüfuza malik idi. Çarlar mütəmadi olaraq senatorları öz müşavirələrində iştirak üçün dəvət edirdi. Xalq yığıncağında müzakirə olunmamış heç bir iş senata göndərilmirdi. Xalqın vəzifəli şəxsləri seçmək hüququ vardı, yeni qanunların qəbul olunmasına razılıq çarın müharibə etməsi və sülh bağlaması üçün icazə verirdi*[1]. Romada çarlıq dövründə (e.ə. 8-6 əsr) Roma Lasiyada əsas mövqe qazanır. Bu dövrdə ibtidai-icma dövründən sinfi cəmiyyətə keçid tamamlanır.

Roma tarixinin gələcək taleyində rol oynayan mühüm amillərdən biri Romanın ilk çarı Romulun müəmmalı yox olmasıdır. O hadisə tarixi ədəbiyyatda belə göstərilir. Romulun orduya baxış üçün təşkil olunan senatların iştirak etdiyi toplantı zamanı birdən hava qaralır, ildırım çaxır, tufan qopur. Hava sakitləşdikdə romalılar Romulun qeyb olunması hadisəsi ilə qarşılaşır, onun nə ölüsü, nə də dirisi tapılır, taxt-tacı isə boş qalır. Romulun qeyb olması barədə müxtəlif ehtimallar irəli sürülmüşdür. Birinci ehtimal onun qeyb olması, digər ehtimal isə Romulun – senatorlar tərəfindən tikə-tikə edilib ətinin yeyilməsi fikridir. Şübhənin Senatorlar üzərinə düşməsini xalq belə əsaslandırdı: patrislər çoxdan çar hakimiyyətindən doymuşdular. Romulun onlara qarşı sərt və despotik davranışı və onların dövlət idarəetməsini

1 Историки античности в 2-х т-х. Т.2. Древний Рим. М.: Правда, 1989, с. 303.

öz əllərinə alması üçün bunu etmişlər. Patrislər bu şübhəni öz üzərlərindən atmaq üçün Romulu *«ilahiləşdirib, göyə qeyb olduğunu»* deyirlər.

Romuldan sonra senatorlar çarın olmamasından qonşu dövlətlərin və düşmənlərin müdaxilə edə bilməsindən qorxaraq dövləti özləri idarə etməyə başlayırlar. Onlar *yüz nəfəri on yerə bölüb, hər onluqdan bir nəfər başçı seçilir və hər beş gündən bir dəyişilməklə dövləti idarə etməyə başlayırlar. Fasilə «çarlıqlar arası fasilə»* adlandırılırdı[1]. Məlum olurdu ki, xalqın özlərinin seçdiyi çardan başqa heç kəsi qəbul etmək fikirləri yox idi. Onda senatorlar bu təhlükəni görüb ədalətli və vicdanlılığı ilə seçilən, *Sparta koloniyasında* yaşamış 39 yaşlı Sabinalı Numa Pampiliyi çar seçirlər. Bəziləri hesab edir ki, *Numa Pifaqorun* tələbəsi olub öz müdrikliyi və tərbiyəsi ilə Pifaqora borcludur. Digərləri isə ümumiyyətlə Numanın yunan tərbiyəsi almadığını deyirlər. Bəziləri qeyd edir ki, Numa Pifaqorun tövsiyyəsi ilə *Roma dövlət quruluşuna Spartanın siyasi quruluşundan çoxlu elementlər gətirmişdir*[2].

Qeyd olunduğu kimi, Numa Sabinyalıdır, Sabinyalılır isə özlərini Spartanın kolonisləri sayırlar. Deməli Spatanın Koloniyada tətbiq etdiyi siyasi quruluş Numa tərəfindən Romaya transfer edilə bilərdi. Təsadüfü deyildir ki, Plutarx Likurqla Numanı müqayisə edir.

Çar hakimiyyəti seçiləndən sonra Numa silah gücü ilə əsası qoyulmuş müharibələrlə genişlənmiş Roma şəhərini *hüquq, qanunlar və adətlər əsasında yenidən quraraq çoxlu islahatlar aparır.* O, ən əvvəl Romulun *cangüdənlər dəstəsini*

---

1 Историки античности в 2-х т-х. Т.2. Древний Рим. М.: Правда, 1989, с. 69

2 Плутарх. Сравнительное жизнеописание. В двух т-х Т.2 М. Правда, 1994,с.125

*ləğv edir.* Numa istəyirdi ki, ona etimad edən insanlara etimadsızlıq göstərməsin və onlardan qorunmasın. *O təqvimdə ayın hərəkətini 12 yerə bölür.* Romada torpaqlar az idi, demək olar ki, hamısı silah gücünə əldə edilmişdi. Bütün bu torpaqları Numa *yoxsul vətəndaşlar arasında paylayır ki, yoxsulluğu və cinayətkalığı* məhv etsin, çalışırdı ki *xalq əkinçiliklə məşğul olsun, torpağı becərməyi öyrənsin*. Numanın xalqa mənəvi təsiri o qədər güclü idi ki, onun haqqında rəvayətlər söylənilirdi. Beləliklə, Romanı müharibələrlə yüksəldən Romul və əmin-amanlıqla yüksəldən Numa qarşı-qarşıya durur. Romul *37 il,* Numa isə *43 il* çarlıq edir. Dövlət güclü olmaqla yanaşı, eyni şəkildə müharibəyə və dinc həyata yaxşı uyğunlaşdırılır. Tarixçilər qeyd edir ki Numanın vaxtında *nə müharibə, nə üsyan, nə də iğtişaş olub.* Onun düşmənləri və həsəd aparanları yox idi., heç kəs ona sui-qəsd edib hakimiyyəti ələ almaq istəməmişdir. O 80 yaşdan artıq yaşamış və xəstəlikdən ölmüşdür. O, ölməzdən əvvəl vəsiyyət etmişdir ki, onun əsərləri, Pifaqorçularda olduğu kimi, onunla birgə dəfn olunsun. Numa öləndən sonra yenidən *«çarlıqlar arası fasilə»* yaranır[1].

Numadan sonra çarların taleyi onun şərəfini daha da artırır. Belə ki, axırıncı çar taxtından məhrum edilib ölkədən qovulmuş, qalan dördündən heç biri öz əcəli ilə ölməmişdir. Numanın varisi əfsanəvi *Tule Qastiliy* onun bütün fəaliyyətini pisləmiş, dinə münasibətinə istehza etmişdir. Tule Qastiliy öz döyüşkənliyi ilə hətta Romulu da ötüb keçirdi. Hər yerdə müharibə etməyə bəhanə axtarırdı. İldırım vurması və yanğın nəticəsində 32 il çarlıq edən Tuliy ölür. Ondan sonra yenidən hakimiyyət senatorlara keçir. Xalq yığıncağında Numa Pampilinin nəvəsi *Ank Marsiy* dördüncü çar seçilir. *O mədəni*

---

1 Историки античности в 2-х Т. 2 Древний Рим М.: Правда, 1989, с.74

*sahədə yeniliklər gətirir; dəniz limanı, yollar salır, duz mədəninin istismarını təmin edir, Tibr çayı üzərində körpü salır.* Müharibə və sülh şəraitində Ank məharət və şərəfinə görə özündən əvvəlki hər bir çarla bərabər tutula bilərdi. *Ank 24 il çarlıq edir.*

Ankın çarlığı dövrü öz var-dövləti ilə seçilən, *böyük şərəfli əcnəbi etrusk* nəsildən olan *Tarkvini* Romaya köçüb yaşayır. O çarla yaxınlaşmaqla özünə diqqəti cəlb eldir, çarın tapşırıqlarını yerinə yetirir və ona layinqincə xidmət edir. Bu yaxınlıq ona qarşı ictimaiyyətdə müsbət münasibət yaradır və ona hərbi şuralarda iştirak etmək hüququ verir, Ankın çarlığı altında Romalıların qanun və adətlərini öyrənir. Nəhayət bu yaxınlıq çarın vəsiyyəti ilə onun uşaqlarına qəyyum təyin edilməsinə səbəb olur.

Ank Marsiya öləndən sonra Tarkvini öz namizədliyini irəli sürür və komissiyalarda bir səslə seçilir və öz dövlət aparatını yaradır. Başqa bir ehtimala görə – Etrus Tarkvini Romada hakimiyyəti zəbt edib öz dinastiyasını yaratmışdır[1].

Romada hərbi demokratiya saxlanılırdı. Xalq yığıncaqları və senat fəaliyyətdə idi, o cümlədən etruskların Romaya sülh və ya müharibə yolu ilə daxil olması və Tarkvini çarlığı R*omada etrus dinastiyasının əsasını qoymuşdur.* Tarkvini deyilənə görə Ank Marsiyanın oğlanları tərəfindən öldürülür.

Yeddi çardan altıncı çar Serviy Tulliy (579-535) haqqında müxtəlif rəvayətlər söylənilir. Onlardan *birincisi*, qul qadının oğlu olmuş və Servius adı almışdır, *başqa rəvayətə* görə Tarkvin müharibə apararkən müharibə vaxtı əsir götürülmüş şəhər başçısının qadınının oğludur. Antik müəlliflərin yazdığına görə çar Tarkvini öz arvadı Tanakvil ilə istedadlı

---

1 История Европы в 8-и т-х. Т.1. Древняя Европа. М.: Наука,1988,с.194

uşağı tərbiyə etmiş yaxşı təhsil vermiş, elmin sirlərini öyrətməyə şərait yaratmış və öz kürəkəni etmişlər. Tarkvini öldürüləndən sonra Tanakvil Tuliyi çar taxtına gətirmişdir. Xüsusi qeyd edilməlidir ki, *Serviy Tulliy senatın tövsiyyəsi olmadan, kommissiyalarda seçilmədən Romaya çarlıq etmişdir. Çoxlu ənənələri pozaraq islahtlar aparmışdır. Antik müəlliflər onun islahatlarının Afinada Solonun islahatlarının analoqu kimi əlaqələndirilirlər.* Əsas prinsiplərə görə Serviy Tuliyin islahatları ilə Afinada Solonun islahatları arasında tam paralellik müşahidə olunur. Afina demosuna oxşar plebey elementləri Roma xalqının hissəsi kimi xalq yığıncağına buraxılırdı. Serviy Tulliyin islahatları *dövlətin yaranması prosesinin əsas mərhələsi idi.* Bu proses qəbilə quruluşunda gələn hakimiyyət orqanlarının transformasiyası və həmçinin yenilərinin yaranması yolu ilə inkişaf edirdi. Bu islahatlar plebeylərin xalq yığıncaqlarında iştirakına icazə versə də, onların siyasi və sosial məhdudiyyətlərini tam həll etmirdi[1] .

O silah daşıya bilən əhalini *əmlak senzinə görə beş sinfə bölür və pleybeyləri roma xalqının tərkibinə daxil edir.* Heç bir əmlakı olmayan vətəndaşlar proletar adlanırdı. Roma vətəndaşlarının siyasi vəziyyəti onun hansı qəbiləyə məxsusluğu ilə yanaşı, var-dövlətindən də asılı idi. Romanı bütün ölkəni triblər adlanan ərazi dairələrinə bölməsi *Afinada Klisfenin islahatları ilə analoq təşkil edir.*

*Serviy Tulliyin çarlığı dövründə dövlət quruluşu dəyişilir. Senat daha çarın seçkisində iştirak etmir, o, xalq tərəfindən elan edilirdi. O, mülki işləri mühakimə etmir, yalnız cinayət işlərinə baxırdı və bütün işləri xalqın müzakirəsinə verirdi. Hər bir kəs səsvermədə iştirak edirdi. O, vergini yüngülləşdirir və verginin ağırlığını patrislərin üzərinə qoyurdu.* Beləliklə, çar

1 Словарь античности. М.: Прогресс, 1989, с.488

hakimiyyəti senatın nüfuzunu zəiflədir, bunun müqabilində xalqın hakimiyyətini gücləndirir.

Serviy Tulliy Numa kimi ilahi hüququnun yaradıcısı idi. Serviy vətanldaşları ləyaqətinə və bütün silkləri imkanlarına görə dəqiq fərqdəndirirdi. Serviy Tulliyin apardığı bütün tədbirlərin təhlilindən belə bir mühüm nəticə çıxır: *romalılar arasında bərabərsizlik güclənilir, patrislər arasında varlı, yuxarı təbəqə möhkəmlənir, plebeylər arasında da təbəqələşmə güclənir, şəhərdə sənətkarlıq və ticarət ilə məşğul olan varlı plebeylər yaranır.*

Serviy Tulliy öz hakimiyyətini möhkəmləndirərək patrislərin *yuxarı təbəqəsini sıxışdıra bilmiş, qəbilə institutlarının əhəmiyyətini zəiflətmişdir.* Çar hakimiyyətini dəyişdirərək ənənəvi olan çar seçilməsini ləğv etmiş və qızlarını Tarkvinin oğlanlarına verməklə çarlığın *varislik institutuna çevrilməsinə şərait yaratmışdır*[1]*.*

Romanın axrıncı yeddinci çarı *Təkkəbürlü Tarkvini* senat və xalq tərəfindən seçilməyir. O hakimiyyəti zor gücünə zəbt edir. Serviy Tulliyi qəsbkar kimi xarakterizə edilir və özünün varislik hüququ olduğuna görə taxt-tacı tutduğunu israr edir. *O, senatorların əksəriyyətini məhv edir, öz müzakirələrinə belə senatorları dəvət etmir.* Onun hakimiyyətində mənfurluq artırdı. Hakimiyyəti zəbt etməklə xalqın razılığı olmadan qanunlar qəbul edir. *O özündə bütün üç hakimiyyəti birləşdiririr.* E.ə. 510-cu ildə Xalq bütün bu hallara və oğlunun əxlaqsız hərəkətinə dözməyərək Tarkvini qovur.

Romada e.ə. 510-cu ildə yerli əhalinin üsyanı nəticəsində monarxiya ləğv olunur; hər il seçilən *«Magistrant»* tərəfindən idarə ediləməyə başlanır. e.ə. V əsrlərdə Romada

---

1 История Европы в 8-и т-х. Т-1 Древняя Европа. М.: Наука,1988, 704 с. 196

müstəqil *aristokratik respublika idarəçilik forması* və quldarlıq dövlətinə xas olan institutlar yaranır.

E.ə. 510-287-ci illərdə respublikanın erkən dövründə azad, lakin plebeylərlə imtiyazlı patrislər arası mübarizə davam edir. Bu mübarizənin gedişində plebeylər patrislərdən onlara torpaq payı verilməsinə nail olurlar və yazılı qanunvericiliklə (12 cədvəl) – e. ə. 449-cu ildən siyasi vəzifələr və Xalq Tribunu yaratmaq və ora qəbul olmaq hüquqları verilir, borca görə qul olmaq qadağan edilir. E.ə. 490-cı ildən başlayaraq plebeylərin hüququnu patrislərin müdaxiləsindən qoruyan vəzifəli şəxs «*tribun*» sayılırdı. Hər il özlərinin müdafiəçi üçün xalq tribunları seçmək hüququ əldə edirlər. Tribunların sayı əvvəl iki, sonra beş və ən sonra on idi. Tribunlar Romadan uzaqlaşa bilməzdi, onun qapısı müdafiə axtaran plebeylər üçün həmişə açıq olmalı idi. Xalq tribununun şəxsiyyəti toxunulmaz idi, ona istəlinən şəxsi tutmaq və ya izahat almaq hüququ verilmişdi. Tribun konsulların və senatın plebeylərə aid hər bir sərəncamına veto qoya bilərdi. Bunun üçün tribunun «*veto*» deməsi kifayət idi. Tribununun öldürülməsi ən böyük cinayət sayılırdı. Plebeylər e. ə. III əsrin əvvələrində Romanın tam hüquqlu vətəndaşları hesab edilirdi. Onlar konsul vəzifəsi ilə yanaşı, başqa vəzifələr də tutmaq hüququ əldə edirlər. Lakin vəzifələrin yerinə yetirilməsinə görə heç bir məvacib verilmədiyindən, o vəzifəni aristokatlar tuturdu. Bu islahatların nəticəsində Romanın sonrakı tarixində əsas olan *«antik vətəndaş cəmiyyəti»* yaranmışdır.

E.ə. 387-ci ildə qalları ağır məğlubiyyətə uğratdıqdan sonra romalılar etruslar, samitlər, cənubi İtaliyanın yunan şəhərləri ilə müharibə nəticəsində onları itaət altına alır və bütün yarımada üzərində hökmranlıq əldə edirlər. Sonrakı respublika dövründə Romanın işğalçılıq marağı İtaliya hü-

dudlarından kənara çıxdı.

Respublika dövründə (e.ə. 510-31) romalılar xalq yığıncağında hər il patrislərin içərisindən *iki hökmdar-konsul və onlara kömək edən başqa vəzifəli şəxsləri seçməyə başlayırlar. Konsullar bir il müddətində Romanı idarə edir, məhkəmə hakimi vəzifəsini yerinə yetirir, müharibə vaxtı isə qoşunun başçısı olurdu.*

Romada Senat çox geniş səlahiyyətə malik idi. Əmin-amanlıq dövründə konsullar bütün məsələləri onunla məsləhətləşməli idilər. *Senat xəzinə işlərinə baxır, müharibə və sülh məsələlərini həll edirdi.* O isə Xalq yığıncaqlarının qərarlarına tabe idi. O hazırladığı qərarları səs vermək üçün xalq yığıncağına göndərirdi. Romada patrislər seçkili idarəetməni *ümumi xalq işi, latınca Respublika adlandırırdılar. Senatın* aristokratlardan ibarət olması və onun oynadığı rola görə Roma respublikası aristokratik adlanırdı. Roma respublikası idarəçilik formasına görə Afina demokratiyasından fərqlənirdi.

Roma antik sivilizasiyasının inkişafının müəyyən mərhələsində bütün Aralıq dənizi xalqlarının nailiyyətlərini mənimsəmiş, onları sintez etmiş və Avropa mədəniyyətinin gələcək inkişafına təkan vermişdir. Dövlətin bütün inkişafında obyektiv və subyektiv amillərin, mürəkkəb qarşılıqlı fəaliyyətin nəticəsi kimi yaranan dövlət hakimiyyəti ideyasının yunanlardan götürülməsi ehtimal edilir. Yunan və Roma dövlət həyatını yaxınlaşdıran şübhəsiz müəyyən münbit şəraitlə yanaşı, mədəni-tarixi varislik prosesi olmuşdur.

Bu şəraitin əhəmiyyəti etnik əlaqələr və gözəl coğrafi şəraitin ümumi xarakterinə əsaslanan *yunan və roma mədəniyyətinin yaxın doğmalığındadır.* Ən əsası isə dini ümumilikdə idi. Ona görə ki, din qədim dövlətə həlledici təsirdə olmuş, dövlət təsisatına dini tətbiq etməkdə özünəməxsus müəyyən

dünyabaxışın formalaşmasında özünü göstərirdi. Burdan da dövlət inkişafının müəyyən proseslərinin uyğunluğu gəlirdi. Roma öz təsirini İtaliya şəhərlərində bərqərar edəndən sonra ərazisini kənara – Şərqə və Qərbə genişləndirənə qədər İtaliya yunan təsiri altında olmuşdur. Romalılar Yunanların intellektual inkişafının incilərini mənimsəməkdə davam edirdilər. Bu proses romalıların yunan sivilizasiyasını mənimsəmək prosesinin özünəməxsus dəqiqliyi və dərinliyi ilə fərqlənirdi. Ellin sivilizasiyası daha çox *humanistik və kosmopolistik* idi. Bunda onun dəfedilməz gücü var idi. Aristokratiya süqut edəndə onun müdafiəçiləri - Pifaqoçular öldürülürdü. Qədim dövrün növbəti fəlsəfi məktəbləri əsas ideyasına, öz siyasi təliminə görə Pifaqoçulardan fərqlənmirdi. Siyasi həyatda hegemonluq edən bir ideal quruluşu tam harmonik müxtəlifliyə gətirən, dünyanı idarə edən *dəyişilməz ilahi qanunun* mövcudluğunu bütün filosoflar məktəbləri etiraf edirlər. Bu məqam Yunanıstanda bütün ictimai həyatın əsas başlanğıcı idi. Buna baxmayaraq, ayrı-ayrı fəlsəfi məktəblər arasında dövlət hakimiyyəti formaları haqqında təlimlərdə fikir müxtəlifliyi yaranırdı.

Məsələn, İoniya məktəbinin ali nümayəndəsi sayılan Heraklit ağıl qanununda daimi hərəkət və əks qütblü qüvvəyə keçməsi, onların harmonik uyğunluğu haqqında əsas müddəalarla çıxış edərək, daha yaxşı dövlət quruluşunun əks-qütblü elementlərinin harmonik vəhdətdə ahənginin mümkünlüyünü göstərirdi. Bu dövrün əksər Loniya dövlətlərində qarışıq idarəçilik forması mövcud idi.

Tarixi ədəbiyyatda qeyd olunur ki, Roma sivilizasiyası Avropa mədəniyyətinin əsasında formalaşmış və onun va-

sitəsi ilə müasir sivilizasiyaya təsir etmişdir[1]. Beləliklə, Yunan və Roma mədəniyyətinin doğmalığı mədəni- tarixi varislik əsasında yaranmışdır. Romada dövlət hakimiyyətinin inkişafının xüsusi amilləri Roma tarixinin ilk günlərində istilaçı dövlət rolunda çıxış edir. Romalılar üçün *müharibə* bir qayda idi, o romalıları möhtəşəm etmək üçün məktəb idi. Romada ticarətə və sənətkarlığa qul məşğuliyyəti kimi baxaraq nifrət edirdilər. Onların zənginləşməsi istila etdiyi ölkələrdən əldə etdiyi qənimətlər idi[2]. Odur ki, Roma kosmopolit mütləqiyyəti siyasi təsisatların bilavasitə inkişafı ilə yox, onun mükəmməl gücü ilə əlaqəlidir. Roma dövlət həyatına nüfuz edən Yunan humanitst sivilizasiyası o zamanın tarixi aləminə təsir edirdi. Bu sivilizasiya ali hakimiyyətdə təsisatlarla yox, Roma istilalarının nəticəsində yeni qüvvələrin, yeni amillərin təsiri altında inkişaf edirdi .

Ellin dövlət ideyasını irsən qəbul edərək Yunan fəlsəfəsini davam etdirdi. Yunan siyasi fəlsəfəsinə nüfuz edən ali hakimiyyətin yunan ideyası yazılmamış qanun haqqında təlimi Romada «Stoiklər» tərəfindən inkişaf etdirilmişdir.

---

[1] История древнего Рима. Учебник Под. ред. В. И. Кузишина Изд. второе и переработанное допол. М.: Выс. Школа, 1981, с.5

[2] Лазарев Г. М. Развитие государственной власти Древнего Мира М.: Гос. изд-во. 1909,с.74, 76, 99

## 3.3.1. Roma imperiyasının yaranması, yüksəlişi və süqutu

• *Respublika öz mövcudluğunu dəbdəbəyə, monarxiya yoxsulluğa görə sonlandırır.*

***Ş.Monteskye***

• *Roma imperiyasının süqutu bir tərəfdən mərkəzdən qaçma – daxildən gələn dağıdılma, əxlaqi dəyərlərin pozulması; digər tərəfdən mərkəzə qaçma – Romaya soxulmaq istəyən barbarların istila istəkləri ilə izah olunur.*

Romalıların sərt zorakılığına baxmayaraq, itaət altına alınan xalqların mədəniyyəti Roma dövlətinin sivill gücü ilə müəyyən edilirdi. Roma o dövrün mədəniyyətini öz mədəniyyəti ilə bütün vasitələrlə əlaqələndirirdi; o öz dinini heç kəsə zorla qəbul etdirmirdi; əksinə, İtaliyanı fəth edəndə orda mövcud adətləri Romaya keçirmişdi. Roma xalqları istila etmirdi, onları udurdu. Fasiləsiz səkkiz yüz il vuruşmaq, nə qədər müharibələr, qələbələr və qan tökmə və xalqları məhv etməklə, siyasi dahilər, müdriklər yetirməklə və bənzərsiz mərdlik göstərməklə Roma nəzərdə tutulan məqsədlərə çatmışdı. E.ə. üçüncü əsrin ikinci yarısında Roma İtaliyaya sahib olur, yüz il sonra bütün qədim dünya dövlətlərini özünə tabe edir. Roma öz dövlət hakimiyyətinin sərhədlərini uzaq Britaniyadan – Afrika səhralarının dərinliklərinə, Hindistandan – materikin Atlantik sahillərinə qədər genişləndirmişdi[1].

İstila dövründə Roma ali hakimiyyəti yeni əsaslar əldə edir. O, ayrı-ayrı qrupların davranışını normalaşdırır və hərbi təşkilata söykənərək məcburetmə gücü ilə, qaliblər üçün *hüquqlar* və müvafiq olaraq məğlub olmuşlar üçün *vəzifələr*

1 Лазарев Г. М. Развитие государственной власти Древнего Мира. М.: Гос. изд-во. 1909, с. 80

yaradır. Bu isə yeni əsaslarla hüququn tətbiqidir. Dövlət hakimiyyətinin hüquqi əsaslarına böyük əhəmiyyət verilirdi. Müasir hüquqda dövlət köhnəlmiş qalıqlar kimi qədim dini mahiyyətdən azad olunurdu.

O zamanın tarixi aləmi yaxşı mənzərə təşkil edirdi. Roma dili, (latın dili) Afrika İspaniya, Qaliya, Britaniya və s. üçün əsas dil elan edilmişdi. Bütün xalqlar bir dövlət hakimiyyətində gələn qanunlara tabe idi. Dövlət hakimiyyəti güclü idi. Yunanıstanda olduğu kimi, onun şəxsi həyata qarışmasında sərhəd tanımırdı. Əsasən hərbi nailiyyətlə yaradılan və mühafizə edilən dövlətin möhkəmliyi istila siyasətinə yönəldilirdi. Bu isə dövlət hakimiyyətinin inkişaf prosesini çevriliş yolu ilə yekunlaşdırırdı. Bu çevriliş mütləq – monarxın başlanğıcının təntənəsi kimi ifadə edilirdi. Roma imperatorlarının hakimiyyəti bütün dövlət tarixində özünün istisna təhzahürünə görə yeganə idi. Ali hakimiyyətin gücü o qədər böyük idi ki, onun daşıyıcısı – imperator özünü adi adam hesab etmir və tələb edirdi ki, ona tanrı kimi sitayiş etsinlər[1]. Uzun müddət Romada mütləq monarxiya olmasına baxmayaraq, respublika təsisatları saxlanıldı. Roma imperyasının süqutu və dağılması səbəblərini dünya dövləti yaradan həmin qüvvələrdə axtarmaq lazımdır[2].

Respublika tipli dövlət quruluşu bütün Roma quldarlarının sinfi üçün dayanıqlığını və sosial qaydaları təmin edə bilmirdi. Roma respublikasının süqütü monarxik hakimiyyətin yaranmasına səbəb olan böhranla müşayət olunurdu[3].

---

1 Лазарев Г. М. Развитие государственной власти Древнего Мира М.: Гос. изд-во. 1909, с. 89

2 Там же, с. 91

3 История древнего Рима. Учебник. Под ред. В.И.Кузишина Изд. второе и переработанное допол. М.: Выс. Школа, 1981, с.4

Görkəmli yunan tarixçisi, aristokrat, on altı il Romada girov saxlanılmış, qırx cilddə nəşr olunmuş «Ümumi tarix» əsərinin müəllifi *Polibiy* (e.ə. 201-120) Romanın uğurlarını monarxiya, aristokratiya və demokratiyanın əsaslarını Roma quruluşunun ahəngində görürdü[1]. Polibiy hakimiyyətin mənşəyini və onun düzgün transformasiyasını aydın şəkildə və tam maraqlı təqdim edir. Onun fikrincə ilk olaraq *tək hakimiyyətlilik* meydana gəlib. Nə vaxt ki insanlar arasında hüquq və ədalətin əsasları meydana gəldi, onda təkhakimiyyətlilik çarlığa çevrildi. Qısa bir zamanda birinci çarların hərəkətləri özünə qarşı nifrət və düşmənçilik qəzəbi yaratdı və orda *çarlıq tiranlığa çevrildi*. Aristokratlar və incidilən əhali tiranının həyatına sui-qəsdlər təşkil edir.

Aristokratlar xalqa arxalanaraq tiranı yıxır, yaxşıların idarəçiliyini yaradırlar. Yaxşıların hakmiyyəti dövlət idarəçiliyini namusla həyata keçirdiyi üçün iftixar hissi keçirir. Hər yerdə ədalətliyi əks etdirir. Lakin onların *uşaqları bəd əməllərə aludə olurlar və yaxşıların idarəçiliyi pis yöndə azların idarəçiliyi ilə əvəz olunur.* Onların hərəkəti xalqa nifrətlə qarşılanır və adətən onların bir hissəsi məhv edilir, bir hissəsi isə qovulur və o zaman xalq idarəçiliyi (populi imperium) yaranır. Lakin xalq hakimiyyəti idarə edə bilmir; onlar öz ümidlərini kiminsə xoşbəxtliyi üzərində qurmağa başlayırlar. Varlılara qarşı zorla talan və quldurluq ifadə olunmağa başlayır. Xalq idarəçiliyinin bu növü *«polibiy oxlokratiya»* – qara guruhların hakimityyəti adlanır[2].

Romaya dövlət hakimiyyəti leqionların gücü ilə gətiril-

---

1 История древнего Рима. Учебник. Под ред. В.И.Кузишина Изд. второе и переработанное допол. М.: Выс. Школа, 198, с. 9

2 Лазарев Г.М. Развитие государственной власти Древнего Мира М.: Гос. изд-во. 1909. с. 83-84.

miş və qılıncla onu müdafiə etmişlər. Yuliy Sezar öz ordusu ilə Romaya gələndə o, faktiki olaraq bütün dövlətin hökmdarı olur. Odur ki, Roma dövləti öz başlanğıcında qüsurlu idi. Romada hakimiyyətin dağılması və məhvi *iki yolla* gedirdi. Birincisi, mərkəzdən qaçma yolu ilə onun yarandığı, özü özünü inkar etdiyi Romada *daxildən gələn dağıdılma və ikinci, mərkəzə qaçma* yoludur. Bu da dövlət hakimiyyətinin inkişafına nifrət edən və həmişə Romaya soxulmaq istəyən barbarlardan gəlirdi. Gücdən düşmüş hakimiyyət onların qarşısında dayana bilmir, möhtəşəm Roma imperiyası süqut edir.

Sual yaranır: necə ola bilərdi ki qeyri-məhdud hakimiyyətə malik alan dünya dövləti barbarlardan təşkil olunmuş muzdlu qoşunun özbaşınalığı nəticəsində məhv edilsin? Axrıncı böyük Roma tarixçisi *Tasıtin* fikrinə görə Roma imperatorlarının despotluğu və cəmiyyətin dəyişməsi, Roma əhalisinin əxlaqi dəyərlərinin pozulması, daxili siyasi münasibətlər Roma əzəmətinin süqutuna gətirib çıxarmışdı[1].

1 Словарь античности. М.: Прогресс, 1989, с.564

## 3.4. Medison və ABŞ demokratik konstitusion respublikası

• *Azadlıq hər hansı idarəçilik formasında yox, azad insanın ürəyində yerləşir.*

***J. J. Russo***

• *Bizə geriyə nəzər yetirmək yalnız keçmiş səhvlərdən dərs götürmək və böyük qurbanlar hesabına aldığımız təcrübənin xeyri üçündür.*

***C.Vaşinqton***

• *Qanunverici təbiət qanununa zidd qanunlar qəbul edirsə, bu, cinayətdir. Mahiyyətcə bu, gələcəkdə cəzalandırmaq məqsədi ilə cinayət əməli yaratmaqdır.*

***T. Cefferson***

Amerika konstitusiyası dünya tarixində Konstitusiyaların birincisidir. ABŞ konstitusiyası intibah dövrünün ən yüksək zirvəsi sayılmaqla, XVIII yüzillikdə insan münasibətləri sahəsində qərb elminin və fikrinin nailiyyətlərinin tətbiqini etməkdə böyük səy idi. Bu konstitusiya iki yüz ildən artıqdır ki, bütün konstitusiyaların patriarxı sayılır.

Amerikalılar öz xalqına şərəf gətirən şəxsiyyətlərin xidmətlərini onlara təxəllüs verməklə əbədiləşdirmişdir. Amerika dövlətçiliyinin əsasını qoyan C.Vaşinqtonu «Millətin atası», «Müstəqillik haqqında bəyamnamənin» müəllifi T.Ceffersonu «Banilərin banisi», ABŞ Konstitusiyasının yaradılmasında əsas füqur olan G.Medisonu «Konstiutsiyanın atası», ABŞ konstitusiyası Ş.Monteskyenin hakimiyyətlərin bölgüsü konsepsiyası üzərində qurulduğundan onu *«Konstitusiyanın mənəvi atası»* hesab edirlər.

Hüquq nöqteyi-nəzərindən respublika, bilavasitə orqanların sayı və mahiyyətindən asılı olaraq, növlərə bölünür.

Hüquqi ədəbiyyatda bilavasitə hakimiyyət orqanların xarakterinə görə kollektiv rəhbərliklə respublikaya, oliqarxik respublikaya, sinfi və ya aristokratik respublikaya, demokratik respublikaya (antik demokratiya, müasir demokratiya) ayrılır[1]. ABŞ dövləti dedikdə söhbət bütün demokratik ölkələr üçün nümunə olacaq hüquqi dövlətin əsas növlərindən biri kimi klassik *«Konstitusion dövlətlərdən»* gedir.

ABŞ-da dünya ölkələri üçün tipik model olan demokratik respublika modeli Amerikanın intellektual insanlarının – Ceffersonun, Hamiltonun, Medisonun və b. apardığı konstitusion islahatlarla birbaşa bağlıdır[2].

Amerikalılar üçün demokratiya, Avraam Linkolnun dediyi kimi, yalnız xalqın rəhbərlik etdiyi və xalqa xidmət edən xalq hakimiyyəti deyildir, o, həm də çoxluğun hakimiyyətinin məhdudlaşdırılmasını nəzərdə tutur. *«Demokratiyanın prinsipi ləyaqətdir, belə ki, vətəndaşlara vətənə məhəbbət hissi və bərəabərlik rəhbərlik edir, monarxiya prinsipində vicdan; despotiyada isə qorxudur» (Monteskye); «Demokratiyanın əsasını vicdan, təhsil, söz toplanma azadlığı təşkil edir, bütün bunlar nə vaxtsa azad mətbuat məhv edilərsə, ləğv edilir» (Franklin Ruzvelt); «Demokratiya bizim layiq olduğumuz, bizim üzərimizdə yaxşı olmayan idarəetməni təminatlı edən mexanizmidir» (Bernard Şou); «Demokratiya bütün qalan idarəçilik formalarını nəzərə almasaq, ən pisidir» (U.Çörçill); «Əgər tanrılar xalqı mövcud olsaydı, o, demokratik idarə olunardı. Deməli mükəmməl idarəçilik tərzi insanlara xas deyil»*

---

1 Коркунов Н.И. История философии и права. С.-Петербург, 1908, с.529

2 Rzayev Ə. H. ABŞ konstitusiyasının formalaşması: zaman və məkan kontekstində. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. №1(41) 2013, s.159-167

*(J.J.Russo)*

Birləşmiş ştatlar müxtəlif ölkələrdən köçüb gəlmiş mühacirlər tərəfindən təsis edilmişdir. Bu insanlar müxtəlif siyasi, sosial, dini və iqtisadi əqidələrə tapınırdılar. Birləşmiş ştatlarda qəbul edilmiş dövlət quruluşu bir çox cəhətdən avropalılardan mənimsənilsə də, açıq-aşkar Amerika xarakterinə malik idi[1]. Amerika demokratiyasının inkişaf yolu bir çox cəhətdən «İstiqlaliyyət Bəyamnaməsi» prinsiplərinin təcəssümüdür. ABŞ Konstitusiyasının əsas xüsusiyyətlərindən biri bu idi ki, o, dövlət suverenliyinin, dövlət hakimiyyətinin mənbəyini vətəndaşlarda görürdü, bu ideya XIX əsrdən bütün dünyada son dərəcə mühüm faktora çevrilmişdir[2] .

Amerika demokratiyasının təməl anlayışları aşağıdakılırdır: *dövlət insanlar arasında bağlanmış müqavilədən törəyir və o, öz öhdəliklərini yetirmədikdə devrilə bilər; dövlət öz vətəndaşlarının hüquqlarını və əmlakını müdafiə etmək üçün yaradılır; cinayət törətməkdə ittiham edilən hər bir insan adlılar məhkəməsi hüququna malikdir; dövlət müvafiq order olmadan, öz vətəndaşlarının razılığı olmadan onların üzərinə heç bir vergi qoya bilməz. Bəyamnamədə əsas prinsiplər: insanların bərabər doğulması sübuta ehtiyacı olmayan bir həqiqətdir; onlar alınmaz hüquqlara malikdirlər; dövlət öz hakimiyyətini yalnız idarə etdiklərinin razılığı əsasında əldə edə bilər və dövlətin vəzifəsi bu hüquqları müdafiə etməkdir*[3].

Hələ 1778-ci ildə Fransa dövlət xadimi Turqat amerikalılar haqqında yazmışdır: Bu xalq bəşəriyyətin ümididir. O, hamımız üçün ideal ola bilər. Amerika siyasi, dini və iqtisadi azadlıqların

---

1 ABŞ demokratiyası haqqında əsas mətnlər. Tərtibçi müavin İ. Uzofski. İqtisad və Siyasi Araşdırmalar Mərkəzi., 2005, 487, s.6

2 Yenə orada, s.29

3 Yenə orada, s.3-4

nümunəsi olmalıdır. Lakin bizim üçün modelə çevrilməkdən öncə Amerika ilk növbədə özü bu ideala çevrilməlidir. Amerika tarixində elə bir sənəd yoxdur ki, Amerika vətəndaşlarının beyin və qəlbində tutduğu yer baxımından «İstiqlaliyyət Bəyamnaməsi» ilə bir sırada dura bilsin. XVIII əsrin 70-ci illərində amerikalıların istiqlaliyyət uğrunda apardığı müharibə, ştatlar arasındakı pərakəndəlik, ştatların bir ittifaqda birləşmək istəyi orada konstitusiyanın qəbulunu şərtləndirmişdir. Məlumdur ki, hər bir daimi ittifaq onun iradəsini yaradan və icra edən, onun səlahiyyətlərini məhdudlaşdıran ittifaqın özündə onun üzvlərinin vəziyyətini tənzimləyən qaydalara ehtiyac olub. Bu cür qaydalar konstitusiya adlanır. Odur ki, hər bir dövlətin öz konstitusiyası var. Konstitusiya demokratik idarəçilik forması olan dövlətlər üçün xarakterikdir[1].

ABŞ Konstitusiyası hüquqi cəhətdən Amerika xalqına istiqlaliyyət uğrunda qazandığı qələbəni təsbit etdi, kapitalist istehsal münasibətlərinə yol açdı və digər ölkələrin burjuaziya-demokratik konstitusiyalarına nümunə oldu. Dünyada mövcud olan əksər konstitusiyaların mahiyyətinə, dövlətlərin konstitusion quruluşuna baxdıqda, onlar bizi istər-istəməz ABŞ-ın Konstitusiyasına, respublika quruluş modelinə, hakimiyyətlərin bölgüsünə, prezidentlik institutuna, balanslaşdırılmış idarəçilik sisteminə aparır.

İki yüz ildən artıq yaşı olan ABŞ Konstitusiyası bu müddətdə xalqına sədaqətlə xidmətdə olub və bu, həm də ona görə mümkün olub ki, onun müəllifləri ağıllı şəkildə etiraf edirdilər ki, bütün çətinlikləri qabaqcadan nəzərə almaq qeyri-mümkündür və bu ideyanın ardınca gedənlər sənədi

---

1 Коркунов Н. И. История философии и права. С.-Петербург, 1908,с.37

yeni tələblərə və mövcud revallığa uyğunlaşdıra bilirlər[1]. Təqribən yeddi min sözdən ibarət ilk yazılı konstitusiya, müstəqil və yığcam sənəd kimi dünyanın əksər ölkələrinin konstitusiyalarına təsir göstərmişdir .

ABŞ Konstitusiyasının unikallığı onun mətninin dəyişdirilməsini çətinləşdirən xüsusi proseduranın olması və bu konstitusiyanın uzun ömürlülüyünün səbəblərindən biri tarixi şəraitdə baş verən dəyişikliklərə tez adaptasiya oluna bilməsindədir. ABŞ Konstitusiyasının ingilis-fransız konstitusiyalarından fərqli əlamətlərindən biri də həm dövlətin və həm də hökumətin başçısı kimi, ABŞ prezident statusunun, icra hakimiyyəti orqanlarında qanunverici hakimiyyət nümayəndələrinin vəzifə tutmasına qadağa prinsipinin olmasıdır.

Konstitusiyanın uzunömürlülüyü və təkamüldə olması böyük şəxsiyyətlərin fəal iştirakı ilə onun bünövrəsinin möhkəm qurulmasındadır. Dünyada analoqu olmayan mərkəzi icra hakimiyyəti orqanına alternativsiz prezident seçilən «Millətin atası» C.Vaşinqtonun şəxsiyyəti, onun konstitusiyaya bu gün də tətbiq edilən əhəmiyyətli sayda presedentlərlə zənginləşdirən xarakterik əlamətlər verməsi bu bünövrənin əsasını təşkil etmişdir.

Zəngin təbii sərvətlərə malik Şimali Amerikada daha ekstensiv ingilis müstəmləkəçiliyi onların rəqibləri olan holland mühacirlərini sıxışdırıb çıxardaraq, Atlantik okeanı sahilləri boyu uzanan müxtəlif iqtisadi struktura malik 13 koloniya yaratmışlar. Bu koloniyalar arasında formal əlaqələr mövcud deyildi, onlar metropoldan asılı vəziyyətdə olmaqla müstəqil idarə olunurdu. İlk vaxtlarda onların idarəetmə sistemində müxtəliflik var idi. Onların bir hissəsi ticarət kompaniyasının

---

1 ABŞ demokratiyası haqqında əsas mətnlər. Tərtibçi müavin İ. Uzofski. İqtisad və Siyasi Araşdırmalar Mərkəzi, 2005, s.30

verdiyi kral xartiyası ilə idarə olunan koloniyalar; digərləri, kral xartiyası ilə kralın ayrı-ayrı şəxslərə bağışlandığı «xüsusiyyətçilik» adlanan koloniyalar; üçüncü hissəsi isə kral qubernatorları tərəfindən idarə olunan taxt-tac koloniyaları idi[1].

1775-1783-cü illərdə bu 13 ingilis koloniyası istiqlaliyyət uğrunda İngiltərəyə qarşı müharibə etmiş, xalq kütləsinin təsiri ilə 1776-cı ilin iyun ayının 4-də kontinental konqres «İstiqlaliyyət bəyannaməsi»ni qəbul etmiş, koloniyaların İngiltərədən ayrılmasını, onların azad və müstəqil dövlət kimi Amerika Birləşmiş Ştatları adı altında birləşməsini elan etmişdir. İstiqlaliyyət bəyannaməsi hüquqi cəhətdən müstəqil sənəd kimi insan azadlıqları və bərabərliyinin onun hüquqlarının ayrılmaz hissəsi olduğunu elan etmiş, xalqın maraqlarını təmin etməyən idarəçilik formasını dəyişdirə bilmək hüquqlarını əsaslandırmışdır.

Bu sənədin əsas müəlliflərindən biri görkəmli dövlət xadimi, Şimali Amerikanın istiqlaliyyəti uğrunda aparılan müharibədə burjuaziya demokratik cərəyanın ideoloqu, öz çıxışları ilə demokratik respublika quruluşunun, insanların bərabərliyinin müdafiəçisi, Virginiya plantatoru, vəkil, dövlət və siyasi xadim, ABŞ-ın dövlət katibi, vitse-prezidenti, prezidenti olmuş T.Cefferson idi.

XVIII əsrin inqilabları amerikalıları ingilis müstəmləkəsindən azad etdi, bir neçə il sonra Fransada kral hakimiyyəti süquta uğradı, onun yerində respublika quruluşu tətbiq edildi. 1777-ci ildə 13 ştat istiqlaliyyət bəyannaməsinə identik ideyalarla başlayan konstitusiyalar qəbul etdi. 1777-ci ilin 15 noyabr ayında Konqres ABŞ-ın ilk konstitusiyasını bəyəndi. Ştatlar tərəfindən ratifikasiya olunandan sonra 1781-ci

1 Ливанцев К.Е. История буржуазного государства и права. Л.: ЛГУ, 1986, с.104

ilin mart ayının 1-də «Konfederasiya maddələri və daimi ittifaq» adı altında təsdiq edildi.

Amerika Birləşmiş Ştatlarında inqilabi hökumət ingilis konstitusiya sisteminin miniatür respublika surətini tətbiq etmiş, bəzi ştatlarda qubernatorlar, senat və nümayəndələr palatası İngiltərənin yazılmamış konstitusiyasında göstərildiyi kimi, kralın, lordlar palatasının və icma palatasının səlahiyyətlərini yerinə yetirirdi. İdarəçilikdə balanslaşdırma sistemini saxlamaq məqsədi ilə əksər ştatlarda qubernatorların səlahiyyətlərinə kəskin məhdudiyyət qoyulurdu. Qanunverici və məhkəmə hakimiyyəti nümayəndələrinə icra hakimiyyəti orqanlarında hər hansı bir vəzifə tutmaq qadağan edilirdi. Bu məhdudiyyətlər bəzi ştatlarda Ş.Monteskyenin hakimiyyətlərin bölgüsü doktrinasına əsaslanırdı. İcra, qanunverici və məhkəmə hakimiyyəti triadası ştatlarda qubernatorlar, senat, nümayəndələr palatasının aparıcı elementlərinin triadası ilə üst-üstə düşürdü. Beləliklə, amerikalılar İngiltərənin yazılmamış konstitusiyasının klassik ideyalarını və strukturunu 1787-ci ilə qədər mövcud olmuş ştatların konstitusiyalarında mənimsəmişdilər.

İnqilabın qələbə ilə başa çatması bütün bu çatışmamazlıqları aradan qaldırmaq, «Konfederasiya maddələrinə» yenidən baxmaq, daha möhkəm ittifaq yaratmaq məqsədi ilə 1787-ci ildə 12 ştatın nümayəndələrinin iştirakı ilə Filadelfiyada konstitusiya konventi yığılmasını şərtləndirmişdir. Bu konvent plantasiya sahiblərinin və burjuaziyanın iştirakı ilə xalqdan tam gizli keçirilmişdi[1].

1787-ci ildə amerikalılar federal konstitusiyanın tərtibinə başlayanda hər bir hakimiyyət qolunun müstəqilliyi

1 Конституции государств Американского континента. М.: Иностранная литература, 1959, с.224

və onların bərabərliyini təmin etmək ideyaları əhəmiyyətli dərəcədə üst-üstə düşürdü, hakimiyyətlər arasında balanslaşdırılmış idarəçilik sistemi yaratmaq əsas istiqamət idi. Konstitusiya konventi mahiyyətcə azad insanlar arasında demokratik debatların yüksək ənənələri ruhunda qarşılıqlı güzəşt prosesi idi. Respublika quruluşu, balanslaşdırılmış idəetmə sistemi nəzəriyyəsi, hakimiyyətlərin bölgüsü doktrinası 1787-1788-ci illərin hadisələrinin gedişini müəyyən edirdi. İstiqlaliyyət uğrunda müharibədə amerikalıların qələbəsini təmin edən və konventə sədrlik edən, iradəli, güclü və əvəzolunmaz lideri C.Vaşinqtonun öz nüfuzundan istifadə edərək, konstitusiyanın hazırlanma prosesində ştatların ittifaqını yaratmaq üçün hər ştatın nümayəndələri ilə apardığı fərdi söhbətləri mövcud narazılıqları aradan qaldırmış və ştatların kompromisə gedib ittifaq bağlanmasına şərait yaratmışdır. T.Cefferson deyirdi: «C.Vaşinqtonun səyi nəticəsində bizim yeni konstitusiya müxalifəti praktiki olaraq yoxa endirdi».

İlk olaraq 1788-ci ildə Virginiya ştatında uzun müzakirədən sonra Medisonun rəhbərlik etdiyi və hazırladığı plan «işçi model» kimi qəbul edilir və bu»Virginiya planı» federalistlərin anti-federalistlər üzərində qələbəsini təmin edir, 89 səsə qarşı 79 səslə ratifikasiya olunur[1]. «Virginiya planına» görə hakimiyyəti üç qola bölmək və güclü mərkəzi hakimiyyət yaratmaq təklif edilirdi. Nəticədə ümummilli mərkəzi icra hakimiyyəti, ikipalatalı qanunvericilik və məhkəmə hakimiyyəti təsis edilir. Beləliklə, ABŞ konstitusiyası ümumi əlamətlərinə görə C.Medisonun layihəsi əsasında qurulur.

Öz zənginliyi, əhalisinin sayı və intellektual təsirinə görə

---

1 Дик Хайард. Джеймс Мэдисон и конституция. Журнал «Америка», 1987, май № 36, с.4

Virginiya ştatının konstitusiyanı ratifikasiya etməsi təcrübəsi başqa ştatlar üçün nümunə olur. Maraqlı hal odur ki, Amerika dövlətçiliyinin əsasını qoyan, ona möhkəmlik gətirən, istiqlaliyyət uğrunda müharibədə xalqın qələbəsini təmin edən, ilk president, «millətin atası» kimi amerikalılarin yaddaşına düşən C.Vaşinqton, «Müstəqillik haqqında bəyannamə»nin müəllifi, xalq tərəfindən «banilərin banisi» sayılan T.Cefferson və ABŞ Konstitusiyasının yaradılmasında əsas fiqur olan «Konstitusiyanın atası» adlandırılan C.Medison, «Virginiya planı»nın həyata keçirilməsində isə xüsusi rolu olan, sonradan ABŞ Ali Məhkəməsinin sədri işləmiş C. Marşal Virginiya ştatından çıxmış idilər. C.Vaşinqtonun prezidentliyi dövründə T.Cefferson dövlət katibi, C. Adamsın prezidentliyi dövründə isə vitse-prezident, sonra prezident, T.Ceffersonun prezidentlik dövründə isə C.Medison dövlət katibi, sonra isə prezident olmuşdur.

C.Medison tərəfindən verilən təkliflər mürəkkəb proseduradan keçir: əvvəl palatada, senatda, sonra birləşmiş komitədə və ştatların legislaturaları aparatında baxılandan sonra, yeni konstitusiya əsasında çağırılmış konqresin birinci sessiyasında «Hüquqlar haqqında Bill» layihəsinin müəllifi olan C.Medison bu sənədi sessiyaya təklif etmək təşəbbüsünü öz üzərinə götürür. Medisonun səyi olmasaydı, yeni hökumətin təşkilində «Hüquqlar haqqında Bill» (on düzəliş) tərtib olunmayacaqdı.

Amerikalıların «Hüquqlar haqqında Bill»i şəxsiyyət hüquqları, insan ləyaqəti və arzularının qorunmasına yönəldilmiş, təcrübəli qanunvericilərin yazdığı və məhkəmədə qüvvədə olduğu qanun idi. 1791-ci ildə Konstitusiya şəxsiyyətin toxunulmazlığını təmin edən birinci on düzəliş – «Hüquqlar haqqında Bill» əlavə edilməklə ratifikasiya olunur.

İnsanların şəxsi və siyasi azadlıqları, şəxsiyyət və mülkiyyətin hüquqi mənşəyi antik fəlsəfi ideyalardan, intibah dövrünün vətəndaş humanizmindən yox, İngiltərə hüquq ənənələrindən gəlir. «İngiltərə dünyada ən azad ölkədir» ideyası konstitusiya yaradanlar – ingilis hüququ çərçivəsində azadlıq və şəxsiyyətin toxunulmazlığı konsepsiyası tərəfdarları kimi formalaşdırmışdır. XVIII əsrin sonlarında amerikalılar şəxsiyyətin hüquq və azadlıqlarını genişləndirərək, ingilis konstitusianizm bünövrəsi üzərində və onun təsiri altında, təcrübələrindən istifadə etməklə öz konstitusiyalarını yaratdılar.

ABŞ Konstitusiyasının yaradılmasında C.Medisonun rolu ölçüyəgəlməzdir, onun qədər konstitusiyanın formalaşmasına töhfə verən ikinci şəxs olmamışdır. Amerikanlar bunu qiymətləndirərək, onu «konstitusiyanın atası» adlandırırdılar. C.Medison ABŞ Konstitusiyasını yaratmaq üçün qədim mütəfəkkirlərdən – Plutarx və Polibiyadan tutmuş, fransız siyasi fəlsəfə nümayəndələrinə, o cümlədən Ş.Monteskyeyə qədər, həmçinin dünyada mövcud olmuş Axey və Likiy konfederasiyalarını və İsveçrə, Belçika, Almaniya federativ ittifaqlarının mahiyyətini, konkret faktları tapmaq üçün keçmişi diqqətlə oxuyub öyrənmişdir. Fiziki cəhətdən zəif olmasına, gözəl nitq qabiliyyətinə malik olmamasına baxmayaraq, həddən çox mütaliə etməsi, işgüzarlığı və dönməz enerjisi Medisonu siyasi elmin mahir ustadı və nəzəriyyəçisi etmişdir. O, ədalətliliyinə, vicdanlılığına və biliyinə görə öz ətrafına tədricən hörmətli, savadlı şəxsləri toplamışdır.

C.Medison öz çıxış və məqalələrində bu və ya başqa kitablara, mütəfəkkir və filosoflara istinad edirdi. İnsanların başa düşdüyü formada Plutarxdan, Polibiyadan, Siserondan, Monteskyedən və başqalarından sitatlar gətirirdi. Bu əsərlərdə o, sevdiyi «güclü mərkəzi hakimiyyət olmadan güclü konfederasi-

ya ola bilməz tezisini» tapır. Bütün konfederasiyaların hər birinin müsbət və mənfi cəhətlərini 1787-1788-ci illərdə «federalist» adı ilə təhlil edir və bunlar konstitusiyada istifadə olunur. Ümumiyyətlə, «federalist» adı altında çap olunan 85 məqalədən 29-u Medisonun qələmindən çıxmışdır. «Federalistdə» çıxan, o cümlədən Medisonun məqalələrində irəli sürülən təkliflər incə və inandırıcı olmaqla, ABŞ Konstitusiyasının əsasını təşkil etmiş və bu gün də onun təfsiri hesab olunur.

«Federalistin» 48-ci nömrəsində C.Medison mərkəzi hakimiyyətin üç qolu arasında münasibətləri təhlil edərkən «çəkindirmə» və «tarazlaşdırma» prinsipinin mühüm olduğunu əsaslandırır. O, göstərirdi ki, bunları tam bölmək olmaz, onların birinin digərinə nəzarət funksiyalarına konstitusiyada yer verilməlidir. C.Medison konventdə müzakirə zamanı deyilən bütün çıxışların hamısını yazır, sonra isə ümumiləşdirərək onları təhlil edir. Bu sənədlər ciddi məxfiliklə saxlanılmış və yalnız 1840-cı ildə Medisonun ölümündən sonra açıqlanmışdır.

Mərkəzi hakimiyyət, Avropa mütəfəkkirlərinin bəzi ideyalarından bəhrələnməsinə baxmayaraq, əvvəllər mövcud olmuş heç bir hakimiyyətə oxşamırdı. «Maarifçilik» dövrünün ən ağıllı insanları idarəçiliyin üç ideal formasını: monarxiya, aristokratiya və demokratiyanı bir konstitusiyada uyğunlaşdırmaq, hər birinin xarakterik əlamətlərini, yaxşı tərəflərini və qaydalarını saxlamaqla balanslaşdırılmış sistemə statik model kimi baxırdılar.

S.Medison konstitusiya hazırlayarkən idarəçiliyin ingilis formasının spesifik strukturu ilə yanaşı, onun balanslaşdırılmış və ya qarışıq formasını əsas götürmüşdür. Bu nəzəriyyə antik dövr fəlsəfəsindən mənimsənilmiş və klassik respublika ənənələri ilə əlaqələndirilmişdir.

S.Medison insanları sağ və sol tiranlığından, çoxluğun

diktaturasından, azlığın hegemonluğundan qorumaq üçün hakimiyyət qollarının birinin digərinə nəzarət etməsi və tarazlaşdırması prinsipini əsaslandırır. O, konstitusiyanı tamamlamaq üçün prezidentlə konqres arasında iki paralel funksiya yerinə yetirir, onlar arasında əlaqələndirici rolunu ifa edirdi. Prezident adından konqresə təkliflər verir, konqres adından isə cavablar hazırlayır, səhərlər qanunverici hakimiyyət qolunda aparıcı fiqur, axşamlar isə prezidentə məsləhətlər verirdi. O, elə bil ki, özü-özü ilə dialoq aparırdı. 1789-cu ildə müəyyən müddətdə bütün hakimiyyət ABŞ-da yalnız nümayəndələr palatasından təşkil olunmuşdu. Palata isə təkcə Medison üzərində dayanırdı. O, senatın təşəbbüsünü ələ almışdı.

### 3.4.1. ABŞ Konstitusiyasında respublika quruluşunun ideya kökləri

• *Xalqın iradəsi istənilən hökumətin yeganə legitim əsasıdır və bizim birinci məqsədimiz onun azadlıqlarını müdafiə etməkdir.*

***T.Cefferson***

Amerikalıların inqilabının əsas vəzifəsi respublika qurmaq idi. Respublika ideyasının XVIII əsrdə ingilisdilli ölkələrdə geniş yayılmasında C.Lokkun fəlsəfi traktatının xüsusi rolu olmuşdur. XVIII əsrin axırlarında Qərbin bütün maarifçi insanları praktiki olaraq respublika ideyasını qəbul edirdilər.

Respublika quruluşunun vətəndaş və əxlaqi dəyərlərinin kökləri əsrlərin dərinliyinə, antik Romaya – böyük Roma respublikası dövrünə gedir. Roma respublikasının maarifçilik dövrü qədim Romanın «qızıl əsri» hesab edilir. Qədim Roma

dövrünün yazıçı və filosofları Roma respublikasının yaxşı həyat, vətəndaşlıq, sağlam siyasi cəmiyyət, möhkəm mənəvi durum, əxlaq, ölkəyə təmənnasız xidmət və başqa dəyərləri yüksək qiymətləndirən və Qərb mədəniyyətinə ciddi təsir edən əsərlər yaratmışlar. Konfederasiyaya oxşar respublika quruluşu Roma respublikasının süqutundan sonra mövcud olmamışdır.

Amerikalılar, hətta monarxiya tərəfdarları belə başa düşürdülər ki, respublikadan başqa, heç bir idarəçilik forması xalqın rifahına uyğun gəlmir. Odur ki, yeni konstitusiyanın yaradıcıları icra və qanunverici orqanları mütəmadi olaraq seçkilər yolu ilə formalaşdırılması, hər ştatda respublika quruluşunun saxlanılması, federal hökumətin məsuliyyəti altında yaradılmasını və zadəgan titullarının ləğvini nəzərdə tuturdular. İdarəçilikdə balanslaşdırılmış klassik nəzəriyyə respublika quruluşunun əsas ideyası kimi müstəqil prezident, aristokratik senat və xalq nümayəndələr palatası daxil olmaqla hakimiyyət strukturunun tərkibinə təklif olunurdu.

Beləliklə, Amerika siyasi şüurunun əsasını təşkil edən respublika quruluşu, idarəçiliyin qarışıq sisteminin klassik ənənələri bütün Qərb dünyası tərəfindən qəbul edilirdi. Hazırda dünya ölkələrinin əksəriyyətində respublika dövlət quruluşu, ikipalatalı qanunvericilik sistemi, müstəqil icra hakimiyyəti və hakimiyyətlərin bölgüsünə əsaslanan balanslaşdırılmış idarəçilik sistemi yaradılmışdır.

Demokratik respublika qurmaq ideyaları altında istiqlaliyyət uğrunda inqilab edən və məqsədlərinə çatan amerikalıların hakimiyyətdə olan düşüncəli liderləri, Fransadan fərqli olaraq, millətin düşmənlərindən qisas almadılar, bir-birinin başını gilyotində vurdurmadılar, öldürüb «təmizlik» aparmadılar. Əksinə, «düşmənlərini» ümumi işə cəlb etdilər, onların

fikirlərinə xoş niyyət göstərdilər və «Hüquqlar haqqında Bill»də nəzərə aldılar. Çox ibrətamiz haldır ki, Amerika inqilabının ilk günlərində hökumətdə təmsil olunan T.Cefferson və C. Adams bir-birinə qarşı kəskin münasibətdə olmalarına baxmayaraq, onların heç biri qiyama rəhbərlik etmədi, sürgün olunmadı və məhv edilmədi. Onlar öz «məğlubiyyətini» yaşadılar və ahıl yaşlarında bir-biri ilə məktublaşırdılar, hakimiyyət haqqında fikirlərini bölüşürdülər. Onların hər ikisi ABŞ prezidenti oldu və uzun ömür yaşadılar, hər ikisi eyni gündə 1826-cı ilin iyul ayının 4-də müstəqilliyin 50 illiyində dünyalarını dəyişdi[1].

Başqa bir misal, dövlət xadimləri A.Hamiltonla C. Cefferson arasında müəyyən məsələlərdə olan qarşıdurma C.Vaşinqton tərəfindən aradan qaldırılır, 1801-ci ildə Cefferson prezident olanda A.Hamiltonu köməyə çağırır.

ABŞ Konstitusiyası dövrün sınaqlarından çıxmış və dövlətçiliyin mahiyyətini müəyyən edən fundamental prinsiplərlə: idarəolunanların razılığı; idarəçiliyin məhdudlaşdırılması; federalizm; açıq cəmiyyət; şəxsiyyətin toxunulmazlığı; qanunun aliliyi; qanun qarşısında hamının bərabərliyi; məhkəmə nəzarəti və s. ilə fərqlənir.

Konstitusiyanın preambulasında idarəçilik formasının seçilməsində idarəolunanların (xalqın) razılığı prinsipi göstərilir. Bu isə dövlət hakimiyyətinin mövcudluğu və səlahiyyətlərinin xalq tərəfindən verilməli olduğu ictimai müqavilədən gəlir. İctimai müqavilə nəzəriyyəsi isə xalqın maraq və arzularını əks etdirən nümayəndəlik institutunun yaradılmasını tələb edirdi.

Beləliklə, hökumət konstitusiya səlahiyyətlərinin həddi

1 Неутомимый Джеймс Медисон: Лето 89-го Журнал «Америка» 1990, Июнь, № 403,С.5

və çərçivəsini xalqın razılığı ilə alır. «Heç kəs qanundan yüksəkdə deyil» ideyası Amerika Konstitusiya hüququnun leytmotivini təşkil edir. Konstitusiyanı yaradanlar müdrikliklə hökumətin özünənəzarət prinsipindən imtina edərək, konstitusiyada hakimiyyətlərin bölgüsü prinsipini tətbiq edirlər. Bu prinsipdə hər bir hakimiyyət qolunun öz səlahiyyət və funksiyaları ilə yanaşı, birinin digərinin hərəkətini dayandırmaq və məhdudlaşdırmaq hüquqları vardı. Məsələn, qanunverici hakimiyyətin – Konqresin qanunlarına prezidentin veto qoymaq, öz növbəsində Konqresin 2/3 səslə onu ləğv etmək hüquqları vardır. Prezident və Ali Məhkəmə Konqresin qəbul etdiyi qanunlar əsasında fəaliyyət göstərirlər. Ali məhkəmə isə qanunları və prezident aktlarını konstitusiyaya zidd hesab edə və onları qüvvədən salıb dayandıra bilər. Bu mexanizmin köməyi ilə dövlət hakimiyyətinin bu və ya başqa qolunun düşünülməmiş imperativ hərəkətinə məhdudiyyət qoyulur.

Konstitusiyada federalizm prinsiplərinin mahiyyəti mərkəzi dövlət hakimiyyəti – böyük federativ dövlət forması yaratmaqla, federasiyanı təşkil edən ştatların mövcudluğu əsas götürülür. Hər bir ştatın qüvvədə olan öz konstitusiyası var və səlahiyyətləri dairəsində qanun qəbul edirlər. Federasiya maraqlarına toxunmayan məsələləri ştatlar özləri sərbəst həll edirlər.

### 3.4.2. A.Tokvilin ABŞ demokratiyası haqqında fikirləri

*• Tarix – bu ölənlər, yaşayanlar və hələ doğumayanlar arasında ittifaqdır.*

***Edmunt Berk***

*• Tarix az original və çoxnüsxəli şəkil qalareyasıdır.*

*• Amerika vətəndaşlarının həyatında siyasi fəaliyyət hədsiz böyük yer tutur.*

***A. Tokvil***

Fransız mütəfəkkiri Tokvil iyirmi beş yaşında Amerikaya səyahət etmiş, ABŞ gerçək vəziyyəti öyrənmiş və öz təəsüratları əsasında 1835-ci ildə özünü məşhur «Amerikada Demokratya» (I hissə), 1640-cı ildə (II hissə) klassik əsərini yazmışdır. O yazır, *ABŞ-nın 1800-cü ildə beş yüz min əhalisi var idi, 1831-ci ildə isə bu rəqəm üç milyondan artıq olmuşdur*[1]*. 2014-cü ildə ABŞ ərazisi 9,5 mln kv.km olub, dünyada üçüncü (RF və Çindən sonra), əhalisi 332,5 mln nəfər olub, dünyada üçüncüdür (Çin və Hindistandan sonra).*

Kitabda göstərilir ki, Amerikada dünyada dərk edilməz təmənnasız və sezilməz duyğulardan yoğrulmuş vətən sevğisi var. Bu instinktiv məhəbbət, üstəlik də qədim adətlərə sədaqət, əcdadlara ehtiram, keçmiş haqda xatirələrlə qidalanıb güclənir və insanlar öz ölkələrini ata evi kimi sevməyə başlayır[2]. Amerika vətəndaşlarının həyatında siyasi fəaliyyət hədsiz böyük yer tutur. Cəmiyyətin idarə olunmasında iştirak etmək və bu barədə fikir yürütmək – bütün amerikalıların

---

1 Алексис де Токвиль. Демократия в Америке.М.: Прогресс, 1992, c.5

2 ABŞ demokratiyası haqqında əsas mətnlər. Tərtibçi müavin İ. Uzofski. İqtisad və Siyasi Araşdırmalar Mərkəzi., 2005, c. 90-91

ən başlıca məşğuliyyəti və ən məmnun olduğu şeydir.

Ölkələrdə hökm sürən əmin amanlıq, mehribançılıq və bura ilə bağlı xatirələr onlara əziz gəlir, öz ölkələrində, hətta mutiliklə də yaşamaq onlara ləzzət verir. Amerikada bütün vətəndaşların hər biri icmanın, mahalın və bütün dövlətin işləri ilə dərindən maraqlıdırlar. Onların hər biri vergi ödəyicisi olduğunu ön plana çəkməklə cəmiyyətin idarə edilməsində özünə məxsus tərzdə fəal iştirak edirlər. Tokvilin müşayətinə görə dövlət elə bil ki, görünməz bir sehrli əl tərəfindən yüksək səviyyədə idarə olunur.

Onun fikrincə, Amerikalılar ona görə müvəfəqiyyətə çatıb ki, onların tarixi sıfırdan başlayıb. ABŞ dərin yerli özünü idarə etmənin dərin desentralizasiyası xalqın ümumdövlət siyasətində iştirakını təmin etməyə xidmət edir. Amerika sisteminin dahiyanəliyi ondadır ki, hakimiyyət çoxluğun əlinə verilib, qanunlara dərin hörmət bəslənilir. Çoxluğun başında cəmiyyətin ən maariflənmiş şəxsləri durur. Çatışmazlıqlarına baxmayaraq, Amerika sistemi öz möhtəşəmliyi ilə fərqlənir. İnsanlar azaddırlar, müstəqil fikirləşirlər, özlərinə inamı var və səmərəli əməkdaşlıq edirlər.

Vaşinqton hökumətinin və Statların hakimiyyətinin zəif mərkəzləşməsi iki üstünlük verir: birinci, eyni cür oxşar idarəetmə formasının yaranmasına mane olur. İkincisi, yerlərdə idarə etməyə maraq əhəmiyyətli dərəcədə gücləndirilir[1].

Müasir İngiltərə aristokratik ölkə idi, onun təsisatları kolonistlər tərəfindən Amerikaya öz vətənindən (İngiltərədən) gətirilmiş və bu təsisatlar məntiqi və ağılla inkişaf etdirilmişdir. Onlarda belə inam yaranmışdır ki, azadlıq üçün müvəffəqiyyətin rəhni azad seçkidir, hökumət isə insanların təşəbbüsü gü-

---

1 Алексис де Токвиль. Демократия в Америке.М.: Прогресс, 1992, с.9

csüz olanda qabağını alan qul kimi onun köməyinə arxalanırlar. O, belə nəticəyə gəlir ki, Konstitusiya quruluşunun mənası hökumətin hakimiyyətini məhdudlaşdırmaqdır.

ABŞ, Fransa konstitusiyaları qəbul olunandan sonra çox ölkələrdə, o cümlədən Rusiyada xalqın konstitusion demokratik respublika qurmaq istəyi xalq hərakatının və hüquqşünas alimlərin fəaliyyətinin anna xəttini təşkil edirdi. Rusiyada XVIII əsrdə dekabrist hərakatı, XIX əsrin əvvələrində inqilabi hərakat mütləqiyyəti rəsmi olaraq ləğv etmək, konstitusion dövlət qurmaq istəyindən irəli gəlirdi. Rusiyada 1905-1907-ci il inqilabı ərəfəsində konstitusion dövlət haqqında məqalələr külliyatının nəşr olunmasını belə izah edirlər. Elmi sxemə görə bütün sivil ölkələrin təcrübəsi əsasında mütləq dövlətin yerinə konstitusiya ilə mühafizə olunan hüquqi dövlət gəlir. Bu külliyatın vəzifəsi Konstitusion dövlətin əsas əlamətlərini, ayrı-ayrı hissələrin qarşılıqlı təsirini araşdırmaq, xalqın fəal hissəsinə çatdırmaqdır[1].

Mütləqiyyət – bürokratik quruluşunu rəsmi olaraq ləğv etmək cəmiyyətin tələbi olub[2]. Hikmət Hacızadə «Demokratiyaya gediləsi uzun yol: Antologiya» kitabında antik demokratiyadan başlayaraq ABŞ nümunəsində müasir demokratiyaya – çoxluğun hakimiyyətini insan hüquqları ilə məhdudlaşdıran libaral demokratiyaya qədərki demokratik sistemin keyfiyyət inkişafını təhlil edir[3].

---

1 Конституционное государство. Сборник статей. С.Петербург 1905,с.8

2 Там же, с.8

3 Hikmət Hacızadə. Demokratiya: gediləsi uzun bir yol: demokratiya və antidemokratiya antologiyası. Bakı, 2001

# IV FƏSİL.

~~~~~~~~~

# DÖVLƏT HAQQINDA QƏDİM DÖVR FİLOSOFLARIN TƏLİMLƏRİ

• *Bizim keçmişimiz və gələcəyimiz vəhdətdədir. Biz özümüzün soykökündə yaşayırıq, soykökümüz bizdə yaşayır.*

***Nerval***

• *Bəşəriyyət baxışlarını keçmişə yönəldərək gələcəyə gedir.*

***Qubyelmo Ferrero***

## 4.1. Fales – Şərq elmini Yunanıstana gətirən ilk filosof

• *Fales Yunanıstana Şərq birliyini gətirmiş və onu inkişaf etdirmiş, Avropa elminin başlanğıcını qoymuşdur.*

• *Biz inanırıq ki, bütün bizim gizli niyyətlərimizdə göyün iradəsi iştirak edir.*

• *Dünyada ən çətin şey özünü dərk etmək, ən asan şey isə məsləhət verməkdir.*

• *Zamin olarsan ziyan görərsən.*

***Fales***

Yeddi qədim yunan müdriklərindən biri, antik fəlsəfənin və elmin banisi, Milet fəlsəfi məktəbinin əsasını qoyan və Kiçik Asiyanın qərb sahillərində əhalisi yunan olan Loniya şəhərlərinin birində anadan olmuş Fales (e.ə. 625-547) Misirə, Orta Asiyaya səyahət etmiş, bu ölkələrdə qədim biliklərin qalıqlarının yığılmasına səy göstərmişdir. Misirdə günün
~~~~~~~~~

müəyyən saatlarında öz kölgəsinin müqayisəsi ilə Misir piramidalarının hündürlüyünü ölçmüşdür.

Fales Yunanıstana *Şərq biliyini gətirmiş* və onu inkişaf etdirmiş Mileet (Loniya) məktəbinin əsasını qoymuş Avropa elminin başlanğıcını qoymuşdur. Qədimdə o, fəlsəfənin banisi, fəlsəfənin atası adlandırılmışdır. Aristotel Falesi bütün mövcud olanların ən birinci *maddi problemini* formalaşdıran ilk filosof adlandırıb N. D. Rojanskiy yazır ki, Qədim dövrdə Fales kimi pərəstiş olunan başqa bir fiqur çətin ki, tapmaq olsun. O, ilk olaraq biliyin köməyi ilə dünyanın quruluşunu öyrənməyə səy göstərmiş, tanrının iradəsini təbiət qanunları ilə dəyişdirmişdir. O, ilk yunan alimidir ki, dünyanın hansı materialdan ibarət olmasını müəyyən etməyə çalışmışdır. Falesə görə hər şey sudan yaranır, hər şey suda baş verir və ona qayıdır. Fales suya adi baxmır, suyu «ağıllı» və valehedici hesab edir. Bütün elementlərin, şeylərin mahiyyətinin başlanğıcı sudur. Kainatın başlanğıcı və sonu sudur. Əgər su ilk əsasdırsa, onda yer su üzərində yerləşir. Falesə görə yer gəmi kimi sıxılmış okeanda üzür, onda çaylar – gəminin dibində axını, zəlzələ isə – gəminin yellənməsidir. Hər şey suyun bərkiməsindən (donmasından), həmçinin onun buxarlanmasından yaranır. Suyun sıxılması zamanı torpaq, buxarlanmada isə hava yaranır. Yaranmanın hərəkət səbəbi suda yaranmış ruhdur.

Həm müasir Avropa fəlsəfəsi, həm də müasir sivilizasiya öz başlanğıcında Şərqdən bəhrələmiş və qədim yunanlardan götürmüşdür. Lakin ilk fəlsəfi sistem VI-V əsrlərdə Yunanıstanın özündə yox, Kiçik Asiyanın qərb sahillərində Loniya şəhərlərində (Milet, Somos, Xios, Teos və b. daxil olmaqa 12 şəhəri əhatə edirdi) yaranmışdır. Afina fəlsəfəsinin başlanğıcı haqda Dioqen Lazaretski yazır ki, ilk filosof miletli Falesin

Misirə getməsi, orda kahinlərin yanında qalması və oranın elmini öyrənməsi nəzərə alınmazsa onun müəllimi olmamışdır. Belə bir fərziyyə də var ki, Fales mənşəyinə görə finikiyalıdır. Finikiya isə Suriyanın dənizkənarı hissəsində müəyyən dövrlərdə assuriyalıların, babillərin, farsların hakimiyyəti altında olmuşdur[1].Yunanlar Falesi həndəsənin birinci yaradıcısı hesab edirdilər, onlar Falesin adına 5 həndəsi teorem yazırlar. Çox güman ki, onun bu nəzəriyyəsi Misirdə olarkən formalaşmışdır.

Fales dəniz astronomiyasını yaratmış və öz fəlsəfəsini astronomiya üzərində qurmuşdur. Qədimdə Fales haqqında Aristotelin tez- tez təkrar etdiyi əfsanə var: Danışırlar ki, Fales özünün kasıbçılığı və fəlsəfənin əhəmiyyət verilmədiyi səbəbindən ulduzları müşahidə edib anlamaqla, zeytunun gələcək bol məhsuldarlığını görür, Miletdə və Xaosda qışda bütün zeytun yağı istehsal edən sexlərin hamısına onda olan puldan beh verir. Heç bir müştəri olmadığından onları, demək olar ki, müftə alır, o öz işgüzarlıq keyfiyyətinə görə zeytun yağının inhisarçılığını ələ alır və müəyyən vaxtdan sonra ona tələbat birdən-birə artır və onu özü bildiyi qiymətə satır, çoxlu pul qazanır.

O günəşin tutulmasının nə vaxt baş verəcəyini əvvəlcədən söyləyirdi. Falesə görə təbiət həm canlı və ya həm də cansız ruh və ilahi kimi adlanan hərəkət başlanğıcına malikdir. Fales qəlbi zərif efir maddəsi hesab edir. Plutarxın qeydlərinə görə «Ondan sonra Anna Xarsis göstərirdi: Fales düzgün güman edir ki, Kosmosun bütün mühüm və ən böyük hissələrinin ruhu (qəlbi) vardır, ona görə də İlahi səviyyəsində gözəl işlər görülməsinə heyrətlənmək lazım deyil»[2].

1 100 Великих мыслителей. М., Вече, 2002, с. 49

2 https/ ru Wikipedia, org/ wiki Fales

Lidiya çarı Krizin xidmətində mühəndis işləyən Fales ordunu o taya keçirmək üçün Qalis çayının yatağını dəyişdirir. Miletin yaxınlığında su kanalının bəndini layihələşdirmiş, onların tikilməsinə rəhbərlik etmişdir. Bu haqda Falesin bioqrafiyasında didaktiv Fales miletlərin Krizlə ittifaq bağlamasına qarşı çıxır. Bu isə fars çarı Kirin qələbəsindən sonra şəhəri xilas edir. Siyasətçi kimi Fales farslara qarşı Loniya şəhərlərinin birləşib ittifaq yaratması üçün çıxış etmişdir.

Fales dünya quruluşunun əsas qanunlarını formalaşdırmağa səy göstərmiş, lakin müasirlərinin yaddaşında ən çox onun əxlaqi nəsihəti qalıb:

– *hər şeydən gözəl nədir? - dünyadır, çünki ən gözəl qurulanlar onun hissəsidir;*

– *hər şeydən müdrik nədir? - vaxt, birini yaradır və birini də yaradacaq;*

– *hamı üçün ümumi nədir? - ümiddir: o heç nəyə malik olmayanlarda da olur;*

– *ən mənfəətli şey nədir? - ləyaqət, çünki onun vastəsi ilə bütün başqa səylər öz tətbiqini tapa bilir və xeyirli olur;*

– *ən zərərli nədir? - əxlaqsızlıq, çünki o hər şeyi xarab edir;*

– *ən güclü nədir? - zərurət, çünki o yenilməzdir;*

– *ən yüngül nədir? - təbiətə uyğun olan, çünki eşr-işrət çox vaxt yorucu olur.*

Qerimp *«Həyat təsviri»* əsərində Falesin taleyində üç şeyin olduğunu müsbət qiymətləndirir: Birinci, o, heyvan yox, insandır, ikincisi, o, qadın deyil, kişidir, üçüncüsü, o barbar deyil, ellindir.

*Falesin fikrincə həyatla ölüm arasında fərq yoxdur. Ondan soruşanda ki, sən niyə ölürsən?, O deyir - Xüsusən ona görə. Ona sual verəndə ki, gecə və ya gündüzün hansı tez yaranıb?, Cavabında: gecə bir gün qabaq yaranıb - deyir. Biri ondan so-*

*ruşur ki, - İlahidən yaramaz işləri gizlətmək mümkündür? O cavabında: «Hətta pis niyyəti belə gizlətmək olmaz», - deyir. Ona «Həyatda nə çətindir»? sualına «Özünü dərk etmək», Ən yüngülü? – «başqasına məsləhət vermək». Hər şeydən xoş nədir? - Uğur nə məftunedicidir? Əvvəli və sonu olmayandır. Nəyi qeyri-adi görür? Qocalıqda tiranı. Nə vaxt bədbəxtliyi yüngül keçirmək olar?- Nə vaxt ki, görürsən düşmənə hələ pisdir? Hansı həyat ən yaxşı və ədalətlidir?- O zaman ki, başqasının mühakimə etdiyini özümüz edirik. Kim xoşbəxtdir? Bədəncə sağlam olanlar, qəlbi ilə qavraya bilən və tərbiyəyə tez alışan.*

## 4.2. Pifaqor –Pifaqorçular ittifaqının və metempsixoz ideyasının banisi

*• Pifaqor Yunanıstanda ilk olaraq «Böyük Yunanıstan» adlanan «Pifaqorçular ittifaqı» yaratmış, dəyişilməz ilahi qanunun mövcudluğunu bəyan etmiş, «Ən müdrik rəqəmdir, Allah bu rəqəmlərin rəqəmidir» ideyasının və metempsixoz, yəni ruhun bir canlı bədəndən başqasına keçməsi təliminin banisidir.*

*• Həyat oyuncağa oxşayır: bəziləri yarışmağa, bəziləri alver etməyə, ən xoşbəxti isə baxmağa gəlir.*

*• Xoşbəxtliyin arzxasına düşmə, o həmişə sənin özündədir.*

***Pifaqor***

Qədim yunan filosofu, pifaqorist məktəbinin banisi, riyaziyyatçı Pifaqor (e.ə. 570-500) uşaqlıqdan elmə böyük maraq və qabiliyyət göstərmiş„ müəllimlərindən təbiətə məhəbbəti, astrologiya, rəqəmlərin və təbiətin sirrlərini, tibbi və o dövr üçün məcburi olan başqa elmləri öyrənir. Pifaqor adı ləqəbdir. O, Delf

məbədində Orakul kimi həmişə həqiqəti dediyindən, «Pifaqor» nitqi ilə inandıran mənasında verilmişdir.

O, 22 il müddətində Misirə, Babilistana, Finikiyaya, Suriyaya, Hindistana, Ərəbistana və s. ölkələrə səyahət etmiş, fars maqlarından, sudan kahinlərindən təlim almiş, müqəddəs Misir məbədlərində olmuşdur. Pifaqor dili öyrənərək və bilik almaq üçün Misir adətlərinə görə bütün sınaqlardan keçərmiş (dini ayinlərə əməl edərək) – sünnət olunandan sonra Misirin tam hüquqlu vətəndaşı-kahin kastasının bərabər hüquqlu üzvü olmuşdur[1]. Pifaqor Misirdə olanda firon Almazis öləndən sonra onun varisi fars çarı Kambizə illik xəracı ödəməkdən imtina etdiyi üçün, müharibə başılayır. Farslar müqəddəs məbədləri dağıdır, kahinləri öldürür və ya onları əsir götürürdülər. Bu vəziyyətdə Pifaqor farslara əsir düşür. Deyilənlərə görə Babilistanda əsirlikdə o fars maqları ilə rastlaşır, xaldey müdriklərinin təlimi ilə, şərq xalqlarının uzun əsrlər boyu formalaşmış astronomiya və astrologiya, tibb və cəbr üzrə biliklərlə tanış olur. Zərdüşt peyğəmbərin sirrli, müəmalı dini Pifaqorda unudulmaz təəsürat yaratmışdır. Zərdüştə görə olüm insanların ruhunu məcbur edir ki, maddi dünyadan getsin və müəyyən müddətdə qeyri-mükəmməldə, qeyri-maddi vəziyyətdə olsun. Zərdüşt hər bir insanın cənnət və cəhənnəmi, tanrı məhkəməsi haqqında, bədənin gələcəkdə dirilməsi haqqında, hamı üçün axırıncı məhkəmə haqqında, ruh və bədənin birləşdiyi daimi həyat haqqında ilk olaraq demişdir. Belə ki, hər bir ruh yaşadığı zaman etdiklərinə görə mühakimə olunmalıdır. Məhkəmənin qərarı ilə bir qrup cənnətə, digərləri isə cəhənnəmə düşür[2].

---

1 Таранов П. Философия сорока пяти поколений М.: АСТ, 1999, с. 43.

2 Там же, с. 91

Pifaqorun məşhur yunan müdriki olduğunu eşidəndən sonra çar onu azad edir. O, Yunanistana qayıdaraq öz biliklərini xalqına çatdırmağa başlayır, siyasi şəraitin qorxulu olduğunu görüb o (tiran Polikratın idarəçiliyini mühakimə etdiyindən), Yunanıstanı qoyub Cənubi İtaliyaya gedir, burda ikinci vətənini tapır. Orda öz məktəbini, dini-fəlsəfi qardaşlığın əsasını qoyur. O, yunan filosofiyasında fəlsəfi idealizmin ilk nümayəndəsi olub.

Pifaqorun İtaliyadan başqa ölkələrə uzun müddətli səyahəti, öz təbiətinə görə zəngin taleyi, xarici görünüşü və gözəlliyi bütün şəhəri özünə cəlb edir. O, öz uzun və gözəl çıxışı ilə ağsaqqalları heyran edir, onların xahişi ilə Pifaqor gənclərə, onlardan sonra uşaqlara və nəhayət qadınlara öz təlimini öyrədir. Əfsanəyə görə Pifaqor tərəfindən birinci oxunan mühazirədən sonra 2000 tələbə evlərinə qayıtmamış və birlikdə böyük məktəb yaratmışlar. Pifaqorun qanun və qaydaları əsasında «Böyük Yunanıstan» adlanan Pifaqorçular ittifaqı yaratmışlar. Pifaqorçular məktəbi Pifaqor tərəfindən əsası qoyulmuş sektaya oxşar, dini-etik və fəlsəfi qardaşlıq idi. Bu siyasi partiya ittifaqı kimi Cənubi İtaliyada yunan polisində yayılmış və antidemokratik-aristokratik siyasət aparırdı. İttifaq ciddi adətlərlə fərqlənirdi, onun üzvləri zahidlik həyat tərzi keçirir və mülkiyyət ümumi idi. Orda qadınlar da iştirak edirdilər.

Pifaqor məktəbinə müəyyən sınaqdan keçmiş kişilər qəbul edilirdi və burada həyat sərt qaydalara təşkil edilirdi. Bu ittifaq az ömür sürür. Cənubi İtaliyada demokratiya üstünlük əldə etdiyindən (e.ə. 450-ci il) İttifaqa qarşı təqiblər başlayır. Bu məktəb e.ə. 4-cü əsrin əvvələrinə qədər fəaliyyətdə olmuşdur. E.ə. 100-cü ilindən başqa təlimləri də sintez etməklə e. ə. 4-cü əsrə qədər pifaqorçular riyazi araşdırmalar mərkəzinə çevrilir. Pifaqorun təlimi bir tərəfdən elmi təlim-

lərə (riyaziyyat, musiqi nəzəriyyəsi, tibb, astronomiya) digər tərəfdən idealizmin çiçəklənməsinə (Platona, yeni Pifaqorçulara) və mistikaya böyük təsir etmişdir[1].

Pifaqor sui-qəsdlə öldürülmüşdür.

Bir neçə yüz il ərzində pifaqorçuların tərəfdarları Pifaqor təlimini davam etdirmişlər. Onlar kainatin əsasını təşkil edən rəqəmlərə – *Ən müdrik – rəqəmdir, Allah – bu rəqəmlərin rəqəmidir kimi baxırdılar. «Düzbucaqlı üçbucağın hipetonozu onun katetləri kvadratı cəminə bərabərdir» teoremi hamı tərəfindən qəbul edilmişdir.* Deyilənə görə bu teorem Pifaqordan əvvəl Babilistan riyaziyyatçılarına məlum olmuşdur[2]. Başqa tərəfdən, ədədlər haqqında təlim ilk olaraq Pifaqorun ölümündən sonra onun məktəbində inkişaf etdirilmişdir.

Qədim yunan fəlsəfəsində Pifaqorçular *kainatı ciddi harmonik qaydalara gətirən varlığın – dəyişilməz Tanrı qanunun mövcudluğunu bəyan etmişlər. Hər şey bu qanuna tabedir və o, ali hakimiyyətin mənbəyidir. Lakin hamı bunu dərk etmir, onu seçilmiş yaxşı insanlar bilirlər.* Odur ki, ali hakimiyyətin aristokratlara məxsus olması ideyasını irəli sürür[3]. Pifaqorçular fəlsəfi anlayış olan «ziddiyyətlər» kateqoriyasını elmə gətirmişlər. Onların fikrincə ziddiyyətlər bir-birini inkar etməli, birinin yaranması digərinin məhvinə səbəb olmalıdır. Onlar on cüt ziddiyyətdən ibarət cədvəl tərtib etmişlər. Pifaqor təbiət haqqında, dövlət haqqında, tərbiyə haqqında, ruh haqqında, dünya haqqında fikirlər söyləmişdir. Onun dedikləri davamçıları tərəfindən rəsmiləşdirilmiş, lakin onlar bizə gəlib çaxmamışdır.

---

1 Словарь античности. М.: Прогресс, 1989, с. 34.

2 Словарь античности. М.: Прогресс, 1989, с. 433

3 Лазарев Г.М. Развитие государственной власти Древнего Мира. М.: Гос. изд-во. 1909, с. 46

Pifaqor metempsixoz, yəni ruhun bir canlı bədəndən başqasına keçməsi təliminin də banisi sayılır. Pifaqor ilk olaraq həyatın mənası haqqında öz düşüncələrini «fəlsəfə» adlandırmışdır.

Pifaqorun çoxlu müdrik kəlamları var. Onlardan: *«Əgər sadiq dost tapmırsansa, özün özünə dost ol». «Həyat teatra oxşayır: orada əksər halda yaramaz adamlar yaxşı yer tutur»*[1]*. «Hakimə dörd keyfiyyət məxsusdur: nəzakətli olmaq, eşitmək, düşünmək və qərəzsiz həll etmək». «Söhbəti elə aparmaq lazımdır ki, həmsöhbətin düşmənə yox, düşməndən dosta çevrilsin». «Əgər istəyirsənsə çox yaşayasan, öz nəslinə hörmətli olasan, onda özündən sonra layiqli ailə və yaxşı kitab qoy». «Əgər səndən soruşsalar ki, firavanlıq nədir? – onun cavabı – özün özünlə olmaqdır». «İnsanın xoşbəxtliyi onun ağılının qürub edən vaxtında yaxşı olur». «Yalnız nankor insan üzə tərifləyər, arxada pislər». «Tərif tabloda təsvir edilmiş silaha oxşar: o ən yaxşı əhval-ruhiyyə verir, lakin heç bir xeyri olmur». «Ən əsası özünə hörməti itirmə». «Heç kəs nə yeməkdə, nə də içməkdə həddi keçməlidir». «Başlanğıc hər şeyin yarısıdır». «Böyük işlər gör, böyük işə söz vermə». «Qızıl paslanmadığı kimi, ləyaqətə də rüsvayçılıq yapışmır». «İki eyni gücə malik insandan kim düzdürsə, o güclüdür». «Bil ki, heç bir riyakar uzun müddət özünü gizlədə bilmir». «Səhər duranda özündən soruş ki, mən nə etməliyəm? Axşam yatmazdan əvvəl: nə etmişəm?». «Bilik heç cür ağılın yerini vermir». «Həyat yolunda toz qaldırma». «Mülkiyyəti olmayan vətəndaşın vətəni yoxdur». «Alnı düz olanlarla heç vaxt məsləhətləşməyin, onlar heç zaman düşünə bilmirlər». «Qocalıqda hər şey azalmağa, gənclikdə hər şey artmağa doğru gedir». «Zarafat düz kimidir, ondan lazım olan qədər istifadə et». «Gün batanda öz kölgənin böyüklüyünə görə özünü böyük hesab etmə». «Heç zaman fikirləşməmiş danışma».*

1 100 Великих мыслителей. М.: Вече, 2002, с.24

## 4.3. Konfutsi – Çinin rəmzi simvolu

*• Konfutsi qədim dövrün böyük dünya müdriklərindən biri olmaqla Çinin rəmzi simvolu hesab olunur və onun ideyaları iki min ildən artıq müddətdir ki, ictimai şüurun müəyyən edilməsində fəlsəfi və etik əsas olmuşdur.*

*• İnsanlara bədəndən əvvəl ruhu daha çox qulluq etməlidir, çünki ruhun kamilliyi bədənin çatışmazlığını aradan qaldırır, düşüncə yoxdursa, bədəninin güclülüyü ruhu heç cür yaxşılışdırmır.*

*• Ləyaqətli kişi üç şeydə özünü qorumalıdır: gənclikdə həyat gücü sönməmiş hissiyatdan, həyat gücünün möhkəmləndiyi yetkinlik illərində ixtilafdan, həyat gücünün azadlığı qocalıq çağında xəsislikdən.*

*• O yerdə ki, hökmdar hökmdardır, təbəə təbəədir, ata atadır, oğul oğuldur, orda qayda-qanun və əmin-amanlıq var.*

*• İnsanın ağıllı hərəkəti üçün üç yol var: ən faydalısı – düşünmək, ən yüngülü – təqlid etmək, ən ağırı-təcrübədir.*

***Konfutsi***

Qədim Çin mütəfəkkiri, konfutsionluğun banisi Konfutsi (e. ə. 551-479) hakimiyyəti əsas götürməklə insanları yuxarı və aşağı təbəqəyə ayırırdı. E.ə. II əsrdən XX əsrin başlanğıcına qədər konfitsionluq rəsmi dövlət ideologiyası olmuşdur.

Çin sivilizasiyası Konfutsidən sonra tünd konfutsion rənginə boyanmış və normativ etikanın – (məşhur «Çin mərasimi kultu»): Çin bürokratiyasının formalaşmasına Konfutsi təliminin böyük təsiri olmuşdur. Konfutsinin təlimi qədim Çin cəmiyyətinin inkişafının mürəkkəb və dəyişiklik dövründə meydana gəlmişdir.

Bütün dünya üçün Konfutsi qədim dövrün böyük müdriklərindən biri, demək olar ki, Çinin simvolu hesab olunur, çinlilərin özləri üçün isə – bu simvollaradan da artıqdır. Konfutsi təlimində əks olunan normativ etika (məşhur «Çin mərasimi» kultu) qədim əcdadlara pərəstiş etmək; böyüklərə hörmət, ailə tellərini möhkəmlətmək və müdriklərə, əbədi abidələrə, kanonlara hörmət; bürokratik administrasiya sistemində təcəssüm olunan sosial ədalət ideyası; ali dövlət vəzifələri tutmaq hüququ verən, yaxşı düşünülmüş müsabiqə imtahanları ilə möhkəmlənmiş meritokratik prinsip; sosial etika və mənəvi dəyərlərə hörmət və b. ideyalar Çində iki min ildən artıq müddətdir ki, ictimai şüurun müəyyən edilməsində fəlsəfi və etik əsas olmuşdur[1]. Konfutsi fəlsəfəsi bu gün də yaşayır, milyard yarımdan çox olan çin əhalisi, o cümlədən onların qonşuları – yaponlar, koreyalılar, vyetnamlılar onu həyat müəllimi kimi qəbul edirlər. Konfutsi uzaq şərq sivilizasiyasında təxminən xristianlarda Həzrəti İsa, müsəlmanlarda Həzrəti Məhəmməd Peyğəmbər (s) kimi eyniləşdirilir. Çin tarixində dini doktrinada deosizm və buddizm, Konfutsionluğa nisbətdə ikinci dərəcəli yer tuturdu.

Konfutsi qədim aristokratik nəslə məxsusdur. Onun atası 80 yaşında gənc qızla evlənmiş (başqa arvaddan doqquz qızı var idi) və Konfutsi dünyaya gəlmişdir. Onun üç yaşı olanda atası ölür. Onun harada və neçə müddət oxuduğu məlum deyil. Şübhəsiz ki, onun biliyə marağı və qabilyyəti olmuşdur.

O, ahıl yaşında biliyi ilə bağlı özü haqqında qeyd edirdi ki, *15 yaşımda oxumağa arzu hiss etdim; 30 yaşımda möhkəm dayandım, 40-da şübhəm yox idi; 50 yaşımda Göyün iradəsini dərk etdim; 60 yaşımda həssas qulaqlarımla həqiqətə göz yetirdim; 70 yaşımda əyilməkdən qorxmayaraq ürəyimin arzu-*

1 Васильев Л.С. Конфуций. Вопрос истории, 1989. №8, с.89

*larına fikir verdim*[1].

Konfutsinin yoxsulluğu məmur hazırlayan dövlət məktəblərindən birinə daxil olmağa imkan vermir. Bu, onu təhsil almaqdan dayandıra bilmir. 15 yaşında şəxsi dərs götürür və özünütəhsillə məşğul olur. *Heroqrafik müdrikliyi* mənimsəməklə qədim ədəbiyyatı öyrənməyə başlayır. Konfutsi öyrədib və qulluq edib, dərs verib və sərgədan həyatı yaşayıb, Konfutsi Pifaqor və Sokrat kimi öz təlimini şifahi söyləmiş və yazılı heç nə qoymamışdır. Dostları və davamçıları onun dediklərini «Lun-yuy-Mühakimə və söhbət» kitabında cəmləşdirmişlər.

Sokratda olduğu kimi, Konfusinin də ailə həyatında xoşbəxt olmamışdır. Məlumat var ki, o, arvadını boşayıb, sonrakı həyatında tək qalmış və tələbələri tərəfindən əhatə olunmuşdur. Əvvəllər ailə qayğısı onun bəzi ictimai vəzifələrdə: ərzaq anbarlarını mühafizə edən, sahələr və fermaların rəhbəri vəzifələrində işləmişdir. Konfutsi qəlbində həmişə məsuliyyətli insan, vicdanlı məmur olmuş və onu ölkəsində olan qanunsuzluq qayğılandırmışdır. Qədim kitablarda tapdıqlarının və xidmətdə gördüklərinin təsiri altında onda inam yaranırdı ki, xalqı öz yolundan dönməsini, yalnız qədim həyat tərzinə qayıtmaqla xilas etmək olar.

Konfutsi bütün boş vaxtların Çin tarixinin dərindən öyrənilməsinə həsr edir. Xalq nağıllarına və rəvayətlərinə, mədhiyələrə (odalara) qulaq asanda onun *gözləri qarşısında hökmdarı müdrik və ədalətli olan, ordusu sadiq və qorxmaz, kəndliləri əməksevər və vicdanlı, qadınları sədaqətli və incə, torpaqları məhsuldar və bolluq olan ideal çarlıq canlanırdı*[2].

Konfutsi o qərara gəlir ki, insanların əziyyət çəkməsi-

---

1 100 Великих мыслителей. М.: Вече, 2002

2 Там же, с.31

nin səbəbi, ölkədə baş verən xaosdur. Onun fikrincə bundan qurtulmaq üçün *keçmiş adət və qaydalara qayıtmaq lazımdır.* Bunun üçün hər bir adam şüurlu olaraq özünə tələbkar olmalı, qoyulan qayda və qanunlara əməl etməlidir: yalnız bu halda cəmiyyət öz xəstəliyindən qurtara bilər. Bunun üçün Konfutsi *tarixi sənədləri, təntənəli adətləri, qədim mahnıları və musiqini, əfsanələri öyrənir, bu ənənələrin bilicisi hesab olunan səviyyəyə yüksəlir.*

Konfutsi hamı və hər kəs üçün mühüm prinsiplərə *beş anlayış daxil edib: 1) müdriklik; 2) humanistlik; 3) sadiqlik 4) yaşlılara ehtiram; 5) mərdlik.* Bu prinsiplər əsasında ictimai həyatı qaydaya salan məntiqi qüsursuz ideyalar sistemi qurulur və dövlətlə şəxsiyyətin maraqları birgə əlaqələndirilir. Konfutsi sual və cavablarda bunları əsaslandırır: *ümumi səadətə çatmaq üçün nə lazımdır? - dövlətin çiçəklənməsi; Dövlətin çiçəklənməsi üçün nə lazımdır? - xalqın rifahı və firavanlığı; Xalqın rifahı və firavanlığı üçün nə lazımdır? - ailənin yaxşı qurulması; ürəyin dincliyi üçün nə lazımdır? - öz-özünü sakitləşdirmək*[1].

28 yaşında Konfutsi Luy çarlığının əsas məbədində təntənəli qurban kəsilməsində iştirak edir. Konfusi bu vaxtda tam formalaşan və məhşur insan kimi hər prosedurun mənası və hər bir hissə haqqında soruşurdu. Məlumat var ki, e.ə. 518- ci ildə Konfutsinin 30 yaşından sonra əyanlardan biri öz oğlanlarına tövsiyə edir ki, Konfutsidən öyrənsin görək, Lu qaydaları – qədim normalar və mərasimlər ədəb qaydalarına uyğundurmu? Bu isə Konfutsinin şəxsiyyət kimi etirafı idi. Bundan başqa, onun müəllim keyfiyyətini görərək ətrafına gənc insanlar yığışır. Konfutsi müəllimə xas olan sadə ünsiyyətli, əl çatan bir insan kimi tarixdə qalmışdır. O, dinləyicilər-

1 100 Великих книг. М.: Вече, 2004, с. 43-44.

lə birlikdə qədim əlyazmaları, tekstləri təvsir edir, adətləri təhlil edirdi. Konfutsi çoxdan keçmişə getmiş, lakin dirilə bilən *«qızıl əsr»* haqqında öz tələbələri ilə fikirlərini bölüşürdü. Öz dinləyicələrindən az əmək haqqı götürürdü. Sonralar isə bir neçə imkanlı tələbələrin hesabına ona məktəb üçün yer verilir və bu hesaba fəaliyyət göstərirdi.

Nə vaxt ki, onu hansısa yeni doktiranın tətbiqatçısı adlandıranda o buna qarşı etiraz edir və deyidi ki mən qədim kitabları təfsir və izah edirəm, mən yenisini yaratmıram. E.ə. 522-ci ildə Konfutsi çoxdankı arzularını yerinə yetirir. O, öz tələbələri ilə birlikdə Çjounun paytaxtında olur. Qədim məbəd onları valeh edir. O özünü ən müdrikliyinin mənbəyində hiss edir, freskalara diqqətlə baxır, fərəhlə yarısı pozulmuş yazıları oxuyur, hər şey haqqında soruşurdu. Konfutsini paytaxtın əhalisinin ayinlərə laqeydliyi kədərləndirirdi.

Tez bir zamanda şəhərlərdə gənc alim haqqında xəbərlər yayılır və onun tələbələrinin sayı günü- gündən artır. Onun erudisiyası və qədim ədəbiyyat haqqında dərin biliyi hamını heyran edirdi. Konfutsinin məsləhəti ilə işləmək istəyən və ölkəni çiçəklənməyə gətirən hökmdar axtarışında idi. Əfsanəyə görə Konfutsi Lo-Szi ilə rastlaşır. Yaşlı filosof onun iddiasını və boş arzularını mühakimə edir, lakin Konfutsi bunlardan pərt olmur. Digər mənfi əhval-ruhiyyəli insanların istehzası onu yolundan çəkindirmir[1].

Konfutsi bütün bilikləri tarixi öyrənməkdə görürdü. Onun fikrincə müəllim üç şeyi öyrətməlidir. Yazmağı, düzgün davranışı və təəbəçiliyə sadiqliyi və səmimiliyi. Başqa sözlə o, bununla ədəbiyyat, tarix və etika hüdudlarından kənara çıxmır. *Konfutsinin keçmişlə öz dövrünü müqayisə etməsi və reallığı nəzərə alaraq qədim normaları yaradıcı, olduqca dü-*

1 100 Великих мыслителей. М.: Вече, 2002, с. 32

*şünülmüş şəkildə tətbiq etməsi onu dahi etmiş və onun təlimi bütün min il boyu canlı qalmışdır.*

Çində Konfutsionluq və Leqislər bürokratik dövlət idarəetməsi sisteminin yaradılmasının ideoloqları idilər. Onlar iki müxtəlif inkişaf ənənəsini təmsil etməklə birinci mülayim mühafizəkar olduğu halda, digəri radikal, despotik idi. Konfitsionluqda patriarxal-qəbilə quruluşunun etik və mədəni ənənələrinə, ən əsası sosial nəzarətin əxlaqi-etik metodlarına istinad edilir. Leqislər isə Konfitsionluq məktəbinə alternativ olmaqla Çinin birləşməsi və mərkəzləşməsində qanunvericilik, idarəetmə yolu və metodları ilə kiçik dövlətlərin arasında mübarizəni ləğv etmək və daxili quruluşu möhkəmlətmək tərəfdarı idilər. Leqislər *«küt və avam xalq – böyük gücdür», «Zəif xalq – güclü dövlət»* prinsiplərinə əsaslanan mərkəzləşdirilmiş dövlət yaratmaq və gücləndirmək istəyirdilər. Onlar inzibati təlim və qanunlar sisteminin köməyi ilə dövlətin cəza vermək funksiyasını tətbiq etməyi irəli sürürdülər[1] .

Hökmdarın vəzifəsinə filosofların irəli sürülməsində Konfutsi ilə Platon arasında oxşarlıq var. Platonda olduğu kimi, Konfutsiyə görə hakimiyyət başında «ən ləyaqətlilər» durmalıdır. Konfutsi, həmişə hökmdarın əxlaqı nüfuzunun olmasın istəyirdi

Konfutsi üçün əsas dövlətin xalqla qarşılıqlı əlaqəsi, xalqın inamını qazanmaq qabilyyətinin olmasıdır. Başqa cür isə dövlət dayanıqlı ola bilməz. *Konfutsi üçün dövlət və cəmiyyət, daha dəqiq dövlət və ailə* (Konfutsi və onun müasirləri cəmiyyətə böyük və balaca ailəlilərin və klanların məcmusu kimi baxırdılar) – bu iki əsas sütunu formalaşdırmaq, bərk və möhkəm qurmaq, onların köməyi ilə dəyişilməz bünöv-

1 Китай после «культурной революции». М.: Мысль, 1979, с.162

rə qoyulmasıdır. *Cəmiyyətldə harmonik nizam ilə ideal insan ideyasının birləşdirilməsi Konfutsionluq adlanan təlimi təşkil edir.* Konfutsi yorulmadan zəruri olan möhkəm sosial əlaqələri aşkar edib və möhkəmləndirməklə məşğul olurdu. Bunu isə iş bilən administrasiyanın formalaşması, ağıllı iqtisadi siyasət və zəruri biliklərin yayılması, norma və ritualla-ra əməl etməklə insanların tərbiyəsinin olmasında görürdü. Konfusinin təlimində mühüm yeri sosial ailə – *etikası, ciddi əxlaq tutur.*

*Konfutsiyə görə ailə-cəmiyyət və dövlətin miniatur formasıdır.* Onun əsasında insanlar arasındakı ictimai münasibətlər durur. Ən əsası bu münasibətlərdə düzgün açar tapmaqdır, o halda harmonik inkişaf olacaq[1]. Konfutsinin fikrincə qədim normaların pozulmasında ön sırada hərislik və tamahkarlıq (acgözlük), xəyanətkarlıq və intriqa, məkr, satqınlıq, qətillər, daimi müharibələr durur.

Konfutsi Si, Bey, Cen, Szoy və b. çarlıqlarına və knyazlıqlarına gedib özünə patron tapmaq istəyirdi. Bir dəfə o bu knyazlıqda yaxşı təsir bağışladığından knyaz Konfutsini nazir qoymağa söz verir. Əyanlar ehtiyat edərək, knyazı ona qarşı qoymaq üçün hər şeyi edib planını pozurlar. Əyanlar ayinlərə və mərasimə müdrikin baxışlarını gülünclə qarşılayırdılar. Onlar deyirdilər: alimlər – sadəcə gülünc və boşboğazdırlar, onların sözlərini nümunə və qanun kimi qəbul etmək olmaz. Knyaz qoca olduğunu və Konfutsiyə onun məsləhətindən istifadə edə bilmədiyini deyərək onu nazir vəzifəsinə götürməkdən imtina edir[2].

Nəhayət axtarış müvəfəqiyyətlə başa çatır. E.ə. 497-ci ildə Konfutsi Luninin vətəninə gedir. O, orda hörmətlə qar-

---

1 Васильев Л. С. Вопрос истории. 1989, № 3,с 98
2 100 Великих мыслителей. М.: Вече, 2002, с.33

şılanır və çar özünün pis vəziyyətdə olan siyasi vəziyyətini düzəltmək üçün onu Çjun-du şəhərinə qubernator qoyur. Konfutsi indi öz ideyaları praktiki həyata keçirə bilərdi. Məmurluq təcrübəsi onun köməyinə gəlir. *O, əkinçilikdə qayda yaradır, növbəli əkin tətbiq edir, ailə qəbirsanlığı kimi istifadə olunan torpağı dövlətin xeyrinə geri alır, vicdansız yolla əldə edilmiş əmlakı müsadirə edir və dövlət mülkiyyətinə verir.* Tez bir zamanda onun siyasətindən narazılıqlar yaranır, Konfutsi öz prinsiplərindən imtina etməli olur və o məcburiyyət qarşısında vəzifəsindən istefa verir.

Konfutsinin sərgərdan həyatı başlayır və hər yerdə onu tərəkəmə həyatının ağırlıqlarını onunla bölüşən tələbələri müşayət edirdilər. Əsilzadə kişi surəti ictimai ideal kimi qırmızı xətlə onun tələbələri ilə söhbətlərinə keçir. Onun əsas xüsusiyyəti *«jen»* idi, Avropada bu insanı sevmək *«insanlıq», «humanist»* sözləri ilə ekvivalentdir. Əgər insan möhkəmdir, dözümlüdür, sadədir, sözdə xəsisdir, o insan sevilməyə yaxındır. Onun fikrincə insanın ağıllı hərəkəti üçün üç yol var. *Birinci, ən faydalı düşünmək; ikinci, ən yüngülü – təqlid etmək; üçüncü, ən ağırı – təcrübədir.*

Dünya ədəbiyyatında onun hikmətli sözləri geniş yayılmışdır. Onlardan: *«Böyük insan o deyil ki, heç zaman yıxılmayıb, o insan böyükdür ki yıxılıb dura bilib». «Nəcib insan özünə, rəzil adam başqalarına tələbkar olur». «Faydalı dost – saf, səmimi və çox eşidən dostdur, zərərli dost isə ikiüzlü, qeyri-səmimi və boşboğaz dostdur». «Əgər istəmirsiniz ki, sizə başqaları nəyisə etməsin, başqalarına onu siz etməyin». «Mülahizəsiz təlim – faydasız əməkdir». «Dostlarla münasibətdə zəhlə tökmək dostların səndən uzaqlaşmağına gətirir». «Sizə çatışmazlıqlarınızı irad tutanda etiraf edirsinizsə, bu, təvazökarlıq, bu çatışmazlıqlarınızı dostlarınıza açırsınızsa – sadəlövlük, hamı*

*qarşısında qoyursunuzsa – bu, qürurluluqdur». «Nəcib insan yalnız xalqa verəcəyini, rəzil insan isə xeyrini bilir». «Ehtiyatlı adam nadir halda səhv edir». «Ədalətli adamları irəli çəkib və ədalətsizləri uzaqlaşdıranda xalq itaət edəcək». «Hansı ölkədə ki, qaydalar var hərəkətdə də, danışıqda da cəsarətli ol. Hansı ölkədə ki, qayda yoxdur, orda hərəkətdə cəsarətli, danışıqda isə ehtiyatlı ol». «Nəcib kişi hamı ilə həmrəylikdə yaşayır, rəzil adam özünə uyğunlarını seçir». «Fikirləşmədən öyrənirsənsə, çaşarsan. Fikirləşib və öyrənmirsənsə şübhəyə düşərsən». «Özünə o qədər sahib olmalısan ki, başqalarına hörmət edəsən, onlarla elə rəftar etməlisən ki, səninlə də başqalarının elə hərəkət etməsini istəyərsən. Bunu insansevərlik adlandırmaq olar». «Bildiyini tətbiq etməyən müəllim və ya tələbə, məsləhət görülmüş dərmanı içməyən xəstəyə bənzəyir». «Köhnə məlumatlardan bəhrələnərək, yeni məlumatlar əldə etmək təlim-tərbiyənin təməlidir. Bu işi bacaran insan müəllim sayıla bilər».*

## 4.4. Heraklit – «Qaranlıq» və «Ağlayan» təxəllüslü filosof

*• Ən yaxşı dövlət quruluşu odur ki, orda vətəndaşlar tirandan qorxan kimi qanundan qorxsun.*

*• Bütün dəyərlərin dəyəri – şəhərin divarları uğrunda vuruşduğu kimi xalqın qanunlar uğrunda vuruşmasıdır.*

*• Təfəkkür – yüksək ləyaqət və müdriklikdir, o halda ki həqiqəti danışasan və təbiətə qulaq asıb, ona uyğun hərəkət edəsən.*

*• Xəstəlik sağlamlığı, aclıq toxluğu, yorğunluq istirahəti xoş və səadətli edir.*

*• İnsan həyatı ilə ölür, ölümü ilə yaşayır.*

***Heraklit***

Loniya məktəbinin nümayəndəsi, dialektikanı fəlsəfi mənada verən ilk qədim yunan filosofu Heraklit (e.ə. 544-483) on iki Loniya demokratik polisindən biri olan, e.ə. XI əsrdə təməli qoyulmuş kiçik Asiyada Efesdə (hazırda Türkiyə ərazisi) anadan olmuşdur. Heraklitin təlimi erkən qədim yunan materialist dialektikasının əsasıdır. O «Kosmos» terminini yazılı şəkildə işlətmiş ilk filosof olmuşdur.

Efesdə demokratikləşmə prosesinin çar və aristokratın hakimiyyətindən əhali təbəqəsinin demokratikləşməsinə keçməsində bir başa əlaqə var. Heraklitin yaşadığı dövr Loniyaya yunan sahilləri ilə bitişik olanlar Yaxın Şərqdə farsların hakimiyyəti altında idi. Hərbi cəhətdən güclü olan Fars monarxiyası öz ekspansiyasını qərbə yaymağa daim səy göstərirdi. Heraklit farslar tərəfindən zəbt edilmiş yunan sahillə-

rində farslara qarşı baş tutmayan üsyanların müasiri idi[1]. O çar ailəsində dünyaya gəlmiş, çarın varisi kimi qardaşının xeyrinə taxtdan və bütün imtiyazlardan imtina etmişdir. Bəzi alimlər güman edirlər ki, O Efesdə guya demokratikləşməni bərqərar etmək üçün çar titulundan imtina etmişdir.

Heraklit xalq kütləsinə və demokratik partiyaya qarşı olmuşdur. Farslara qarşı İoniya üsyanını müdafiə etməklə demokratların düşməni idi. Heraklitin fəlsəfi dünya baxışı ənənəvi xalq dininə qarşı idi, onda aristokratik şüur müəyyənləşmişdi.

O dövrün başqa filosofları kimi, Heraklit də məbəddə abid həyatı yaşamışdır. O, yunan olduğundan, anadangəlmə siyasətçi hesab olunurdu və Efesin dövlət və ictimai həyatının sıx yerlərində olurdu. O, xalq kütləsinə və demokratik partiyaya qarşı olmuşdur.

Paradoksallığı çox sevən və eyni zamanda çox mənalı çıxış edən Heraklitə dərin fikirlərinin və ifadəsinin «sirli»liyinə görə «qaranlıq» təxəllüsü vermişdilər. Heraklit heç nəyi aydın ifadə edə bilmirdi. Bir halda nəyisə axıra qədər demirdi, digər halda isə öz-özünə qarşı zidd danışırdı. Heraklitdən başlayaraq söz oyunları və çoxmənalılığın implementasiyasına fikir verilməyə başlanır. O, hər dəfə insanlarala təmasda olanda onların kütlülüyünə görə onlara nifrət edir, hətta ağlayırdı. Odur ki, ona *«ağlayan filosof»* ləqəbi vermişdlər.

Heraklitin adına başqa yunan filosofları kimi bəzi əsərlər yazırlar. Onun *«Təbiət haqqında»* əsəri bizə çatmamış, lakin bəzi filosofların əsərlərində onlardan fraqmentlər göstərilmişdir. Bu əsər üç əsas hissədən ibarət olmuşdur: *birinci – kainat haqqında, ikinci – dövlət haqqında və üçüncü – ilahiy-*

1 Асмус В.Ф. Античная философия. Изд. второе. М.: Высшая школа, 1976, с.31

*yat haqqında. Heraklitin fikrinə görə insan təbiətin hissəsidir, təbiət (kosmos) özü heç kəs tərəfindən yaradılmayan (ilahiləşmiş) daimi canlı oddur, hər zaman hərəkətlidir, insan təbiətlə həmişə ahəngdə olmalıdır və ya başqa sözlə desək, onun fəal maddi - ideal əsası və ya mahiyyətidir.* Heraklitin siyasi dünyagörüşünün əsas müddəası: *«hakimiyyət azlığa - «yaxşılara» mənsub olmalıdır»* - fikridir[1].

Heraklitin fikrincə *daimi canlı od* dünyanın əsas başlanğıcıdır. Onun da ruhu və ağlı (loqos) var, odun sıxılması nəticəsində bütün şeylər yaranır, başalma yolu ilə ona qayıdır. Oddan su, yer və hava yaranır. İnkişaf loqosun daimi qanunları və dünya qanunu ilə dəyişilir, həmin yolla da elementlər oda qayıdır. O, yazırdı: bu kosmos, bütün canlılar üçün eynidir, onu nə allahlar, nə də insanlar yaradıb. O həmişə olub, var və həmişə canlı od qalacaq. *Heraklitin kosmoqonik və kosmoloji ideyalarının zərdüştlüklə bənzərliyi var.* Çox güman ki, o, zərdüştliklə tanış idı.

Heraklitə görə bütün təzahürlər *ziddiyyətlər başlanğıcından* ibarətdir. Bu *ziddiyətlər həmişə mübarizədədir.* Bütün bunlar bir-birilə ziddiyyət və savaşdadır. Dünyada hər zaman mübarizə gedir. Bir varlıq başqasını məhv etməyə çalışır və proses özü-özünə həyata keçir.

*Müharibə hər şeyin sahibi və hər şeyin hökmdarıdır, çünki* o bəzilərini o allah kimi müəyyən edir, başqalarını insan kimi; bəzilərini qul, digərlərini isə zəngin edir. Bilmək lazımdır ki, *mübarizə ümumidir və həqiqət mübarizədən və zərurətdən baş verir.*

Heraklitin fəlsəfəsində həqiqətə pərəstiş güclüdür. Onu məşhur edən ifadələrdən: *şəhərin divarları uğrunda vuruş-*

---

1 Асмус В.Ф. Античная философия. Изд. второе. М.: Высшая школа, 1976, с.31

*duğu kimi xalq qanunlar uğrunda vuruşmalıdır, Ən yaxşı dövlət quruluşu odur ki, orda vətəndaşlar qanundan tirandan qorxan kimi qorxurlar.*

Həqiqi qanunun dəyərləri Heraklit üçün sadəcə yüksək yox, həm də mütləqdir. Bu fikirlərə Sokrat və Platonda da rast gəlinir. Heraklit həmişə avamlığa qarşı çıxış edirdi. Filosofun fikrincə *avam o adamdır ki, insan fikrinin təsiri altına düşür, kim düşüncədə tənbəldir, kim öz ruhunun təkmilləşməsi ilə məşğul olmur, var-dövlət dalınca qaçır.*

Ən yaxşı insan sadəcə bilik əldə edən, düşünən və mühakimə edənlər yox, biliyini artırmağa can atanlardır. Heraklitin fikrincə dərrakə özü-özlüyündə ləyaqətlidir. Hər bir insan düşünmək və özü-özünü dərk etməklə xeyirxah qabilyyətini inkişaf etdirə bilər, bu qabilyyət prinsipcə bütün insanlarda vardır, yalnız onu düzgün istifadə etmək lazımdır.

Heraklitin fikrincə insanın təyinatı onda deyil ki yaşasın və nəslini artırsın. Ona lazımdır ki, həyatın passiv təssəvürüni və razılıq meyllərini özündən uzaqlaşdırsın. Arzuya çatmamaq insan həyatının ayrılmaz əlamətidir. İnsanlar onların bütün arzuları yerinə yetirilsəydi belə, onlara yaxşı demək olmazdı. Həyat sükutu və istirahəti sevməz, sakitlik və hərəkətsizlik ölülərin xüsusiyyətidir.

Heraklit o dünyanın varlığına inanırdı. Onun sözəlrinə görə insanları ölümdən sonra gözləmədiyi və güman etmədiyi şeylər gözləyir. Heraklitə görə insan öz davranışına və həyat tərzinə görə o dünyada öz ruhunun taleyini həll edir, yəni ölümdən sonra mükafat və cəza gözləyir.

Heraklit düşünərək insanlardan ayrı, filosof kimi tərkidünya həyatı sürür. O, dağlara çəkilir, otla və onun köklər ilə qidalanır. Pis qidalanmaya görə «su çiçəyi» xəstəliyindən ölür.

Heraklitin dərin və dəqiq, dialektik və materialist təfəkkürü onun təliminə və şəxsiyyətinə sonrakı dövr mütəfəkkirlərində: Hegel, Marks, Engels, Lassal, Lenində maraq oyatmışdır. Aristotelin fikrincə Heraklitin dialektikasının Platona böyük təsiri olmuşdur.

Heraklitin geniş yayılmış aşağıdakı hikmətli sözləri var: *«Çox bilmək hələ ağıllı olmaq demək deyildir». «Özbaşnalığı yanğından əvvəl söndürmək lazımdır». «Ciddi məsələlər barədə təcili mühakimə yürütmək olmaz». «Dəniz suyu təmiz olduğu qədər, eyni zamanda çox çirklidir. Balıqlar üçün bu su həyatdır, insanlar üçünsə qəbuledilməz və öldürücüdür». «Gözlər qulaqlara nisbətən daha inandırıcı şahiddirlər». «Təfəkkür böyük məziyyətdir və müdriklik ondadır ki, təbiətə qulaq asmaq və həqiqəti dərk etməklə onunla özünəməxsus rəftar edəsən». «Ayıq vaxtı nə görürüksə ölümdür, yuxuda nə görürüksə realdır». «Bütün iradələrin boyun əydiyi qüvvə - qanundur». «Bir çayda iki dəfə çimmək olmaz». «Xəstəlik sağlamlığı, şər xeyiri, aclıq toxluğu, yorğunluq istirahəti ləzzətli edir». «Müdriklik təbiətlə həmahəng dolanmaqdadır». «Meymunların ən yaxşısı belə iyrəncdir». «Ağılsız hissiyata etibar etmək-kobud qəlbin xüsusiyyətidir». «Əgər xoşbəxtlik yalnız bədən zövqündədirsə, onda biz yemək üçün noxud daşıyan öküzü xoşbəxt adlandıra bilərik»; «Vəhşi heyvanlar bizimlə yaşayırsa əl heyvanı olur, insanlar bir-biri ilə ünsiyyətdə olur və vəhşiyə çevrilir». «Hər şeyi bilən kimi göstərən ağıllı ola bilməz». «Həqiqət yalançıları və yalan şahidləri qovub tutur»; «Ağıl hər bir insan üçün tanrıdır».*

## 4.5. Sokrat – «Daim danışan» ən böyük filosof

• *Çar və hökmdar – bilavasitə püşkatma və ya zorla, aldatmaqla hakimiyyətə gələn insanlar deyil, o insanlardır ki, idarə etməyi bacarırlar.*

• *Ruhu müalicə etmədən, bədəni müalicə etmək olmaz.*

• *Azda olsa öyrəndiyi sənətlə heç bir adam məşğul olmur. lakin o adam bütün sənətlərdə ən çətin olan dövlətin idarəetməsində məşğul olmaqla özünü daha da ixtisaslı hesab edir.*

• *Yalnız bir allah var - bilik, və yalnız bir iblis var – cahillik.*

• *Bilikdən güclü hes nə yoxdur, o həmişə və hər yerdə zövq verir və başqa şeylərə meylliyi arxada qoyur.*

• *Mən bir şey bilirəm ki, heç nə bilmirəm.*

***Sokrat***

Sokrat (e.ə. 469-399) antik fəlsəfəyə və ədəbiyyata daimi danışan, həmsöhbət, fərasətlə mübahisə edən, zarafatcıl, insanlarla ünsiyyətdə onlara öz fikrini çatdıran, mübahisə etdiyi rəqibini bütünlüklə görən, fərasətli, müdrik olmaqla yönəldici suallar qoymaq yolunun və həqiqiəti tapmaq – dialektikanın banisidir. O, insan zəkasına əsaslanaraq əxlaqi dəyərlərin, dövlət və hüququn əxlaqi təbiətinin xarakterini əsaslandırmağa çalışıb. Sokrat antik dövrün ən böyük mütəfəkkirlərindən biridir. Sokrat qanunçuluğun qızğın tərəfdarı olmuşdur. Sokratın fikrincə qanun və ədalətin bir-birinə uyğun gəlməsi, qanunçuluğun təriflənməsi fikirləri reallıqdan uzaq, lakin ağılın tələblərinə uyğun gələn arzulardır[1]. Sokrat dinləyicilərinə lazım gələn bütün məsələləri,

1 Rüstəmov Y. Sosial- siyasi və hüquqi təlimlər tarixi. B., 2007, s.51

aşıladıqlarının hamısını canlı sözlə, başlıca olaraq, danışıq vasitəsi ilə təqdim edirdi. O, heç nə yazmırdı. Onun pərəstişkarları, iki şagirdi tərəfindən hifz olunan müəyyən məlumatlar olmasaydı gələcək nəsil onun haqqında heç nə bilməyəcəkdi[1].

Sokrat həmişə ayaqyalın, xitanda (uzun köynəkdə) olurdu. Onun müəmmalı davranışı həmsöhbətini çaşdırır, miskin və özünü itirmiş vəziyyətə gətirirdi. Sokrat müdriklik, gözəllik, ədalət, dostluq, igidlik haqqında suallar verməklə insanları fəlsəfi anlayışla yanaşı, həyat dəyərləri haqqında düşünməyə məcbur edirdi. Sokrat insanın cəmiyyətdə təyinatı, onun vəzifələri, qanunlara münasibətləri, allahlara sitayişin zəruriliyi, ehtirasdan çəkinməyi, insan üçün həyatda yaşamağın praktiki istiqamətlərini verirdi. Beləliklə, Sokratın söhbətlərində vicdan, ədalət, və vətəndaş borcları olmaqla etika problemi çox yer tuturdu.

Sokratın baxışlarında çoxluğun hakimiyyətinin demokratik yolu tənqid olunurdu, qanunlara hörmət, vətəndaş borclarının yerinə yetirilməsi dururdu. İnsanı ləyaqətsiz əməllərdən çəkindirən daxili səsə «*Daymana*» qulaq asmaq, vicdanlı olmaq Sokratın tövsiyələindən idi. Sokratın yanına o şəxslər gəlirdi ki, onlar həqiqətə çatmaq istəyirdilər. Onlar arasında həm yaşlılar, həm də cavanlar var idi. Sokrat ünsiyyət xoşlayan adam idi. O, günlərini ya gimnaziyada, ya geniş meydanda və ya ziyafətlərdə keçirirdi. Platon Sokratı dialoqlarda təsvir edəndə öz fəlsəfi təlimini onun adından verirdi[2].

O dövr üçün mükəmməl, abad və yaxşı idarə edilən dövlət kimi Sokrat Spartada və Kritdə mövcud olmuş aristok-

---

1 Sipovski V. D. Sokrat və onun dövrü (tarixi oçerk). Bakı: Elm, 1995, s.48

2 100 Великих мыслителей. М., Вече, 2002, с.53-56

ratik idarəçiliyi nümunə göstərirdi, Solon konstitusiyasının məqsədə uyğunluğunu etiraf edirdi. O, «ifrat demokratiyaya» mənfi münasibət bəsləyir, tiranı isə kəskin tənqid edirdi. O, təsdiq edirdi ki, dövləti ən bilikli adamlar idarə etməlidir[1].

Sokratın uşaqlığı, gəncliyi və yaşlı vaxtının yetkin dövrü məhz Afina tarixinin çiçəklənmə mərhələsinə, orada ictimai həyatın bulaq kimi fəvvarə vurduğu bir vaxta, Afinanın əqli və bədii mərkəzə çevrildiyi ildə buraya Yunanıstanın hər tərəfindən ağıllı və istedadlı adamların axışıb gəldiyi Periklin dövrünə təsadüf edir[2]. O, Perikli əhatə edən gözəl məclisə ayaq açıb, get-gəl etməyə başlayır və burada Afinanın məşhur zəka və istedad sahibləri ilə tanış ola bilir.

Sofistlər ətrafında yığışıb toplaşanların arasında orjinal bir şəxsiyyət kimi Sokrat meydana çıxmağa başlayır. O, indi artıq ətrafdakılardan heç kəsə gülməli görünməyir, əksinə, indi ona hamı heyranlıq və hörmətlə baxır. Əhali daha çox Sokratın olduğu yerlərə getməyə can atır. Onunla qarşılıqlı mübahisədən sonra əgər sofist gəlmədisə Afinadan çıxıb getməli, Afinadadırsa sofistlərdən əl çəkib özünə başqa sadə peşə tapmalı olurdu[3]. Sokratı tərifləyəndə o deyirdi: *«Mən bircə onu bilirəm ki, heç nə bilmirəm. Mən sofistlərdən müdrikəm, çünki mən bircə onu bilirəm ki, heç nə bilmirəm, amma onlar heç nə bilməyə-bilməyə elə bilirlər ki, hər şeyi bilirlər».*

Yunanların ən dərin mütəfəkkirlərindən Platon deyirdi ki, *«sofist bir cəhətdən ovçuya və ya qarmaqla balıq tutanlara bənzəyir, bir tərəfdən sofist ancaq ovlayandır. İkinci tərəfdən isə sofist xırda alveçiyə bənzəyir, saxta malı ya özgəsindən alır,*

1 Rüstəmov Y. Sosial- siyasi və hüquqi təlimlər tarixi. B., 2007, s.52
2 Sipovski V. D. Sokrat və onun dövrü (tarixi oçerk). Bakı: Elm, 1995, s. 27-28
3 Yenə orada, s.19

*ya da özü quraşdırır. Üçüncü sofist döyüşçüdür, onun qılıncı dilidir ki, onunla, lazım gələn hər şey uğrunda döyüşə gedir, özü də pulla»[1].*

Sokrat həmişə sofistlərə qarşı çıxırdı. Sofistika (yunanca Sopnistal- müdriklik müəlimi deməkdir) antik Yunanıstanda e.ə. 5-4 əsrlərdə mənəvi-tərbiyəvi və fəlsəfi təlim idi. Sofistikanın yaranması fars müharibələrindən sonra bütün Yunanıstanda, o cümlədən Afinada quldarlıq demokratiyası ilə sıx bağlı idi. Sofistika nümayəndələrinə Protoqor, Heraklit və b. aid edilir.

Sofistlərin baxışlarının ilk əsasında Heraklitin təlimi durur. O, daimi və dəyişilməz şeyləri inkar edirdi. Onun təlimində hər şey dəyişir, hər şey yaranır və yenidən itir, dünya hərəkəti daimi fasiləsiz oyundur[2]. Protoqor qanunu təbiətə qarşı insanları hərəkətliliyə məcbur edən tiran adlandırır. O, hər hansı yazılı qanunların əhəmiyyətini və onlara tabe olmağı inkar edirdi. Ona görə ki insanlar özləri bu qanunları müəyyən edir, özləri də həmişə onları pozurlar[3].

Yunanların ictimai həyatı, quldarlıq demokratiyasının güclü inkişafında baş verən çoxsaylı məhkəmə prosesləri sofistlərdən dərin, ümumi və xüsusi bilik, həmçinin ritorik səriştə tələb edirdi. Bu biliyi sofistlərdən pulla almaq olardı[4]. Sofistikanın mühüm xüsusiyyətlərindən biri də nəzəri biliklə təcrübi həyatın arasında sıx əlaqəni, həmçinin insan cəmiyyəti ilə təbiətin hüquqi münasibətlərini uyğunlaşdırmaq idi.

---

1 Sipovski V. D. Sokrat və onun dövrü (tarixi oçerk). Bakı: Elm, 1995, s.17

2 Коркунов Н.И. История философии и права. С.-Петербург, 1908,с.10

3 Там же, с.13

4 Словарь античности. М., Прогресс, 1989, с.539

Etikanın, idrak nəzəriyyəsinin tədqiqinə onların proqressiv münasibətinin xarakteri isə maarifçilik ideyası daşıyırdjı və dinə qarşı yönəldilirdi. Onların əsas təlimi təbiətlə qaydaların (hüququn, adətin, qanunların) müxtəlifliyinin qarşı-qarşıya qoyulması idi.

Ritorika, qrammatika və məntiqin inkişafını Sofistlərsiz düşünmək mümkük deyildir. Onlar ilk olaraq bu elementlərin əsas anlayışlarını vermişlər. Sofistlər Zenonun, Heraklitin və atomislərin ideyalarını qəbul edirdilər. Sofistika Sokratdan başqa (o sofistləri inkar edirdi) Evripidə, Platona və Aristotelə böyük təsir göstərmişdir.

Sokrat bir dəfə xəyallar içərisində Delf məbədi yanından keçərkən bir hikmətli yazıya rast gəlir. *«Özün-özünü dərk et» - bu, ondan ötrü özünəməxsus kəşf idi. «Özün-özünü dərk et» - özünü dərk etmək başqa adamı da dərk etmək demək deyilmi?*[1] *«Özün-özünü dərk et» kəlamı Sokratın bütün həyatının, buradan da onun bütün ömrü boyu fəaliyyətinin devizinə, həyatının əsl qayəsinə çevrilir*[2].

«Anlayışların dəqiq məntiqi müəyyənləşdirilməsi əsl biliyin şərtidir». O zaman üçün tam yeni olan bu fikir Sokratın fəlsəfə sahəsində ikinci əsl xidmətidir[3]. Sokrat mübahisələrində belə bir nəticəyə gəlir ki, «xeyirxahlıq bilikdir». İnsanlar pis əmllərini yalnız biliksiz – avam və nadan olduğuna görə törədir. Nadanlıq özü də qeyri-iradi törədilən qüsurların mənbəyidir. Başqalarından fərqli olaraq, xüsusən güclü özü-özünü müşahidə qabilyyətinə malik olan Sokrat adamda, xüsusulə də daxilən zəngin olan kəslərdə, daha güc-

---

1 Sipovski V.D. Sokrat və onun dövrü (tarixi oçerk). Bakı: Elm, 1995, c.29

2 Yenə orada, c. 69.

3 Yenə orada, c. 71

lü şəkildə özünü göstərən əqli və mənəvi instinkti dərindən duyurdu. Bax həmin bu instinkti məhz Sokrat «*Dayman*», İlahidən gələn səs, onu bəzi hərəkətlərdən çəkindirən, özünün daxili orakulu sayırdı. O, deyirdi, hər bir kəs bu «İlahi qüvvəyə» malikdir, amma ona qulaq asmaq lazımdır ki, şübhəli hallarda verdiyi məsləhətləri dinləyib hərəkət edə bilsin[1].

Şifahi şəkildə öz filosofiyasını başlayan Sokrat qısa müddətdə öz ətrafına çoxsaylı dinləyici yığır. Onların əksəriyyəti Afina demokratik respublikasının ictimai –siyasi quruluşunu qəbul etməyən və ona düşmənçilik münasibəti bəsləyənlər idi. Bu isə Afinanın demokratik rəhbərliyinin Sokratı saxta ittihamla məhkəməyə verməsinə və onun ölüm cəzasına məhkum olunmasına səbəb olur[2]. Platonun «Sokratın apoloqeyası» səhifələrində insan şəxsiyyətinin ən yüksək nümayəndələrindən biri Sokratın məhkəməsi təsvir edilir. «Afinalılar Sokratı fəlsəfi fəaliyyətinə görə ittiham edirlər. Ona qarşı ittihamda göstərilir ki Sokrat bütün yer üzündəkiləri və yer altındakıları sınaqdan keçirir və tədqiq edir, yalanı doğru kimi verir, gəncləri korlayır, qanunları pozur. Bütün məhkəmə müddətində ölüm cəzası gözlənilməsinə, hətta onun tələbələrinin pul yığıb onu həbsdən qaçırıb xilas etməsi müraciətlərinə baxmayaraq o öz prinsiplərindən bir addım da geri atmır[3]. Beləliklə, e.ə. 399-cu ildə 70 yaşlı Sokratı allahsızlıqda, gənclərin tərbiyəsini pozmaqda günahlandıraraq ölümə məhkum edirlər. Sokrat ədalətsizliyə cavab vermək istəmir, kəskin bitki zəhərini içir və ölür.

Sokratın anlayışları aydınlaşdırmaq və müəyyən etmək-

---

[1] Sipovski V.D. Sokrat və onun dövrü (tarixi oçerk). Bakı: Elm, 1995, c.55

2 Асмус В.Ф. Античная философия. Изд. второе. М.: Высшая школа, 1976, с.102

3 Платон. Апологея Сократа. М.: Соч. Т.1. М., 1968, с.84

də istifadə etdiyi metod dialektik metod və ya dialektika adlanır. Dialektika Sokrat fəlsəfəsinin nailiyyəti sayılır. Bu, nəinki Sokrat fəlsəfəsinin, həmçinin onun tələbəsi Platonun və platoniklərin fəlsəfəsinin ana xəttini təşkil edirdi[1].

Sokratın təlimində *idarəçilik mühüm yer tutur, idarəçilik formasına görə beş növə bölünür: monarxiya, tiraniya, plutokrotiya, aristokratiya, demokratiya. O, bunları idarə edən şəxslərin üsul və məqsədlərinə görə fərqləndirilir. O xalqın iradəsinə və dövlətin qanunlarına əsaslanan hakimiyyəti çar həkimiyyəti; xalq iradəsinə zidd və qanunlara əsaslanmayan və hökmdarın özbaşınalığını tiraniya adlandırır. Sokrata görə əgər idarəçilik qanunu icra edən şəxslərdən gəlirsə, bu, aristokratiya; əgər o varlılardan gəlirsə – plutokriya, əgər hamıdan gəlirsə – demokratiya sayılır*[2].

*Monarxiyanın tiranlıqdan fərqi: monarx öz xoşu ilə ona tabe olunanları qanuna uyğun idarə edir; tiran isə zor tətbiq etməklə idarə edir və özbaşınalıqdan başqa qanun tanımır; plütokratiya – varlılar hökmranlıq edir; aristokratiyada qanunun müəyyən etdiyi şərtə görə kütlədən ayrılan azlıq hökmranlıq edir; çoxluğun idarəçiliyini demokratiyaya aid edir*[3].

*Sokratın ümumi təlimində ali hakimiyyətin mənbəyi kimi, yazılmamış, Allah tərəfindən qoyulmuş qanunlar olduğu göstərilir; dövlət və insan qanunlarına ilahi qanunların yalnız əksi kimi baxılır.*

Sokrat yazılmamış qanunlar haqqında öz təlimini tələbəsi Platona verir; Platondan isə bu təlim stoiklərə və Sisero-

1 Асмус В.Ф. Античная философия. Изд. второе. М.: Высшая школа, 1976, с.103

2 Энциклопедия афоризмов: Мысль в слове. М.: Аст, 2003, с.79

3 Коркунов Н. И. История философии и права. С.-Петербург, 1908, с.20-21

na keçir; Sonralar bir neçə əsr sonra təbii hüquq nəzəriyyəsində yenidən canlanır, bu «yazılmamış qanunlar» ədalətin ümumi başlanğıcı kimi geniş kütlənin ixtiyarına verilir. Platon və Sokratın tələbələri onun irsini davam etdirmiş, Platon əsərlərini Sokratın adından dialoq şəklində vermişdir. Platonun və Ksenofontun dialoqları Sokratın filosof və tərbiyəçi kimi fəaliyyətini öyrənmək üçün mühüm mənbə olmuşdur. Həmçinin fraqmentlərdə qalmış fikirləri başqa tələbələri tərəfindən Sokrat dialoqlarında verilmişdir. Demək olar ki, Sokratın bütün tələbələri onu ideallaşdırır və onların fikirləri arasında ziddiyyətlər diqqəti cəlb edir. Sokrat və onun fəlsəfəsi insanın kamilləşməsinə çağırış idi.

Sokratın biliyin mənbəyi və rolu haqqında fikirləri idealistik xarakter daşıyırdı, eyni zamanda tələbələrə humanist, tərbiyəvi optimizm enerjisi verirdi. Sokratın hikmətli sözləri insanların leksikonunda geniş istifadə olunur. Onlardan bəzilərini göstərmək olar: *«O şəxs daha varlıdır ki, azla kifayətlənir, çünki bu cür kifayətlənmə daxili aləmin zənginliyini göstərir». «Aza qane olmaqla, ən çox Allahlara oxşar oluruq, ona görə ki, onlar heç nəyə ehtiyac duymurlar». «Günəşin bir çatışmamazlığı var, o özünü görə bilmir». «İnsanlara dilində sirri saxlamaqdansa, yanar kömürü saxlamaq asandır». «Var-dövlət və əsilzadəlik heç bir şərəf gətirmir». «Əgər insan özü özünün sağlamlığının qeydinə qalmırsa, sağlamlığı üçün əhəmiyyətli olanı onun kimi bilən bir həkim tapmaq çətindir». «Yeməyə ən yaxşı ədviyyat aclıqdır». «Heç nəyi həddən artıq etməmək». «O adam varlıdır ki, azla kifayətlənir, çünki məmnunluq naturanın zənginliyini göstərir» (Sokrat).*

## 4.6. Demokrit – «Atomizm» nəzəriyyəsinin banisi, «Gülən» təxəllüslü filosof

• *Əgər istəyirsən ki, sənin ruhun yaxşı vəziyyətdə olsun, nə eləyirsənsə, özünün özəl həyatında, nə də ictimai işdə kiçik işdən yapışma və həm də öz gücündən və təbiətindən yüksəyə səy göstərmə.*

• *Düşüncəli o şəxsdir ki, olmayana kədərlənmir, yalnız nəyi varsa ona şadlanır.*

• *İnsanları nə bədən gücü, nə də pul xoşbəxt edir, yalnız düzlük və hərtərəfli müdriklik xoşbəxt edir.*

• *Güc və gözəllik gəncliyin mahiyyətidir, qocalığınki isə düşüncəliliyin çiçəklənməsidir.*

• *İnsanın bədən gözəlliyi əgər onun altında ağıl gizlənmirsə, o heyvana bənzəyir*

***Demokrit***

Atomizm nəzəriyyəsinin əsasını qoyan Aralıq dənizinin Frakiya sahillərində Abder şəhərində anadan olmuş qədim yunan filosofu Demokrit (460-360) ilk təhsilini rəvayətə görə fars cari Kserks Yunanıstan müharibəsindən məğlubiyyətlə qayıdarkən Demokritin atasının qonağı olmuş və qonaqpərvərliyə görə onun uşaqlarına təhsil vermək üçün orada saxladığı şərq müdrikliyinin daşıyıcısı olan maqlardan və xalideylərdən almışdır. Demokrit onlardan riyaziyyatı, astronomiyanı öyrənir. Bəzi müəlliflər Demokritin atomizm nəzəriyyəsinin fars müəllimlərindən gəldiyini güman edirlər. Demokritin atası öləndən sonra atadan qalmış miras üç qardaş arasında bölünür və ona ən az pay (90 talant) verilir. Ona çatası miras puluna nə torpaq, nə ev, nə qullar alır, o pula bilik, müdrik filosof kimi 8 il müddətinə Afinaya getməzdən əvvəl xarici ölkələrə – Misirə, Babilistana, İrana, Ərəbistana,

Hindistana və Efiopiyaya səyahətləri seçir. O səyahət zamanı bilik, təcrübə qazanmaq və şərqin həyat tərzini, elmini və b. müşahidə etmək yolunu seçir. Misirdə kahinlərlə, Farslarda xaldeylərlə, Hindistanda hinosofistlərlə ünsiyyətdə olur, səyahətdən heç nəsiz qayıdır, özü ilə nə mal, nə də pul gətirir. Mirası xərclədiyinə görə ona cinayət işi açılır. Onda Abdler polis qanununa görə mirası israf etmək ağır cinayət sayılırdı. Demokriti mühakimə edirlər. Mülki ittihamçı gənc oğlanı qanunu zidd hrəkətə gətirən hadisəni mirası torpaq, mal-qara, qullar, qiymətli mallar almamasını, ticarət əməliyyatı aparmamasını göstərir, heç nəsiz qayıtmaqda günahlandırır və deyir: *«Məgər belə insanı cəzalandırmamış saxlamaq olar?».* Abdler qanunvericiliyində deyilir: ata mirasını israf etməyə görə öz vətənində dəfn etmək olmaz. Nəticədə ittihamçı tələb edir ki, Demokriti polis qanununu pozduğuna görə cinayətkar kimi vətəndən qovmaq lazımdır.

Abdler ənənəsinə görə mühakimə olunan şəxs öz müdafiəsi üçün çıxış edir. Demokrit məlumat verdi ki, o mirası boş yerə xərcləməyib. *«Mən müasirlərimdən çox ölkələrə səyahət etdim və onları dəqiqliklə tədqiq etdim, başqalarından çox gördüm, mən çoxsaylı alimlərlə söhbət etdim. Mən öz fikirlərimi deyəndə heç kəs mənim səhvimi aşkar etmədi, hətta məni misirlilərin doğmaları adladırırdılar».*

Demokrit bu mirası başqa xalqların müdrikliyini, həyat tərzini, əxlaqını, adət-ənənələrin dərk etmək, onların elmi ilə tanış olmaq, öz elmini onlarla müqayisə etmək üçün istifadə etdiyini deyir. Sonda öz təlimini oxuyub onlara çatdirdıqdan sonra əhali onun əsərlərini qiymətləndirir və bu qiymətin onun sərf etdiyi miras paydan da üstün olduğunu deyirlər. Abderilər anladılar ki, onların qarşısında həqiqi müdrik dayanıb və ictimai qınağı və ittihamı onun üzərindən götürdü.

Sonralar şəhərə verdiyi faydalı məsləhətlərə görə ona «*Müdrik*» ləqəbi verirlər. O hətta arxant vəzifəsində işləmiş və xidmətlərinə görə *«Vətənpərvər»,* mənəvi simasına görə *«Gülən filosof»* adlandırılmışdır. Şəhər həyatında fəal işlərinə görə *«Dövlətin gerbi» və «Demokrit dövrü»* yazısı olan gümüş sikkə buraxılmışdır.

Onun Afinaya gəlməsi haqda dəqiq məlumat yoxdur. Roma oratoru və filosofu Siseron yazırdı: *«Demokrit deyirdi ki, mən Afinaya gəldim, heç kəs məni tanımadı»*[1].

Demokritin fikrincə ehtiyac və təcrübə insan ucun hər şeydə müəllimdir. Ehtiyacın təsiri ilə insan təbiətinə uyğun vəsait axtarmış və bizim indi istifadə etdiyimiz qidaları tapmışdır. .... bütun məharət müəyyən müddətdə təlabat və şəraitdən yaranır[2].

Güman olunur ki, fars müəllimlərinin Demokritə çatdırdığı atomizm ideyası e.ə. VII əsrdə Finikiyada yaranmışdır. Demokritin fikrincə atom bir-biri ilə yaxınlaşaraq əmələ gətirdiyi konqlemeratlardan biri su, başqası od, üçüncü bitki, dördüncü insan yaratmışdır[3]. Onun təbii elmlərə baxışları ioniyalılar tərəfindən formalaşmışdır. *O mənəvi cəhətdən Pifaqordan bəhrələnirdi*[4]*. Demokrit e.ə. 420-ci ildə yazdığı «Kiçik dünya quruluşu» əsərində insan cəmiyyəti, xüsusən dövlətin yaranması* haqqında fikirlər söyləmişdir. Antik dövrün mütəfəkkirləri arasında *dövlətin zərurətdən yaranması fikri Demokritdən başlayır*[5]. Demokrit öz siyasi baxışlarına görə

---

1 100 Великих мыслителей. М.: Вече, 2002, с.64

2 Лурье С. А. Демокрит. Л.: Наука, 1970, с.331

3 Таранов П. Философия сорока пяти поколений. М.: АСТ, 1999, с.183

4 100 Великих мыслителей. М.: Вече, 2002

5 Rüstəmov Y. Sosial-siyasi və hüquqi təlimlər tarixi. B., 2007, s.50

yunan demokratiyasının qızğın müdafiəçisi olmuş, idarəçiliyin quldarlıq formasını qəbul edən aristokratiyaya qarşı çıxış etmişdir. O, yazırdı «Demokratiyada yoxsulluq çar dövrünün firavanlığından, azadlıq qul olmaqdan yaxşıdır»[1]. Demokritin təlimində o zaman Afinada və digər yunan şəhərlərində hakimlik edən demokratiyadan danışılırdı.

Bütün təlimlərin əsas mahiyyəti ali dövlət hakimiyyətinin mənbəyini daimi *dəyişilməz qanunda* görülürdü. Dövlət hakimiyyəti bu qanunu dərk etməli, qanunvericinin iradəsinin qanunun irədəsinə uyğunlaşdırılmasıdır. Odur ki, dövlət hakimiyyətinin öz başlanğıcında ilahi qanun əsas götürülməklə, o əl çatmaz yüksəkliyə qaldırılmışdır.

Demokritin təliminin Sokrata və Platona təsiri olmuş, onlar isə bunu heç yerdə xatırlatmırlar. Platonun «Dövlət» əsərində dövlətin yaranması haqqında Sokratla Adimantın söhbətində ehtiyacın cəmiyyətin hərəkətverici qüvvəsi olduğu fikri həqiqətdə Demokritin təlimidir[2]. Platon öz əsərlərində heç yerdə Demokritin adını yada salmır. Ondan soruşurlar ki, niyə Platon öz yüksəlişinə başlayanda Demokriti yada salmadan öz sələflərinin,bütun qədim filosofların adını çəkir, hətta etiraz etməli olduğu halda belə yalnız Demokritin adını çəkmir. Aydındır ki, o bilirdi ki, ən yaxşı filosofla mübahisəyə girməməlidir.

Tarixi qeydlərdə göstərilir ki, Platon Demokritin əsərlərini yandırmaq istəyib, pifaqorçu Amikl və Rilniy ona mane olub və deyiblər ki, bu, faydasızdır. Çünki bu kitablar çoxlu insanlarda vardır[3].

Demokrit və Sokratın etikasında çox ümumi cəhətlər

---

1 100 Великих мыслителей. М.: Вече, 2002, с.67

2 Там же, с 65

3 Лурье С. А. Демокрит. Л.: Наука, 1970, с. 201, 202

tapmaq olar. İnsanların bir-biri ilə ünsiyyətdə olmaları onların birgə *fəaliyyət görməsinə,* özlərinə qida əldə etməsinə səbəb olmuşdur. Demokrit yazır ki, biz heyvanlardan ən mühüm şeyləri öyrənmişik. *Hörümçəkdən hörməyi və qaranquşdan evin qurulmasını, oxuyan quşlardan – durna və bülbüllərdən oxumağı öyrənmişik. Qatırlar doğmur, ona görə ki, onlar təbiət tərəfindən yaradılmayıb, sünidir*[1]*.* Onun fikrincə, heyvanlar özünün ehtiyacını ödəmək üçün ona nələr lazım olduğunu bilir, insan isə bu ehtiyacı bilmir. Həqiqətdə heyvanlar özünun hər hansı bir xeyri üçun təbiətə uyğun nəsl yaradır. Hər bir heyvanda bala olanda ona qayğı göstərir və gücünü əsirgəmədən onu yedizdirir və böyüdür. Hələ ki, o balacadı valideynlər onun üçun narahat olur və onlara hər hansı bir narahatçılıq baş verəndə əziyyət çəkirlər. Bütun bu hallar təbiətin canlılarına aiddir[2]. Beləliklə, sənəti, ustalığı təbiətin yaratdığına biz onu özümüz tədqiq etdiyimiz kimi baxırıq. Demokrit bəşəriyyəti heyvanat aləminin bir hissəsi hesab edir, sivilizasiyanın inkişafını təbiət ilə əlaqələndirir.

Demokritin evi yox idi, o, məbəddə qalır və sərgədan həyatı keçirirdi. O, özünə o qədər qapanırdı ki, özünü unudur və *öz-özünə gülürdü*. Onun həyat tərzinə əhali şübhəli baxır və bu xüsusiyyətlərinə görə onu dəfələrlə məhkəməyə cəlb etmişdilər. Filosofun bu cür özünü aparmasının səbəbini bilmək üçün qədim yunan həkimi *Hippokratı* dəvət edirlər. Hipokrat Demokritlə uzun müddətli söhbətdən sonra başa düşür ki, onun qarşısında dəli yox, elmi tədqiqatlarla əsaslı məşğul olan və onun dərinliklərinə gedən bir filosof dayanıb. Öz-özünə gülməyinin səbəbini Demokrit belə izah edir: *«Mənim gülüşümün bir predmeti var, o da insandır. İnsana*

1 Лурье С. А. Демокрит. Л.: Наука, 1970, с.352
2 Там же.

*tam düşüncəsizlik, öz niyyətlərində ağılsızlıq, hədsiz əməyinin heç bir faydası olmaması, öz tamahkar arzusu ilə yaşaması xasdır».* Hippokrat insanı müdrik etməyin tək üsulunu Demokritdə gördü. Qısa vaxtda Demokrit Hipokrata *«Ağılsızlıq haqqında»* öz əsərini göndərir və orda beynin funksiyasının pozulması səbəblərini izah edir və bu xəstəliyin simptomlarını göstərir. Sonra Hippokrata göndərdiyi *«İnsan təbiəti haqqında»* fəlsəfi tədqiqatının təbabət elminin bünövrəsi olduğu fikrini söyləyir və insanın anatomiya və fiziologiyasını təsvir edir[1]. Güman edilir ki, Demokritin ən yaxşı tələbəsi Hippokrat olmuşdur. Hippokratın sözlərinə görə o, əvvəl öz atasının, sonra natiq - filosoflar Herodik və Leontinin, sonra isə Demokritin tələbəsi olmuşdur.

Demokrit insanın və dünyanın meydana gəlməsi və təşəkkül tapması məsələsini elmi cəhətdən izah etməyin ilk təşəbbüskarlarından biri olmuşdur. Demokrit məntiq sahəsində əsas diqqəti məzmuna verir, həmçinin induksiya, anoloqiya və hipotez məsələsini tədqiq edir. Bütün hallarda Aristotel bu sahədə Demokriti özünün sələfi hesab edirdi[2].

Demokritin baxışları antik dövrün və təbii elmin zirvəsi sayılır. O cümlədən Epikür, Lukresiyaya, Qassendiyə, Qalileyə, Leybnisə və müasir atom fizikasına böyük təsir etmişdir[3].

O universal biliyə malik olmuş, müxtəlif elmlər: fizika, riyaziyyat, tibb, fəlsəfə haqqında 70-dən çox əsər yazmışdır. Demokrit hamıdan uzaqlaşaraq öz əsərlərini gündüz və gecə yazırdı. Onun əsərlərindən: *«İnsan təbiəti haqqında», «Kiçik dünya quruluşu» (e.ə. 420-ci illərdə), «İdeyalar haqqında», «Böyük dünya quruluşu», «Məqsəd haqqında», «Həndəsi*

---

1 100 Великих мыслителей. М.: Вече, 2002, с.64-65

2 Словарь античности. М. Прогресс, 1989, с.176

3 Там же, с.177

*məsələlər» və b. göstərmək olar.* Demokritin müəllimi Pifaqorun oğlu Arimnest olması ehtimal olunur[1].

Ahıl yaşında Demokritin gözü kor olmuş (güman edilir ki, özünü kor edib) və 107 yaşında dünyasını dəyişmişdir.

Demokritin insan dəyərləri, ləyaqət və başqa məsələlər haqqında çoxlu müdrik sözləri var. Onlardan: *«İnsan bilməlidir ki, necə və nəyə görə yaşamalıdır». «Bədən gücü və pul insanı xoşbəxt etmir. İnsanın bədən gözəlliyinin altında ağıl yerləşmirsə, o, heyvana bənzərdir». «Xoşbəxtlik – ruhun yaxşı olmasında, onun həyacanının olmamasında, harmoniya, simmetriya və qəlbin qorxmazlığındadır»*[2]*. «Ataların var-dövləti, demək olar ki, hər yerdə onların uşaqlarına bədbəxtlik gətirir». «Varlıların çoxu öz var-dövlətinin sahibi yox, onun mühafizəçisidir». «Yaxşı olar ki, hərəkət etməmişdən əvvəl fikirləşəsən». «Kim ki, pulun cazibəsinə heç cür dayana bilməyir, o heç zaman xoşbəxt olmayacaq». «Yaralar içərisində ən pis xəstəllik xərçəng olduğu kimi, pulu olanda onun üstünə artırmaq arzusu xərçəngdən də pisdir». «Kimə yaxşı kürəkən düşübsə, o, oğul qazanır, kimə pisi düşübsə, qızını da itirir». «Mərdlik yalnız düşmənlərə qalib gəlmək deyil, həm də öz hisslərinin üzərində hakimlik etməkdir». «Bəziləri isə səhərlər üzərində hökmranlıq edirlər və, eyni zamanda, qadınların qulu olurlar». «Pis heç nə danışma və etmə, hətta sən tək olan da belə. Ən çox başqalarından yox, özün-özündən utanmağı öyrən». «Açıq nitq – azad ruhun xüsusiyyətidir, lakin lazım olmayan andan istifadə təhlükəlidir»; «Düşüncəli o şəxsdir ki, olmayana kədərlənmir, yalnız nəyi varsa ona şadlanır». «İdrakın iki növü var: biri – bilavasitə hissiyyat, digəri – düşüncə».*

---

1 Таранов П. Философия сорока пяти поколений М.: АСТ, 1999, с.130

2 100 Великих мыслителей М. Вече, 2002, с.66

*«Xeyirli olmayan hər hansı bir kefdən imtina et». «İnsanları nə bədən gücü, nə də pul xoşbəxt edir, yalnız düzlük və hərtərəfli müdriklik xoşbəxt edir». «Öyrənmək yolu ilə, böyük güc sərf etmək bahasına yaxşıya nail olunur, pis isə əziyyət çəkmədən özü-özlüyündə yaranır». «Səbəbsiz heç bir şey yaranmır, hər şey nəyinsə səbəbindən və zərurətindən yaranır». «Eyibli işlərdə peşmançılıq həyatın xilasıdır». «Yaxşı olar ki, bizi özümüz yox, başqaları tərifləsin». «Söz işin kölgəsidir». «Kim istəyirsə yaxşı yaşasın, onda o özü üçün yox cəmiyyətin xeyri üçün çox şey etsin». «Qorxu yaltaqlıq yaradır, xeyirxahlıq da qorxu yoxdur». «Öz işini kənara atıb başqa işlə məşğul olmaq utanılasıdır». «Xoşbəxt o adam deyil ki, varlıdır, o adam varlıdır ki, var-dövlətə ehtiyac duymur». «Mülayimlik həyatın zövqlülüyünü artırır». «Güc və gözəllik gəncliyin mahiyyətidir, qocalığınki isə düşüncəliliyin çiçəklənməsidir».*

## 4.7. Platon – «İdeal dövlət» ideyasının banisi

*• Üç şey – ruh, bədən və pul mövcud olduğundan sizin qanunlarda hər şeydən yüksəkdə kamil ruh, ikinci yerdə ruhdan aşağıda dayandığına görə kamil bədən, üçüncü yerdə isə ruhun və bədənin xidmətində olan var-dövlət qoyulmalıdır.*

*• İstənilən iş öz-özlüyündə nə gözəl və nə də pis olur. Əgər o işi gözəl və düzgün edirsənsə, o, gözəl olur.*

*• İnsan üçün ən yaxşı qələbə özü-özünü fəth etməkdir.*

*• Xalq onda xoşbəxt olar ki, həqiqi filosoflar dövlət başçıları və ya hökmdarlar həqiqi filosoflar olsun.*

***Platon***

Platon (e.ə. 427-434) mənşəyinə görə aristokrat olub ana tərəfdən məşhur Solonun nəslindəndir. Platon uşaqlıq illərində ən yaxşı müdriklərdən, gənclik çağında isə böyük sofistlərdən dərs almaqla hərtərəfli təhsilə malik olmuşdur. Platon gəncliyinin ilk çağında mənəvi mühitdə anti-demokratik olmaqla yanaşı, anti-tiranik və antioliqarxik olmuşdur. O, müdrik və filosof olmaq üçün Sokratdan həqiqətin mövcudluğunu və həyatın yüksək dəyərlərini öyrənir və Platonda özünə möhkəm inam yaranır. O, Sokratın ölümünə səbəb olan demokratiyadan xoşu gəlmirdi.

Sokratın ölümündən sonra Platon köhnə ənənələrə görə həqiqi fəlsəfəni qədim müdriklərdən öyrənmək məqsədilə 10 il müddətinə səyahətə çıxır. Misir, Cənubi İtaliya və Siciliyada olur. Güman edilir ki, Platon Babilistana da səyahət edir, orada astronomiyanı, Assiriyada maqların böyük müdrikliyini, Finikiya və İudeydə onların qanunlarını, dinlərini və əxlaqını öyrənir. Fars maqlarından təhsil alması da qeyd olu-

nur. Misirdə onların kasta quruluşu, əmək bölgüsü formasının müəyyən edilməsi, cəbrin öyrənilməsi forması Platonda güclü təəssürat yaradır. Kirendə məşhur yunan astronomu və riyaziyyatçısı Fedorla rastlaşır, sonralar öz üç dialoqunda onu əsas iştirakçı kimi göstərir. Cənubi İtaliyada xüsusilə riyaziyyatla əlaqəli pifaqorçuların təlimi ilə tanış olur. *Pifaqorçular Platona fikrin aydınlığını və dəqiqliyini, nəzəriyyə yaradılmasında ciddilik və mükəmməlliyi, predmetə ardıcıl və hərtərəfli baxılmasını öyrədirlər.* İtaliya və Sirakuzda Platon gəncliyin aşağı əxlaqi və tərbiyəsi, istedadlı olsalar belə, ağıllı ola bilmədiyi fikrinə gəlir.

Platonun kosmologiyasında dünyanın bir canlı orqanizm və onun qəlbi olduğu göstərilmişdir. Dünya qəlbində (ruhunda) rəqəmlərin nisbəti və harmoniyası durur. Dünyanın strukturu belədir: İlahi ağıl, dünya qəlbi və dünya vücudu-kosmosdan ibarətdir. Canlı aləmi İlahi yaradır, İlahi tərəfindən bədən öləndən sonra başqa bədənə keçən ruh yaranır[1]. Platonun siyasi və dövləti – hüquqi aspektdə dünyagörüşü əsasən üç dialoqda *«Dövlət», «Qanunlar»* və *«Politika»*-da əks olunmuşdur. «Dövlət» əsəri erkən sokratçılıq dövrünə aiddir, qalan iki kitab isə onun yetkin düşüncəsinin, uzun və gərgin yaradıcılığının məhsuludur.

Platon yunan filosofları arasında ilk olaraq «*Dövlət*» və «*Qanunlar*» traktatında dövlət haqqında sistemli formada yazan filosofdur. Platon bu traktatlarda cəmiyyətin yuxarı hissəsinin aşağının fəaliyyəti üzərində ciddi nəzarəti olan dəqiq işlənmiş *silki sistemdən ibarət ideal polis-dövlət modeli* yaratmışdır. Cəmiyyətin həyatı ciddi dövlət nəzarətinə tabedir. Platonun *«İdeal dövlət» konsepsiyasını əksər tədqiqatçılar*

---

1 100 Великих мыслителей. М.: Вече, 2002, с.75

*«Kommunist cəmiyyətinin»* ilk layihəsi hesab edirlər[1].

Platon Böyük Dionisin hökmdar olduğu Sirakuza səyahət edir. Dionisi Platona sual verəndə ki, kimdir ən xoşbəxt adam? O, fikirləşmədən Sokratın adını çəkir. Ondan soruşanlda ki, hökmdarın məqsədi nədədir? Ona cavabında öz əhalisindən yaxşı insanlar formalaşdırmaq; ədalətli hakimin mənası haqqında suala Platon, hakimin hətta ədalətlisini cırıq paltar tikən dərziyə bənzədir. Dionisi tiranın mərdliyi haqqında yaxşı söz eşitmək üçün Platona sual verir. Platon cavabında tiran dünyada ən qorxaq adamdır, hətta o öz dəlləyi qarşısında əsir və qorxur ki, onu ülgüc ilə doğrayar. Cavablardan xoşu gəlməyən Dionis səbrini toplayıb soruşur ki, onun Sirakuza gəlməsinin səbəbi nədir? Platon cavabında kamil insan axtarıram. Dianis acı sözlərə dözməyərək deyir: »Allaha and olsun ki, siz hələ onu tapmamısınız, bu aydındır». Dionis Platonu evə göndərmək qərarı verir və başqa birisinə tapşırır ki, onu öldürsün. Həmin adam onu öldürmür və qul bazarında satır. Platonu tanıyan bir nəfər onu qul kimi alıb və azad edir[2].

Platon birinci böyük filosofdur ki, onun bütün əsərləri bizə gəlib çatmışdır. Antik fəlsəfi fikrində Platon idealist dialektikanın zirvəsində dayanır.

Səyahət edərkən müxtəlif xalqların həyat tərzini və qanunlarını müşahidə edərək qərara gəlir ki, bütün mövcud dövlətlər pis idarə olunur, bəşəriyyəti dəhşətdən yalnız həqiqi və düşünən filosof dövlət vəzifəsi tutmaqla qurtara bilər. Platonun fəlsəfi-etik baxışları əsas iştirakçısı öz müəllimi Sokratın olan çoxsaylı dialoqlarda ifadə edilmişdir. Platonun əsərlərində elə elm sahəsi yoxdur ki, orda *etika, siyasət,*

1 100 Великих мыслителей. М.: Вече, 2002, с.69
2 Там же, с.71

*elm problemi, incəsənət və dini məsələlər əks olunmasın.*

Platon «Qanunlar» və «Politika» əsərində gösətərir ki, bütün dövlətlərin dövlət quruluşunun iki əsas növü var. Onlardan *birincisi monarxiya, ikincisi isə demokratiyadır.* Monarxiya ən yüksək inkişafını farslarda, demokratiya isə yunanlarda tapıb. Qalan dövlət quruluşu növləri, necə deyərlər, bu ikincisinin rəngarəng qarışığından yaranıb. Platonun fikrincə heç bir hakim və heç bir vəzifəli şəxs axrıncı qərar qəbul edən hökmdarlardan başqa nəzarətsiz hərəkət edə bilməz.

Qeyd etmək lazımdır ki, Platon öz *«İdeal dövlət» konsepsiyasında Spartanın dövlət quruluşundan geniş* istifadə etmişdir. Platonun ideal dövləti cəmiyyətin həyatının ciddi dövlət nəzarəti altında olduğu utopik dövlətin nəzəri sistemidir. Platonunu fəlsəfəsində dövlət ilə eyniləşdirilən cəmiyyət və insan iki simmetrik və bir-birini tamamlayan sistem kimi şərh edilir. İnsanlar əsasən üç hissədən (bədən, qəlb, ağıl ibarət olduğu kimi, cəmiyyət də əsasən üç qrupa - işçilər, hərbiçilər, idarəedənlərə (filosoflar) bölünür. O yazır: Biz abad dövləti iztirab və sağlamlığı üzvlərin durumundan asılı olan bədənə oxşadırıq[1]. Ruh bədəndən əvvəl, bədən isə – sonra yaranıb. Odur ki, bədən ikincidir, ruh hakimlik etdiyindən bədən öz təbiətinə uyğun onun tabeçiliyində olur[2].

*Platon* özünün ideal, nümunəvi dövlət modelini tarixdə mövcud olmuş dövlət idarəçilik formaları ilə müqayisə etməklə formalaşdırmışdır. O bu modelini *timokratiya, oriqarxiya, demokratiya və tiranlığa* qarşı qoyur. Onun fikrin-

---

1 Платон. Государство, Сочинение в 3-х т-х. Т.3 М.: Мысль, 1971,с.263

2 Платон. Законы. Сочинение в 3-х т-х. Т.2. М.: Мысль, 1972, с.231, 391

cə bunların hər biri mənfi, qeyri-mükəmməl quruluşlu dövlətlər olub bir-birindən yaranır. Belə ki, mənfi quruluşdan müsbət quruluş, qeyri-mükəmməldən mükəmməl törəyə bilməz. Platon onların bir-birinə keçid mexanizmini açır. O, ilk mənfi quruluş forması kimi *timokratiyanı* təsvir edir. *Timokratiya* - şöhrətpərəstlərin hakimiyyətinə əsaslanan hakimiyyətdir. *Oliqarxiya* – varlı azlıqların çoxluq üzərində hakimiyyətinə əsaslanan dövlət quruluşu formasıdır. Platona görə oliqarxiyadan sonra dövlət quruluşunun daha pis forması *demokratiya* gəlir. Onun fikrincə yoxsullar (çoxluq) qalib gəldikdə, varlıların bir hissəsini məhv edir, bir hissəsini də ölkədən qovur və dövlət vəzifələri toplumun bütün üzvləri arasında bölüşdürülür. İfrat azadlıq nəinki ayrıca bir insanı, həm də bütün dövləti köləliyə aparıb çıxarır. Bu səbəbdən demokratiyada ən böyük azadlıqdan tiranlıq yaranır. Bu, bir şəxsin toplumda və dövlətdə hamı üzərində hakimiyyətidir[1]. Platon dövlət formalarının tipologiyasını yaradarkən əsasən tarixçi Herodota əsaslanmış, Aristotel isə Platonun fikirlərini özünə məxsus şərh edərək onlara bəzi dəyişiklik etmiş, bütövlükdə *bu tipologiyanı* qəbul etmişdir.

Platon «Siyasət» dialoqunda *yeddi idarəçilik forması ayırır: həqiqi idarəçilik və üç başqa idarəçilik növlərinə - (monarxiya, azların hakimiyyəti və çoxluğun hakimiyyəti) bölür və onların hər birini qanunauyğun olub və olmamasından asılı olaraq iki yarım növə ayırır. Qanuni monarxiyanı – çar hakimiyyəti, qanuna ziddi – tiraniya; azların qanuni hakimiyyətini – aristokratiya, qanuna zidd – oliqarxiya adlandırır, demokratiyanı qanuni və qanuna zidd formaya bölür[2].* Platonun fikirlərinə görə qanuni dövlət formaları arasında ən pisi demokratiyadır, yəni o, mo-

1 Platon. Dövlət. Bakı Dövlət Universiteti, 1999, s. 27-28.
2 Платон. Законы. Сочинение в 3-х т-х. Т.2. М.: Мысль, 1972, с.309

narxiya və aristokratiyadan pisdir. Qanunsuzluqlara əsaslanan formalar əsasında isə demokratiya oliqarxiya və tiraniyaya nisbətən daha qabaqdadır.

Platon *«Qanunlar»* əsərində siyasi idarəçiliyin və dövlət həyatının əsası kimi *qanunçuluq prinsipinə* daha çox əhəmiyyət verir. Bu prinsipə görə iki növ dövlət quruluşu forması ayırır: *birində hamının üzərində hökmdar durur; digərində qanunlar hakimlik edir, hökmdarlar ona tabedir.* Platon yazır: harda ki, qanunun qüvvəsi yoxdur, kiminsə hakimiyyəti altındadır, bu dövlət məhvə yaxındır. Harda ki, qanun hökmdarlar üzərində hakimdir, onlar qanunun quludur, mən dövlətin xilasını görürəm[1]. Platon qanunlara təsnifat verərək *düzgün və qeyri-düzgün qanunlara bölür*. *Düzgün qanunlar* – bütün dövlət üçün ümumi rifahı müəyyən edir, *qeyri-düzgün* qanunlar - əgər qanunlar bir neçə nəfərin maraqlarına görə qəbul olunubsa, orda söhbət dövlətdən yox, yalnız daxili çəkişmədən gedir[2].

Platon «Qanunlar» əsərində dövlət quruluşuna və qanunvericiliyə coğrafi, klimatik, torpaq və başqa faktların təsirini qəbul edərək göstərirdi ki, yerli şəraitin ziddinə qərar qəbul etmək qeyri-mümkündür. Bu və başqa yerlərdə müxtəlif hava axınları və günəş şüaları insanlarda qəribəlik və uğursuzluğa səbəb olur; başqa tərəfdən rütubətli iqlim və bitki örtüyü bədəni yaxşı etməklə yanaşı, pis də edə bilir və ruha daha çox təsir edir[3].

Həqiqətən – Yunanıstan polisinin (şəhər-dövlətin) taleyi (e.ə. V-III ə) təbiətin nəhəng faktoru olan torpaq-hava şəraiti

---

1 Платон. Государство, Сочинение в 3-х т-х. Т.3. М.: Мысль 1971, с.188

2 Платон. Законы. Сочинение в 3-х т-х. Т-2. М.: Мысль 1972, с.188

3 Платон. Законы. Сочинение в 3-х т-х. Т-2. М.: Мысль 1972, с.222

ilə sıx bağlı idi. Təbii hava şəraitinin yaxşı olması, məhsuldar torpaq insanların maddi təminatını ödəməklə yunanlara yaradıcılıq üçün qiymətli faktor olan boş vaxt verirdi, gözəllik isə estetik ruh yüksəkliyi yaradırdı. Dəniz əhatəsində şairlər, filosoflar sağlamlıq və fiziki gözəlliyi ilə seçilirdilər. Odur ki, yunanlar öz ölkələrini dünyanın mərkəzi, beynəlxalq münasibətlərin mühüm ictimai nöqtəsi hesab edirdilər.

Platonun ideyaları dünya sivilizasiyasına böyük təsir göstərmişdir. Y.Rüstəmovun yazdığı kimi, Platon haqqında Avropa fəlsəfəsinə edilən bəzi əlavə qeydlərdən başqa bütün qərb fəlsəfəsi platonizm fikirlərini göstərir. Orta əsrlərdə siyasi fikir qaynaqları Platonun, Aristotelin, Roma hüquqşünaslarının təlimləri olmuşdur. Dövlət hakimiyyəti haqqındı təlimin ilahi qanundan gəlməsi haqqında sonrakı Platon və Aristotelin şəxsində möhtəşəm publisistik təlimlər siyasi filosofiya üçün vəsiyyət kimi verilmişdir[1].

Alimlər arasında mübahisəli məsələlərdən biri Platonun Demorkritin və Pifaqorun əsərlərindən istifadə etməsidir. Platonun seçilmiş əsərlərinə müqəddimədə A. F. Losev yazır: «Platon heç də Sokrata qədərki naturalist filosofiyadan uzaq deyildi və Demokritdən çox şey götürmüşdür. Məlumdur ki, Demokrit öz atomlarını «ideyalar» adlandırmışdır. «atom termini» Platona yad deyildir. Onların hər ikisinin fəlsəfi ənənələri ziddiyyətli idi, eyni zamanda hər ikisi də mürəkkəb fiqurlar idi. Platon Demokritdən «atomlar» haqqında təlimi, Heraklitdən «ümumi yaranmanı» (o Heraklitin fəlsəfəsi ilə sıx tanış olmuş, onun fikrini dioloqlarında müəllifini göstərmədən vermişdir), Pifaqorçulardan «ədədlər haqqında» konsepsiyaları götürmüşdür. Bəzi sonrakı antik yazıçılar

1 Лазарев Г.М. Развитие государственной власти Древнего Мира. М.: Гос. изд-во. с.49

Platonun şəxsiyyətini mənfi təsvir edirlər, məsələn, deyirlər ki, Platon plagiatlıqla məşğul olub, o, Pifaqorun əsərlərindən istifadə edib və özünün ideal dövlət konsepsiyasını Pifaqordan götürüb, Demokritin əsərlərindən istifadə edib sonra yandırıb, Losev bunları yalan adlandırır[1].

Platonun fikirlərinə əsaslanaraq yaranan neoplotonizm cərəyanına orta çağ düşüncəsinə onun təsiri danılmazdır. Platon 80 yaşında anadan olduğu gündə də ölmüşdür.

Platonun çoxlu bu cür hikmətli kəlamları var. Onlardan: *«Hər bir müdrikliyin əsası səbrdir. «Cahillik – ən böyük şərdir, pis mənimsənilmiş bilik daha pisdir». «İnsan üçün ən yaxşı qələbə özü-özünü fəth etməkdir». «Dövlət başçı neçədirsə, adətən rəiyyəti də o cürdür». «Yaxşı başlanğıc işin yarısıdır». «Tiran dünyada ən qorxaq adamdır, hətta o öz dəlləyi qarşısında əsir, qorxur ki, onu ülgüclə doğrayar». «İnsan necədirsə, dövlət də o cürdür». «Dövlətin rüşeymi insan xarakterindən gəlir». «İnsanlar həqiqətə deyil, həqiqət kimi görünən şeylərə inanırlar». «Kamilliyə catan insan üçün elmlərdən ən gərəklisi qanunlar haqqında elmdir». «Nə vaxt ki, tiran, o, yalnız xalqın vasitəsilə yaranır»* kimi kəlamları misal göstərmək olar.

1 Platon. Dövlət. Bakı Dövlət Universiteti, 1999, s.10,26

## 4.8. Aristotel - «Ensiklopedik zəka», «Universal mütəfəkkir»

*• Platon mənim dostumdur, həqiqət ondan da qiymətlidir.*

*• Ləyaqət – biri artıq, digəri çatışmazdan ibarət iki qüsurlu tərəfin ortasını seçməkdir.*

*• Hər bir insan ona mümkün və layiq olan işdən yapışmalıdır.*

*• Dahi dəlilik qatışığı olmadan mövcud deyildir.*

*• Elm yaxşı zamanlarda sərvət, pis zamanlarda isə sığınacaq və gözəl yol göstərəndir.*

*• Qəlb əl kimidir. əl alətlərin aləti olduğu kimi, ağıl formaların forması, hiss olunanın, həyata keçənin forması kimidir.*

*• Ləyaqət haqqında düşünmək hələ ləyaqətli olmaq deyil, fikirdə ədalətli olmaq əməldə ədalətli olmaq deyil.*

***Aristotel***

Qədim Yunan filosofu Aristotel (e.ə. 384-322) Platonun Akademiyasında onun tələbəsi olmuş, e.ə. 338- ci ildən sonra özü Afina vətəndaşı olmadığından, Afinadan kənar yerdə litsey açmışdır. Onun əsərləri o dövrün bütün elm sahələrini əhatə etmişdir. Arisotel başqa filosoflar: Fales, Pifaqor, Demokrit, Platon kimi şərq ölkələrinə səyahət etməmişdir. Birinci müəllimi olan atası ona bildiklərini və tibbin sirlərini öyrədir. 15 yaşında valideynlərini itirən Aristotel atasından qalmış mirasla aldığı nadir kitabları oxuyur. Qəyyumu Ptroksenin rəhbərliyi ilə təhsilini davam etdirir. Bitki və heyvanları, üzvi və qeyri-üzvi təbiətin mahiyyətini göstərən əsərləri öyrənir.

Aristotelin atası peşəkar həkim olmuş, Makedoniya carının sarayında ailə həkimi işləmiş, Aristotelin uşaqlığı Make-

doniyanın gələcək carı Filiplə bir yerdə keçmişdir. Sonradan Makedoniya çarı Filipp ona oğlu İsgəndər Makedonskinin tərbiyəsini tapşırmışdır. İsgəndər Aritotelin ona verdiyi tərbiyəni belə qiymətləndirirdi. «Atam məni göydən yerə endirib bədənimi tərbiyə etdi. Aristotel isə mənim ruhumu tərbiyə edib yerdən göyə qaldırdı».

O 367-ci ildə 17 yaşında öz təhsilini artırmaq üçün Platonun Akademiyasına girir. Aristotel Akademiyada oxuyur, öz müdrik müəllimi ilə mübahisələr edir. O, Akademiyada 20 il müddətində dinləyici, müəllim, filosof, plotoniklər birliyinin bərabər hüquqlu üzvü olmuşdur. Platonun ölümündən sonra, e.ə. 347-ci ildə Afinanı qoyub səyahət etmiş, sonra Makedonuiyalı İsgəndərin müəllimi olmuşdur. Aristotel, Platonun fəlsəfəsi ilə yanaşı, başqa filosofların da əsərləri ilə tanış olur. Platon onu yüksək qiymətləndirir və «ağıl» adlandırır. Platon öz tələbəsinə bildikləri ilə yanaşı, öz ruhunu da verir. Müəllimlə tələbə arasında bütün atributları ilə dostluq yaranır.

Aristotel öz sevimli tələbəsi, Kiçik asiyanın Atarney şəhərinin tiranı Qermiyanın dəvəti ilə Orta Asiyaya səyahət edir. Afinada tərbiyə almış dəliqanlı və fəlsəfəyə bağlı Qermiya Kiçik Asdiyanın yunan şəhərlərini fars əsarətindən azad etmək arzusunu Aristotelə bildirir. Onun bu arzusu ilə Aristotel razılaşır və bu arzunu sonralar o Makedoniyalı Isgəndər vasitəsilə həyata keçirir. Aristotel farsların duşməni idi, fars əsarətini Yunanıstan üçün təhqir, təhlükə və bədbəxtlik sayırdı. Aristotel və İsgəndəri farslara, barbarlara qarşı ümumi nifrət birləşdirirdi.

Aristotel tez öyrənməyə və gec öyrətməyi ilə tarixə düşmüşdür. Aristotel bütün həyatı boyu böyük bilik almağa, fikirlərini sərbəst işlətməyə yönləndirib. Əsərlərinin çox hissəsini Afinada axırıncı 13 ildə yazmışdır. Qədim kataloq

göstərir ki, Aristotelin bir neçə yüz əsəri olmuş, ondan yalnız bir qismi bizə gəlib çatmışdır. Aristotel universal mütəfəkkir olaraq, öz dövrünün bütün bilik sahələrini mənimsəməklə yanaşı, fizika, biologiya, psixologiya, həmçinin məntiq və etika kimi yeni elmlərin əsasını qoymuşdur.

Aristotel yazırdı: *«Biz dövlətin hansı elementlərdən təşkil olunduğunu araşdıranda ən əvvəl ailənin təşkili haqqında danışmalıyıq. Çünki hər bir dövlət ayrı-ayrı ailələrdən yaranıb, ordakı ağa və qul, ər və arvad, ata və uşaqlar münasibətləri arasında dövlətə də xasdır. Canlı məxluqda ən əvvəl ağa hakimiyyətini ayırmaq zəruridir. Ruh bədən üzərində, ağıl dövlət kişisi kimi bizim səylərimiz üzərində hakimlik edir. Burdan aydındır ki, bədən üçün qəlbə tabe olmaq təbii və əhəmiyyətlidir»*[1]. Aristotelin fikrincə, forma və məzmun bir-birindən ayrılmazdır, bir təzahürün iki tərəfidir. Aristotel 158 yunan şəhər-polislərinin tarixi və onların quruluşu haqqında materialları təhlil edərək *«Politika»* əsərini yazmışdır. Lakin onlardan *«Afina politikası»* əsərindən başqa, demək olar ki, hamısı itmişdir. Tədqiq edilən Afina politikasında materiallar *«Politika»* adlanan əsərdə ümumiləşdirilib. *«Politika»* əsərinə qədim yunanların *hüquqi, sosial, siyasi, iqtisadi baxışlarının universal toplusu kimi baxmaq olar*[2].

Aristotel «Politika» əsərində cəmiyyət və dövlət anlayışlarını mahiyyətcə bir-birindən fərqləndirmir. O, insanı *«siyasi heyvan»* hesab edirdi. Aristotelini əsərində dövlət insanları təbii və zəruri birliyi kimi çıxış edir. Aristotelə görə, dövlət təbiətin məhsuludur. Təbii inkişaf sayəsində meydana

---

1 Аристотель. Политика. Сочинение в 4-х т-х. Т.4. М.: Мысль, 1983, с. 28

2 История Европы в 8-и т-х. Т.1. Древняя Европа. М.: Наука,1988, с.338

gəlib,onun əsasında insanların tələbatı durur. Aristotelin fikrincə… hər bir dövlət özlüyündə *«ünsiyyət»* növüdür. Lakin hər bir ünsiyyət yox, bu ünsiyyət bütün ünsiyyətlərin ən vacibidir və bütün başqa ünsiyyətləri əhate edir. Belə ünsiyyət dövlət və ya siyasi ünsiyyət adlanır.

Aristotel cəmiyyəti, «dövlət» sisteminin təhlilini, hər bir canlı varlığı, o cümlədən insanın özünü araşdırmaqdan başlayır. O, deyir: Canlı varlıq hər şeydən əvvəl ruh və bədəndən ibarətdir. Onların biri öz təbiətinə görə hakimiyyətdə olan başlanğıc, o birisi tabe olan başlanğıcdır[1].

Aristotel dövlət idarəçilik formasını *kəmiyyət, keyfiyyət və əmlak* əlamətlərinə görə bölür. *Kəmiyyət elementlərinə* - kütlənin say üstünlüyü; *keyfiyyət elementlərinə azadlıq, tərbiyə və nəciblik,* əmlak əlamətlərinə - *varlılıq və yoxsulluq* daxil edilir. Aristotel bu əlamətlərə görə *bir şəxs, azlıq və çoxluq, düzgün və qeyri-düzgün idarəçilik formalarına* ayırır[2]. O, hər bir dövlətin əhalisini üç hissəyə bölürdü. *Birinci*, tam müstəqil – varlı; *ikinci*, çox kasıb; *üçüncü*, bunlar arasında – orta mülkiyyəti olanlar. Birincilərdə həddən artıq güc, varidat, dostluq əlaqələri və başqa üstünlüklər vardır. Onlar heç kəsə tabe olmaq istəmirlər. İkincilər heç bir təminatı olmayan, həddən artıq kasıb, alçaldılmışlardır.

Beləliklə, *bir hissənin bacarığı və qabiliyyəti olmayan çoxluq, o biriləri heç bir hakimiyyətə tabe olmağı bacarmayan və hakimiyyəti ağaların qullar üzərində hökmranlığı kimi başa düşən azlıq təşkil edir. Odur ki, əgər dövlət heç bir mülkiyyəti olmayan birincilərdən və ya həddən artıq mülkiyyəti olan*

---

1 Rüstəmov Y. Sosial-siyasi və hüquqi təlimlər tarixi. B., 2007, s. 60,62

2 Аристотель. Политика. Сочинение в 4-х т-х, Т.4. М.: Мысль, 1983, с. 165

*ikincilərdən yaranarsa, birində qısqanclıq, o birilərdə isə nifrət hissi baş qaldırar.* Bu qruplardan hansı hakimiyyətdə olarsa, bərabərlik olmayacaqdır. Əgər azlar hakimiyyətdə olsa, onlar tez bir zamanda daha da böyük mülkiyyət əldə edəcək; əgər çoxluq hakimiyyətə gəlsə, ədalət prinsipi pozulacaq, azlıq təşkil edən varlıların mülkiyyətini zorla müsadirə edəcək. Aristotelə görə optimal dövlət quruluşu – hakimiyyətdə nə varlı, nə də kasıb olmayan orta mülkiyyətli təbəqədən, demokratiya elementi artıq olan oliqarxiya ilə demokratiyanın qarışığından təşkil olunmuş quruluşdur.

Aristotel dövlət quruluşunun altı formada olduğunu göstərərək, onların *üçünü «ümumi xeyir»* əldə etməyə yönəldilən normal, düzgün, *üçünü isə «bir nəfərin, müəyyən qrupun və çoxluğun xeyrinə»* olanları qeyri-düzgün hesab etmişdir. Bir formanı başqasından dövlət başında duranlara görə fərqləndirirdi. Dövlət başında cəmiyyətin xeyrinə çalışanları «yaxşılar», ikinciləri isə, öz xeyrini güdənləri «pislər» hesab edirdi. Onun fikrincə, demokratik dövlətdə ali hakimiyyət – xalqın əlində; oliqarxiyada isə əksinə olaraq hakimiyyət oliqarxların əllərində olur və bununla əlaqəli dövlət quruluşu müxtəlif cür adlandırılır[1].

Aristotel ümumi ictimai xeyrə yönəldilmiş bir nəfərin, bir qrupun və ya çoxluğun idarə etdiyi dövlət formasını *monarxiya, aristokratiya və politika* adlandıraraq normal hesab etmişdir. Bir nəfərin, bir qrupun və ya çoxluğun xeyrinədirsə *çar hakimiyyəti istibdada, aristokratiyadan oliqarxiyaya, politiyadan demokratiyaya keçir və bunları qeyri-normal hesab etmişdir. İstibdad hökmdarın, oliqarxiya imkanlı adamların, demokratiya kasıbların xeyrinə fəaliyyət göstərir.* İs-

1 Аристотель. Политика. Сочинение в 4-х т, Т-4 М, Мысль, 1983, с.445

tibdad üsul idarəsinin vasitələri belədir. Hər cür üstünlüyü əzmək, təmiz adamlardan yaxa qurtarmaq, yığıncaqları və təşkilatları qadağan etmək, təhsil və maarifə hər cür maneəçilik törətmək. İstibdad hökuməti pis adamları sevir çünki o, mədhiyyə, tərif hərisidir, azad insanı isə alçalda bilməz. Namuslu insan sevməyi bacarır, amma mədh etmyi sevmir. Müstəbidin əsas xüsusiyyəti məğrur və azad insanları özündən uzaqlaşdırmaqdır: Aristotel ən yaxşı dövlət forması kimi *«politiyanı»* - demokratik respublika quruluşunu qəbul edirdi. O, politiyanın əsas mənbəyini insanların xoşbəxtliyini təmin etməyə yönəldilmiş *qanunlarda* görürdü. Onun fikrincə *dövlət quruluşu (politiya) ümumiyyətlə dövlət vəzifələrinin təşkili sahəsində qaydalardır, birinci növbədə ali hakimiyyətdir; ali hakimiyyət isə hər yerdə dövlət idarəetməsi ilə əlaqədardır.*

Aristotel tarixə, ən əvvəl, ensiklopedik alim kimi daxil olmuşdur. Bəzi məlumatlara görə onun yazdığı əsərlər təxminən minə yaxındır. Filosofun əsərləri ciddiliyi və düşünülmüş kompizisiyası ilə fərqlənir. Aristotel *«universal mütəfəkkir kimi»* öz dövrünun biliklərini öyrənməklə yanaşı yeni elmlərin əsasını qoymuşdur. Aristotelin fikrincə insan idrakı öz mahiyyətinə görə ətraf mühitlə ahənglik təşkil edir[1].

Aristotelin orta əsr və yeni dövrün fəlsəfəsinə böyük təsiri olmuşdur. O, öz təlimində Demokritin təliminin güclü tərəfini Platonun nailiyyətləri ilə əlaqələndirməyə səy göstərmiş və sonradan onların materialist və obyektiv-idealist izahını vermişdir[2].

XII əsrdə əsasən ərəbcədən latıncaya çevrilən Aristotelin, onun şərq davamçılarının – əl-Fərabi, İbn Sina, İbn Rüşd

1 100 Великих мыслителей. М.: Вече, 2002, с. 78

2 Словарь античности. М.: Прогресс, 1989, с.49

və başqalarının əsərləri Avropa mütəfəkkirlərinə böyük təsir göstərmiş və bunlardan Tomas Akviant Aristotelin, İbn Sinanın və b. görüşlərini xristian dininin prinsipləri ilə uzlaşdırmağa çalışmışdır[1].

Akviantın fikrincə insanların təbiətində yarandığı vaxtdan birləşmək və dövlət halında yaşamaq istəyi var, çünki hər bir fərd təkklikdə öz təlabatını ödəyə bilmir. Elə bu təbii səbəbdən də insanların siyasi bərabərliyi olan dövlət meydana gəlir. Akviant demokratiyanı tiraniya ilə eyniləşdirirdi. Çoxluq azlıq təşkil edənlərə, lakin daha zəngin olanlara öz iradəsini zorla qəbul etdirir. Dövlətin təbii forması kimi o, monarxiyanı qəbul edirdi. Onun fikrincə bütün kainatda Allah tək olduğu kimi, bədəndə yalnız bir ruh olduğu kimi, dövlətdə də bir idarə edən – monarx olmalalıdır[2].

Aristotelin dövlət və insanla bağlı çoxlu müdrik kəlamları vardır: *«Uzun müddətli hərərəkətsizlik qədər insanı heç nə üzmür və yıxmır». «Xoşbəxtlik – imkan, hakimiyyət, var-dövlət, güc və gözəllikdir». «Ümumi mənada vətəndaş hakimlik etməklə və tabeçiliklə əlaqəli olur». «İnsanın təyinatı ağıllı fəaliyyətidir». «Əməl-nəzəriyyə və təcrübənin canlı vəhdətidir». «Ağıllı xoş şey üçün yox, xoş olmayandan qurtarmaq üçün hərəkət edir». «Qəlb əl kimidir. Əl alətlərin aləti olduğu kimi, ağıl formaların forması, hiss olunanın, həyata keçənin forması kimidir». «Ləyaqət haqqında düşünmək hələ ləyaqətldi olmaq deyil, fikirdə ədalətli olmaq əməldə ədalətli olmaq deyil». «Elm yaxşı zamanlarda sərvət, pis zamanlarda isə sığınacaq və gözəl yol göstərəndir». «Musiqi əxlaqı nəcibləşdirir». «Tiranların əksəriyyəti xalqın etimadını qazanan, tanınmışları şərləyən demoqoqlardan çıxır». «Həyat hərəkət deməkdir, su*

1 Rüstəmov Y. Sosial-siyasi və hüquqi təlimlər tarixi. B., 2007, s.79
2 Yenə orada, c 87-88

*da axmayanda iylənir». «İnsan fövqaladə varlıqdır». «Cəmiyyətdən kənar insan ya tanrıdır, ya da heyvan». «İslahatlar nəticəsində dövlət quruluşu Solon zamanına nisbətən daha demokratik oldu». «Ən yaxşı mükafat insanın könül rahatlığıdır». «Savadlı ilə savadsız arasındakı fərq diri ilə ölü arasındakı fərq qədərdir». «Nadanlığın yalnız bir dərmanı var – o da elmdir». «Həqiqət arxasında keçirilən vaxta mən itirilmiş vaxt kimi baxıram». «Düşmən qazanmaq istəyirsənsə özünü dostlardan yüksək tut, dost qazanmaq istəyirsənsə onları özündən yüksək tut». «Düşməninə çox əhəmiyyət vermə! Üzülərsən!». «Ünsiyyətdən zövq almaq dostluğun başlıca əlamətidir». «Çox danışmaq adamı peşman edər». «Eşqin gözü kordur». «Təmiz adama ən çox düzlük yaraşır». «Ağıl üçün ən təhlükəli xəstəlik qürurdur». «Təkəbbür savadsızlıqdan və tamahkarlıqdan irəli gəlir». «Şöhrətpərəst adamlar daha paxıl olur». «Öhdəsinə düşən işi məmnuniyyətlə görən ləyaqətli, gözəl bir işi candərdi və qan qaraçılığı ilə görən ləyaqətsizdir».*

## 4.9. Siseron – «Dövlət haqqında» klassik əsərin müəllifi, bütün zamanların böyük natiqi

*• Hakimiyyət formalarının üç əsas tipi var: Çar hakimiyyəti, seçilmiş yaxşıların hakimiyyəti, xalq hakimiyyəti. Hər bir hakimiyyət növü özü-özlüyündə möhkəm və mükəmməl deyil. Hansı cür olmasından asılı olmayaraq hakimiyyətin möhkəmlənməsinin əsas şərti dəyişilməz təbiət qanunları əsasında orta vəziyyətdə olmasındadır.*

*• Hökumət danışan qanun, qanun isə lal hökumətdir.*

*• Biz azad olmaq üçün qanunun qulu olmalıyıq.*

*• Müdrik adamdların əməli ağılından, az zəkalı insanların – təcrübəsindən, ən avam adamların – zərurətdən, heyvanların – təbiətdən diktə edilir.*

***Mark Tulli Siseron***

Siseron (e.ə. 106-43) qədim Romanın siyasi xadimi, filosofu, hüquqşünas və məşhur natiqi olmaqla, senat respublikasının saxlanması və möhkəmləndirilməsinin tərəfdarı olmuşdur. Romalılar Siseronu fəlsəfə üzrə özlərinin əsas müəllimi hesab edirdilər.

İlk öncə hüquq sahəsində təhsil alan gənc Siseron, daha sonralar ədəbiyyat və fəlsəfə ilə məşğul olmağa başlamışdır. Siseron yaxşı təhsil almış, yunan dilini mükəmməl bilmiş, yunan şairlərinin yaradıcılığını, yunan ədəbiyyatını öyrənmiş, yunan fəlsəfəsi ilə tanış olmuş, məhkəmə natiqliyini öyrənmişdir. Siseron e.ə. 75-ci ildə püşkatma yolu ilə Sicilya-

da kvestor, e.ə. 66-cı ildə isə konsul vəzifəsinə seçilir[1]. Uzun illər senatın spikeri olmuş, siyasi həyatın burulğanlarında dəfələrlə təzyiqlərə məruz qalmışdır.

Romada hökm sürən təqiblərə görə bir illiyə ölkəni tərk edir. Ölkəyə qayıtdıqdan sonra isə e.ə. 50-ci illərdə siyasi baxışlarına görə Marselə sürgün edilir, bir müddət orda yaşayır.

Əsərlərinin əksəriyyəti dövrümüzə qədər gəlib çatan nadir müəlliflərdən biridir. Antik müəlliflərin kitabları arasında az kitab olar ki, Siseronun bəzi əsərləri kimi bütün orta əsrlərdə monarxlar tərəfindən qorunub saxlanılsın və bizə gəlib çatsın.

Romada varlı, zadəgan ailəsinə mənsub olan Siseron bütün zamanların ən böyük natiqlərindən biri hesab edilir. Latın dilinin əsas fəlsəfə dili olmasında böyük xidməti olmuşdur. Siseronun soyadı qədim latın dilindəki «*Siser*», yəni noxud sözündən gəlir[2]. Plutarx qeyd edir ki, bunun da səbəbi Siseronun ulu babalarından birinin burnundakı noxudabənzər xalın olması ilə bağlıdır.

Siseronun siyasi və şəxsi müsibətləri (Sezarın qələbəsi, qızının vaxtından əvvəl ölümü) onun fəlsəfə ilə intensiv məşğul olmasına, Roma həmvətənlərinin qavrayıb dərk etmələri üçün yunan filosofların əsərlərini latın dilində tərcüməsini həyata keçirir.

O, respublika haqqında *«De respublik»* (çox halda «Dövlət haqqında» kimi tərcümə olunur) və *«Qanunlar haqqında»* əsərlərini, Platonda olduğu kimi, dialoq formasında vermişdir[3]. Bu əsərlərdə və traktatlarında dövlət quruluşu, hüquq,

---

1 Словарь античности. М.: Прогресс, 1989, с.634

2 Таранов П. Философия сорока пяти поколений. М.: АСТ, 1999, с.185

3 Марк Тулий Цицерон. «О государстве». Баку, Азербайджанский Государственный Университет, 1928, с.6-7

din haqqında, həmçinin qədim Roma qaydaları və hadisələri haqqında çoxlu məlumatlar vardır[1]. Əsərləri əsasən nitqlərdən, məktub və traktatlardan ibarətdir. Siseronun əsərlərində Romanın e.ə. 81-ci ildən e.ə. 43-cü ilə kimi təxminən 40 illik bir dövrünün siyasi mənzərəsi əks olunmuşdur. Onun Mitridata, Katiliniyə və Mark Antoniyaya qarşı nitqlərində həmin adamların fəaliyyəti ilə bağlı məlumatlar da vardır. Katiliniyə qarşı dörd nitqi xüsusilə məşhurdur[2].

Siseronun müasir astronomiyaya da böyük təsiri olmuşdur. Səyyah və tədqiqatçı Nikolay Kopernik səyahəti zamanı Siseronun Yer kürəsi ilə bağlı fikirlərindən də istifadə etdiyini etiraf etmişdi. Siseronun fikrincə, hakimiyyətin funksiyaları özündə məhkəmə qanunvericiliyi hüququ, müharibə və sülh hüququ, beynalxalq müqavilələrin bağlanması, hər bir nəfərin həyat hüququ, həmçinin xəzinəyə sərəncam hüququnu birləşdirir.

Siseron hakimiyyət formalarının üç əsas tipini göstərir: *Çar hakimiyyəti, seçilmiş yaxşıların hakimiyyəti və nəhayət xalqın hakimiyyəti. Hər bir hakimiyyət növü ayrılıqda götürüldükdə möhkəm və mükəmməl deyil.* Hər bir hakimiyyət, hansı cür olmasından asılı olmayaraq, öz-özlüyündə təhrif olunur. Hansı cür olmasından asılı olmayaraq, hakimiyyətin möhkəmliyinin əsas şərti *orta vəziyyətdə* olmasındadır. Əks halda həddən artıq hakimiyyət onun məhvinə aparar. Siseronun həddən artıq hakimiyyət haqqında təlimi mühüm tarixi zaman kəsiyində hakimiyyətin inkişafına uyğun gəlir. Məsələ bundadır ki, Romada dövlət hakimiyyəti Siseronun dövrün-

1 История древнего Рима. Учебник. Под. ред. В. И. Кузишина. Изд. второе и переработанное допол. М.: Выс. Школа, 1981, с10

2 Таранов П. Философия сорока пяти поколений. М.: АСТ, 1999, с.189

də ən yüksək gücə və tamlığa malik idi. O, dünya dövlətlərinin möhtəşəm formasını özündə birləşdirən Roma monarxiyasının idarəçilik xüsusiyyətlərini göstərirdi[1].

O, qarışıq dövlət quruluşunu qəbul edirdi. Onun fikrincə monarxiya, aristokratiya və demokratiya asan şəkildə ziddiyyətli tərəfə transformasiya olunur. Dövlətin möhkəmliyi həmçinin *dəyişilməz qanunlardan asılıdır.* O, dövlət başçısına xüsusi tələblər qoyurdu. O, hesab edirdi ki, *«əgər sənətkar öz sexində qeyri-canlı alətlə işləyirsə, onların adlarını, yerini, yararlığını yaxşı bilirsə, onda dövlət adamı da insan vasitəsi ilə ictimai işləri bilməli və həyata keçirməlidir».* Siseronun geniş yaradıcılıq irsi, Roma natiqləri ilə yanaşı, dini mütəfəkkir Avreliya Avgustina, «İntibah və humanizm» nümayəndələri (Erazm Rotterdamlıya, Bokaççoya), fransız maarifçiləri (Didro, Volter, Russo və Monteskye) və başqaları üçün tükənməz ruhlandırma mənbəyi olmuşdur. Siseronun ideyasının təsiri sonrakı əsrlərdə də davam etmiş, «Maarifçilik» və Böyük Fransa inqilabının ideya mənbəyi olmuşdur[2].

Platonun ideyalarının Siseronun dünyabaxışına təsiri onun bütün yaradıcılığı boyu davam etmişdir. Xüsusilə onun erkən yazılmış «Respublika haqqında» və «Qanun» haqqında dialoqlarını göstərmək olar. Respublika haqqında dialoqla Platonun ideyası faktiki olaraq yenidən canlanır. Bunlara baxmayaraq, o, heç zaman özünü platonik hesab etməmişdir.

Siseron göstərirdi ki, insanların bir yerdə yaşamaları üçün anadangəlmə təlabatları dövlətin yaranmasının əsas səbəbi olmuşdur. *O, dövlətin mahiyyətini hüquq və menafe ümumiliyi əsasında yaranan insan birliyi* kimi müəyyənləş-

---

1 Лазарев Г. М. Развитие государственной власти Древнего Мира. М.: Гос. изд-во. 1909, с. 87-88

2 Цицерон. Философские трактаты. М.: Наука, 1985, с.6

dirir. Siseronun fikrincə, dövlət xalqın işığıdır, xalqa isə çoxlu insan yığını kimi baxmağı o duzgün hesab etmirdi. Xalq, insanların ünsiyyətlərinin xeyrinə, hüququn ümumiliyinə əsaslanır. İnsanların birləşməsinin səbəbi isə onların köməksizliyi və zəifliyi yox, ünsiyyətdə və birgə əmək fəaliyyətində olmaq təbiətindən irəli gəlir.

O, hesab edirdi ki, *«hər bir dövlət kiminsə himayəsi ilə idarə olunur: ya bir şəxsin, yəni çarın idarəetməsi-bu halda monarxiya; və ya seçilmişlərin – o halda aristokratiyadır; xalq idarəçiliyi isə o dövlət sayılır ki, hər şey xalqın özünə verilir. Beləliklə, dövlət quruluşu haqda bu mühakimədən belə nəticə əldə edilir ki, xalq idarəçiliyi o quruluşdur ki, ümumi işlərə rəhbərlikdə cəmiyyətin bütün elementləri öz aralarında hüquqla birləşərək birgə iştirak edirlər».* Odur ki, bütün mümkün formalar istər bir nəfərin, istər çoxluğun idarəçiliyi birtərəfli olub dövlət quruluşunu təmsil etmir. Başqa nümunədə Siseron insan cəmiyyətində rast gələn birtərəfli hakimiyyətdə bir nəfərin hökmranlığını yaxşı forma kimi qəbul edir.

Stoiklərin ideyasını davam etdirərək Siseron öz etik təlimini təbiətin tələblərinə uyğun qurur və hətta ləyaqəti təkmil təbiət kimi müəyyən edir. Təbiətə xas olan *dəyişilməz daimi qanun – ali ruh insan təbiətində təzahür edir.* İnsan ruh və bədəndən ibarət olduğundan, təbiəti tələb edir ki, onun qanununu dərk etməklə o, öz fəaliyyətini ona uyğun qursun. Siseron deyirdi *«Əsil qanun» təbiətə uyğyn olan, bütün insanlara tətbiq edilən daimi və əbədi olan düzgün əsasnamədir.* Siseron kosmosun ilahi qaydaları, həm də insanın rasional və sosial təbiəti ilə müəyyən edilən ümumi təbii hüququn mövcud olmasına inanırdı[1].

Siseronun fikrincə, dövləti azlıq zəbt edirsə, bu, *qiyamdır,*

---

1 Rüstəmov Y. Sosial-siyasi və hüquqi təlimlər tarixi. B., 2007, s.65-66

*onu optimat* adlandırır. Harda ki, hər şeyi xalq idarə edir, bu, *anarxiya-azadlıq* adlandırılır. Nə vaxt ki, hamı bir-birindən, insan insandan, silk silkdən qorxur, heç kəs özünə inanmır, bu, dövlət quruluşunun *qarışıq növüdür.*

Stoiklərin fikrincə, bütün varlıq vahid təbiət kimi ümumi bir qanuna tabe olmaqla bir tamdır. Qanunun bu şəkildə ümumiliyi bəşəriyyət daxil olmaqla bütün varlığa öz təsirini göstərən təbiətdir. Stoiklərin təliminə görə etika təbiətin qanunlarına uyğun qurulmalıdır. Etik normalar təbiət qanunları ilə eynilik təşkil etməlidir. Stoiklərin fikrincə təbiətdən ayrılmaz olan insan şəxsiyyəti təbiətin bir parçası olmaqla təbiət qanunlarına tabe olmalıdır.

«Xoşbəxt həyatın 365 günü (Quran, sünnə, ruhun kamilliyi)» kitabında deyilir: *Təbiət qanunları mövcuddur. Bu qədim qanunlar sakit həyat sahillərinə düzgün yol göstərir. Bizim vəzifəmiz onları açmaq, öyrənmək və tam yerinə yetirməkdir. Bu qanunları bilən və yerinə yetirən xoşbəxt insanlar sakit və fərəhlə yaşayırlar. Digər tərəfdən, bizlərdən əksəriyyəti bu qızıl qanunları bilmir. Bizi yaradan bizə necə yaşamağı həm təbiət qanunlarında və ya həyat qanunlarında dəqiq göstərir. Bizim vəzifəmiz onları öyrənmək və onlara uyğun yaşamaqdır. Amma əgər biz bu qanunlar çərçivəsindən kənar həyatı seçiriksə, bunda heç bir yaxşı nəticə yoxdur və bu bizim fiziki, emosional, ağıl və ruhu sağlamlığımızda özünü biruzə verir. Beləliklə, bizdə seçim var, ya bu qanunları öyrənib, onlara uyğun və ya əksinə, öz bildiyimiz kimi, təbiət qanunlarına zidd olaraq yaşamalıyıq. Əgər insan ilin üç yüz altmış beş gününün hər birini təbiət qanunları ilə yaşayırsa, xoşbəxtdir. Xoşbəxt həyat bədən, ağıl, ruh, və ürək harmoniyada olanda təmin olunur*[1]*.*

---

1 Первые 365 дней счастливой жизни: Коран, сунна, мудрость души. 2-е изд. испр. СПБ «Диля», 2010, 5-7

Siseron Aristoteli çox yüksək qiymətləndirib, onu «Platondan sonra filosoflar arasında» birinci hesab edirdi[1]. Ümumiyyətlə, Siseronun fəlsəfi baxışları yunan filosoflarının təsiri ilə formalaşmışdır. Siseron Epikürün əsərlərin orijinalından oxumaqla yanaşı, onları *yunan dilindən latın dilinə* tərcümə etmişdir.

O, insanın təhsil alması üçün yunan mədəniyyətinin əhəmiyyətinə dərindən inanırdı. Siseron təhsil hesabına insan olmağı nəzərdə tutan «*təhsil*» mənasında ilk dəfə «*Humanitar*» sözünü işlətmişdir. Antik dövrün Romalılara qoyduğu tarixi irsdə Siseronun təlimi xüsusilə mühüm yer tutur. Siseronun ölümündən 120 il sonra Kvintilan Siseronu nümunə və ideal kitmi göstərərək «*Siseronizmin*» əsasını qoymuşdur.

Siseronun əsərlərini öyrənmək humanizmin məqsədi hesab olunurdu. XVIII əsrdə yunan orijinal əsərlərinin yenidən ön plana keçdiyi *neohumanizm* dövründə Siseronizm antik mədəniyyətə təsir sahəsində öz üstünlüyünü itirir[2].

Avqusto və Antoniyanın birgə razılaşması və qərarı ilə Siseron ölümə məhkum olunur. Siseron ahıl yaşında Avqusta tərfindən aldadılaraq namizədliyini müdafiə etdirmiş, onu özünə itaətli etmişdir. Buna görə dostları onu tənqid etmişdir. Siseron hiss edirdi ki, o özünü məhv etmiş və xalqın azadlığını qurban vermişdir. Siseron ölüm təhlükəsini hiss edib vətəndən qayıqla qaçarkən Avqusto onu tutdurur. Oktavian Avqust Siseronu 64 yaşında qəddarlıqla öldürür (başını və qollarını kəsərək senata nümayiş etdirir). Bir dəfə Avqusto Siseronun kitabını vərəqləyir, onun bir hissəsini oxuyur və

---

1 Цицерон. Философские трактаты. М.: Наука, 1985, с.14
2 Словарь античности. М. Прогресс, 1989, с. 635

deyir: «Kişi alim idi, öz vətənini sevən alim»[1].

Siseronun geniş istifadə olunan hikmətli sözlərindən: *«Dövlətlər bədbəxtliklə dərk edilir». «Xalqın rifahı – ali qanunlardır, nə əkərsən, onu da biçərsən». «Həyat qısadır, şərəf isə daim ola bilər». «Həyatı müdrikliklər yox, tale idarə edir». «Təbiətə uyğun nə edilirsə, xoşbəxtlik hesab olunmalıdır». «Dünya quruluşunun bütün elementləi bir-biri ilə harmoniyadadır». «Bütün təbiət özünüsaxlamağa səy göstərir». «Yüksək rifah tam fiziki və ruhi sağlamlıq əsasında nail olunur». «İnsanın əsas meyli təbiətə uyğun istiqamətlənib». «Dövlət üçün xeyirlidir ki, zadəganlar öz ulu babalarına oxşasınlar». «Vicdanlı həkim xəstəyə müalicə təyin etməzdən qabaq, onun xəstəliyi ilə yanaşı onun vərdiş, sağlamlığın və bədəninin xüsusiyyətlərini bilməlidir». «Kitab olmayan ev ruhu olmayan bədənə oxşar». «Ruh keçmiş haqda yada salır, indini görür, gələcəyi qabaqcadan hiss edir». «O adam azad yaşayır ki, o öz vəzifə borclarını yerinə yetirməkdən fərəhlənir». «Qanunu bilmək onda deyil ki, onun sözlərini biləsən, ondadır ki, onun mənasını anlayasan». «Təbiəti öyrənmək və onu müşayət etmək elmi yaradır». «Həqiqi natiq odur ki, o predmeti sadə, böyük şəxslər – yüksək, adi şəxslər – mülayim ifadə edir». «Tarix – keçmişin şahidi, həqiqətin çırağı, canlı yaddaşın həyat müəllimi, uzaq keçmişin xəbərçisidir». «Hər bir insan – özünün daxili aləminin əksidir. İnsan necə fikirləşirsə, o cürdə o həyatda olur». «Sifət ruhun aynasıldır». «Müdriklik elmin mənbəyidir». «Biz öz əcdadlarımızın ixtiralarını bilməliyik». «Xarakterlərin uyğunluğu kimi heç nə insanları yaxınlaşdırmır». «Natiqlik məharəti natiqin danışacağı predmet haqqında mükəmməl bilmədən mümkün deyil». «Müdrik adamdların əməli ağılından, az zəkalı insan-*

1 Плутарх. Сравнительное жизнеописание. В двух т-х Т.2 М. Правда, 1994, с.62

*ların – təcrübəsindən, ən avam adamların – zərurətdən, heyvanlarda – təbiətdən diktə edilir». «Vərdiş ikinci naturadır». «Dünya dağılmalı olsa belə, qoy ədalət zəfər çalsın». «Ədalətsizlik iki yolla: ya zorakılıqla, ya da yalanla edilir». «Namuslu insan hakim kürsüsünə əyləşərək qərar verərkən öz şəxsi rəğbət və ədavətlərini unutmalıdır». «Pul müharibələrin əzələləridir». «İnsan özünü özünə tabe etdirməyi, və öz qərarlarına itaət etməlidir». «Nadanlıq ağılın aysız-ulduzsuz gecəsidir». «Həqiqət zəmanənin övladıdır». «Həqiqətin köməyə ehtiyacı yoxdur, o özünü asanlıqla müdafiə edir». «Təvazökarlığın sərhəddini bir dəfə keçən insan bunu dönə-dönə edərək abırsızın birinə çevrilir». «Dəbdəbə və təmtəraq gec-tez tamahkarlığa gətirib çıxarır». «Tamahkarlıqda öz növbəsində, cinayətkarda cəsarətə çevrilir və cəsarət hər cür şər əməl törədir» göstərmək olar.*

# V FƏSİL.

~~~~~~~~~

# DÖVLƏT HAQQINDA ŞƏRQ MÜDRİKLƏRİ VƏ FİLOSOFLARIN FİKİRLƏRİ

• *Elm dünyanın həqiqi sahibi kimi vaxtaşırı olaraq paytaxtını Şərqdən Qərbə, Qərbdən Şərqə dəyişir.*

***Dj Afqan***

• *Fiziki günəş Şərqdən doğur, mənəvi özünüdərkin daxili günəşi Qərbdədir.*

***Hegel***

## 5.1. əl-Fərabi – «Şərqin Aristoteli»

• *əl-Fərabiyə Yunan müdrikliyini dərindən bilməsi, ensiklopedik biliyə malik olması, şərq elminin inkişafına böyük töhfəsinə görə «Şərqin Aristoteli», «İkinci müəllim» ləqəbi vermişlər.*

• *Dövlətin idarə olunması iki tipdir: əhalini xoşbəxtliyə aparan idarəetmə; xəyali və yalançı xoşbəxtliyə gətirən aldadıcı idarəetmə;*

• *Üç idarəçilik forması vardır: vahid olmayan rəhbərlik; böyük olmayan qrupun idarəçiliyi; xalq tərəfindən seçilən ləyaqətli şəxslərin idarəçiliyi.*

***əl-Fərabi***

Orta əsrlərin şərq filosoflarının tanınmış nümayəndələrindən biri, İslam dünyasını Yunan fəlsəfəsi ilə tanış etmiş, Şərqdə aristotelizmin əsasını qoyanlardan biri, elmdə «Aristoteldən sonra ikinci müəllim» fəxri adını qazanmış ensiklo-
~~~~~~~~~

pedik türk alimi əl-Fərabi (870-950) öz dövrünün alimlərindən mükəmməl dərs almış, onlardan Aristotelin irsini, Şərq və yunan fəlsəfə və elminin, məntiqin incəliklərini öyrənmişdir. O, ilk təhsilini ailədə, hərbi sərkərdə və siyasi xadim olan atasından almışdır. Fərabi yunan fəlsəfəsini, xüsusilə Platon və Aristotelin irsini hərtərəfli öyrənmiş, onları təfsir etmiş, onlarla mühüm məsələlərdə həmrəy olduğunu və onların bəzi fikirlərini yeni dövrə uyğunlaşdırmağa çalışmışdır.

Fərabi dünya səviyyəli həqiqi insan idi, o, ərəb, fars, yunan, hind və özünün yaradıcılığı, türk mədəniyyətinə yaxınlaşdırmış və sintez etmişdir. O, müxtəlif mədəni ənənələri yaxınlaşdıran adı alim-humanist deyildi, onda öz dövrünün biliklərini sistemləşdirməyə səy göstərən, «Elmin təsnifatı haqqında söz» traktatında əks olunan elmi islahatların dahisi yaşayırdı.

Deyilənə görə elmlə məşğul olana qədər o, hakim işləmişdir. Bir dəfə ona yaxın adamlarından biri saxlamaq üçün Aristotelin kitabları daxil olmaqla çoxlu nadir kitab verir. Bu kitablar onu cəlb edir və onları öyrənməyə başlayır, qısa bir zamanda yunan filosoflarının ideyalarını və qoyduqları məsələ və problemləri asanlıqla öyrənir. O, elmi dünyagörüşünü və təhsilini artırmaq üçün ərəb xilafətinin paytaxtı, «Əql mərkəzi» hesab olunan Bağdada köçür. Bağdada gələnə qədər Fərabi türk dili daxil olmaqla, yalnız bir neçə dil bilirmiş və qısa müddətdə ərəb dili daxil olmaqla 70-ə yaxın dil öyrənir[1]. Bağdadda əl-Fərabi məşhur alimlərlə təmasda olur, tez bir zamanda öz biliyini artırır və onlar arasında ən nüfuzluzlularından birinə çevrilir.

*Bir dəfə əl-Fərabi Dəməşqdə oranın hökmdarı Sayf əl-Daulun yanında alimlərin yığıncağının keçirildiyi yerə daxil olan-*

1 100 Великих мыслителей М. Вече, 2002, c137

*da hökmdardan soruşur ki, harda otursun, özünə layiq yerdə və ya onun dediyi yerdə. Hökmdar cavab verir ki, özünə layiq olan yerdə. əl-Fərabi bütün əmirlərdən yan keçərək taxtın yanında oturur. Hökmdar öz cangüdəninə deyir ki, bu türk bütün ədəb qaydalarını pozdu, o duranda onu etdiyi bu tərbiyəsizliyə görə cəzalandırsın. Orda verilən suala yalnız əl-Fərabi geniş təhlilli cavab verir. Yığıncaq qurtaranda hökmdara yaxınlaşaraq deyir: - niyə məni cəzalandırmaq istədiniz? Hökmdar heyrətlənərək deyir ki, bu dili məhdud sayda adam bilir. Sən bunu hardan bilirsən. əl-Fərabi cavab verir ki, mən bu dil də daxil olmaqla 70-dən artıq dil bilirəm. Hökmdar əl-Fərabiyə müraciət edib deyir ki, oturduğunuz yer sizə layiq yerdir və siz Aristoteldən sonra İkinci müəllimimsiniz*[1].

O, Səmərqənddə, Buxarada, İsfahanda, Həmədanda, Tehranda olmuş, Misirə səyahət etmiş və Dəməşqə köçmüş, ömrünün sonuna qədər orda yaşamışdır.

Əl-Fərabinin elmi irsi çox zəngindir, 100-dən çox əsər yazmışdır. Fərabinin yaradıcılıq təkamülü iki mərhələdən ibarətdir: *birinci*, Fərabinin dünyagörüşünün formalaşması və *ikincisi*, o yetkin və orijinal mütəfəkkir olması. Buna görə də onun əsərlərini iki böyük qrupa bölmək olar. 1) qədim yunan alimlərinin əsərlərinə təfsir formasında yazılanlar və orta əsr təbii elmlərə və ictimai-fəlsəfi fikirlərinə aid əsərlər; 2) aktual problemlərə həsr etdiyi forma və məzmunca orijinal əsərlər[2].

Əl-Fərabi orta əsr mütəfəkkirlərinin birincilərindəndir ki, ictimai həyatın xüsusiyyətləri və struktur problemini öyrənmiş və buna aid bir neçə əsər həsr etmişdir. Онун siya-

---

1 100 Великих мыслителей. М.: Вече, 2002, с.138

2 Хайруллаев М.М. Фараби крупнейший мыслитель средневековья. Душанбе: Фон, 1982, с.14-15

si təlimində Platonun və Aristotelin dövlət-hüquq konsepsiyasının güclü təsirinin izləri görünür. əl-Fərabi cəmiyyət haqqında nümunəvi təlimini yaradarkən o, daha çox yunan elmi fikrinin nailiyyətlərinə, xüsusən Aristotelin və Platonun siyasi və etik fikirlərinə əsaslanmış, qədim Şərqin sosial-siyasi ideyalarından geniş istifadə etmişdir[1]. əl-Fərabi onların əsas və mühüm ideyalarını götürüb və onları nəzəri cəhətdən işləməklə cəmiyyət və dövlət haqqında öz konsepsiyasını yaratmışdır[2]. Onun məşhur əsərlərindən biri *«Fəzilət şəhər əhalisinin baxışları»* adlı traktatdır. Bu traktatda Platonun ideal dövlət təlimini davam etdirərək *ərəb-islam dünyasında sosial utopiyanı - ideal cəmiyyəti əsaslandırır və dövlətin başında gələcəyi görə biləcək filosofun olmasını zəruri sayır.* Bu cəmiyyətdə insanlar ona lazım olan hər şeylə təmin olunduqlarına görə xoşbəxtdirlər. əl-Fərabi çoxlu məsələlər dairəsini əhatə etməklə bu sahədə mühüm töhfələr vermişdir: *1) ictimai həyat haqqında elmin predmet və vəzifələrini göstərmiş; 2) ictimai birliklərin yaranması, tərkibi və növləri, insan cəmiyyətinin forması və bu məsələlər üzrə nəzəriyyə əl-Fərabinin nöqteyi-nəzərində düzgün olmayanı tənqid etmiş; 3) şəhər – dövlət, dövlət birliyinin xüsusiyyətləri və həyatı, dövlətin funksiyası və onun idarəetmə formasını təhlil etmiş; 4) insanın cəmiyyətdə yeri və vəzifəsi, intellektual və əxlaqi tərbiyə məsələlərini araşdırmış; 5) dövlət birliyinin vəzifələri və son məqsədi, ümumi birliyə və ümumi xoşbəxtliyə çatmağın yollarını və üsullarını göstərmişdir[3].* Fərabi hesab edirdi ki,

---

1 Rüstəmov Y. Sosial-siyasi və hüquqi təlimlər tarixi. B., 2007, s.109

2 Таукелев А.И., Сапаргалиев Г.С. Государственные правовые взгляды аль – Фараби. Алма-Ата: Наука, 1975, с.16

3 Хайруллаев М. М. Фараби крупнейший мыслитель средневековья. Душанбе: Фон, 1982, с.49

insan təbiətin bir hissəsidir. İnsanın ağlının fəaliyyəti, dərk etmə insanın ali fəaliyyət formasıdır. İnsanın dərketmə qabiliyyəti, dərketmə prosesi bədəni və onun ehtiyacları, dərketmə orqanları və xarici aləmlə sıx şəkildə bağlıdır[1].

Fərabinin fəzilət şəhərində bütün əhali üçün həqiqi xoşbəxtliyə səy göstərilir, mehribanlıq, ədalət hökm sürür, ədalətsizlik və şər mühakimə olunur. Fərabi bu şəhərin əhalisini həqiqi xoşbəxtliyin nə olduğunu bilməyən, şadyanalıq, eyş-işrət və varlanmağa səy göstərən *cəhalətli (avam) şəhərin əhalisi* ilə qarşı qarşıya qoyur. Fəzilətli şəhərdə əhalinin yaşaması üçün hər şeyin: *məbədlər, çəki və ölçü qaydaları, ədalətli vergi müəyyən edilir, mükəmməl məhkəmə icraatı təşkil olunur, bayramlar keçirilir, ticarət genişləndirilir, pul dövriyyəsi tənzimlənir, silklər arasında differensasiya aparılır* və s. əl-Fərabi əsərində, Aristoteldə olduğu kimi, cəmiyyətlə dövləti eyniləşdirir. *Cəmiyyətin özünü insan orqanizmi kimi göstərir. O, fəzilətli şəhərə canlı məxluqu saxlamaq üçün orqanları bir-birinə kömək edən sağlam bədən kimi baxır* (Sonralar bu ideya T.Hobbsun və J.J.Russonun əsərlərində göstərilir). Beləliklə, əl-Fərabinin nəzəriyyəsində dövlət mexanizminə *orqanik* baxış geniş əks olunur. Dövlətin mahiyyəti haqqında araşdırmada Hobbs dövləti fantastik nəhənglə - levifionla, Fərabi isə insan orqanizmi ilə müqayisə edirlər. Bu cür baxışların mahiyyəti ondadır ki, guya dövlət öz qanunları ilə yaşayan özünəməxsus orqanizmdir. Hobbsa görə dövlət süni həyatı ilə yaşayan süni bədən və mexanizmdir. Təxminən bu şəkildə Fərabidə də əks olunur və insan vücudu şəhər birliyi kimi göstərilir[2]. J.J.Russoya görə isə siyasi orqanizmə oxşar

---

[1] Захидов В. Три титана. Ташкенд: «Фон», 1973, с.24

[2] Таукелев А.И., Сапаргалиев Г.С. Государственные правовые взгляды аль – Фараби. Алма-Ата: Наука, 1975, с.90

üzvlərdən ibarət olan orqanizmə oxşardır[1].

əl-Fərabiyə görə dövlətin idarə olunması iki tipdir: dövlətin əhalisini həqiqi xoşbəxtliyə aparan və xəyalı və yalançı xoşbəxtliyə gətirən aldadıcı idarəçilik. *əl-Fərabi üç idarəçilik forması göstərir: vahid olmayan rəhbərlik, böyük olmayan qrupun idarəçiliyi, xalq tərəfindən seçilən daha ləyaqətli şəxslərin idarəçiliyi.* Fərabiyə görə insanların sosial psixologiyası vasitəsilə cəmiyyətin təşkilinə coğrafi mühit təsir edir[2]. Bu baxış Platonun «Qanunlar», Monteskyenin «Qanunların ruhu haqqında» əsərlərində də göstərilir.

Aristoteldən sonra bütün dövrlərin və xalqların ən böyük filosofu sayılan əl-Fərabi şərqdə İbn Tüfeyli, İbn Sina, İbn Rüşd kimi dahilərin formalaşmasına, orta əsrlərdə Avropa fəlsəfə elminin inkişafına böyük təsir göstərmişdir. Q. Leynin göstərdiyinə görə İbn Sina «Vətəndaş (mülki) siyasəti» əsərini əl-Fərabinin ideal dövlət əsəri əsasında yazmış və öz praktiki-siyasi fəaliyyətində müəyyən nəticələrə gəlmişdir[3].

Yeni islam dininin yaranması və IX-XII əsrlər onun əksər şərq ölkələrinə yayılması dövründə dünyəvi elmlər – riyaziyyat, astronomiya, tibb, kimya bilikləri, coğrafiya, mexanika, musiqi sənəti, məntiq və s. surətlə inkişaf edir.

Yunan müdrikliyini dərindən bilməsi, ensiklopedik biliyə malik olması, Şərq elminin daha da inkişafı üçün böyük töhfə verdiyinə görə Fərabi, «Şərqin Aristoteli» ləqəbini almışdır[4].

Əl-Fərabi üçün o dövrdə nəşr edilmiş şəhərlərin psixoloji

---

[1] Жан-Жак Руссо. Трактаты. М.: Наука, 1969, с113

[2] Хайруллаев М. М. Фараби крупнейший мыслитель средневековья. Душанбе Фон, 1982, с.50

[3] www. heritagenet. unesgo. kz/ kz/ content/ history/ partret/ farabi htm

[4] Хайруллаев М.М. Фараби крупнейший мыслитель средневековья. Душанбе: Фон, 1982

təsfinatı mühüm idi. «Bağdadın tarixi» adlı əsərdə O təsnifatda: 1) Bəsrə üçün məharətli ustalıq; 2) Kufə üçün gözəl natiqlik; 3) Bağdad üçün düzgün həyat; 4) Rey nəmərdliklə fərqlənir; 5) Herat üçün paxıllıq; 6) Nişsapur üçün əxlaqsızlıq; 7) Merva üçün xəsislik; 8) Səmərqənd üçün qürurluq; 9) Balxa üçün cəngavərlik; 10) Misirdə ticarətin inkişafı əlamətdardır[1]. əl-Fərabi öz traktatını bu şəhərlərin təsnifatına uyğun əsaslandıraraq yazmışdır.

Fərabinin əsərləri XII-XIII əsrlərdə Avropada latın dilinə tərcümə olunmuş və 1638-ci ildə isə Parisdə nəşr edilmişdir. Təsadüfi deyildir ki, o dövrdə 10 il Parisdə mahacir həyatı yaşayan ingilis mütəfəkkiri Tomas Hobbs bu əsərlərlə ehtimal ki tanış olmuşdur. Bunun nəticəsidir ki, Fərabinin orqanik nəzəriyyə və müqavilə nəzəriyyəsi, dövlət və insan haqqında fikirləri Hobsun əsərlərində özünü göstərir[2].

Əl-Fərabi öz əsərlərində Aristotel, Platonla yanaşı xaldeylərə, siriyalılara istinad edir. əl-Fərabinin fikrinə görə müdrikliyi əhatə edən fəlsəfi qanunlar qədimdə İkiçay arasında yaşayan şumerlərdən xaldeylərə, sonra Misirə, ordan yunanlara, sonra isə siriyalılara və ərəblərə keçir.

---

1 Хайруллаев М.М. Фараби крупнейший мыслитель средневековья. Душанбе: Фон, 1982, с.16

2 А.Чахид. Аби Насир аль-Фараби. О государстве. Душанбе, 1966, с.90

## 5.2. İbn Sina – «Müdrik» ləqəbli ensiklopedik filosof və «Dahi təbib»

*• İbn Sina fenomenal hafizə və kəskin fikri ilə fərqlənirdi. O, kitabı oxumurdu, vərəqləyirdi, diqqətini çətin məsələ olan vərəqədə ani olaraq saxlayırdı.*

*• Elm öyrənmək heç vaxt gec deyil.*

*• Müdriklik iki cür olur. Birincisi, bu mükəmməl bilikdir; ikincisi bu mükəmməl hərəkətdir. Mükəmməl biliyin anlayışa münasibətdə bilik bilavasitə şeyin mahiyyətini və həm də anlayışını dərk edir. Mükəmməl hərəkət isə varlıq üçün mahiyyətə uyğun olan qədər layiqli həyatı saxlamaq üçün zəruri hərəkətdir.*

***İbn Sina***

Orta əsr alimi, filosofu və həkimi, Şərqdə aristotelizmin nümayəndəsi İbn Sina (980-1037) uşaqlıqdan olduqca qabiliyyətli, nadir istedadlı olduğunu göstərirdi. On yaşında o, quranı əzbər bilirdi. Əsas təlimləri: ana dili və ərəb dilinin qrammatikasını, stilistikasını, poetikasını qavramışdır. Məmur atası ona ibtidai təhsil vermiş, sonra isə onu müsəlman qanunşünaslığını öyrənmək üçün məktəbə göndərmişdi. O, məktəbdə yaşca ən kiçik olmaqla, tez bir zamanda – yəni on iki yaşında olanda ondan yaşlı dinləyicilər onun ağlını, biliyini qiymətləndirərək ondan öyrənməyə və məsləhətə gəlirdilər. Bir az sonra on dörd yaşında özü dünyəvi elmləri: fəlsəfəni, tibbi, ədəbiyyatı, riyaziyyatı, tarixi, astronomiyanı, məntiqi ilk mənbələrdən sərbəst öyrənməyə başlayır. O, həm həndəsəni, həm astronomiyanı və həm də musiqini tez qavrayır. Yalnız Aristotelin «Metafizika» əsəri ilə tanışlığı onda problem yaradır. O, öz avtobioqrafiyasında yazırdı: *«Mən bu*

*əsəri dəfələrlə oxudum, onu başa düşmədim, mənə əl-Fərabinin «Metafizikaya təfsir» kitabı kömək etdi, yəni onu öyrənəndən sonra bu əsəri başa düşdüm. Odur ki, İbn Sina Fərabini Aristoteldən sonra «İkinci müəllim»* adlandırır.

İbn Sina on yaşından on altı yaşına qədər hüquq və fəlsəfə ilə maraqlanırsa da, sonralar təbabətə meyl göstərir, məşhur həkim kimi ad qazanır, iyirmi yaşında isə məşhur alim hesab olunurdu. İbn Sina Buxara əmirini müalicə etməyə dəvət edilir. Böyük İpək Yolunun üzərində yerləşən Buxara şəhərinin bazarında təşkil edilən kitab ticarəti zamanı ora satışa çıxarılan bütün kitabları İbn Sina alıb oxuyurdu.

*İbn Sinaya Buxara əmiri İbn Mansurdun müalicəsinin mükafatı olaraq, nadir kitablar saxlanılan saray kitabxanasından istifadə etmək icazəsi verilir. Bu kitabxana onun üçün ən qiymətli tapıntı olur. Bir ay müddətinə sərbəst mütaliələr, gözəl müşahidə və düşünmə qabiliyyəti əsasında o, buradakı bütün kitabları oxuyur, sonra hansısa səbəbdən bu kitabxana yanır. Bəzi tarixçilər bu yanğını İbn Sinanın üstünə atırlar, guya ki, o, istəməyib bu kitablardan başqaları da istifadə etsin. İbn Sina öz tərcümeyi-halında yazırdı: «Mən İbn-Mansurdan nadir kitablar saxlanılan kitabxanaya tibb haqqında olan kitabları oxumaq üçün ora buraxılmağıma icazə aldım. Hər otaqda kitablardan ibarət, bir-birinin üzərində olan sandıqlar var idi. Hər otaqda bir elm sahəsinin – bir otaqda ərəb poeziyasından,digərində fiqh üzrə kitablar var idi. «Mən orada çox insanın eşitmədiyi və mənim də nə əvvəllər, nə də sonralar görmədiyim və eşitmədiyim kitablar var idi. Mən orada bütün əhəmiyyətli kitabları öyrəndim, hər bir müəllifin alimlik dərəcəsini dərk etdim»* [1].

[1] Асмус В. Ф. Античная философия. Изд. второе М.: Высшая школа, 1976, с.59

İbn Sinanın iyirmi yaşı olanda riyyaziyyatdan başqa bütün elmləri əhatə edən «Kitab al-məcmu» («Külliyyat kitabı») və fəlsəfədən bəhs edən 20 cildlik «Al xasis məhsul» («Yekun və nəticə») kitabını yazmışdır[1].

İyirmi iki yaşında Xarəzm hökmdarının sarayında olur, onu «həkimlərin knyazı» adlandırırlar. 1015-1024-cü illərdə Həmədanda elmi fəaliyyətlə məşğul olur və əmirliyin siyasi və dövlət işlərində fəal iştirak edir. Əmiri yaxşı müalicə etdiyinə görə vəzir vəzifəsini alır. O vəzir işləyəndə dövlət idarəçiliyi haqqında öz qabaqcıl ideyalarını həyata keçirməyə çalışmış, bu isə saray əyanları və hərbçilərin xoşuna gəlmir. Hərbi qulluqçulardan özünə düşmən qazandığından onların təkidi ilə *həbs edilir, evi oğurlanır, əmir onu vəzifədən azad edir və öz ölkəsindən çıxarır*[2]. Əmir xəstəliyinin ikinci tutması baş verəndə onu yenidən dəvət edir və *özünə nazir təyin edir.* Əmirin ölümündən sonra İsfahan hökmdarının əmri ilə gizli danışıqlar apardığına və onun yanına qulluğa keçmək istədiyindən Həmədan əmirinin qərarı ilə *dörd ay qalada həbsdə saxlanılır.* İsfahan əmiri Həmədanı alandan sonra İbn Sinanı tutduran əmir həbs edilib həmin qalaya salınır və İbn Sina azad edilir. 1023-1037-ci illərdə İsfahanda yaşayır və əmirin sarayında ona elmi fəaliyyət üçün yaxşı şərait yaradılır. *Baş həkim və əmirin müşaviri işləyir, onu hərbi yürüşdə müşayiət edir.*

O, sonra müsəlman hüququnun əsaslarını, riyaziyyatı, sərbəst olaraq fizika və metafizikanı öyrənməyə başlayır. Onda tibbə maraq oyanır, bu sahəyə aid olan əsərlər yazır və tibb ilə məşğul olan insanlar ondan öyrənməyə başlayır[3].

---

[1] Ибн Сина. Избранные произведения. Т.1. Душенбе, 1989, с.9

[2] Ибн Сина. Избранные произведения. Т.1. Душенбе, 1989, с.11

[3] 100 Великих мыслителей М.: Вече, 2002, с.140

O, yazırdı: *Mən məşğul olduğum məsələləri yuxuda görür və onların həlli mənə aşkar olurdu. Mən məsələləri o vaxta qədər öyrənirdim ki, onun bütün elementlərini mənimsəyim[1].*

*İbn Sina fenomenal hafizəsi və kəskin fikri ilə fərqlənirdi. Kitabı o, oxumurdu, vərəqləyirdi, diqqətini çətin məsələ olan vərəqə yönəldirdi.* Bununla bərabər o, əhval ruhiyyəli, təbiətcə emosianal idi[2]. O, tərcümeyi-halında yazırdı: Mən 18 yaşına çatanda bütün bu elmləri öyrənib qurtarmışdım. O zaman mən tez bilikləri öyrəndim, indi məndə daha yetkinləşmiş baxışlar var, baxmayaraq ki, biliyimə heç nə əlavə etməmişəm. Ədəbiyyatda göstərilir ki, İbn Sina Aristotel fəlsəfəsini neoplatonizm ilə birləşdirməyə səy göstərmişdir. Bilik yalnız insan fəaliyyətini, müəyyən edən predmet olduğundan İbn Sina onu nəzəri və praktiki hissəyə ayırırdı, praktiki elmə etika, iqtisadiyyat və siyasəti daxil edirdi. O, dünyanı dərk etməkdə məntiqə böyük diqqət yetirirdi. Psixologiya məsələsində İbn Sina Aristotelin «Etika» əsərində olanları davam etdirir.

İbn Sina «Vətəndaş siyasəti» əsərini sözsüz əl-Fərabinin ləyaqətli şəhərin əhalisinin baxışları traktatında göstərilənləri mənimsəmiş və özünuün təcrübi və siyasi fəaliyyətində istifadə etmişdir[3]. İbn Sina elə bir dövlət quruluşu istəyirdi ki, orada ideal ictimai qayda mövcud olsun, avaraçılıq pislənilsin və sələmçilik qadağan edilsin. Belə dövlətdə əhali idarəedənlərdən, istehsalçılardan və əsgərlərdən ibarət olmalıdır. O, göstərirdi ki, dövlətdə hər bir adam ona məxsus yer tutmalı, bu yerdən kənarda olmamalıdır[4].

---

[1] Там же, с.143

[2] Соколов В. З. Спиноза. М.: Мысль, 1997, с.143

[3] 100 Великих мыслителей. М.: Вече, 2002, с.146

[4] Rüstəmov Y. Sosial-siyasi və hüquqi təlimlər tarixi. B.,2007, s.112

Onun siyasi baxışları insanların təbii bərabərsizliyi ideyası üzərində qurulub. İbn Sinanın fikrincə, *«hər bir adam öz vəziyyəti ilə razılaşmalıdır. Varlı inanmalıdır ki, onun var-dövləti müəyyən tərzdə ondan böyük olanın və təhsilinin olmamısını əvəz edir. Kasıb isə öz vəziyyətini varlı cahil (biliksiz) birisi ilə müqayisə edəndə özünü ondan daha üstün tutur»*[1]. Usta öz sənətində gündəlik ruzisini alır, o böyük hakimiyyət verilən hökmdara və var-dövlətli insana həsəd aparmamalıdır. Sosial orqanizmin həyat fəaliyyəti hökmdar, mühafizəçi və istehsalçı arasında əmək bölgüsü ilə aparılmalıdır[2].

Onun fikrincə insanlar həyatın fəaliyyətini saxlamaq üçün əmək bölgüsü əsasında icmada birləşməlidirlər. İnsanın yaşaması və onun həyatının mühafizəsi üçün birgə iştirak zəruridir; birgə iştirak yalnız əməkdaşlıq vastəsilə olur. Əməkdaşlıq üçün qanun və ədalət zəruridir. Qanun və ədalət üçün qanun və ədaləti müəyyənləşdirən şəxs olmalıdır. Həmin şəxsin imkanı olmalıdır ki, nitqi ilə İcmaya müraciət etsin və qanunu yerinə yetirməyi bacarsın[3]. Beləliklə, qanunvericilərə, yəni peyğəmbərlərə tələbat təmiz və təbii zərurətdən gəlir. Qanunverici çalışmalıdır ki, onun ölümündən sonra qanun və ədaləti icmada onun varisi – xəlif qorusun.

əl-Fərabi və onun davamçısı İbn Sina musiqi alətləri haqqında elmin əsasını qoymuşlar, musiqi alətlərinə təsnifat vermişlər. İbn Sinanın ərəb və fars dilində yazdığı fəlsəfəyə aid əsərləri və rubailəri ərəb, fars və türkdilli ədəbiyyatın inkişafına böyük təsir göstərmişdir. XII əsrin farsdilli poeziyasının klassiki Ömər Xəyyam İbn Sinanı öz müəllimi hesab etmişdir. İbn Sinanın tibbə dair «Təbabət elminin qanun-

---

[1] Сагадеев А. В. Ибн-Сина (Авиценна) . М.: Мысль, 1980, с.202

[2] Там же, с.203

[3] Там же, с. 201

naməsi» (5 cilddə) ensiklopedik xarakterli olmaqla, Orta Asiya, Hindistan, Yunanıstan, Roma həkimlərinin nəzəriyyə və təcrübəsini sistemləşdirən bir əsər kimi, Şərqdə və Avropada məktəblərdə tibb dərsliyi kimi tədris edilmiş və həkimlər onu məcburi qaydada öyrənmişlər. Qərbdə çox məşhur olan bu qanunnamə 30 dəfədən artıq latın dilində nəşr olunmuş, yüz illər ərzində Şərq və Avropa alimlərinin masaüstü kitabı olmuşdur.Yuneskonun Baş Konfransının XX sesiyasında qeyd olunmuşdur ki, İbn Sina öz əsərlərində antik mədəniyyətin nailiyyətlərini ümumiləşdirərək və özünün yeni kəşflərini əlavə etməklə fəlsəfə, məntiq, tibb, təbii elmləri, sosiologiya, ədəbiyyatşünaslıq, poeziya, linqvistikanın inkişafına böyük töhfə vermiş və elmin bütün dünya ölkələrində daha da tərəqqisinə böyük təsir etmişdir[1].

İbn Sina həyatının çox hissəsini təklikdə sərgədan həyatı keçirmiş, ailə sevinci görməmiş, qısa ömür sürmüş (57 yaş) və xalq tərəfindən böyük titullara, şərqdə ona «aş şeyx», «müdrik», «mənəvi rəhbər» (müəllim) və ya al-Rais-Başçı, «Hökmdar», ən əsası isə «Xodja al xaku» həqiqət avtoriteti, «həqiqət çarçısı», «dahi təbib, ölkənin ən şərəfli insanı» ləqəbi verilib və Qərbdə orta əsr xristian Avropasında «Avitsenna» adlandırılmışdır. İlahiyyatçı alimlər – Əl-Qazali və İbn-Rüşd İbn Sinanı yeresə, ateizmə və ardıcıl naturalist baxışlarına görə tənqid etmişlər.

---

[1] Ибн Сина. Избранные произведения. Т.1. Душанбе, 1989, с.5

## 5.3. Nizamülmülk – dünya şöhrətli «Siyasətnamə» əsərinin müəllifi, «Nizammiyyə» mədrəsəsinin banisi

*• Nizamülmülkün «Siyasətnamə» əsəri ona dünya şöhrət qazandırmış, icad etdiyi «Nizammiyə» mədrəsəsi isə mötəbər tarixi abidə kimi yüz illərlə fəaliyyəti davam etdirmiş, dövlət və din xadimləri, filosof və hüquqşünaslar, münəccim və şairlər hazırlamaqla böyük iz qoymuşdur.*

*• Məsləhətləşmək iradənin möhkəmliyinə, ağılın kamilliyinə və uzaqgörənliyinə dəlalət edər.*

*• Hər iki-üç ildən bir alimlər və rəhbərlik dəyişmək lazımdır ki, yerlərini bərkidib mövqelərini möhkəmləndirməsinlər, qürrələnib özlərindən müstəbeh olmasınlar. Xalqla yaxşı dolansınlar ki, ölkə viran qalmasın.*

***Nizamülmülk***

Nizamülmülk (1018-1092) Xorasanın Tus şəhəri yaxınlığında anadan olmuşdur. O, son dərəcə ağıllı, müdrik, siyasətçi, fars, ərəb, türk, ehtimal ki, Avropa dillərinə də bələd olan, təbii-ictimai, dini-fəlsəfi elmləri, yunan təhsil sistemini də öyrənmişdir.

Akademik V. V. Bartoldun sözü ilə desək, «Səlcuq imperiyasının yaranması ilə Səlcuqların türk-müsəlman aləmində əhəmiyyəti elə artdı ki, orta əsrlərdə heç bir başqa türk xalqında olmamışdır». Səlcuq dövlətinin tarixi – orta əsr xalqlarının tarixinin ayrılmaz hissəsidir. Səlcuq dövründən Nizamülmülkün çox qiymətli «Siyasətnamə» və ya «İdarəçilik haqqında kitabı» istisna olmaqla bizə çatan ədəbiyyat,

təəssüf ki, az olmuşdur[1].

Orta əsrlər müsəlman Şərqinin görkəmli dövlət xadimlərindən biri qırx ilə yaxın Səlcuq sultanları- Alp Aslanın və Məlik şahın vəziri olmuş (faktiki dövləti idarə etmiş) Nizamülmülk güclü mərkəzləşmiş dövlətin tərəfdarı olmuşdur. Öz böyük nüfuzu və hakimiyyətindən istifadə edərək dövlətdə bütün vətəndaş idarələrini və maliyyə sistemini yaratmış, səlcuqlarla abbasidləri birləşərək fatimid və luidlərə qarşı qoymuşdur.

O, Səlcuqlar dövlətinin genişlənib möhkəmləndirilməsində, ölkənin iqtisadi qüdrətinin artırılmasında, ordunun güclənməsində, abadlıq işlərinin aparılmasında, elm və mədəniyyətin yüksəlməsində çox böyük işlər görmüşdür.

Nizamülmülk «Siyasətnamə» əsərini yazmamışdan çox-çox əvvəl öz adını əbədiləşdirən və dünya şöhrəti qazandıran təhsil sistemini - «Nizamiyyə» mədrəsəsini təşkil etmiş, onu ilk dəfə islam dininin və xilafətin mərkəzi olan Bağdad şəhərində açmışdır. Nizamiyyə mədrəsələrində o dövr üçün lazım olan bütün fənlər tədris olunurdu. Bu mədrəsələr sonralar «Nizamiyyə» mədrəsələri adı altında şöhrət tapmışdır. Bunlardan ən məşhuru bir çox dövlət və din xadimləri, münəccimlər, filosoflar, hüquqşünaslar və şairlər hazırlamışdır. Əl-Qəzzalinin *dərs dediyi* «Bağdad nizamiyyəsi» sayılırdı. «Nizamiyyə» mədrəsəsinin yetişdirdiyi Şərq ədəbiyyatının məşhur nümayəndəsi Sədi Şirazi də olmuşdur. Bu mədrəsələr Nizamülmülkün ölümündən sonra da öz fəaliyyətini davam etdirmiş və şərq ölkələrinə böyük şəxsiyyətlər vermişdir.

Nizamülmülk Alp-Arslan sarayında əl-ayağına dolaşan-

[1] Бартольд В.В. Общие работы по истории Кавказа и восточной Европы. М.: Изд-во Восточной литературы, 1963

ları, dini əqidəsinə zidd olanları, tədbir və siyasətinə qarşı duranları, əmr və tapşırıqlarını yerinə yetirməyə maneəçilik törədənləri, haqqında şaiyə yayanları, bir sözlə siyasi, ictimai-dini, hərbi rəqiblərini, iradəsinə qarşı müqavimət göstərənləri şirnikləşdirib öz tərəfinə çəkmək, qorxudub susdurmaq, öldürüb aradan qaldırmaq yolu ilə Səlcuqlar dövlətini gücləndirir, bütün həssas vəzifələrə öz adamlarını təyin edirdi. Lakin bununla birlikdə ölkənin nizama salınmasını, dövlətin möhkəmləndirilməsini, xəzinənin doldurulmasını da unutmurdu[1].

Orta əsr feodal dövlətlərinin idarə sistemini, vergi qaydalarını, hərbi quruluşu və bir sıra başqa qayda-qanunlarını öyrənmək üçün Nizamülmülkün «Siyasətnamə» əsəri səlcuqlar dövründən qalmış mötəbər ədəbi-tarixi abidədir. Nizamülmülk Sasani şahı Ənuşirəvanın İslama qədərki monarxiyasını ideallaşmağa çalışmış və öz dövlətində idarəetmənin müsəlmana qədərki qaydalarını tətbiq etməyə səy göstərmişdir. Qeyd etmək yerinə düşər ki, Ənuşirəvanın şəxsiyyəti Firdovsinin, Nizami Gəncəvinin və b. diqqətini cəlb etmişdi.

«Siyasətnamə» XI əsr Azərbaycan tarixini öyrənmək üçün də əhəmiyyətlidir. Eləcə də bu əsərdən bir ədəbi abidə kimi də sonrakı əsrlərdə istifadə olunmuşdur. Kitabın yazılması Səlcuq Sultanı Məlik şahın dünyagörmüş, müdrik və alim şəxslərə verdiyi tapşırıqla əlaqəlidir. Bu tapşırıqda deyilirdi: bizim məmləkət haqqında düşünün, görün bizim zəmanədə nə kimi pisliklər var, nə səbəbə bizim sarayda, dövlət və divan idarələrində, məclislərimizdə belə nalayiq işlərə yol verilir, görün nələr bizim üçün gizlində qalmışdır, bizdən əvvəlki şahların hansı vəzifələrini biz yerinə yetirmirik. Bundan əlavə, Səlcuqlar sülaləsinə aid olan keçmiş

[1] Nizamülmülk. Siyasətnamə . Bakı: Elm, 1987, s.6

şahların gördükləri bütün işləri, ayin və ənənələrin hamısını yazıb təqdim edin. Yazılan kitabın elə təsiri olmalıdır ki, bizim ölkəmizdə bundan sonra heç bir tədbir nöqsanlı olmasın, heç bir şey bizim gözümüzdən qaçmasın. Yazılanlardan şahın bəyəndiyi yalnız Nizamülmülkün «Siyasətnamə» əsəri olur. O deyir, mən bu kitabı özüm üçün rəhbər tutub, orada deyilənlər kimi hərəkət edəcəyəm.

Bu əsərin olması haqqında ən qədim məlumat Britaniya muzeyində olan 1032-ci (1623) ildə, Urmiya şəhərində 564-cü il (1168) olan əlyazmaların surətidir. Peterburqda Dövlət kitabxanasında olan «Siyasətnamənin» surəti sonrakı dövrə təsadüf edir və 824 (1421)-cü il əlyazmasından götürülüb.

Rum sultanı Əlaəddin I Keyqubad (1219-1236) haqqında əsərdə yazılır ki, sultan həmişə Nizamülmülk «Siyasətnamə» və əl-Qazalinin «Xoşbəxtlik kimyası» kitablarını oxuyurdu. Fransız alim Ş. Şefer də «Siyasətnamə»nin tərcüməsini XIII əsrin əlyazması əsasında yazıb. «Siyasətnamə» və ya «Siyar al-mülk» adı ilə bu əsər ədəbiyyatda və axırıncı yüzillikdə ən geniş yayılmış əsər kimi dəyərləndirilir[1].

Avropa elmi Nizamülmülk əsəri ilə çox sonralar tanış olmuşdur. Ş. Şefer öz nəşrində onda olan əlyazmasında 690 (1291)-ci il müvafiq olaraq Britaniya, Berlin əlyazmasının və Peterburqda olan iki əlyazmanın düzəlişlər və əlavələr nəzərə alınmaqla, tərcümə olunmuşdur. Ş. Şeferin tərcüməsinin işıq üzü görməsi həqiqi mənada Avropada bu əsərin öyrənilməsi və onun Avropa tarixşünaslarına təsiri haqda danışmağa başlanılmışdır. Ş. Şeferin 1892-ci il fransız tərcüməsindən rusca (1949) və Azərbaycanca tərcümələri (1982) edilmişdir.

Siyasətnamə əsəri 51 fəsildən ibarət olub, çox müxtəlif

---

[1] Nizamülmülk. Siyasətnamə . Bakı, Elm, 1987, s.27

və zəngin materiallarla doludur. Burada elə fikirlər, ibrətamiz rəvayətlər, hekayələr və nəsihətlər vardır ki, min il bundan əvvəl deyilməsinə baxmayaraq, indi də öz dəyərini itirməmişdir. O rəvayətlərdən seçim kimi ibrətamiz *iki rəvayəti* göstərmək yerinə düşür.

**Birinci rəvayət:** Bir şəhərin əmiri bir nəfərdən beş aylığa min dinar istəyir. Kişi isə onda olan altı yüz dinarı ona verib qəbz alır. Əmir isə vəd edilən vaxtda pulu geri qaytarmır. Uzun müddət keçməsinə baxmayaraq, kimə müraciət edirsə, pulu qaytartdıra bilmir. Ona bir nəfər tövsiyə edir ki, filan məhəllədə olan bir dərzinin yanına getsin, o bu məsələni həll edər. O, dərzinin yanına gəlir, şikayətini deyir, o isə şagirdinə tapşırır ki, get o əmirə de aldığı pulu götürüb gətirsin. Əmir pulları həmin saat faizi ilə gətirib verir və dərzidən bağışlanmasını xahiş edir. Kişi pulu aldıqdan sonra o dərzidən bu sirri açmağı xahiş edir. Dərzi deyir: Bir gün axşam vaxtı bir əmir məst halda bir qadının çadrasından tutub dartırdı, qadın isə imdad diləyib kömək istəyirdi və deyirdi, mənə kömək edin, mən bu işin sahibi deyiləm. Heç kəs onun köməyinə gəlmirdi. Təhqir, ağrı və qeyrətdən yata bilməyib minbərə çıxıb vaxtsız əzan verməyə başladım. O şəhərin xəlifəsi vaxtsız əzanı eşidib qəzəblənir və əzan verənin tutulub gətirilməsini əmr edir. Məni xəlifənin yanına apardılar. Vaxtsız əzan verməmin səbəbini ona anlatdım. Xəlifə öz adamlarına tapşırır ki, qadını götürüb aparıb ərinə versinlər və ona məndən salam yetirib qadının günahından keçməsini tapşırır və bu hala yol verən əmiri onun yanına gətirilməsini əmr edir. Əmiri çuvala saldırıb ölənə qədər döydürüb Dəclə çayına atdırır. Xəlifə əyanları yığıb hamının yanında mənə dedi: «Şeyx, bu gündən sonra kim kimə zülm etsə, ya başqasının haqqını kəssə, şəriətə xor baxsa, o zaman minbərə çıxıb əzan verərsən». O

gündən bu hallara yol verənlərə qarşı mənə müraciət edirlər. Odur ki, əmir pulu mənə hörmətə görə yox, döyülüb Dəclə çayına atılmasından qorxaraq qaytardı.

**İkinci rəvayət.** Sasani şahı Ənuşirəvan bir yaxın sərkərdəsini bir vilayətə xan təyin edir. O, səlahiyyətindən istifadə edib özünə dəbdəbəli mülk tikib və qonşuda yaşayan imkansız qoca qadının razılığı olmadan onun həyətini də öz mülkünə qatır. Bu qadın şikayət üçün Bağdada gəlir, Ənuşirəvanın qəbuluna düşür və ona şikayət edir. Ənuşirəvan öz adamı vasitəsilə bu şikayəti yoxlayır və onun düz olmasına əmin olur. Şah bütün əyan, əşrəf, xanla saraya gəlməyə başlayanda, deyir ki, şikayət olunan filankəsi içəri buraxmayın, dəhlizdə oturdun, sonra deyərəm nə etmək lazımdır. Ənuşirəvan qəbula başlayır və oturanlardan soruşur: əgər bir xanın həddən artıq mülkü, varidatı, torpağı, kəndi, hərəmxanası, sarayları, karvansaraları olduğu halda, imkansız qarının mülkünü zorla zəbt etdiyinə görə ona hansı cəzanı vermək olar? Hamı deyir - bu adama hansı cəza verilsə, azdır. Ənuşirəvan deyir: istəyirəm ki, onun dərisinə saman doldurub saray qapısından asasız və yeddi gün car çəkdirəsiniz ki, bundan sonra kim bu cür hallara yol versə, aqibəti belə olacaq. Xanlar tələsik, öz əyalətinə qayıdır, gecə ilə öz adamlarını yığıb deyir ki, kimdən nahaq yerə bir şey almışlar, kimisə incitmişlər, onların könüllərini ələ alın, yola gətirin, kimlərin torpaqlarında mülk tikmişiksə, onlara qaytarın ki, gedib şikayət etməsin. Bu tədbir bütün ölkəni düzəltdi, yeddi il müddətində saraya bir nəfər də olsun şikayətçi gəlmədi.[1]

---

[1] Nizamülmülk. Siyasətnamə . Bakı: Elm, 1987, s.65

## 5.3.1. «Nizammiyyə mədrəsəsi» və Sədi Şirazi

*• Ağıllı insanın axmaq qarşısında susması təəccüblü deyil, çünki nağara səsi tar səsindən, sarımsaq iyi ənbər qoxusundan həmişə üstün gəlir;*

*• Həvəssiz şagird pulsuz aşiqə, bələdsiz səyyah qanadsız quşa, əməlsiz alim barsız ağaca, elmsiz zahid qapısız evə oxşar.*

*• Sınaqsız iş görsə bir insan əgər,*
*Çəkər nəticədə, şübhəsiz zərər*
*Yazılmış bu sözləri bulaq daşında*
*Çoxları bizimtək bu sudan içmiş,*
*Birdən göz yumaraq dünyadan köçmüş*
*Tutmuş bu cahanı çox şahlar, ancaq*
*Olmuş son məskəni bir qara torpaq.*

***Sədi Şirazi***

«Bustan» (1257) və «Gülüstan» (1258) əsərlərinin müəllifi, qəzəl janrının ən görkəmli nümayəndələrindən biri Sədi Şirazi (1184-1291) Şirazda (İran ərazisi) anadan olmuş, ilk təhsilini Şirazda almışdır.

Sədi Şirazi öz təhsilini artırmaq, ərəb ədəbiyyatını, islam biliklərini öyrənmək üçün öz vətənini tərk etmiş, İraqı - Ərəbə, Bağdada getmiş və orada 1067-ci ildə Orta əsrlərin ilk universiteti sayılan məşhur «Nizammiyə» mədrəsəsində öz dövrünün böyük alimlərində mükəmməl dərs almış, ərəb dilini, islam biliklərini və başqa elmlərini mükəmməl öyrənmişdir.

O dövrün imkanları baxımından bu mədrəsədə ən yüksək səviyyədə təhsil şəraiti, ən savadlı müəllimlər və ən mütərəqqi təhsil proqramı ilə təchiz edilmişdir. Nizammiyə mədrəsəsində müxtəlif vaxtlarda ensiklopedik biliklərə ma-

lik Əl Qəzzali, otuz iki məşhur müəllimlər sırasında yeddinci yerdə adı çəkilən (40 il müddətində mədrəsənin zəngin kitabxanasının müdiri işləmişdir) tanınmış Azərbaycan alimi Xətib Təbrizi və Əbu İshaq Təbrizi və b. kimi alimlər dərs demişlər. Bu mədrəsədə müxtəlif millətlərdən olan müəllimlər çiyin-çiyinə çalışırdılar, bəzən burda mühazirə oxumaq üçün tanınmış alimlər dəvət olunurdu. Burada bir çox elmlər: tarix, məntiq, ədəbiyyat tarixi və dilçilik, ritorika, riyaziyyat tədris olunurdu. Quran və onun təvsiri, müsəlman hüququ, ilahiyyat elmləri tədrisdə əsas yer tuturdu.

Nizammiyə mədrəsəsində eyni vaxtda altı min tələbə təhsil alırdı. Tələbələr sırasında müsəlmanlarla yanaşı Avropadan gəlmiş insanlarda var idi. Mədrəsədə həmin dövrdə hətta Qədim Yunan və Roma fəlsəfəsi ərəb dilinə tərcümə olunaraq tədris olunurdu. Nizammiyə mədrəssinin Bəlx, Nişapur, Herat, İsfahan, Bərsə, Məvr, Masul kimi iri şəhərlərdə filialları fəaliyyət göstərirdi.

Nizammiyə mədrəsəsində müəllimlərə verilən maaş, geyim və yataq xərcləri, tələbələrə təqaüd xəzinədən ödənilir və onların təlim-tərbiyəsi ilə normal məşğul olmasına şərait yaradılırdı.

Mədrəsənin dünya təhsil sisteminə gətirdiyi yenilik müəllim-tələbə münasibətlərinin yüksək səviyyədə qurulması idi. Bu mədrəsədə olan əlverişli şərait və, təhsilin səviyyəsi Sədi Şiraziyə gələcək fəaliyyəti üçün fundamental bilik vermişdir.

Sədi Şirazi Şərq ədəbiyyatının ən görkəmli nümayəndələrindən Firdovsi, Nizami, Hafiz və Füzuli kimi əsərləri bütün dünya mədəniyyəti xəzinəsinə daxil olan şairlərdəndir. Sədi tarix üçün misilsiz qiymətə malik olan əsərlər yadigar qoymuşdur. Həqiqət və gözəllik aşiqi Sədi Şirazi fars dilli ədəbiy-

yata çox ciddi yeniliklər gətirmiş, hətta müəyyən baxımdan inqilab etmiş nəhəng sənətkardır. 1227-1256-cı illərdə otuz il müddətində Hindistandan tutmuş Misirə qədər İraqı, Anadolunu, Siriyanı, Bəlxi, Qəznəni, Pəncabı, Sumnatı, Ümmanı, Yəməni, Hicazı, Fələstini, Misiri və Həbəştanı səyahət etmiş, o ölkələrin həyat tərzi ilə tanış olmuşdur. Səyahət zamanı Sədi Şirazi Yaxın və Orta Şərq ölkələrin diyar bə diyar piyada dolaşmış, Fars, Ümman dənizini Hind okeanını və Aralıq dənizinin üzərindən ticarət gəmilərinidə vaxtını keçirmişdir. O, səyahət zamanı gah sufilər və şeyxlərə, bəzən karvanlara qoşulmuş, bəzən muzdla xurma dərmiş, su paylamış, bir sözlə o müxtəlif sənət sahibləri ilə: alim və avamlarla, dövlətli və yoxsullarla, mülkədar və kəndlilərlə oturub durmuş, onların həyat tərzi ilə tanış olmuş, xalqların adət və ənənələrini bütün dərinliyi ilə görmüş və bütün bunları əsərlərindən istifadə etmiş və hikmətli nəticələr çıxarmışdır . O, bu səyahəti belə təsvir edir:

*Mən Şamda ya Rumda gəzdiyim zaman,*
*Şirazlı mərdləri yad etdim hər an.*
*İstədim gəzdiyim bağdan cənnətdən*
*Dostlar məclisinə boş dönməyim mən.*

*Dedim ki, Misirdən qayıtsa hər kəs,*
*Ordan qənd gətirər, əli boş dönməz.*
*Qəndim olmasa da, dərin sözüm var,*
*Misirin qəndindən şirin sözüm var.*

Bu səyahətlər onun dünya görüşünü genişləndirmiş, şüurunu o dövrün feodalizm dünyagörüşü, üsul-idarəsi, qanun və prinsipləri ilə mübarizə aparan ictimai təbəqələrin

ideologiyası səviyyəsinə yüksəltmişdir[1].

Sədinin yaşadığı dövr Yaxın Şərq tarixində ictimai keşməkeşlər, qanlı çarpışmalar, qırğınlar dövrü olmuşdur. Bu dövrün ən böyük tarixi hadisələri - səlib müharibələri və moğal istilalarıdır. Sədi səlib müharibələrində iştirak etmiş, Suriyada fransızlara əsir düşmüş, moğolların dağıdıcı hücumlarının şəhidi olmuş, müxtəlif şahlıqların məhv olunmasını, vətəninin yadellilər istilasına məruz qalmasını görmüşdür.

Bu tarixi hadisələr qarşısında Sədi alimanə və həkimanə şüurunu, həyat təcrübələrini inkişaf etdirmiş və zənginləşdirmiş, bunları yeddi əsrdən bəri müxtəlif dillərə: latın, ingilis, fransız, alman, ərəb, türk, rus dillərinə tərcümə edilib yayılan və milyonlarla insanın malı olan məşhur qiymətli əsərlərində - «Bustan» və «Gülüstan»da əks etdirmişdir.

Sədinin «Bustan» əsəri lirik janrda yazılmış ictimai nəsihətlərdən, ədliyyə, təvazökarlıq, bərabərlik kimi keyfiyyətlərin tərifindən, dərviş mədəniyyəti haqqında məlumatlardan ibarət olduğu halda «Gülüstan» əsəri epik formada təqdim edilmiş əhvalatlardan, lətifələrdən, hikmətli sözlərdən, məsləhətlərdən və qısa şeirlərdən ibarətdir. Şərq ədəbiyyatında sədiyə qədər «Bustan» bənzər əsər tapmaq mümküdürsə, «Gülüstan»-a oxşar əsər tapmaq çətindir.

Sədinin «Gülüstan» əsəri onun yaradıcılıq ixtirası sayılır. Bu əsər eyni zamanda ustalıqla yazılmış sadə və bədii ifadələri təsbih, məcaz, səs, kinayə, istiarə və başqa bədii ifadə tərzində də özündən qabaqki və sonrakı əsərlərdən köklü fərqlənir. Sədi Şirazi «Gülüstan»-ın yazılması haqqında belə deyirdi *«kitabı tərtib edib fəsillərə ayırarkən mətləbi qısa bir surətdə ifadə etməyə diqqət göstərməyi lazım bildim və oxucuların darıxmaması üçün behişt bağlarına oxşar bu əsrəi səkkiz*

[1] Sədi Şirazi. Bustan. Bakı: Azərnəşr, 1964, s.5

*fəslə böldüm. Sədi bütün əsrlərində insanlıq şərəfini mal-dövlət vəzifə rütbə paltarlarda yox xalqa xeyirlikdə görürdü».*

Sədinin əsərləri dünya ədəbiyyatında həm sosial əhəmiyyətinə görə yüksək qiymətləndirilir.

Sədi Şirazinin vəfatından təqribən otuz il sonra onun əsərləri «Külliyat» şəklində tərtib edilmişdir. Sədinin əsasən «Gülüstan» əsəri ona dünya şöhrəti qazandırmışdır. «Gülüstan» əsəri yüz dəfədən artıq nəşr edilmişdir. Sədi Şirazi böyük demokratik ruhlu, dərin xəliqliyi olan bir şair olmaqla həmişə rəiyyəti, xalqı sultanlardan, hakimlərdən üstün tutur. O, deyirdi: *«hakim bir ağac köküdür, - ey oğul, ağac kökdən möhkəm olar».*

Sədinin əsərləri Avropa dillərinə tərcümə edildikdən sonra bu ölkələrin bəzi məşhur şairləri öz əsərlərində Sədinin ifadə və fikirlərini istifadə etmişlər. Misal olaraq Volter, Lavonten, Gote kimi adı dünya şöhrəti qazanmış böyük şairlər göstərmək olar.

Onun əsərlərində yalnız orta əsrlər üçün deyil, bizim əsrimiz üçün də hələ əhəmiyyət və təsirini itirməyən ağıllı öyüdlər, ibrətamiz fikirlər, tərbiyəli nəsihətlər vardır. Odur ki, onun əsərləri dünyanın müxtəlif dillərinə tərcümə edilib yayılmaqla yanaşı, xalqlar tərəfindən sevilə-sevilə oxunmaqdadır.

Sədi Şirazi əsərlərində xalq və şah münasibətlərini belə ifadə edir:

*Sultan bir ağacdır, rəiyyət risə,*
*Ağac kökü üstə durur həmişə.*
*Xalqın ürəyini incitsən əgər,*
*Sənin öz kökünə baltalar dəyər.*

AMEA-nın əlyazmalar fondunda böyük qayğı ilə mühafizə edilən «Bustan» və «Gülüstan» əlyazmaları, bu əsərlərin bir çox nüsxələri Şamaxı, Qazax, Təbriz, Ağdaş və Qarabağ xəttatları tərəfindən nəfis surətdə köçürülmüş və bəzi beytləri Azərbaycan dilinə tərcümə və şəhr edilmişdir. Orta əsr təhsil mədrəsələrində ilk dərs kitablarından biri həmişə «Gülüstan» əsəri olmuşdur.

Sədi Şirazinin hikmətli sözlərindən bəzilərin göstərmək olar:

*«Atalar demişdir, bir yerə girməzdən əvvəl ordan necə çıxmağı düşün». «Dövlət malda deyil, kəlamdadır, ağıl yaşda deyil başdadır». «Üç şey əbədi yaşamaz: - Mal ticarətsiz, elm mübahisəsiz və hökmdar siyasətsiz». «Hədsiz sərtlik dəhşət yaradır, yersiz mülayimlik hörmət azaldır». «İki adam dinin və dövlətin düşmənidir - helmi olmayan hakim, elmi olmayan alim». «Yəhudi müsəlman savaşında bir zaman gülmək tutdu məni çox onların əhvalından: müsəlman deyirdi ki, qəbahət yalansa qoy, bir yəhudi olum mən, olmasın məndə vicdan. Yəhudi deyirdi Tövrata and içirəm, əgər mən yalan desəm, qoy adlanım müsəlman». «Hər bir zahiri gözəl olanın batili də gözəl ola bilməz. İş təbiətdir sifətdə deyil». «Filosoflar gec-gec yeyər, möminlər doymadan süfrədən çəkilər, zahid qarnı tutunca, gənclər nimçədəki qurtarınca, qocalar tər töküncə, qələndərlər isə mədədə yer, süfrədə çörək qurtarınca yeyərlər». «Tərbiyəsiz istedad heyfdir, istedadsız tərbiyə isə mümkün deyildir». «Dənə dənə bal, dama-dama göl olar, yəni gücü çatmayan adamlar kiçik daş yığıb saxlayar, fürsət düşən zalımdan qisas alarlar». «İki şey mümkün deyil – qismətdən artıq yemək, əcəl çatmadan ölmək». «Qismətin deyilsə əlin çatmayacaqdır, qismətindədirsə harda olsan gəlib səni tapacaqdır». «Həvəssiz şagird pulsuz aşiqə, bələdsiz səyyah qanadsız quşa, əməlsiz alim barsız ağaca, elmsiz zahid qapısız evə oxşar». «Göydən yerə*

*nemət yağır, yerdən göyə torpaq qalxır. Hər kəsin qabında nə varsa onu biruzə verir». «İki adam öldü, dünyadan həsrətli getdi: biri odur ki, yığdı yemədi, digəri odur ki, bildi etmədi». «Bildiklərinə görə davranmayan kimsə üzərinə kitab yüklənmiş heyvanlardan başqa bir şey deyil». «Silah qorxaqlarda, rəhbərlik ağılsızda olsa işlər pozular». «Nə ətrafınızı qıracaq qədər sərt, nə də qarşınızdakılara cəsarət verəcək qədər yumşaq olun» «Canavar balası insanlar arasında böyüsədə yenə canavardır». «Sağlam olmaq istəyirsinizsə, heç vaxt doyunca yeməyin». «Elm, dünya malı yığmaq üçün yox əqidəli olmaq üçündür». «Oxuduğuna əməl etməyən alim məsəl gətirən kor kimidir». «Dostunun qəlbini qırsan, düşmənini şad edərsən». «Peşman olmamaq üçün danışmazdan əvvəl fikirləş».*

## 5.4. Nizami Gəncəvi –
## ilk utopik cəmiyyət ideyasının banisi

*İnsana arxadır onun kamalı,*
*Ağıldır hər kəsin dövləti, malı.*

*...Bir inci saflığı varsa da suda,*
*Artıq içiləndə dərd verər su da.*

*Bir elmi öyrənmək istədikdə sən,*
*Çalış ki, hər şeyi kamil biləsən.*
*Kamil bir palançı olsa da insan,*
*Yaxşıdır yarımçıq papaqçılıqdan.*

*Hər kəsə sirrini açıb demə, sus,*
*Çünki var süfrədə çox zaman casus.*

***Nizami Gəncəvi***

Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndəsi, bütün dövrlərin mütəfəkkir şairi, utopik ideal cəmiyyət ideyasının banisi Nizami Gəncəvi (1141-1209) ilk təhsilini Gəncə mədrəsələrində almış, daha sonra şəxsi mütaliə yolu ilə o dövrün elmlərini mükəmməl öyrənmiş, xüsusən də Yaxın Şərq xalqlarının şifahi və yazılı ədəbiyyatına yaxından bələd olmuşdur. Nizaminin poemalarından göründüyü kimi, o, Quranı dərin öyrənmişdir. Əsərlərində dəfələrlə şəriətdən misal gətirmiş, Məhəmməd peyğəmbər (s) haqqında rəvayət və əfsanələrdən istifadə etmiş, ilahiyyat məsələlərinə, həmçinin «ədəb» anlayışına daxil olan elmlər komplektsinə dərindən yiyələnmişdir. Nizami fəlsəfəni yaxşı bilirdi, həm də o, təkcə islam dininin fəlsəfi ehkamları ilə kifayətlənməmiş, antik filosofların əsərlərindən, antik rəvayətlərdən və mifologiyadan yaradıcı şəkildə bəhrələnmişdir.

Nizami öz dövrünün coğrafi elmi və kosmologiyaya aid ədəbiyyatla yaxından tanış olmuşdur, bunu Makedoniyalı İsgəndərin yürüşlərinin təsvirindən də görmək olar. N. Gəncəvi «İsgəndarnamə»əsərində Nizamülmülk adını da bir neçə dəfə xatırlayır. Poemada İskəndərin elmə münasibəti çox orijinal şəkildə göstərilir. İskəndər İranı alandan sonra müxtəlif elm sahələrinə aid əsərləri: astronomiya, tibb, fəlsəfə, əkinçilik elmlərini yunan dilinə tərcümə etdirərək öz ölkəsinə aparmışdı.

Parlaq təhsil alan Azərbaycan şairi, türk dili ilə yanaşı, ərəb və fars dillərini də mükəmməl bilmişdir. Onun yunan dili ilə də tanış olduğu, həmçinin qədim yunan tarix və fəlsəfəsini, astronomiya, tibb və həndəsi elmlərini, Quranın təfsirini və İslam hüququnu yaxşı mənimsədiyi əsərlərindən aydın görünür. Ədəbiyyatda Firdovsinin Nizamiyə və onun «İsgəndərnamə» əsərinin yazılmasına təsiri tez-tez müzakirə olu-

nur. Bu qədər hərtərəfli dərin biliyə, böyük istedada malik olan, söz sənətinə məharətlə yiyələnən Nizami şübhəsiz saray şairi də ola bilərdi. Nizami Gəncəvi saray şairi olmaqdan qətiyyətlə imtina etmiş, halal zəhməti ilə dolanmışdır. Nizami Gəncəvinin ilk Şərq İntibahının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi ideyaları parlaq bədii əksini tapmışdır.

Nizami öz poemalarında islama qədər və islamdan sonra şifahi xalq yaradıcılığından və yazılı tarixi xronikadan istifadə edərək onları sintez etmişdir. Onun yaradıcılığı Cəlaləddin Rumi, Sədi kimi böyük şairlərin yaradıcılığına təsir göstərmişdir. N.Gəncəvinin beş poemasından ibarət «Xəmsə»sində (beşlik) «İsgəndərrnamə» poeması onun son əsəri olmuş və 1200-1203-cü illərdə yazılmışdır. Nizami öz əsərində bir-birini əvəz edən üç mənbədən – fars, yunan, ərəb ənənələrindən istifadə etmişdi. Nizami Gəncəvi üçün şəxsiyyətin ən yüksək meyarı insanlıq idi. Nizami əsərlərində irqi, milli və dini ayrı-seçkiliyi qətiyyətlə rədd edilir və qəhrəmanları arasında türk, fars, ərəb, çinli, hindli, zənci, yunan, gürcü və s. xalqlarının nümayəndələrinə rast gəlinir. Onun qəhrəmanları ədalət, xalqın xoşbəxtliyi, yüksək məqsədlər uğrunda mübarizə aparır. Nizami həmvətənlərinin milli ruhunu, müdrikliyini, gözəlliyini və rəşadətini tərənnüm edə-edə onları ümumbəşəri səviyyəyə yüksəldir.

Nizaminin əsərləri dünyanın bir çox xalqlarının dilinə tərcümə olunmuş, onun əsərlərinin əlyazma nüsxələri dünyanın bir çox məşhur kitabxanalarında saxlanılır. «İsgəndərnamə» poeması iki hissədən ibarətdir: birinci hissə «Şərəfnamə», ikinci hissə «İqbalnamə» adlanır. Xüsusən bu poemada Nizaminin ictimai idealı və tarixi baxışları daha tam və dərin əks olunur. Bu əsərdə İskəndər öz prototipi

olan İskəndər Makedoniyalıdan fərqlənir və o, ideal hökmdar tipi kimi göstərilir. Poemanın «Şərəfnamə» hissəsində antik tarixçilərin verdiyi kimi, İsgəndər əməllərində, hərbi igidliyində, dövlət müdrikliyində şücaətlər göstərən əfsanəvi hökmdar və sərkərdə haqqında danışılır. Nizami Gəncəviyə görə İskəndər ideal hökmdar üçün ən uyğun gələn obraz idi. Müdrik və ləyaqətli hökmdar kimi, o, xalqa qayğı göstərir, mühakimə olunanların ədalətsiz cəzasını ləğv edir, öz yaxınları ilə məsləhətləşərək dövlət işlərini həll edir.

«İsgəndərnamə»nin ikinci hissəsi «İqbalnamə»də Nizami öz qəhrəmanını müdriklik və humanizmə çatmış yüksəkliyə qaldırır. Harmoniya və həmrəylik hökm sürən cəmiyyətin təşkilinin yeni yollarını tapmaq üçün, yeni dəyərlər, ölkələr almaq üçün İskəndər dünyaya səyahətə çıxır və insanların sıxışdırılmadığı, pislik və xəstəlik bilmədiyi, düşmənçilik və zülmdən uzaq, *xoşbəxtlər ölkəsi – utopik bir ölkəyə - «günəş ölkəsinə»* çatır.

Nizami bütün yaradıcısı boyu xalqın ictimai harmoniya, xoşbəxtlik və rahatlığının bərqərar olmasında müdrik və ədalətli monarx hökmdara mühüm rol verir, ideal cəmiyyət haqqında öz təsəvvürünü ifadə edir. Nizami qüdrətli sənətkar fırçası ilə əsl uzaqgörənliklə *utopik sosializmin* canlı mənzərəsini yaratmış, ahəngdarlıq və ədalətin hökm sürdüyü, hamının bərabər və xoşbəxt olduğu ölkə təsvir etmişdir. Məşhur alman şairi Höte özünün «Şərq – qərb divanı» əsərində Nizami Gəncəvinin öz poemalarında gələcəyin ideal şəklini çəkdiyini göstərir[1]. Nizami Gəncəvi «İsgəndərnamə» əsərində öz qəhrəmanını daha yüksək bir cəmiyyət quruluşu ilə qarşılaşdırır. Makedoniyalı İsgəndər Şimal səfərində firavan həyat sürən bir ölkəyə çatır. *Dünya ədəbiyyatında uto-*

[1] Abbasov Ə. Nizami Gəncəvi. «İsgəndarnamə». B.: Elm, 1966,s.6

*pik ideal cəmiyyətinin ilk nümunəsi olan həmin ölkədə bütün insanlar eyni hüquqludur. Nizami Gəncəvi bu əsərdə Şərq ədəbiyyatında ilk dəfə ideal dövlət və azad cəmiyyət quruluşunun geniş təsvirini vermişdir. Bu cəmiyyətdə insanlar bir-birinə fayda verir, əməyə şüurlu münasibət bəsləyir və yüksək əxlaqı sifətlərə malikdirlər. Bu cəmiyyətin idarə edilməsi, insanlar arasında olan doğruluğa, səmimiyyətə, cəmiyyət üzvləri arasındakı bərabərliyə, ictimai yaşayış üçün zəruri olan əməyə yüksək münasibət bəslənməsinə arxalanır. Cəmiyyətin bütün üzvləri yaxın ünsiyyətdə olub bir-birinə kömək edirlər.*

*Əsərdə həmin cəmiyyət belə təsvir edilir. İsgəndər bir ölkəyə gəlir, ora axar sulu, yaşıl tarlalı, ürəkaçan bir yerdir. Burda sürülər çobansız otlayır. Bu şəhərdəki evlər darvazasız, dükanlar isə qıfılsızdır, o yerin sakinləri qonaqpərvər və gözəl simalıdırlar. O, yerin ağsaqqalı İsgəndərə həqiqəti belə söyləyir. Biz bir dəstə olmaqla, dağ və çöldə yaşayırıq. Düzlüyü tük qədər pozmarıq, əyriliklə işimiz yoxdur, faydasız şeylərlə maraqlanmırıq. Biz acizləri çətinlikdən xilas edərik. Cəmiyyət üzvlərinin birinə dəyən ziyanın ödənilməsində hamımız birlikdə şərik oluruq. Birinin malı başqasından artıq deyildir. Gəlir hamımız arasında bərabər bölünür, heç kəs başqasının ağlamasına gülməz. Aramızda ixtilaf olsa, məsləhətlə həll edilir... O adamlar həmin cəmiyyətdə yaşaya bilərlər ki, onların qəlbi təmiz olsun. İsgəndər də bu hadisəni görəndən sonra işğalçılıqdan əl çəkir, öz ölkəsində də belə qaydalar yaratmaq qərarına gəlir*[1]*.*

Nizami öz təliminin son məqsədini şərh etməklə, ahəngdar, gözəl bir aləmin parlaq lövhəsini yaratmaqla, şair sanki gələcək nəsillərə nə vaxtsa bu gözəl arzunu həyata keçirmə-

[1] Yenə orada, s.81-82

yi vəsiyyət etmişdir[1] .

Nizami Gəncəvinin hikmətli kəlamları:

*Öz halal zəhmətinlə namuslu insan sayıl,*
*Hər yetənə əl açma, əl açıb olma sail.*

*Usta olmayanda çətin gedər iş,*
*Ustanı tap, sonra bir işə giriş.*

*Varsa suyun, çörəyin, yoxsulluqdan qəmə batma,*
*Əlini çömçə edib, hər kasaya uzatma.*

*Hər anadan olan övladdır məgər?*
*Hər çiçək bar verməz, hər qamış şəkər.*

*Şüşəyə öncə sən vurma daş, kəsək,*
*Qırılsa çətindir onu düzəltmək.*

*Çalış öz xalqının işinə yara,*
*Geysin əməlinlə dünya zər – xara.*

*İnsana arxadır onun kamalı,*
*Ağıldır hər kəsin dövləti, malı.*

*Hər bir şey təməldən möhkəm qurulur,*
*Təməlsiz binalar tez də uçulur.*

*Əqrəb düşmənçiliyi betərdir əjdahadan,*
*Əjdaha aşkar vurar, əqrəb gizli hər zaman.*

*Bünövrəsi əyri qoyulan evin,*
*Bir gün dörd divarı yıxılar yəqin.*

---

[1] Nizami. Hikmət və nəsihətlər, Aforizm Bakı, Yazıçı,1982

*Qıfila çox zaman tapılmaz açar,*
*Bir açar tapılar qıfılı açar.*

*İşini ölçüyə uyğun qur hər an,*
*Ortadır faydalı az-çox olmaqdan.*

*Əziyyət eləsən, cəfa görərsən,*
*Mehribanlıq etsən, səfa sürərsən.*

*Quyuya salsan da yaxşılığı, bil,*
*Yenə qayıdacaq o, itən deyil.*

*Zəmanə torundan biliklə qurtar,*
*Biliyə sahib ol, dünyanı qazan.*

*Hərçənd sənətin çox rütbəsi var,*
*Həyatda faydalı bir elmi axtar.*

*Bağlı bir qıfılı açmaq istəsən,*
*Əvvəlcə sınaqdan keçir onu sən.*

## 5.4.1. Nizami Gəncəvi və Firdovsi

*Bilik öyrənirsə bir insan əgər,*
*Bununla başı göylərə yüksələr.*

*Kimin elmi olsa, o güclü olar,*
*Qoca qəlbə elm ilə gənclik dollar.*

*Bilikdən böyük sərvət olmaz yəqin,*
*Vara «yox» demək, bil, çətindir, çətin.*
***Firdovsi***

Nizami və Firdovsi arasında çox böyük oxşarlıq mövcuddur. Y.E.Bertels «Nizami və Firdovsi» adlı irihəcmli məqaləsində üç məsələyə toxunmuşdur: a) Nizaminin öz sələfi (Firdovsi) haqqında dedikləri; b) hər iki şairin tematik cəhətdən ümumi cəhətləri və s.; v) onların öz materiallarına və onların həllinə münasibətləri. Firdovsidən başqa Ət-Təbərinin də Nizami yaradıcılığına təsiri olmuşdur, onun əsərindən istifadə etmişdir[1].

Nizaminin yaradıcılığına, «İskəndərnamə» poemasının yazılmasına təsir edən ən çox xoşladığı Firdovsinin «Şahnamə» dastanı olmuşdur. O, bu poemada «Şahnamə»yə daim istinad edir. O, «Şahnamə» əsərinə valeh olduğunu və ona bərabər qəhrəman dastanı yazmağı arzuladığını deyir. Nizami Firdovsini «Həkim», «Müdrik», «Biliçi» və «Natiqlik mədəniyyətinin böyük ustadı» adlandırır.

Professor Celkorvsinin fikrincə, Nizaminin ən sevimli məşğuliyyəti Firdovsinin monimental dastanı «Şahnamə» idi. Firdovsinin yaradıcılığı Nizami üçün ruhlanma mənbəyi və «İsgəndərnamə» poemasının yaranması üçün material

[1] Abbasov Ə. Nizami Gəncəvi « İsgəndarnamə». B.: Elm, 1966,s.33-89

idi. Nizami öz əsərində «Şahnaməyə» tez-tez istinad edir, xüsusən «İsgəndarnamə»nin proloqunda, demək olar ki, Nizami Firdovsinin əsərinə həmişə valeh olmuş, həyatda özünə məqsəd qoymuşdur ki, «Şahnamə»yə bərabər bir qəhrəmanlıq dastanı yazsın. Odur ki, «Yeddi gözəl», «Xosrov və Şirin» və «İsgəndərnamə»dən ibarət epik poemalarının yazılması üçün «Şahnamə» əsas mənbə sayıla bilər. O, Şirvanşahının oğluna «Şahnamə»ni oxumasını, müdrikin dediklərinin mahiyyətini yadda saxlamasını məsləhət görmüşdü.

Dünya ədəbiyyatı xəzinəsində təravətini həmişə, saxlayan şah əsərlərdən biri «Şahnamə», «Çarlar haqqında kitab» əsərinin müəllifi, fars-tacik şairi Firdovsi (934-1024) Tus şəhərində kiçik torpaq sahibi – dehqan ailəsində anadan olmuş, 90 il ömür sürmüşdür.

Firdovsinin ömrünün 30-35 ilini sərf etdiyi «Şəhnamə » əsəri ibtidai insanların yer üzərində ilkin təşəkkül dövründən başlamış, eramızın VII əsrinə qədər əsasən Asiya qitəsində baş vermiş hadisələrin poetik təsvirini əhatə edir. Sinfi cəmiyyətin - quldarlığın yaranması və dinlərin əmələ gəlməsi ilə ibtidai insanların təxəyyülündən doğan nağıllar və dastanlar yazıya köçürülür, onlardakı qəhrəman surətləri ilahiləşdirilir, dastanların dini, şifahi xalqı variantları meydana çıxırdı[1].

Firdovsinin«Şəhnamə» əsərinin yazılmasından min ilə yaxın vaxt keçməsinə baxmayaraq, dünyada şöhrət qazanmış, bir çox dillərə tərcümə olunmuş, bu günə qədər də təravətini itirmədən dünya xalqlarının bədii söz və hikmət aşiqləri tərəfindən sevilə-sevilə oxunur. «Şahnamə» təkcə şərq «İliada» və «Odisseya»sı deyil, bu əsər həm də özündə mənəvi dəyərləri əks etdirən müdrik xəzinədir.

---

[1] Firdovsi. Şahnamə. Bakı: Yazıçı, 1986, s.5

Rus alimi İ.S.Braginski, «Şahnamə»ni əsatiri tarixi əfsanələrdən, lirik məhəbbət dastanlarından və nadir şəriət incilərindən əmələ gəlmiş bir okeana oxşadaraq yazır: «Okeanın üst səthi əzəmətli, onun eni, uzunu ucsuz – bucaqsızdır. Lakin onun ilk baxışda görünməyən ikinci həyatı, dərinliyi daha da əzəmətlidir. Onun dibi Alp hündürlüyündə olan uca dağ silsilələri ilə örtülmüşdür. Okeanının bu dərinliklərində hələ nə qədər əsrarəngiz və ecazkar aləm gizlənmişdir [1].

Əllidən artıq dastanı əhatə edən «Şahnamə» əsərində hadisələr tarixin müxtəlif dövrlərində, müxtəlif coğrafi mühitdə, müxtəlif tayfalar, qəbilələr, dövlətlər, xalqlar, şəxsiyyətlər arasında cərəyan etsə də, mətləb birdir. Tarix boyu bəşəriyyətin bütün parlaq beyinlərini düşündürən, bizim zəmanəmizdə də öz aktuallığını tam dolğunluğu ilə qoruyan xeyir və şər qüvvələrin arasındakı barışmaz mübarizə «Şahnamənin» ideya xəttini, bütün dastanların əsas mövzusunu təşkil edir.

Yüz iyirmi min beytdən, yəni iki min dörd yüz misradan ibarət «Şahnamə»ni ilkin şərq intibahının ən böyük diqqətəlayiq ədəbi abidəsi adlandırmaq olar. *Firdovsiyə görə, insanın mənəviyyatını pozan amillərdən biri hakimiyyət ehtirasıdır. Hakimiyyət ehtirası atanın oğul, qardaşın qardaş qanına boyanmasına gətirib çıxarır*[2]*.* Firdovsi cəmiyyətin ən böyük faciəsini, xalqların fəlakətini müharibədə görürdü. Şahnamədə müharibələr məqsəd və xarakterinə görə iki qismə ayırılır və onlara ədalətli və ədalətsiz vuruşmalar adı verilir.

Firdovsi «Şahnamə» əsərində ideal hökmdar surətini yaratmağa çalışmışdır. Firdovsi insanların səadətini sülh, əmin *Brəhmənlər ölkəsində insanlar «səadəti» könüllü yoxsulluq və məhrumiyyətdə tapırlar. Burada hamı bərabər və azaddır. An-*

---
[1] Firdovsi. Şahnamə. Bakı, Yazıçı, 1986, s.4

[2] Yenə orada, s.8

*caq bu bərabərlik aclıq və çılpaqların bərabərliyidir. Azadlıq dünyasının nemətlərindən məhrumluq azadlığıdır.* Maraqlıdır ki, Firdovsi də öz utopiyasını Nizami kimi, İsgəndərin adı ilə bağlamışdır, lakin müraciət obyektləri eyni olsa da, bu iki dahi sənətkarın ictimai- fəlsəfi görüşlərində fərqli və təzadlı cəhətlər tam aydınlığı ilə göstərilir. Nizami utopiyasında maddi, ictimai və hüquq bərabərliyi əsasında qurulmuş cəmiyyətdə zəhməti həlledici amil sayıldığı halda, «Şahnamə» də Makedoniyalı İsgəndərin getdiyi Brəhmənlər ölkəsində insanlar «Səadəti» könüllü yoxsulluq və məhrumiyyətlərində tapırlar. Burada hamı bərabər və azaddır. Ancaq bu bərabərlik acların və çılpaqların bərabərliyidir. Azadlıq dünyasının nemətlərindən məhrumluq azadlığıdır. Azadlıq – Nizami utopiyasında göstərilən dünyanın nemətlərindən istifadədən məhrumluq azadlığıdır[1].

Firdovsi «Şahnamə»sində elmi məsələlər də geniş işıqlandırılır, bəzi fəlsəfi anlayışlar özünəməxsus şəkildə izah olunur. Firdovsi allahın varlığına inanır, dünyanın, insanın, Günəşin, Ayın yaranması haqqında fikirləri Quran ayələrində deyilənləri əks etdirir, bu deyilənlər bəzi müdriklərin təlimi ilə üst-üstə düşür.

Nizami Gəncəvi Firdovsinin «Şahnamə»sinə belə qiymət vermişdir: Şeirin elə bir qiymətli gövhərini yonmuşdur ki, onun tör-töküntüsü ilə bir çox bədii söz gəlinini bəzəmək olar.

Firdovsi də, Sokrat və Platon kimi, dövlətin inkişaf və möhkəmləndirilməsini ədalətli insanların- filosofların hakimiyyətə gəlməsində görürdü. «Şahnamə»də ağıl, ədalət, cəsarət və qüvvə ayrı-ayrı müxtəlif qəhrəmanların timsalında təqdim olunmur, onlar eyni şəxsdə - İran hökmdarlarında orqanik şəkildə birləşir və bu, surəti daha da dolğun, maraq-

[1] Firdovsi. Şahnamə. Bakı: Yazıçı, 1986, s.11

lı və çoxşaxəli edir. «Şahnamə» - də dünyanın dörd ünsürdən – su, torpaq, od, və küləkdən yaranması fikirləri ifadə olunmuşdur.

Firdovsi «Şahnamə» poeması üzərində 35 il işləmişdir. Demək olar ki, həyatının yarısını şair bu poemaya həsr etmişdir. Bu poemanın yazılmasına görə, Sultan Mahmud Qəznəvi (998 – 1030) Firdovsiyə külli miqdarda qızıl pul vəd etmişdi. Belə ki, sultan poemanın hər beytinə (beyt – iki misradır) bir qızıl pul verəcəyini söz veribmiş. Şair poemanı bitirdikdən sorna sultan kitabı guya, çox da bəyənmir. Sultan poemanın hər beytinə görə, bir qızıl pul əvəzinə, gümüş pul göndərir. Şair bunu özünə və poemasına hörmətsizlik kimi qəbul edir və sultanın göndərdiyi gümüş pulların hamısını elə oradaca kasıblara, fəqir – füqəraya paylayır. Şairin bu hərəkəti sultanın acığına gəlir. Bu hadisədən sonra Firdovsi öz doğma yurdunu tərk etmək məcburiyyətində qalır və lap qoca yaşlarınadək vətəndən kənarda yaşayır...

Ömrünün sonlarına yaxın, lap qoca yaşlarında Firdovsi öz elinə, obasına qayıdır. Bu zaman artıq sultan şairin poemasını layiqincə qiymətlərdirmişdi və ona külli miqdarda qızıl pul ayırmışdı. Sultan biləndə ki, Firdovsi vətənə qayıdıb, qızıl pulları dəvələrə yüklədərək şairin yaşadığı şəhərə yollanır ki, hədiyyəni özü şəxsən şairə təqdim eləsin. Amma təəssüflər olsun ki, Firdovsi bu təqdimatı görə bilmir... Sultan Mahmud Qəznəvi qızıl karvanı ilə şəhərin giriş qapısından girərkən, şairin cəsədi şəhərin çıxış qapısından dəfn edilmək üçün aparılırdı....

## 5.5. Nəsirəddin Tusi – Müsəlman İntibahının ən nəhəng ensiklopedik alimi

*• Nəsirəddin Tusi cəmiyyətin həyatında dövlətin rolunu tədqiq etmiş, dövlət və insanın qarşılıqlı məsuliyyət konsepsiyasını, şəhər-dövlətin müdrik idarəçiliyi və ədalətli qanunlar qəbul edən ağıllı hökmdarı olan dövlətin ideal modelini yaratmışdır.*

*• Elm – başlanğıc, təcrübə – son; elm – səbəb, təcrübə isə – nəticədir.*

***Nəsirəddin Tusi***

*• Təbiət insanı zülmətlə dövrələyir və onu daimi işığa doğru getməyə məcbur edir. Bu işıq isə elmdir, zövqlərin ən gözəli elmdən alınan zövqdür.*

***Samul Smayls***

Ensiklopedik alim, filosof, astronom, riyaziyyatçı, ilahiyyatçı və hüquqşünas, dövlət xadimi, dünya elminin parlaq zəkalarından biri Nəsirəddin Tusi (1201-1274) elmin müxtəlif sahələrinə töhfəsini verən bir mütəfəkkir kimi tarixə düşmüşdür. O, müsəlman İntibahının ən nəhəng nümayəndəsidir. Nəsirəddin Tusi öz fəlsəfi, dini görüşlərini təbiət elmi, astronomiya, tibbi-bioloji, humanitar elmləri ilə sintez etmişdir.

İlk təhsilini atasından alan Nəsirəddin Tusi dövrünün ən şöhrətli müəllim və müdriklərindən, hikmət, məntiq, idrak nəzəriyyəsini İbn Sinanın tələbəsi olan məşhur Azərbaycan filosofu Bəhməniyardan almışdır. O, gənc yaşlarında dərin bilik almaqla, geniş məlumata malik olmuş, müstəqil fikirlər, cəsarətli mühakimələr yürütməklə oxumağa böyük maraq göstərən insan kimi özünü göstərmişdir. O, Quranı, yurispru-

densiyanı, məntiqi, fəlsəfəni, riyaziyyatı, tibb elmini və astronomiyanı dərindən bilmişdir.

Nəsirəddin Tusinin aldığı hərtərəfli dərin biliklər az bir vaxtda onu elm mühitdə məşhurlaşdırmışdır. O, Kuhistan hökmdarlarının tapşırığı ilə yazdığı və ona dünya şöhrəti gətirmiş və bir çox dillərə tərcümə olunmuş «Əxlaqi-Nasiri» əsərinin yaratdığı narazılığa görə 20 ildən çox qartal yuvası sayılan «Ələmut» qalasında sürgün həyatı keçirmişdir. Nəsirəddin Tusini bu illərin zindan həyatı sındıra bilmir. O, qalada olan zəngin kitabxanadan istifadə etmiş, elmi yaradıcılıqla məşğul olmuş, astronomiya, fəlsəfə, məntiq və elmin başqa sahələrinə aid əsərlər yaratmışdır. Nəsirəddin Tusi yazırdı: *«O kitabların çoxunu mən ağır bir şəraitdə, dəhşətli əzablar içərisində yazmışam. Gözlərimin yaşla, ürəyimin narazılıqla dolmadığı vaxt olmurdu, saat da keçmirdi ki, əzablarım artmasın»*[1].

Çingiz xanın nəvəsi Hülaku xan Yaxın Şərqə yürüşü zamanı «Ələmut» qalasını almış, İsmaililər dövlətinin hakimiyyətinə son qoymuş, Nəsirəddin Tusi azad edilərək xanın şəxsi məsləhətçisi (vəziri) təyin edilmişdir. O, Hulakü xanın ona yaxın münasibətindən istifadə edərək Marağa rəşədxanasını tikdirmiş, orda 400 min kitab saxlanılan kitabxana, eyni vaxtda 100 elmi əməkdaş işləyən, elmi işçi hazırlamaq üçün Nizamiyyə məktəbindən heç də geri qalmayan «Marağa mədrəsəsini» yaratmışdır. Bu mədrəsədə bütün bilik sahələri, elm, din, fəlsəfə və ictimai-siyasi elmlər öyrənilmişdir. Tusinin xahişi ilə hərbçilərin əlinə düşən əsir alimlər və qənimətlər, əlyazmalar və astronomik cihazlar rəşədxanaya göndərilirdi.

Tusi bütün həyatı boyu düşüncəsini təbiəti, cəmiyyəti və

---

[1] Azərbaycan fəlsəfə tarixi. II cild. Bakı: Elm, 2014,s.135

insanı dərk etməyə sərf etmişdir. O, yazırdı: təbiətdə ikilik yoxdur, bütün təbiət təzahürləri bir-birini tamamlayır. Təbiətin bütün təzahürlərini sevmək lazımdır, o, bütün hallarda gözəldir, onun meyvələri həmişə və hər yerdə göz qabağındadır. İnsan aləmdə ən şərəfli yaradılmışdır və insanın xoşbəxtliyi və bədbəxtliyi, onun mükəmməlliyi və ya cahilliyi insanın ağıl və iradəsindən asılıdır.

Tusi o zaman yunan, ərəb və fars dilində son dərəcə böyük şöhrət tapmış Platon, Aristotel, Fərabi, Biruni, İbn Sina, Qəzali kimi alimlərin fəlsəfə və əxlaqa aid əsərlərindən, «Kəlilə və Dimnə», «Ərdəşiz Babəkon», «Ənuşirəvanın vəsiyyətləri» kimi xalq müdrikliyi ilə dolu olan dastan və folklor ədəbiyyatından, «Siyasətnamə», «Məqabannamə» kimi tərbiyəvi, siyasi və dövlət məsələlərinə həsr edilmiş kitablardan da yeri gəldikcə «Əxlaqi-Nasiri» əsərinə daxil etmişdir. Tusi cəmiyyət həyatında dövlətin rolunu tədqiq etmiş, dövlət və insanın qarşılıqlı məsuliyyət konsepsiyasını, şəhər – dövlətin müdrik idarəçiliyi və ədalətli qanunlar qəbul edən ağıllı hökmdarı olan dövlətin ideal modelini yaratmışdır. Onun fəlsəfi baxışları ədalətlilik prinsipi ilə səciyyələnirdi.

Tusinin «Əxlaqi-Nasiri» traktatı orta əsrlərdə latın dilinə tərcümə olunmuş və Avropada nəşr olunmuşdur. «Əxlaqi-Nasiri» əsərinin ən başlıca cəhəti antik yunan fəlsəfəsinin, qədim İran tərbiyə nəzəriyyəsinin, klassik ərəb-şərq əqidəsinin və Azərbaycan iqtisadi-siyasi təcrübəsinin üzvi bir vəhdət halında sistemə salınmasından ibarət olmasıdır.

Bu kitab, demək olar ki, özündən əvvəl Yaxın və Orta şərqdə hökm sürən əxlaq fəlsəfəsi fikrinə yekun vurmuş, bunların yığcam icmallarını verməklə Tusi öz orijinal fikirlərini də buraya əlavə etmişdir. Ədəbiyyatda qeyd olunur ki, biz son yeddi yüz il ərzində fars dilində belə bir əsər kimi

ikinci bir orijinal əsərin yazılmasına hələlik təsadüf etmirik[1]. Bu əsərdə dünyanın təkamülü, onun canlı aləminin cansız minerallardan, mürəkkəb orqanizmlərin daha sadələrdən yarandığını göstərilir.

Nəsirəddin Tusi fars və ərəb dillərində 150 traktat və məktublar yazmışdır. Onun əsərləri dəfələrlə Avropa İntibahının əsas mərkəzləri olan İtaliya, İngiltərə və Fransada nəşr olunmuş və bu əsərlər Bakı, Paris, Berlin, Vena, Oksford, Kembric, Leypsiq, Münxen, Florensiya, Qahirə, İstambul, Moskva, Sankt-Peterburq, Kazan kitabxanalarını bəzəyir. Tusi istər öz dövründə, istərsə də bütün tarix boyu şərqin ən istedadlı, nüfuzlu, görkəmli və çoxcəhətli kəskin idrakı, dərin zəkası, uzaqgörənliyi ilə seçilmiş bir alim kimi həmişə diqqət mərkəzində olmuşdur. Onun əsərləri bu günə qədər öyrənilir və onlara maraq azalmır.

Tusiyə görə dünya əvvəl eyni cür olub və onda daxili ziddiyyət gizlənir. Bu ziddiyyətlərin aşkarlanması, ilk elementlərin dəyişməsi və qarşılıqlı təsirindən ətraf mühitin inkişafı baş verir. İlk elementlər birləşir, mineral əmələ gətirir, sonra minerallardan bitki yaranır, bitkilərdən – heyvanlar, heyvanların inkişafından insan yaranır. Heyvanlar və insan arasında aralıq heyvanlar var, əsas pillədə insan bədəninə oxşar meymun əmələ gəlir. Bu təkamül nəzəriyyəsindən insanın meymundan əmələ gəlməsi haqqında Darvin öz nəzəriyyəsində, güman ki, istifadə etmişdir.

«Əxlaqi-Nasiri» əsərində insanlarda olan fitri qabiliyyət və istedadlar, təcrübə vasitəsilə əldə edilən peşə və sənətdə mühitin, şəraitin insana təsirindən, təlim-tərbiyənin son dərəcə böyük rol oynadığından danışılır. Bu əsərdə «İnsan qəlbinin (bu anlayışın altında psixika və intellekt, şüur və

[1] Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Bakı, Elm, 1980,s.12

dərketmə, nitq nəzərdə tutulur) problemlərinə toxunur və onun təkmilləşməsi haqqında danışır. Bu təkmilləşmənin bilik və praktiki fəaliyyətlə əldə edilməsini göstərən iki yol ayırır. Tusi xüsusi qeyd edir ki, materiya xüsusiyyətsiz, xüsusiyyət də materiyasız mövcud ola bilmədiyi kimi, *elm təcrübəsiz məhv olur, təcrübə isə elmsiz mövcud ola bilmir.* Deməli, elm (bilik) başlanğıc, təcrübə isə sonu, elm – səbəb, təcrübə – nəticədir. Beləliklə, təkmilləşmə insana xas olan bu ikisinin (elm və təcrübənin) üzvi birləşməsi yolu ilə başa çatır. Bu kitabda Tusi ictimai-siyasi və etik normalara öz baxışlarını ifadə etməklə yanaşı, o, təkmilləşən insan keyfiyyətlərini: xarakterini, ləyaqətini (fəzilətini) və rəzalətin, fəzilətə və xoşbəxtliyə aparan yolları fəlsəfi prizmada tədqid edir. Nəsirəddin Tusinin yaradıcılığı, dövlət və cəmiyyət, idarəetmə və siyasət, qanunçuluq, sosial ədalət və sosial utopiya haqqında təlimi Aqşin Quliyevin 2014-cü ildə «Qanun» nəşriyyatında nəşr olunmuş beş miniatür kitablarında təhlil edilmişdir.

*Alimlərin gəldiyi fikrə görə, N. Tusinin əsərləri əsasında çoxlu elmi kəşflər edilmişdir. Onlardan: İ.Nyutonun mexanika qanunları, L. Keplerin fəza mexanikası, Lobaçevskinin qeyri-Evklid həndəsəsi haqqında əsəri, Kopernikin kainatın modeli, Darvinin insanın meymundan əmələ gəlməsi haqqında təkamül nəzəriyyəsini göstərmək olar. Qeyd etmək lazımdır ki, Amerika materikinin mövcudluğunu Kolumbdan çox-çox əvvəl Nəsirəddin Tusi öz cədvəlində göstərmişdir. Kolumbun müəllimi P. Toskonelli Tusinin cədvəlindən istifadə etmişdir.*

I Şah Abbas Tusi dühasına, Tusi şəxsiyyətinə böyük ehtiram bəsləmiş, hörmət əlaməti olaraq Tusi nəsli övladlarının yaşadığı Ordubad əhalisini vergidən azad etmişdir. Tarixə məlumdur ki, N. Tusinin nəsli Naxçıvanda yaşamışdır.

**N. Tusinin hikmətli sözləri:**

*«Tək yaşayan adam yarımçıq həyat sürür». «İnsanın xoşbəxtlik və bədbəxtlik açarı, kamillik və naqislik sükanı onun ağıl və iradəsinin ixtiyarına verilmişdir». «Mənəvi zövq əmək, zəhmət, iradə və fəaliyyət nəticəsində əldə edilir». «Hər kəs təklikdə kamala çatmaz». «Dövlət quşunun gələn yeri dar olar, çıxan yeri gen». «Divarı uçurmazdan əvvəl, o tərəfdə səni nə gözlədiyini öyrən». «Elmin düşməni yaddaş zəifliyidir». «Dahilər bulud arxasndan çıxan günəşə bənzər».*

## 5.6. «Kəlilə və Dimnə» - Şərqin monumental ədəbi abidəsi

*• İstedad və qabiliyyəti olanlar özlərini alçaq vəziyyətdən ali dərəcəyə çatdırır, iradəsi zəif, əqli kəm olanlar isə yüksək mövqedən aşağı rütbəyə enirlər. Yüksək dərəcəyə qalxmaq cox çətin, oradan aşağı enmək isə olduqca asandır.*

*• Üç şey olmasa, heç vaxt böyük rütbəyə çatmaq mümkün deyil: zəhmət çəkmək, dövlət sərf etmək, güzəştə getmək.*

*• Əqilli və danışmağı bacaran adamlar, yalanı həqiqətə və həqiqəti yalana çevirməyi bacararlar... mahir rəssamlar qələmlə elə səhnələr yarada bilir ki, burada heykəllər şəkil, şəkillər heykəl kimi görünür.*

*• Ağıllı adamlar insanların gizlin işlərini onların xarici əlamətlərindən, xarici görünüş və qiyafələrindən başa düşərlər.*

***Kəlilə və Dimnə***

«Kəlilə və Dimnə» əsəri zamanın və dövranın sınaqlarından çıxaraq öz təravətini bu gün də itirməyən, insan-

ların şüuruna böyük pozitiv təsir effekti verən ibrətamiz məsələlər toplusudur.

Öz möhtəşəmliyi, bədii dəyəri, dünya ədəbiyyatında inkar edilməz mövqeyi olan, şərq folkloru əsasında hekayə, nağıl, təmsil və rəvayətlər şəklində verilmiş «Kəlilə və Dimnə» əsəri hakimiyyət mətbəxində baş verən prosesləri, bu prosesdə iştirak edən personalların keyfiyyətlərinin zəruri modellərini, onların elmi, təlim, tərbiyə və davranış etalonlarını hikmətli kəlamlarda verir.

«Kəlilə və Dimnə » əsəri Şərqin ən monumental abidələri olan, Yaxın şərq xalqlarının min illərdən bəri yaratdıqları və çoxsaylı müəllif tərcüməsi və tədqiqatçılar tərəfindən toplanmış «Min bir gecə» nağıllar toplusuna, həyatın müxtəlif sahələrinə həsr edilmiş qırx dörd fəsildən ibarət, birinci fəsildən başqa hər biri tərbiyə və etikayaya aid mühüm həyat məsələlərini öyrənmək, cəmiyyətin yaşayış normalarını canlı və əyləncəli ifadə edilmiş hekayələrdə, müdrik kəlamlardan ibarət olan, əsrlər boyu gənc nəslin tərbiyəsində mühüm rol oynayan «Qabusnamə» əsərinə, şərqin adət və ənənələri, etik qayda-qanunlar haqqında maraqlı məlumatlarla dolu əlli iki dastan və rəvayətdən ibarət «Tutinamə» əsərlərinə təsir göstərmişdir.

«Kəlilə və Dimnə» əsəri bədii ədəbiyyatla yanaşı tarixi, fəlsəfi əsərlər, böyük şair, yazıçı, filosof, alimlərin yaradıcılığına təsir etmiş və hökmdarın həyat fəaliyyətində geniş istifadə edilmişdir. Nizami Gəncəvinin «Xosrov və Şirin» əsərində Xosrovun tərbiyəsində «Kəlilə və Dimnəyə» müraciət edildiyi bildirilir.

Hindistanda təşəkkül tapmış «Kəlilə və Dimnə» bir çox dillərə dönə – dönə tərcümə edilərək əql və kamal sahibli insanların qəlbinə yol tapmış, uzun yol keçmiş, əldən-ələ,

nəsildən-nəslə verilmiş, ağızdan-ağıza, kağızdan-kağıza köçürülərək get-gedə daha da zənginləşmiş, səlisləşmiş, məzmunca dolğunlaşaraq bitkinləşmişdir[1]. Rusiya, Amerika və Azərbaycan daxil olmaqla dünyanın əksər ölkələrinə yayılmışdır[2]. «Kəlilə və Dimnə» əsərində insanın bilməsi üçün zəruri olan çox qiymətli fikirlər var, onlardan: *bir həqiqəti də bilmək lazımdır ki, oxumağın faydası əzbərləməkdə yox, dərk etməkdədir. Hər kəs bilmədiyi işdən yapışsa, onun vəziyyəti sözü əzbərləyib mənasını başa düşməyən adamın vəziyyətinə oxşar; İki şeydən, yəni elm və maldan, insan əvvəl özü istifadə edib, sonra başqalarına paylamalıdır. Təcrübələrin nəticələri səmərəli olduqda, insan əvvəl onu özünə, sonra başqalarına tətbiq etməlidir, yəni insan əvvəl özünü müalicə etməlidir, sonra başqalarını. Kim bu sözlərin mənasını dərk etməyib onu cəfəngiyyat saysa, «koru» gor oxuyan axmağa bənzər.*

*Ağıllı adam gərək işin əvvəlində onun sonunun nə ilə qurtaraçağını gözünün qabağına gətirə, yola çıxmamış hara gedəcəyini müəyyən edə. Əks halda o yolun ortasında avara qalar, nəticədə isə peşimançılıq və fəlakətdən başqa bir şey qazanmaz... ağıllı adam odur ki, əcdadların həyatından ibrət dərsi götürüb onların təcrübəsindən istifadə edə. Hər bir işi yenidən yoxlamaq istəyə; ağıllı adam özünə rəva bilmədiyi şeyləri başqalarına da rəva görməməlidir. Çünki hər bir əməlin öz mükafatı var, möhlət başa çatdıqda, vaxtı yetişdikdə o özünü mütləq büruzə verər*[3]*;*

*Birdən bütün insanların nəfsi kimi mənim də nəfsimin dörd şey arzusunda olduğunu hiss etdim: mal toplamaq, keyf çəkmək, başqaları tərəfindən təriflənmək və əbədi şöhrət qa-*

---

1 Kəlilə və Dimnə. Bakı: Azərnəşr, 1982, s.6

2 Yenə orada, s.24

3 Yenə orada, s.44, 65

*zanmaq; Dövlətlilər tərəfindən deyilərkən alqışlanan və tərifə layiq görülən hər söz, yoxsul tərəfindən deyildikdə, nifrətlə qarşılanar və təhqirə layiq görülər. Yoxsul igidlik etsə–onu axmaqlıq qələmə verərlər, səxavət göstərsə – israf hesab edərlər, həlim olsa–qorxaq, vüqarlı olsa – özünü çəkən sayarlar; hikmətli söz danıışıb mənalı fikir desə – boş-boğaz və lovğa adlandırarlar; danışmayıb sakit otursa – fağır, dilsiz-ağızsız heyvan hesab edib başına noxta vurarlar.*

*Əli əjdahanın ağzına salıb oradan bir az zəhrimar götürmək və ya şirin qabağından bir tikə qapıb qaçmaq-namərd adama əl açıb sədəqə diləməkdən daha asandır; Deyiblər ki, sağalmaq ehtimalı olmayan xəstəlik, vüsal ümidi olmayan hicran, geri qayıtmaq gümanı olmayan qəriblik-yoxsulluq və dilənçilikdən asandır; Atalar demişlər ki, şücaətli və güclü pəhləvanlar-vuruşda, əli düz adamlar-ticarətdə, arvad və uşaqlar-yoxsulluqda, dost və qardaşlar-bərk gündə tanınar.*

*Deyiblər ki, beş xasiyyəti olan ac qalmaz, hara getsə, məqsədinə çatar, yadlar dost olar, qürbət-vətən. Bu beş xasiyyət bunlardır: mərdümazarlıq etməmək, şübhəli işlərlə məşğul olmamaq, əxlaq qaydalarına riayət etmək, xeyirxahlıq göstərmək, adət və ənənələri pozmamaq; Doğma vətənində, qohum-qardaşı, el və tayfası içərisində həyatını təhlükədə görən ağıllı adam, arvad -uşağından, dost-aşnasından, can-ciyərindən əl çəkib qürbət vilayətə getməyi daha üstün tutar, çünki bunlara əvəz tapmaq mümkündür, lakin öz canına əvəz tapmaq necə mümkün olar;*

*Səkkiz adamla dostluq etməkdən çəkinmək lazımdır: birinçisi – nankor və haqq itirənlərdən; ikincisi – yersiz özündən çıxıb hirslənənlərdən; üçüncüsü, – ömrünün uzunluğu, yaşının çoxluğuna qürrələnib qayda-qanunlara tabe olmayanlardan; dördüncüsü, – asanlıqla riya və xəyanət yoluna düşə bilənlər-*

*dən; beşincisi, – işlərini doğruluq və düzgünlük əsasında deyil, yalan və əyrilik əsasında quranlardan; altıncısı, – həris, düşgün və şəhvətpərəstlərdən; yeddincisi,– səbəbsiz olaraq xalqdan şübhələnib, əsassız olaraq əhalini müttəhim edənlərdən; səkkizincisi, – həyasızlıqda ad qazanıb, şit zarafat etməkdə şöhrət tapmışlardan. Səkkiz adamla dostluq etmək isə məsləhətdir: birincisi – qənaət və səxavətə adət edənlərlə; ikincisi –hadisələrin gedişinə uymayan, öz sözündən dönməyənlərlə; üçüncüsü – alim və hünər sahiblərinə qiymət verənlərlə; dördüncüsü – xəyanətə və namərdliyə nifrət edənlərlə; beşincisi – nalayıq hərəkətlərdən çəkinib, xoşa gələn işlərə meyl göstərənlərlə; altıncısı – qəzəbli vaxtlarda özünü ələ ala bilənlərlə; yeddincisi – hərislik edib, tamaha düşmək lazım gələn vaxtda səxavət göstərə bilənlərlə; səkkizincisi – əyyaş və düşgünlər məclişnə nifrət edənlərlə. Deyiblər, insanların ən nadanı özünün bacarmayacağı, ana-atalarının görmədiyi, bilmədiyi bir işdən yapışandır. İstedadsız, iş bacarmayan ünsürlərin yüksək vəzifələrə soxulub böyük adamlarla oturmasına imkan verilməməlidir; İki adamdan uzaq olmaq lazımdır: birincisi – aqibətin əzab və savabını nəzərə almayıb, pislə yaxşıya fərq qoymayanlardan; ikincisi – gözlərini başqalarının malına dikənlərdən, qulaqlarını söyüş və qiybətə öyrədənlərdən, vaxtlarını əyyaşlıqla keçirənlərdən, həris və paxıl olanlardan.*

# VI FƏSİL

~~~~~~~~~~~

# DÖVLƏT HAQQINDA ORTA ƏSRLƏRDƏ VƏ YENİ DÖVRDƏ AVROPA MÜTƏFƏKKİRLƏRİNİN BAXIŞLARI

• *«Avropa» sözünü siyasətçilər başqa dövlətlərdən öz adından deyə bilmədiyini tələb edəndə istifadə edirlər.*

***O.Bismark***

• *Keçmiş və bu gün – bizim vasitədir, yalnız gələcək bizim məqsəddir.*

***Paskal***

• *Ən vicdanlı adamın əli ilə yazılmış altı söz mənə versəniz, mən onda elə şey taparam ki, onu ona görə asa bilərlər.*

***Rişelye***

## 6.1. N.Makiavelli – «Makiavellizm»in banisi

• *Hakimiyyətin effektivliyi və təsirliliyi hər zaman onun formasından və strukturundan (monarxiya, respublika, oliqarxiya, despotiya, parlamentin olması və onun yoxluğu və s.) yox, hakimiyyətə malik olan, onu həyata keçirənin şəxsin keyfiyyətlərindən asılıdır.*

• *Siyasət keçmişi aydınlaşdıran, hazırda rəhbərlik edən və gələcəyi proqnozlaşdıran təcrübə elmidir.*

• *Ağıllı üç növ olur: birinci hər şeyi özü dərk edir, ikinci – yalnız birincinin dərk etdiyini başa düşür»; üçüncü – özü heç nəyi dərk etmir və başqalarının də dərk etdiyini başa düşmür.*

***Makiavelli***
~~~~~~~~~~~

• *Mən bəzən tülki, bəzən şir oluram; idarəetmənin bütün sirri onldadır ki, biləsən nə vaxt bunların hansından olasan.*

***Napoleon***

İtaliyada İntibah dövrünün mütəfəkkiri, filosofu, yazıçısı, siyasi xadimi Nikollo Makiavelli (1469-1527) Florensiya respublikasının diplomatik əlaqələrə cavab verən ikinci katibi vəzifəsində işləmiş, hərbi-nəzəri əsərlərin müəllifidir. Kilsəyə və dinə loyal olan imkanlı hüquqşünas ailəsində anadan olmuş gənc Nikollo antik humanist ruh xarakterli ənənələri öyrənməklə yanaşı, atasının evində olan kitabxanada qədim klassiklərin əsərlərinə bilavasitə müraciət etmişdir. Makiavelli yaxşı təhsil almış, latın və italyan klassiklərinin bütün əsərlərini dərindən öyrənmişdir

Makiavelli gəncliyində siyasətlə maraqlanmış və siyasi vəzifələrdə çalışmışdır. Onun həyatını iki mərhələyə ayırmaq olar: həyatının birinci hissəsində, əsasən, o dövlət işləri ilə məşğul olmuş, 1512-ci ildə fəal siyasətdən məcburi uzaqlaşdırılmışdır.

Gənc N.Makiavelli magistr məktəbinə daxil olur və orda qramatikanı öyrənir. Bir ildən sonra şəhər məktəbinə dəyişir, latın klassiklərini öyrənir, 11 yaşında hesabı öyrənməyə, 12 yaşında isə Latın stilistikası kursu keçməyə başlayır.

Yunan dilini bilmədiyindən latın tərcüməsində Herodotun, Plutarxın, Ksenofontun, Aristotelin, Fukiditin və b. əsərləri ilə tanış olur. Latın müəlliflərini həm məktəbdə və həm də bütün həyatı boyu, xüsusən Tit Liviyanı, Tositi, Siseronu, Sezarı, Virgilini, Svetoniyı, Ovidiyi və b. əsərlərini daimi oxuyurdı[1]. Erkən intibah dövrü klassikləri – Dante və Petrarkın yaradıcılığı onu

---

[1] 100 Великих мыслителей. М.: Вече, 2002,с.188

maraqlandırırdı və həyəcanlandırırdı. Güman ki, atası Makiavellini hüquq elm və praktikası ilə tanış etmişdi.

Makiavelli güclü dövlət hakimiyyəti tərəfdarı kimi çıxış edən, dövlət hakimiyyətini saxlamaq üçün və axır məqsədə çatmaq üçün istənilən vasitənin tətbiqinə yol verməyin mümkünlüyünü göstərən məşhur «*Hökmdar*» əsərinin (bəzən onu «*Knyaz*» əsəri də göstərirlər) müəllifidir. Makiavelli «Hökmdar» əsərində hakimiyyətin rengendə olduğu kimi daxilini açır. Makiavelli hesab edirdi ki, dövlət vahid iradə ilə idarə olunmalıdır. Bir nəfərin iradəsi dövlətdə qayda yaratmaqla və tək ağılla onun bütün idarəçilərinə sərəncam verməklə qayda-qanun yaradır[1].

Makiavelli İtaliyanın bədbəxtliyinin onun siyasi pərakəndəliyinin və daxili müharibələri aradan qaldırmaq yolunu yalnız vahid hökmdarı olan mərkəzləşdirilmiş dövlətdə və güclü hakimiyyətdə görürdü. Kitab monarx və respublika tərəfdarları, peşəkar və diletant, demokrat, patriot və ümumiyyətlə istənilən şəxs üçün eyni cür maraqlıdır. Makiavellinin yaşadığı dövrü həyəcanlı dövr adlandırmaq olar. O dövrdə yalnız Roma papasının tam bir qoşunu ola bilərdi, İtaliyanın varlı şəhərlərinin ordusu olmadığından, biri digərinin ardınca xarici dövlətlərin – Fransa, İspaniya və Müqəddəs Roma imperiyasının hakimiyyəti altına düşürdü. Bu dövr ittifaqların dəyişildiyi, xəbərsiz düşmən tərəfə keçən muzdlu əsgərlərin daimi yerdəyişməsi, bir neçə həftədə mövcud olan hakimiyyətin yıxılıb yenisi ilə əvəz edilməsi dövrü idi. Bu qaydasız devrilmələrdən 1527-ci ildə Romanın süqutu, Florensiya və Genuyanın XII əsrdə barbar-german ordusu tərəfindən yandırılmasını göstərmək olar.

[1] Коркунов Н.И. История философии и права. С.-Петербург, 1908, с.114

1494-cü ildə Fransa kralı VIII Karl İtaliya və Florensiyanı tutandan sonra 60 ilə yaxın oranı idarə edən ailənin nümayəndəsi P. L. Mediçi xain kimi ölkədən qovulur və Savanorolu Fransa kralının Florensiyada səfirliyinə başçı qoyulur. O, Florensiyanın həqiqi hökmdarı olur, Florensiya respublikasını bərpa edir və respublika təsisatlarını qaytarır. Savanorolun təklifi ilə «Böyük Şura» və «80-lər Şurası» təsis edilir. Onun himayəsi ilə 1498-ci ildə Makiavelli dövlət qulluğuna – səfir vəzifəsinə götürülür. Savanorolun öldürülməsinə baxmayaraq, Makiavelli «80-lər şurasına» yenidən seçilir və diplomatik danışıqlar aparır və hərbi işlərlə məşğul olur.

1502-1503-cü illərdə olduqca qabiliyyətli, hərbi rəis və dövlət xadimi, əsgər – klerikal Florensiyanın başçısı Sezare Bordja səmərəli şəhər tikintisi metodları tətbiq edir və qarşısına mərkəzi İtaliya torpaqlarını genişləndirmək məqsədi qoyur. Sezarie Bordja öz atası – Roma papası VI Aleksandrın köməyi ilə Şimali İtaliyada kiçik knyazlıqları birləşdirərək mütləq hakimiyyət xarakterli mərkəzi dövlət yaradır. Bordjanın atasının ərli qadınla yaxınlığı nəticəsində qanunsuz doğulmuş dörd övladı, böyüyü Sezar olmaqla 3 oğlu, bir qızı olur. Atası bütün uşaqları övladlığa qəbul etmişdir[1].

Sezare yaxşı təhsil alır, universitetdə hüququ, humanitar elmləri öyrənir. Onun həyatı ziddiyyətli olmuş, Papa ordusuna başçılıq edən qardaşını müəmmalı şəkildə öldürmüş və Tiber çayına atmış, rəqiblərini, o cümlədən bacısının həyat yoldaşını öz adamları vasitəsi ilə aradan götürmüşdü. Sonra isə öz adamları olan bu qatillərin özləri də bu aqibəti yaşamışlar. Makiavelli yazırdı: hersoq (Sezare) ətrafına daha çox sirli insanları yığırdı. O, həyata keçirmədiyi heç bir niyyətini əvvəlcədən açıqlamırdı. Sezar öz məqsədlərini həyata keçir-

[1] 100 Великих диктаторов. М.: Вече, 2002,с.261

məkdən ötrü gizli müharibələrdən istifadə edirdi. Casusluq vasitəsi ilə öz planlarını düşmənlərə şüurlu olaraq yanlış şəkildə çatdırırdı. Düşməninə və seçilmiş qurbanına qəflətən hər tərəfdən hücum edirdi[1]. Sezarenin kəşviyyatçıları böyük rol oynayırdı, onların köməyi ilə muzdla tutulan dəstələrin qiyamı yatırılırdı. Sezare və onun agentləri qiyamçıların bir hissəsinə yalandan söz verməklə onların koalisiyasını dağıdır, bir hissəsini danışıq üçün yanına çağırtdırır və öldürtdürdü. Sezare ehtiyac qalmadıqda öz kəşviyyatçılarını da məhv edirdi. Onun əsas aləti quldurluq, igidlik, hiyləgərlik, fərasətlilik və soyuqqanlılıq idi. Sezare 32 il (1475-1507) yaşamışdır. Sezare fəaliyyətində Yuli Sezarı özünə nümunə seçmişdir.

1502-ci ildə Makiavelli «Hökmdarın» prototipi Sezare Bordja ilə rastlaşır. O Sezare Bordjanı ideallaşdırmır, ondan İtaliyanın böyük vilayətlərini özünə tabe etmək və birləşdirmək üsullarını öyrənir. Makiavelli ən erkən yazılarında onu belə xrakterizə edirdi: Bordja böyük insana xas olan mühüm atributlardan birinə malik idi: o bacarıqlı fırıldaqcı olmaqla, yaxşı bilirdi ki, ona düşən şansdan heç bir mənəvi normalara məhəl qoymadan xeyir götürmək üçün hakimiyyətdən necə istifadə etmək lazımdır. Makiavellinin təsəvvüründə «Bordja o qədər cəsurdur ki, ən böyük iş onun üçün asandır. Şəhər və yeni torpaqlar əldə etməyə səy göstərməklə, özünə istirahət vermir, yorulmaq bilmir, təhlükəni qəbul etmirdi. Problem yaranan yerdə başqalarından əvvəl olurdu. O, öz əsgərlərinin rəğbətini qazanmış, ətrafına İtaliyanın cəsur adamlarını yığa bilmişdi. Bütün bunlar Bordjonu müzəffər və «vahiməli» edirdi. Bunun, 1513-cü ildə Makiavellinin qələmindən çıxan məşhur «Hökmdar» traktatının hərbi başçı və siyasətçi Bor-

[1] Там же, с.265

dja haqqında təsvir edilən birinci layihəsi olduğunu demək olar[1].

Tarixçilər güman edirlər ki, G. Bordjanın ətrafında keçirdiyi aylar Makiavellidə, mənəvi durumdan asılı olmayaraq, dövləti ustalıqla idarə etmək mümkünlüyü ideyası yaratmış və bu, sonralar «Hökmdar» traktatında öz əksini tapmışdır.

Florensiyanın tarixində ilk dəfə olaraq Makiavellinin atası vuruşmağa gedir, peşəkar ordu yaradır. 1494-cü ildə Florensiyadan ayrılmış Piza respublikasını geri qaytarır. 1503-1506-cı illərdə şəhər də daxil olmaqla Florensiyanın müdafiəsi Makiavelliyə tapşırılır. O, muzdlu əsgərlərə yox, vətəndaşlardan formalaşmış müdafiə dəstələrinə üstünlük verir. 1512-ci ildə Papa II Yuri Fransa ordusunun İtaliyadan çıxarılmasına nail olur. Bundan sonra Papa ordunu Fransanın ittifaq bağladığı Florensiya və Venesiyaya qarşı yönəldir. II Yuri Florensiyanı etibarlı tərəfdarı və fransızlarla vuruşan ordu komandiri kardinal Djovanni Mediçə «hədiyyə» edir. O Florensiyada əcdadlarının şəhərində öz ailə hakimiyyətini qurur, respublika üsul-idarəçiliyini ləğv edir.

1513-cü ildə Makiavelli vəzifədən uzaqlaşdırılır. Makiavelli çevrilişdə günahlandırılaraq həbs edilir. Həbsxana şəraitinin ağır olmasına, işgəncə verilməsinə baxmayaraq, çevrilişdə iştirakı olmasını inkar edir və nəticədə azad olunur. Makiavelli Florensiya yaxınlığında öz mülkünə qayıdır və siyasi fəlsəfə tarixində özünə yer tutan traktatını yazmağa başlayır. 1520-ci ildə o, Florensiyaya çağrılır, ona tarixşünas vəzifəsi verilir və beş ilə Florensiyanın tarixini yazır. Makiavellinin fikrincə siyasətdə əsas əxlaqa yox, gücə əsaslanmış siyasi davranışda mənfəət götürmə və güc durur. «Hökmdar» və «Tita Liviyanın birinci dekadasında mühakimə» *«əsərlə-*

[1] 100 Великих мыслителей. М.: Вече, 2002, с.191

*rində dövlət və cəmiyyətin siyasi vəziyyəti: hakimlik edənlərlə hakimiyyət altında olan arasında münasibətə, müvafiq qaydada qurulmuş, təşkil olunmuş hakimiyyətə, təsisatlar, qanunlar kimi baxır. Makiavelli Roma dövlətinə müasir Florensiya üçün nümunə kimi baxırdı.* Makiavellinin öz traktatını tarixi faktlarla zənginləşdirməsi, ona dəlalət edir ki, o, qədim dövrdən başlayaraq kitabı yazan dövrə qədərki tarixi yaxşı mənimsəmişdir.

Makiavelliyə görə, dövlətlər yerli əhali və ya başqa dövlətlər tərəfindən yaradılır. Birincisi, yerli əhali özlərini xarici təhlükədən qorumaq üçün bir yerdə birələşirlər; İkinci halda gəlmələrin yerli əhali üzərində zoruna əsaslanır. Yerli əhalinin yaratdığı dövlətlərdə idarəçilik forması üç cürdür. monarxiya, aristokratiya, və demokratiya[1].

Öz aralarında birləşərək insanlar özlərinə ən güclü və cəsur adamı başçı seçirlər və onun qarşısında hökmdar kimi təzim edirlər. İnsanlar arasında ünsüyyətdə xeyir və şəri, insaflı və insafsızlığın fərqlərini dərk etməyə başlayırlar, odur ki, öz xeyirxahına ziyan vuran insanları gördüyü zaman hökmdarda hiddət yaranır və bunun üçün qərara gəlir ki qanunlar yaratsın və onları pozanları cəzalandısın. Burdan ədalətlilik anlayışı yaranır. Sonralar bu insanlar ən güclü, ən müdrik və ədalətli hökmdar seçməyə başlayırlar[2]. Makiavelli İntibah dövrünün nadir siyasi xadimlərindən biridir ki, öz əsərlərində hökmdarın şəxsiyyətinin rolu haqqında məsələyə toxunur. Beləliklə, Makiavelli fəlsəfədə və tarixdə əxlaq normaları ilə siyasi məqsədəuyğunluğun nisbəti

---

[1] Коркунов Н.И. История философии и права. С.-Петербург, 1908, с.113

[2] Там же, с.113

məsələsini qoyur[1] .

Makiavellinin plebsə, aşağı təbəqəyə və Vatikanının kilsə klerklərinə nifrət, varlı və fəal şəhərlilər təbəqəsinə hörməti vardı. Makiavelli dövlətə qanundan kənar hərəkət etməyə hüquq verməni əsaslandıran *«dövlət marağı»* termininin müəllifidir. Onun fikrincə hakimiyyəti möhkəm etmək üçün hər bir vasitə qəbul ediləndir. Hökmdar öz məqsədində dövlətin müvəffəqiyyət və çiçəklənməsini ön sıraya, əxlaq və xeyirxahlığı arxa plana keçirməlidir.

Onun əsərləri Qərbdə siyasi fəlsəfənin inkişafının yeni mərhələsinin başlanmasını göstərdi. Siyasi problemlər üzərində düşüncələr, Makiavellinin inamına görə, dini normaları və mənəviyyatı tənzimləməni dayandırmalıdır.

Makiavellinin «Hökmdar» traktatında hakimiyyəti tutmaq metodologiyası, ideal hökmdar üçün zəruri idarəçilik və bacarığın metodları – siyasi texnolojisi təsvir edilir. Makiavelli hökmdara aşağıdakı tövsiyələri verir: *Bilmək lazımdır ki, düşmənlə iki üsulla mübarizə etmək olar: birincisi, qanunla, ikincisi, güclə. Birinci üsul insana, ikincisi - heyvana xasdır. Çox halda birinci kifayət etmir, onda ikincisindən istifadə edilsin. Burdan belə bir nəticəyə gəlinir ki, hökmdar təbiətdə və insanda olanları mənimsəməlidir. Beləliklə, bütün heyvanlar içərisində qoy hökmdar iki heyvana: şirə və tülküyə oxşasın. Şir tələdən qorxur, tülki isə canavardan., bu səbəbdən, tülki kimi tələdən yan keçməli, şir kimi canavarı qorxutmalıdır. Kim ki, şirə oxşardır, tələni görməyə bilər [2].*

İtaliyada XVI əsrdə Makiavellinin traktatlarının, o cümlədən «Hökmdar əsərinin yazılma dövrü feodal pərakəndəliyi dövrünə təsadüf edir. İtaliyada şəhər respublikaları ha-

---

[1] 100 Великих мыслителей. М., Вече, 2004, с.99

[2] Никола Макиавелли. Государь. М.: ООО Попурри, 1998, с.105

kimiyyət uğrunda öz aralarında rəqabət aparan və vuruşan knyazlıqlara ayrılmış ölkəni birlşdirmək qabiliyyətinə malik qüvvələr yox idi. İtaliyanın bu cür parçalanması xarici işğalçılara yüngül qənimət əldə etmək üçün şərait yaradır və öz aralarında dağıdıcı müharibələrə səbəb olurdu.

Bu traktat 1513-cü ildə yazılmış, Makiavellinin ölümündən beş il sonra nəşr edilmişdir. Bu kitab dövlət və onun idarəedilməsi haqqında öz dövrünün fundamental əsəridir. Bu günə qədər materiallar köhnəlməmiş, kitabda yazılan prinsiplər müasir geosiyasətdə də aktualdır. Makiavelli uğur kimi (şəraitdən ağıllı istifadə etmək), igidlik, alçaqlıq və cinayət, həmçinin əhalinin (xalq və ya elitanın) qərarı ilə hakimiyyətə gəlməyin variantlarını təsvir edir. «Hökmdar» traktatı İtaliyada gücü mərkəzləşdirilmiş dövlət yaratmaq üçün təlimat idi. Hakimiyyət xatirinə hətta cinayətə getmək – siyasi qətl, siyasi düşüncələri öldürmək, seçki aparmadan hakimiyyəti silahlı zəbt etmək belə məqbul sayılır.

N.Makiavellinin, demək olar ki, bütün dünya xalqlarının dilinə tərcümə olunmuş «Hökmdar» traktatı onun yaradıcılığının zirvəsidir. Tənqidçilər şər prinsipinə əsaslanan cəllad məcəlləsi, əsərdə irəli sürülmüş siyasi doktrina - əxlaq normalarına etinasızlıq göstərməklə siyasəti müəyyən etmək üsulunu «Makiavellizm» adlandırmışlar[1]. 1546-cı ildə Trident kilsəsinin materialında deyilir ki, «Hökmdar» əsəri şeytanın əli ilə yazılıb. 1559-cu ildən başlayaraq Makiavellinin bütün əsərləri əsasən «Qadağan olunmuş kitablar» siyahısına daxil edilir.

Tarixçilər Makiavellini belə xarakterizə edir: o, qamətli, orta boyu, arıq bədən quruluşu olan tükləri qara, dərisi ağ, balaca başı, arıq sifəti, yüksək alnı, olduqca işıqlı gözləri və incə

---

[1] Quliyev A.İ. İntibah dövrü və siyasi-hüquqi fikrin inkişafı. Bakı, Nurlan, 2008,c.441

sıxılmış dodaqları olan, bir az ikimənalı gülümsəyən insan idi. Makiavelli ailəcanlı idi, həyat yoldaşına dərin hörməti var idi, 5 övladı olmuşdu. Diplomatik işlərdə xaricdə uzun müddət olanda, Makiavelli adətən qadın kompaniyasında olmağı xoşlayardı.

N.Makiavellinin dedikləri hikmətli sözləri çoxdur, onlardan bəzilərini göstərmək olar:

*«Hökmdar öz təbəələrində elə qorxu yaratmalıdır ki, bu qorxu məhəbəttə oxşamasa da nifrətə də çevrilməsin»; «Ağıllı üç növ olur: birinci hər şeyi özü dərk edir, ikinci – yalnız birincinin dərk etdiyini başa düşür»; üçüncü – özü heç nəyi dərk etmir və başqlarının də dərk etdiyini başa düşmür»; «Hökmdar xalqı seçməkdə azad deyil, lakin əyanları seçməkdə azaddır, çünki onun hüququ var cəzalandırsın və ya başqasın özünə yaxınlaşdırsın və gözdən salsın»; «Hökmdar üçün vacib deyil bütün ləyaqətlərə malik olsun, amma hər ikisinə malik olmaq kimi görünmək bir başa zərurətdir»; «Hər bir adam sənin necə olduğun yox, necə ola biləcəyini görür»; «Bütün vasitələr çatmayanda, axrıncı sırada silaha əl atmaq lazım gəlir»; «İnsanlar inanırlar ki, yeni hökmdar yaxşı olacaq, odur ki, həvəslə köhnə hökmdara qarşı üsyan edirlər, tezliklə öz təcribələrində inanırlar ki, aldadılıblar, çünki yeni hökmdar həmişə köhnədən pis olur»; «İnsanlar elə sadəlövh və öz ehtiyacları başı qarışıqdır i, onu axmaq yerinə qoyan adam tapılır»; «Hökmdarın ağlını ilk olaraq özünə hansı insanları yaxınlaşdırması ilə onu qiymətləndirirlər»; «Düşmənlə iki üsulla mübarizə aparırlar. birinci üsul insana, ikinci- heyvana xasdır»; «Mərhəmətdən, sui-istifadədən qorunmaq lazımdır»; «Xalqın mahiyyətin anlamaq üçün, hökmdar olmaq, hökmdarın təbiətin anlamaq üçün isə xalqa mənsub olmaq lazımdır»; «Hər hansı dəyişiklik başqa bir dəyişikliyə yol açır»; «Dövlət ya özünün, yaxud özgə silahları ilə, və yaxud taleyin mərhəməti ilə və ya igidliklə əldə edilir».*

## 6.2. F.Bekon – «Texnokratik-elmikratik-utopik cəmiyyət» ideyasının banisi

*• Ruh üçün sağlam bədən mehmanxana, xəstə bədən üçün isə zindandır.*

*• Vətənə sevgi ailədən başlayır.*

*• Ailə maraqları həmişə ictimai maraqları məhv edir.*

*• Nadanlar elmə həqarətlə baxır, savadsızlar ona heyran olur, müdriklər isə ondan bəhrələnirlər.*

*• Ömründə cəmiyyətin xeyri üçün bir addım belə atmayan, heç dostlarına da etibar etməyən, hər gün bir fikirə düşüb heç nəyə inanmayan, öz xoşbəxtliyini başqalarının bədbəxtliyində axtaran, hamıya yuxarıdan aşağı baxan, bununda belə, özü üçün hər şey uman xudbinlər cəmiyyəti əsl bəlaya çevirmişdir.*

*• Həqiqəti tapmaq istəyirsən, axtar, həqiqətlə evlənmək istəyirsənsə, onu öyrən, həqiqətə sahib olmaq istəyirsənsə, ona inan*

***F.Bekon***

İngilis materializminin banisi, yeni dövrün təcrübə elminin əsasını qoymuş, Kral ailəsinə yaxın zadəgan ailəsində dünyaya gələn, uşaqlıqdan qeyri-adi qabiliyyətə malik, biliyə həvəsi olan İngilis filosofu *F.Bekon* (1561-1626) Kraliça Yelizaveta ilə birinci dəfə qarşılaşanda, Kraliçada ona qarşı məftunluq yaranmış, onunla məmnunluqla söhbət etmiş və onu böyük möhürün balaca lord-mühafizəçisi adlandırmışdır[1]. F.Bekon Kontinentin başqa ölkələrinə – İtaliya knyazlığına, Almaniya, İspaniya, Polşa, Danimarka və İsveçə səyahəti zamanı onların siyasi, saray və dini həyatını öyrənmiş və o, bu

[1] 100 Великих мыслителей. М.: Вече, 2002, с.220

siyasətin nəticəsini «Avropanın vəziyyəti» haqqında qeydlərində əks etdirmişdir. Bekon İcma Palatasının deputatı, Məxfi Şuranın üzvü, Lord-ali kansler və İngiltərə peri olmuşdur, kral Şotlandiyaya gedərkən dövləti idarəetmək səlahiyyətlərini ona tapşırırdı.

Bekon, «Yeni Atlantida» əsərində (1627) elmi-texniki nailiyyətlərə əsaslanan utopik dövlət haqqında nəzəriyyəni vermişdir. O, öz əsərlərini diktə etməyi, esse (xülasə) şəklində verməyi xoşlayırdı. Onun hər bir çıxışı tam aydın, olduqca qısa, eyni zamanda mənalı və təsirli olurdu. O, çıxış edərkən dinləyicilər onun heç bir sözünü buraxmamaq üçün səs çıxarmadan, gözlərini ondan ayırmadan diqqətlə onun çıxışını dinləyirdilər[1]. Gələcəyin böyük filosofu *T.Hobbs onun katibi olmaqla, esselərini yazmış və fikirlərini latın dilindən ingilis dilinə tərcümə etmişdi.*

Bekon birinci filosof idi ki, öz fəlsəfəsini təcrübə elminin bünövrəsi üzərində qurmuşdur. Bekona görə elmin əsası – insan təbiətin tarixi üzərində duran özünəməxsus piramidadır. Bu piramidanın bünövrəsinə yaxın fizika yerləşir. Bünövrədən ən uzaqda və zirvəsinə yaxın metafizika dayanır. Bekon piramidanın ən yüksək nöqtəsinin sirlərini insanın dərk edə biləcəyinə şübhə edir[2]. F.Bekon ali qanunu xarakterizə edəndə *«Ekkliziast»* frazasından istifadə edir ki, onun da mənası «Əvvəldən axıradək yaratmaq yalnız İlahinin əlindədir» - deməkdir.[3]

«Yeni Orqanon» əsərində Bekon təsdiq edirdi ki, vətəndaş işində hətta yaxşıya doğru dəyişiklikdə belə qarmaqa-

---

[1] Yusifov Y.B. Qədim şərq tarixi. Dərslik, Bakı Universitetinin nəşriyyatı B, 1999, c.220

[2] 100 Великих мыслителей. М.: Вече, 2002,c.226

[3] Там же, c.225

rışıqlıq təhlükəsi yaranır. Bekonun fikrincə kəskin islahat aparmaq və yeni fikirlər tətbiq etmək qiyam yaradan səbəblərdən biridir[1] .

Siyasi quruluşa münasibətdə *Bekon İngiltərə üçün daha uyğun mütləq monarxiya yox, parlament monarxiyası üzərində dayanırdı.* Onun fikrincə İngiltərə üçün daha uyğun gələn parlament monarxiyasında kral ilə xalq arasında əlaqələndirici kimi, mütəmadi keçirilən böyük səlahiyyəti olan parlament olmalıdır. Sənaye istehsalçılarına söz verməklə onları sakitləşdirmək və eyni zamanda represiyalarla qorxutmaq lazımdır[2].

Bekon «Yeni Atlantida» əsərində Bensolem adası timsalında *ideal cəmiyyəti təsvir edir. Burada siniflər saxlanılır, kral və bütün əhali xristiandır. Praktiki olaraq burada bütün hakimiyyət müdriklərə məxsus tam hakimiyyətli parlamentinin əlindədir. Bensolemdə bəzi siyasət məsələlərinə təsir göstərmək mümkün olduğu halda, elm üzərində heç bir təsir yoxdur. Hakim müdriklər – birinci keşiş ayinlərə ibadəti saxlamaqla öz əlində siyasi hakimiyyətlə yanaşı, dini – kilsə hakimiyyəti də cəmləşdirir. Bizim qarşımızda nə teokratik dövlət, nə də din variantı yox, Bensolemin əsas ideologiyasını elm təşkil edir[3].*

*Bensolemdə yeraltı laboratoriya və universal muzey, havanın təmizlənməsi, insan davranışının modelləşməsi, havanın və suyun tənzimlənməsi, sualtı qayıqlar və uçan aparatlar, eksperimental fonetika və psixologiya, effektiv praktiki tətbiqlə görmə illuziyası, sintetik yeməklər və klinik ölümdən sonra*

---

[1] 100 Великих книг. М.: Вече, 2004,с.115

[2] Коркунов Н. И. История философии и права. С. Петербург, 1908, с.70

[3] Нарский И. С. Западно-Европейская Философия XVII в. М, 1974, с.73

*heyvanların canlanması, daimi həyatın sirləri və s. görürük*[1].

«Yeni Atlantidada» sosioloji fikirlər tarixində texnokratik elmikratik utopiyanın layihəsi hesab olunur. Bekonla Yeni dövrün Avropa fəlsəfəsi başlayır, ilk və tam mənasında onun simvoluna çevrilir.

F.Bekonun çox işlədilən aforizmləri: *«Ümid yaxşı səhər yeməyi, amma pis şam yeməyidir». «İnsanda elə daxili inam olmalıdır ki, bütün bədbinlikləri yandırıb kül edə bilsin». «Gözəllik fəzilətləri parıldatmağa qüsurları isə qızartmağı məcbur edir». «Başqaları üzərində hökmranlıq edən öz şəxsi azadlığını itirir». «Ədalətsizliyin üç növü var: 1) adı zorakılıq; 2) qanun adı ilə pərdələnən zorakılıq; 3) qanunun öz qəlddarldığı». «Sərvəti çox olan rahat yata bilməz, belələrinin həm beyni həm də ruhu əndişəlidir». «Təmkin sayəsində ən yüksək məqama çatmaq mümkündür». «Mütaliə insanı kamilləşdirir, onun nitq və qabiliyyətini inkişaf etdirir». «Mütaliə adamı bilikli, söhbətcil, hazırcavab edir». «Həqiqəti tapmaq istəyirsən, axtar, həqiqətlə evlənmək istəyirsənsə, onu öyrən, həqiqətə sahib olmaq istəyirsənsə, ona inan». «Məsləhət istəmək bir insanın digərinə göstərdiyi ən böyük etibardır». «Əxlaqlı insanda hiylə olmaz». «Düzlük almaz kimidir, qaranlıqda daha çox parıldayır». «Pis adam başqalarında da həmişə pislik axtarır». «Paxılın bayramı olmaz». «Bəxtin iki övladı var: biri inam, digəri şöhrət». «Yalan zəiflərin dolanacaq yeri və sığınacağıdır».*

---
[1] Там же, с.71-72

## 6.3. T.Hobbs – Dövlətin yaranması haqqında «Klassik müqavilə nəzəriyyəsinin» banisi

*• Biz təbiətdə müharibənin üç əsas səbəbini görürük: birincisi, rəqabət, ikincisi, inamsızlıq, üçüncüsü, şöhrətə coşğun həvəs.*

*• Dövlət ictimai müqavilənin nəticəsində yaranır.*

*• İnsanlar arasında müqavilə hökuməti və ya ali orqanı seçməklə cəmiyyətdə əmin-amanlıq yaradılır.*

***T.Hobbs***

Dövlətin yaranması haqqında klassik müqavilə nəzəriyyəsinin müəllifi, XVII əsr materializminin ən böyük ingilis filosoflarından biri Tomas Hobbs (1588-1679) ilk təhsilini kilsədə başlamış, özəl təhsil məktəbində davam etdirmişdir. O, vaxtından əvvəl doğulmuş və 92 il yaşamışdır. O, qədim dilləri sevirdi və istedadlı olmaqla latın dilini yaxşı öyrənmişdi. O, 14 yaşında qədim yunan filosofu Evripidin «Medeya» əsərini latın dilinə tərcümə edir. Sonra o, Oksford universitetinin kollecində 5 il oxuyur və Aristotelin məntiq və metafizikasını öyrənir, latın və yunan dillərinidə biliyini təkmilləşdirir. Məntiq üzrə mühazirə aparmağa icazə verən incəsənət və hüquq üzrə bakalavr dərəcəsi alır.

O, 18 yaşından başlayaraq İngiltərənin aristokratik ailələrində uşaqlara, hətta gələcəyin kralı olan II Karla ev müəllimliyi edir. O, öz şagirdləri ilə xaricə üç dəfə səyahət edir. Birinci dəfə 1610-cu ildə 3 il müddətinə Fransaya və İtaliyaya, ikinci dəfə 18 ay müddətində Parisə və Florensiyaya, üçüncü səyahəti 1634-1636-cı illərdə Parisə 3 illik səyahət edir. Burada Ferm, Paskal, Dekart və başqaları ilə tanış

olur, onların olduğu dərnəklərdə iştirak edir. Florensiyada Qalileylə görüşüb söhbət edir. 1640-cı ildə Hobbs özünün fəlsəfi sisteminin «Hüquqi işarələri» adlanan ilk qeydlərini edir. Bu əsərdə insan və onun təbiəti, həmçinin siyasi problemlər haqqında məsələlər əhatə edilir. 1620-ci ildə latın dilində nəşr olunan Bekonun «Yeni orqanan» fəlsəfi əsəri onun diqqətini cəlb edir. O, tez bir zamanda Bekonla tanış olur, onun sevimli katibi olur və Bekonun əsərlərini latın dilindən ingilis dilinə tərcümə edir. Hobbs öz fəlsəfi sistemini yaradanda onun yaşı 50-yə yaxın idi[1].

Uzun müddət aristokrat ailələri ilə təmasda olması, o mühitdə yaşaması təbii olaraq onun siyasi baxışlarında və oriyentasiyasında öz əksini tapır. O, İngiltərədə monarxiq mütləqiyyətin ən böyük müdafiəçisi kimi etiraf oluna bilər. O, təsdiq edirdi ki, monarxiyada başqa idarəçilik formalarına, xüsusən diktatura və tiraniyaya nisbətən vətəndaşlar daha çox azaddır[2] .

Hobbs təsadüfü rast gəldiyi *Evklidin «Həndəsənin başlanğıcı» kitabında olan məntiqlə sübut etmə nəzəriyyəsi onu elə sarsıdır ki, onda bu həndəsi modeli fəlsəfə, siyasət və əxlaqa da tətbiq etmək fikri yaranır[3].*

O (1640-1651-ci illərdə), yazdığı əsərlərə görə izlənilməsindən və məsuliyyətdən qorxaraq Parisə qaçır və orada 10 ildən çox müddətində yaşayır, ideyalarını həyata keçirmək üçün intensiv çalışır. Bu vaxt İngiltərədə vətəndaş mühari-

---

[1] 100 Великих мыслителей. М.: Вече, 2002, с.234

[2] Вейцман Е. М. Великий Английский материалист Томас Гоббс. М.: Знание, 1960,с.14

[3] Томас Гоббс. Философская основания учение «Гражданина», М.: Изд. Ч.А. Лемана и Б. Д. Плетнева 1914, с.8

bəsi, Kromvelin inqilabi ordusunun zəfər çaldığı illər idi[1].

O, 1642-ci ildə fəlsəfi sisteminin axırıncı hissəsini – «Vətəndaş haqqında» əsərini Parisdə latın dilində anonim olaraq az tirajla nəşr etdirir və bu kitab katolik kilsəsinin qadağan etdiyi kitablar siyahısına düşür. Hobbs kitabın yazılma metodu haqqında belə deyir: mühakimə mühüm olmasına baxmayaraq, məni qane etmir, odur ki, *dövlətin mahiyyətin araşdırmaqdan başlamaq, sonra onun yaranması və formalarına keçmək lazımdır, çünki hər bir predmet onu təşkil edən hissələr öyrəniləndən sonra dərk edilir.*

1651-ci ildə Hobbs həyatında mühüm rol oynayan parlaq və klassik «*Leviafan*» əsərini İngiltərədə ingilis dilində nəşr etdirir. Bu əsər siyasi və fəlsəfi dünya ədəbiyyatında klassik olmaqla, axırıncı XVIII-XIX əsrlərdə İngiltərə ilə yanaşı, Avropada da fəlsəfə və siyasi fikirlərin inkişafında böyük rol oynamışdır. Bu əsər dörd fəsildən ibarətdir. Birinci fəsildə, insan haqqında, ikinci fəsildə, dövlət haqqında, üçüncü fəsildə, xristian dövləti haqqında, dördüncü fəsildə, zülmətin çarlığı haqqında bəhs edilir. «Leviafan» Hobbs tərəfindən mütləq monarx hakimiyyətini saxlamaq üçün düşünülmüş əsərdir. Hobbsun fikrincə bütün insanlar təbiətən bərabərdir. Lakin onlar öz azadlıqlarını saxlamaqla yanaşı, birinin digərini özünə tabe etdirmək istəyi *«hamının hamıya qarşı müharibəsi»* şəraitini yaradır. Bu, həyatı ümidsiz, heyvani və qısa edir. Bu cəmiyyətdə *«insan insana qarşı canavardır».* İnsan canavara, ayıya və ilana nisbətən daha yırtıcı və sərt heyvandır. Ona görə o, öz gələcək tələbatını ödəmək naminə heç nəyə fikir vermədən hər şeyə gedər[2]. Bu müharibədən

---

[1] Вейцман Е. М. Великий Английский материалист Томас Гоббс. М.: Знание 1960, с.14

[2] 100 Великих мыслителей. М.: Вече, 2002, с.236

çıxmaq üçün insanlar birləşir, öz səlahiyyətlərini mərkəzi hakimiyyətə verir. İnsanlar öz arasında sülhü saxlamaq üçün təbii qanunu icra etməlidir, təbii qanunu icra etmək üçün isə təhlükəsizlik lazımdır [1].

Beləliklə, *dövlət ictimai müqavilənin təsiri nəticəsində yaranır.* Yalnız dövlət insan ehtiras və instinktlərini qaydaya salır. Dövlət, insanlar bir-birinə zərər yetirməsin deyə, qanunların köməyi ilə onları çərçivədə saxlayır. İnsanlar arasında müqavilə hökmdarı və ali orqanları seçməklə yekunlaşır ki, bundan da müharibəyə son qoyan idarəçilik forması yaranır. Dövlət onda birləşən bütün insanların arzularını əks etdirdiyindən, ona qarşı ayrı ayrı adamlar çıxış edə bilmir və sülh yaranır[2].

Hobbsun fikrincə, hakimiyyət olmadan dövlətdə bütün əxlaqa çağırış boş sözə çevrilir. Yalnız dövlət insan ehtiraslarının və instinktlərinin qaydasız axınını qaydaya salır, qanunun köməyi ilə insanların bir-birinə ziyan verməmək üçün əl qolunu yığır[3].

Hobbs İngiltərədə mütləq monarxiyanın *ən böyük müdafiəçisi* kimi qəbul edilə bilər. Hobbsda dövlət daimi diktatura kimidir. Diktatura özünü vahid hakimiyyətlikdə və monarx mütləqiyyətiinnn müdafiəsində görür. O, göstərmək istəyir ki, monarxiya başqa idarəçilik formasına nisbətən vətəndaşların azadlığını təmin edir[4].

O, əsərində insanları əvvəl insan kimi, sonra vətəndaş

---

[1] Нарский И.С. Западно-Европейская Философия XVII в. М., 1974, с.163

[2] 100 Великих мыслителей. М.: Вече, 2002, с.237

[3] Томас Гоббс. Левиофон или материя, форма и власть государства церковного и гражданского. М.: 1936, с.145-147

[4] 100 Великих мыслителей. М.: Вече, 2002, с.239

kimi, daha sonra xristian kimi təsvir edir. Hobbsa görə dövlət iki cürdür: biri təbii, *ata kimi və despotik, digəri – siyasi adlanan quruluş kimi. Birincidə ağa öz iradəsi ilə vətəndaşlıq əldə edir, ikincidə vətəndaş öz üzərində ağa seçir.* Belə ki, bir nəfər və ya bir şura bütün müharibə və sülh işlərini nazirlərsiz və tabeçiliyində olan vəzifəli şəxslərsiz apara bilməyindən, sülh əldə etmək və müdafiə üçün ali hakimiyyətə malik olan nazirləri təyin edir, onlara səlahiyyət verir və nəzarət edir[1]. *Hobsa görə, dövlətin növləri arasında fərq ali hakimiyyətdə şəxslərin sayı ilə fərqlənir. Ali hakimiyyət ya bir nəfərə yaxud şuraya və çoxluğun müşavirəsinə etibar edilir. Müvafiq olaraq çoxlu insanların şurası ya bütün vətəndaşlardan (elə şəkildə ki, onların hər birisi müzakirədə iştirak etmək arzulayırsa, onun səs hüququ olsun), yaxud onların bir hissəsi olsun. Burdan dövlətin üç növü yaranır: birincisi, ali hakimiyyət hər bir vətəndaşın səs hüququ olan şuraya məxsusdur, bu, aristokratiya sayılır; İkincisi, ali hakimiyyət insanların müəyyən hissəsinin səs hüququ olan şuraya məxsusdur, bu, demokratiya sayılır; üçüncüsü, ali hakimiyyət bir nəfərə məxsusdur, bu, monarxiya adlanır. Birincidə ali hakimiyyəti əldə edən şəxs demos, ikincidə yaxşı insanlar, üçüncüdə monarx adlanır[2].*

1655-ci ildə Hobbsun fəlsəfi sisteminin birinci hissəsi – *«Bədən haqqında»* əsəri, 1658-ci ildə isə *«İnsan haqqında»* əsəri latın dilində nəşr olunur. Hobbsa görə insan təbiətlə cəmiyyət arasında aralıq həlqə olub təbiətin mürəkkəb bədəni, digər tərəfdən konstruktor və süni sosial bədənidir. Hobbsun İnsan haqqında təlimi dövlət haqqında təlimə giriş

---

[1] Томас Гоббс. Левиофон или материя, форма и власть государства церковного и гражданского. М., 1936, IX

[2] Томас Гоббс. Левиофон или материя, форма и власть государства церковного и гражданского. М., 1936, с.75

rolunu, yəni öz funksional təyinatına görə müxtəlif hissələrdən ibarət mexanizmə oxşar «süni insanı» təşkil edir[1].

O, insan haqqında, dövlət və dövlət quruluşunun canlı orqanizmə oxşarlığını əks etdirən *«orqanik nəzəriyyəsini»* irəli sürmüşdür. T.Hobbs insana bir tərəfdən təbiətin mürəkkəb bədən quruluşu, digər tərəfdən sosial bədən quruluşu kimi baxır. O, dövləti *«süni adam»* kimi təsvir edir və onu təbii insanlardan ölçüsünə və gücünə görə fərqləndirir. İnsanların müdafiəsi və mühafizəsi üçün dövlət strukturu yaradılır. Hobbsun fikrincə, *təbiət və cəmiyyətdə hər şey sadəcə mexaniki qanunla hərəkət edir. O, insan orqanizmini və dövləti purjin və çarxların köməyi ilə işləyən saat mexanizminə oxşadır. Ürəyi purjinə, əsəbləri əlaqələndirici saplara, bədənin bütün üzvlərinin hərəkətini əlaqələndirən oynaqları – çarxlara oxşadır. Analoji hal dövlətə də xasdır. Dövlətə bütün həyat və hərəkət verən ali hakimiyyət süni ruh; vəzifəli şəxslər, məhkəmə və icra hakimiyyəti nümayəndələri – süni oynaqlar, mükafat və cəza – əsəblər; firavanlıq və bolluq-güc; dövlət müşavirləri – hafizə; ədalət və qanunlar – idrak və iradə; vətəndaş aləmi – sağlamlıq; iğtişaş – xəstəlik; vətəndaş müharibəsi – ölümdür[2].* Bu orqanik nəzəriyyəyə əl-Fərabinin «İdeal cəmiyyət» əsərində də rast gəlinir[3].

Hobbsun yazdığı əsərlərə görə kilsə onu allahsızlıqda günahlandırır, yandırılası kitablar arasına «Leviofon» da daxil edilir. O, özünün müdafiəsi üçün Yeresin tarixi haqda əsər yazır, 1668-ci ildə «Leviofon» əsərinin üzərində yenidən işləyir. O, ömrünün axırıncı illərində 84 yaşında Home-

---

[1] Томас Гоббс. Философская основания учение «Гражданина», М.: Изд. Ч. А. Лемана и Б. Д. Плетнева, 1914,с.94

[2] 100 Великих мыслителей. М., Вече, 2004, с.126

[3] 100 Великих мыслителей. М. Вече, 2002, с.120,121

rin «Odissey» (1675) və «İlliada» (1676) əsərlərini ingilis dilinə tərcümə edir[1].

## 6.4. C.Lokk – «Hakimiyyətlərin bölgüsü konsepsiyasının» yaradıcısı

*• C.Lokk dünyada ilk olaraq ali hakimiyyəti qanunvericilik, icra və federativ hakimiyyətə bölür. Qanunverici hakimiyyət parlamentə, icra hakimiyyəti orduya və məhkəməyə, federativ hakimiyyət isə krala və onun nazirlərinə məxsusdur.*

*• Bütün xalqın rifahı uşaqların düzgün tərbiyəsindən asılıdır; Təhsil insanlar arasında fərq yaradır.*

***C.Lokk***

*• Keçmişlə fəxr etmək olar, müasirliyin arxasınca getmək vacibdir.*

***Tasit***

Liberalizmin əsasını qoyan, ingilis filosofu C.Lokkun (1632-1704) sosial-siyasi konsepsiyası təbii hüquqa və ictimai müqavilə nəzəriyyəsinə söykənir.

İngiltərə tarixində həyacanlı hadisələr ərəfəsində əyalət vəkili ailəsində anadan olmuş C.Lokk, İngiltərə kilsəsinə və I Karlın mütləq monarxiyasına müxalifətdə olan puritan ailəsində tərbiyə almışdır. Vətəndaş müharibəsi zamanı Lokkun atası Kromvelin parlament ordusunda eskadron komandiri olur. Gənc yaşlarında Lokk parlament vasitəsilə xalqın suverenliyini istəyən atasının siyasi ideallarının təsiri altında formalaşır[2].

---

[1] Захидов В. Три титана. Ташкенд «Фон» 1973, с.163

[2] 100 Великих мыслителей. М. Вече, 2002,с.241

İnqilab Lokkun təhsilinə yol açmış, onun atasının komandirinin tövsiyəsi ilə o Vestminister məktəbinə daxil olmuş, oranı yaxşı bitirərək Oksford universitetinə qəbul olunmuşdur. 1655-ci ildə bakalavr, üç ildən sonra isə magistr dərəcəsi almışdır.

1664-cü ildə Lokk İngiltərə səfirinin katibi keyfiyyətində səfiri Berlinə müşayiət edir və orda bir ilə yaxın qalır. O, Berlinin maliyyə vəziyyətindən tutmuş yenicə dünyaya gəlmiş uşağın xaç suyuna salınmasına qədər hər şeyə diqqət yetirir. İngiltərəyə qayıdandan sonra kilsənin dövlətə münasibəti haqqında məsələ ilə məşğul olur. Öz sağlamlığı barədə daimi qayğısı onu tibbi öyrənməyə vadar edir. Tezliklə mahir həkim olur. O, ömrü uzatmaq vasitəsi kimi yalnız su içirdi[1].

1666-cı ildə Lokk tanış olduğu lord Estoni Eşlinin naməlum xəstəliyinə düzgün diaqnoz qoyur və ona məsləhət görür ki, əməliyyat olunsun. Bununla da onun həyatını xilas edir. Minnətdarlıq əlaməti olaraq onu qonaq kimi evinə dəvət edir, sonra Lokkun orda daimi yaşamasını təklif edir. O, razılaşır və ev həkimi kimi Lordu və onun ailə üzvlərini müalicə etməyə başlayır. O, burada fəlsəfə və təbii elmlərlə məşğul olmağı davam etdirir, siyasət və teologiya ilə maraqlanır. Lokk 1668-ci ildə Kral elmlər cəmiyyətinin, 1669-cu ildə isə bu cəmiyyətinin şurasının üzvü seçilir.

1668-ci ildə Lokk Nortumberlend qrafını və qrafinyasını Fransaya müşayiət edir. Qraf öldüyündən nəzərdə tutulan müddətdən tez İngiltərəyə qayıdır və yenidən Eşlinin evində onun yeganə oğlunun tərbiyəsi ilə məşğul olur. 1671-ci ildə dostlarının məsləhəti ilə Lokk insan ağlının dərketmə qabiliyyətini dərindən tədqiq etməyə başlayır. 19 il bu problem üzərində işləyir və *«İnsan ağlı haqqında təcrübə»* (1690) ki-

[1] Занченко Г. А. Джон Локк. М.: Мысль, 1973, с.7-8

tabını yazır.

1672-ci ildə Eşlin Şeftsberin lordu və İngiltərənin böyük kansleri olur. Lokk Eşlinin himayəsi ilə «Xeyriyyəçilik işləri üzrə katib» postunu tutur. Müəyyən müddətdən sonra Kralın yanında Eşlinin etibarından düşməsi və işdən çıxarılması Lokkun taleyində əks olunur. C.Lokk 1675-1679-cu illərdə Fransada yaşayır və burada Dekartın və Qesseninin tələbələri ilə fəlsəfi diskussiya aparır.

Eşlin 1674-cü ildə yenidən şuranın prezidenti postunu tutur. Londona qayıdan Eşlin dostunu xaricdən geri çağırır. Lakin tezliklə Lord Eslin növbəti dəfə kralın etibarından düşür və Hollandiyaya emiqrasiya olunur. Eşlin gedəndən sonar Lokk təhlükəsizliyi üçün Oksfordda sığınacaq almaq istəyir. Mümkün olmadığından o da Hollandiyaya mühacirət edir. Tezliklə Eşlin ölür[1].

Lokk uzun müddət Hollandiyanın Utrext şəhərində yaşayır, təsadüfi olaraq krala qarşı sui-qəsdçilərin siyahısına salınmır və onun İngiltərəyə verilməsi tələb olunur. O, gizlənməyə məcbur olur.

1688-ci ildə Styuartların monarxiyasının sonu gəlir və Lokkun qəribçiliyi sona çatır. «Şanlı» inqilab parlamentin xeyrinə kralın hakimiyyətini məhdudlaşdırması şərtilə Vilhelm Orlyanski İngiltərənin kralı elan edilir. Bununla İngiltərədə yeni siyasi rejimin –*konstitusion monarxiyanın* əsası qoyulur və 1688-ci il çevrilişində aktiv iştirak edən Lokk 1689-cu ildə öz vətəninə qayıdır O, hökumət qulluğu ilə yanaşı, geniş elmi və ədəbi fəaliyyətlə məşğul olur. 1689-cu ildə *«Dövlət idarəçiliyi haqqında iki traktat»* əsərini tamamlayır. «Traktat»ın birinci hissəsində P. Filmeranın «Patriarx və ya Kralların təbii hakimiyyəti» kitabında hakimiyyətin

---

[1] 100 Великих мыслителей. М.: Вече, 2002, с.259

İlahi mənşəliyinin feodal-teoretik konsepsiyasının tənqidinə həsr edir. Traktatın ikinci hissəsində «şanlı» inqilab dövründə olan siyasi çevrilişi nəzəri əsaslandırır. «Təcrübə» əsərinin işıq üzü görməsi İngiltərədə həqiqi sensasiya yaradır[1].

Hökumətdə Lokka «Ticarət və koloniyalar naziri» vəzifəsi verilir. Səhhəti imkan verdiyi qədər bu vəzifədə işləyir, xəstəliyinin güclənməsi, onun istefa verməsinə gətirib çıxarır. Kral tez-tez dövlət işləri haqqında Lokkla söhbət edir və onun məsləhətlərinə qulaq asır.

«Təcrübə» əsərinin altı nəşri Lokkun yaşadığı dövrdə olub. O dövrdə İngiltərə radikal siyasi islahatlar aparılırdı. Bu islahatlar *parlament idarəçilik formasının yaranmasına, avtoritarizmin ləğv edilməsinə və dini azadlığı təmin olunmasına, kral hakimiyyətinin məhdudlaşdırılmasına yönəldilirdi.*

*«İnsan ağlı haqqında təcrübə»* (1690) insan dərketməsinin mənşəyi, doğruluğu və həcminin tədqiqinə yönəldilir. Lokk yaranmış ideyalar haqda tezisin əsassızlığını sübut etməyə səy göstərir. Onun fikrincə *insan ruhu təmiz vərəq kimidir, təcrübə dünya haqqında öz məlumatlarını əsaslandırır, düşünür və yazır.*

«Dövlət idarəçiliyi haqqında iki traktat» əsərində Lokk *təbii və vətəndaş vəziyyəti haqqında öz fikirlərini formalaşdırır. Onun fikrincə, təbii vəziyyətdə insanlar azaddır, bərabərdir, müstəqildir. Lokka görə, təbii insana mülkiyyət və eqoizm xarakterikdir, odur ki, fərdiçililik olur. Lakin hamı eyni hüquq və vəzifələrə malik olmalıdır. Burdan müqavilənin nəticəsi kimi azadlıq haqqında tezis gəlir. Bütün bunlar cəmiyyətdə heç kəsin başqasının həyatında, sağlamlığında, azadlığında, mülkiyyətində məhdudiyyət hüququ olmadığını göstərən təbii qanundan asılıdır. Əgər hansısa tərəf, məsələn hökumət*

---
[1] 100 Великих мыслителей. М.: Вече, 2002, с.260

*müqaviləni pozursa, o biri tərəf də öz boynuna götürdüyü öhdəlikdən imtina edə bilər.*

*Lokk ilk olaraq hakimiyyətlərin: ali hakimiyyətin qanunvericilik, icra və federativ bölgüsü haqqında ideyanı irəli sürür. Qanunvericilik hakimiyyəti parlamentə, icra hakimiyyəti – orduya və məhkəməyə; federativ hakimiyyət isə krala və onun nazirlərinə məxsusdur.* Lokk faktiki olaraq konstitusiya rejiminin nəzəriyyəçisi kimi çıxış edir. O, cəmiyyət və dövləti izah edən zaman mərkəzi yerlərdən birini «*təbii qanun*» və ya «*təbiət qanunu*» anlayışlarını – insanların əxlaqi davranışının həqiqi əsası kimi, «*ağıl qanunu*» kimi görür. Həm təbiətdə, həm insanda, həm cəmiyyətdə və həm də dövlətdə qüvvədə olan insanın təbii hüququnu müəyyən edən möhkəm təbiət qanunu Roma stoiklərinin əsas ideyası olub[1].

Öz «Təcrübə»sində Lokk göstərir ki, xeyir və rifah – insanlara uzun müddət zövq verir və əzabları azaldır. Bu isə insanın azadlığıdır. Eyni zamanda, o, göstərir ki, əxlaq, xeyir – öz razılığı ilə insan iradəsinin ilahi iradədə – əxlaqın həqiqət əsasında olan qanunlara, cəmiyyətə və təbiətə tabeçiliyinə əsaslanır. Şəxsi və ictimai maraqların harmoniyası yalnız ağıllı və vicdanlı davranışla əldə edilir.

Lokkun həm onun yaşadığı və həm də sonrakı dövrlərdə bütün Qərbin siyasi fikirlərinə böyük təsir göstərmişdi. Onun fəlsəfəsinin təsirindən Tolandun, Kandilyakın, fransız materialistlərinin baxışları formalaşmışdır. C.Lokk yeni dövrün böyük mütəfəkkiri F.Bekon, Q. Qaliley, R. Dekart, T.Hobbs, Nyuton və b. kimi sərfəli şəxslər kateqoriyasına

---

[1] Д.Локк. Два трактата о правлении. Избранные философские произведения. В 3-х т-х, Т.3. М.: Мысль, 1988, с.140

daxil edilmişdir[1].

*1704-cü ildə 73 yaşında ölür. Qəbr daşının üstündə aşağıdakı epitafiya yazılıb. «Yoldan keçən, dayan!» Burda C.Lokk yatır. Əgər sən soruşsan ki, bu, nə insandır? bu abidə sənə cavab verəcək. Lokk çox olmayana qane olmağı bacaran insan idi. O, elmlə tərbiyə olunub, o qədər uzağa gedib ki, yalnız bir həqiqətə xidmət edib. Onun əsərlərini oxuyanda buna inanacaqsınız, onun haqqında daha çox biləcəksiniz[2].*

C.Lokkun müdrik kəlamları:

«Uşaqların düzgün tərbiyəsindən asılı olaraq bütün xal*qın durumu müəyyən edilir». «Gimnastika insanın gəncliyini uzadır». «Yalnız bir neçə qanun yaradın, lakin onlara əməl edin». «Bilik insanlar arasında fərq yaradır». «Pis tərbiyə almış insanda cəsarət kobudluq, alimlik isə onda pedantlıq yaradır». «Hazırcavablıq – təlxəklik, sadəlik – yonulmamışlıq, safqəlblilik – yaltaqlıq görünüşü yaradır». «Nəzakət – birinci və ən yaxşı ləyaqətdir». «İnsanların hərəkəti onların fikirlərinin yaxşı tərcüməçisidir». «Sağlam bədəndə sağlam ruh – bu qısa lakin dünyada xoşbəxt əhval ruhiyənin tam təsviridir». «Heç kəsə hiylədərlik keyfiyyətlərini gizlətmək mümkün olmayıb». «Hiyləgərlik insanda təbii çatışmamazlığı düzəltməyə yönəlir. Onun məqsədi xoşa gəlməkdir, lakin onlar isə heç zaman buna nail ola bilmirlər». «Valideynlər uşaqlarının şıltaqlığını və ərköyünlüyünü şirnikləndirməkdə onların təbii istedadını korlayır, sonra isə təəccüblənirlər ki, özlərinin zəhərlədiyi su, bulaq niyə acı dad verir». «Yalanın daimi yol yoldaşı hiyləgərlikdir». (C.Lokk).*

---

[1] Д.Локк. Два трактата о правлении. Избранные философские произведения, в 3-х т-х, Т.3. М.: Мысль, 1988, с.339

[2] 100 Великих мыслителей М. Вече, 2002, с.263

## 6.5. Ş.Monteskye – «Klassik hakimiyyətlər bölgüsü» konsepsiyasının banisi

*• Respublika təmtəraqlı israfçılığa görə; monarxiya isə yoxsulluğa görə öz mövcudluğunu itirir.*

*• Azadlıq qanunun yol verdiyi hər şeyi etmək hüququdur.*

*• Qanunlar bu ali hakimiyyətlə cəmiyyət üzvləri arasında münasibəti müəyyən edən qaydaların hüquqi ifadəsidir.*

***Ş.Monteskye***

Fransa maarifçisi, hüquqşünas və filosofu, həqiqi mənada ensiklopedikt alim, Ş.Monteskye (1681-1755) fəlsəfi məsələdə böyük erudisiyalı, tarixin, siyasi iqtisadiyyatın və yurisprudensiyasının mahir bilicisi idi.

Klassik hakimiyyətlər bölgüsü konsepsiyasının banisi, sağlam, gümrah, gülərüz, şənbaxışlı, parlaq ağıllı, çox böyük işləmək qabiliyyəti və danışığında kəskin sözlər işlədən, çıxışı parlaq, fransız xalqının həqiqi oğlu, açıq ürəkli və mənəviyyatlı Ş.Monteskye yeddi yaşında ikən *ingilis əsilli* anası ölür. Onun və 6 uşağın tərbiyəsi ilə atası məşğul olur. On yaşında kilsə yanında kollecdə dini və dünyəvi təhsil alır, antik ədəbiyyat və fəlsəfə ilə tanış olur. O, klassik ədəbiyyatı yaxşı öyrənir və stoiklərin fəlsəfəsi ilə, on altı yaşında isə atasının qəsrinə qayıdıb yurisprudensiya ilə məşğul olur, hüquqi materialları, Fransa qanunlarını və onların təfsirlərini öyrənir. O zaman onda «Qanunların ruhu haqqında» traktat yazmaq fikri yaranır. O, yazırdı ki, kolleci bitirdikdən sonra onun əlinə hüquqşünaslığa aid çoxlu kitablar düşür və orada hüquqi ideyaları axtarmağa başlayır. İyirmi dörd ya-

şında Monteskyenin atası ölür və onu əmisi öz himayəsinə götürür. İyirmi yeddi yaşında isə əmisi öləndən sonra onun yerinə Borda Parlamentinin prezidenti vəzifəsini tutur, baron titulu alır, Bordo Akademiyasının üzvü seçilir.

O, 1721-ci ildə anonim müəllif adı altında Hollandiyada həqiqi sensasiya yaradan *«Fars məktubları»* (yüz əlli məktubdan ibarətdir) əsərini nəşr etdirir. O əsər böyük tirajla on iki dəfə çap olunur və bu kitab qadağan olunan kitablar siyahısına düşür. Bu əsərdə Monteskye Avropaya səyahət edən fars Özbək və Riki adından çıxış edir. O, öz qəhrəmanlarının dilində Fransanın həyat tərzini özlərinin vətənindən daha despotik hesab edir. Onun fars məktubları əsərində «Qanunların ruhu» haqqında əsərinin rüşeymi olmaqla kəndli və sənətkarların pis yaşadıgı Fransada tənqid edilir[1].

O, Paris Akademiyasının üzvü seçilir və Parisdə siyasi elmləri öyrənmək üçün «Antersol» klubunun fəal üzvü olur. Bu klubda saatlarla siyasi yeniliklər, günün hadisələri və əsərlərin müzakirələri gedirdi. Monteskye qədim tarixi dərindən öyrənir və gələcək əsərlərində geniş istifadə edir. Monteskye öz baxışlarında qədim dövrün, orta əsrlərin və yeni dövrün çoxsaylı filosof və tarixçilərinin əsərlərindən geniş istifadə etmişdir. O, Platonu və Aristoteli və onlar haqqında ədəbiyyatları xüsusilə yaxşı mənimsəmişdir. Monteskye bütün diqqəti Aristotelin «Politiya» və Siseronun «De Respublik» və b. əsərlərinə yönəldirdi.

Monteskye Hobbsun materialist fəlsəfəsinə böyük maraq göstərirdi. O, Hobbsun insanların təbii nəzəriyyə haqqında və dövlətin mənşəyi haqqında təliminə xüsusi diqqət yetirirdi. O, Hobbsun «Hamının hamıya qarşı müharibəsi» haqqında fikirlərinə tənqidlə yanaşırdı. Dövlət haqqında

[1] 100 Великих мыслителей. М.: Вече, 2002, с.291

həqiqi faktları inkar edərək məntiq əsasında öz təlimini quran T.Hobbsdan fərqli olaraq, Monteskye daha düzgün yolla getməyə səy göstərirdi[1].

Başqa ölkələrin siyasi-hüquqi nizamnamələrini öyrənmək, *«Qanunların ruhu»* haqqında əsərinə material yığmaq üçün üç il müddətinə (1728-1731) *Avropa ölkələrinə: Avstriya, Almaniya, Macarıstan, Neapol, Piza, Genuya, Florensiya, Roma, Hollandiya, Lüksemburq, Qannoverə səyahət edir. O, görməli yerlərə baxır, ölkələrin daxili və xarici siyasətini, hər yerin xarakterik əlamətlərini, əhalinin maraqlarını, əxlaq və adətlərini öyrənir*, öz təsəvvür və fikirləri haqqında gündəlik qeydlər aparır. Monteskye öz məşhur kəlamında xarici ölkələrə səyahətini belə xarakterizə etmişdir. *Almaniya səyahət, İtaliya müvəqqəti yaşamaq, İngiltərə fikirləşmək, Fransa həmişəlik yaşamaq üçün yaranmışdır*[2].

Monteskye İngiltərənin dövlət təsisatlarına xüsusi diqqət yetirir. O, parlamentdə on iki saat davam edən müxalifətlə hökumətin mübahisələrini müşayət edir. Monteskyenin konstitusion idarəçilik formasına hörməti artır. *Bu ölkədə hakimiyyətlərin bölgüsü nəzəriyyəsi ideyası yaranır.* 1688-ci ildə şərəfli inqilabdan sonra İngiltərədə aristokratlarla burjuaziya arasında sinfi kompromisə gətirən qaydaları tam bəyənir. Monteskye Hollandiya və İngiltərədə yaranan burjuaziya sistemində qüsurlar olduğunu da aşkar edir. Lakin 1688-ci ildəki Şanlı inqilabdan sonra tətbiq olunan qaydalardan razı qalır. Monteskye Fransaya ingilis siyasi təsisatlarının tətbiqi tərəfdarı kimi qayıdır. O, İngiltərənin timsalında Fransada da *burjuaziya ilə aristokratiyanın ittifaqının yaradılmasını istə-*

---

[1] Монтескье Ш. Персидское письмо. М.: Худ. лит. 1956

[2] Историки античности в 2-х т-х. Т. 2 Древний Рим. М.: Правда, 1989, с.23

*yir.* Onun ideyası fransız mütləqiyyətinə qarşı istiqamətlənir. Monteskye yaşadığı aləmlə dərindən öyrəndiyi qədim dövr arasında dərin əxlaq mədəniyyəti ilə dövlətin quruluşu arasında fərqləri əlaqələndirmək fikrinə yönəlir[1].

Respublika ideyası üçün *Plutarx, Tit Liviya, Siseronun* əsərlərini oxuyanda əldə etdikləri ideya və həyati şərtlərdə ikinci dərəcəli əlamətləri çıxara bilən formula tapmaq istəyir. 1734-cü ildə nəşr olunan *«Romalıların böyüklüyü və yıxılması səbəbləri haqqında düşüncələr» adlı kitabında roma tarixi nümunəsində təsdiq etməyə çalışır ki, o yerdə ki vətəndaşlar azad və müstəqildir, harda respublika əxlaqı üstünlük edir, orda cəmiyyət müvəffəqiyyətlə inkişaf etmək vəziyyətindədir. Bu kitab Fransa burjuaziya inqilabının ideya mənbələrindən biri olur.*[2]

1748-ci ildə Cenevredə Monteskyenin *«Qanunların ruhu haqqında»* əsəri anonim müəllif adı ilə nəşr edilir. İki həftə sonra bu kitab Parisə çatır, Fransa və İngiltərəyə gətirilməsini qadağan edən senzura qoyulur[3]. Monteskye «Qanunların ruhu haqqında» əsərin yazılması haqda belə qeyd edirdi: *«Mən bir neçə dəfə bu əsəri yazmağa başladım və saxladım. Min dəfələrlə vərəqləri cırıb küləyə verdim. Hər dəfəsində də hiss etdim ki, artıq qollarım gücsüzlükdən yanıma düşür. Heç bir əlavə planım olmadan öz predmetimi tədqiq edərkən qayda, nə də müstəsna hal bilmədim. Əgər həqiqəti tapırdımsa, çalışırdım ki, onu tez itirməyim. İyirmi il müddətində gördüm ki, mənim əsərimin yazılması necə başladı, bu boyda inkişaf etdi və yekunlaşdı»*[4].

---

[1] 100 Великих мыслителей. М.: Вече, 2002, с.295

[2] Альберт Сорель. Монтескье. М.: Книжное дело, 1898, с. VIII

[3] Там же, VIII- IX

[4] 100 Великих мыслителей. М.: Вече, 2002, с 295

*Monteskye bu əsərdə müəyyən edir ki, idarəçilik forması çox halda qanunvericilikdən yox, dövlətin öz xüsusiyyətlərindən, onun ölçüsündən, əhalisindən, hava şəraitindən, coğrafiyasından, əhalinin inandığı dindən və əxlaqından asılıdır*. O, bəzi nümunələr əsasında əsaslandırır ki «xalqın ruhu» təbiət amillərindən yaranması və nəticədə hər bir ağıllı qanunvericinin axır nəticədə insanı əhatə edən təbii mühitə uyğun hərəkət etməli olduğunu təsdiq edir.

İsti iqlimi olan xalq Monteskyeyə görə qocalar kimi qorxaq, soyuq iqlim şəraitdə yaşayan xalqlar gənclər kimi qorxmaz olurlar. İsti ölkələrdəki xalqlar hissiyatları ilə fərqlənirlər, onlar qarşısı alınmaz zövq almağa səy göstərirlər. İsti iqlimdə insan bədəni özünü qəlbinə keçən sıxılmış kimi hiss edir. Odur ki, cənubda yaşayanlar hər şeyə laqeyddirlər, heç nə ilə maraqlanmır, hər hansı yaxşı əmələ qabilyyəti olmur, heç bir alicənablığa getmirlər. Bu meyllilik passiv xarakter alır. Cənub əhalisi öz ruhunu hərəkətə gətirmək üçün özünü məcbur etmək istəmir, cəza verilməsini ondan üstün tutur, onlara qul psixologiyası xarakterik olur, ağılı inkişaf etdirməyə laqeyd baxırlar[1].

Monteskyeyə görə mülayim iqlimi olan ölkələrdə tam başqa cürdür. Monteskye İngilis monarxiyasının üstünlüyünü hərtərəfli Britaniya iqliminə görə fərqləndirir. Monteskyenin bu nəzəriyyəsini – iqlimin ictimai inkişafda həlledici rol oynamasını ədəbiyyatda prinsipial səhv adlandırırlar, coğrafi nəzəriyyənin səhvini, Çin dövlətində özəl olmamasını əyani təsdiq kimi göstərirlər[2]. Monteskye dövlət hakimiyyətində xüsusi mülkiyyəti cəmiyyətin «normal» həyatı üçün

---

[1] Историки античности в 2-х т-х. Т.2 Древний Рим М.: Правда, 1989, с.161

[2] Альберт Сорель. Монтескье. М.: Книжное дело, 1898, с.90

zəruri şərt kimi görür[1]. Fransa burjuaziyasının siyasi tələblərinə əsaslanaraq, Monteskye dövlət quruluşunun müxtəlif formalarına hərtərəfli baxmaq və tarixə qanunverici və məhkəmə təsisatlarını verməyi öz borcu hesab edirdi.

Kitabda mühüm hakimiyyət formaları: *respublika, monarxiya, despotizm yer alır.* Monteskye əhəmiyyətli sosial funksiyaları bu və ya başqa şəkildə yerinə yetirən dövlət hakimiyyətinin üç növünü: respublika, monarxiya və despotiyanı ayırır. *Monteskye respublikanı – tam və ya bir hissəsi xalqın əlində olan ali hakimiyyət kimi; monarxiyanı - dəyişilməz qanunlar vəsitəsilə həyata keçən bir nəfərin hakimiyyəti kimi xarakterizə edir; despatiyaya o, hər hansı qanun məhəl qoymadan bir nəfərin özbaşınalığına tabe olan dövlət quruluşu kimi baxır. Hər bir dövlət quruluşun obyektiv səbəblərinə iqlimi, torpağı, ərazinin böyüklüyünü daxil edir[2].*

Hər bir idarəçilik forması növlərinin xüsusiyyətlərinə qədim və orta əsr təcrübələrindən nümunələr göstərir. O, əsərində dövlətin iki tarixi tipini ayırır: *Şərq despotiyası və Avropa monarxiyası. Respublika quruluşunun xeyrinə bu iki tip dövlət quruluşunu tənqid edir.* Qədim Yunanıstan tarixinə, tədricən əhalinin monarxiq hakimiyyətdə azad olması, yunan xalqının tam azadlıq əldə etdiyi, təsərrüfat və mədəniyyətin inkişafını surətləndirən Respublikanın yaranma tarixi kimi baxır.

Monteskyenin əsərlərinə istinad etmək yolu ilə burjuaziya Fransada respublika qurulmasının zəruriliyini əsaslandırır. *«Fars məktublarında» respublika rejimində iqtisadi üstünlüyü göstərir. O, göstərir ki, Respublika - vətəndaş bərabərliyi,*

---

[1] Баскин М.П. Монтескье. М.: Мысль, 1965, с.79

[2] Историки античности в 2-х т-х. Т.2 Древний Рим М.: Правда, 1989, с.24

*xalqın rifahının artırılmasına təsir edən, despotizm isə - əsas əhali kütləsinin yoxsulluğuna və dilənçiliyinə gətirən bir quruluşdur.*

Respublika quruluşunda ölkənin var-dövlətinin əhalinin sayının artmasına səbəb olar. Bu, təbii şəraiti və əhalisi Avropadan pis olan İsveçrə və Hollanldiya timsalında təsdiq olunur. Monteskye feodal-despotik rejimi konstitusion monarxa və respublika rejiminə qarşı qoyur[1].

Monteskye dövlət quruluşunda *sosial strukturun əsas elementi kimi insan statusunu göstərir. Onun fikrincə respublika üçün ləyaqət, monarxiya üçün vicdan, despotiya üçün qorxu xarakterikdir[2].* Monteskye hakimiyyətin bərabərliyi ideyasını irəli sürərək qanunun toxunulmazlığını yalnız respublika şəraitində, həm də konstitusiya-monarxiya quruluşunun, fərdi mülkiyyət hüququnun olduğu yerdə təmin etməyin mümkün olmasını nəzərdə tuturdu.

O, *«Qanunların ruhu haqqında» əsərində ingilis mütəfəkkiri C.Lokkun dövlət hakimiyyət bölgüsü ideyası əsasında özünün klassik hakimiyyətlərin bölgüsü konsepsiyasını yaradır.* Dünyanın ilk demokratik yazılı konstitusiyası olan ABŞ konstitusiyası Monteskyenin bu konsepsiyası əsasında formalaşmışdır.

Monteskye inanır ki, *əgər monarx məhkəmə funksiyasına qarışmasa, qanunverici orqan ölkəni idarə etmək yox, yalnız qanunlar qəbul etsə, feodal cəmiyyətin bütün əsas təbəqələri razı qalar və burjuaziyanın aristokratik təbəqəyə düşmənçiliyinə son qoyular.* Bu məsələdə Monteskye, Lokk kimi, burju-

---

[1] Монтескье Ш. Избранное произведение: О духе законов М.: Полит. лит., 1955, с.27

[2] Историки античности в 2-х т-х. Т.2 Древний Рим. М.: Правда, 1989, с.28

aziya ilə feodal aristokratiya hakimiyyəti arasında sinfi kompomisə əsaslanan 1688-ci ildə İngiltərədə baş verən inqilabı göstərir.

Bu cür kompomisin Monteskye Fransada baş verməsinin mümkünlüyünü göstərir. Monteskyenin monarxiya rejiminin despotiyadan prinsipcə ayrılmasına səyi mülayim və razılaşma xarakteri daşıyırdı. K.Marks Monteskyenin nəzəriyyəsində monarxiyanın şərəf prinsipinin üstünlük təşkil etməsini tənqid edirdi.

**Monteskyenin müdrik kəlamları:**

*«Bir nəfərə edilən ədalətsizlik, hamı üçün təhlükədir». «Azadlıq – hamının qanunların imkan verdiyi hər şeyi əldə etmək hüququdur». «Nə vaxt ki, ləyaqət itir, şöhrətpərəstlik ona uyğun olanları, xəsislik də istisnasız olaraq, hər şeyi zəbt edir». «Hər bir dövlət vəzifəsində hakimiyyət gücü qısa müddətli olmalıdır». «Qanunlar hamı üçün eyni məna daşımalıdır». «Çox oxumaq lazımdır ki, bir az az biləsən». «Fransızlar öz arvadları haqqında, demək olar ki, heç zaman danışmırlar, onlar qorxurlar ki, həmsöhbəti bu predmet haqqında onların bildiklərindən çox bilər». «Böyük işlər görmək üçün, böyük dahi olmaq, insanlardan yüksəkdə durmaq lazım deyil, onlarla bir yerdə olmaq lazımdır».*

## 6.6. J.J.Russo – əsərləri həyat təcrübəsindən bəhrələnmiş ensiklopedik filosof

• *Qanunverici hakimiyyət – dövlətin ürəyi, icra hakimiyyəti onun beynidir.*

• *Hökumət ata, xalq bərabər və azad doğulmuş uşaq kimidir.*

• *İnsanın həqiqi həkimi pəhrizkarlıq və əməkdir. Əmək onun iştahını açır, pəhrizkarlıq ondan sui-istifadə etməyə imkan vermir.*

• *Öz xeyirin üçün özünə yalan danışmaq – saxtakarlıq, dost üçün yalan danışmaq – aldatmaq, başqasına ziyan vurmaq üçün yalan danışmaq – iftiradır.*

***J.J.Russo***

Fransız yazıçısı və filosofu J.J.Russonun (1712-1718) əsərləri, Böyük Fransa inqilabının mənəvi mənbəyi olmuş və Avropanın tarixinə, dövlət hüququ, tərbiyə və mədəniyyətinə böyük təsir göstərmişdir.

Yaşadığı dövrdə Russo fransız yazıçıları arasında ən məşhurlarından birincisi olmuş, XVIII əsrdə elə bir mütəfəkkir tapmaq mümkün deyil ki, qısa müddətdə Almaniya və Avropanın başqa ölkələrində, fikir yaradan şəxs kimi, bu qədər şan-şöhrət qazansın.[1] Avropada, dünyada ən tanınmış yazıçı olmaqla, onun qələmindən nə çıxırdısa, o dəqiqə nəşr edilir, yenidən çap olunur və başqa dillərə tərcümə olunurdu. Onun əsərlərin Parisdə və Peterburqda, London və Florensiyada, Madrid və Haaqada, Vyana və Bostonda və s. nəşr olunurdu[2].

Russo öz anasını görməmişdi, anası onun doğumundan

---

[1] Баскин М.П. Монтескье. М.: Мысль, 1965, с.65

[2] Асмус В.Ф. Жан-Жак Руссо (к 250-летию со дня рождения) М.: Знание, 1962, с.3

az sonra ölmüş, atası tez bir zamanda başqa qadınla evlənmişdi. O, faktiki olaraq atadan və anadan yetim qalmış, onu çox istəyən mehriban xalasının himayəsində böyümüşdü.

Uşaqlıq cağı Russo çox mütaliə etməyi, evlərində olan böyük kitabxanadakı kitabları: Plutarxın, Ovdiyanın və b. əsərlərini və fransız romanlarını oxumağı xoşlayırdı. 16 yaşında *o, Şərqi Fransanı, İsveçrənin bütün yerlərini gəzir (o, Cenevrədə fransız ailəsində anadan olub) və çox tez sərbəst həyata başlayır. O, müxtəlif peşələrdə: notariusda yazar, qravürə şagird, aristokratik ailədə lakey, ailə katibi və s. işləmiədir*[1].

Russonun həyatında və elmi fəaliyyətində *xanım Liza de Varansın* böyük rolu olmuşdur. Xanım de Varans Abbat Poneveranın tövsiyəsi ilə gənc oğlanı qəbul edir, evində sığınacaq verir, ona fəaliyyəti üçün yaxşı şərait yaradır və ona analıq qayğısı ilə yanaşır. Öz anasını görməyən, daimi qadın qayğısından məhrum olan gənc, bu diqqətdən təsirlənir, tezliklə onu «*anacan*» adlandırır, de Varans müəyyən müddət *onun anasını əvəz edir*. de Varansın evində, onun rəhbərliyi altında və onun birbaşa köməyi ilə Russo onda çatışmayan boşluğu doldurur. *O, antik şairləri və klassikləri, daha yaxın dövrün şairlərini, o zaman məşhur olan Volterin əsərlərini oxuyur.* Uzun müddət burada olmaq Russo üçün onun yazıçı, filosof, kompozitor kimi istedadının üzə çıxıb formalaşmasında böyük rol oynayır. Onun evində antik müəlliflərin, *«maarifçilik əsri»* nümayəndələri adlanan müxalifət düşərgəsinin əsərləri olan zəngin kitabxana var idi. O, burada ata evindən sonra oxumağın ikinci mərhələsini başlayır[2]. Russo varlı və kasıb arasında sosial və mənəvi kontrastı başa düşən, müstəqil baxışları

---

[1] Манфред А.З. Три портрета эпохи Великой Французской Революции М.: Мысль, 1978, с.26

[2] 100 Великих мыслителей. М.: Вече, 2002, с.323

formalaşan insan olur. Russo astronomiya, kimya, botanika, latın dili, onun çox sevdiyi predmetlərdən tarixi və coğrafiyanı öyrənir. O, sonralar yazılan traktatlarında, fəlsəfi-siyasi əsərlərində tez-tez və asanlıqla tarixi faktlara müraciət edir, tarixi əsərlərdə göstərilən faktları əsaslandırır. Russo de Varansın evində keçirdiyi vaxtları özünün həyatında ən işıqlı və ən xoşbəxt anlar hesab edir[1] .

Russo çox oxuyur, fəlsəfəni və *Dekartın, Lokkun, Lebnisin, Mol Blanşın, Nyutonun, Montenin elmi əsərlərini əsaslı surətdə öyrənir, fizika, kimya, astronomiya, latın dilinin öyrənilməsi ilə məşğul olur, musiqi dərsi aparır və s.* de Varansın evində olan müddətdə fəlsəfə, təbiət elmləri (təbiətşünaslıq), pedaqoqika və başqa elmlərdə ciddi nəticələr əldə edir. O, atasına yazırdı: «mən yalnız ağlımı maarifləndirməklə yanaşı, öz ürəyimin ləyaqət və müdrikliyini tərbiyə edirəm»[2].

1740-cı illərdə Russonun de Varansla münasibəti pisləşir və o Parisə gedir. Orada ədəbiyyat aləmi ilə əlaqə və tanışlığı, qabaqcıl insanlar ilə mənəvi əlaqələrini genişləndirir. O, burada Didro, Merilo, Qolbax, Dalanber və b. tanış olur. *Didro Russonu yazdığı «Ensiklopediyada» iştirak etməyə dəvət edir.*

Pis maddi şəraitdə olan Russo *«Parisdə nəyi istəsən yalnız qadınla əldə etmək mümkündür»* prinsipi ilə hərəkət edir[3] . O, kübar xanımların qəbuluna gedir. Onu nəvazişlə qarşılayır, diqqət yetirirlər. Baronessa de Bezanvilin qızı Russonun onunla nahar etməsini xahiş edir. O, nahardan sonra yazdığı şeiri bərkdən, ustalıqla oxuyur. Qadınlar həyəcanlanırlar, hətta ağlayanlar da olur. Bir neçə gündən sonra bütün Pa-

---

[1] 100 Великих мыслителей. М.: Вече, 2002, с.323-324

[2] Манфред А. З. Три портрета эпохи Великой Французской Революции М.: Мысль, 1978, с.56

[3] 100 Великих мыслителей. М.: Вече, 2002, с.324

risdə onun haqqında deyilirdi: *«Bu gözəl gənc oğlanın çoxlu istedadları var».* Yaxşı yazıcı, ruhlandırıcı musiqiçi, istedadlı kompozitor olması, onun ağıllı, çox savadlı, məftunedici gözləri, güclü əlləri barədə geniş məlumat yayılır. Russo Parisin modasına çevrilir, paytaxtın ən yaxşı evlərinə dəvət olunur. Tezliklə Parisin ən varlı qadını xanım *Dyupenin* salonunun qonağı olur. Russo *«Açıq etirafı»*nda onu Fransanın ən gözəl qadını adlandırır.[1]

Russo 1742-43-cü illərdə Parisdə karyerin ənənəvi yolları ilə gedərək, sosial iyerarxiyanın ən yuxarı pilləsinə qaxmağa nail olmuşdu. *Russonun dahiliyində onun «ilahidən gələn nurlanma»nın əsas amil olduğu deyilir. Russo 1762-ci ildə Melzer buya məktubunda və «Açıq etiraf» kitabında bunu belə yazır: «Venesans qəsrində həbs edilmiş Didroya baş çəkmək üçün getdikdə, qəflətən yolda «nurlanma» hiss etdim: işıq axını gözlərimi qamaşdırdı, aydın fikir yığımı mənim üstümə tökülüşüb, gəlməyə başladı. Mən sarsıldım, başa düşülməyən həyəcan keçirdim, ictimai sistem çox aydınlıqla qarşımda durdu. O qədər həyəcanlandım ki, elə bil ki, şüurumu itirmişəm». Roman Rollan sonralar bu deyilənləri dramaturji şəkildə inandırıcı həqiqət kimi göstərir: «birdən gözlənilmədən ildırım kimi işıq saçdı, onu apostol Pavelin nurlanması kimi yerdən götürdü, nurlandırdı, onun əlinə közərmiş qılınc-qələm verdi*[2]*.*

1743-cü ildə tanış olduğu xanım Bralin köməyi ilə Venesiyada Fransa nümayəndəliyinin katibi vəzifəsinə götürülür. Burada bir il müddətində boş vaxtlarında dövlət idarəetməsi haqqında kitaba material yığır və İtaliya musiqisi ilə tanış olur. O, həyatı kitablardan dərk etmirdi, sonradan çox

---

[1] Манфред А. З. Три портрета эпохи Великой Французской Революции М.: Мысль, 1978, с.32

[2] Там же, с. 33, 34

oxuduğu yazıçıların ayrı-ayrı mühakimələrindən deyil, olduğu kimi, *öz gördüyü, hiss etdiyi, eşitdiyi kimi ətraf aləmi öyrənirdi.* Qəriblik Russoya ən mühüm və çətin dərk edilən həyat elmini öyrədir. Nümayəndənin kobud münasibətinə görə diplomatik xidməti qoyub, Parisə qayıdır, orada evlənir, həyat yoldaşı ilə ömrünün sonuna qədər yaşayır və beş övladı olur. İqtisadi vəziyyəti və məişət şəraiti pis olduğundan uşaqları tərbiyə evinə verir. Qeyd etmək lazımdır ki, o, Parisə qayıdanda yoxsullaşır, qazandığı pul qısa müddətə xərclənir və müəyyən vaxtlarda ehtiyac içərisində yaşayır[1]. Onun haqqında belə yazılır: «gənc qəribin heç nəyi, nə pulu, nə də silahı vardır». O, günəşli və qaşqabaqlı, işıqlı və tutqun, varlı və yoxsul, mehriban və kobud: bunlardan heç nəyi yoxdur. O, sabah nə olacağını özündən soruşmurdu. Odur ki, onun üçün sabah – bu gündür, bu qeyri-müəyyənlik onda hər tərəfdən boşluq yaradırdı. Sual veriləndə ki, hara gedirsən? - bilmirəm. Nahar edəcəksən? - bilmirəm və s. cavab verirdi[2]. O, yığcam geyinirdi, hər şeyi səliqəli edir, cəlbedici xarici görünüşü, sifəti, yaxşı üz rəngi, diqqətli baxışları, hər şeyi müşayiət edən gözləri, yaxşı ədalara (xüsusiyyətlərə) malik idi».

Russonun *demokratizm və respublikanizmi kitablardan yox, onun gördüyü və eşitdiyi öz həyat təcrübəsindən gəlir. O, bütün krallığı piyada gəzir, kəndli daxmalarında və kasıbların düşərgələrində gecələyir.* Ədəbiyyatda göstərilir ki, Russonun mənəvi dünyası ziddiyətlərdən toxunmuşdur[3].

Onun iti baxışları hər şeyi görür, qulaqları şikayət notla-

---

[1] Манфред А. З. Три портрета эпохи Великой Французской Революции М.: Мысль, 1978, с.35

[2] 100 Великих мыслителей М. Вече, 2002

[3] Асмус В. Ф. Жан-Жак Руссо (к 250-летию со дня рождения) М.: Знание, с.9

rını qəbul edir. Xalqı sərt feodal zülmü altında, senyorların özbaşınalığı, həddən artıq vergi və itaət, kral məmurlarının qanunsuzluğu və s. görürdü. Russo görürdü ki, varlıların yoxsullara, zadəganların adi insanlara zülmünə etiraz olaraq, kasıbların varlılara, zülm olunanların zülmkara qarşı üsyanı yaxınlaşır. Kütlənin bərabərsizlik və iztirabından varlılar mənfəət üçün istifadə edir. Onlar insanları itttifaq bağlamağa, öz üzərində onların qoyduqları qanunlar əsasında cəmiyyəti idarəedən ali hakimiyyəti qəbul etməyi, guya ki, kütlənin müdafiəsinə kömək üçün məqsəd kimi həyata keçirməyə çağırırdılar [1].

Russo T.Hobbsun «hamının hamıya qarşı müharibəsi» kimi təsvir etdiyi insanların təbii vəziyyətindən imtina edib, vətəndaş hüququna keçib, onları idarə edəcək dövlətdə birləşməyə mənfi münasibətini belə bildirirdi; insanlar «təbii vəziyyətindən» imtina edəndə onlar qan mübarizəsinə, antoqanizmə və müharibəyə daxil olurlar[2].

Russonun fikrincə insanları özgələşdirən əsas səbəb xüsusi mülkiyyətdir. *Onun fikrincə ədalətlilik üçün əsas şərt azadlıqdır. Azadlıq isə mülkiyyətlə əlaqəlidir. O, bu ideyanı «İctimai müqavilə haqqında» kitabında inkişaf etdirib yazır, insanlar ictimai təhlükəsizliyi və vətəndaşların azadlığının müdafiəsi üçün razılaşaraq dövləti təsis edirlər. İnsanlar dövlətdə təbii vəziyyətindən vətəndaş vəziyyətinə keçirlər. Yalnız dövlət «təbii vəziyyət»i saxlayan, ideyası azadlıq, bərabərlik və qardaşlığın həyata keçirilməsini təmin edir. Bu ideyanı həyata keçirmək qabiliyyəti dövlətin respublika quruluşudur[3]. Onun*

---

[1] Асмус В. Ф. Жан-Жак Руссо (к 250-летию со дня рождения) М.: Знание, 1962, с.15

[2] Там же, с.16

[3] 100 Великих мыслителей. М.: Вече, 2002, с.328

*fikrincə ailə siyasi cəmiyyətin nümunəsidir. Hökumət – ata kimi, xalq - bərabər və azad doğulmuş uşaq kimidir*[1].

*Russonun dövlətin orqanik nəzəriyyəsinə xüsusi baxışları var idi. J.J.Russo göstərir ki, ayrılıqda götürülmüş siyasi orqanizmə oxşar ayrı-ayrı üzvlərdən təşkil olunmuş canlı orqanizm kimi baxmaq olar. Ali hakimiyyət – bu, onun başı; qanun və adətlər – beyni; əsəblərin əsası və düşüncənin tutumu, iradə və hissiyat orqanları – onun hakimləri və maqistləri; ticarət, sənaye və kənd təssərüfatı – bu, ağzı və mədəsi; maliyyə – bu, bütün bədənə yeməyi və həyatı verən qandır; vətəndaş – bu maşına hərəkət, həyat verən və onu hərəkətə gətirən bədən və üzvləridir və onların heç bir hissəsini yaralamaq olmaz, çünki əgər canlı sağlam vəziyyətdə deyilsə, ağrının hissiyatı o dəqiqə beyinə çatır. Birinci və ikinci bütün hissələrin qarşılıqlı hissiyatı və daxili ahəngi tam üçün ümumi olan – bu, «mənəm». Əgər məlumat dayanırsa, əgər formanın vəhdəti dağılırsa, hissələrin bir-birinə məxsusluğu itir, başqa cür desək, bu vəziyyətdə – ölüdür və ya dövlət yıxılıb.*

*Siyasi orqanizm iradəyə malikdir. Ümumi iradə həmişə tamın və onun hər bir hissəsinin yaxşı saxlanmasının təmin edilməsinə yönəldilir. Bu, dövlətin bütün üzvləri üçün zəruri olan qanunların mənbəyi, üzvlərin dövlətə münasibətdə həqiqi ədalətin və ədalətsizliyin ölçüsüdür*[2].

Russonun *«Emil və ya tərbiyə haqqında»* romanı və *«İctimai müqavilə haqqında»* siyasi traktatı nəşr olunandan sonra kral bu kitabların yandırılmasına və Russonun həbsinə qərar verir. Russo qorxaraq İsveçrəyə qaçır və orada da izlənilir. Cenevrə hakimiyyəti də bu kitabların yandırılmasına qərar verir. Russo müdafiə və sığınacaq üçün Prusiya kralı II Fridrixə

---

[1] Жан-Жак Руссо. Трактаты. М.: Наука 1969, с. 153

[2] Там же, с.113,

müraciət edir və sığınacaq alaraq burda iki il yaşayır. O, burada yazdığı *«Dağdan məktub»* adlı dini kitabı protestantların narazılığına səbəb olur və o, Prusiyadan da qaçır. Sığınacaq almaq üçün Strasburqa gəlir və burada çox qala bilmir. Filosof Devid Yumun dəvəti ilə İngiltərəyə gəlir. Burada müəyyən müddətdən sonra isə Yun və Volter ondan üz döndərirlər. O, 1767-ci ildə İngiltərəni qoyub, Fransa vətəndaşı Rena adı ilə Fransa torpağında gizli həyat sürür. Russonun beş il müddətində yazdığı *«Açıq etiraf»* əsəri qurtarmamış qalır. 1770-ci ildə Fransa hökumətinin siyasi repressiyaların dondurulması ilə əlaqədar qərarından sonra Russo əhali arasına çıxır, dostlarının və tanışlarının yanına qayıdır[1].

Qeyd etmək lazımdır ki, J.J.Russo gənclik illərində musiqi və şahmatla ciddi məşğul olmuş, hətta Fransanın birinci naziri, boz kardinal, hersoq Rişelyenin köməyi ilə kral hesabına *«Zəriflik ilahəsi»* operasının ilk tamaşasını qoymuşdur. Buna baxmayaraq, nə musiqi, nə şahmat onun karyerasında bir rol oynamışdı, siyasi baxışları onu dünyanın ən qabaqcıl mütəfəkkiri etmişdir.

Russo 1778-ci ildə 66 yaşında ürək xəstəliyindən qəflətən vəfat etmişdir. Ölümündən on altı il sonra, 1794-cü ildə onun cənazəsi təntənəli şəkildə Panteona dəyişdirilmiş və Valterin qəbri ilə yanaşı basdırmışdır. Onun dəfn olunduğu yer insanların ziyarət yerinə çevrilir. Orda onu çox insanlar, o cümlədən Robespyer və gələcək imperator Napoleon ziyarət etmişdir.

**J. J. Russonun müdrik kəlamları:**

*«Hər yaşın özünün xüsusi meyliliyi var, lakin insan həmişə eyni cür qalır. On yaşında aciz miskin, iyirmidə-sevmək, otuzda-zövq almaq, qırxda-şöhrətpərəstlik, əllidə – xəsislik olur».*

---

[1] 100 Великих мыслителей. М.: Вече, 2002,с.328

*«Təbiət istəyir ki, uşaqlar yaşlı olmamışdan əvvəl uşaq olsun. Əgər biz bu qaydaları pozsaq, heç bir yetişkənliyi, dadı olmayan və tez bir zamanda xarab olan meyvə istehsal edərik». «Uşaqlara imkan verin ki, uşaqlıqla yetişsin». «Xeyirxahlıqdan başqa hər şeyə qarşı durmaq olar». «Həddindən artıq şənlənmək, tezliklə gülməkdən çox ağlamaq gətirir». «Varlıların istifadə etdiyi, yoxsulların həris olduğu cah-cəlal hamının əxlaqını pozur». «Azadlıq hər hansı idarəçilik formasında yox, azad insanın ürəyində yerləşir». «İnsan özündə olanla kifayətləndikdə olduqca güclüdür, insanlardan yuxarı qalxmaq istəyəndə, olduqca zəifdir». «Xoşbəxt olmaq üçün tək məharət - xoşbəxtliyinin öz əlində olduğunu dərk etməkdir». «Səbr acıdır, onun barı şirindir». «Həyat yalnız ani davam edir, öz-özlüyündə o, heç nədir. Onun dəyəri nə etdiyindən asılıdır. Yalnız insanın etdiyi xeyir qalır ki, buna görə onun həyatı nəyəsə dəyir». «İnsanlar nə qədər az bilirsə, onlar biliyinin geniş olduğunu düşünür». «Həddən artıq ciddiliyin və həddən artıq möhkəmliyin hər ikisindən kənar durmaq». «Yaxşı kitab yazmaq üçün ömrün yarısı, onu düzəltmək üçün isə o biri yarısı çatmaz». «Gənclik müdrik olmaq üçün, qocalıq, onun tətbiqi üçün zamandır». «Bəzən zərbə hədəfə düşmür, lakin niyyət heç zaman yan keçmir». «Demək olar ki, bütün işlərdə ən çətini onu başlamaqdır». «Kim siyasət və əxlaqı ayrıca öyrənmək istəyir, o, nə birincidən və nə də ikincidən heç nə başa düşməyəcək». «Tərif onu xoşlayanları korlayır». «Təbiət heç zaman bizi aldatmır, biz özümüz özümüzü daima aldadırıq». «Kim ki, ləyaqətli adamı satır, o, özü-özünü satır». Sərxoşluq insanı alçaldır, müəyyən müddətdə ağlını alır, axırda onu heyvana çevirir». «Elmli adamlarda savad olduğu kimi, saf adamlarda da vicdanlılıq qiymətlidir». «Ən axmaq adam odur ki, ən çox özünə qapanıb, bütün fikirlrini özünə yönəldir». «Ədalətsizliyi görüb, susmaq – bu, onda*

*iştirak etmək kimidir». «Tərbiyədə ən böyük səhv – həddən çox tələsiklikdir». «Ədalətin birinci mükafatı – bütün ədalətli etdiyimizi dərk etməkdir». «Yalnız güclü dövlət öz vətəndaşlarının azadlığını təmin edir». «Hər bir bədbəxtliyin altında yoxsulluq yatır». «Döyüşdə silah lazım olduğu kimi, həyatda da bilik lazımdır». «Saxta adamın dostluğu düşmənçilikdən daha təhlükəlidir». «Əgər siz uşaqlarda dəcəllik hissini öldürsəniz heç vaxt müdrik insanı yetişdirə bilməyəsiniz». «Möcüzələr yalnız uşaqlıqda baş verir». «İnsanın bütün mənaviyyatı onun niyyət və əməllərdən irəli gəlir və onlarla ölçülür». «Hətta düşmən də sənin xeyirxahlığın qarşısında acizdir». «Şöhrət xalqın xəstə nəfəsidir».*

# III BÖLMƏ.

# M Ö C Ü Z Ə

# VII FƏSİL.

~~~~~~~~~~~~

# ŞUMER MÖCÜZƏSİ

*• Möcüzə - təbii qanunauyğunluqlardan kənar, izahı olmayan təbii hal, təsir, təzahürdür.*

*• Fiziki günəş Şərqdən doğur, mənəvi özünüdərkin daxili günəşi qərbdədir.*

***Hegel***

*• Şərqi öyrənin, bu – bəşəriyyətin ənənələrinin böyük muzeyidir.*

***P. Y. Çaadaev***

## 7.1. İtmiş Şumer tarixinin dirçəlişi: görünən tərəfləri

*• Xalq həmişə öz kökünü yadda saxlamalıdır.*

***Heydər Əliyev***

*• Yeni ideya əldə edəcək hər bir əsr yeni gözlər əldə edir və köhnədə yaradılmış insan ruhunda çoxlu yeniliklər tapır.*

***Heyns***

XIX əsrin 40-cı illərindəki arxeoloji axtarışlar e.ə. dörd min əvvəlki sivilizasiyanın təşəkkül tapdığı Şumerlərin mövcudluğunu aşkar etmişdir.

Kitabda tarixi ardıcıllıqla şərqdə yaranmış möcüzələr içərisində iki möcüzə *Şumer möcüzəsi və Quran möcüzəsi* haqqında danışılır.

Öz möhtəşəm piramidaları, statuetka, relyef və freskalar şəklində zəngin təsviri materialları olan Misirə nisbətən Şumerlərdə XIX-XX əsrlərdə yalnız gil lövhəcikləri aşkar edilmişdir. Şumerlərin gil yazılarını təhlil edən Amerika alimi
~~~~~~~~~~~~

Kramer e.ə. IV–III minillikdə İkiçayarasının cənubi-şərqində Fərat və Dəclə çayları arasında yaşamış möcüzəli və sirli Şumerlərin bu gil yazılarını elm tərəfindən etiraf olunan ilk yazılı sivilizasiya hesab edir. Arxeoloji qazıntılar gedişində alınmış gil yazı lövhəciklərinə əsaslanaraq, bu lövhəciklərin faktiki olaraq ilk tarixi ədəbi abidə olduğu təsdiq olunur.

Düşünüləsi məsələlərdən biri yer üzərində 124 min peyğəmbərin hamısı şərqdə mövcud olmuş, Ramazan ayında dörd müqəddəs kitab nazil olmuş: *Tövrat – Musa peyğəmbərə, Zəbur – Davud peyğəmbərə, İncil – İsa peyğəmbərə, müqəddəs Quran isə – Məhəmməd (s) peyğəmbərə, göndərilmişdir.* Bu müqəddəs kitablardan sonuncusu – Quran və onun möcüzələri haqqında çoxlu araşdırılmalar aparılmışdır. *Elmin və yüksək texnologiyanın əldə etdiyi yeniliklər, yeni kəşflər Quranda hələ 14 əsr bundan qabaq deyilmişdir.* Quran möcüzələrini hamı etiraf edir və Quranda yazılanları oxuduqdan sonra, kimliyindən asılı olmayaraq, əksəriyyətin islama münasibəti dəyişir. Oxumaq və yazmaq bilməyən Məhəmməd peyğəmbərə (s) Quranın nazil olması, ilk sivilizasiyanın isə semit tayfaları içərisində yad ərazidən gəlmiş Şumerlərdə yaranması əsas möcüzə sayılmalıdır. ABŞ tədqiqatçısı Zaxariya Sitçinin fikrincə, Şumerlərdə sivilizasiya başqa planetdən gəlmişlərdən qəbul edilmişdir.

XIX əsrin ortalarına qədər tarixçilər qədim Dəclə və Fərat çayı hövzəsində (Babilistanda) yaşayan xalqlar haqqında natamam, ziddiyətli və əksər hallarda təhrif olunmuş məlumatlara malik idi. Lazım gəlirdi ki, yalnız Bibliyadan və antik yunan və latın müəlliflərinin materiallarından istifadə edilsin. [1]

---

[1] Редер Д. Г., Черкасова Е. А. История древнего востока. Под ред. Крушково Ю. Е. М.: Просвещение, 1979, с. 106

XIX əsrin 40-cı illərində İkiçay arasında aparılmış əsas arxeoloji qazıntılar nəticəsində e.ə. IV minilliyə aid sivilizasiyanın təşəkklü tapdığı Şumerlərin mövcudluğunu göstərən şəhələrinin xarabalıqları aşkar edilir. İngilis arxeoloqu *S. Leyard* (1847), rəssam *Hörmuza* (1853), Assiriya paytaxtı Nineva xarabalıqlarında arxeoloji qazıntı apararkən və saray qalıqlarını tədqiq edərkən Assurbanialın iyirmi beş mindən çox gil kitabələrindən ibarət möhtəşəm kitabxanasını aşkar edir. Burada İkiçayarası ədəbiyyatların bir çox nümunəsi tapılır. Bu ədəbiyyatlar Şumerlər, Babillər, Assurilər tərəfindən toplanılıb yığılmışdır. Tezliklə aydın olur ki, o yazılar nə Bibliyada, nə antik müəlliflərlərin təsəvvüründə olmayan, e.ə. dördüncü minillikdə yaşamiş, hardan gəldikləri məlum olmayan bir xalqa mənsub olmuş, e.ə. II minillikdə onların etik linqvistik mədəniyyəti yerli xalqlara – Babilistan, Assiriyaya və b. qatılmışdır.

Şumer ərazisində arxeoloji qazıntıları Britaniya muzeyində mürəttib işləmiş İngilis *Corc Smit* davam etdirmişdir. O, mixi yazını öyrənmiş və bu kitabların məzmunu ilə tanış olmuş, Gilqameş dastanının bir hissəsini muzey kitabələri arasında tapıb oxumuş, digər hisəsini Ninevada qazıntılar zamanı aşkar etmişdir[1].

Yüksək mədəniyyətli Şumer xalqının ədəbi irsi saxlanılmış və assiriyalılar tərəfindən dəqiqliklə öyrənilmişdir. Lüğətlərin, sorğu kitablarının və sətir-sətir tərcümənin köməyi ilə bu gil lövhəciklər oxunmuş, e.ə. dörd min il əvvəl danışıq vasitəsi kimi istifadə edilən şumerlərin dili bərpa edilmişdir.

1837-ci ildə ingilis diplomatı və linqivisti *Henri Raulinson* qədim Babilistan yolunun üstündə Bagaston qayasında

[1] Yusifov Y.B. Qədim şərq tarixi. Dərslik, Bakı Universitetinin nəşriyyatı B, 1999, s.56

mixi (xətti) işarələrdən olan relyef və yazı görür. Raulinson bu görünənlərin üzünü köçürür və onun tərcüməsini nəşr etdirir. Bu illərdə fransız tədqiqatçısı *Botta* Xorşabad yaxınlığında birinci Assiriya sarayını aşkar edir. Bu iki tapıntı elmi aləmini son dərəcə heyrətləndirir.

Beləliklə, minillərlə yaddan çıxan sirrlərlə zəngin sivilizasiya dünyaya yayılır. Bu kəşflər bir-birinin ardınca davam edir və nəhayət Mesopotamiya – *Şumer, Akkad, Babilistan, Assuriyada yayılan mixi yazıların e.ə. 4 min il bundan əvvəl iki çay arasında məhsuldar torpaqlara gəlmiş etnik, linqvistik və semitlər qəbiləsinə yad mədəniyyətli Şumerlərin olduğu aydınlaşdırılır.* Bu isə ən qədim mədəniyyət ocaqlarından biri hesab edilir. İkiçayarasının cənub hissəsi əvvəl başdan-başa bataqlıqdan ibarət olmuşdu. Ona görə burada erkən həyat izlərinə rast gəlinməmişdir[1].

Şumer problemləri ilə məşğul olan amerikalı *Ş. Kramer danılmaz sübutlarla təsdiq edir ki, Babilistan ədəbi süjetlərin və elmi kəşflərin əksəriyyətini şumerlərdən götürmüşdir.*

Şumerlərin mənşəyi barədə fikirlər ən mürəkkəb elmi problem kimi davam etməkdədir. Onların ilk vətənlərinin harda olmasının axtarışı bu günə qədər uğursuzluqla davam edir. Şumerlərin hardan gəlməsi və hansı milli mənsubiyyətə malik olması haqda bir neçə variant irəli sürulür:

*Birinci variant,* şumerlər qədimdə Mesopotamiyada yaşayan yerli xalqlardır;

*İkinci variant,* şumerlər Mespopotamiyaya başqa yerlərdən gəlmədir. Əksər alimlər bu variantın üstündə dayanırlar.

Antropoloji xüsusiyyətlərinə görə Şumerlərin qarayanız, tünd gözləri, düz burnu, qıvrım saçları olması, onların «qara-

---

[1] Редер Д. Г., Черкасова Е. А. История древнего востока. Под ред. Крушково Ю.Е. М.: Просвещение, 1979, с.109

başlar» adlandırılmasına səbəb olmuşdur.

Bir ehtimal var ki, şumerlər Asiyadan – dağlıq ərazidən dəniz yolu ilə gəlmişlər. Dağlıq ərazidən gəlməsi onların kərpicdən və ya gil bloklardan təpələrdə, dağ yamacında, terraslarda öz məbədlərini və evlərini tikməsi, «ölkə» və «dağın» şumer dilində eyni cür yazılmasıdır. Şumeroloq Kramer «dağ» və «xarici dövlət» sözlərinin üst-üstə düşdüyünü yada salır. Çoxları deyirlər ki, şumerlər Mesopotamiyaya dəniz yolu ilə gəliblər və gələn kimi onlar suvarma təsərrüfatı və dənizdə üzmək və gəmiçiliklə məşğul olmuşlar. Şumerlərin dastanlarında onların bəşəriyyətin vətəni olan Dalmun adalarından gəldiyi, lakin bu adalarda dağların olmadığı bildirilir [1].

*Məşhur İngilis alimləri Q. Caydı və H. Leyard Şumerlərin turanlar olduğunu və onların təxminən on, on iki min il bundan əvvəl səfalı, bəhrəli Dəclə və Fərat çayları hövzəsində məskən salıb ətrafında yaşayan saysız-hesabsız vəhşi qəbilələrin heyrətli nəzərləri altında dünya sivilizasiyasının şəhərlərini saldığını, dünyada ulu bir mədəniyyət məşəli alışdığını göstərirlər*[2]. Şumerlər Dəclə və Fərat sahillərinə hamıdan sonra gəlmişlər. Onlara qədər həmin ərazi artıq müxtəlif semit tayfaları tərəfindən məskunlaşmış idi. Şumerlər özləri ilə yüksək, özü də artıq formalaşmış mədəniyyət gətirmişlər. Bəs bu mədəniyyət ilk dəfə harda yaranmışldır? Bu suala arxeologiya cavab verməlidir. Şumerlərin dili qədim türk (ümumi türk) dilinə oxşayır. Zahiri cəhətlərinə əsasən onlar hind-avropa qrupuna aid edilməlidir. Onların haqqında bildiyimiz

---

[1] ru wikipedia orq /wiki / Шумер, c.2

[2] Древний Восток в свете новых раскопок. М., 1956, с. 225-256; И.Лоялд. Реки близнецы, М., 1972, с.16

budur[1]. Elmi ədəbiyyatda Şumerlər Babilistanın cənubunda yaşayan, şumer dilində danışan ən qədim əhali sayılır və onlar bəşəriyyət taprixində ilk sivilizasiyaların yaranması ilə əlaqələndirilir.

### 7.1.1. Şumerlərin bəşəriyyətə verdiyi yeniliklər

*Kramerin fikrincə Şumerlər dünyaya*
*39 yenilik vermişdir.*

«Tarix Şumerlərdən başlayır» kitabına ön sözdə mərhum akademik Tofiq Hacıyev Kramer haqqında yazır: *«Ş.Kramer dahi şumeroloqdur. O, kiçik bir sahənin – şumerologiyanın böyük mütəxəsisidir. Necə deyərlər, o, «ən az bilinən Şumer haqqında ən çox bilən şəxsdir». «Bu böyük şumeroloq hazır-bütöv gil tabletlərini oxumaqla kifayətlənmədi, halbuki bu özü kifayət qədər rəşadətdir, həm də bir tabletin okeanlarla ayrılan-bir parçası Pensilvaniya Universitetində, bir parçası İstanbulda, bir parçası Parisin Luvr muzeyində və başqa mədəniyyət ocaqlarında saxlanan, daha doğrusu pərişan-pərişan həsrət içində gözləyən hissələrini bir-birinə qovuşdurdu, bu ümidsiz, yararsız kimi görünən parçaları birləşdirdi. Bir-birinə calanan parçalar dil açıb danışmağa başladılar* [2]*.*

Adətən, Şumer ədəbiyyyatına İlahi motivlərin ədəbiyyatı kimi baxılır, onu göy ədəbiyyatı olaraq səciyyələndirirlər. Ş. Kramer bu kosmos ədəbiyyatında Yeri gördü, torpağı gördü: əkinli-biçinli, bağ-bağça, məhsul-bərəkət oxudu, Tanrının

---

[1] К.Керам. Боги, гробницы, учение. Роман археологии. М.: Наука, 1986; Bayramov Q. «İnsan və zaman”. Bakı, 1992

[2] Kramer Ş. M. Tarix şumerdə başlayır. B.: Mütərcim, 2012, s.3

qüdrətindən danışan bu ədəbiyyatda insana «sevgi» oxudu[1].

Ş.Kramer üçün dünyanın ən qiymətli torpağı Mesopotamiyadır, çünki, bura şumerlərin yaşadığı torpaq olub; dünyanın ən zəngin faydalı qazıntı mədəni bugünkü İraqdadır, çünki bu qazıntılar bəşərin ilk yazı nümunələrini saxlamış, şumerlərin tabletlərini aşkar etmişdir.

Arxeoloji axtarış gedişində əldə edilmiş, bəşəriyyətin faktiki ilk ədəbi abidəsi sayılan nadir məlumatlara, gil mixi yazılara əsaslanaraq Ş. Kramer sivilizasiyanın həyat fraqmentlərini yenidən canlandırır.

Kramerin fikrincə, Şumerlər dünyada: birinci olaraq aşağıdakı yenilikləri gətirmişlər:

*1. İlk mixi gil yazısını icad etmişlər.* Azərbaycanda qədim şərq tarixinin dərin tədqiqatçısı, Y. Yusifov «Qədim Şərq tarixi» dərsliyində şumerlər ilə bağlı yazır «İlk yazı növü piktokrafiyanı (şəkilli yazı heroqrafik) qədim şumerlər icad etmişdir. Qədim Şumerlər, Hindlilər, Elamlar piktokrafik yazı sistemindən təssərüfat hesabı aparmaq üçün istifadə etmişlər. Şumerlərdə şəkilli yazının inkişaf mərhələsini mixi yazı işarələri təşkil edirdi[2].

Mixi yazılar müəyyən dəyişiklik ilə qonşu xalqlar, o cümlədən akkadlar, elamlar, hurrilər, urartular, farslar və başqaları tərəfindən mənimsənilmişdir və Şumer ölkəsi qədim Şərq elmi biliklərinin vətəni olmuşdur. Vaxtilə antik ölkələr qədim Şərq mədəniyyətinin müəyyən təsirinə məruz qalmışlar[3].

Nobel mükafatçısı İlya Priqojin «Xaosdan nizama. İnsan-

---

[1] Kramer Ş. M. Tarix şumerdə başlayır. B.: Mütərcim, 2012, s.4

[2] Yusifov Y. B. Qədim şərq tarixi. Dərslik, Bakı Universitetinin nəşriyyatı. B., 1999, s.56

[3] Yenə orada, s.6

la təbiətin yeni dialoqu» kitabında göstərir ki yaranışın ilk dövrlərindən təbiəti anlamaq üsulları çox çalarlı idi.Yazını Şumerlər yaratdılar. Şumer kahinləri əmin idilər ki, gələcəkdə onların anlamaq istədikləri hadisələri müəmmalı şəkildə əldə edəcəklər. Şumerlər hətta öz dünyagörüşlərində maqiya və rasionallıq elementlərinin sintezinə nail olaraq, bu dünyagörüşü sistemləşdirə bilmişlər[1].

*2. Suvarma kanallarını ixtira etmiş,* bataqlıqları qurutmuş, misirlilərdən bir neçə əsr əvvəl torpaq sahələrinə su çəkməyə öyrənmiş, suvarma arxlarının şəbəkəsinin köməyi ilə torpaqdan yüksək məhsul götürmüşlər;

*3. Ərazisində ağac və daş olmaması* onların *yerli materiallardan istifadə etməklə gilə qum və saman qarışdırmaqla və ya gili yandırmaqla kərpiç istehsal etmiş və özləri üçün ev və məbədlər inşa etmişlər.* Onların qədim dövrdə şəhərsalma texnologiyası, memarların hazırladığı üsul və arxitektura başqa xalqlar tərəfindən istifadə edilmiş və müəllifinin kim olduğu bilinməmişdir.

*4. İlk məktəb yaratmış, şumer mədəniyyətinin tarixinin ən mənalı töhfəsi sayılan mixi yazını ixtira etmişlər.*

*5. İlk ikipalatalı parlament yaranmışlar.* Kramer yazır: «Bizə belə gəlir ki, demokratiya monopoliyası bütünlüklə qərb mədəniyyətinə aiddir və onun təsirindən cəmi yüz il keçmişdir. Kim fikirləşərdi ki, belə siyasi assambleyalar min illər bundan əvvəl, özü də elə bir ölkədə yaradılmışdır ki, demokratiya haqqında bizim təsəvvürlərlə heç vəchlə əlaqəyə girə bilməzdi. E.ə. 2800 il əvvəl tarixdə məşhur ilk siyasi məclisin sessiyası təntənəli surətdə açılır. Müasir parlamentə uyğun o iki palatalı idi (söhbət ağsaqqallar şurası

[1] Əliyev R.U. Türk –Şumer dünyagörüşü və dil. Bakı: «Ziya – Nurlan», 2005, s.3

və xalq məclisi – hərbi işə yararlı kişilərdən yaranmış şura haqqında gedir).

6. İkiçayarasının hüquq qaydaları və normaları bir çox qədim sənədlərdə əks etdirilmişdir. Ən qədim qanunlar toplusu hesab edilən, 1947-ci ildə Fransa arxeoloqu tərfindən Elamın paytaxtı Suzun xarabalıqlarında tapılan *Bozalt sütunu üzərində yazılmış Xamurapi qanunundan (e.ə. 1750) 150 il qabaq Lipit – İştaura, ondan 70 il qabaq isə yazılmış Bilabamanın qanunları, bundan əvvəl isə Şumer hökmdarı Ur-Nammunun (e.ə. XXI əsr) qanunları toplusu qədimlilik cəhətdən ən birincisidir.* Qanunlar toplusu XX əsrin əvvələrində (1907) Nippor qazıntılarında tapılmışdır. Qanunun girişində ədalətli qaydanın yaradılması, özbaşınalığa son qoyulması barədə danışılır. Həmin dövrdə Nippur xarabalığında Şumer dilində yazılmış digər qanunlar da aşkar edilmişdir. Əvvəlki iki qanun babil dilində, sonrakı şumer dilində idi.

7. İngilis alimi Leyard tərəfindən Ninevada Aşşurbonialın kitabxanasında tapılan böyük tibb şöbəsində minlərlə gil lövhəcikdə tibbi terminlər şumerlərdən götürülmüş sözlərlə ifadə olunmuş, *tibbi prosedurlar xüsusi məlumat kitablarında – gigiyenik qaydalar, əməliyyatlar, əməliyyat zamanı spirtdən istifadə etmək və s. göstərilir. Şumer səhiyyəsi diaqnozun qoyulmasında və müalicə kursu yazılmasında, genetikanı yaxşı təhlil etməklə, insanın DNT quruluşunu bilməsində elmi baxışlarla fərqlənir.* Hələ 5 min il bundan öncə Şumer həkimləri gözdə mürəkkəb cərrahi əməliyyatlar aparmaq, mirvari suyunu götürmək iqtidarında olmuşlar.

8. Qədim metallurgiya elminin tədqiqatçılarını şumerlərin tətbiq etdiyi *kərpiç bişirmək və filizdən metal almaq üçün min beş yüz dərəcədə istilik verən sobanın ixtirası çox heyrətləndirmişdir*. Bu qabaqcıl texnologiya şumer sivilizasiyasının

yaranmasından yüz il keçməmiş başlamışdır. *Şumerlərdən bəşəriyyət onun bütün tarixini dəyişdirən, ondan hər şey istehsal oluna bilən bronzanın (tuncun) istehsalın öyrənmişlər.* Metallurgiyanın inkişafı misdən xəncər, balta, nizənin başlıqları, iskənə, balıqçılıq qarmaqları, düymə, boyunbağı, hətta qablar belə düzəltməyə imkan verirdi[1].

*9. Şumerlər «6-lıq (bu rəqəm xoşbəxtlik hesab edilirdi) və 10-luq sistemi ilə əks olunan hesablamaların, astronomiya və astrologiya elminin təməlini qoymuş, 6 göy, 10 yer rəqəmi olmaqla bu rəqəmlərdən hasil nəticəsi kimi 60 saniyəni bir dəqiqə, 60 dəqiqəni bir saat, bir günü 24 saata bölmüş, çevrəni 360 dərəcəyə, buradan da qapanmış çevrəni ilin 360 gününə bərabərləşdirmişdilər.*

Şumer təqvimi olduqca dəqiq düzəldilmiş, əsas gün – yazın gəlişi, gündüzlə gecənin bərabərliyi olan gün müqəddəs yeni il – *Novruz bayramı – yeni ilin birinci ayı kimi martı qəbul etmişlər.* Şumerlərin tətbiq etdiyi bu müqəddəs bayramı bizim eranın başlanğıcına qədər bütün dünya xalqları qəbul etmişlər.

*10. Şumerlər ilk səhər-dövlətin yaradıcılarıdır. Şumerlər dünya mədəniyyətinə Eridu, Ur, Uruk, Lagos, Kiş və b. əzəmətli şəhərlər, ilk səsli yazı sistemi, ilk nəzmlə yazılmış qəhrəmanlıq salnaməsi, ilk ədəbi abidələr, ilk nəğmələr, ilk təmsillər* toplusunu bəxş etmişlər. Şumerlərdə şəhər-dövlət, bütün ölkə miqyasında suvarma sistemi tətbiq edilən ölkələr üçün xarakterik olan *mərkəzləşdirilmiş despotiya* əlamətləri var idi. Kənd icması çar məmurlarının ciddi nəzarəti altında olurdu.

*11. Şumerlər incəsənət nümunələri ilə yanaşı, fəlsəfi fikirlərin*, əsasən də mənəvi saflığın təməli olan inam mədəniyyətinin əsaslarını yaratmışlar.

---

[1] Авдиев Б. И. История древнего востока. Изд 3-е. М.: Высшая школа, 1970, с. 41

12. Binaların və suvarma qurğularının tikintisində *cəbr, həndəsə və riyaziyyat geniş tətbiq edilirdi, astronomiya və astrologiyanı bilməklə günəş-ay təqvimi hazırlanmışdı.*

13. *Göy sistemləri haqda ilk elmi nəzəriyyəni vermiş Şumerlər,* günəş sisteminə daxil olan 9 planetlə yanaşı, bu gün elmə məlum olmayan əlavə 2 göy planeti haqqında ətraflı məlumata malik olmasını Amerika alimi Zaxariya Sitçin onların xarici sivilizasiyalar haqqında bilgilərə sahib olması ilə əlaqələndirir.

14. *İlk tarixçilər; ilk əkinçiliyin almanaxları, pivə bişirmək, üzümdən şərab istehsalı, ilk olaraq kosmogeniya (kainatın xüsusi ilə dünyanın əmələ gəlməsi haqqında nəzəriyyə) və kosmologiya (kainatın quruluşu haqqında nəzəriyyə) yaranıb; ilk atalar sözü və aforizmlər külliyatı meydana gəlib; ilk pul dövriyyəyə buraxıb (gümüş pul), ilk vergi tətbiq edilib; sosial islahatlar aparılıb və b.).* məşhur amerika şumeroloqu Ş. Kramer şumerlərin ilk ixtira etdiyi 39 yeniliyin adını qeyd edir[1].

Kramerin kimliyini göstərmək maraqlıdır. Kramer 1897-ci ildə Ukraynada yəhudi ailəsində anadan olmuş, 1905-ci ildə yəhudi talanlarından xilas olmaq üçün onun ailəsi ABŞ-a mühacirət etmişdir. Kramer Pensilvaniya Universitetində Misirşünaslığı və Assurologiyanı öyrənir. 1930-cu ildə Akkad fənni üzrə dissertasiya müdafiə edir, sonra isə şumeroloq olur. Həmin il İraqda özünün ilk arxeoloji qazıntısını aparır. Kramer 250-dən artıq əsər yazıb və ölənə qədər (1990 – 93 yaşında) dünyada aparıcı şumeroloq hesab edilmişdir.

Şumerlərin bəşəriyyətə verdiyi əddəbiyyat siyahısına Şumer əfsanələrinin toplandığı, sonralar Akkad dilinə tərcümə olunan «Gilqamış dastanı»-dır. Gilqamış haqqında (Sum Bilqamıs) dastanda Asur hökmdarı Gilqamışın fəaliy-

[1] Kramer Ş. M. Tarix şumerdə başlayır. B.: Mütərcim, 2012, s.5

yəti təsvir edilir. Onun adı ilə bağlı bir neçə poema mövcuddur. İkiçayarasının və bəzi hallarda qonşu ölkələrin tarixinin bərpa edilməsinə Uruk hökmdarının qonşu ölkələrə Kiçik Asiya, Şərqi Aralıq dənizi ölkələrinə, hətta Misirə, Urartuya, Manna və Midiya, Cənubda Babilistana hərbi səfərləri əks olunmuşdur. Demək olar ki, bu yazılı sənədlər Ön Asiya tarixi barədə nisbətən ətraflı və dolğun məlumat verən yeganə qaynaqdır. Yəhudilərin dini kitabı «Tövrat» Gilqamış dastanında olan tarixi hadisələrə dini don geyindirmişdir. Bu dastanın bir fəsli də dünyanı subasmadan xilas edən Nuhun tarixi haqqındadır. Burada yazılanlar Bibliyada Nuhun gəmisi haqqında tarixdə təkrar olunur [1].

Həmçinin, Şumer-Akkadın Kosmogenik dastanı «Enuma eliş» və 24 kitabdan ibarət müəyyən mənada ensiklopediya sayılan «Urro-Xubulludur» (vəzifə borcu və ya faizli istiqraz).

---

[1] Yusifov Y.B. Qədim şərq tarixi. Dərslik, Bakı Universitetinin nəşriyyatı. B., 1999, s.63

## 7.1.2. Şumerlərin sivilizasiyasının mənbəyinin sirləri

*• İki çay arasında məskunlaşan, başqalarından fərqlənməyən bir tayfanın birdən-birə sürətli inkişafı dünyada istifadə olunan yeniliklərin yaranma sirrləri tam araşdırılmamış qalır.*

*• Şumerlərin dünyagörüşündə özgə planetdən gəlmələr böyük rol oynamışdır. Şumerlər torpağı əkib becərməyin üsul və prinsiplərini, sənətkarlığı, arxitekturanı, ilk yazını, təkəri, keramika bişirmək üçün sobanı, astronomiyanı, insan anatomiyasını özgə planetdən gələnlərdən götürmüşlər.*

***Zaxariya Sitçin***

Bu gün şumerşünaslar arasında sensasiya yaradan məsələlərdən biri şumerlərin hardan gəlmələri ilə yanaşı, dünya sivilizasiyasını yaratmaları və dərk olunmayanları hardan bilmələri və bəhrələnmələridir.

Qədim şumerlərin yazılarında göstərilir ki, guya onlar dördüncü minilliyin ikinci yarısında kənar *Niburi planetindən yerə gələnlərlə əlaqələri olub.* 10 illərlə arxeoloqların tapdığı şumer lövhəciklərinin şəkillər və böyük olmayan statuetkaların təhlili və öyrənilməsindən belə nəticəyə gəlinir ki, *şumerlər kənar planetdən gələnlərlə təmasda olmuşlar.* Şumer mətnlərində, *Odlu kolesnitsada* (iki təkərli arabada) göydən-kənar planetdən uçub gəlmələri və onların istənilən yerə və ulduzlara qısa müddətdə uçmaq qabiliyyətinin olduğu göstərilir. Onlar hərdən özləri ilə seçdiyi insanları aparıb yuxarıdan yeri göstərir və bəzən isə doğma planetlərinə aparırdılar. Bir neçə min şumer mətnlərini öyrənəndən sonra alimlər *yad planetlilərin bəşəriyyətin inkişafına qarışması və qədim xalqların təkamülünə və mədəniyyətinə təsiri haqqında*

*sensasiya dolu məlumatlar əldə etmişlər.*

Şumer gil lövhəciklərində mətnləri 30 il müddətinə öyrənən Amerika mütəxəssisi *Zaxariya Sitçinin fikrincə şumerlərə torpağı əkmək və beçərməyin üsul və prinsiplərini, sənətkarlıq, arxitektura üsullarını, ilk yazını, təkəri, keramika bişirmək üçün sobanı və ən əsası astronomiya və digər konsepsiyaları, dərk olunmayanları bilmələri və b. başqa planetdən gəlmələr tərəfindən verilmişdir.* Şumerlərin dünya görüşündə Niburi planeti böyük yer tutur. Z. Şitçinin tədqiqatına qədər bu sirli planet sadəcə əfsanə sayılırdı[1].

Özgə planetdən gələnlərin şumerlərə təsiri üç dəlillə əsaslandırılır: *birinci*, şumer əfsanələrində insanların həyatında özgə planetdən gələnlərin rolu göstərilir; *ikincisi*, şumer əfsanələrində kosmik gəmilər və uçan aparat təsvirləri verilir; *üçüncüsü*, şumerlərin müxtəlif sahələrdə elmi təfəkkürü və praktiki nailiyyətləri, müasir elm və texnologiyanın inkişaf səviyyəsi ilə müqayisədə onların qabaqda olması göstərilir[2].

Şumerlərdə ilk böyük sivilizasiyanın bərqərar olduğundan minillər sonra Nil və Hind vadilərində böyük şəhərləri olan sivil dövlətlər yaranmışdır. Təxminən e.ə. 2800-cü ildə *Hind çayı vadisində, Kritdə sivilizasiya başlayıb, 2630-cu ildə Misir fironlar özgə planetdən gələnlərin qurduğu Xeops piramidası nümunəsi əsasında piramidalar tikməyə başlamışlar. Şumer lövhəciklərində çəkilən rəsmilərdə «ikitəkərli yanan kolesnitsasının» uçan müasir süni peyklərə oxşadığı, o peyklərin ulduz fonunda uçması görüntüləri əks olunur. Üzərində yanar kolesnitsanın şəkli olan Şumerlərin dövlət gerbi ilə yanaşı, Krit hökmdarının möhüründə də əks olunurdu [3].*

---

[1] http: taynu-zemli.ru article/ 536,s.1

[2] www.bibliotekar.ru/ii shumeru.htm, s.9

[3] Həmin mənbə

## 7.1.3. Şumerlərin mənşəyi və dili haqqında ehtimallar

*Alimlər arasında Şumerlərin mənşəcə türk, dilinin türk dili ilə oxşar olması ehtimalları üstünlük təşkil edir.*

İkiçayarasının cənubunda qədim əhali şumerlər idi. Adətən İkiçayarasında Şumerlərdən əvvəl meydana gəlmiş mədəniyyətin yaradılmasını protoşumer (ilkin, erkən şumerlər) adlandırırlar. Şumerlər qədim xalq hesab edilir.

Şumerlərin hardan gəlmələri onların dilinin hansı dil qrupuna aid və ya yaxın olması mübahisəli məsələlərdən biridir[1]. Şumerlərin Asiyadan (Anadoludan), Şərqi Ön Qafqazdan, İrandan, o cümlədən Elamdan, Orta Asiyadan, hətta Hindistan və Hind – Çindən gəlmələri barədə mülahizələr irəli sürülmüşdür. Şumer dilinin bir sıra müasir dillər ilə eyni mənşəli olması ehtimalları vardır. Şumer dilinin Qafqaz, Tibet – Birma, Ural – Altay, o cümldən bilavasitə türk dilləri ilə qohumluğu barədə fərziyyələr irəli sürülmüşdür. Son illərin tədqiqatçıları Şumer dilində bir çox türk (prototürk) sözləri aşkar etmişlər[2]. Orta Asiya dilçisi A. S. Amonjalov iyirmidən artıq Şumer sözlərinin türk sözələri ilə oxşarlığını fonetik qanunauyğunluq əsasında açıb göstərmişdir. *O. Süleymanov, A. Məmmədov, İ. M. Mirzəyev* və başqaları Şumer-türk leksik paralellərini qeyd etmişdir. *Osman Nedim* Tuna Şumer və türk dillərinin tarixi ilgilərini araşdırmış, bir çox Şumer və türk sözlərinin qanunauyğun fonetik dəyişmələrini müəy-

---

[1] ru wikipedia orq/wiki / Şumer, s.15

[2] Yusifov Y.B. Qədim şərq tarixi. Dərslik, Bakı Universitetinin nəşriyyatı, B, 1999, s.46.

yən etmişdir. Müəllif elmi cəhətdən inandırıcı dəlillərlə belə qənaətə gəlir ki, tarixən Şumer və türk (prototürk) dilləri çox yaxın təmasda olmuşlar[1] .

Ədəbiyyatda göstərilir ki, möcüzəli qrammatikası olan şumer dilinin bugünkü dillərin heç biri ilə doğmalığı yoxdur, bu dilin ilkin vətəninin harda olduğunu tapmaq hələ ki, müyəssər olmamışdır. Alman alimi *Q. Vinger göstərir ki, «bizə qədər gəlib çatmış ən qədim qaynaqlar semit dilində deyil, şumer dilində yaranıb. Bu dil əsas əlamətlərinə görə türk dilinə uyğun iltisaqi quruluşlu dildir və semit dillərinin quruluşundan tamamilə fərqlənir*[2] *.*

Şumer mətnlərini tədqiq edən Tariyel (Vəli Nuvədili) Azəritürk ən azı 5 min il öncəyə aid edilən şumer yazılı abidələrinə münasibət bildirərək, bu qədim incilərin *Azərbaycan türklərinin ulu babalarına məxsus olduğunu açıqlayır.* Artıq son tədqiqatlar bunu tamamilə təsdiqləməkdədir ki, şumerlər türk tayfalarıdır. İndiyə qədər elmdə çox işlənən protoşumerlərin də türklər olduğu haqqında inkar olunmaz faktlar vardır[3].

Repressiyaya məruz qalmış görkəmli azərbaycan şairi *Əhməd Cavad* yazır: «Şumerlərin dilinin turani dillərə bənzədiyi artıq qəbul edilmişdir. Şumerlər haqqında ən yeni və mötəbər əsər nəşr etdirən Voollu şumerlərin morfoloji cəhətdən «əski türkcəyə bənzər» bir dildə danışdığını qəbul edir.

Alman alimi *F.Hommel* Şumerlərin Mərkəzi Asiyadan gəlməsi və Şumer dilinin Altay dilləri ilə qohum olması müddəasını müdafiə etmiş və bir çox Şumer-türk sözlərinin qarşılıqlı

---

[1] Yusifov Y. B. Qədim şərq tarixi. Dərslik, Bakı Universitetinin nəşriyyatı, B, 1999, s.50

[2] Aydın Mədətoğlu. Şumer türkləri. Türkistan qəzeti 7-20 noyabr 2010-cu il, 14 s.

[3] İslam Sadiq. Şumerdə izim var. B.: Azərnəşr, 2008, s.60

müqayisələrini vermişdir. O, yazırdı: «Türk qövmlərinin ən qədim babalarından bir budaqla e.ə. 5-ci minillikdə Orta Asiyadakı ona yurdlarından ayıraraq Ön Asiyaya gəlmiş və Şumerləri təşkil etmişlər. Fr. Hommel fikrinin sübutu üçün Şumerlərin dilində olan 350 sözü türkcə izah edərək maraqlı araşdırma aparır. Hal-hazırda da Şumer dilinin Altay dil ailəsinə daxil edilən türk dilləri ilə qohum olması müddəaları təkrar olunur.

Görkəmli alim Əjdər İsmayılov müəlliflərinin əsərlərinə istinad edərək yazır: Türkistanın qərb ərazilərinin Çin qaynaqlarında Su; türk dastan rəvayətlərində «Şu» deyə anılan tayfanın adı olduğu ilk türk hökmdarlarından danışıldığı göstərilir. Beləliklə, Şumerləri təşkil edən tayfalar Orta Asiyada «ilk türk hökmdarları» səltənətini yaratmış qədim «Su/Şu» tayfalarıdır. Bəs Orta Asiyadan «Su/Şu» tayfa adı ilə Ön Asiyaya köç etmiş türk tayfaların hərəkət istiqaməti Azərbaycan türklərinin soy kökündə ona maya olmuş tayfalardan «Mar» əhalisinin yaşadıqları ərazidən keçərkən onlarla uzun illər birgə yaşamış yeni nəslin (ilkin forması, Sumar/Şumar; Avropa ədəbiyyatında Sumar/Şumer) birgə babaları olmuşlar.[1]

T.Hacıyev İ.Cəfərzadənin «Qobustan qayaüstü təsvirləri» kitabına və Ə.Fərzəlinin «Qobustan qaya təsvirləri» məqaləsinə istinad edərək yazır: *«Qobustan təsvirinin on min il əvvələ aid olması fikrini dünya tarixşünaslığı qəbul etmişdir. Deməli, təsvirləri, şumerlərdən beş min il keçmişə gedir və Qobustan cəmiyyətinin qayalara qazdıqlarını beş min il sonra Şumerlər gil tabletlər üzərində yazı vasitəsi ilə dedilər*[2]*. Burda Orxan Yenisey əlifbasında Z səsinin hərfi sayılan Z işarəsi Qobustan qayalarında eynən qazılmışdır. Bu, qədim bir türk*

---

[1] Əjdər Tağıoğlu. Qədim Ön Asiya Qafqaz türk tayfaları. B.: Nurlan, 2008. s 217-218

[2] Kramer Ş. M. Tarix şumerdə başlayır. B.: Mütərcim, 2012, s.7

*tayfasının damğası olmuşdur.* Qobustanda yazılı təpənin 47-ci daşının üstündəki təsvirinin Ə. Fərzəli şimalda Xəzər və Qara dəniz arası, Qafqaz və cənubda Savalan dağı ilə Urmiya ətrafından ibarət Azərbaycan coğrafiyasının 10 min il əvvəl gəlmiş *«Nipur xəritəsi»* ilə Qobustan xəritəsinin çertyoj tipi ilə üst-üstə düşür[1].

Rus alimi *Dmitri Reder* yazır: «Şumerlərin dili ayrıca bir dildir. Yalnız onu qəti demək olar ki, iltisaqi dillərdə sözün kökünü dəyişdirmədən ona şəkilçilər artırılmaqla yeni formalar və yeni sözlər düzəldilə bilər. Bura türk, azərbaycan, fin, uyqur dilləri də daxildir və öz quruluşuna görə ən çox türk dilləri ilə müqayisə edilə bilər[2].

E.ə. III minillikdə Şumer dili İkiçayarası qədim dövlətlərin rəsmi dili olmuşdur. E.ə. II-I əsrlərdə Şumer dili artıq ədəbiyyat dili kimi də öz varlığını itirmişdir [3].

Şərqi semit tayfaları e.ə. III minilliyin əvvəlində Şimali İkiçayarasına qərbdən gəlmişlər. Samilərin buraya bir neçə axını olmuşdur. Onların vətəni Ərəbistan yarımadası və Şimali Afrika olub, Fələstin və Suriyadan keçib gəlmişlər. Semitlər onları Akkadlar adlandırmış, dili qədim yəhudi və ərəb dilləri ilə doğma olmuşlar. Erkən Samilər İkiçayarasında akkadlar (akkad şəhərinin və dövlətinin adı ilə) adlandırılmışdı. *Akkadlar Şumer mədəniyyətinə yiyələnmiş və onu daha da inkişaf etdirmişlər.* E.ə. III minilliyin sonunda akkadlar Cənubi İkiçayarasını istila etmiş və Şumer dilinin ifadəsini məhdudlaşdırmışlar. Burada akkadlaşma prosesi gedirdi[4].

---

[1] Kramer Ş. M. Tarix şumerdə başlayır. B.: Mütərcim, 2012, s.8

[2] Мифы и легенды Древного Двуречья. М., 1965, с.150

[3] Yusifov Y. B. Qədim şərq tarixi. Dərslik. Bakı Universitetinin nəşriyyatı. B., 1999, s.50

[4] Yenə orada, s.52

E.ə. II minilliyin əvvəlçərində ehtimala görə Şumer dili artıq danışılmır, ancaq ədəbi dil kimi qalırdı.

Şumerlər e.ə. 24-cü əsrdə (2360) Semit qədim yəhudilər Akkad çarı tərəfindən işğal edilmiş, akkadlar – fəal şəkildə şumer mədəniyyətini qəbul etmiş və hətta şumer – akkad lüğətini saxlamışlar. Ümumiyyətlə Akkadlar Şumerləri təqlid etmiş, onların maddi və mənəvi mədəniyyətini mənimsəmiş, onların yaratdığı elm və mədəniyyətin müxtəlif sahələrinə aid əsərləri öz dillərinə çevirib bəhrələnmiş, zəngin kitabxanalar yaratmışlar. Şumerlərin davamçıları kimi akkodlar, assiriyalılar, babillər, hetlər və arameylər, sonralar Babilistanda və Suriyada öz dövlətçiliyini yaratmış və onların sələfləri olan şumerlərdən böyük mədəniyyət götürmüşlər.

Başqa bir rəvayətə görə, şemit tayfaları Qərbdən və şimali-qərbdən Babilistana şumerlərlə eyni vaxtda köçüb məskunlaşmışlar. Şumer xalqının semitləşməsi, onun dilinin də mənimsənilməsi ilə müşayiət olunur. Şumer dili latın dili kimi funksiyasını itirdiyindən Babilistan və Assuriya yazarları şumer dilini dəqiqliklə öyrənirdilər (orta əsrlərdə latın dilinin öyrənildiyi kimi). III minilliyin sonunda şumer dili danışıq dili kimi statusunu itirmiş, ədəbiyyat və mədəniyyət dili kimi iki min il müddətində saxlanılmışdır. *L. M. Diakonov yazır: «e.ə. III minilliyin ikiçayarası dövlətlərindən heç biri təmiz semit dövləti olmamışdır. Ancaq e.ə. II minilliyin əvvəllərində semit dili şumerlərin qədim dilini tədricən sıxışdırmış, bütün ölkədə bu dili canlı istifadədən çıxarmışdır. Ancaq din və elm dili kimi, ölü dil olaraq qalmışdır».*

Babilistanın şimal hissəsinə isə Xurritlər gəlmiş və sonralar onlar semitləşmişlər. e.ə. 2200-ci ildə onlar Akkad çarlığını işğal etmişlər.

## 7.2. Şumerlərin siyasi hakimiyyəti

• *Şumerlərdə dövlət aparatı hərbi demokratiya tipli olub, xalq yığıncağından, qəbilə başçılarından təşkil olunmuş ağsaqqallar şurasından və onların seçdiyi hərbi başçıdan və hökmdardan ibarət idi.*

• *Şumerlərin ilk yaratdıqları şəhər-dövlət sonralar Yunanıstan şəhər-polisi kimi adlandırılmışdır.*

Şumer dövləti e.ə. 4-cü minillikdə yaranan, müəyyən dövrlərdə bu şəhərlərdən birinin ümumi idarəçiliyi altında olan şəhər-dövlətlərdəndir. Qədim şərq ilk elmi biliklərin vətəni olmuşdur. Vaxtilə antik ölkələrə qədim şərq mədəniyyətinin böyük təsiri olmuşdur. Qeyri-bərabər tarixi inkişaf nəticəsində Şumer, Misir, Elam e.ə. IV-III minillikdə artıq şəhər-dövlət kimi (e.ə. iki-üç min il sonra Yunanıstanda da bu cür dövlət-şəhər – polis adlandırılırdı) mövcud olduğu halda, qədim Şərqin digər yerlərində dövlətlərin yaranması e.ə. II, bəzən də I minilliyə təsadüf edir[1].

Dəclə və Fərat çaylarının töküldüyü yerdə məskunlaşan şumerlər ilk olaraq *Erudi* şəhərini salırlar. Bu onların birinci şəhəri idi, odur ki, onlar bu şəhəri öz *dövlətçiliyinin beşiyi* adlandırırlar. Sonralar onlar Mesopotamiya düzənliklərinin dərinliklərinə hərəkət edirlər, yeni şəhərlər salır və ya əldə edir, yerli əhali ilə qaynayıb qarışır, yerli mədəniyyəti daha da inkişaf etdirirlər. Qədim «Gilqamış dastanına» görə e.ə. 2600-ci ildə Uruk çarlığı Gilqamışın hakimiyyəti altında birləşdirilmiş, sonralar bunu Ur dinastiyasına ötürmüşdür. *Ara-*

---

[1] Yusifov Y.B. Qədim şərq tarixi. Dərslik. Bakı Universitetinin nəşriyyatı, B., 1999, s.8

*lıq dənizindən Cənubi-Qərbi İrana qədər uzanan şumer dövləti yaradılmışdır[1].*

Kənd təssərüfatının əsasən süni suvarmaya əsaslanan əkinçiliyin inkişafı, metallurgiyanın yaranmasına, işçi qüvvələrinin çoxalmasına zəruri olan məhsuldar qüvvələrin artmasına səbəb olur. Şumerlərdə və Akkadda məhsuldar qüvvələrin inkişafı və əmək məhsuldarlığının artımı ilə qədim quldarlığın formasına, insanın insan tərəfindən istismarına, izafi məhsulun meydana gəlməsinə şərait yaradırdı. Kənd icmalarının əmlaka görə təbəqələşməsi, məhsuldar qüvvələrin artımı, ticarət mübadiləsinin və qulların artımı, nəhayət qarətedici müharibələr icma üzvləri arasında təssərüfat həyatının və idarəetmə mərkəzinin *qədim quldar aristokratların ayrılmamasını sürətləndirirdi.* Bununla yanaşı, az təmin olunan icma təbəqəsi yoxsullara və hətta qullara çevrilirdi[2].

Beləliklə, icma quruluşu xarabalıqları üzərində qədim sinfi cəmiyyət yaranır. Bu cəmiyyətin böyük adamların-quldarların yoxsul və qul kütləsini itaətdə saxlamaq üçün *dövlət aparatının* yaradılmasına ehtiyac yarandı. Başında *icma şurası olan qədim icma müəyyən müddətdə hərbi demokratiya tipli böyük ictimai təsisata çevrilirdi . Şərqdə ibtidai icmanın tarixinin dövlətə qədərki dövrünü Marks və Enqels hərbi demokratiya adlandırır. Onlarda bütün hakimiyyət nominal olaraq xalq yığıncağına məxsus idi. Faktiki olaraq hər şeyi varlı və adlı-sanlı qəbilə başçıları idarə edirdi. Onlar arasından dini-icma təsərrüfatına rəhbərlik edən kahinlər ayrılırdı. Bu Qəbilə başçıları ağsaqallar şurasını təşkil edirdi, hərbi rəislər*

---

[1] ru wikipedia orq/wiki/ Шумер, с.8

[2] Авдиев Б. И. История древнего востока. Изд 3-е. М.: Высшая школа, 1970,с.46-48

*irəli sürür və hökmdarı seçirdilər*[1].

E.ə. IV minillikdə Şumer və Akkad ərazisində qədim təssəruüfat, siyasi və mədəniyyət mərkəzləri olan ayrı-ayrı kiçik şəhər dövlətlər yaranır. E.ə. III miniilliyin əvvəlində İkiçayarasında on beşə yaxın şəhər-dövlət mövcud olmuşdur. *Şəhərləri, kiçik kəndləri hərbi başçı və ali kahin olan hökmdarın başçılığı ilə mərkəzə tabe edilirdi.*

Cənubi Mesopatomiyanın şimalında, Kişin cənubda isə növbəliklə Ur və Uruk Fərat – İrnin kanallar şəbəkəsini idarə edirdi.

Fars körfəzinin sahilində, ən cənubda *Erudi* yerləşirdi, Şumer ənənəsinə görə, bu, şəhərin *göydən enmiş çar hakimiyyəti olmaqla ölkənin qədim paytaxtı idi.* Güclü dövlətin mərkəzi olan *Ur şəhəri* böyük əhəmiyyət daşıyırdı. Qazıntılar e.ə. III minilliyin ortalarında Urda texnikanın, ən əsas isə metallurgiyanın və zərgərlik mədəniyyətinin inkişafını göstərirdi. Bu dövrdə *misdən və alovadan tunc almaq, meteorit dəmirindən istehsalatda tətbiq etmək, qızıl və gümüşdən incəsənət əşyaları düzəltmək bacarırdılıar.* Dövlətin başında məbəd və saraylar tikən hökmdar dururdu. Onu öz cəvahiratları və qiymətli daşları ilə birlikdə dəfn edirdilər.

Cənubi Babilistanda Ur yeganə varlı və güclü dövlət deyildi. Onunla yanaşı başqa dövlətlər öz arasında Cənub və Orta Babilistanda hegemonluq uğrunda mübarizə aparırdı. Onlardan ən əsası *Laqos* idi. E.ə. III minilliyin ortalarında böyük gücə malik Laqos Uru, Uruki, Lagos, Eridu və ümumiyyətlə Babilistanın bütün cənub hissəsini özünə birləşdirir və Şumer çarlığı yaranır. Buranın Uruk, Ur, Laqos və başqaları

---

[1] Авдиев Б. И. История древнего востока. Изд 3-е. М.: Высшая школа, 1970, с.49

daxil olmaqla dini mərkəzi Nippur olur[1].

Cənubda Şumerlərlə şimal semitləri arasında mübarizə Şimalın qələbəsi ilə yekunlaşır. *Akkad semit dövlətinin əsasını qoyan Sarqon şumerləri* Akkadın zəiflədiyi zaman dağ tayfaları *Babilistanın çox hissəsini özünə tabe etdirir.* Sarqon vaxtından əvvəl doğulmuş, özünü İtara ilahəsinin varisi elan edib zorla dövlət hakimiyyətini zəbt etmiş və yeni dinastiyanın əsasını qoymuşdur. Sarqon Şumer və Akkadı öz hakimiyyəti altında birləşdirərək «ölkə çarı» titulunu qazanır. O, Babilistana Şərqdən hücum edən bütün ölkəni çapıb talayır və öz hakimiyyətinə tabe etdirir. Sarqon 55 il çarlıq edir və öz evinin qulluqçuları tərəfindən öldürülür. Şumerlərin cənub hissəsinin şəhərləri hökmdarlara - qutilərə xərac verdiyindən burda sakitçilik hökm sürürdü[2]. Qutilər Mesopotomiyada 125 ilə yaxın hegemonluq edirlər. Bu dövr ərzində *Qutilər Akkada və Şumer tayfalarının mədəni inkişafı ilə assimiliyasiya olunurlar. Güclənmiş şumerlər qutilərə qarşı qalxır və onları Babilistandan qovandan sonra Urun üçüncü dinastiyasının hegemonluğa başlayır. Bu dövrdə bütün Babilistan mərkəzləşdirilmiş dövlətdə birləşdirilir və bu isə əkinçilik təsərrüfatının inkişafına səbəb olur [3].*

*Urun hegemonluğu Ön Asiyada izsiz ötüşməyir. Qədim və yüksək Şumer mədəniyyəti bu xalqların mədəni inkişafına böyük təsir edir. Şumerlərin Gilqamış haqqında dastanı xurrit və xett dilinə tərcümə olununr. Şumer incəsənət abidələri Assuriyanın qədim mərkəzi Assura xarabalıqlarında tapılır. Şumer hüququ Babilistan, Assuriya, Kiçik Asiya hüququnun inkişafı-*

---

[1] Авдиев Б. И. История древнего востока. Изд 3-е. М.: Высшая школа, 1970, с.51

[2] Там же, с.64.

[3] Там же, с.61

*na təsir göstərir. Beləliklə, Şumer mədəni irsi Ön Asiya xalqları tərəfindən qəbul edilir.*

Qədim Şumerlərdə *dövlətin monarxik* quruluşunun mövcudluğu e. ə. III minilliyin başlanğıcına aid edilir. Bu dövrə qədər Şumer şəhərləri rəhbəri vətəndaşların yığıncağında seçilən özünəməxsus respublika quruluşu idi[1]. Bu dövrdə əsas təssərüfat forması süni suvarmaya əsaslanan əkinçilik idi. Odur ki, qədim quldarlıq dövlətinin mühüm təsərrüfat funksiyalarından biri *irriqrasiya sisteminin* təşkili və saxlanması idi.

İri suvarma işlərinin aparılması qonşu ölkələrlə (mübadilə) ticarətin inkişafı və tez- tez aparılan müharibələr *inzibati idarəetmənin mərkəzləşməsini tələb etdirdi.* Bu funksiyanı təssərüfat həyatını öz əlində cəmləşdirən *«Nübanda»* adlanan ali məmur aparırdı. Onun funksiyalarına *əkinçilik işlərini idarə etmək, torpaq paylamaq, kənd təssərüfatı alətləri vermək, ərzaq anbarlarını və çar xəzhinəsini idarə etmək daxil idi.* Ayrı-ayrı şəxslər dövlət arxivinin və müqavilənin bağlanmasını həyata keçirən palataya rəhbərlik edirdi[2]. Xamurati çarlığı dövründə e.ə. (1792-1750) ölkənin idarə edilməsi ciddi mərkəzləşdirilmişdir. *Ali hakimiyyət: həm məhkəmə, həm icra, qanunverici, hətta dini hakimiyyət çarın əlində cəmləşdirilmişdi. Ölkənin bürokratik ildarəetmə sisteminə başçılığı, Kahinlərin təliminə görə, ali hakimiyyət Allah tərəfindən verilmiş çar edirdi. Çar mübahisəli işlərə baxır, özü qərar qəbul edir, məmurlara göstərişlər verirdi. Xüsusi çar fərmanı ilə təqvimə lazımi dəyişikliklər edilirdi. Ölkənin idarəetməsini çar*

---

[1] Черниловский З. М. Всеобщая история государства и права. М.: Юристь, 1995, с.40

[2] Авдиев Б. И. История древнего востока. Изд 3-е. М.: Высшая школа, 1970, с.49

*mürəkkəb bürokratik aparatla həyata keçirirdi. Bir məmur mərkəzi idarəetmə sahəsinə, digərləri çarın adından şəhər və vilayətlərə rəhbərlik edirdi. Böyük şəhərləri çarın xüsusi canişinləri idarə edirdi.* Əhali müxtəlif vergilər verirdi. Bu cür dövlət idarəetməsinin mərkəzləşməsi, xüsusilə iqtisadiyyat nümunəsi o dövrdə başqa dövlətlərdə tətbiq edilirdi. Qədim Şərq ölkələri vahid orqanizm olduğundan, *şumerlərin mədəni və dövlətçilik sahəsində təcrübəsi qonşu ölkələrə siyasi, iqtisadi, mədəni və etnik cəhətlərdən təsir edirdi və mənimsənilirdi.*

Şərqdə Şumerlərdən sonrakı dövrlərdə dövlət quruluşunun xüsusiyyətləri haqqında Azərbaycan yazıçı-dramaturqu, materialist filosofu, Azərbaycan dramaturgiyasının banisi, «Şərqin Molyeri titulunu almış» M. F. Axundov (1812-1878) belə yazırdı: *«Mədəniyyət toxumu əvvəllər şərq ölkələrində cücərmişdir». Bəs necə olmuşdur ki, sonradan qərb, Avropa maddi mədəniyyət cəhətincə irəli getmiş, şərq isə geridə qalmışdır?» O bu suala belə cavab verirdi. Şərq xalqlarının müasir ictimai və mədəni inkişafının geridə qalmasına başlıca səbəblərdən biri şərq ölkəlrində əsrlər boyu hökm sürən «dəhşətli cismani despotizm»* olmuşdur. Despotizm, yaxud istibdad üsul-idarəsi, daim əsarətdə yaşamaq şərq xalqlarının qabiliyyətini kütləşdirmiş, ağıl cövhərini paslandırmışdır[1].

[1] M. Cəfər. Mütəfəkkirin şəxsiyyəti. Bakı, Azərinəşr, 1966,s.16

### 7.2.1. Şumer mədəniyyətinin başqa xalqların mədəniyyətinə təsiri

• *Misirlilərin, babillərin, assurların, finikiyalıların, qədim yəhudilərin və hətta yunanların dünyagörüşünü və incəsənətinin qaynaqlarını şumerlərdə axtarmaq lazımdır.*

***Akademik V. V. Struve***

• *Fəlsəfi qanunlar qədimdə İkiçay arasında yaşayan Şumerlərdən xaldeylərə, sonra misirlilərə, suriyalılara və ərəblərə keçir.*

***əl-Fərabi***

Tarixi ədəbiyyatda göstərilir ki, «bu yaxınlaradək biz elə hesab edirdik ki, yəhudi mədəniyyətinə görə bütövlükdə Yunanıstana borcludur». Məhz ən yeni tədqiqatlar göstərdi ki, bir çox məsələlərdə biz mədəniyyətin varisləriyik ki, onu beş min il bundan əvvəl Şumer xalqının duhası yaratmışdır[1].

Şumer şəhərlərinin arxeloji qazıntıları şumerlərin və akkad semitlərinin mədəniyyətləri arasında qarşılıqlı təsir haqqında məsələ qoymağa imkan vermişdir. *Ed. Mayer şumer xalqının mövcudluğunu etiraf edərək, Şumer mədəniyyətinin semit xalqlarına böyük təsiri olduğunu* göstərir. Lakin o, hesab edir ki, semitlər Şumerlərin nailiyyətlərini sadəcə götürməmiş, onlar Şumerlərin qədim mədəniyyətinə əlavələr də etmişlər[2].

Ed. Mayer öz əsərində Qədim Şərq haqqında arxeoloji və tarix elminin bütün nəticələrini tam və dəqiqliklə vermişdir. O göstərir ki, *«Avropa orta əsrlərdə və yeni dövrdə öz inkişafında Qədim Şərqin keçdiyi inkişaf mərhələlərini təkrar edir».*

---

[1] Elməddin Əlibəyzadə kayzen.az/blog/azerbaycan/85-97

[2] Авдиев Б. И. История древнего востока. Изд 3-е. М.: Высшая школа, 1970

XIX əsrin böyük rus şərqşünası Akademik B. A. Turayev *«Qədim Şərqin tarixi»* kitabında (II cildlik) Qədim şərqlə antik mədəniyyət tarixini ellinizmin sonuna qədər tədqiq etmiş, bu mədəniyyətlər arasında yaxınlığı müəyyən etmişdir. O, bütün əsərlərində Qədim Şərq xalqlarının mədəni irsinin antik mədəniyyəti arasında əlaqə və varisliyini və orta əsrlərin qərb sivilizasiyasının inkişafına Qədim Şərqin böyük təsir göstərdiyini yazır[1]. Akademik *V. V. Struve göstərir ki, misirlilərin, babillərin, assurların, finikiyalıların, qədim yəhudilərin və hətta yunanların dünyagörüşü və incəsənətinin qaynaqlarını məhz şumerlərdə axtarmaq lazımdır[2].*

Hazırda bəzi tədqiqatçılar, o cümlədən L. Kinq Şumerlərin qədim Babilistanın mədəniyyətinin əsaslarını qoyması variantı üzərində dayanır[3].

İngilis alimi *L.Villi* yazır ki, «Nil vadisinin ilk fironu Monisin hökmdarlığı dövründə *Misir nəhayət tərəqqi yoluna qədəm qoyduğu vaxt onun yolunu Fərat sahillərində pöhrələnmiş daha qədim və daha yüksək mədəniyyət şöləsi işıqlandırdı.*

Şumerlərdən əlifbanı götürən finikiyalılar yunanlara, latınlara aparmışdır, latın, yunan, ibranı və ərəb əlifbaları da şumer əlifbası əsasında yaradılmış, sonradan latın əlifbası alban (Azərbaycan), Qralar (Hoy), Karte (Gürcü) və Kril (rus), ərəb əlifbası əsasında isə qədim soğdi və uyqur əlifbası yaradılmışdır[4] .

Avropalılar Bibliyada göstərilən rəvayətlərin mənbəyini axtarmaq məqsədi ilə iki çay arasında arxeoloji qazıntılar aparmış, tapılan mixi yazılı gil lövhəciklər, maddi və mədəni

---

[1] Тураев Б. А. История древнего востока т. Т, Л. 1935

[2] Авдиев Б. И. История древнего востока. Изд 3-е. М.: Высшая школа, 1970

[3] Там же, с.34

[4] Там же, с.14.

abidələr *İngiltərənin Kral, Fransanın Luvr, Pensilvaniya Universitetinə və Berlin muzeylərinə* daşınılmış və o muzeyləri zənginləşdirmişdir. Bu arxeoloji qazıntılar maddi və mənəvi abidələrin və mixi yazılı gil lövhəciklərin eramızdan dörd min il əvvəl orada məskunlaşmış Şumerlərə mənsub olduğunu göstərmişdir. Görkəmli alim *D. Q. Reder* göstərir ki, Bibliyanın nəinki səmaviliklə, hətta yəhudilərin iddia etdikləri qədimliklə heç bir əlaqəsi yoxdur. Bibliyi bizim eradan əvvəl 581-586-cı illərdə Babil əsirliyi zamanı yəhudi kahinləri tərəfindən şumer mifləri əsasında tərtib edilmiş bir kitabdır[1].

Hazırda Şumerləri *«Misir sivilizasiyasını yaradanlar»* adlandırırlar, hansı ki, XIX əsrin əvvəllərində onların mövcudluğu haqqında guman belə edilmirdi. *«Tarixin atası»* Herodot (e.ə. 480-425) qədim şərq dünyasının mədəni irsinin öyrənilməsini mühüm problem hesab etmiş, müəyyən vaxt keçdikcə mürəkkəb tarixi və özünəməxsus mədəniyyəti olan Qədim Şərq aləminin insanların sonrakı nəslinin yaddaşında tam itməsini göstərmişdir[2].

Linqvistlər olmasaydı, zaman şumerləri tarixi salnamədən silər və heç bir vaxt şumer haqqında bilinməzdi. Yalnız 1889-cu ildə Şumer anlayışı hər yerdə qəbul edilir. Tədqiqatçılar ilk şəhər-dövlətinin və ən başlıcası ilk yazı mədəniyyətinin (gil lövhəciklərdə mixi yazıların) şumerlərə məxsus olduğunu nəzərə alaraq *Şumerləri dünya mədəniyyətinin yaradıcısı hesab edirlər.*

*D.Q.Reder yazır: ulu şumer ilahi qanunlar ölkəsi idi. Bütün insanlar bir dildə danışır, bir-biri ilə əmin-amanlıq içində yaşayır, kimsə-kimsədən qorxmur, hamılıqla ev, qala tikir, şəhər-*

---

[1] Авдиев Б. И. История древнего востока. Изд 3-е. М.: Высшая школа, 1970, с.10

[2] Там же.

*lər salırdılar*[1].

Şumer ədəbiyyatının məşhur əsərlərindən biri *«Gilqamış dastanı»* şumer əfsanələrindən ibarət olub, sonralar akkad dilinə tərcümə olunmuşdur. Bu dastanda insanın *ilahi gildən hazırlanması və ilahi qanı ilə qarışdırılması, dünyanı su basması haqqında əfsanələr, hakimiyyətin ilahiləşdirilməsi və s. göstərilir.* Şumer ənənəsinə görə «çar hakimiyyəti göydən enmişdir». … İlk qaynağını «Müqəddəs sirlər»dən alan «Gilgamış» dastanındakı «*Nuh Tufanı*», «*Novruz bayramı*», «*Qurban bayramı*», *od, torpaq, su və havadan»* ibarət həyat anlayışı və s. kimi məsələlər də şumer təfəkkürünün məhsuludur.

Şumerlərlə bağlı belə bir nəticəyə gəlmək olar ki, şumer sivilizasiyasının təsiri *müxtəlif yollara, müəyyən dəyişikliklərə məruz qalmaqla, əvvəl akkadlara, semitlərə, sonra xetlərə, qədim babillərə, assiriyalılara, kassitlərə, xaldeylərə, e.ə. 538-ci ildə isə farslara (əhmənilər sülaləsinə)* keçmişdir.

Arxeoloji qazıntılarla tapılan şumer maddi və mənəvi abidələrinin və mixi yazılı gil lövhəciklərin yuxarıda göstərilən xalqların paytaxtında və ya ərazisində tapılması deyilənləri əsaslandırır.

Qeyd etmək lazımdır ki, e.ə. XI əsrdə Cənubi Mesopotamiyanı (şumer ərazisini) işğal edən xaldeylər (aramey qəbiləsi semit adının yunan formasıdır) e.ə. 612-ci ildə yeni Babilistan yaranandan sonra *Midiya kahinləri, maqlar kastası və xaldey kahinləri antik dövrdə şərqin gizli təlim nümayəndələri olub. Diqqəti cəlb edən məsələlərdən biri Şərqə İki çay arasına gələn filosofların xaldey, maqlar və kahinlərlə ünsiyyətdə olduqdan sonra öz klassik təlimlərini yaratmasıdır*[2].

---

[1] Редер Д. Г., Черкасова Е. А. История древнего востока. Под ред. Крушково Ю. Е. М.: Просвещение, 1979, с.109

2 Словарь античности. М.: Прогресс, 1989, с.620

# VIII FƏSİL.

~~~~~~~~~~~

# KRİT MƏDƏNİYYƏTİNDƏ VƏ ROMA SİVİLİZASİYASINDA ŞƏRQ İZLƏRİ

## 8.1. Krit mədəniyyətində Şərq izləri

• *Kritin dövlət möhüründə, Şumerlərdə olduğu kimi, iki təkərli yanar kolesnitsanın olması, Kritin Minos mədəniyyətində Aralıq dənizinin şərq sahillərindəki adalarla təmasda olması; Roma dövlətinin sivilizasiyasında Şərqdən gəlmiş Troyalıların (Eney və onun sülaləsi – Romanın bünövrəsini qoyan və birinci çar olan Romulun ulu babasıdır) və Etruskların böyük rolu və təsirləri olmuşdur.*

Kitabda *Krit* mədəniyyətinin və Roma sivilizasiyasının seçilməsinin əsas səbəbləri: Krit və Şumerlərin dövlət möhürlərində yanar kolesnitsanın təsviri, Kritdə - Şumerlərdə mövcud olmuş yüksək texnologiyanın olması; Krit çar hakimiyyətinin Şumer və İkiçay arasında mövcud olmuş hakimiyyətlərə oxşarlığı, Kritin Şərqlə yaxın ticarət və nəqliyyat əlaqələri; Kritin aristokratik dövlət quruluşunun və dövlət təsisatlarının Likruq vasitəsi ilə Sparta dövlətçiliyinə və ordan da Afinaya güclü təsiri, Romanın bünövrəsini qoyan Romulun Şərqdən-Troyadan getmiş Eneyin nəvəsi olması; Romanın inkişafında və demokratiyaya yol açmasında böyük rolu olan yeddi çardan üçünün «*Etrusk*» olması, *etruskların* isə Şərqdən Liviyadan olması (ehtimala görə ora Qafqazdan
~~~~~~~~~~~

gediblər) və onların özləri ilə Romaya yüksək məldəniyyət; texnologiya, təhsil sistemini gətirmələri, dövlət atributlarının çoxunun onlara məxsus olması və b. səbəblərdir[1].

Krit adasının əlverişli coğrafi vəziyyəti, möcüzəli təbiəti və Kritin Yunanıstan üzərində hegemonluğu elə bil ki, ilahinin təyinatı idi. Bütün yunanların məskunlaşdığı ərazinin dənizlə əlaqəsi, digər tərəfdən Peloponesdən, Kiçik Asiyadan, xüsusən Troya və Rodosdan yaxın məsafədə olması onun inkişafında böyük rol oynayırdı. Krit Avropa, Asiya, Afrika və Egey dənizinin adalarından, demək olar ki, eyni məsafədə yerləşməklə kontinentlər arasında mədəni əlaqələrin aralıq məntəqəsi idi. Onun təkrarolunmaz var-dövləti, mədəniyyəti, yeniliyi və dinamizmi tunc dövrünə aid edilir[2].

Kritin başçısı *Minos* dəniz üzərində hakimiyyətini təsdiq edəndən sonra ətraf adaları öz tabeliyinə alır və orda yunanları məskunlaşdırır və bu təsir Sisiliya sahillərinə qədər gedib çıxırdı. Minos yunan əfsanəsində Kritin ədalətli və görkəmli qanunverici çarı olub, Krit mədəniyyətini yaradıb. Onun dövründə Krit Egey dənizində və Afina üzərində hegemonluğuna görə o mədəniyyət tarixdə *Minos mədəniyyəti adlanır*[3]*.* Kritin əfsanəvi çarı Minosun şərəfinə adlandırılan Minay mədəniyyəti e.ə. 3-2 minillikdə çiçəklənmə dövrünü yaşamış, *e.ə. 16-cı əsrdə materik Yunanıstana və Miken şəhərinə, oradan isə bütün əraziyə böyük təsir etmiş, ümumi adla «Krit-Miken» mədəniyyətini yaratmış* və Minosun şərəfinə

---

[1] Словарь античности. М.: Прогресс, 1989, с. 293; Наговицын А. Е. Мифология и религия Этрусков. М., Рефл-бук, 2000, 496 с; Жан-Ноэль Робер. Этруски. М.: Вече, 2007, 386 с.

[2] Немировский А. И. История древного мира (Античность). В двух частях. Ч.1. М.: Владос, 2000, с.46

[3] Аристотель. Политика. Сочинение в 4-х т-х. Т.4. М.: Мысль, 1983, с.434-435

adlandırılan minas dili, şumerlərdə olduğu kimi, Kritdə və başqa yerlərdə tapılan gil lövhəciklərdə yazılarda həkk olunmuşdur (hələlik bu yazılar oxunmamışdır).

Krit Egey dənizində yerləşməklə e.ə. 2600-cü ildə inkişaf etmiş və ona Misir, Yaxın Şərq və Troya mədəniyyətinin böyük təsiri olmuşdur. Krit əhalisi sənətkarlığın inkişafı üçün *metal hazırlamaqla tanış olmuş, coğrafi xüsusiyyətinə görə dəniz ticarəti mərkəzinə çevrilmişdir.* Onlar Qədim Avropada (e. ə. 2600-1150) Minay mədəniyyətinin daşıyıcısı olmuş və başqa ölkələrin və xalqların mədəniyyətinə böyük təsir etmişdir. Krit bu dövrdə öz müstəqilliyini saxlamaqla sinfi dövlət yaratmışdır.

E.ə. XV əsrdə çox güclü vulkan püskürməsi nəticəsində Kritin bir hissəsi dağılmış, e.ə. 1110-cü ildə isə *Dariy tayfaları* onu ələ keçirmişlər[1]. Kritlilər kənd təssərüfatı ilə müvəffəqiyyətlə məşğul olurdular. Onlar tuncdan silah, qızıldan bəzək şeyləri hazırlamaqla, binaların və gəmilərin inşasında böyük məharət göstərməklə fərqlənirdilər.

*Quruluş tipinə görə Krit aristokratik dövlət quruluşuna malik idi. Krit dövlətində köhnə və yeni başlanğıclar, qədim mədəniyyət Dariy tayfalarının elementləri ilə sintez olunurdu.* Kritin aristokratik quruluşu yeni dövlət quruluşunun nümunəsi və başlanğıc nöqtəsi idi. *Kritin dövlət təsisatı tipik aristokratik elementlərdən ibarət olmaqla, Spartaya keçmiş və Platonun siyasi arzularının tarixi əsasını təşkil etmişdir*[2].

*Hakimiyyətin başında Dariy tayfalarının yürüşünə qədər çarlıq dövründən gələn aristokratik ailələr dayanırdı. Onlardan dövləti idarə edən 10 əsas hökmdar seçilirdi və onlar da qeyri-məhdud səlahiyyətə malik olmaqla ali şuranı təşkil edir-*

[1] Словарь античности. М.: Прогресс, 1989, с. 293
[2] Цицерон. Философские трактаты. М.: Наука, 1985, 382с, с. 31

*di . Krit dövlətinin quruluşu dariyalıların yürüşündən sonra Krit aristokratiyası dariyalarla hər ikisinin maraqlarını təmin edən ittifaq yaratmışdılar.*

*Bu ittifaqa görə dariyalılar dövlətə hərbi silk kmi qəbul edilir, siyasi məsələlərdən uzaq saxlanılmaqla onlara torpaq sahələri verilirdi.* Onlardan birinci silk-dövlət başçılarının silahlı qüvvələrinin nümayəndələri, ikinci silk-dövlətin mövcudluğu üçün əsas olan torpaq sahibləri və sənətkarlar təşkil edilirdi.

Aristokratlar ali hakimiyyəti əldə etmələrinə baxmayaraq, dariyalıların müqəddəs hisslərinə nüfuz edə bilmədilər. *Hər yerdə ali kahin və ömülük strateq çar əyanlarından təyin edilirdi*[1]*. Kritin dövlət quruluşu, idarəetmə sistemi, armistokratik respublika modeli, Spartanın gələcək çarı likurq tərəfindən öyrənilmiş, muəyyən əlavə və dəyişikliklərlə Sparta dövlətində tətbiq edilmişdi.*

## 8.2. Roma sivilizasiyasına Şərqin təsiri

> • *Roma çarlarının ali hakimiyyət nişanları, simvolları, səltənəti, qızıl diadema, fil sümüyündən taxt, patris ləyaqətini göstərən emblemlər, boyundan asılan qızıl kürəcik, bədənə sarınan haşiyəli üst paltar, hərbi triumflar, dəbdəbəli keçirilən adətlər, qalibə diadem və s. verilməsini romalılar etrusklardan mənimsəmişlər.*
>
> ***Tit Liviy***

*Roma sivilizasiyasının yaranmasında* Şərqdən gəlmiş, İtaliyanın böyük ərazisində məskunlaşmış *«Etruskların»* böyük rolu olmuşdur. E.ə. 1-ci minilliyin əvvəlində etrusklar Şimali

[1] Лазарев Г. М. Развитие государственной власти Древнего Мира. М.: Гос. изд-во. 1909. с.35

İtaliyada qədim sivilizasiyanın çiçəkləndiyi *Etrutsiya (sonralar o Toskana adlandırılıb), öz zəngin sənət və mədəniyyəti ilə orta İtaliyada və Aralıq dənizinin ərazisində və Napoleonun vətəni olan Korsika adasında koloniyalar yaratmışlar. Herodotun Etruskların mənşəyi haqqında fikirlərində onların Kiçik Asiyadan İtaliyaya köçməsi öz əksini tapmışdır.*

*Dəniz yolu ilə gələn etrusklar yerli əhalini özünə tabe etmiş, Tireni dənizi ilə Tibr çayının aşağı axını arasındakı ərazidə məskunlaşmış və şimala hərəkət etdikləri yerlərə Etrutiya adı vermişlər.* Onlar Tiren dənizi (yunanlar tireni etrusk adlandırmışlar) üzərində hegemonluq etmiş, bu ərazinin əhalisinə öz mədəniyyətini ötürmüşlər. Onların qüdrətli vaxtı ərazisi Alp dağlarından cənubda Neopolitan hövzəsinə qədər uzanırdı[1]. XVII əsrdən başlayaraq elmdə etruskların şərq mənşəliyi haqqında fikirlər üstünlük təşkil edirdi[2] .

Bir qism alimlər Sirya-Finikiya və Kipr-Rodosdan etrusk mədəniyyətinin, başqaları isə Urarutdan gəldikləri haqqında rəvayətlər yazırlar. Bolqar lingvisti *Qeorqiyə* görə, etrusklar troyalı olub, xetlər hesab edilirlər. Bütün nəzəriyyələrdə etruskların *İtaliyaya öz dili və mədəniyyəti ilə hazır şəkildə gəlməsi göstərilir*[3]. Yazıçı *Dionisiy Qalikarnaskiyə* görə etrusklar və onların sirli dili (e.ə. 1.ə) *«heç nəyə oxşamır»*, indi də sirr olaraq qalır. Deyilənə görə etrusklar Lidiya mənşəlidir, Erusiya adına biz Kiçik Asiya ərazisində rast gəlirik. Deyilənə

---

[1] Казимеж Куманецкий. История культуры Древней Греции и Рима. М.: Высшая школа, 1990, с.171

[2] Rzayev Ə. H. ABŞ Konstitusiyasının formalaşması: zaman və məkan kontekstində. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. №1(41), 2013, s.10

[3] История Европы в 8-и т-х. Т.1. Древняя Европа. М.: Наука, 1988, с.178

görə, etrusklar Şərqdən – Kiçik Asiyadan gəlmişlər[1]. Etrusk dilinin bəzi formaları Qafqaz dilinə uyğundur. Məlumdur ki, Qafqaza doğma olan bu insanlar qədimdə Kiçik Asiyada məskunlaşmışlar[2].

Sözsüz ki, bütün rəvayətlərdə bu fakt olduğu kimi qalmışdır. Etrusklar *«Dəmir əsrinin» başlanğıcında, yəni e.ə. VIII əsrdə İtaliyaya gəlmişlər. E.ə. I minilliyin yarısında italiyalılar, illiriyalılar və liqurlar ibtidai icma şəraitində yaşadığı halda, etrusklarda sinfi cəmiyyət formalaşmış və primitiv dövlət təşkilat forması yaranmışdı. Etruskların əsas fəliyyət sahəsi əkinçilik idi.*

Təbii məhsullar tapmaq, dəmir alətlərdən istifadə və drenaj qurğuların tikintisi etrusklara çoxlu taxıl, kətan, üzum götürməyə imkan verirdi. Onların ərazisində mis, qalay və dəmir ehtiyatının olması, metallurgiya və metal emalı sənətkarlığın inkişafı üçün əsas idi. Etrusklar keramika istehsal edirdilər, onlar qara rəngdə qablar hazırlayırdılar, daşın emalı texnikası ilə məşhur idilər[3].

*Etrusklar Tarkvinlərin çarlığı dövründə şəhərlərdən birinə öz adlarını vermişlər, Roma onların hakimiyyəti altında olmuşdur.* Etrusklar sonralar yunanlar və qallar tərəfindən şimala sıxışdırılmış və e.ə. 282-ci ildən onların ərazisi Roma tərəfindən tədricən zəbt olunmuş və onlar romalaşdırılmışdır. Etruskların Şərqdən gətirdikləri yüksək mədəniyyət, təhsil, elm romalılar tərəfindən mənimsənilmişdir [4].

---

[1] Казимеж Куманецкий. История культуры Древней Греции и Рима. М.: Высшая школа, 1990, с.177; Жан-Ноэль Роббер. Этруски. М.: Вече, 2007, с.7.

[2] Там же, с.177

[3] История древнего Рима. Учебник. Под ред. В. И. Кузишина Изд. второе и переработанное дополн. М.: Высшая школа, 1981, с.41

[4] Rzayev Ə.H. Dövlət qulluğu: nəzəriyyə və praktika. B.: Elm, 2005, s.199

*Antik dövrdən orta əsrlərə keçiddə tədricən və sakit şəkildə antik qaydaların orta əsrlərə transformasiyası başlayır. Romanın idarə edilməsini senat, komiy (xalq yığıncağı) və çar həyata keçirirdi.*

*Senat 100, sonralar isə 300 qəbilə ağsaqallarından ibarət idi. Komisi (latın dilində yığıncaq və ya toplantı deməkdir) - xalq yığıncağı, daha dəqiq kuriyalar üzrə çağrılan kişi hərbçilərin yığıncağı idi. Odur ki, bu, çox halda kuriya yığıncağı adlanırdı. Xalq yığıncağından hərbi başçı, ali kahin və məhkəmə səlahiyyəti olan çar (rex) seçilirdi. Qəbilə üzvləri öz aralarında bərabər idi. Qəbilədə hər bir ağsaqqal senata, ataların şurasına* (patrus) daxil edilirdi. Beləliklə, Romada hərbi demokratiyanın bütün elementləri var idi. İşğal olunan əhali hesabına Roma əhalisinin sayı artırdı. Bunlar plebeylər adlandırılırdı [1].

*E.ə. VI əsrin birinci yarısında Etrusk sahələrinin maksimum çiçəkləndiyi dövr onların İtaliyaya ekspansiyası dövrü olub.* E.ə. 524-cü ildə onlar yunanlar tərfindən məğlub edilir. VI əsrin sonunda Lasiyada, sonra isə Şimalda Etrusk sahələri keltlər tərəfindən dağıdılır.

*Lakin Etruskların siyasi möhtəşəmliyi süqut etsə də, onların mədəni təsiri e.ə. IV əsrin axırınadək yarımadanın şimal və orta hissələrində dominant vəziyyətdə olmuşdu. Qədim dövrdə müqəddəs etrusk kitablarında ifadə olunan etrusk təlimini daşıyan etrusk kahinliyi (gələcəyi görmək) geniş istifadə edilirdi. Bu kitablardan heyvanların içalatına, ildırımın çaxmasına, şəhərlərin, məbədlərin işıqlanmasına və s. görə fala baxmaq üçün istifadə edilirdi.*[2]

*Etrusklar mahir şəhər salanlar idi.* Onların şəhərsalma

---

[1] История древнего Рима. Учебник. Под ред. В. И. Кузишина Изд. второе и переработанное дополн. М.: Высшая школа, 1981, с.48

[2] Там же, с.43

mədəniyyəti sonralar romalılar tərəfindən qəbul edilir, xüsusi mərasim keçirməklə müəyyən plan üzrə şəhər salıdılar. Etrusklar tədricən öz hegemonluğunu İtaliyada genişləndirmişlər. Etruskların İtalya tayfalarından fərqi yunanların şəhər-dövlət tipli yaşayış məskənləri olmuşdur. *Şəhər icmalarının başında erkən vaxtda çarlar, sonralar, Yunanıstanda olduğu kimi, aristokratlar dururdu. Etrusklar on iki şəhərdən ibarət ittifaq yaratmışdılar. Hər şəhər aristokratlara mənsub olmaqla müstəqil idi. O şəhərlərin nümayəndələri Valtumni Allahın məbədinə yığışaraq, ittifaqın işlərini idarə etmək üçün vəzifəli şəxs seçirdilər*[1]. Güclü daxili təşkilatın olmaması və etrusk şəhərləri arasında daxili müharibələr etruskların qüdrətini zəriflətmiş, Şimali və Mərkəzi İtaliyada öz hegemonluğunu itirmiş və Romaya tabe olmuşlar[2]. Bura baxmayaraq, romalılar öz uşaqlarını etrusk məktəblərinə qoymuş, etrusk mədəniyyətini mənimsəmişlər.

Etrusk şəhərlərinin siyasi quruluşu zamanla dəyişilmiş, əvvəl şəhər quruluşunun başında dini funksiya daşıyan çar hökmdar dururdu. Roma çarların *insipnisi (ali hakimiyyət nişanı - məsələn, səltənət),* qızıl diademi (qadınlar başlarına qoyduqları tac şəkilli daş-qaşlı bəzək), fil sümüyündən taxt və s. etrusklardan götürülmüşdür. Etrusklərin hakimiyyət simvolları və həmçinin dövlət başçısı qarşısında təntənəli yürüş edən 11 fəxri keşikçiləri sonralar Romada tətbiq edilir. *Tarixçi Tit Livin birbaşa yazır ki, bunların hamısını romalılar etrusklardan götürüb*[3]*. Ordaca qeyd olunur ki, Etruskların ilk dəfə patris*

---

[1] История Европы в 8-и т-х. Т.1. Древняя Европа. М.: Наука,1988, с.178

[2] Там же, с.178

[3] Fəzullah Kompanı. Əli kimdir? Tərcümə edən Məhəmməd Turan . Бакı 2005, s.178

*ləyaqətini göstərən emblemləri, boynunda asdığı qızıl kürəciyi, bədənə sarıdıqları haşiyəli üst paltarı romalılar mənimsəmişlər. Etrusklardan romalılar həmçinin hərbi triumfları, dəbdəbəli keçirilən adətləri götürmüşlər. Etrusklar qalibə diadema abnas ağacından həsada, palmanın təsviri toxunmuş al-qırmızı köynəkdə–qızıl odlu kolesnitsada məbədə–ibadətə gedirdilər*[1]*. Bunları olduğu kimi romalılar qəbul etmişlər.*

*Etrusk çarında yarpaqlardan düzəlmiş çələng şəklində qızıl tac, bədənə parçadan sarılmış üst paltar vardı.* Etruskların atributları sonralar Romaya irsən keçir. e.ə. VI əsrdə Etrusk şəhərlərində çar hakimiyyəti ləğv edilir və vəzifəli şəxslərin seçilməsi baş tutur. Romanın beşinci çarı Etrutidən olan yadelli əcnəbi Tarkviniy Drevniy olur. O, böyük tikinti işləri aparır. O, öldürüləndən sonra onun arvadı evində tərbiyə almış qul qadının oğlu Serviy Tuliyanı çarlığa gətirir. Serbiy Tulliy böyük islahatlar aparır (bu barədə kitabda geniş yazılıb). Şəhərdə güclü müdafiə istekamları qurur, yeni ordu formalaşdırılır. Bu çarı da öz kürəkəni Tarkvini öldürür və hakimiyyətə gəlir. Yeddinci çar ölkəni tiranlıqla idarə edir və ölkədən qovulur. O zamandan ölkədə respublika idarəçilik sistemi qurulur[2].

*Troyada (Homerə görə İllion adlanır)* axeylərin qələbəsindən sonra (e.ə. 1184-cü il) Eneyə dəymədilər (Eney həmişə məsləhət görürdü ki, Yelenanı qaytarsınlar). O, əvvəl Makedoniyaya, oradan Sicilyaya, Sicilyadan gəmi ilə Lovrena vilayətinə istiqamət götürürdü. Latın çarı və aborigenlər (yerli əhali) silahla gəlmələrə qarşı çıxdılar və Latınlar məğlub olaraq Eneylə sülh bağladılar. Latınlıların qızı Eneylə evləndirilir və qısa müddətdə

---

[1] Казимеж Куманецкий. История культуры Древней Греции и Рима. М.: Высшая школа, 1990, с.178

[2] История древнего Рима. Учебник. Под ред. В. И. Кузишина Изд. второе и переработанное дополн. М.: Высшая школа, 1981, с.47

onların oğlan uşağı dünyaya gəlir[1].

Geniş yayılmış rəvayətə görə onların başçısı Troyanın qəhrəmanı Eney idi. O, yerli çar Latın tərəfindən mehribanlıqla qarşılanır və qızı Lavinlə evləndirilir. O, təzə saldığı şəhərə Lavinin adını verir. Lavin öldükdən sonra Eney onun yerinə çarlığı idarə edir, latınlılarla Troyalıları birləşdirir və onu Latın xalqı adlandırır[2].

1972-ci ildə İtaliya arxeoloqları Eneyə məxsus sensasion böyük etrusk qəbri tapmışdılar. *Romalılar özlərini Troyadan gəlmiş etrusk Eneyin törəmələri sayırlar.*

*Troyalılar isə özlərini Liviyalı hesab edirdilər.* Troyanın çox qədim şəhərləri, o cümlədən Roma əhalisi öz şəhərlərini Troya qəhrəmanı Eneyin və digər Troya qəhrəmanlarının yaratdığını deyirdilər[3]. Odur ki, Eney romalıların ulu babası sayılır və öz başlanğıcını Eneyin oğlu Yuliyanın adından götürmüş Yuli Sezar və Avqust bu dinastiyanı inkişaf etdirmişdir.[4]

Rəvayətə görə, Romul öz əkiz qardaşı ilə Romanın əsasını qoymuşdur (e.ə. 753). Romul Eneyin törəmələri olan alban çarlarının[5] nəvəsi, əkiz qardaşlardan bri olub. Romul Sabinlərin qızlarını qaçırıb onunla ailə qurduqdan sonra Latınlılar Sabinlər bir icmada birləşirlər. Romanı iki çar: latınlardan Romul və Sabinlərdən Tit Taliy idarə etməyə başlayır[6].

Babas alban çarı Numittorun ölümündən sonra hakimiy-

---

[1] Мец А.И. Мусульманский Ренессанс. М.: Наука, 1973

[2] История древнего Рима. Учебник. Под ред. В. И. Кузишина. Изд. второе и переработанное, дополн. М.: Высшая школа, 1981, с.45

[3] Словарь античности. М.: Прогресс, 1989, с.99

[4] Там же, с. 656.

[5] Bu Alban çarlığının Azərbaycan ərazisində olan albanlarla bir mənşədən olması müəyyən edilməmişdir.

[6] История древнего Рима. Учебник. Под. ред. В. И. Кузишина Изд. второе и переработанное дополн. М.: Высшая школа, 1981, с.46

yət ona keçir, xalqa xoş gəlsin deyə, orda özünüidarəetmə formasını tətbiq edir və hər il albanlardan bir canişin təyin edirdi. Bununla o, Roma aristokratlarına çatdırmaq istəyirdi ki, o, monarxiyanı məhv etmək, dəyişdirmək və idarə etməklə azad dövlət yaratmaq fikrindədir[1]. Məlumdur ki, İoniya təhsili şərqdən bəhrələnmiş, Afina səhər-polisi isə yunan uşaqlarına İoniya təhsilini öyrənməyin məcburiliyi haqqında dekret qəbul etmişdi. Yeddi müdrikdən biri – İoniyalı Fales şərq elmi, mədəniyyətini mənimsəmiş və Yunanıstanda fəlsəfənin təməlini, Avropada elmin başlanğıcını qoymuşdur.[2]

## 8.3. Skandinavların əcdadlarının – Vikinqlərin Abşerondan Norveçə köç etməsi

Tanınmış Norveç tədqiqatçısı və səyyahı Tur Xeyerdal Qobustan petroqliflərini bir neçə dəfə tədqiq etmiş və burada qayaların üzərindəki qayıqların təsvirini bütün dünyada məlum olan qayıq təsvirləri arasında ən qədim təsvirlər olduğunu bildirmişdir. Qədim Skandinav gəmilərinə bənzəyən bu gəmilər onu norveçlilərlə azərbaycanlılar arasında qohumluğun olması barədə sensasiyon fərziyyə irəli sürməyə vadar edir. Tur Xeyerdal belə bir nəticəyə gəlir ki, skandinavların əcdadları Azərbaycan ərazisindən köçüb gəlmiş insanlar olublar. Üzərində latın yazısı olan və eramızın I əsrində İmperator Damisianın XII Roma legionu tərəfindən qoyulan və həmin legi – onun burada olduğunu sübut edən daş lövhə

[1] Асмус В. Ф. Античная философия. Изд. второе М.: Высшая школа, 1976, с.81

[2] Bu Albaniya Yupiter məbədinin yerləşdiyi İtaliyanın Lasiya əyalətində olub, Azərbaycan Albaniyası ilə heç bir əlaqəsi yoxdur.

turistlərin xüsusi marağına səbəb olur.

Məlumat üçün göstərmək lazımdır ki, Bakıdan 60 km cənubda ümumi sahəsi 537 hektar olan ərazidə dünyanın ən böyük qədim qayaüstü rəsmlərinin kolleksiyalarından biri yerləşir. Burada olan petroqliflərin sayı 400 mindən çoxdur. Qobustan dövlət tarixi-bədii qoruğunda həmçinin ilk insan məskənlərini, tarixdən əvvəl inşa edilən tikililəri və daş dövrünün və ondan sonrakı dövrlərin sakinləri barədə digər sübutlar da mövcuddur. Qobustanın qayaüstü rəsmlərinin mədəni peyzajı UNESKO-nun dünya irsi siyahısına daxil edilib.

Avropanın ən inkişaf etmiş xalqlarından olan skandinavların ulu babaları azərbaycanlılar ilə doğma xalq olması elmi yolla təsdiq olunub[1].

Azərbaycan alimlərinin Oslo (Norveç) Universiteti ilə birlikdə məşhur səyyah Tur Xeyerdalın ilk gəlişinin 30 illiyi və Azərbaycanın müstəqilliyinin 20 illiyi və Oslo Universitetinin 200 illiyi ilə əlaqədar «Tur Xeyerdal və Azərbaycan» mövzusu üzrə 4 günlük elmi-praktik konfrans keçirilib. Qeyd edək ki, Tur Xeyerdal dünya tarixinə yalnız cəsur dənizçi, alim və okenoqraf deyil, həm də bir neçə əsərin və cürətli ideyaların müəllifi kimi daxil olub. Onlardan, onun səyi ilə qədim Skandinav sağasında (əfsanəsində) və Orta əsrlər mənbələrində göstərilən qədim vikinqlərin Norveçə Qafqazdan – Azərbaycandan köç etdiklərinin həqiqiliyini təsdiq etmək məqsədilə Tur Xeyerdal dörd dəfə Azərbaycanda (1984-2000-ci illərdə) olmuş və bu nəzəriyyəni təsdiq edən maraqlı faktlar aşkarlamışdır.

Bakıda Norveç nümayəndələrinin tərkibində Tur Xeyerdalın oğlu – onun adaşı Tur Xeyerdal-Mladşiy, qədim Skandinaviyada və Azərbaycan əlaqələri və başqa məsələlərlə bağlı

---

[1] http://azerbaijan.travel/az/region/153-Qobustan-(Qorugu)

maraqlı müsahibə vermişdir.

Tur Xeyerdal-Mladşiy atası haqqında deyirdi: O məsələnin mahiyyətini də başqalarının görmədiyini və diqqət yetirmədiyini görürdü. Buna misal olaraq Bakıda keçirilən elmi konfranslarda və tədbirlərdə siz də görürdünüz ki, Skandinav xalqlarının, vikinqlərin Azərbaycanla birbaşa əlaqəsi haqqında Xeyerdalın dedikləri haqqında çıxış edənlərin fikirləri nə qədər müxtəlif idi. Mən fikirləşirəm ki, müzakirə hələ təzə başlayır və vikinqlərin Azərbaycandan Norveçə köç etməsi mövzusu aktuallığını və tarix elmində yerini saxlayır və müxtəlif sahələrin alimləri ciddi və diqqətlə məşğul olsalar bu tədqiqatlar davam edəcək və dəyərli tövsiyyələr verəcək.

DNK analizi metodu ilə Skandinav xalqlarının, xüsusən norveçlilərin azərbaycanlılarla qohumluq əlaqələri vikinqlərin Skandinaviyaya Azərbaycandan köçmüş sakinlər olmasına  nöqtə niyə qoyulmur?

Bu cür təhlil aparılıb: Vikinqlərin qədim hərbi gəmisi «Drakkorla» yanaşı basdırılmış vikinq skiletinin DNK analizi götürülmüş, bu DNK analizi Kafkaz xalqları və azərbaycanlıların «DNK-sı ilə müqayisə edilmiş və elmi yolla təsdiq edilmişdir ki, vikinq onlarla qohumdurlar. Avropanın qədim xəritəsinə baxsaq Şimali Avropa buzlaqlarla əhatə olunmuşdur. Buzlaqlar ərimək prosesində insanlar Şimala hərəkət etmişlər və əgər onların getdiyi marşruta diqqət yetirsək onların miqrasiyası buradan Kafkaz və Azərbaycandan başlanır. Başqa yerə getmək mümkün deyildi, ona görə ki, sağ və sol – hər tərəf buzla əhatə olunmuşdu.

Bu təsdiq olunmuş elmi faktdır. Siz bilirsiniz ABŞ-a getmək üçün viza alanda, anket dolduranda irqi mənsubluq haqqında məsələ də variantlar arasında göstərilir. Caucasi-

an Racc (Kafkaz irqi) – mən özümü ifadə edirəm. Yəni yalnız dünya elmi yox, həm də beynəlxalq praktika qafqazlılar ayrıca irq və avropalıların ulu babaları kimi etiraf edilir. Və bu yaxınlarda keçirilmiş qədim vikinqlərin və qafqazlıların DNK analizlərinin nəticələri bunu təsdiq edir[1].

Tur Xeyerdal vikinqlərin skandinavların Azərbaycandan köçmə faktını deyəndə həm də XIII əsrin məşhur İslandiya tarixçisi Snoppe Sturlussonun yazılarına istinad edir. 1220-1240-cı illərdə tarix qoyulan yazılarda Sturlusson iki min ildən əvvəl baş verən, bu gün də əhəmiyyətini itirməyən hadisələr haqqında danışılır. Yazılara inansaq Qafqazda xristianlığın yaranmasını iki nəsil əvvəl Qafqazda Kral Oqden yaşayırdı, insanları idarə edirdi və Azəri ölkələrinin başçısı idi.

Xeyerdal Oqdenə əsaslanaraq, o həm də Bir Skandinav bütpərəst ponteonun (1.Qədim Romada Allahların şərəfinə tikilən məbəd) çoxallahlı dinin bütün ali Allahı idi, bu isə vikinqlərin mənəvi kökləri və inancları eyni olan Azərbaycanda kök etmələri faktını təsdiq edir. Eyni zamanda Sturlussonun tekstində Roma leqionu Azərbaycana tərəf gəldi. Oqden onlara qarşı dayana bilməmiş, Şimala doğru getmişlər.

Sizin fikrinizcə dünya tarix elminə Azərbaycanda vikinqlərin miqrasiyası ilə əlaqədə tədqiqatlar, petroqliflərdə tapılan Qobustanda vikinqlərin cəmi təsviri, həmçinin, müxtəlif ölkə alimlərinin yığışdığı, Bakıda keçirilən bu mövzu ilə əlaqədar konfransda hansı xeyiri və töhfəni görmək olar?

Birincisi, Bakıda yığışan Norveç və Azərbaycan elmi əlaqəsi fikir mübadiləsi, faktlar və tapıntılar üzrə mühüm iş görür və imkan verir ki, bu tamlığı gətirsin; ikincisi, hətta elmi bir tərəfə qoysaq, biz dostlar tapırıq, öz biliklərimizi,

---

[1] http://www.1news.az/interview/20111031112936882.html

qiymətli təcrübəni paylaşırıq, bu isə bizə ümumi işə və tədqiqata böyük xeyir verir.

Qədim İmperiyanı qurmuş azərbaycanlıların ulu babası olan Muğanlar (Moqlar) Maqlar və Mioliyalılar həmişə ali – müqəddəs – şaman sanı daşıyırdı, belə ki, onlar mərasim keçirmək biliyinə və elminə malik idilər. Avropa salnamələrində və İsland Soqlarından (dastanlar) aydın olur ki, Karol Oqden (Ogden) vikinqləri Skandinaviyaya köçürdükdən sonra ali Şaman olur və Azərbaycanla əlaqələri davam etdirirlər.

Qədim Saqlar salnaməsində Snoppe Azər ölkəsinin adını çəkir və birbaşa göstərir ki, vikinqlərin birinci Korolu Odin (Ogden) öz xalqını Azərbaycan ölkəsindən çıxardı. Odinin özü “allahlar nəslinə” aid olan insan olaraq Şamon (ruhla-ra, möcüzələrə inanan bəzi xalqlarda: falçı, cadugər, sehrbaz, cindar) idi. Onda maraqlısı saqlarda əfsanə (dastançada) və vikinqlərin ilkin oda pərəstişliyi haqda yazılır[1].

Beləliklə, Azərbaycanın skandinavların ulu-babaları ilə doğmalığı aşağıdakılarla əsaslandırılır.

*Birinci*, Vikinq skletinin DNK-sının Qafqaz xalqları və azərbaycanlıların DNK-sına uyğun olması. *İkincisi*, hələ XIII əsrdə İsland tarixçisi Snappe Sturlussonun 1220-1240-cı illərdə tarix qoyduğu salnaməsində vikinqlərin Karolu Ordenin başçılığı ilə buzlaqlar əriyəndə Şimala Norveçə köç etməsi göstərməsi. *Üçüncüsü*, Qobustanda petroqliflərdə tapılan gəmi təsvirlərinin skandinavların ulu babası – vikinqlərə məxsus olması. *Dördüncüsü*, Tur-Xeyerdal-Mladşiy ABŞ-a viza alanda ona Qafqaz irqinə mənsubluğunun göstərilməsi.

[1] http://www.1news.az/interview/20111031112936882.html

## 8.4. Şərq və Avropa elminin sintezi: əsas istiqamətlər

• *Hər şey böyüyür, çiçək açır və öz kökünə qayıdır. Öz kökünə qayıtmaq təbiətin qanunu ilə rahatlanmaqdır.*

***Lao Szi***

• *Ən əvvəl sənə yaxın olan şeyləri, sonra isə sənin nəzəriyyəndən uzaq olanları tədqiq etməyə çalış.*

***Pifaqor***

Yunan və Şərq mədəniyyətinin sintez prosesi həmişə olub Şərq və Avropa elminin sintezi bir neçə istiqamətdə olmuşdur; bu, bəzən böyük, bəzən zəif, bəzən sönük, bəzən də parlaq və coşğunluqla baş verib.

*Birinci*, Yunanların şərqin ilk elm və mədəniyyəti ilə tanışlığı Fales, Pifaqor, Demokrit və b. vasitəsi ilə olmuş, Şərqin ilk nailiyyətləri ilə birinci görüş əhəmənilər -farslar dövründə baş vermişdir.

*İkinci*, Makedoniyalı İsgəndərin istilaları və ellinizm nailiyyətləri yaxın regionların: Hindistan, İran, Suriya, Yaxın Şərq mədəni ənənələrinin sintezi ilə xarakterizə olunur. *Makedoniyalı İsgəndər yaratdğı imperiyada yunan mədəniyyətinə Şərqin mədəni ənənələrinin elementlərini daxil edir, şərq və qərbin Avropanın cənub-şərqinə və Afrikanın şimal-şərqinə transformasiya prosesi gedir.*

*Qeyd etmək yerinə düşər ki, Makedoniyalı İsgəndər Şərqi işğal edərkən ordakı kitabxana və muzeylərdə olan ən qədim əsər və abidələri Yunanıstana daşıtdırmışdır.*

*Üçüncü*, xristianlığın yayılması ilə yunan mədəniyyətinə və başqa dinlərə keçməsi, onların isə öz növbəsində əvvəl

Sasanilər dövründə suriyalılar və yunanların nailiyyətləri ilə tanış olması.

*əl-Fərabinin* Yunanıstanda elmin başlanması haqda dəyərli fikirlər vardır. O, yazır: yunan möcüzəsi minillər əvvəl Şumerlərdə, Misirdə, Babilistanda və başqa regionlarda hazırlanmışdır. Müsəlman İspaniyası öz paytaxtı Kordova vasitəsilə Şərqin maarifçilik və sivilizasiyasının qapısı rolunu oynamışdır. Ərəb xilafəti dövrü antik irsin şərqə translyasiyasını ingilis tarixçisi *G. Bernal «əks qayıdış»* kimi sərrast xarakterizə edir[1].

Dördüncü, şərq və yunan elminin Avropaya çatdırılmasın*ın əsas istiqamətlərindən biri orta əsr islam sivilizasiyasının çiçəkləndiyi xilafətin paytaxtı Bağdad vasitəsilə olmuşdur.* Xilafətin paytaxtının Dəməşqdən Bağdada köçürülməsi qüdrətli müsəlman dövlətinin İran – Orta Asiya mədəniyyətinə və elminə yaxınlaşmasını surətləndirdi.

Xəlifənin qədim elmlərə marağı, «dünya şəhəri» hesab olunan Bağdadda 830-ci ildə Xəlifə əl-Məmun tərəfindən məşhur «Müdriklər evi»nin (akademik universitetə oxşar) yaradılması, yunan dilinin elmi və fəlsəfi dil kimi ərəb dili ilə əvəz edilməsi ilə başlamışdır. «Müdriklər evi» kitabxanasında müxtəlif mövzular üzrə dörd min kitab var idi. Burada ədəbiyyat, ilahiyyat, fəlsəfə və təbii elmlər, qədim yunanların, xristianların, iudeylərin, zərdüştliyin, hindusların irsi fəal inkişaf etmişdir. «Müdriklər evi» xilafətin bütün ərazisindən müxtəlif elm sahələrinin (ilahiyyat, fəlsəfə, ədəbiyyat, kəlam, riyaziyyat, astronomiya, fizika, tibb və s.) nümayəndələri (həm xristian və müsəlman alim-filosoflarının) – hind, fars, türk, ərəb, yunan, kort, barbarlar və hətta çinlilərin ideyala-

[1] Касумжанов А.Х. Абу Насир аль-Фараби О государстве. М.: Мысль, 1982

rının mərkəzləşdiyi elm və mənəvi mərkəzinə çevrilmişdir. *Burada klassik yunan, həmçinin antik əsərlər ərəb dilinə tərcümə olunurdu*[1].

Tərcümələr iki mərhələdə əvvəl yunan dilindən Suriya (aramey) dilinə və ordan ərəb dilinə çevrilirdi. İş ondadır ki, xristian icması suriya dilində danışır, yunan dilini yaxşı bilirdi, müsəlman-ərəb dilinə yaxınlığı olan suriya dilinə üstünlük veriri. Müdriklər evinin əsərləri *müsəlman İspaniyasında (paytaxtı Kordovada) və Siciliyada latın, yəhudi dillərinə tərcümə olunmuşdur. Bu əsərlər uzun müddət Avropada geniş istifadə olunmuş, orda elmin inkişafına böyük təkan vermişdir. Odur ki, orta əsrlərdə Avropada elmə maraq oyananda onlar ən əvvəl şərqə müraciət etmiş ərəb tərcümələrində elmi irsin çox hissəsini mənimsəmişlər.* Xristian Avropası xaç yürüşü zamanı sirlərlə dolu şərq möcüzələri ilə tanış olmuşdur. Müsəlman alim və filosoflarının, o cümlədən *əl-Fərabi, Nizamülmülk, İbn Sina, Nəsirəddin Tusi və b. əsərləri latın və digər Avropa dillərinə* tərcümə olunaraq Avropaya çatdırılmışdır.

*Beşinci*, qeyd etmək yerinə düşər ki, Bizans imperatoru Yustinian (527-565) Yunanıstanda başqa fəlsəfi məktəblərlə yanaşı, Platon akademiyasını da bağlatdığı vaxt *fars şahı I Xosrov Ənuşiravan* (531-579-cu illər) bu məktəbləri öz ərazisində yaratmış və o məktəblərdən qovulmuş alimlərə sığınacaq vermişdir. *Egey məktəbi Nisivan şəhərində, Afina akademiyası Qindisapurda fəaliyyətini davam etdirmişdir. Beləliklə, antik əsərlərin, elmin Şərqə dönüşü başlayır. Avropada yunan və latın dilləri fars, sonralar ərəb dilləri ilə sintez*

[1] Доктор Рахман. Краткая история ислама (перевод с английского). М., Имман, 2006, с.320

*olunur*[1]. Ərəb alimləri riyaziyyat, tibb, kimya, astronomiya və başqa elmləri yunanlardan götürərək mühafizə etmiş, təkmilləşdirmiş və xeyli zəngilləşdirərək Avropaya ötürmüşdür. Şərqdən əl-Fərabi, İbn Sina, İbn-Rüşd və b. əsərləri Avropa elminə işıq salmış, müxtəlif sahələrə nüfuz etmiş, onların bəzi terminləri iqtibas edilmişdir. Onların nüfuzları Avropada qədim yunanların nüfuzu qədər yüksək olmuşdur.

Məşhur tədqiqatçı, filologiya elmləri doktoru, professor Əjdər Tağıoğlu «Qədim Ön Asiya və Ön Qafqaz türk tayfaları» qiymətli əsərində yazır. Xatırladaq ki, müdrik Şərqin zəngin mənəviyyat və dövlətçilik tarixini hamilik etdikləri gələri xalqları aralarında ata malı kimi bölmək siyasəti yeritmiş Rus və Qərbi Avropa tarixçiləri XVII əsrlərdən başlayaraq Qədim Ön Asiyanın və Qafqazın «türksüz tarix»-ni yazmağa başlamışdır. Onlar Berosun xaldey (yeni Babil) tarixini «Armeniya tarixi» adı kimi vermişlər. Xaldey mədəniyyətinin hamısı olmuş Xaldey tarixçəsi Berosa istinad edilən folklor materiallarının geneoloji kökləri qədim Şumerlərə gedir. Beros Şumer-türk mədəniyyətinin və dövlətçiliyinin bünövrəsi üzərində ucalmış Yeni Babil (xaldey) dövrü bu zəngin mədəniyyətin minilliklərindən keçib gələn nümunələrini toplamışdır.[2]

---

[1] Сативалдыев Р.Ш. Персидско-Таджикская политико-правовая мысль эпохи средневековья (исследование и интерпретация). Государство и право, 2000, №2, с. 97-98

[2] Əjdər Tağıoğlu. Qədim ön Asiya və Ön Qafqaz Türk tayfaları. II cild. Bakı: Nurlan, 2008, s.73.

# IX FƏSİL.

~~~~~~~~~~

# QURAN MÖCÜZƏSİ

• *Qurani-Kərim – ecazkar Allah kəlamıdır.*

***V. Məmmədəliyev***

• *Dünyanın bütün alim və mütəfəkkirlərini bir yerə yığaraq, yeganə doğru və insanları səadətə aparacaq tək bir vasitə olan Quranın prinsiplərinə əsaslanan müştərək bir rejim quracağım dövrün çox yaxın olduğuna ümid edirəm.*

***Napoleon Bonapart***

## 9.1. Quranda inkar olunmaz elmi həqiqətlər

• *Elmin elə bir problemli sahəsi yoxdur ki, Quranda ona cavab tapılmasın. Quran nazil olduğu gündə olduğu kimi, on dörd əsrlik bir müddətdə öz kamilliyini nümayiş etdirərək, sınaqdan uğurla çıxmış və dəyişilmədən bizə gəlib çatmışdır.*

Quranın «möcüzəsi» kəlməsi ilə səciyyələndirilməsinin əsas səbəblərindən biri insanların Quranın oxşarını yaratmaqda aciz olmalarıdır. Bu acizlik, bu imkansızlıq nə qədər böyükdürsə, möcüzə də o qədər böyükdür. Dolayısı ilə Quranın üslubu əsrlərdən bəri milyardlarla insan arasında bircə nəfər tərəfindən də təqlid edilə bilməməsi, bu müqəddəs kitabın möcüzələri olmasının sübutlarından biridir[1]. Quran

[1] Harun Yəhya. Quran möcüzələri. Tərcümə edən Elşad Miri. B., 1994, s. 231
~~~~~~~~~~

nazil olan müddətdən bu günə qədər bir neçə başqa dillərə tərcümələrdə də onun üslub və mahiyyətini dəyişdirmək mümkün olmamışdır. Ona görə ki, Quran İlahi qanunların, dəyişilməz təbiət qanunlarının inikasıdır.

Quranda insan ağlına gələ bilən hər bir suala cavab olmaqla universal bilik cəmləşib. Quran insanların həyatı, əxlaqı, yaşayış tərzi, ədəbi mərifəti, bir-birinə münasibəti və cəmiyyətdəki mövqeyini göstərir. Quran insanların həyat və yaşayış təlimatı olmaqla bərabər, həm də misilsiz bir elmi əsərdir. Orda müasir elmlərin bütün sahələrinə aid məsələlərə cavab vardır. Müsəlman tarixçiləri mənsub olduqları təriqət və məzhəbdən asılı olmayaraq, təsdiq edirlər ki, Məhəmməd peyğəmbər (s) hüquq bərabərliyi və azadlıq qanunlarını əks etdirən islam dininin yaradıcısıdır.

Hz. Peyğəmbərdən möcüzə haqqında soruşanda cavab veribmiş: Mənim möcüzəm Qurandır. Ölüm yatağında vəsiyyətində o deyirdi: «Ey camaat, sizin aranızda iki qiymətli əmanət qoyub gedirəm, biri Allah-Təalanın kitabı-Quran, o biri isə ifrətim (əhli-beytim)dir»[1].

XIX yüzilliyin ikinci yarısında Azərbaycanın elm, maarif və din tarixində böyük xidmətləri olan ziyalılardan biri, Türk dünyası ictimai fikrinin parlaq dühası Əlibəy Hüseynzadənin babası və Qafqaz müsəlmanları Ruhani İdarəsinin Şeyxülislamı olmuş ədib və alim Şərq tarixinin, eləcə də ədəbiyyat, riyaziyyat, astronomiya, musiqi, fiqh və şair elmlərin bilicisi və ustadı, Qori seminariyasında Azərbaycan dili və şəriəti tədris etmiş Əbdüssalim Axundzadə 1893-cü ildə Türk- Azərbaycan dilində nəşr edilmiş «Müqəddəs peyğəmbərlər tarixi» əsərində bütün peyğəmbərlərlə yanaşı, Həzrəti Məhəmmə-

---

[1] Peyğəmbərlərdən (s) 40 hədis və peyğəmbərə (s) 40 sual. Beytül Əhzan, 2007, s.22

din (s) həyatından və Quranın göydən nazil olması və s. qısa və məzmunlu təsvir edir. Yüz iyirmi dörd min peyğəmbərin vətəni qədim Şərqdə ilk dəfə dövrün ideologiyasını təmsil edən dini «idarələr»- məbədlər meydana gəlmişdir. *İlahi səfirlər iki cür möcüzəyə malik idilər. Əməli möcüzə və söz möcüzəsi. Əməli (fel) möcüzə, Allahın izni ilə insana xas olan təkvini vilayətin qüvvəsi sayəsində kainatı ram etmək və ona təsir göstərməkdir.* Məsələn, Ayın yarılması (şəqqül-qəmər), dənizin yarılması, yerin yarılması, ağacın yerdən qopması, anadangəlmə kor və cüzam xəstəliyinə tutulanların sağaldılması, ölünün dirilməsi və mötəbər İslam mənbələrində qeyd olunan digər möcüzələr kimi.

*Söz möcüzəsi* mütəal Allahın uca və dolğun kəlamlarıdır ki, öz sevimli peyğəmbərlərinə nazil etmişdir. *«Söz möcüzələri – vəhy əmanətçiləri olan mələklərdən peyğəmbərlərə nazil olan elm, maarif və həqiqətlərdir». Söz möcüzələrinin* başında Qurani-Kərim durur. İsmətli Əhli-Beytin (ə) buyurduğu kəlamlar, «*Nəhcül-Bəlağə*» və «*Səhifeyi-Səccadiyyə*» kimi kitablarda toplanan hikmətli sözlər və digər dualar hərçənd Quranın sirrini və batinini izah edirlər, amma onlar *ikinci dərəcəli söz möcüzələri* hesab olunurlar.

Əməli möcüzə ilə söz möcüzələrinin fərqlərini aşağıdakı kimi sadalamaq olar:

1. *Əməli möcüzə müvəqqəti olub müəyyən zaman və məkan daxilindədir və ötüb keçəndir.* Bu növ möcüzə baş verdikdən sonra yalnız tarixə və xəbərə çevrilir, söz möcüzəsi isə bunun əksinə olub, bütün əsrlərdə möcüzə olaraq qalır.

2. *Əməli möcüzə daha çox xarici (hissi) aləmlə tanış olan və onlara adət edən adi insanlar üçündür.* Belə ki, avam insanlar yalnız hissi idrakla, xüsusən də gözləri ilə görməklə bir şeyə inanırlar.

Nuh peyğəmbər indiki insan nəslinin ikinci atası sayılır. necə ki, Allah-Təala «*Saflat*» surəsində buyurur: *«Ancaq onun nəslini (yer üzündə) qalanlardan edirik. Adəm və İdris peyğəmbərlərdən başqa bütün peyğəmbərlər nəsli ona yetişir»[1]).*

Quran surəsində deyilir ki, «Nuhu və onunla birlikdə yüklü gəmidə olanları xilas etdik. Sonra yerdə qalanları suda boğduq». Başqa bir surədə buyurur: «Biz Nuha və onunla birlikdə olanlara nicat verdik, onları (yer üzünə) varislər (xəlifələr) etdik. Ayələrimizi yalan hesab edənləri isə suda batırıb boğduq».

Quranda adları çəkilən 25 peyğəmbərdən yeddisinə kitab və lülə halında bükülmüş kağız, yəni risalə nazil olub. *Bunlardan birincisi – Şeys peyğəmbər, ikincisi – İdris peyğəmbər, üçüncüsü – İbrahim peyğəmbər, dördüncüsü – Musa peyğəmbər, beşincisi – Davud peyğəmbər, altıncısı – İsa peyğəmbər, yeddincisi – Məhəmməd (s) peyğəmbərdir.*

Göydən dörd kitab və yüz risalə nazil olub. Risalələrdən əllisi Şeys peyğəmbərə, otuzu İdris peyğəmbərə, iyirmisi İbrahim peyğəmbərə göndərilib. Kitablara gəldikdə, onlardan *Tövrat* - Musa peyğəmbərə, *Zəbur* – Davud peyğəmbərə, *İncil*-İsa peyğəmbərə, müqəddəs *Quran* isə Həzrət Mühəmməd (s) peyğəmbərə göndərilib. *Bu kitabların dördü də Ramazan ayında nazil olub. Tövrat Ramazan ayının birində, Zəbur yeddisində, İncil on üçündə, Quran isə Qədr gecəsində göndərilib.*

Altıncı əsrin sonunda dünya yenidən fitnə-fəsad içində batıb gedirdi. Dini inamlar zəifləmiş, bütpərəstlik qədim mədəniyyət aləmini öz cəngində boğurdu. Allah-Təalaya ibadət aradan gedib, çeşidli əqidələr meydana çıxmışdı. Atəşə, heyvanata, daşlara, Günəşə, Aya və əldə düzəlmə tanrılara

---

[1] Rəsuli Məhəllati. Peyğəmbərlərin həyatı (Tərcümə edən Z.Bağırov). 2005, s.48

inanclar zühura gəlmişdi. Bəd əməllər, sərxoşluq, zinakarlıq, zülm və haqsızlıq yer üzünü almışdı.[1]

Quran peyğəmbər dövründə olduğu kimi, on dörd əsrlik bir müddətdə öz kamilliyini nümayiş etdirərək, sınaqdan uğurla çıxmış və dəyişilmədən gəlib bizə çatmışdır.

Quran bəşəriyyətin rifahı və səadəti üçün oxumaq və yazmaq bilməyən Məhəmməd (s) peyğəmbərə təqribən 23 il ərzində Allah dərgahından göndərilmiş bir nicat gəmisidir. Allah-Təalanın ərəb dilində nazil etdiyi kitab – Quran bütün mədəni xalqların dilinə tərcümə olunmuş və olunmaqdadır[2].

Quran Allah təalanın göydən yerə lütfü, hidayəti, şəfqət və məhsuludur. Qurani-Kərim-Allah kəlamı qalan bütün əsərlər isə bəşər kəlamıdır. Quranın üslubu ilahi üslub, o biriləri isə bəşəri üslubudur[3]. Təbiət qaydaları nə dəyişəndir, nə kamilləşən, sabit və yeknəsəqdir. Qurani-Kərim bu dəyişilməz qaydaları «İlahi sünnə» adlandıraraq deyir: İlahi sünnə dəyişilməzdir. Bütöv sistem kimi şəxsiyyət hərəkətli və dinamikdir. O cəmiyyətin, sosial sahənin dəyişilməsi və inkişafından asılı olaraq dəyişilir və inkişaf edir.

Allah 14 əsr əvvəl insanlara yolgöstərici, ilhamverici, hər bir insanın anlayacağı asan və anlaşıqlı dildə olan kitabı Qurani-Kərimi nazil etmiş və bəşəriyyəti Qurana tabe olaraq xilas olmağa dəvət etmişdir. Quran nazil olduğu gündən qiyamət gününə qədər bəşəriyyətin yeganə yolgöstəricisi olan son ilahi kitabdır. Quran Allahın elçisi Cəbrayıl tərəfindən Hz. Məhəmmədə (s) diqtə edilərək yazdırılmışdır, onun bü-

---

[1] Peyğəmbərlərdən (s) 40 hədis və peyğəmbərə (s) 40 sual. Beytül Əhzan, 2007. s.3

[2] Əl-Qurani Kərim. Ərəb dilindən tərcümə. Z. Bünyadov; V.Məmmədəliyev. 8-ci buraxılış, s. III

[3] Yenə orada, III, VI

tün kəlmələri Allahın vəhyidir. Qurani-Kərim bir milyarddan artıq insanın, yəni dünyada hər dörd insandan birinin etiqad etdiyi islam dininin müqəddəs kitabı, ərəb dilinin ən möhtəşəm abidəsi və səmavi kitablardan ən sonuncusudur[1].

*Quran haqqında dahi şəxslərin qiymətli fikirləri vardır:*

Quran elə bir geniş əhatəli kitabdır ki, orda insan həyatının və elmin bütün sahələrinə aid müvafiq ayələr tapmaq olar. Quran nəhəng bir ədəbi abidə olaraq təkbaşına dayanır. Ərəb ədəbiyyatının bənzərsiz bir məhsuludur, öz ifədəsi ilə desək, sələfi və xələfi yoxdur[2].

Bütövlükdə Quranda ən zəkalı insanların, ən böyük filosofların və ən qabiliyyətli siyasətçilərin bizə verə biləcəyi bir ağıl kolleksiyası tapırıq. Lakin Quranın İlahiliyinin başqa bir sübutu da var: onun vəhy edildiyi gündən bu günə qədər əsrlər boyunca pozulmadan qorunması[3].

Quran bunu hamının qəbul etməsi yolu ilə dünyanın böyük ilahi kitabları arasında mühüm yer tutur. Quran insan düşüncəsində yeni dövr, təzə və özünəməxsus bir nizam yaratmışdır[4].

Fransa imperatoru Napoleon Bonapart Qurana belə qiymət vermişdir: *«Dünyanın bütün alim və mütəfəkkirlərini bir yerə yığaraq yeganə doğru və insanları səadətə apracaq tək bir vasitə olan Quranın prinsiplərinə əsaslanan müştərək bir rejim quracağım dövrün çox yaxın olduğuna ümid edirəm»*[5].

Quranın tədqiqi ilə qeyri ərəb və qeyri islam ölkələri-

---

[1] Əl-Qurani Kərim. Ərəb dilindən tərcümə. Z. Bünyadov; V.Məmmədəliyev. 8-ci buraxılış, s. III.

[2] Harun Yəhya. Quran möcüzələri. Tərcümə edən Elşad Miri. B., 1994, s.236

[3] Yenə orada, s.239

[4] Yenə orada, s.243

[5] Yenə orada, s.250

nin mütəxəssisləri də məşğul olur və bu qeyri-adi kitabın qəribəliyi və əsrarəngiz cümlələri onları heyran edir. Bəzi tədqiqatçılar Quranın təsirindən öz dinlərini buraxıb islamı qəbul etmişlər[1].

Qurana olan marağın nəticəsidir ki, *o 1141-ci ildə latın, 1513-cü ildə italyan, 1616-cı ildə alman, 1647-ci ildə fransız, 1648-ci ildə ingilis dilində tərcümə olunmuşdur. XVIII əsrdə Böyük Pyotrun təşəbbüsü ilə rus dilinə tərcümə edilməyə başlanılmışdır.*

Quran onu oxuyan adamların elmi və mədəni səviyyəsindən asılı olmayaraq, hamının başa düşə biləcəyi bir dilə sahibdir. Quranın ifadələrində işlədilən kəlmələr həm məna yönündən, həm də üslubunun axıcılığı və təsiretmə gücünün böyüklüyü yönündən çox özəl və bənzərsizdir[2].

Orijinal ərəbcədəki Quran insanı hərəkətləndirib şövqə gətirən bir gözəlliyə və cazibəyə malikdir. Dolğun və üstün üslubu, bütövlükdə qafiyələri olan və birdən çox mənalara gələn qısa cümlələri, sözbəsöz tərcüməsində ifadə edilməsi son dərəcə çətin olan mənalı bir təsir və partlayıcı enerjiyə malikdir[3].

Quranı hər dəfə əlimizə alanda qısa bir müddət arzində bizi cəlb edən, heyrətdən donduran və axırda qarşısında əyiləcək qədər heyran edən bir əsərdir. Quranın üslubu kitabın ehtiva etdiklərinə və məqsədinə uyğun olaraq çox güclü, yüksək və möhtəşəmdir. Bu kitab bütün əsrlər boyu ən təsirli kitab olaraq qalacaqdır[4].

---

[1] Ə.Əhmədov. «Nikatul-Quran». Bakı, İkinci nəşr, 1986.

[2] Harun Yəhya. Quran möcüzələri. Tərcümə edən Elşad Miri. B., 1994, s.230, 231

[3] Yenə orada, s.238

[4] Yenə orada, s.243

Quran insan düşüncəsində yeni bir dövr və təzə özünəməxsus bir nizam yaratmışdır. Mən bütün dinlərin müqəddəs kitablarını oxudum, islamda rast gəldiyim şeyi – mükəmməlliyi isə heç birində tapa bilmədim. Quran başqa oxuduğum mətnlərlə müqayisə ediləndə bir kibritin işığı ilə müqayisə edilən bir günəş kimidir. Qəti olaraq inanıram ki, gerçəklərə tamamilə qapalı olmayan bir ağılla Allahın sözlərini oxuyan hər kəs müsəlman olacaqdır[1].

Akademik V.Məmmədəliyev yazır: «Qurani-Kərim ecazkar Allah kəlamıdır. Qurani-Kərim bir əsər kimi insan qəlaminin, bəşər qüvvəsinin imkanı xaricində olan fikrini öz-özlüyündə sübuta yetirir. Bu, müqəddəs kitab olmaqla yanaşı, eyni zamanda, bütün elmləri, ictimai-siyasi həyatın ən mühüm problemlərini, cəmiyyəti düşündürən və narahat edən məsələlərin cavabını, müsəlman icmasının əsas hüquq məsələlərini özündə cəmləşdirən yeganə nüfuzlu kitabdır»[2].

20 iyul 1964-cü il Appolo 11-də Aya enən Amerika astronavtlarından Nil Armstronq Ayın səthi ilə gəzdiyi müddətdən 14 il sonra 1983-cü ilin fevral ayında İslam dünyasına ilk səfərində Misirdə iştirak etdiyi konfransın gedişində birdən rəngi ağarır. O, özündən asılı olmayaraq ayağa durur, ətrafa nəzər yetirir, nəyəsə diqqətlə qulaq asır, sonra birdən səksənir və narahatlıqla soruşur: «Bu nə musiqidir?» Küçədən azançının azan səsi gəlirdi. Misirlilər gülümsünərək cavab verirlər ki, «Bu musiqi deyil, azandır, o, sizdə ibadətə çağıran kilsə zənginə oxşayır. Azanda Allahın böyüklüyü və onun işi və qurtuluşa çağırış göstərilir".

---

[1] Harun Yəhya. Quran möcüzələri. Tərcümə edən Elşad Miri. B., 1994, s.250

[2] Əl-Qurani Kərim. Ərəb dilindən tərcümə Z. Bünyadov; V. Məmmədəliyev. 8-ci buraxılış. XIV

Armstronqun sözləri açıq sakit səmada ildırımı xatırladır. O deyir: «Bu səsi ilk dəfə Ayda addımlayanda eşitmişəm. O zaman bədənimi əsmə tutdu, qulaqlarımda gurultu yarandı. Sonra bu səsi bir-birinin ardınca eşitdim, yaxşı əhval-ruhiyyə hiss etdim.

Müəyyən vaxt keçdikdən sonra bənizi ağappaq olmuş Armstronq dedi: «Ey Allah! Səni yerdə yox, Ayda tapdım». O, bir neçə saniyə sükut etdi, özünə gələrək davam etdi: «Mən Aya ibadətsiz yendim, mən indi ibadət edəcəyəm, məni müsəlman hesab etmək olar»[1].

Aya enən Apollo-11-ın astronavtları – Oldrinq, Kollins, Armstronq xristian dininə böyük etiqadı olan xristianlar idi. Onlar Ayın səthində tədqiqat apararkən qəflətən başa düşülməyən təzahür görürlər. Bu anda bütün danışıqlar maqnit lentasına yazılır. Onlar: Astronavt Oldinq «Biz açıq kitaba oxşar predmet görürük".

Dəniz üzərində tam sakitlikdir.

***Astronavt Armstronq:*** «İki həlqəyə, daha doğrusu açıq kitaba oxşayır".

***Astronavt Kollins:*** «Mən seksontın vəziyyətin dəyişdim. İndi aydın görünür ki, bu kitab formasıdır".

***Yerdən müşayiət:*** «Siz nə deyirsiz, Ayda hardandı kitab?"

Növbəti gün kitab yox oldu, bunun müqabilində yanğınsöndürən maşının səsinə oxşar yaranmış xarici maneə radio əlaqəsini boğurdu.

***Kollins:*** «Yer, siz məni eşidirsiniz? Bu maneəni, səsi yığışdırın, tezliklə mən kar olacağam».

***Yer:*** «O səs Yerdən deyil, hardansa kənardandır. Siz inanırsınız ki, Ayda sizin gəmidən başqa Gəmi yoxdur?»

---

[1] https://ru.wikiislam.net/wiki/

***Armstronq:*** «İndi isə hansısa musiqi başladı. Yer, siz bu musiqini yığışdıracaq¬sınızmı?»

***Yer:*** «Bizdə hər şey sazdır. Musiqi səsi sizdən gəlir»

***Oldrinq:*** «Bu nə cəfəngiyatdır? Biz razılaşacağıq, ya yox? Axı bu musiqi sizdən gəlir?»

Sabahısı Armstronq yenidən aya enir. O, narahat şəkildə deyir: «Qartal oturdu».

Həqiqətən insan ilk dəfə Ayda gəzir. Burda siqnala oxşar səs çıxır. Lakin bu dəfə (hamısı lentaya yazılır), aşağıdakı səslər eşidilir: «Rabbi-ac ardz-dini inda xu-iza-kun-aliym».

***Yer:*** «Ey, kim danışır?»

Bu vaxtı Armstronq Ayda gəzirdi. Yenidən musiqiyə oxşar «Aşdanna alla ilahə illəlah» səsi (Allahdan başqa İllah yoxdur) eşidir.

***Yer:*** «Yenə bu uçan obyektlərdir? O biri musiqidə hansı səslər var idi?»

***Kollins:*** «Aşon maxotma rasombolla» buna oxşar səslər idi. Hind musiqisinə bənzəyirdi.

***Armstronq:*** «Mən onu (yuxarıda söylənən ərəb ibadəti) axıra qədər eşitdim. Ondan nəsə əhval-ruhiyyə yaranır. Fikrimcə, Afrika radiostansiyalarından biridir.

***Oldrinq:*** «Mən frekansa keçirdim, yenə də həmin səs. Bu səs Aydan gəlir. Bu radiodalğa deyil. Buna isə inanmaq çətindir.

***Yer:*** «Siz dəli olmusunuz? Hardan havasız fəzada səs olsun?

***Kollins:*** «Onda bu nədir? Uçan tarelkadır?»

***Armstronq:*** Uçan obyekt kitab şəklində ola bilər?»

***Yer:*** «Təəccüblü nasazlıq və ya hansısa kosmik dalğadır?» Yəqin ki, səs, kitab, səda – bütün bunlar sizin xəyalınızda görünənlərdir.

Müəyyən vaxtdan sonra astronaftlar Yerə qayıtdılar. Yenidən kassetlər fırlanır. Bununla yanaşı, Nash-Al-Bosin məsul katibi ilə məsləhətləşmələr aparılır. O, musiqi ilə əlaqədar aydınlıq gətirir. Ayda səslənən ərəb dilində Qurandan müqəddəs kəlamlardır[1].

Uzun vaxt keçəndən sonra bu kəlamlar «Apollo-16»-nin Astronavti eşitmişdir. Bu xəbər heç kəsə məmnunluq hissi gətirmədi. Nə olurdusa-olsun bu yeniliyi ictimaiy¬yətin mühakiməsindən gizlətməyə çalışırdılar.

Armstronqun Misirdə dedikləri bomba kimi partladı. Müəyyən vaxt keçdikdən sonra bu hadisəni ört-basdır etməyə çalışanlar tapıldı. Mənşəcə suriyalı olan Nassanın əməkdaşlarından biri Annolo-İİ-lə Yer arasında bütün danışıqlar ictimaiyyətə oturur və ona kommentariya verdi. Bu söhbət işıq üzü görəndən sonra müxtəlif ölkələrin nəşriyyatları Armstronqun sözlərin əsli həqiqət olduğunu təsdiq etdilər.

Quranın ilahi və ecazkar kitab olduğu haqda çoxlu əsərlər yazılıb, onlardan *Harun Yəhya* dünya ölkələrində geniş yayılmış «*Quran möcüzələri*», *Əhmədağa Əhmədovun* Azərbaycanda dəfələrlə nəşr olunmuş «*Nikoful-Quran və Əsraril-Quran*» kitablarında ayələri təhlil yolu ilə Quranın ecazkarlığı göstərilir.

Harun Yəhyanın Quranla bağlı kitabları, o cümlədən «Quran möcüzələri» kitabi dünyanın əksər ölkələrində geniş oxucu kütləsi qazanmış, ingilis, fransız, alman, italyan, rus, ispan, portuqal, urdu, ərəb, yapon, çin, Azərbaycan dilinə tərcümə edilmişdir. Bu kitabı oxuyan və incələyən hər kəs onlardakı hikməti, habelə yığcam, dolğun, asan başa düşülən səmimi üslubu, həyati həqiqətlərin elmi-məntiqi izahını görür.

[1] https://ru.wikiislam.net/wiki/

Quranda dünyada mövcud elmlərin – fizikanın, astronomiyanın, kosmologiyanın, ümumiyyətlə təbiətşünaslığın bütün məsələlərini tapmaq olar. Qurandakı xəbərlərə müxtəlif ayələrdə yığcam, dolğun və hikmətli üsulla, elmi həqiqətlərə XX və XXI əsrlərin texnologiyası ilə aydınlıq gətirilir.

Quran ayələrinin elmi möcüzələrindən biri də nə vaxt, hansı dövrdə, harda və kimə nazil olmasındadır. Quranın nazil olduğu həmin dövrdə insanların heç birinin, o cümlədən Məhəmməd peyğəmbərin bilmədiyi əksər məsələlər orda öz izahını tapmışdır. Məhəmməd peyğəmbərə (s) Allahın elçisi Cəbrayıl vasitəsilə vəhy nazil olanda, bəzi hallarda onun ağzı köpüklənər, rəngi saralar və o, əbasını başına çəkib bayılarmış. Peyğəmbər özünə gəldikdə, ona nazil olan vəhyi olduğu kimi ətrafdakılara oxuyardı[1] .

Nazil olan Quran ayələrində çox *dərin elmi fikirlər* vardır. Qurandakı elmi fikirləri *üç qismə* ayırmaq olar. *Birinci qismə* daxil olan elmi fikirlər ayələrin zahiri mənasında bəlli olur. *İkinci qismə* daxil olan fikirlər isə öz əksini Quranın dərin qatlarında tapır ki, onların mənasını ilk baxışda anlamaq çətindir. *Üçüncü qismə* Quranın daha dərin qatlarında elmi fikirlər mövcuddur ki, elmin müasir inkişaf səviyyəsi yüksəldikcə, bu gün bizə xəyal, əlçatmaz arzu kimi görünən bir çox ideyalar elmi baxımdan gerçəkləşdikcə, həmin fikirləri dərk etmək insana nəsib olacaqdır[2].

Ümumiyyətlə, dini elmlər iki qismə bölünür: *zatı və kəsbi (hüzuri və hüsalı). Zatı elmi Allaha aiddir.* Bu elmin mahiyyətini təsəvvür etmək bizim üçün əlçatmazdır. *Kəsb elm isə insanlara* aiddir. Hz Peyğəmbər (s) və onun vəsilələrinə aid

---

[1] Yenə orada, s.X

[2] Əl-Qurani Kərim. Ərəb dilindən tərcümə Z. Bünyadov; V. Məmmədəliyev. 8-ci buraxılış, s.IV

olan bir elm də var. Bu elm *«lədunni», «ilham olunmuş elm»* adlanır. Bu elm kəsb elmində olduğu kimi, təhsil yolu ilə əldə edilmir. O, həm də Allahın elmi kimi yazı deyildir. *Bu elm Allah tərəfindən peyğəmbərlərə və onların canişinlərinə ilham olunur. Bu adamlar Allahın izni ilə keçmişdə baş vermiş və gələcəkdə baş verəcək hadisələrdən xəbər tuturlar.*

Quranda yalnız Allaha aid edilən qeyb elmi - yazı elmidir. Amma peyğəmbərlərə əta olunmuş qeyblə bağlı biliklər lədunni elm sayılmalıdır. *Bu elm vəhy (gizli səs, gizli işarə, gizli danışıq, pıçıltı, rəmz və ilhamın hərfi mənası) və ilahi yolla çatdırılır.* Onlar da öz növbəsində Allahın iradəsi ilə qeybi işlərdən xəbər tuturlar. Allah-Təala buyurur: *«Allah qeybi biləndir. O, peyğəmbərliyə seçdiyi kəsdən başqa bir nəfərə də qeybi aşkarlamaz» (Çinn surəsi, ayə 26).*

*Quranda kainatın yaranmasından insanın əmələ gəlməsinə, canlıların yaranmasına, atmosferin quruluşundan yer kürəsindəki nizama qədər ən müxtəlif mövzularda əsas məlumatlar xəbər verilmişdir.*

«Quran möcüzəsi» kitabında «Kainatın yaranması» («Ənam», 6/101), «Kainatın genişlənməsi» («Zariyat», 51/47), «Kainatın sonu» («Ənbiya», 21/104) və b. əsaslandıran elmi nəzəriyyələrin meydana gəlməsi göstərilir.

*Dağların yaranması və funksiyası Quranda «Yer onları silkələməsin, atıb-tutmasın deyə, orada möhkəm dağlar yaratdıq» («Ənbiya», 21/31), «Məgər biz yeri döşək etmədikmi?! Dağları da dirək?!»(«Nəbə», 78/6,7),»Allah göyləri, gördüyünüz kimi dirəksiz yaratmış, sizi yırğalamasın, atıb-tutmasın deyə yerdə möhkəm oturmuş dağları bərqərar etmişdir» («Loğman», 31/1).*

Həqiqətdə alimlərin fikrincə hər bir dağ 10-15 misli qədər də yerin altına qədər uzanır. Bundan başqa, dağlar yer

qabığını əmələ gətirən çox böyük təbəqələrin hərəkəti və toqquşmaları nəticəsində meydana gəlir. İki təbəqə toqquşan zaman daha möhkəm olanı o birinin altına girir. Üstə qalan təbəqə qıvrılaraq yüksəlir və dağlar meydana gəlir. Qatların daha dolğun olduğu bölgələrdə Yer qabığı mantiya qatına dərin sancılır. Bu şəkildə yer qabığını sabitləşdirərək onun torpaq təbəqəsi üzərində, və ya öz təbəqələri arasında sürüşməsinə mane olur. Qısaca dağları taxtaları bir yerdə saxlayan mismarlara bənzədə bilərik. Göründüyü kimi, dağların mismar funksiyasını yerinə yetirməsi, geoloji və seysmik araşdırmalar nəticəsində kəşf edilən çox həyati bir funksiya Quranı-Kərimdə Allahın insan hikmətinə bir örnək olaraq verilmişdir[1].

Quranda dağların hərəkət etməsi haqda belə deyilir: *«Dağlara baxıb onları donmuş zənn edərsən, halbuki onlar bulud keçən kimi keçib gedərlər» («Nəml», 27/88).* Ayədə göstərilən dağların yerləşdiyi təbəqənin hərəkət etməsi həqiqətinin elm tərəfindən təsdiq edilməsi Quranın möcüzələrindən biridir. Dağların bu hərəkəti üzərində dayandıqları Yer qabığının hərəkəti nəticəsində meydana gəlir. Yer qabığı özündən daha qalın olan mantiya təbəqəsinin üstündə sanki üzür.

Quranda *dəmirə* böyük diqqət yetirilmişdir. *«...Biz həddindən artıq möhkəm olan və insanlara fayda verən dəmiri də nazil etdik (endirdik)» («Hədid – yəni dəniz, 57/25»).*

Həqiqətən müasir astronomiya elmi yerdəki *dəmir mədənlərinin kosmosdakı böyük ulduzlardan gəldiyini sübut etmişdir.* Təkcə yerdəki deyil, bütün günəş sistemindəki dəmir kənardan əldə edilmişdir. Kainatda ağır metallar böyük ulduzların nüvələrində hazırlanır. Dəmir ancaq Günəşdən də

---

[1] Harun Yəhya. Quran möcüzələri. Tərcümə edən Elşad Miri. B., 1994, s.49-50

böyük olan ulduzlarda bir neçə yüz milyard dərəcəyə çatan istidə əmələ gəlir[1].

*Eynşteynin* XX əsrdə göstərdiyi *«ehtimal nəzəriyyəsi» Quranın ayı-ayrı ayələrində ifadə olunur: «...Sizin Rəbbin dərgahında bir gün saydıqlarınız min ili kimidir» («Həcc», 22/47) «O, göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra (həmin işsiz) sizin saydığınızın min ilinə bərabər olan bir gündə ona yüksələr» («Səcdə», 32/5).* Quranda bu məsələnin aydın şəkildə bəhs edilməsi onun ilahi bir kitab olmasının başqa bir sübutudur[2].

*Əgər onlara göydən bir qapı açsaq və onunla durmadan yuxarı dırmaşsalar (göydə Allahın qüdrətini və əzəmətini görsələr) yenə də (inanmayıb): "Gözümüz bağlanmış (xumarlanmış), biz sehrlənmişik", – deyərlər* (əl-Hicr surəsinin 14-15 ayələrinin mənaların tərcümələri). Ərəb əsilli alim Adnan Şarif, bu ayələri zikr edərkən, 1961-ci ildə birinci kosmonavt Yuri Qaqarin kosmosda olarkən sözlərini xatırlayır, bəllidir ki, Yuri Qaqarin nəinki müsəlman deyiliydir, ümumiyyətlə ateist olaraq, illyminatordan Yerə baxarkən, bu sözləri demişdir: "Mən nə görürəm? Mən yuxudayam, yoxsa gözlərim dumanlanmış, sehrlənmiş?" sözlərini, hər şeyi bilən Allah 1400 il önçə öz kitabı Quranda müfəssəl şəkildə təsbit etmişdir.

Qurandaki dəqiqliyin başqa bir nümünəsi, yenə də bu ayədə nəzərə çarpır: *Əgər onlara göydən bir qapı açsaq və onunla durmadan yuxarı dırmaşsalar (göydə Allahın qüdrətini və əzəmətini görsələr) yenə də (inanmayıb): "Gözümüz bağlanmış (xumarlanmış), biz sehrlənmişik", – deyərlər,* müasir

[1] Harun Yəhya. Quran möcüzələri. Tərcümə edən Elşad Miri. B., 1994, s.60

[2] Yenə orada s.63

elmə əsasən, kosmik cihazlar-gəmilər ancaq xüsusi yerdən göya qalxa bilər. İstənilən nöqtədən bunu etmək mümkün deyil, çünki həmin kosmik gəmilər nəzərdə tutulan qapıdan keçməsə, nəticədə yanıb kül olmalıdır, ya da kosmosa qayıdıb orada itməlidir.

Bunlar hamısı birdə subutdur ki, iyirminci əsrdə müasir elm və texnologiyanın inkişafı sayəsində kəşf edilmiş bəzi elmi faktlar Allahın bizə nazil etdiyi kitab -Quranda 14 əsr bundan qabaq xəbər verilmişdir.

Quranda insanın *yer üzünə necə gəlməsi,* hansı mərhələlərdən keçməsi və təməl maddəsinin nə olması tez-tez xatırladılır. Məsələn, *«Biz sizi yoxdan yaratdıq. Məgər təsdiq etməzsiniz? Bəs bətnlərə axıtdığımız nütfəyə nə deyirsiniz? Onu yaradan sizsiz, yoxsa Biz»?! (Xafiə, 56/57-59).*

İnsanın yaradılışı və bunun möcüzəvi xüsusiyyətləri başqa ayələrdə də vurğulanır. Ancaq bu fikirlər arasında elə elmi faktlar var ki, onlar VII əsrdə yaşayan insanların əsla bilmədiyi incəliklərdəndir [1]. Quranın başqa bir ayəsində deyilir: *«O, yaratdığı hər şeyi gözəl yaratdı, insanı palçıqdan yaratmağa başladı. Sonra onun nəslini özəkdən-bir qətrə zərif sudan əmələ gətirdi» («Səcdə», 32/7-8). «Özək» kəlməsi «Vahidin», «tamın», «bütövün» bir qismi mənasına gəlir. Allah Quranda insanın xəlq olunmasının möcüzəli bir formada baş verdiyini xəbər verir. İlk insan Allahın palçığı formaya salıb insan bədəni halına gətirməsi və bundan sonra bədənə ruh üfürməsi ilə yaradılıb. «Xatırla ki, o zaman sənin Rəbbin mələklərə belə demişdi: Mən palçıqdan bir insan yaradacağam. Mən onu tamamlayanda öz ruhumda üzürəm kimi ona səcdə edin» («sad», 38/71-72); «İndi soruş: onları yaratmaq çətindir, yox-*

---

[1] Harun Yəhya. Quran möcüzələri. Tərcümə edən Elşad Miri. B., 1994, s.101

*sa, bizim yaratdığımız?» («Səffat», 137/II), «Biz həqiqətən insanı süzülmüş palçıqdan yaratdıq» («Muminun», 23/12).*

Bu gün insanın toxumaları incələnəndə məlum olur ki, bu toxumalarda *Yer üzündəki əksər elementlər var.* Canlı orqanizmlərin toxumalarının 95%-i karbon (C), hidrogen (H), oksigen (O), azot (N), fosfor (F), sulfiddən (S) ibarətdir. Həmçinin qeyd olunmalıdır ki, canlıların toxumalarında cəmi 26 element var (142, s. 116). Quranda genlərin proqramlaşması belə ifadə olunur. *«(Allah) onu hansı şeydən yaratdı? Bir damcı sudan yaratdı, ona şəkil verdi. Sonra onun üçün yolu asanlaşdırdı» («Əbəsə», 80/18-20).*

Məlum olduğu kimi, atanın sperma hüceyrəsi, ananın yumurta hüceyrəsini mayalandıranda atanın və ananın genləri doğulacaq uşağın bütün irsi xüsusiyyətlərini müəyyənləşdirmək üzrə birləşir. Bu isə minlərlə gen deməkdir və onların hər birinin xüsusi bir vəzifəsi var. Bütün fiziki xüsusiyyətləri ilə yanaşı, hüceyrələrdə və orqanizmdə meydana gələn minlərlə müxtəlif hadisə və sistemin nəzarəti də genlərdə qeyd edilir. Məsələn, insanın qan təzyiqinin aşağı, yuxarı və ya normal olması da genlərdəki məlumatlarla bağlıdır[1].

Sperma və yumurta birləşəndə yaranan hüceyrə ilə yanaşı, insanın həyatının axırına qədər onun hər hüceyrəsinə şifrəsini daşıyacağı *DNT molekulunun* da ilk surəti meydana gəlir. DNT hüceyrənin nüvəsində həssaslıqla qorunan böyük molekuldur. Bu molekul insan bədəninin bir növ məlumat bankıdır və haqqında yuxarıda bəhs edilən genləri özündə ehtiva edir. *«Mayalanmış yumurta»* dediyimiz ilk hüceyrə bundan sonra DNT-də qeyd edilmiş proqrama uyğun olaraq çoxalır və o, bir insana çevrilmək prosesi çərçivəsində bə-

[1] Harun Yəhya. Quran möcüzələri. Tərcümə edən Elşad Miri. B., 1994, s.119

dəndəki toxumaları, orqanları əmələ gətirməyə başlayır. Bu kompleks yaradılış prosesinin koordinasiyası *DNT molekulu – karbon, fosfor, azot, hidrogen və oksigen kimi atomlarda meydana gələn bir molekul tərəfindən təmin edilir.*

DNT-də qeyd edilmiş məlumat tutumu isə elm adamlarını heyrətə salacaq ölçüdədir. İnsanın bir DNT molekulunda düz 1 milyon ensiklopediya səhifəsi və ya təxminən 1000 kitab dolduracaq miqdarda məlumat olar. Başqa ifadə ilə desək, hər bir hüceyrənin nüvəsində insan orqanizminin fəaliyyətinə nəzarət etməyə yarayan 1 milyon səhifəlik bir ensiklopediyanın ehtiva edə biləcəyi məlumat şifrələnib[1].

*DNT-nin quruluşunun 1953-cü ildə Frons Krik tərəfindən kəşf edildiyi nəzərə alınsa, embrioloqların XIX əsrin axırlarına qədər öyrənə bilmədiyi «genetik planlama» hadisəsi Quranda 1400 il bundan əvvəl işarə edilən Allahın sözü olmasına dəlalət edir.*

ABŞ Corctaun Universitetində tibbi embriologiya sahəsində dossent, prof. Cerald K. Qorigez göstərir ki, Quran ayələrində insan inkişafının hüceyrələrin bölünməsindən əzaların yaradılmasına qədər çoxəhatəli izahı verilir. İnsanın inkişafı prosesinin bütün mərhələləri ilə, terminologiyası və açıqlanması ilə belə aydın və qüsursuz qeyd edilməsi insan embrionu və insan dölünün inkişafının çoxlu mərhələsini əsrlərlə əvvəldən bildirilir[2].

Kanada Toronto Universitetinin anatomiya və hüceyrə biologiyası üzrə professoru, tanınmış embrioloq Keyt L. Mur qeyd edir ki, insanın inkişafı haqqında Quranda yer alan ifadələrin açıqlanmasına yardımçı olmaq mənim üçün çox

---

[1] Harun Yəhya. Quran möcüzələri. Tərcümə edən Elşad Miri. B., 1994, s.119

[2] Yenə orada, s.244

böyük zövqdür. *Mən qəti olaraq deyirəm ki, bu ifadələri Hz. Məhəmmədə (s) Allah vermişdir, çünki bu məlumatların əksəriyyəti, əsrlər keçməsinə baxmayaraq, kəşf edilməmişdir.* Son dörd ildə Quranla və hədislərlə bağlı aparılan gərgin çalışmaıar nəticəsində insan embrionunu hissələrə ayıran yeni bir sistem ortaya çıxmışdır ki, bu da bizim eranın VII əsrində qeyd edildiyi üçün çox təəccübləndiricidir. Quranda açıqlamalar o dövrdə elmi məlumatlara söykənə bilməzdi. Bu, bir daha sübut edir ki, Hz. Məhəmməd (s) Allahın elçisidir.[1]

Quranda *cütlər məsələsinə böyük diqqət yetirilir və xüsusi ayələrdə göstərilir: «Yerin yetişdirdiklərindən, onların özlərindən və bilmədiklərindən cütlər yaradan Allah pak və müqəddəsdir» («Yasin». 36/36).* Erkəklik-dişilik «cüt» ifadəsiə uyğundur. Yaradılışdakı cütlərə başqa bir misal da bitkilərdir. Nəbatatçı alimlər bitkilərdə cinsiyyət fərqlərinin olmasını cəmi 100 il əvvəl kəşf edə biliblər. Quranda hələ 1400 il bundan əvvəl aşağıdakı ayələrdə aydın şəkildə bildirilmişdir: *«Biz göydən yağış yağdırdıq və yerə hər gözəl olan cütdən bir bitki yaratdıq» («Loğman», 31/10), «o ki, yer üzünü sizin üçün döşəmiş, orda sizin üçün yollar salmış, göydən yağmur yağdırmışdır. Və bu yağmurlara növbənöv bitkilərdən cütlər yetişdirmişdir» («Təhna», 20/53).*

Quranda *bal arısına* xüsusi ayələrdə toxunulub, Rəbbim bal arısına belə vəhy etdi: *«Dağlarda, ağaclarda və onların qurduğu çardaqlarda özünə evlər tik. Sonra bütün meyvələrdən ye və Rəbbinin sənə asanlaşdırdığı yollarla get! Onların qanunlarında insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxar. Şübhəsiz ki, bunda da düşünüb dərk edənlər üçün bir ibrət vardır» («Nəhl», 16/68-69).*

---

[1] Harun Yəhya. Quran möcüzələri. Tərcümə edən Elşad Miri. B., 1994, c.245

İnsanları öz sosial həyatı ilə heyrətə salan bal arılarının yaşayışındakı *çox ciddilik, intizam, öz ailə başçılarına olan itaət, öz aralarında əmək bölgüsü və buna ciddi surətdə riayət etmək hamıya məlumdur.* Onların tikdikləri evlər-yuvalar ayrı-ayrı xanələrdən ibarət olub, bir-birinə bitişir. Bu xanalar altıbucaq şəklindədir, həm də bunların tərəfləri dəqiq surətdə bir-birinə bərabər və paraleldir. Xanələrin belə olması onlara yuvanın tutduğu yerdən səmərəli istifadə etməsinə imkan yaradır. Ayədə deyilir ki, *«...sənin Pərvərdigarın bal arısına ilham edir...». İlham məsələsi Quranın başqa ayələrində də var, məsələn, «Musanın anasına ilham etdik....»*[1].

Bir arı pətəyi - bir şahzadə, bir neçə yüz erkək və 10-80 min işçi arıdan ibarətdir. Arı pətəklərinin hər birində yalnız bir *şahzadə* olur və onun da əsas vəzifəsi *yumurta* qoymaqdır. Bundan başqa, şahzadə arı pətəyin bütövlüyünü və pətəkdəki sistemli işin davam etməsini təmin edən mühüm maddələr də ifraz edir.[2]

*Erkəklərin isə bir funksiyası var, o da şahzadəni mayalandırmaqdan ibarətdir. Pətək hörmək, qida toplamaq, arı südü əmələ gətirmək, pətəyin hərarətini tənzimləmək, pətəyi təmiz saxlamaq, arı publarına və körpə arılara qulluq etmək, şahzadə arını və erkək arıları qidalandırmaq, bal hazırlamaq kimi pətəyin təhlükəsizliyini təmin etmək, nektar, çiçək tozu və onları ehtiyata yığması işçi arılar yerinə yetirir. Arı pətəyindəki həyatın hər mərhələsində bir nizam var. Körpə arılara nəzarətdən tutmuş pətəyin ümumi ehtiyaclarının təmin edilməsinə qədər hər*

[1] Ə.Əhmədov «Nikatul-Quran". Bakı. İkinci nəşr, 1986, s.260

[2] Harun Yəhya. Quran möcüzələri. Tərcümə edən Elşad Miri. B., 1994, s.143

*bir vəzifə qüsursuz şəkildə yerinə yetirilir.*[1] .

Arılar yığdıqları şirəni öz mədələrində həzmdən keçirirlər və geri qayıdıb onu öz xanələrində ifraz edirlər. Bu zaman keşikçilər onları müayinə edir: pis iy verən çiçək şirəsi olan arını yuvaya buraxmırlar.

Hər arı ailəsinin bir böyüyü-padşahı olur ki, bütün ailənin işinə rəhbərlik edir, qanunu pozanları cəzalandırır, pis iyi olan güllərdən şirə çəkən işçi arıları yuvaya buraxmağa icazə vermir, hətta onları ölüm cəzasına məhkum edir. O, həmişə ailənin təmiz, saf və pakizə bal hasil etməyini təmin edir. Ərəblər bu padşaha yəsub deyirlər. Onun ailə barəsindəki vəzifəsi münasibəti ilə Həzrət-Əliyə Yəsubid-din ləqəbi veriblər, yəni onların padşahı kimi, o da dinin keşiyində durub, onun təmizliyini, pak qalmasını təmin edir[2].

İnsanlar üçün tədqiq etməyə nümunə kimi arılarla yanaşı, qarışqalar haqqında məlumatlanmağa dəyər.

Qarışqalar haqqında Quranda «Qarışqalar» adlanan («Naml» 27/18) ayəsi var. Maraqlıdır ki, Qərbin bir qrup görkəmli alimləri Quranda səhv axtarmış və o səhvi Quranda qarışqaların başçısının qarışqalara: Süleyman Peyğəmbər (s) və onun qoşunu yaxınlaşanda evinizə girin, "sizi sındırarlar", sözünün düz olmaması, onu yerində "əzə bilər" sözü ilə əvəz olunmasını düzgün hesab etmişlər. Alimlər deyirlər ki, bu söz qarışqalara tətbiq edilə bilməz. Yalnız bərk şeyə (kristala) tətbiq etmək mümkündür. Belə ki, onlar canlı məxluqdur və yumşaq şeydən, yəni ətdən təşkil olunub. İki il vaxt keçəndən sonra həmin alimlərin özləri kəşf edirlər ki, qarışqanın bədəninin üçdə ikisi şüşədir və dediklərinə görə

---

[1] Harun Yəhya. Quran möcüzələri. Tərcümə edən Elşad Miri. B., 1994, s.143

[2] Ə.Əhmədov «Nikatul-Quran». Bakı. İkinci nəşr, 1986,

müsəlmanlardan üzr istəyiblər[1].

Qarışqalar dünyanın ən izdihamlı sakinləri sayılır. Buna baxmayaraq *qarışqalar texnologiya, kollektiv çalışmaq, hərbi strategiya, inkişaf etmək, əlaqə qurmaq texnologiyası, iyerarxik nizama riayət, ciddi intizam, qüsursuz şəhər planlaması kimi bir çox sahədə insanlara nümunə olacaq bir nizam sərgiləyirlər.* «Koloniyalar» deyilən cəmiyyətlər halında yaşayan qarışqalar elə inkişaf etmiş bir nizam içindədir ki, onların bu yöndə insanların mövcud sivilizasiyasına oxşayan bir mədəniyyət sahibi olduqlarını da deyə bilərik.

Qarışqalar özlərinə ehtiyat ərzaq yığıb qışa tədarük görməklə yanaşı, balalarına da nəzarət edir, koloniyalarını qurur və döyüşürlər. Hətta *«dərziliklə»* məşğul olub, *«əkinçilik»* edən, heyvan yetişdirən koloniyaları da var. Aralarında çox güclü bir əlaqə şəbəkəsi olan bu heyvanlar onlara cəmiyyətdəki təşkilatlanma və ixtisaslaşma məsələsi nöqteyi-nəzərindən baxıldıqda, heç bir canlı ilə *müqayisə edilməyəcək üstünlüyə malikdir.*[2]

Nümunə üçün Amerika tropikində yaşayan qarışqaların «Atta» növünün fəaliyyətini göstərmək olar. Onlar qurduqları icma halında 15 metr diametrdə, 6 metr dərinlikdə olan öz yeraltı şəhərlərində yaşayır və kənd təsərrüfatına insandan çox xeyir verirlər. Onlar əsasən ağaclarda yarpaqlar və ləçəklərinin substratlarında balaca göbələklər hazırlayırlar. Qarışqa koloniyası öz şəhərlərini güclü yağışdan qorunmaq üçün yeraltı keçidlər, çardaqlar olan dairəvi yollar düzəldirlər.

Alimlər müşayiət etmişlər ki, qarışqalar şəhərdən 400 m

---

[1] https://www.youtube.com/watch?v=XVicb63Wfro

[2] Harun Yəhya. Quran möcüzələri. Tərcümə edən Elşad Miri. B., 1994, s.144

aralı tək dayanmış ağaca dırmaşıb yarpağı seçir, xırda hissələrə bölür və yüklə geri qayıdırlar. Onların özləri ilə daşıdığı yarpağın çəkisi qarışqanın çəkisindən ən azı iki dəfə çox olur. Onlar yük dalınca gedən qarışqalarla yolda tıxac yaradırlar.

Əgər qarışqa yoluna yük töküb yolu kəsərsə qarışqalar bir-birinə qarışır və bu vaxt ani olaraq qarışqa-polislər peyda olur, yolu tənzimləyir və ya dolayı, ehtiyat yol açırlar. Alimlərdə əsas sual doğuran məsələ belə tezliklə bu qarışqaların necə xəbər tutması, haradan peyda olmasıdır. Alimlər 60 metrlik qarışqa yolunda eksperiment qoyurlar və müşayiət üçün cihaz quraşdırırlar və yolu bağlayırlar. Bir dəqiqədən sonra polis-qarışqalar peyda olur. Polis-qarışqalar qarışqa sürüsünü bölərək, o öz bığ-antenaları (kor atta) vasitəsilə məcbur edirlər ki, onlar yarpaqları kənara atsınlar. Şəhərdən başqa polislər yüyürür, alimlərin qoyduğu maneələrdən yüksüz qarışqaları qovmağa başlayırlar. Bu müddətdə dolayı yol keçməyə başlayarkən polis qüvvəsinin bir hissəsi bağlanan sahəni dövrəyə alır, yükün atan qarışqalara şəhərə getmək və maneəsiz keçmək üçün dolayı istiqaməti göstərirlər. Şəhərə əksi gediş edilməsi alimləri yenidən fikirləşməyə məcbur edir. Alimlər qərara alırlar ki, gözlənilməz maneələr haqqında informasiyalar birbaşa antena əlaqəsi vasitəsilə verilir. Lakin sual yaranır, antena əlaqəsinin köməyi ilə belə sürətlə informasiya vermək mümkün deyil.

Təhlil əsasında aşağıdakı nəticəyə gəlirik ki, əgər 60 min qarışqa sürüsü eyni vaxtda bir tərəfə dönüb antenaları bir-birinə ani toxundursa belə polisin gəldiyi sürətdən yüz dəfə az olar. Deməli, atta-qarışqalarda mexaniki yox, toxunma olmadan telekommunikasiya sistemi mövcuddur.

*İkinci misal atta qarışqalarının (anacin qarışqa, baş ana) teleportasiyası*

Atta-qarışqalar sakit qarışqalar olub göbələk istehsal edən, insan kimi balaca şəhər-meqapolis quran fermerləri xatırladır. Onlar tam kordurlar, lakin ani olaraq şəraiti nəzərə alıb öz hərəkətlərini koordinasiya edə bilirlər (elə bil ki, qarışqalar telekommunika¬siyaya malikdir). Lakin doğrudan da təəccüblüdür ki, atta-ana qarışqa teleportasiya kimi fantastik üsulla fəza üzrə yerdəyişməsi mümkündür.

Anaç (atta) qarışqa yalnız yeyir və balalayır. Onlar balaca olanda doğma şəhərindən uçurlar, birləşirlər və yerə enib yeni şəhər salırlar. İşçi qarışqalar ana qarışqaya qulluq edir, o böyüyüb həddən artıq ölçü alaraq öz məhsuldarlığını artırırlar.

Ana qarışqanı qorumaq üçün işçi qarışqalar ona bir neçə santimetr qalınlıqda, yalnız ağır lomla qırıla bilən kakos böyüklükdə möhkəm kamera düzəldirlər. Beton kamera ana qarışqanı tam əhatə edir, yalnız altdan yemək gətirmək üçün giriş və çıxış üçün balaca deşik qoyurlar. Yumurtalara nəzarət edən mamaça, giriş üçün kanal və yumurtalar üçün növ qoyarlar.

Alimlər kameranın qıraq hissəsini kəsib pulverizatorla ana-qarışqaya rəng vururlar. Nə vaxt ki, kamera açıq olur heç nə baş vermir. Əgər kamera bağlanırsa ana qarışqa həmin dəqiqə yox olur. Qapalı beton kamerada olan ana qarışqa oradan həmin rəngdə kameranın eyni olan bir neçə metr aralı başqa kamerada tapılır[1]. Həmin kamerada ana qarışqa özünü yaxşı hiss edir, yemək yeyir və fasiləsiz yumurta qoyur. Ana qarışqa ciddi dietdə olur, eyni növ yemək yeyir və eyni cür yumurta qoyur.

Belə bir nəzəriyyə var ki, qarışqalar öz kollektiv səyi ilə

---

[1] http://paranormal-news.ru/news/muravi_atta_i_teleportacija/2013-09-04-7620

ana qarışqanı kameranın özü ilə birlikdə teleportasiya edir. Fiziklər bu təcrübəni o qədər də qəbul etmirlər. Lakin 2011-ci ildə Yapon alimləri laboratoriyada işıq axınının fotonlara bölərək bir nöqtədən başqasına aparıblar. Hər halda xırda hissəciklərin teleportasiyası təcrübə yolu ilə təsdiq olunub. Bu faktın həm də təbiətdə baş verməsi haqqında məlumatlar var.

Teleportasiya termini parapsixoloqlar və mistiklər arasında geniş yayılıb. İlk vaxtlarda bu termin predmetin ani surətdə bir nöqtədən digərinə bərk cisim arasından keçməsi kimi ifadə edilirdi. Son illərdə nüvə sahəsi üzrə fiziklər xırda hissəciklərin tunel keçidini ehtimal edirlər. Ani keçid faktının təsdiqi dünyada bütün texnologiyanı dəyişə bilər[1].

Quranın *riyazi möcüzələri* də diqqəti cəlb edir. Onlardan biri 19 rəqəminin ayələrin içində şifrələnmiş bir şəkildə yerləşdirilməsidir. Quranda «onun üstündə on doqquz» vardır («*Müddəsir*», 74/30) ayəsi ilə nəzərləri cəlb edən bu rəqəm Quranın əksər yerində şifrələnmişdir. Məsələn, Bismillah kəlməsi 19 hərfdən ibarətfdir, Quranda 114 (19x6) surə var, ilk vəhy olunan surə (96-cı surə) axırdan 19-cu; 96-cı surənin ilk 5 ayəsidir və bu ayədəki kəlmələrin sayının cəmi 19-dur; vəhy edilən ilk surə («Ələq» surəsi) 19 ayəyə malikdir və özündə 285 hərfi (19x15) ehtiva edir; axırıncı vəhy edilən «Nəsr» surəsi də cəmi 19 kəlmədən ibarətdir; «Nəsr» surəsinin Allahın köməyindən bəhs edən ilk ayəsi də 19 hərfdən ibarətdir; Quranda «Tövbə» surəsində (9) Nəmi surəsinə (27) qədər olan surə nömrələrinə cəmi 342 bu da 19x18 rəqəmidir; Günəş, Ay, Yer hər 19 ildən bir eyni nöqtədə cərgə ilə düzülürlər; insan bədənində 209 (19x11) sümük var. Əldəki sümüklərin sayı da 19-dur və s. Quranda işlədilən

---

[1] http://www.dsnews.ua/future/teleportatsiya-cheloveka-stanet-obydennostyu-k-2080-godu-31102014104500

mütənasib ifadələrdə də uyğunluq var. Məsələn, «ay» sözü Quranda 12 dəfə; «gün» sözü «365» dəfə; «günlər» və «2 gün» sözləri 30 dəfə, yəni bir ay kimi istifadə edilib.

*Gələcək barədə «Yunus» 10/91-92, «Fəth»- 48/27, «İsra», 17/76, «Rəhman», 55/33, «Nəhl», 16/8; «Ənbiya», 21/81, «Səba» 34/2, «Nəml» 27/40 və b.* ayələrdə göstərilmiş və bu göstəricilər zaman kəsiyində təsdiq edilmişdir.

İslam dini inkişaf etmiş *monoteist dinlərin üçüncüsü və axırıncısıdır.* İslam yalnız ərəblərdə yox, yaxın bir regionun bütün xalqlarında, o cümlədən iranlıların, türklərin, hindistanlıların, Orta Asiya, Qafqaz, Bolqarıstan, Balkan, Afrika əhalisinin tarixində və mədəniyyətində böyük rol oynamışdır[1].

*Həzrəti Məhəmməd (s) VII əsrdə, ərəblərə lazım olanı etdi; onları vahid, tam təlim ilə birləşdirdi, gələcək üçün istiqamət verdi[2].* Bu dinin təcrübədə və gündəlik həyatda islamın rolu, yeri və təsiri Asiya və Afrika xalqlarında güclülüyü və quruluşunun dönməz və spesifik xarakterinə görə, mütəxəssislər *«islam dünyası», «islam sivilizasiyası»* anlayışından istifadə edirlər.

Məhəmməd peyğəmbərin (s) ölümündən yüz il keçməmiş müsəlman idarəçiliyi Roma imperiyasının ən möhtəşəm vaxtı malik olduğu torpaqlardan çox ərazi əldə etmişdi. İslam dövləti üç kontinentin: Çin sərhəddindən İspaniya və Cənubi Fransaya qədər 4.85 min mil uzanan ərazini, Makedoniyalı İsgəndərdən sonra Yaxın Şərqi, həmçinin Şimali Afrikanı özündə birləşdirmişdi[3].

---

[1] Васильев Л. С. История религий востока. Учеб. пособие. М.: Высшая школа, 1983, с.99

[2] Там же, с.116

[3] Доктор Рахман. Краткая история ислама (перевод с английского). М., Имман, 2006, с.4

## 9.1.1. Su möcüzəsi

*• Su ağıllı və valehedicidir. Hər şey sudan yaranır, hər şey suda baş verir və ona qayıdır.*

***Fales***

*• İnsanların fikir və emosiyalarına reaksiya verən, insan bədəninin 2/3-sini təşkil edən ən möcüzəli element sudur. Su həyatdır.*

*Su həyatdır, su – sirli aləmdir, onun dərinliklərinə baş vurub, sirrlərinin bəzilərini öyrənmək mümkündür.* Bu gün elmi araşdırmalar göstərir ki, Quranda göstərildiyi kimi, yer üzünün üçdə iki həssəsi, insan bədəninin yetmiş faizdən çoxu sudur. Quranda 13 dəfə «Torpaq» kəlməsi, 32 dəfə «dəniz» kəlməsi təkrar edilir. Bu ikisini toplayıb (32+13=45), faizlərinə baxsaq 71,1% su, 28.8% torpaq təşkil edir. Yer kürəsinin suyunun faiz dərəcəsi 71.11%, qurunun faiz dərəcəsi isə 28.885-dir, yəni 3/2-si su, 1/3-i qurudur, insan bədəninin 2/3-i sudur. İnsanda yüksək temperatur olanda, suyu isladıb onun alnına qoyurlar, yüksək təzyiq olanda ayağı isti suya salmaq məsləhət görülür.

Bütün qədim insan məskənləri, müasir şəhərlər su olan sahədə salınıb. Təbiəti susuz təssəvvür etmək mümkün deyil. Kənd təsərüfatı suvarma sistemləri qurulan yerdə (məsələn Şumerlərdə, Qədim Misirdə və s.) güclü inkişaf etmişdir. Su damlası qranit qayanı dağıdır.

Məlumdur ki orqanizm hüceyrəli quruluşdan ibarətdir. Hüceyrələr, o cümlədən neyronlar hüceyrənin mexaniki möhkəmliyini, qidalanmasını və nəfəs almasını təmin edən hüceyrələr arası maddədə yerləşirlər. Onlar öz ölçüsünə, formasına və funksiyalarına görə müxtəlif olmaqla, ümumi əlamət və quruluşa malikdir. Hər bir hüceyrənin əsas hissəsi

sitoplazma və nüvədən ibarətdir. Hüceyrənin tərkibinə qeyri-üzvi kimyəvi (su və mineral duzlar) və üzvi kimyəvi (zülallar, piylər, karbohidratlar, turşular və s.) birləşmələr daxildir. *Hüceyrənin tərkibində ən çox sudur (80 %), əsəb hüceyrələrində (neyronlarda) isə su daha çoxdur (86 %).*

Su yaxşı həlledici olmaqla, çox funksiyalı kimyəvi maddədir. Su məhlulunda müxtəlif maddələrin kimyəvi qarşılıqlı təsiri baş verir. *Su icraedici, yadda saxlama, informasiyanı qəbul etmək, orqanlara icraedici təsir və s. funksiyalara malik olmaqla, həmçinin reaksiya zamanı hüceyrədən çıxan maddələri ordan kənar etməyə kömək edir.* Xüsusilə qeyd etmək lazımdır ki, su ən sirli məhlul olmaqla, orqanizmin bütün fəaliyyətində həlledici rol oynayır. Su onu əhatə edən *insanların fikir və emosiyalarına, cəmiyyətdə baş verən hadisələrə reaksiya verir.* Su neyrona bioloji kompyuter keyfiyyəti verir. Suyun molekulları hidrogen əlaqələri ilə birləşərək iri boşluqlu gözəl klassik struktura malik polimer əmələ gətirir və bu struktura xarici təsirlərin nəticəsində formasını dəyişdiyinə görə istənilən informasiyanı yadında saxlaya bilir.

Suyun yaddaşının olmasını Yapon doktoru *Emota* uzun illər (15 il) apardığı çoxsaylı təcrübələrin nəticəsində sübut etmişdir[1]. Su polimer strukturasının kənar çıxıntılarında müsbət (hidrogenin) mənfi (oksigenin) yüklərinin olması, onu rəqəmli hesablama maşını kimi təhlil etməyə imkan verir. Əgər insan bədənində olan orqanların (qaraciyərin, mədəaltı vəzin və s.) 50%-ə qədərini kəsib götürsələr, orqanizm öz fəaliyyətini davam etdirər. Lakin orqanizmdə olan suyun 30%-i kənar edilsə, bu ölümlə nəticələnər. Buna görə də de-

[1] Рзаев Аб. Г., Расулов С. Р. Информационная основа биологического нейрона. Вестник Азербайджанской Инженерной Академии. vol. 7/1/2015, c. 160

yirlər ki, orqanizmin həyat fəaliyyətinin əsas komponenti sudur. *Susuz həyat yoxdur.*

Emota apardığı təcrübələr nəticəsində müəyyən etmişdir ki, *suya yaxşı söz dedikdə* (sən nə gözəlsən, sən nə dadlısan) nə baş verir? Bu suyu 50 paralel qablara töküb soyuducuda dondurub və mənfi dörd dərəcə temperaturda (buz əriməyə başlayanda) bu qabların içərisində olan donmuş suyun şəkillərini çəkmişdir. Bu şəkildə *altı guşəli gözəl bir fiqur əmələ gəlmişdir.* Suya pis söz deyərək (sən iylənirsən, səni içmək olmur) sonra isə həmin proseduru təkrar etmişdir. Nəticədə söz suyun xoşuna gəlmədiyindən eybəcər bir fiqur *əmələ gəlmişdir*. Bundan başqa, *suyun yazını oxuya bilməsi* məsələsini də öyrənmişdir. Bunun üçün o, iki butulkanın içərilərini eyni tərkibli su ilə doldurmuş: butulkanın birinin üstünə yaxşı söz, digərinə isə *pis söz yazıb* onlara yapışdırmışdır. Yuxarıda göstərilən proseduru təkrar edərkən *yaxşı söz* yazılı butulkadakı suyun əmələ gətirdiyi fiqur *çox gözəl, pis söz yazılmışda isə eybəcər bir fiqur əmələ gəlmişdir.* Bu, bir daha suyun təbiətdə ən böyük fenomen olmasını, yəni İlahi tərəfindən yaradılmasını təsdiq edir[1].

Emota apardığı çoxlu sayda təcrübələr nəticəsində belə bir qənaətə gəlmişdir: «Allah deyir ki, mən suya hər şeyi yazmışam (indiki vəziyyəti, gələcək inkişafı və s.) hünər tapıb onu oxumaq lazımdır. Məhz buna görə də Nostradamus bəzi hallarda suya baxaraq gələcəyi proqnoz edə bilirdi.

Quranda insanın sudan yaradılması belə göstərilir: *«Allah hər canlını bir sudan yaratmışdır. Onların bəziləri qarnı üstə sürünür, bəziləri iki, bəziləri isə dörd ayaq üstündə gəzir.*

---

[1] Рзаев Аб. Г., Расулов С. Р. Информационная основа биологического нейрона. Вестник Азербайджанской Инженерной Академии. вол. 7/1/2015, с.127-128

*Allah istədiyini yeridir. Həqiqətən Allah hər şeyə qadirdir» («Furqan», 25/54); «Məgər inkar edənlər göylə yer bitişik ikən, bizim onları ayırdığımızı, hər bir canlını suda yaradan, onları əsl qohum və sonradan qohum edən odur. Rəbbin qadiridir» («Furqan», 25/54).*

İnsanın sudan yaradılması həqiqəti yalnız mikroskop icad olunandan sonra aydın olmuşdur. Hələ qədim dövrün ilk yunan filosofları, şərq elmini Avropaya gətirən yeddi yunan müdriklərindən biri Fales hər şeyin sudan yaranmasını və suya çevrilməsi nəzəriyyəsini irəli sürmüşdür. Falesə görə, hər şey sudan yaranır, hər şey suda baş verir və ona qayıdır. Bütün elementlərin, şeylərin mahiyyətinin başlanğıcı sudur. Kainatın başlanğıcı və sonu sudur. Hər şey suyun bərkiməsindən (donmasından), həmçinin onun buxarlanmasından yaranır. Suyun sıxılması zamanı torpaq yaranır, buxarlanmada hava yaranır. Yaranmanın hərəkət səbəbi suda yaranmış ruhdur. Falesdə su Hamerin okeanını, Şumer-akkad Arsu (Şumer əfsanəsində - yeri əhatə edən dünya okeanı) başqa cür mənalandırılır. Onun fikrincə, yer gəmi kimi sıxılmış okeanda üzür, onda çaylar – gəminin dibində axını, zəlzələ isə gəminin yellənməsidir.

## 9.2. Həzrəti Məhəmmədin (s) elm və davranışla bağlı kəlamları

*• Alimləri eşidin, çünki onlar dünyanın çırağı, axirətin nurudur.*

*• Elmi beşikdən qəbrə kimi öyrənin.*

*• Elm Çində olsa belə ardınca gedin.*

*• Mənim ümmətimdən hər bir ağıl sahibinə bu dörd şey vacibdir: elmi dinləmək, onu öyrənmək, yaymaq, ona əməl etmək.*

***Hz Məhəmməd (s)***

Allaha inam gətirən bir cəmiyyət meydana gətirməsini qarşısına məqsəd qoyan Hz. Məhəmməd (s) elm və təhsilə böyük əhəmiyyət vermişdir. Qurani-Kərimdə Peyğəmbər (s) ilahi təbliğ vəzifəsinin təhsildən ibarət olduğunu bildirirdi. Quranda belə yazılmışdır: *«Kitab və hikmət öyrədən bir peyğəmbər göndərməklə Allah mömünlərə böyük bir lütf göstərmişdir».* Hz. Peyğəmbər (s) bir hədisində öz vəzifəsinin mahiyyətini belə açıqlamışdır: *«Allah məni bir müəllim olaraq göndərmişdir».* Hz. Peyğəmbər (s) Məkkə dövründə özünə vəhy edilən ayələrin yazılmasına və bu surətlərin qorunmasına böyük əhəmiyyət vermişdir.

Quran ayələrinə nəzər saldıqda, məlum olur ki, İslam Peyğəmbəri (s) Allah dərgahına hamıdan yaxın olmuşdur.

Hicrətdən sonra Mədinədə Hz. Peyğəmbərin (s) ilk və əhəmiyyətli fəaliyyətlərindən biri, bir ibadət yerinin yanında, eyni zamanda *təhsil mərkəzi olan* Məscidi-Nəbəvini tikmək olmuşdur. Məscidin bitişik «*Süffə*» deyilən məkanda olan bəzi səhabələr, Quran və yazı öyrənməklə məşğul olurdular. Hz. Peyğəmbər (s) burada *şəxsən dərs verməklə yanaşı, quran və yazı öyrətmək üzrə müəllimlər də təyin edirdi.* Hz. Peyğəmbər Məscidi-Nəbəviyyəyə elm öyrətmək üçün gələn-

ləri Allah yolunda mücadilə edənlərlə bir tuturdu.

*Elmə yiyələnmək, biliklər əldə etmək, düşünüb-danışmaq çağırışı həm Qurani-Kərimin bir çox ayələrində buyurulmuş, həm də peyğəmbərimiz Hz. Məhəmmədin (s) hədislərində nəql edilmişdir.*

Məhəmməd Peyğəmbər (s) deyirdi: Bu həyat dörd kateqoriya insanlara məxsusdur:

*Birincilər* – o insanlardır ki, Allah onlara həm var-dövlət, həm də bilik verib (onlar əmək sərf etməklə, səy göstərməklə müdrikliyə və həyat təcrübəsinə çatıb); onlar möminlik göstərir, həmçinin qohumluq əlaqələrini möhkəmləndirir və Allah qarşısında öz vəzifələrini yaddan çıxarmır. Onların vəziyyəti (Allah və cəmiyyət qarşısında vəziyyəti) daha yaxşıdır;

*İkincilər* – onlardır ki, Allah onlara savad, elm və ümumiyyətlə həyat haqqında fundamental bilik verib, lakin maddi rifah verməyib. Bununla belə, onlar öz niyyətlərində düzdürlər və deyirlər: «məndə rifah olsaydı, birinci kateqoriyada olduğu kimi, iltifat göstərərdim. Onların niyyətləri ilahi qarşısında nəzərə alınacaq;

*Üçüncülər* – onlardır ki, Allah onlara var-dövlət verib, lakin bilik verməyib. Onlar lazımınca fikirləşmədən (düşüncəsizcə) sərvətini israf edir (əyləncəyə, günah işlərə), möminlik göstərmir (qəbahətli və alçaq, əxlaqsız əməllər edirlər, həmçinin zərərli vərdişlər onlar üçün adi şeyə çevrilib), onlar qohumluq münasibətlərini möhkəmlətmir və Allah qarşısında öz vəzifələrini yaddan çıxarırlar.

*Dördüncü* kateqoriya – onlar nə varlı, nə də ağıllı olurlar (əmək sərf etmirlər, lazım olanda güc və səbr göstərmirlər, Allahın xeyir-duasını almırlar). Onlar düşünürlər ki, «əgər məndə maddi rifah olsaydı, üçüncü qrupun etdiyini (qəbahətli işləri, alçaq hərəkətlər, zərərli vərdişləri) edərdim». Bu kateqoriyanın

niyyətləri (Allah qarşısında) – günahları eynidir[1].

Hz Məhəmməd (s) buyurmuşdur: *kim elm axtarmağın yolu ilə getsə, Allah onu cənnətə aparar. Həqiqətən mələklər qanadlarını elm əhlindən razılıq əlaməti olaraq yerə sərərlər. Alimin abidə üstünlüyü on dördüncü gecədə ayın ulduzlardan üstünlüyü kimidir. Həqiqətən alimlər peyğəmbərlərin varisləridir.*

Peyğəmbər (s) deyirdi «Elm iki cürdür: ürəkdə olan elm, bu elm faydalı elmdir. Dildə olan elm, bu elm Allahın bəndələrinə höcətidir».

Allah-Təala Adəm peyğəmbərə vəhy etdi: *«Mən elmi sənin üçün dörd kəlmədə cəm etmişəm: birisi özümlə bağlıdır; biri sənə aiddir; başqa birisi ikimizə, sonuncusu isə səninlə camaata. Mənə aid olan budur ki, mənə ibadət edəsən və heç bir şeyi mənə şərik qoşmayasan. Sənə aid olan odur ki, Sənin əməlinin və rəftarının əvəzinə sənə verəcəyim mükafat sənin ən çox ona ehtiyacın olan şeydir. İkimizlə bağlı olan mətləb odur ki, sənin vəzifən dua etmək və məndən istəmək, mənim vəzifəm qəbul etməkdir. Sənin ilə camaat arasında olan budur ki, camaat üçün yalnız özünə məsləhət gördüyünü rəva biləsən[2].*

Ömrünün 23 ilini xalqa peyğəmbərlik edən, yəni Allah-Təalanın bəndələrə göndərdiyi hökmləri və sifarişləri onlara yetirən, həm də müsəlmanların müdrik rəhbəri və məsləhətçisi olmuş *Hz. Peyğəmbər (s)* nəsihətində demişdir: *«Mənim ölümümdən sonra bütün sonrakı əsrlərdən dünyanın sonuna kimi çoxlu ixtilafların şahidi olacaqsınız». Miliyonların, milyardların, bütün bəşəriyyətin vahid fikrə gələ bilməsi çətin olacaq. Sizin vəzifəniz – bu mənim sünnəm (yol, istiqamət, mə-*

---

[1] Шамиль Аляутдинов. Высказывания Пророка Мухаммеда. Второе изд, пер. Москва Санкт – Петербург СПб: «Диля» – 2015, 130-132

[2] Peyğəmbərlərdən (s) 40 hədis və peyğəmbərə (s) 40 sual. Beytül Əhzan, 2007, s.31

*nim dürüst dediklərim və nəsihətlərim sizin birliyinizə, həyatda birgə gedişinizə kömək edəcək) və məndən sonra mömin xəlifələrin sünnəsi olacaq. Sünnəyə nə qədər mümkünsə əməl edin; möhkəm dayanın və aşağı düşməyin. Bununla yanaşı dində yeniliklərdən özünüzü qoruyun. Dində hər hansı yenilik yox (müsəlman dininin əsaslarına və ya dini praktikasına zidd olan və dini qaydalara aşkar şəkildə ziddiyyətli çıxış edən yenilik də yox) – düz yolla getməyi göstərən qəbul olunandı* [1].

*Hz. Peyğəmbərin (s) müqəddəs kəlamları və hədisləri daha zəngin, çoxsahəli və əhəmiyyətlidir.* Onlardan elmlə bağlı aşağıdakı kəlamlarını göstərmək olar: *Camaatın ən dəyərlisi – onların ən biliklisi, ən dəyərsizi isə – onların ən nadanıdır;*

*Peyğəmbər (s) cahilin (nadanın) əlamətlərini belə xarakterizə edir. Cahillə oturub-dursan, səni incidər. Ondan ayrı dolansan, sənə söyüş verər. Sənə bir şey verəndə minnət qoyar, ona bir şey versən, nankorluq edər; sirrinə xəyanət edər, sirrini sənə desə «sən onu ifşa edibsən», deyə sənə töhmət vurar, var-dövlətli olsa, məğrurluq edər, varı olmasa, Allahın nemətini inkar edər və özü üçün heç bir şeyi günah bilməz; fərəhlənsə, israf edər və həddini aşar, kədərləndikdə ümidini hər şeydən kəsər, gülsə, qəhqəhə çəkər, ağlayanda nalə edər; qohumlarına hörmət etməz, Allahı sevməz. Ondan qorxmaz, utanmaz, Onu yad etməz. Onu razı salsan, səni tərif edər və yalandan bəzi yaxşılıqları sənə qoşar. Sənə qəzəblənsə, bütün tərifləri yadından çıxarar və yaramaz sözləri sənə deyər*[2].

Hər bir yaxşılığın mənşəyi elmdir; əgər bir şəxs elmi olmadan hansı bir işə əl vursa, onu islah etmək əvəzinə xarab

[1] Шамиль Аляутдинов. Высказывания Пророка Мухаммеда. Второе изд, пер. Москва Санкт – Петербург СПб: «Диля» – 2015,с.197

[2] Peyğəmbərlərdən (s) 40 hədis və peyğəmbərə (s) 40 sual. Beytül Əhzan, 2007, s.26

edər; Allahdan öz bəndələri içərisində ancaq alimlər qorxar (onlar elm sahibi olduqları üçün, Allahın vəhdaniyyətini, heybət və əzəmətini daha yaxşı başa düşür və ondan daha çox qorxurlar); elmin fəziləti ibadətin fəzilətindən əfzəldir; bir saat elm öyrənmək altmış illik ibadətdən xeyirlidir; uşaqlıqda öyrənilən elm daş üstündə yazıya bənzər; iki şəxs doymaq bilməz, elm təşnəsi və dünyanın hərisi; həqiqətən alimlər peyğəmbərlərin varisləridirlər. Çünki, peyğəmbərlər dinar, dirhəm irs qoymurlar, onların irsi elmdir. Kim ondan bəhrələnsə, çoxlu nəsib əldə etmiş olar.

Məhəmməd peyğəmbərin (s) kəlamlarında, Quranda *insan əxlaqına, davranışlarına* və s. aid çoxlu tövsiyələr var[1]. Onlardan: «üç şey insanı həlak edər: arzu və həvəsə uymaq, tamahın əsiri olmaq; insanın özünü bəyənməsi, başqalarından yüksəkdə görməsi; çəkinin tamahkarlıqdan, çünki tamahkarlıq, acgözlük daima yoxsulluq əlamətidir; ehtiyaclarınızı ödəməyə çalışarkən özünüzü alçatmayın, şərəfinizi qoruyun; çalışın bir işdən yapışın, kim hansı işə layiqdirsə, o işdən yapışmalıdır; insanlar içərisində iki qrup adam var: alimlər və buyruq verənlər, bunlar düzgün olsa, bütün insanlar düzələr, bunlar pozulsa, bütün xalq pozular; zənginlik mal-mülkün çoxluğu ilə ölçülə bilməz, əsl zənginlik könül zənginliyidir; böyüklük pislikdən çəkinməkdir, ucalıq könül xoşluğunda, zənginlik isə düzlükdə, inamdadır; tanrı sənə necə nemət veribsə, sən də nəfsini o nemətə sal; *«Xalqa başçılıq edənin itaətində olanlarla alış verişə girməsi onun öz işinixəyanət etməsi deməkdir».*

«Çalış düzgün (özün üçün xeyirlisini), beşdən beşə qədərdən istifadə edəsən: 1) *həyatdan* (nə vaxt ki, sənin) artıq

---

[1] Qüdrətov O., Qüdrətov N. Məhəmməd peyğəmbərin (s) həyatı və kəlamları. B, 1990, s. 109-169

imkanların var və tanrı sovqatı ilə əhatə olunmusan *ölənə qədər* (nə vaxt ruh bədəndən çıxır və daha sən bu həyata heç vaxt qayıtmayacaqsan); 2) *sağlamlıqdan* (nə vaxt ki, sən işıq saçırsan və dağı yerindən oynatmağa qadirsən) *xəstəlik* başlayana qədər (nə vaxt sənin gücün tükənib, ağrıdan inildəyirsən,heç bir dünyəvi gözəlliyi arzulamırsan, hər şeyə marağını itirirsən); 3) boş vaxtlarından 4) gəncliyindən; 5) var-dövlətindən [1].

Hz. Peyğəmbər (s) demişdir: *1) səhər tezdən yollanın: ya işi bilməklə (hər şeyi qabaqcadan planlaşdırmaqla necə və nə vaxt nə etməyi bilirsən və səhər tezdən həlledici hərəkətə başlayırsan, yaxud yeni bilik əldə etmək niyyəti ilə, yeni təcrübə qazanmaq yaxud dinləməklə (bütün əhəmiyyətliləri diqqətlə dinləməklə yaxud 2) həyatı sevməklə (nə ilə məşğul olursansa, səni əhatə edən həyatı sevməklə)[2].* Həzrəti Məhəmməd (s) demişdir: *Allah dörd kateqoriya insanı xoşlamaz: 1) tez-tez Allaha and içən, insanların dini hissiyatı ilə oynamağa səy göstərən ticarətçilər; 2) təkəbbürlü (lovğa, dikbaş) yoxsul, 3) zinakarlıq edən şeyx; 4) rəhbər tiran (istənilən səviyyə və dərəcədə)[3].*

Hz. Peyğəmbər (s) son nəsihətində demişdir: *«Allah qarşısında təvazökar olun! Kim Allah qarşısında təvazökardırsa, qoy o: 1) onda olanlara (nə oxumasına, nəyə baxmasına, nə eşitməsinə, ən əsası nə fikirləşməsinə) fikir versin; 2) qarnınızı (mədənizi) qoruyun, ora nə düşürsə, diqqət yetirin (düzgün və sadə yeməyinizə ciddi fikir verin); 3) qocalmaq və ölüm haqqında düşünün (yaddan çıxarmayın ki, siz qocalacaqsınız,*

---

[1] Шамиль Аляутдинов. Высказывания Пророка Мухаммеда. Второе изд, пер. Москва Санкт – Петербург СПб: «Диля» – 2015, с. 60-61

[2] Там же, с.133

[3] Краткий словарь по социологии. М.: Политиздат, 1989, с.224

*zəifləyib əldən və dəbdən düşəcəksiniz; yaddan çıxarmayın ki, bu həyat müvəqqətidir, çalışın ki, çox xeyirli işlərə nail olasınız*[1].

*Bir elmi öyrənmək istəldikdə sən,*
*Çalış ki, hər şeyi kamil biləsən.*
*Kamil bir palançı olsa da insan,*
*Yaxşıdır yarımçıq papaqçılıqdan.*

***(Nizami Gəncəvi)***

*«Bildiklərinə əməl etməyən alim başqasını geydirdiyi halda özü çılpaq olan iynə kimidir»*(Məhəmməd Qəzali); *«Bir adamdan soruşdular: - barsız alim nəyə bənzər? Dedi:- Balsız arıya»* (Sədi Şirazi). *«Elm öyrənmək heç vaxt gec deyil»* (İbn Sina); *«Elm ağaca bənzər, ürəklərdə kök atır, meyvələri isə ağızdan çıxır»* (Samuil Sans Tilden); *«Elmlə gedilməyən yolun sonu qaranlıqdır»* (Hacı Bəktaş Vəli);

[1] Шамиль Аляутдинов. Высказывания Пророка Мухаммеда. Второе изд, пер. Москва Санкт – Петербург СПб: «Диля» – 2015, с. 217

## 9.3. Həzrət Əli – İslamda ən parlaq sima

• *Mən elmin şəhəri, Əli isə onun qapısıdır.*

***Hz. Peyğəmbər (s)***

• *Bir gün peyğəmbər (s) Əliyə buyurdu: Səndə Məryəmin oğlu İsaya bənzərlik var, səni yalnız münafiq sevməz;*

• *Peyğəmbər (s) bir məclisdə buyurdu: «əgər Adəmin və Nuhun əzmkarlığını, İbrahimin əxlaqını, Musanın münacatını, İsanın zahidliyini, Məhəmmədin rəhbərliyini və elmini görmək istəyirsinizsə, gələn adama baxın... «Hamı dönüb baxdı. Bu vaxt Həzrət Əlinin (ə) gəldiyini gördülər.*

• *«Hər qab içinə bir şey qoyduqca, daralır, amma elmi qab istisnadır. O, elm qoyduqca genişlənir.*

***Həzrət Əli (ə.s.)***

İmam Əli haqqında kitablar yazılmış, onun şəxsiyyəti, elmi görüşləri, dövlətçilik haqqında fikirləri barəsində yetərli araşdırmalar aparılmışdır.

Xristian məzhəbli Livanlı yazıçı və dramaturq Corc Cardaq Həzrət Əli haqqında belə yazır: *«Varlıq aləminin yüksəliş etməyə başladığı və zamanın qovuşduğu gün bu məmləkət dünyaya bütün qeyd etdiklərimizdən daha böyük və daha uca bir varlıq ərməğan etdi. Həmin gün Nira mağarasının sakini Məhəmməd İbn Abdullahda təcəlla edib, xeyirxahların seçilmişi və sərvəri, böyük inqilabçı Əli İbn əbu Talibdə ədalətlilik qazanmaq eşqilə bütün bulaqlar duruldu, həyatın ali dəyərlərinə aydınlıq gəldi, varlıq aləminin mövcudluq sirri insanların kamillik mərhələsində təzahür etdi, xeyirxahlıq coşqusu, həqiqə-*

*tin aliliyi, elm və hikmət ünsürləri möhkəmləndi, aşkar oldu»[1].*

Həzrət Əlinin dünyaya müsəlmanların qibləsi olmuş Kəbədə göz açmaqla qazandığı iftixar nə keçmişdə kimsəyə nəsib olub, nə də gələcəkdə nəsib olasıdır. İmam Əlinin anası Fatimə uşağın Kəbədə doğulmasını belə nəql edirdi: İmran qızı Məryəmi beytül-müqəddəsdə doğuş sancısı tutduqda ona nida gəlir ki, bayıra çıxsın, ibadətgahda doğuş olmaz. Mən isə Allahın evinə daxil oldum, behişt meyvələrindən yedim, bayıra çıxmaq istədikdə nida gəldi ki, ey Fatimə, onun adını «Əli» qoy. Nida gəldi ki, «Əliyyül – Əla» – Allah buyurur: mən ona öz adımdan götürdüyüm ad qoydum, onu öz ədəbimlə tərbiyə etdim, ona gizli elmlərdən agahlıq verdim[2].

İlahi dinlərin mənbələrindən məlum olub ki, Hz. Əlinin zühuru və son peyğəmbərin canisini olması məsələsi əvvəlcədən xəbər və müjdə verilmiş məsələlərdəndir[3].

Həzrət Əli uşaqlıq dövründə, başqa uşaqlar kimi, *uşaq oyunları dalınca getməmiş, o dövrdən başlayaraq ali düşüncələrdə qərq olmuş, əməl və rəftarında mənəvi bir təkamül, ilahi əzəmətin bir nümunəsi müşahidə edilmişdir.*

Həzrət Əli Hz. Peyğəmbərin (s) kamil tərbiyə etdiyi yeganə varlıqdır. İmam Əli dünyaya gəldikdən sonra uşaqlıq dövründə Peyğəmbərin qucağında böyüyüb, onun əlindən yemək alıb yeyib və həyatının son anlarına kimi onun yanında olmayır. Sonra o, atasının yanına qayıtsa da, bu qayıdış onun Peyğəmbərlə ünsiyyətinə mane olmamışdır. Həzrət Əli

---

[1] Corc Cordaq. İmam Əli. Farscadan tərcümə Famil Şirvanov. Bakı: Qanun, 2014, s. 11

[2] Fəzullah Kompanı. Əli kimdir? Tərcümə edən Məhəmməd Turan . Bakı, 2005, s.7

[3] Nəhcül- Bəlağə. İmam Əli əleyhis-səlamın xütbə, məktub və hikmətli kəlamları (tərcümə və şərh) üçüncü nəşr B., İİB, Mədəniyyət Mərkəzi 2009, c. XII

vaxtının çoxunu Peyğəmbərin yanında keçirmişdir. Peyğəmbər (s) də qəlbində toplanmış Əbu-Talib məhəbbətini Əlinin qəlbində əks etdirmiş, onun tərbiyəsini öz əxlaqi fəzilətləri üzərində qurmuşdur. İslam tarixinə nəzər yetirsək aydın görərik ki, hər bir şəxsiyyətin həyat və fəaliyyəti Hz. Peyğəmbər Hz. Əli qədər yaxın və doğma olmuşdur. Bu yaxınlıq və doğmalıq o dərəcədədir ki, onlar bir birindən ayrılmayan bütövlük, vəhdət yaratmışdır. Həmin ilkin təlim-tərbiyə nəticəsində Həzrət Əli Peyğəmbərin (s) ilahi dəvətlərini hamıdan qabaq qəbul etmiş və ömrünün sonunadək haqq və həqiqət yolunda fədakarlığa hazır olmuşdur[1].

Həzrət Əli İlahi bir məktəbdə tərbiyə almış, Peyğəmbər (s) kimi bir mürəbbi və müəllimin şagird və tələbəsi olmuşdur. Hz. Əli Qurani-Kərimə dair bilikləri bilavasitə peyğəmbərin (s) özündən almış, ona ən yaxın adam olmuş, onun işlərində yaxından iştirak etmiş, davranış və hərəkətlərinin şahidi olmuşdur. O, Peyğəmbəri (s) daim izləmiş, birbaşa onun tərbiyəsi altında ərsəyə çatmış, Peyğəmbərin (s) əqidə və adətləri ardınca getmiş və qısa müddətdə onun bütün hərəkətlərini, əxlaqını və adətlərini əxz etmişdir. Peyğəmbərə (s) Allah tərəfindən verilmiş Lədunni bilikləri İmam Əliyə əxz etdirmişdir.

Peyğəmbər (s) Həzrəti Əliyə buyurdu: *«Ey Əli! Altı yüz min qoyun istəyirsən, yoxsa altı yüz min dinar, yaxud altı yüz min söz (öyüd)?!» Əli cavabında, «Ey peyğəmbər, altı yüz min söz istəyirəm», - dedi. Peyğəmbər (s) buyurdu: Ya Əli, altı yüz min sözü altı cümlədə toplayır və sənə deyirəm: 1)İnsanların müstəhaq işlərlə məşğul olduqlarını görəndə, sən vacibatları kamil etməyə çalış; 2) insanların dünya işləri ilə məşğul ol-*

---
[1] Fəzullah Kompanı. Əli kimdir? Tərcümə edən Məhəmməd Turan . Bakı, 2005, s.11

*duqlarını görəndə, sən axirət işləri ilə məşğul ol; 3) insanların başqalarının eyibləri ilə məşğul olduqlarını görəndə, sən öz eyiblərini gör; 4) görsən ki, insanlar öz dünyalarını bəzəyir, sən öz axirətini zinətləndirməyə çalış; 5) görsən ki, insanlar əməllərinin çox olmasına (kəmiyyətinə) çalışır, sən öz işinin sağlamlığı və təmizliyinə (keyfiyyətinə) çalış; 6)insanların məxluqata sığındığını görsən, sən ancaq Xaliqə və Yaradana sığın*[1].

Həzrət Əlinin malik olduğu imtiyazlardan biri də onun *iti zehniliyi və sürətli təfəkkürü idi. Əksər məqamlarda uzun uzadı düşünmədən və ani improvizasiya ilə fikir söyləməsi Əlinin başqalarında olmayan bir istedada və idrak gücünə malik olduğundan xəbər verirdi. Dərin baxış bucağı, əhatəli ağlı və düşüncəsi, orijinal idrak və düzgün nəticə almaq gücü, konkretləşdirmək və ümumiləşdirmək istedadı, yorulmaz fəaliyyət tələb edən hikmət və fəlsəfə İmam Əliyə xas olan bir elm idi*[2].

İmam Əli ağıl və dərrakəsinə görə yeganə və misilsizdir. Bu səbəbdən də o İslam dininin qütbü, ərəb elmlərinin (ərəb dili, ədəbiyyat) mənbəyi hesab edilir. Müsəlmanlar yunan *filosofları ilə tanış olmazdan, hind, yunan və s. fəlsəfi məktəblərinə aid kitabları ərəb dilinə tərcümə etməzdən əvvəl İmam Əlinin fikirlərinə əsaslanmışdır.*

Həzrəti Əlinin xəlifəlik dövründə bir yunan və bir yəhudi filosofu onun hüzuruna gəlib elmi məsələlər barəsində söhbətlər aparırdılar. Yunan filosofu dedi: - *Bu şəxs Sokrat və Ərəstundan yaxşı bilir. Yəhudi isə belə dedi: «O, fəlsəfənin bütün incəliklərindən xəbərdardır. Əlbəttə ki, hər hansı filoso-*

---

[1] Peyğəmbərlərdən (s) 40 hədis və peyğəmbərə (s) 40 sual. Beytül Əhzan, 2007, s.26-27

[2] Corc Cordaq. İmam Əli. Farscadan tərcümə Famil Şirvanov. Bakı: Qanun, 2014, s. 99

*fu Həzrət Əli ilə müqayisə etmək olmaz. Çünki imamın biliyi, əvvəlcədən qeyd olunduğu kimi, lədunni, qeybi bilikdir*[1]*. Şeyxül İslam Allahşükür Paşazadə «Nəhcül bəlağə» kitabının 3-cü buraxılışında yazır: Həqiqətən də İmam Əli Əleyhisalamın şəxsiyyəti heç vaxt bəşəriyyətin seçilmiş və dahi şəxsiyyətləri ilə müqayisə edilməməlidir. Bu parlaq sima və nurlu günəş ancaq bəşər tarixinin müqəddəsləri, peyğəmbərləri və övlüyaları ilə müqayisə edilməlidir*[2]*.*

Corc Cordaqın ingilis, fars, urdu və s. dillərə tərcümə olunmuş «*Əli və İnsan hüquqları*», «*Əli və Fransa inqilabı*», «*Əli və Sokrat*», «*Əli və yaşadığı mühit*», «*Əli və ərəb eposu*» kitablarında İmam Əlinin elmi və fəlsəfi baxışları əks olunmuşdur. İslamda mühakimənin mənbəyi hesab edilən fiqh və şəriəti hamıdan yaxşı bildiyi üçün Əli dövrünün ən üstün alimi olmuşdur.

Peyğəmbərimiz (s) demişdir: *«Mən elmin şəhəri, Əli isə onun qapısıdır». Peyğəmbərin (s) bir gün «Mühakimədə Əli hamımızdan üstündür, sizin ən üstün mühakimə edəniniz Əlidir», - deyə vurğuladığını bütün səhabələr etiraf edir.* Hz. Peyğəmbər (s) qızı Fatiməyə buyurur: *«Səni elə bir insanla evləndirirəm ki, imanı hamıdan güclü, həlimliyi hamıdan əzəmətli və elmdə hamıdan üstündür».*

Bir gün Peyğəmbər (s) Əliyə buyurdu: *Səndə Məryəm oğlu İsaya bənzərlik var, səni yalnız münafiq sevməz. Peyğəmbər (s) bir gün səhabələrini topladığı bir məclisdə buyurdu: «Əgər Adəmin elmini, Nuhun əzmkarlığını, İbrahimin əxlaqını,*

---

[1] Fəzullah Kompanı. Əli kimdir? Tərcümə edən Məhəmməd Turan . Bakı, 2005, s.161

[2] Nəhcül-Bəlağə. İmam Əli əleyhis-səlamın xütbə, мəktub və hikmətli kəlamları (tərcümə və şərh) üçüncü nəşr. B., İİB, Mədəniyyət Mərkəzi 2009, c. XIV

*Musanın minacatını, İsanın zahidliyini, Məhəmmədin rəhbərliyini və elmini görmək istəyirsinizsə, gələn adama baxın...». Hamı dönüb baxdı. Bu vaxt Həzrət Əlinin gəldiyini gördülər*[1]*. Həzrəti Peyğəmbər (s) buyurmuşdu. «Elm və hikmət on hissəyə bölünmüşdür». Onun doqquzu Əliyə, biri isə qalan xalqa əta olunmuşdur*[2]*.*

İslam mədəniyyətində Həzrət Əlinin özünəməxsus yeri vardır. Belə ki, o, *islamda müdriklik, dürüstlük, igidlik, hörmət və s. rəmzidir. Xüsusən təsəvvürdə Əli təfsir, fiqh və dini fikir sahələrində ən yüksək şəxs hesab olunur ki, Peyğəmbər (s) nəslinin davamçısı kimi qəbul edilir. İmam Əli dünya və həyat, bəşəriyyət, təkallahlığın sirləri, ilahiyyat və metafizikanı öyrənməsi məsələləri ilə bağlı çoxlu fikirlər ifadə etmişdir.*

Həzrət Əli islamda *ilahi fəlsəfə məsələləri açıqlayan ilk şəxsdir.* O, aydın və dərin dəlillərlə müxtəlif mövzuları sübuta yetirmiş, o dövr filosoflarının xəbərsiz olduğu bir çox məsələləri izah etmişdir. O, ən çətin məsələlərin cavablarını dərhal verər, ali hikmətli sadə sözlərlə bəyan edərdi. Həzrət Əli ən çətin riyazi sualları dərhal cavablandırardı. Bir dəfə ondan birdən onadək ədədlərin ən kiçik ortaq bölünəni haqqında soruşurlar. Həzrət Əli belə cavab verir. «*Həftə günlərinin sayını (7) ilin günlərinin sayına (360), vur istədiyin rəqəmi (2520) əldə et*». O rəqəm birdən onadək bütün ədədlərə bölünən ən kiçik rəqəmdir[3].

Həzrət Əlinin iti ağlı elm sahiblərini heyran edirdi. *Xəlifə Ömər* deyirdi: *«Ya Əli, Sənin bütün elmi, hüquqi, fiqhi məsələlə-*

---

[1] Corc Cordaq. İmam Əli. Farscadan tərcümə Famil Şirvanov. Bakı: Qanun, 2014, s. 51

[2] Fəzullah Kompanı. Əli kimdir? Tərcümə edən Məhəmməd Turan . Bakı, 2005, s.159

[3] Yenə orada, s.162

*ri bilməyin məndə təəccüb doğurur. Sənin bütün məsələlərlə bağlı suallara dərhal cavab verməyin heyran edicidir.* Sünnə əhlinin böyük alimi Əbil-Hədid Həzrət Əlinin *«Nəhcül - Bəlağə»* kitabını şəhr edərək deyir: *«İslam elmləri külli şəkildə Əlidən qaynaqlanmışdır. O, islam maarifini öz nitqlərində aşkar və dəqiq şəkildə bəyan etmişdir»*[1].

Sünni məzhəbli hədis elminin mütəxəsisi Əhməd Nəsavi İmam Əli barəsində yazılmış «*xüsusiyyətlər*» adlanan ən qədim əhli-sünnə mənbə kitabında İmam Əli haqqında belə yazır: *«Həzrət Əli elə şəxsiyyətlərdəndir ki, onu bütün İslam məzhəbləri sevir və böyük ehtiram göstərirlər. Həzrət Əli elə bir dini, tarixi və siyasi şəxsiyyətdir ki, onun sevgisinin vacibliyini bütün həqiqi İslam məzhəbləri və alimləri qəbul edirlər.* Belə ki, onun barəsində bir çox Quran ayələri nazil olunmuşdur. Peyğəmbərin (s) kürəkəni, həm də əmisi oğlu olan Həzrət Əli, eyni zamanda, Allah rəsulunun (s) məsumu olan Əhli-beytindəndir. Onun barəsində çoxlu sayda mədhlə dolu hədislər rəvayət edilmişdir. Bu səbəbdən Həzrət Əli bütün məzhəblərin sevimlisinə çevrilmişdir[2]. Həqiqətdir ki, Hz. Əli hər kəsdən irəlidədir və hamı ondan geridir. Çünki onun sözlərində ilahi elmin izi və peyğəmbərlərin ətri yayılır.

*Həsən Səftar, «Nəhcül-Bəlağədə həyata baxış»* əsərində İmam Əli haqqında yazır «İmam Əli sadəcə olaraq qərarlar çıxaran və xalqdan bu qərarların tətbiqini tələb edən hakim olmamışdır. O, risalət və prinsip sahibi idi. İmam Əlini xalqın onun risalətini dərk etməsi və prinsiplərini anlaması maraqlandırırdı. Bu səbəbdən də, o həzrət xalqı xütbələr, mək-

---

[1] 313 news.net

[2] Əhməd İbn Süəb Nəsavi. İmam Əli barəsində yazılmış xüsusiyyətlər. Ən qədim əhli – sünnə mənbə kitabı tərcümə. Rövşən Abdullaoğlu. Bakı, 2013, s.12

tublar, vəsiyyətlər və təlimlər yolu ilə istiqamətləndirməyə başladı. Hətta hakimiyyətin müxtəlif yerlərində çalışan valilər və alimləri öz tərbiyəvi nəsihətləri ilə qidalandırırdı ki, onlar da öz növbələrində rəhbərlik vəzifələrini yaxşı surətdə yerinə yetirsinlər. Bütün bu nəsihətlər və təlimlər də İmam Əlinin ümmət üçün qoyub getdiyi böyük sərvətdir.

*«Nəhcül-Bəlağə»* İmam Əmirəl-möminin Əli əleyhis-salamın xütbə, moizə, məktub, hikmətli kəlamlar və öyüd-nəsihətləri külliyatına onları toplamış böyük İslam alimi Seyyid Rəzi tərəfindən verilmiş addır. «Nəhcül-Bəlağə» Hz. Əlinin həyatı boyu buyurmuş olduğu 239 xütbə, 79 məktəb və 480 hikmətli kəlamdan ibarət əsərdir. «Nəhcül-Bəlağə» İslam və bütün dünya mədəniyyəti inciləri sırasına ölməz bir əsər kimi daxil olmuşdur. «Nəhcül-Bəlağə» İslam mədəniyyətinin ensiklopediyasıdır ki, onda Allah dünyanın yaradılışı, insanın təbiəti, ümmətlərin sərgüzəştləri, saleh və ya zalım hökumətlər, dünyanın mahiyyəti, dünyatələblik, dünyatələbliyin aqibəti, Allah övliyalarının mənəvi hərəkət yolu, yaxşı əməl sahiblərinin davranış üsulu, zahidlik, iman və yüzlərlə digər mövzular barəsində söhbətlər açılır. Hər natiq onun verdiyi örnəklərdən istifadə etmiş, hər vaiz onun kəlamlarından yaranmışdır.

«Nəhcül-Bəlağə» bir daha sübut etdi ki, Peyğəmbər (s) Həzrət Əlinin Quran elmlərinə və şəriətə dair biliklərini yüksək qiymətləndirəndə, onu bu ümmətin ən çox biləni adlandıranda nə qədər uzaqgörən olmuş, bu uzaqgörənliyi səmadan ilhamlanaraq almışdır[1]. «Nəhcül-Bəlağə» kitabı İmam Əlinin kəlamlarının canlılığı üçün, «Nəhcül həyat» yəni hə-

---

[1] Nəhcül-Bəlağə. İmam Əli əleyhis-səlamın xütbə, məktub və hikmətli kəlamları (tərcümə və şərh) üçüncü nəşr B., İİB, Mədəniyyət Mərkəzi 2009, c. III

yati yaşayışın metodu, «nəhcül -nidal», yəni mübarizənin metodu, «nəhcül-cihad», yəni cihadın metodu kimi adlandırmaq mümkün olduğu halda, Şəif-ər Rəzi hicrətin 4-cü əsrinin axırlarında İmam Əlinin dediklərini «Nəhcül-Bəlağə» adlandırmışdır.[1] «Nəhcül-Bəlağə» 1000 il boyunca elm və ədbiyyat sahəsində nurlu bir günəş kimi parlamış, ingilis, fransız, alman, fars, urdu və türk dillərinə tərcümə olunaraq çap edilmişdir.

Bu kitabda Həzrət Əlinin hikmətli kəlamlarının bəziləri yer alıb:

*Ey insanlar! Qaçdığınız zaman sizi haqlayan, dayandığınız zaman sizi yaxalayan və unutduğunuz zaman sizi xatırlayan ölümə hazır olun; qəlb də bədən kimi yorulur; o halda onun üçün hikmətli sözlər axtarın; elm qiymətli mirasdır; ədəb yenilənən zinət, fikir isə təmiz bir güzgüdür; ağıllının sinəsi sirrinin sandığıdır; gülərüzlülük dostluğun açarıdır; qəlbdə gizlədilən şey dilin oyanması və ya üzün rəngi ilə ortaya çıxar; ən böyük zənginlik - ağıl, ən böyük yoxsulluq - axmaqlıq, ən qorxulu iş - özünü bəyənmə və ən dəyərli üstünlük gözəl əxlaqdır; ağıl kimi zənginlik, cəhalət kimi yoxsulluq, ədəb kimi miras, məsləhətləşmə kimi dəstək yoxdur; zənginlik – qürbətdə vətəndir, fəqirlik isə - vətəndə qürbət; zaman canı köhnəldər, arzuları yeniləşdirər, olümü yaxınlaşdırar, istəkləri uzaqlaşdırar; sizə beş şey vəsiyyət edirəm: heç biriniz Allahdan qeyrisinə əl açmayın, günahdan başqa heç bir şeydən qorxmayın, «bilmirəm» deməkdən utanmayın, bilmədiyinizi öyrənməkdən qaçmayın və nəhayət səbr;elmin ən fərsizi dildə dayanan, ən üstünü isə əza və orqanlarda görünəndir; Allahın əmrini ancaq yaltaq olmayan, rüşvət verməyən və tamaha qapılmayan*

[1] Seyid Rəzi. Nəhcul-Bəlağə. Həzrət Əli (ə) xütbələri, məktubları. 2006, s.16

*adam icra edə bilər; ən gözəl bəzək ağıl, ən üstün məziyyət elmdir; ağıl iti bir qılıncdır; ağıllı adamın zənginliyi elmində və əməlindədir; hər kəsin dəyəri öz ağlı ilə ölçülür; ağıllı olmaq kimi varlıq, cəhalət kimi fəqirlik, ədəb kimi gözəl miras, xətiblik kimi yaradan yoxdur; dünya fani, axirət isə əbədidir; xasiyyətlərin ən yaxşısı səxavətli, iffətli və səbrli olmaqdır; alimə elminə görə, yaşlıya yaşına görə, yoxsulluq edənə etdiyi yoxsulluğa görə idarə edən idarə etdiyinə görə hörmət göstərilir; elmin gözəlliyi onu yaymaq; meyvəsi onu tətbiq etmək, elmi mühafizə edib qorumaq isə onu layiq olan adamlarla əmanət etməkdir; ən yüksək dərəcə alimlərin dərəcəsidir; insanları alimlər idarə etməlidir; elm tükənməyən bir xəzinədir; elm zənginlər üçün bəzək, kasıblar üçün isə zənginlikdir; alimlər elmdən doymayan insanlardır; elm misli-bərabəri olmayan bir xəzinədir; prinsipin müdriklik, libasın sakitlik olsun. Çünki hər ikisi yaxşı insanların bəzəyidir; müdriklik qəlbdə yetişib, dildə meyvə verən bir ağacdır; kitablar müdriklərin bağcadandır; kitab bir həmsöhbətdir; idarəetmə siyasətdir; siyasəti yaxşı bilən idarəni əlində saxlar; ikiüzlülük əxlaq çatışmamazlığıdır; ikiüzlü adam hiyləgər, zərər çəkən və bədxah olar; ikiüzlü adamın dili xoşbəxt edər, qəlbi isə zərər verər; insanın ikiüzlülüyü öz daxilindən gələn bir alçaqlıqdır; yaşayanlar köçüb gedənlərdən ibrət olmalıdır; hər şeyin bir sonu var. qismət necədirsə, elə də olur; söz verdinsə, sözünün arxasında dur; ordu xalqın qisasıdır; yalnız ölkə inkişaf etdiyi şəraitdə vergi toplana bilər; əlinə və dilinə hakim ol; sözünüzün üstündə durun; böyüklərə itaət edin; lovğalanmaqdan çəkinin.*

## 9.3.1. Həzrət Əli və xəlifəlik

*Həzrət Əli öz qanuni hakimiyyət haqqı qəsb edildiyi halda, iyirmi beş il müddətində hakimiyyətə müxalifətdə olmamış, əkinçiliklə məşğul olmuş, quyular qazmış, çətin məsələlərin, mühüm problemlərin həllində xəlifələrə yardım etmişdir.*

Məlumdur ki, Məhəmməd Peyğəmbərin (s) dəvətini ilk qəbul edən, Allaha inam gətirən Həzrət Əli olmuşdur. Peyğəmbər demişdir: *«Mənim dəvətimi ilk qəbul edən kəs məndən sonra canişin olacaq»*. Peyğəmbər (s) Əlinin imanını qəbul etmiş, onu özünün qardaşı, vəkili, xələfi və naibi elan etmiş və ona itaəti vacib buyurmuşdur. 622-632 ci illərdə Həzrət Əli Məhəmməd Peyğəmbərə (s) köməklik etmiş və onun əmrlərinə uyğun olaraq vali, ordu komandiri, elçi, bayraqdar kimi fəal fəaliyyət göstərmişdir. Peyğəmbərə (s) nazil olan surə və ayələri yazan vəhy katiblərindən biri də Əli olmuşdur.

Məhəmməd (s) 632-ci ildə həyatının son anlarında namaz üçün toplanan camaata xitab etməyə başladı: Mömünlərə, onların özlərindən daha layiqli kimdir? - Dedilər: Allah və Peyğəmbəri daha yaxşı tanıyan!

– «Allah mənim mövlamdır, mən də mömünlərin mövlasıyam, onlara özlərindən daha üstün və daha layiqəm! Ey camaat, mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır». Şiələr iddia edir ki, bu hadisə Məhəmmədin (s) xələfi olaraq Əlini seçməsi üçün əsasdır.

Məhəmməd Peyğəmbərin (s) ölməsi ilə kimin müsəlman icmasına rəhbərlik edəcəyi mübahisələrə səbəb olmuşdur. Peyğəmbərin (s) dəfni ilə Əli ailəsi məşğul olduğu vaxt bir qrup müsəlmanlar Səqifə qəbiləsinin eyvanında toplaşaraq

Əbu Bəkr Məhəmmədin (s) canişini, birinci xəlifə olaraq müsəlman cəmiyyətinin rəhbəri kimi beyət etmişdilər. Beləliklə, Peyğəmbərin (s) cənazəsi torpağa tapşırılmamış Əbu Bəkr xəlifə olur. Əbu Bəkrin xəlifəliyi əslində sübuta yetirilməmişdir. Həzrət Əlini məcburi qaydada beyət etdirə bilmədilər. İmam Əli bu beyətlə razılaşmadı və bu beyətdən imtina etdi. Lakin sonralar İmam Əli gördü ki, xilafətdə olan haqqını tələb etməsi, ümmətin parçalanması və İslama düşmənçilik edən qüvvələrin güclənməsi üçün zəmin yaradar. Bu səbəbdən də İmam Əli dinin mənafeyi xatirinə öz haqqından keçdi və müsəlmanların öz müqəddaratlarını həvalə etdikləri şəxsə beyət etdi .

Əbu Bəkr *iki ildən bir qədər* artıq çəkmiş xəlifəlikdən sonra xəstələndi. Onun xəlifəliyə çatması yolunda Ömərin cəkdiyi əziyyətə cavab olaraq, Əbu Bəkr özündən sonra Ömərin ikinci xəlifə olması üçün şərait hazırlamışdı. Əbu Bəkr vəfat etdiyi gün Ömər məscidə gedib, xalqa öz xəlifəliyini bəyan etdi. Həzrət Əlidən başqa əksər müsəlmanlar Ömərə beyət etdilər.

Ömərin xəlifəliyi *on il altı ay çəkdi.* Ömər bütün bu müddət ərzində İran və Rumla müharibə vəziyyətində oldu. Makedoniyalı İsgəndər öləndən sonra Misirə 40 il başçılıq edən sərkərdəsi Ptolomeyin dövründə Misir paytaxtı Aleksandriya ən varlı şəhərə çevrilmiş və İsgəndəriyyə kitabxanası inşa edilmişdi. Antik mədəniyyət ensiklopediyaları, yazıçıların əsərləri olan 700 min kitabdan 120 tomluq kataloqdan ibarət zəngin kitabxana yaradıldı. Bu kitabxana iki əsrdən çox elm və təhsilin dünya mərkəzinə çevrilmişdi, 391-ci ildə isə xristian – fanatik Roma imperatoru I Feodosiy tərəfindən dağıdılmış və yandırılmışdırş 642-ci ildə isə Ərəb xəlifəsi Ömər Aleksandriyanı istila edəndə antik dövrün və erkən

Orta Asiyanın mənəvi xəzinəsi olan kitabxananı yandırtmış və tam məhv etdirmişdi[1].

Ömər öz həyatının son anlarında növbəti xəlifəni seçmək üçün İmam Əli xəlifə seçilməsin deyə, düşünülmüş şəkildə İmam Əli də daxil olmaqla, *altı nəfərdən ibarət şura formalaşdırdı. Ənsarlardan beş nəfəri şuranın toplantısı keçirilən evin ətrafına qoyur və tapşırır ki, beş nəfər birinə səs verdiyi vaxt həmin bir nəfər onlara qarşı çıxsa, həmin bir nəfərin, dörd nəfər bir nəfərə səs verdiyi vaxt iki nəfər bu dörd nəfərə qarşı çıxsa, həmin iki nəfərin boynu vurulsun. Əgər üç nəfər birinə, üç nəfər isə başqasına səs versə Əbdür- Rəhmanın daxil olmadığı üç nəfər qətlə yetirilsin. Yox, əgər bu altı nəfər heç bir qərara gələ bilməsələr, altısının da boynu vurulsun və xəlifə seçmək xalqa tapşırılsın[2].*

Ömərin qətlindən üç gün sonra şuranın altı üzvü Ayişənin mənzilində toplaşdı. Öz səs hüququnu Təlhə Osmana, Zibeyr Əliyə, Səd Vəqqas isə Əbdür-Rəhmana verdi. Bu yolla şuradakı *altı səs üç səsə qədər azaldı.* Bu qurama şurada etiraz pusquda dayanan ənsarların qılıncına tuş gəlmək demək idi. Osman Əliyə təklif etdi ki, Əbdür-Rəhmanın xeyrinə səs versin. Əbdur-Rəhman Osmanın təklifini həvəslə qarşıladı və and içdi ki, özünün xəlifəlik fikri yoxdur, bu işi ya Əli, ya da Osmana tapşıracaq. Həzrət Əliyə şuradakı bütün gizlin məqsədlər aydın idi. Bu dəfə Osman dedi: «Ya Əli müxalifətliyə icazə yoxdur. Ömərin vəsiyyətinə əsasən hər kəs müxalifətlik etsə, öldürələcək. Gəl sən də Əbdür-Rəhmanın hakimliyini qəbul et». Əli buyurdu : «Bir halda ki, dövran sənə üz tutub, nə üçün tələsdin və məni öldürməklə hədələdin?».

---

[1] 100 Великих загадок истории. М.: Вече, 2002, с.201

[2] Corc Cordaq. İmam Əli. Farscadan tərcümə Famil Şirvanov. Bakı: Qanun, 2014, s. 199

Mənə aydındır ki, Əbdür-Rəhman sənin tərəfini saxlayacaq, haqqın ziddinə danışacaq. Əli Əbdür-Rəhmanın Allahın razılığını və ümmətin xeyrini əsas götürəcəyi şərti ilə onun hakimliyini qəbul etdi.

Əbdür-Rəhman camaatı Peyğəmbər (s) məscidinə topladı ki, mühacir və ənsarın hüzurunda öz rəyini bildirsin. Özünü bitərəf göstərmək məqsədi ilə əvvəlcə Əliyə yaxınlaşıb dedi. *«Ya Əli, mən də məsləhət görürəm ki bütün müsəlmanlar sənə beyət etsinlər. Bu şərtlə ki əvvəlki iki xəlifənin yolu əsasında hakimlik edəsən»*. Həzrət Əli buyurdu: *«Mən Allahın göstərişi ilə Peyğəmbər (s) sünnəsi əsasında hakimlik edəcəyəm».* Əli Əbu Bəkr və Ömərin xəlifəliyini qəsbi sayırdı. O, öz haqqının qəsb olunmasından şikayətləndiyi halda, həmin iki şəxsin yolunu necə qəbul edə bilərdi? Əbdür-Rəhman Əlidən kənarlaşıb, Osmana yaxınlaşdı, Əliyə dediyini ona da dedi. Osman fəryad çəkərək dedi: «And içirəm ki, şeyxlərimin (əvvəlki xəlifələrin) yolu ilə gedəcək və həmin yoldan kənara çıxmayacağam»[1].

Həzrət Əli həqiqət sorağında olduğundan üçüncü dəfə öz qanuni haqqından məhrum edildi. Həzrət Əli Əbu Bəkr, Ömər, və Osmanın iyirmi beş il çəkmiş xəlifəliyi dövründə zahirən kənara çəkilib, nə bir döyüşdə və ya fəthdə olmuş, nə də rəhbər vəzifələrdə işləmişdi. Xüsusilə həyat yoldaşı Fatimeyi-Zəhranın ölümündən sonra bütün siyasi işlərdən uzaqlaşmışdı. Bu müddət ərzində ailəsinə baxmaq üçün *əkinçiliklə məşğul olmuşdu.* Həzrət Əli Mədinə yaxınlığında bir *çox quyu qazmış, bağça saldırmış və onları insanların ixtiyarına vermişdi*. Bu quyular hal-hazırda da Əbdar-Əli (Əli quyusu) olaraq qalır İslamın qorunması xatirinə İmam Əli

[1] Fəzullah Kompanı. Əli kimdir? Tərcümə edən Məhəmməd Turan . Bakı, 2005, s.64-65

xəlifə : Əbu Bəkr, Ömər və Osmanın yanında olmuş, *onlara nəsihət vermiş, yol göstərmiş, istiqamətləndirmişdi.* Belə ki, bu üç xəlifə çətin məsələlərdə, mühüm problemlərdə İmam Əliyə müraciət etmiş, o da onlara dəyərli məsləhətlər vermiş, yardım əli uzatmışdı. Onlar Həzrət Əlidə dərin elm, düzgün rəy, qiymətli fikirlər olduğunu görmüşdülər[1].

Xilafət İmam Əliyə keçməzdən əvvəl əməvilər tərəfindən *sülalə hakimiyyəti şəklini almışdı.* Hökumət rəhbərliyi, varlılar, məmurlar hakimiyyətin yalnız onlara məxsus olduğuna və bu sistemin qohumluq, ailə münasibətləri, pul və rüşvət vasitəsi ilə bu şəkildə davam edəcəyinə inanırdılar. Onlar xalqın hüquqlarının rəhbər və valilərin iradəsi ilə tənzimləndiyinə adət etmişdilər[2].

Osman xəlifə vəzifəsinə gələndə xalqa verdiyi sözə əməl etmədi, beytül-malı (dini büdcəni) öz qohum-əqrabasına xərcləyir və rəhbər vəzifələrə nəsil nümayəndələrini təyin edirdi. Əyalətlərin əhalisi Osmanın hakimlərinin əlindən boğaza yığılmışdı. Xalq Peyğəmbərin səhabələrinə, eləcə də birbaşa Osmana şikayətlər ünvanlandırırdı. Amma şikayətlər heç nəyi dəyişmirdi. Ona görə də səhabələr bir araya gəlib qərar çıxardılar ki, Osmanın və onun hakimlərinin bütün ləyaqətsiz işlərini yazsınlar və ona məktubla müraciət edib bu işlərdən çəkindirsinlər. Əks təqdirdə, onu işdən kənarlaşdırmaq qərara alındı. Osmana çatdırılan bu məktubu nəzərdən keçirib etinasızlıqla bir kənara atdı və qulamlarına göstəriş verdi ki, Peyğəmbərin sevimli səhabəsi *Əmmar cəzalandırıl-*

---

[1] Əhməd İbn Süəb Nəsavi. İmam Əli barəsində yazılmış xüsusiyyətlər. Ən qədim əhli – sünnə mənbə kitabı tərcümə. Rövşən Abdullaoğlu. Bakı, 2013, s.15

[2] Corc Cordaq İmam Əli Farscadan tərcümə Famil Şirvanov. Bakı. Qanun, 2014, s. 167

*sın. Hətta Osmanın özü məktubu ona çatdıran Əmmarı döydü. O isə aldığı zərbədən huşunu itirdi və sonradan ağır bir xəstəliyə düçar oldu. Bu xəbər tez bir zamanda İslam şəhərlərinə yayıldı. Osmana qarşı qəzəb dalğası ölkəni bürüdü[1]. Osmanın bütün ləyaqətsiz əməlləri onun öz zərərinə tamamlandı. O, hakimiyyət cilovunu əlindən verdi və qətlə yetirildi.*

Osman qətlə yetiriləndən sonra müsəlmanlar Peyğəmbər məscidinə toplanıb, xəlifə təyinatı haqqında söhbətə başladılar. Osmanın *on iki illik fəaliyyəti* onlara bir dərs olmuşdu. Onlara məsciddə Həzrət Əlinin mücahidələri və Peyğəmbərlə yaxınlığı xatırladıldı və yekdil şəkildə Əliyə beyt etməyə hazır olduğunu bildirdilər. Toplum məsciddən çıxaraq Həzrət Əlinin evinə üz tutdu. Onlar Əliyə dedilər: «Ya Əli, Osman qətlə yetirildi və müsəlman cəmiyyəti xəlifəsiz qaldı. Əlini ver sənə beyət edək. Bu məqama səndən layiqlisi yoxdur».

Həzrət Əli buyurdu: «Əl çəkin və bu iş üçün başqa birini seçin. Mən də sizlərdən biri kimi ona beyət edərəm. Axırda Həzrət Əli xəlifəliyə razı oldu. Xəlifəlik İmam Əliyə həvalə edildiyi zaman, vəziyyət çox mürəkkəb idi. Xalq iki seçim arasında qalmışdı: ya xəlifəliyi qoruyub ədalət tərafdarları və xalqın mənafelərini müdafiə edən Əlinin qələbəsi uğrunda ölümə getməli, ya da məqsədi yalnız cəmiyyət dövrünün ənənələrini diriltmək olan əməvilər imperyasının müdafiəsinə qalxmalı idilər.

Həzrət Əli buyurdu: *ərəb və əcəm, ağa və qul, qara və ağ islam hüüquqları qarşısında eynidirlər. Beytül-mal tərəfsiz bölünməlidir. Başqa bir məqamda Həzrət buyurmuşdu: «And olsun Allaha Osmanın ona-buna bağışladığı torpaqları sahib-*

---

[1] Corc Cordaq İmam Əli Farscadan tərcümə Famil Şirvanov. Bakı. Qanun, 2014, s. 74-79

*lərinə qaytaracağam»[1].*

*Əliyə görə, hakimiyyət Allahın bir fərdə həvalə etdiyi mənəvi üstünlükdür. Həmin fərdin və ona yaxın olan insanların istədikləri odur ki, dövlət başçısı rəhbər olduğu üçün deyil, ədalətli, faydalı və xeyirli, sosial qanun və hökmlərin icrasında dəqiq olduğuna görə ona itaət göstərilməlidir. Hakimiyyət başına gəldikdən sonra Əli məmurlardan birinə belə məktub yazır: «... hakimiyyət sənin üçün istifadə edəcəyin mal, intiqam alaraq soyudacağın bir qəzəb vasitəsi olmamalıdır, vəzifən nahaqqı ortadan qaldırmaq, haqqı yaşatmaqdır»[2].*

Həzrət Əli xəlifəlik fəaliyyətinin əvvəlində üç böyük maneə ilə qarşılaşdı.

Tanınmış şəxslərdən bir qrupu həzrətə beyət etməmişdilər; Müaviyə valilərinin hər biri ölkənin bir guşəsində istədikləri kimi iş aparırdılar. Onları hakimiyyətdən uzaqlaşdırmağın çətinlikləri vardı; Osmaının qətli yenicə baş verdiyindən, tüğyana və itaətsizliyə əl atanlar bu işi bəhanə gətirirdilər.

Böyük problemlərlə üzləşəcəyinə baxmayaraq, İmam Əli İslam hökmlərini və İslamın prinsiplərini möhkəmlətməklə qısa müddətli xilafəti dövründə nümunəvi hakim üçün ən ali örnək oldu. O, vəzifəpərəstlik yolunu seçmiş Allah düşmənləri ilə qarşılıqlı razılaşmanı rədd edirdi. Belə ki, İmam Əli ictimai ədalətin ən gözəl surətlərini tətbiq etməklə, dosta yüksək, kənar şəxsə isə aşağı nəzərlə yanaşmamışdır[3].

İmam Əlinin fikrincə, *dövlət başçısının vəzifəsi yalnız öz*

---

[1] Fəzullah Kompanı. Əli kimdir? Tərcümə edən Məhəmməd Turan. Bakı, 2005, s.82

[2] Corc Cordaq. İmam Əli. Farscadan tərcümə Famil Şirvanov. Bakı: Qanun, 2014, s. 74-79, s. 134

[3] Sədi Şirazi. Bustan. Bakı: Azərnəşr, 1964, s. 15

*fikir və rəylərini diktə etmək deyil. Şura və məsləhətləşmə ən ədalətli idarəetmə sistemidir.* Xalqın dövlət başçısından yalnız essensial olaraq bəzi fəaliyyətlərini müəyyən müddətə qədər gizli saxlaması istisna olaraq, xalqdan heç nəyi gizlətməməyi, heç bir addımı xalqın xəbəri olmadan atmamağı tələb etmək haqqı vardır.

Xalqın bütün fərdlərinin hakimiyyətdə iştirak etmək hüquqları vardır. Bütün rəyləri almaq dövlət başçısının zəruri bir vəzifəsidir. Xalq isə bu vasitə ilə dolayısı ilə idarəetmə işlərində iştirak etmiş olur[1]. Əli zorakılıq və məcburiyyətlə əldə olunan istənilən şeyə nifrət bəsləmişdir.

---

[1] Corc Cordaq. İmam Əli. Farscadan tərcümə Famil Şirvanov. Bakı: Qanun, 2014, s. 174-175

# NƏTİCƏ

*Elə kitab var ki, onun dadına baxmaq, elə kitab var ki, onu ən yaxşı halda udmaq, yalnız az kitab var ki onu çeynəyib həzm etmək lazımdır.*
***Bekon***

Bəşəriyyətin üçüncü minilliyə daxil olduğu müasir dünyada – insanlar, millətlər, xalqlar, dövlətlər arasında münasibətlərin pisləşdiyi bir dövrdə keçmişə nəzər salmaqla Qədim dövrdən başlayaraq insanların bizə qoyduğu irsə, ilk yeniliklərə nəzər salmaq olduqca faydalıdır.

Qədim dövr mütəfəkkiri Konfutsinin öz təlimində qədim əcdadlarımıza pərəstiş etməyə, qocalara, müdriklərə, ədəbi abidələrə, kanonlara etimad etməyə çağırışı bu gün də aktualdır. Azərbaycan atalar sözündə *«Keçmişi oxumaq, gələcəyi öyrənmək üçündür»; Çin atalar sözündə isə «İndi kim olduğunu bilmək istəyirsənsə, keçmişdə kim olduğunu öyrən, nə olacağını bilmək istəyirsənsə, nə etdiyini öyrən»* deyilir.

Kitabda bir-biri ilə üzvi bağlı olan üç problem: Şəxsiyyət. Dövlət. Möcüzə… (Şumer və Quran möcüzələri) tarixi aspektdə hüquq prizmasından araşdırılır.

Şəxsiyyət fərdi xarakterizə edən ictimai inkişafın məhsulu olub insanların qarşılıqlı fəaliyyətində və sosial münasibətlərində yaranır.

Ailə insanlardan, cəmiyyət ailələrdən, dövlət cəmiyyətdən formalaşır. Platon insanı *«mikro dövlət», «mikro kosmos», Konfutsi ailəni «miniatür cəmiyyət – dövlət»* adlandırırdı. *J.J. Russo cəmiyyəti insanlara görə, insanları isə cəmiyyətə görə öyrənməyin labüdlüyünü göstərirdi.* əl-Fərabi insan orqanizmini cəmiyyətə, T.Hobbs, J.J.Russo insanı dövlətə oxşadaraq

bir-biri ilə müqayisə edirdi. Odur ki, deyirlər *«Ailə miniatürdə olan cəmiyyət, onun tamlığından bütün böyük insan cəmiyyətinin təhlükəsizliyi asılıdır» (F.Adler). «İnsanlar bir biri üçün doğulub» (Mark Avreliy); «İnsan necədirsə, dövlətlər də o cürdür; dövlətin rüşeymi insan xarakterindədir» (Platon); «Bütün insanlar bir bədənin üzvləridir. Əgər bir üzv iztirab çəkirsə, başqaları da iztirab çəkir» (Sədi). «Dünyada olan bütün olanlar harmonikdir. Bir yerə yığılmış toplumdan gələn dövlət də harmonikdir» (Pifaqor).*

*Şəxsiyyətin daxili zənginliyi, ağlı, təlim-tərbiyəsi onun xarakterində (sanqvinik, xolerik, melanxolik), vəzifəli şəxsin seçdiyi rəhbərlik formasında (demokratik, avtokratik və liberal)* özünü göstərir.

Şəxsiyyətin effektiv fəaliyyətində onun *qabiliyyət*, istedad və *dahilik* keyfiyyətləri əsas rol oynayır. Bu keyfiyyətli insanları seçib onlardan istifadə etmək cəmiyyətin və dövlətin inkişafında böyük rol oynayardı.

İnsan, təbiətin bir parçası olmaqla, onunla harmoniyada inkişaf edir, canlı aləm iearxiyasında bitki və heyvan aləminə xas olan xüsusiyyətlərə (özünü artırmaq, özünü inkişaf, hissiyat) əlavə olaraq düşüncə, nitq qabiliyyəti ilə ən yüksək pillədə durur. Canlı aləm dəyişilməz *təbiət qanunları* – yəni *ilahi qanunlarla* idarə olunur. İnsan nə vaxt ki, təbiət qanunlarına əməl edir və onunla yaşayır, o, xoşbəxtliyə nail olur, əksinə, nə vaxt ki, təbiət qanunlarından kənara çıxır onun həyatı ziddiyyətli olur və lazımi axarında getmir.

İnsan ruhunun məhsulu olan ağıl onun həyat fəaliyyətində böyük rol oynayır. *«Ağıllı insan cəmiyyətin qan damarıdır» (Daniel Defo); «Gördüyün işi əvvəlcə ağıl tərəzisi ilə ölç» (Qətran Təbrizi); «Bütün nemətlərin başlanğıcı və sonu ağıldır» (Epikür); «Dəmir işlənməsə paslanar, su qaldıqca iylənər, in-*

*san ağlı işləmədikcə kütləşər» (Leonarda da Vinçi); «İnsanın xoşbəxtlik və bədbəxtlik açarı, kamillik və naqislik sükanı onun ağıl və iradəsinin ixtiyarına verilmişdir»; (Nəsirəddin Tusi); «Sizə ağlınız hökm edirsə – padşah, vücudunuz hökm edirsə – köləsiz» (Mark Parsi Katon).* Hər şeydə ortanı seçən ləyaqətli insan bütün məsələlərdə ədalətli olub həqiqətə və düzgünlüyə üstünlük verir. Ona məxsus olan bütün statuslara fərq qoymadan (məsələn, bəzən vəzifəli şəxs vəzifə statusuna üstünlük verir, qalan statusları arxa plana atır) bütün statuslara dəqiqliklə əməl edir. Bu isə ona şərəf gətirir, başqaları üçün nümunəyə çevrilir.

Həyatda ləyaqəti olmayan, şərəfli yaşamayan, var-dövlət aludəsi olan insanı qoz qurdu ilə müqayisə edirlər. Məhəmməd Qəzzali yazırdı: *«Qozun qabığını qırıb içini görməyən adam qozu bütünlükdə qabıq zənn edir.* Qoz qurdu açdığı balaca deşikdən qozun içərisinə girir, onu yeyir, şişir, o deşikdən çıxa bilmir. Ordan çıxmaq üçün o arıqlamalı, əvvəlki vəziyyətinə qayıtmalıdır. İnsan da bu dünyaya gəlir, var-dövlət qazanır və qazandıqlarını bu dünyada qoyub gəldiyi kimi də gedir. Talmudda yazılıb ki, *«insan dünyaya əli yumulu gəlir və elə bil ki, deyir, - bütün bu dünya mənimdir, gedəndə əli açıq gedir, deyir, - baxın özümlə heç nə aparmıram. Azərbaycanın məşhur şairi Məmməd Araz yazır : «Dünya sənin, dünya mənim, dünya heç kimin».*

Kitabda dövlətçiliklə bağlı böyük şəxsiyyətlərin oxşar cəhətlərinin təhlili nəticəsində alınan modeli başqa şəxsiyyətlər üçün etalon kimi istifadə etmək olar.

Kitabda dövlətə, dövlət təzahürləri – dövlət hakimiyyəti, dövlət aparatı, dövlət idarəetməsi və dövlət qulluğu ilə qarşılıqlı təsirdə və əlaqədə baxılır, hər birinə qısa təhlil verilir. Dövlətə dövlətçiliyin hissəsi kimi baxılır. Müasir dövrdə

idarəetmənin mahiyyəti, dövlətin məqsəd və funksiyalarının həyata keçirilməsində rolu, insanın həyat fəaliyyətində bu fenomenə diqqətin artırılması təklif olunur.

Dövlətin yaranmasında T.Hobbs, J.J.Russonun müqavilə nəzəriyyəsinin, dövlət aparatının formalaşmasında hakimiyyətlərin bölgüsü konsepsiyasının (C.Lokk, Ş.Monteskye) və hüquqi dövlət və vətəndaş cəmiyyətinin mahiyyəti təlil edilir.

Qədim dövrlərdən başlayaraq Sparta, Afina, Roma, Yeni dövrdə ABŞ dövlətlərinin tədqiqat obyekti seçilməsinin əsəs səbəbi odur ki, orda müvafiq olaraq Likurqun, Solonun, Serviy Tulinin apardığı islahatlar nəticəsində Spartada aristokratik dövlətin, Afinada quldarlıq demokratisiyasının, Romada aristokratik respublikanın, Medisonun layihəsi əsasında ABŞ konstitusiyasının hazırlanmasına şərait yaratmış, başqa dövlətlərə nümunə, alim və filosofların tədqiqat obyekti olmuş və yeni konsepsiyaların yaranmasını şərtləndirmişdir.

Dövlət və cəmiyyət və digər problemlər haqqında Fales, Pifaqor, Konfutsi, Sokrat, Heraklit, Demokrit, Platon, Aristotel, Siseron, əl-Fərabi, İbn Sina, Nizamülmülk, Nəsirəddin Tusi, Makiavelli, F.Bekon, T.Hobbs, C.Lokk, Monteskye, J.J. Russo və s. konsepsiyaları və baxışları təhlil edilir.

Kitabın axırıncı bölməsində *Şumer* və *Quran möcüzələrindən* bəhs edilir. Bu iki möcüzədə ümumi oxşarlıq var. E.ə. 4-cü minillikdə hardan gəldiyi və kimliyi məlum olmayan *Şumerlərin* qısa müddətdə dünyanı heyrətə gətirən yenilikləri: ilk kəşflərin, icadların və ixtiraların hardan qaynaqlandığı məsələsi hələ də dəqiq cavabını tapmamışdır. Əsas fərziyyələrdən biri Şumer sivilizasiyasının mənbəyinin kənar planetdən gəlmələrlə əlaqələndirilməsidir (amerikalı Zaxariya Sitçinin fikrincə). Amerikalı Şumeroloq Ş. Kramerin *«Sivilizasiya şumerdə başlayır»* konsepsiyasında Şumerlərin dün-

yaya verdiyi yenilik dünya alimləri tərəfindəni etiraf olunur.

Quranın heç bir təhsili olmayan 40 yaşında Məhəmməd peyğəmbərə (s) nazil olması da *möcüzədir*. Quranın möcüzə olmasını səciyyələndirən əsas səbəblərdən biri insanların hətta Qurana oxşar bir kitab yaratmaqda aciz olmalarındadır. Akademiklər *Z. Bünyadov və V. Məmmədəliyev Qurani-Kərimin* 8-ci buraxılışına ön sözdə yazırlar: *Quran Allah-Təalının göydən yerə lütfü, hidayəti, Qurani-Kərim Allah kəlamı, qalan bütün əsərlər isə bəşəri kəlamdır. Quran üslubu İlahi üslub, o biriləri isə bəşəri üslubdur*[1]. Quran on dörd əsrlik bir müddətdə öz kamilliyini nümayiş etdirərək, sınaqdan çıxmış və dəyişilmədən bizə gəlib çatmışdır. Quranda insan ağlına gələ bilən hər bir suala cavab almaqla, insanların həyatı, əxlaqı, yaşayış tərzi, ədəbi və mərifəti, bir birinə münasibəti və cəmiyyətdəki mövqeyi göstərilir. Orda müasir elm sahələrinin bütün məsələlərinə aid cavablar vardır.

İlahidən gələn möcüzələr iki cürdür: *əməli möcüzə və söz möcüzəsi. Əməli möcüzə* Allahın izni ilə insana xas olan möcüzədir. Bu möcüzə müvəqqəti olub müəyyən zaman və məkan daxilində baş verir və ötüb keçəndir. Məsələn J.J.Russoya ictimai sistem haqqında fikir yığımının qəflətən baş verən «*nurlanma*» səbəbindən olmasını göstərmək olar. *Söz möcüzəsi* göydən mələklər vasitəsi ilə peyğəmbərlərə nazil olanlardır. Söz möcüzəsinin başında Qurani-Kərim durur. Kəbədə dünyaya gəlmiş İmam Əlinin xütbə, məktub və hikmətli kəlamlarından ibarət, *«Nəhcül-Bəlağə»* ikinci dərəcəli söz möcüzəsi hesab olunur. Hz. Peyğəmbər (s) buyurmuşdur: *«Elm və hikmət on hissəyə bölünmüşdür, onun doqquzu Əliyə, biri isə qalan xalqa əta olunmuşdur. O, demişdir: «Mən*

1 Əl-Qurani Kərim Ərəb dilindən tərcümə Z. Bünyadov; V. Məmmədəliyev. 8-ci buraxılış s. III, VI

*elmin şəhəri, Əli isə onun qapısıdır». Xəlifə Ömər deyirdi «Ya Əli, sənin bütün elmin, hüquqi, fiqhi məsələləri bilməyin məndə təəccüb doğurur. Sənin bütün məsələlərlə bağlı suallara dərhal cavab verməyin heyran edicidir». Sünni məzhəbli alimlər yazırdılar: «İslam elmləri külli şəkildə Əlidən qaynaqlanıb». Müsəlmanlar yunan filosofları ilə tanış olmazdan, hind, yunan və s. fəlsəfi məktəblərinə aid kitabları ərəb dilinə tərcümə etməzdən əvvəl İmam Əlinin fikirlərinə əsaslanmışlar. Bir gün Peyğəmbər (s) Əliyə buyurdu: «Səndə Məryəm oğlu İsaya bənzərlik var, səni yalnız münafiq sevməz; Hz. Peyğəmbər (s) səhabələrinin toplandığı bir məclisdə buyurmuşdur: Əgər Adəmin elmini, Nuhun əzmkarlığını, İbrahimin əxlaqını, Musanın münacatını, İsanın zahidliyini, Məhəmmədin rəhbərliyini və elmini görmək istəyirsinizsə, gələn adama baxın».* Hamı dönüb baxdı. Bu vaxt Həzrət Əlinin gəldiyini gördülər.

Kitabda şumer sivilizasiyasının Şərqin özündən əvvəl akkadlara (semitlərə), sonra xetlərə, qədim babillərə, assuriyalılara, kassitlərə keçməsi, Şərq mədəniyyətinin isə Avropaya Şərqdən gəlmiş tayfalar vasitəsi ilə yayılması, Troyadan gəlmiş Eneyin nəvəsi Romulun Roma şəhərinin əsasını qoyması və orada ilk çarlıq yaratması nəzərdən keçirilir. Kiçik Asiyadan Romaya gəlmiş Etrusklar (ehtimala görə mənşəyi Qafqazdandır) öz yüksək texnologiyasını, dövlət atributlarını və dövlətçilik ənənələrini Romaya transformasiya etmiş; şumerlərdəki təkərli yanar araba təvsirli möhürün Kritdə də olması və Krit mədəniyyətində Şərqdən gəlmiş tayfaların təsirindən Krit-Miken mədəniyyətinin formalaşıması ehtimal olunur. Kritdə Misirdə olan dövlətçilik ənənələri, Likurq tərəfindən mənimsənilib Spartaya keçirilmiş, sonralar Afinaya transformasiya olunmuşdur.

Qədim dövrdə və Orta əsrlərdə Şərq elminin Avropaya

transformasiyası və qarşılıqlı təsir məsələsi bir neçə yolla həyata keçirilmişdir: *birinci*, Yunanların Şərqin mədəniyyəti ilə ilk tanışlığı Fales, Pifaqor, Demokrit, və s. vasitəsi ilə olmuş, Fales Yunanıstana Şərq biliyini gətirmiş və onu inkişaf etdirmiş, Avropa elminin başlanğıcını qoymuşdur. Yunanların şərq mədəniyyəti ilə ilk tanışlığı farsların (əhəmənlərin) oranın bir hissəsini işğal etdiyi vaxt baş verib; *ikinci*, *Makedoniyalı İsgəndər* ellinizm nailiyyətlərini Şərqə çatdırmış və Şərqin mədəni ənənələrini yunan mədəniyyətinə daxil etmişdir; *üçüncü*, xristianlığın yayılması ilə Roma mədəniyyəti yunan mədəniyyətinə və başqa dinlərə keçmiş, onlar isə, öz növbəsində, suriyalıların və yunanların nailiyyətlərini mənimsəmişlər; *dördüncü*, əl-Fərabi Yunanıstan elminin başlanğıcını belə təsvir edir: *Yunan möcüzəsi minillərlə əvvəl Misirdə, Babilistanda və mümkündür ki, Şərqin başqa ölkələrində hazırlanmışdı. əl-Fərabinin yaşadığı dövrdə Şumerlərin mövcudluğu bəlli deyildi)* (Ə. R.). Müsəlman İspaniyası Şərq maarifçiliyi və sivilizasiyasının qapısı rolunu oynamışdır. Ərəb xilafəti dövrü antik irsin Şərqə transformasiyasını ingilis tarixçisi G. Bernal *«Əks qayıdış»* kimi sərrast xarakterizə edir.

Fikrimizcə, fəlsəfə və hüquqa aid müxtəlif məsələlərin araşdırılmasını əks etdirən bu dərs vəsaiti dövlət və dövlətçiliklə əlaqədar daha mürəkkəb və mühüm problemlərin də həllinə kömək göstərəcək.

# KİTABA VERİLMİŞ RƏYLƏR

## «Şəxsiyyət. Dövlət. Möcüzə...» kitabına verilmiş rəylər haqqında qısa məlumat

• Hüquq üzrə elmlər doktoru, professor **Habil Qurbanov** – «Dövlət və cəmiyyət yeni baxışlar kontekstində» «Azərbaycan» qəzeti, 5 noyabr 2016-cı il;

• Fəlsəfə elmlər doktoru **Afaq Rüstəmova** – hüquq üzrə elmlər doktoru, professor Ə.Rzayevin «Şəxsiyyət Dövlət Möcuzə...» kitabı haqqında təəssüratım» "Xalq" qəzeti, 6 noyabr 2016-cı il;

• Siyasi elmlər üzrə fəlsəfə doktoru **Sənan Həsənov** – hüquq üzrə elmlər doktoru, professor Ə.Rzayevin "Şəxsiyyət Dövlət Möcuzə... fundamental monoqrafiyasına dair mülahizələr" «Respublika» qəzeti 6 dekabr 2016-cı il;

• Fəlsəfə üzrə elmlər doktoru, əməkdar elm xadimi **Rəfiqə Əzimova** – «Dövlətçiliyin fəlsəfi, mədəni əsasları», «Elm» qəzeti 10 fevral 2017-ci il;

• Hüquq üzrə elmlər doktoru, professor **Məhəbbət Dəmirçiyeva** – «Ömrünü adı kimi yaşayan alim» "BDU-nun Beynəlxalq hüquq və inteqrasiya problemləri" jurnalı;

• Fəlsəfə uzrə elmlər doktoru, professor **Əbülhəsən Abbasov** – hüquq üzrə elmlər doktoru, professor Ə.Rzayevin «Şəxsiyyət Dövlət Möcuzə...» kitabı haqqında rəy, AMEA-nın Fəlsəfə İnstitutunun «Elmi əsərlər» jurnalının №1/26 (2016) saylı nömrəsi;

• Fəlsəfə İnstitutunun əməkdaşı **Elxan Quliyev** – hüquq üzrə elmlər doktoru, professor Ə.Rzayevin «Şəxsiyyət Dövlət Möcuzə...» kitabı haqqında rəy, AMEA-nın Fəlsəfə İnstitutunun «Elmi əsərlər» jurnalının №1/26 (2016) saylı nömrəsi;

• Fəlsəfə elmləri doktoru, professor **Azər Mustafayev** – hüquq üzrə elmlər doktoru, professor Ə.Rzayevin «Şəxsiyyət Dövlət Möcuzə...» dərs vəsaitinə rəy, AMEA-nın Fəlsəfə İnstitutunun «Elmi əsərlər» jurnalının №2 (2017) saylı nömrəsi;

• Доктор философских наук **Адил Асадов** и **Н.Алиева** «Личность и власть: размышления» по поводу книги доктора юридических наук, профессор А.Г.Рзаева «Личность. Государства. Чудо...». AMEA-nın Fəlsəfə İnstitutunun «Elmi əsərlər» jurnalının №1 (2017) saylı nömrəsi;

• Fəlsəfə elmləri doktoru, professor **Əlikram Tağıyev** – «Qələmin qüdrəti və əqlin tulu etməsi» hüquq üzrə elmlər doktoru, professor Ə.Rzayevin «Şəxsiyyət Dövlət Möcuzə...» dərs vəsaitinə rəy;

• Fəlsəfə üzrə elmlər doktoru **R.Mirzəzadə** – «Zamanın təhlili yeni siyasi-hüquqi baxışda», «Qanun» jurnalının 2016-cı ilin 12-ci nömrəsi;

• Fəlsəfə üzrə elmlər doktoru **Lalə Mövsümova** – "Отзыв на книгу «Личность. Государства. Чудо...». Трилогия: конфликты или взаимодействие. AMEA-nın Fəlsəfə İnstitutunun «Elmi əsərlər» jurnalının №1 (2017) saylı nömrəsi;

• Hüquq üzrə fəlsəfə doktoru **A.Teymurov** – «Şəxsiyyət Dövlət Möcuzə...» adlı dərs vəsaiti haqqında rəy, «Qanun» jurnalının 2016-cı ilin 12-ci nömrəsi;

• Hüquq üzrə fəlsəfə doktoru, dosent **R.Əkbərov** – «Kitab haqqında düşüncə və mülahizələrim», «Qanun» jurnalının 2016-cı ilin 12-ci nömrəsi;

• Hüquq üzrə elmlər doktoru, professor **Razim Əliyev** – Ə.Rzayevin "Şəxsiyyət. Dövlət. Möcuzə... fenomeninə əməli fəlsəfə prizmasından müasir baxış", «Qanun» jurnalının 2017-ci il 2-ci nömrəsi;

• Fəlsəfə üzrə fəlsəfə doktoru **Əli İbrahimov** – hüquq

üzrə elmlər doktoru, professor Ə.Rzayevin «Şəxsiyyət Dövlət Möcuzə...» dərs vəsaitinə rəy, «Qanun» jurnalının 2017-ci il 2-ci nömrəsi;

• Hüquq üzrə fəlsəfə doktoru **Rauf Qarayev** – "Fundamental xarakterli promlemlərin sadə həlli". AMEA-nın Fəlsəfə İnstitutunun «Elmi əsərlər» jurnalının №1 (2017) saylı nömrəsi;

• Hüquq üzrə fəlsəfə doktoru **İlham Əliyev** – «Mütaliə üçün əvəzsiz elmi əsər», «Qanun» jurnalının 2017-ci il 2-ci nömrəsi;

• Hüquq üzrə fəlsəfə doktoru, dosent **Abdulәli Abdullayev** – «Görkəmli tədqiqatçı alimi və onun yaratdığı möhtəşəm əsər haqqında», «Qanun» jurnalının 2017-ci il 2-ci nömrəsi;

• Fəlsəfə üzrə fəlsəfə doktoru **Yaşar Əliyev** və hüquq üzrə fəlsəfə doktoru **Aydın Əliyev** - «Şəxsiyyət Dövlət Möcuzə...» kitabına rəy, «Təzadlar» qəzeti 22 noyabr 2016-cı il tarixli nömrəsi;

Yuxarıda sadalanan, mətbuatda işıq üzü görmüş müxtəlif elm sahələri üzrə tanınmış alimlərin kitaba göndərdiyi rəylərdən yeddisini seçib dəyərli oxucularımızın diqqətinə çatdırmağı məqsədə müvafiq hesab edirik.

# Dövlətçiliklə bağlı insan dünyagörüşünə təsir edən əsər

Müasir Azərbaycan Respublikasının memarı Ümummilli Lider Heydər Əliyev tərəfindən başlanılmış, onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev cənabları tərəfindən uğurla davam və inkişaf etdirilərək həyata keçirilən islahatlar sistemində dövlət idarəetməsinin və dövlət qulluğunun elmi cəhətdən tədqiqi məsələsi bir vəzifə kimi qarşıya qoyulmuşdur.

Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etdikdən sonra dövlət və dövlətçilik tarixinin, bu tarixin fomalaşmasında tarixi şəxsiyyətlərin rolunun araşdırılması və obyektiv öyrənilməsi üçün əlverişli şərait yaranmış, tarixi hadisə və prosesləri, siyasi və dövlət xadimlərinin baxışlarını, fəaliyyətlərini olduğu kimi öyrənmək və qiymətləndirmək problemi aktuallaşmışdır.

Bu baxımdan görkəmli alim, hüquq üzrə elmlər doktoru, professor Əli Rzayevin "Şəxsiyyət. Dövlət. Möcüzə..." adlı dərs vəsaiti müasir dövlətçilik problemlərinə baxışlarının orijinallığı, dərin və qeyri-standartlığı, dolğunluğu, fundamentallığı və kompleksliyi, dövlət, dövlət hakimiyyəti, şəxsiyyət və din amili, onun dövlətin formalaşmasında rolu baxımından xüsusilə seçilir.

Müəllif bir-biri ilə sıx bağlı olan üç problemə çoxfaktorlu fenomen olmaqla, dövlət intizamının möhkəmləndirilməsini, cəmiyyət və dövlətin bütün həyat fəaliyyəti sahəsində qanunçuluğa və hüquq normalarına riayət etməsini təmin edən xüsusi ictimai münasibət kimi baxır.

Əsərdə lakonikliyi və dərin mənalığı ilə seçilən və tarixin süzgəcindən keçirilərək bizə gələn Azərbaycan və dünya

klassiklərinin hikmətli sözlərindən hər bir fəslin və paraqrafın başlanğıcında və məzmununda geniş istifadə edilməsi kitabı daha da oxunaqlı edir.

Kitabda istifadə olunan ədəbiyyatlar müəllifin geniş dünyagörüşünü, mütaliəetmə qabiliyyətini əks etdirir. İqtibasların məntiqi cəhətdən yerində gətirilməsi əsərin elmi dəyərini daha da artırır. Müəllif məhz onların köməyi ilə öz mövqeyini elmi cəhətdən əsaslandırır, ehtiva olunan paraqrafların hər birini mükəmməl elmi nəticələrlə bitirir.

Ayrı-ayrılıqda hər bir bölmə tədqiqat mövzusu olmasına baxmayaraq, müəllif bütün bu kateqoriyaları çox məharətlə birləşdirmiş və bu amil mövzunun ümumi mahiyyətinin açılmasında özünəməxsus rol oynamışdır. Problemin məhz bu baxımdan kompleks şəkildə araşdırılması professor Əli Rzayevə mühitin öyrənilməsinə düzgün elmi-metodoloji yanaşmağa imkan verir.

Müəllif dövlət mexanizmini hərəkətə gətirən, sistemə dinamiklik verən əsas elementin insan olduğunu nəzərə alaraq kitabının ilkin bölməsində şəxsiyyət amilini – üç istiqamətdə - zaman, məkan və siyasi mühit prizmasından araşdırmağa çalışmışdır. Eyni zamanda kitabın 1-ci bölməsində insanın canlı aləmdə yeri, şəxsiyyətin xarakterik xüsusiyyətləri, şəxsiyyət ləyaqəti, şəxsiyyətin statusu və s. məsələlərə toxunulmuşdur.

"Həyatda şərəf və şərəfsizliyi, şəxsi rifah və ictimai borcu, tamahkarlıq və vicdanlılığı hər kəs özü seçir" Ulu Öndər Heydər Əliyevin bu müdrik kəlamı ilə müəllif insanın üzərinə böyük məsuliyyətin qoyulduğunu önə çəkir.

Kitabda dövlət, dövlət təzahürləri - dövlət hakimiyyəti, dövlət aparatı, dövlət idarəetməsi və dövlət qulluğu ilə qarşılıqlı təsirdə və əlaqədə baxılır, hər birinə qısa şəkildə təhlil verilir. Dövlətə dövlətçiliyin hissəsi kimi baxılır. Müasir döv-

rdə idarəetmənin mahiyyəti, dövlətin məqsəd və funksyalarının həyata keçirilməsində rolu, insanın həyat fəaliyyətində bu fenomenə diqqətin artırılması təklif olunur.

Kitabın əsas ideya mənbəyini təşkil edən dövlət və cəmiyyət münasibətləri, dövlətin tarixi tipləri və idarəçilik formaları və hüquqi dövlət anlayışları dövürünün mütəfəkkir şəxslərinin (Platon, Aristotel, T.Hobbs, C.Lokk, J.J.Russo, B.Spinoza və s.) mütərəqqi konsepsiyaları baxımından nəzərdən keçirilmişdir.

Kitabda Qədim dövrdə nümunəvi dövlətlərin yaradılmasında Likurqun, Solonun, Serviy Tuliyin rolu: Likurq qanunları və Sparta aristokratik dövləti; Solonun islahatları və Afina quldarlıq demokratiyası; Serviy Tuliyin islahatları və Roma Aristokratik Respublikası; Ən yeni dövrdə Medisonun demokratik yönümlü dövlətlər üçün nümunə sayılan ABŞ demokratik konstitusiyasının yaranmasında rolu yarım fəsillərdə təhlil edilir.

Qədim dövr filosoflarının (Fales, Pifaqor, Konfutsi, Heraklit, Sokrat, Demokrit, Platon, Aristotel, Siseron) təlimləri, Orta əsrlərdə Şərq müdriklərinin (əl Fərabi, İbn- Sina, Nizammülk, Nizami Gəncəvi, Nəsirəddin Tusi) fikirləri, Orta əsrlərdə və Yeni dövrdə Avropa mütəfəkkirlərinin (N. Makiavelli, F.Bekon, T.Hobbs, C.Lokk, Ş.Monteskye, J.J.Russo) baxışları göstərilir.

Dərs vəsaitinın sonuncu bölməsində Şumer və Quran möcüzələrindən bəhs edilir. Bu iki möcüzədə ümumi oxşarlıq olduğu bildirilir. E.ə. IV minillikdə hardan gəldiyi və kimliyi məlum olmayan Şumerlərin qısa müddətdə dünyanı heyrətə gətirən yeniliklərin: ilk kəşflərin, icadların və ixtiraların hardan qaynaqlandığı məsələsi hələ də dəqiq cavabını tapmamışdır. Bir sözlə dərs vəsaitində Şumer möcüzəsi (it-

miş Şumer tarixinin dirçəlişi, Şumerlərin bəşəriyyətə verdiyi yeniliklər, onların mənşəyi, dili, siyasi hakimiyyəti və başqa mədəniyyətlərə təsiri), Quran möcüzələri (Quranda elmi həqiqətlər, Həzrəti Məhəmmədin (s) elm və davranışla bağlı kəlamları, Həzrəti Əlinin elmi təfəkkürü) təhlil edilir. Axrıncı yüz illikdə yeni texnologiyanın tətbiqi və elmin inkişafı nəticəsində əldə olunan yeni kəşflərin və ixtiraların dərindən təhlili göstərir ki, bütün bunlar 1600 il bundan əvvəl ilahidən nazil olmuş Qurani-Kərimdə dəqiqliklə göstərilmişdir.

Kitabda Qədim dövrdə ən inkişaf etmiş Krit mədəniyyətinin və Roma sivilizasiyasının çiçəklənməsində Şərqin təsiri tarixi faktorlarla əsaslandırılır və Şərq elminin Avropaya transformasiya yolları göstərilir.

Şumer və Quran möcüzələri məsələlərinin ön plana keçirilməsinin əsas məqsədi Şərqdə Şumerlərdə yaranmış sivilizasiyanın və elmin dünyaya yayılması və geriyə qayıdış ənənəsinin getməsini göstərməkdir.

Bu dərs vəsaitində böyük filosof və mütəfəkkirlərin aforizmlərindən (müdrik kəlamlardan) və internet materiallarından geniş istifadə edilmiş, zəngin mənbə bazası əsasında yazılmışdır.

Bütövlükdə müxtəlif məsələlərin araşdırılmasını özündə əks etdirən bu dərs vəsaiti dövlətçiliklə bağlı mürəkkəb və mühim məsələlərin həllinə kömək göstərəcəkdir.

Kitabla tanış olanda ona müəllifin vətənpərvər hüquqşünas alim kimi yüksək fərdi yaradıcılığı və təşəbbüskarlığı, onun uzun müddətdə zəhmət və səbr tələb edən yaradıcılıq işinin və yorulmadan elmi axtarışlarının məhsulu kimi baxmaq olar.

Professor Ə.H.Rzayevin əsərinin fərqli cəhətləri və xarakterik xüsusiyyətləri, onun dövlət qulluğu problemlərinin mahiyyətini dərindən nüfuz etməyə səy göstərməsi, dövlət

qulluğu sisteminin hüquqi modelini formalaşdırması, oxuculara nəzəri-hüquqi materiallarla yanaşı, konkret praktiki tövsiyələr verməsindədir.

Dərs vəsaitinin innovasiya xüsusiyyətləri özünü onun strukturunun orijinallığında, məzmununun genişliyidə, əhatəliliyində göstərir və ensiklopedik mahiyyət daşıyır.

Əli müəllim zəngin bir ömür yolu keçmiş, təcrübəli və uzaqgörən bir insandır. Onun hüquq elmi üzrə bir çox əsərləri var ki, yaşantımızın bütün sahələrində istifadə olunur və diqqəti cəlb edir. Mən ümidvaram ki, Əli müəllim gələcəkdə yenə də samballı əsərlər yazaraq öz oxucularını sevindirəcəkdir. Bu yolda ona müvəffəqiyyətlər və uğurlar arzulayıram.

***Habil Qurbanov***
*hüquq üzrə elmlər doktoru,*
*professor*

## "Şəxsiyyət. Dövlət. Möcüzə..." adlı kitab haqqında təəssüratlarım

Bəşəriyyət çox mürəkkəb dövrünü yaşayır. Bu mürəkkəblik həyatın bütün sahələrində - siyasi, mədəni, iqtisadi sahələrdə dərin böhranlarla müşayiət olunur. Sonu məlum olmayan siyasi proseslər, milli-mənəvi dəyərlərdə baş verən dəyişikliklər, ən əsası isə, maddi rifaha canatma bütün dünyada çox güclü şəkildə özünü göstərir. Xoşagəlməz cəhətlərdən biri də ondan ibarətdir ki, daha çox maddiyyat əldə etmək üçün heç nədən çəkinilmir. Yəni hər bir üsul burada yetərlidir. Belə bir zamanda kitab yazmaq, insanları biliyə, mədəniyyətə, əxlaqa, düşüncəyə dəvət etmək olduqca təqdirə layiq hadisədir. Professor Əli Rzayevin "Şəxsiyyət. Dövlət. Möcüzə..." kitabının yalnız mündəricatına nəzər yetirdikdə artıq belə bir qənaət hasil olur ki, əsər müəllifin böyük zəhməti sayəsində araya-ərsəyə gəlib. Belə ki, ilk baxışdan, sanki, birbaşa əlaqəsi olmayan mövzular bir-biri ilə son dərəcə üzvi şəkildə əlaqələndirilib və mövzuların təqdimatında yalnız yüksək təfəkkürün reallaşdıra biləcəyi bir ümumiləşdirmə gerçəkləşdirilib. Bu isə, öz növbəsində, şəxsiyyət, dövlət, cəmiyyət, həmçinin ən qədim insan sivilizasiyası, bəşər mədəniyyət tarixinin mühüm mərhələsi hesab olunan Şumer mədəniyyəti və dünyanın müqayisəyə gəlməz möcüzəsi olan Quran haqqında müəllifin ətraflı tədqiqatlarından alınan nəticələrdə öz əksini tapıb.

Dünyada ayırıcılıq meylləri bu gün son dərəcə güclənib. Bu istiqamətdə Şərq və Qərb dövlətləri arasında destruktiv, intolerant münasibətlərin çoxalması daha çox özünü büruzə verir. Yəqin ki, bunun tarixi kökləri vardır, çünki Qərb mədəniyyəti hər zaman bütöv şəkildə nəzərdən keçirildiyi halda,

müxtəlif tarixi dövrlərdə Şərq mədəniyyətini parçalamaq istəkləri həmişə müşahidə olunub. Bu mənada Şərq mədəniyyətini elmi ədəbiyyatda ardıcıl olaraq "ərəb", "müsəlman", "islam", "ərəbdilli" və ya Orta Şərq, Cənubi Asiya, Cənubi-Şərqi Asiya, Uzaq Şərq, Mərkəzi Asiya və ərəb-müsəlman sivilizasiya zonalarına bölürlər. Təbii ki, belə yanaşma mahiyyəti təhrif edir, belə ki, böyük bir tarixi zaman çərçivəsində bəşəriyyətə görkəmli fikir dühalarını bəxş edən, dünya sivilizasiyasının gələcək inkişafına təkan verən bir mədəniyyəti lokal dil və din spesifikliyi çərçivəsinə sığdırmaq, sözsüz ki, gerçəkliyi əhatə etmir və məsələyə belə münasibət dünya mədəniyyətinin parçalanmasına səbəb olur. Lakin Əli müəllimin oxucuların diqqətinə təqdim etdiyi bu dəyərli əsərdən və ümumiyyətlə, bu səpkidə yazılan kitablardan belə bir qənaət formalaşır ki, artıq dünya mədəniyyətinin bütöv şəkildə tədqiq edilməsi zərurəti açıq-aydın şəkildə özünü göstərir. Yəni yalnız məsələyə tamlıqda yanaşma dünya mədəniyyətinin tarixi inkişafı proseslərinə obyektiv fikir formalaşdırmaqla yanaşı, həm də elmi dövriyyədə, ictimai fikirdə mövcud olan bir çox qeyri-obyektiv fikirlərə də işıq sala bilər. Müəllif kitabın hər bölümündə müxtəlif mövzulara istər Şərq, istərsə də Qərb alimlərinin, mütəfəkkirlərinin fikirlərini məntiqi ardıcıllıqla, mövzuya müvafiq şəkildə təqdim edir və bu fikirlərdə hər iki dünyanın insanı üçün mühüm olan dəyərlərin nə qədər oxşar mahiyyət daşıdığı üzə çıxır. Qeyd edilən mövzu ilə əlaqədar olaraq "Şərq və Avropa elminin sintezi: əsas istiqamətlər" yarımfəslində bu iki mədəniyyətin iç-içə, qarşılıqlı əlaqədə və bir-birinə təsiri nəticəsində dünya mədəniyyətini zənginləşdirdiyi qələmə alınmış, məsələlərə konkret münasibət bildirilmişdir.

Kitabın "Şəxsiyyt" bölümündə İnsan və Şəxsiyyət anlayış-

larına aid bir sıra mühüm məqamlar müəllif tərəfindən elmi şəkildə, bütün təfərrüatları ilə təhlil edilib. İnsanın şəxsiyyət olaraq əsas keyfiyyəti onun məqsədyönlü fəaliyyətində təzahür edir. Şəxsiyyət özünün aktiv fəaliyyəti sayəsində yaşadığı mühiti dəyişdirmək iqtidarına malikdir. Yəni şəxsiyyət yalnız ictimai münasibətlərin daşıyıcısı deyil, həm də fərdi xüsusiyyətlərinə, özünəməxsusluğuna, təcrübə və intellektinə, mütəşəkkilliyinə və peşakarlığına, ona məxsus olan mədəniyyətinə müvafiq olaraq bu münasibətlərə təsir etmək qabiliyyətinə sahibdir. Başqa sözlə, səxsiyyət ictimai və sosial fəallığı ilə seçilən, fərd olaraq təkrarolunmaz varlıqdır.

Müəllifin bu bölümdə ləyaqət anlayışına ayrıca yer verməsi və bu kateqoriyanı ən incə detalarına qədər tədqiq etməsi təsadüfi xarakter daşımır, belə ki, şəxsiyyəti xarakterizə edən ən ümdə xüsusiyyətlərdən biri də məhz onun ləyaqətli olmasıdır. Həyatın bütün dönəmlərində mövcud şərait və situasiyadan asılı olmayaraq, insan öz şərəf və ləyaqətini dünyanın bütün var-dövlətindən, şan-şöhrətindən, lazım gələrsə, həyatından belə üstün tutmağı bacarmalıdır. Təbii ki, bu asan məsələ deyil, çünki hər kəs Allahın insanlar qarşısında qoyduğu bu çətin sınaqdan çıxmaq iqtidarına malik deyil. Kitabı oxuyan hər bir kəs ləyaqətli şəxsiyyət olmaq nə deməkdir sualına ətraflı cavab tapa bilər, çünki yenə də bu fikri vurğulamaq istəyirəm ki, müəllif ləyaqət anlayışına dair İstər Şərq, istərsə də Qərb alim və mütəfəkkirlərin fikir və mülahizələrini, aforizmlərini ətraflı şəkildə kitabda təqdim edib. Bu məqamda bir məsələni xüsusilə qeyd etmək istərdim ki, etikanın ənənəvi kateqoriyası sayılan, insan və cəmiyyət həyatında mühüm mahiyyət daşıyan ləyaqət amilinə ölkəmizin prezidenti İlham Əliyev də çox böyük qiymət verir. Bu mənada onun bir çox çıxışlarında bu yüksək insani keyfiy-

yət ardıcıl olaraq qeyd olunur: “Hər kəs ləyaqət, ədəb-ərkan, vətənpərvərlik hissini özü ilə irəli aparmalıdır” http://www.president.az/articles/21251 2016- il oktyabrın 2-də Roma Papası Fransiskin Azərbaycan Respublikasına səfəri zamanı ölkəmizin prezidenti Heydər Əliyev Mərkəzində ictimaiyyət nümayəndələrinin qarşısında çıxışında da demişdir: “*Azərbaycanda əsrlər boyu bütün dinlərin, xalqların nümayəndələri sülh, ləyaqət, mehribanlıq şəraitində yaşamışlar, bu gün də belədir*”. http://www.president.az/articles/21251

Müəllif dövlət mövzusunu istər tarixilik, istərsə də müasirlik baxışından ətraflı şəkildə təhlil edib. Bu gün ayrı-ayrı dövlətlərin sərhədlərindən kənara çıxan ümumdünya iqtisadi-siyasi, mədəni bir sistem formalaşır. Bu sistemin formalaşmasında dövlətlər eyni, bərabər hüquqlar səviyyəsində olmadıqlarına görə qarşılıqlı əlaqələr və qarşılıqlı münasibətlərdə müxtəlif səpkili problemlər meydana çıxır. Bu əlaqələrin sırasında, fikrimizcə, daha çox zərər görən milli-mənəvi dəyərlər olur. Digər tərəfdən, milli-mənəvi dəyərlərin istər dövlətçilik, istərsə də dövlətin qorunub saxlanılması baxımından mahiyyəti olduqca böyükdür. Məhz milli-mənəvi dəyərlər dövlətin də, dövlətçiliyin də varlığını təyin edən mühüm strukturlardan biridir. Bu baxımdam belə bir ciddi problemin ətraflı təhlili olduqca yerinə düşüb. Müəllif öz ənəsinə sadiq qalaraq burada da istər Qərb, istərsə də Şərq alimlərinin, mütəfəkkirlərinin müdrik kəlamlarını təqdim etmiş, məsələyə münasibətlərini geniş şəkildə şərh etmişdir.

Kitabın “Dövlət və dövlətçilik” adlanan bu fəslində müəllif Hegelin məşhur “Xalqın taleyi süquta sürətlə yaxınlaşanda onu yalnız dahi xilas edə bilər” fikrini epiqraf olaraq təqdim etmişdir. Bu sətirləri oxuyan zaman təbii olaraq gözümüzün

önünə Ulu Öndər Heydər Əliyev gəlir. Adətən, yaşadıqları zamanı qabaqlayan insanlar dahi hesab olunurlar. Məhz Heydər Əliyevin müstəsna uzazqgörənlik bacarığı tarixin çox sərt dönəmlərində Azərbaycanı böyük bəlalardan xilas etdi və gələcək inkişaf yolunu müəyyənləşdirdi. Təsadüfi deyildir ki, bu qeyri-adi bacarığına görə dünyanın ən inkişaf etmiş ölkələrinin dövlət başçıları və görkəmli siyasətçiləri Ümummilli Lider Heydər Əliyevi dahi şəxsiyyət, böyük siyasətçi və dövlət xadimi kimi qiymətləndirirlər. Heydər Əliyev şəxsiyyətinin dahiliyini səciyyələndirən cəhətlər çoxdur, lakin Azərbaycan Respublikasının həyatında təsədüf edilən iki böhranlı mərhələdə xalqın və ölkənin xilası naminə atdığı qətiyyətli addımlar Ulu Öndərmizin müstəsna tarixi nailiyyətidir.

Kitabda Şumer sivilizasiyası ətraflı şəkildə araşdırılıb, bu mədəniyyətə dair faktlar, fikir və mülahizələr ümumiləşdirilərək təqdim edilib və belə yanaşma oxucuda bu unikal mədəniyyət haqqında bitkin fikrin formalaşmasına imkan yaradır. Artıq sübut olunub ki, Şumer sivilizasiyası Yer üzünün ən qədim sivilizasiyasıdır. Haradan yarandığı dəqiq məlum olmayann bu unikal sivilizasiya bəşər tarixinin ən yüksək inkişaf mərhələsininin əlamətlərini özündə təcəssüm etdirir və kitabda bu sivilizasiyanın dünyaya bəxş etdiyi "möcüzə"lər haqqında bilgi və məlumatlar ətraflı şəkildə öz əksini tapıb. Doğrudan da, dünya mədəniyyəti tarixində ölçüyəgəlməz izlər qoyub getmiş bu sivilizasiya insanda heyrət doğurur. Bir çox "ilk"lərin məhz Şumerdə yarandığı iddia olinir. Şumerlər çox gözəl səyyah və tədqiqatçı olublar. Dünyada ilk gəminin ixtirasının da şumerlərin adı ilə bağlı olduğu məlumdur. Buna sübut olaraq Sumer sözlərinə aid lüğətlərdən birində ölçüsünə, təyinatına və yükdaşıma növünə görə 105 gəmi növü qeyd edilir. Kosmoqoniyanın və kosmologiyanın

ilk olaraq Şumerdə yarandığı, ilk atalar sözləri və aforizmlər məcmuəsinin meydana gəldiyi də bu mədəniyyətlə əlaqələndirilir. Ədəbi müzakirələrin, kitab kataloqlarının, vergilərin tətbiq edilməsinin, qanunların qəbul edilməsinin və sosial reformaların da ilk olaraq Şumerlər tərəfindən həyata keçirildiyi tarixə məlumdur. Əli müəllim tarixi faktlara əsaslanaraq bəşər mədəniyyətində dərin izlər qoymuş bu sivilizasiya haqqında olduqca maraqlı və düşündürücü məlumatlar irəli sürmüşdür. Məhz bu məqamı əsərin mühüm məziyyətlərindən biri kimi dəyərləndirmək lazımdır.

Bu gün dünyada izahı mümkünsüz olan hadisələr baş verir. Sanki, kimsə bilərəkdən (və yəqin ki də, bilərəkdən) insanların ən həssas hisslərinə toxunaraq onları hiddətləndirib öz niyyətini həyata keçirməyə cəhd edir. Sitayiş etdiyi din hər bir xalqın mənəvi həyatında çox böyük mahiyyət daşıyır. Bu hisslərlə oynamağı heç bir xalq özünə rəva bilməz. Dünyanın aparıcı qüvvəyə malik dövlətləri öz siyasətlərini yeritmək üçün məhz bu amildən çox bacarıqla istifadə edirlər və əsasən, İslam dininin daşıyıcıları arasında nifaq salaraq bir təfəfdən varlanmaq, digər tərəfdən isə onsuz da Qərbdən geridə qalan Şərqi daha da geri salmaq niyyətlərini hələ ki, həyata keçirməyə müvəffəq olurlar.

Dinin cəmiyyətdə rolu olduqca böyükdür. Qeyd edək ki, XX əsrin axırlarında artıq sekulyarlaşma (sekulyarlaşma XIX əsr Qərb fikrinin məhsuludur və dini təsəvvürdən dünyəvi təsəvvürə keçidi ehtiva edir) mühüm paradiqma kimi nəzərdən keçirilmirdi, daha çox postsekulyar dünyadan danışılırdı. “Postsekulyarlıq” imanla elmin vəhdət şəklində fəaliyyət göstədiyi bir cəmiyyəti nəzərdə tutur. XIV əsrdə yaşamış İbn Haldun və yaxud XIX əsrdə yaşayıb-yaratmış Con Ctüart Mill, Bertran Rassel belə bir fikir irəli sürmüşlər ki, ayrı-ayrı in-

sanlar dinsiz yaşaya bilərlər. Əxlaqi şüur insanı insan edən amildir. Amma cəmiyyət dinsiz yaşaya bilməz. Çünki din özü də bu və ya digər şəkildə əxlaqla əlaqədardır. Təbii ki, din öz-özlüyündə humanist, demokratik dəyərlərə əsaslanırsa, çox gözəl işlər görə bilir. Cəmiyyəti idarəetmək təşəbbüsləri irəli çıxdıqda isə, dəhşətli bir təzad yaranır ki, bu gün gözlərimizin önündə fanatizmin, fundamentalizmin, terrorizmin baş alıb getdiyini müşahidə edirik. Bu baxımdan kitabda ayrıca bir fəsildə Quranın bir möcüzə kimi təqdim edilməsi, bu ətrafda irəli sürülən orijinal fikirlər bu gün dünyada İslam dini haqqında dövriyyəyə buraxılmış yalnış təsəvvürləri alt-üst edir. Bu xüsusda kitabda diqqətimi çəkən ümdə məqamlardan biri də müəllifin Napoleon Bonapartın belə bir fikrinə müraciəti oldu: "Dünyanın bütün alim və mütəfəkkirlərini bir yerə yığaraq, yeganə doğru və insanları səadətə aparacaq tək bir vasitə olan Quranın prinsiplərinə əsaslanaraq müştərək bir rejim quracağım dövrün çox yaxın olduğuna ümid edirəm". Napoleonun Məhəmməd peyğəmbərə rəğbəti tarixdən məlumdur. Öz memuarlarında o, yazırdı ki, Məhəmməd öz həmvətənlərini inandıra bildi ki, yalnız bir Allah vardır. Bir neçə ilə o, dünyanın yarısını fəth etdi və 15 il ərzində o, xeyli sayda qəlbləri saxta allahlardan xilas etdi, 15 əsr ərzində İsanın və Musanın davamçılarının edə bilmədikləri qədər büt, bütpərəslik məbədlərini aradan qaldırdı.

Kitab tarixi faktlarla və bu faktları əsaslandıran mənbələrlə zəngindir. Müəllif tərəfindən təqdim edilən fikir, mülahizə, ideyalar təhrif olunmadan, müvafiq mənbələrə əsaslanılaraq oxucuya təqdim edilir. Bu məqam əsəri oxunaqlı etməklə yanaşı, həm də olduqca geniş tarixi faktları, məlumatları lokonik, ardıcıl, məntiqi və elmi şəkildə oxucuya təqdim edir.

Kitabın mövzu dairəsi olduqca genişdir, biz bunlardan bəziləri üzərində dayandıq, lakin əminliklə deyə bilərik ki, bu dəyərli əsər oxucularda böyük maraq doğuracaq və elmi ictimaiyyət tərəfindən yüksək şəkildə qəbul ediləcəkdir.

Bir məsələni isə xüsusilə qeyd etmək istərdim. Təbii ki, Əli müəllimin insani keyfiyyətlərindən çox danışmaq olar, lakin onun haqqında mən öz fikirlərimi belə izhar edərdim: son dərəcə mədəni, savadlı, səviyyəli, güvəncli İNSAN! Əli müəllimə bundan sonra da böyük yaradıcılıq uğurları arzulayıram.

***Afaq Rüstəmova,***
*fəlsəfə elmləri doktoru*

## Əli Rzayevin "Şəxsiyyət. Dövlət. Möcüzə..." adlı fundamental monoqrafiyasına dair bəzi fikir və mülahizələr

Hüquq elmləri doktoru Əli Rzayevin güclü potensiala malik təfəkkür və təcrübəsinin məhsulu ki, uzun illərin axtarışı ilə ərsəyə gətirdiyi kitab cap olunandan sonra mənə bu kitabla yaxından tanış olmaq maraqlı idi. Ona görə ki, Əli Rzayevin özünəməxsus düşüncəsi, qarşıdakı insanlara elmi potensialın gücü ilə təsir etmək imkanları sözün əsl mənasında tədqiqatcı marağına səbəb olur.

İlk əvvəl kitaba ön söz yazmış akademiklərin fikirlərini diqqətlə oxudum, kitab haqqında ilkin təsəvvürü əsərin adından sonra bu rəylərdən aldım. Məndə belə bir fikir yarandı ki, müəllifin kitabda dəsti xətti və demək istədiyi nədir. Bu istəklər hansı dərinliklərdən qaynaqlanır və bizə nə üçün lazımdır. Qənaət belə oldu ki, kitabı oxumaq və onun haqqında bir növ fikirlərimi müəlliflə bölüşmək zərurəti var. Bir də ona görə ki acığı Əli müəllimin düşüncələri ilə mahiyyət etibarilə bir mənim düşüncələrimin bir qismi ust-ustə düşür, həmsöhbət olarkən bəzi suallarıma cavab tapıram. Deməli kitab həm tədqiqatcı üçün yeni imkanlar acır, bəlkə də növbəti tədqiqatlar üçün başlanğıc verir.

Bəli, istək və arzular emosiyaların, əhvali ruhiyyənin və narahatcılığın ifadəsi deyil. Onlar həm də dərin düşüncələrin, elmi axtarışların, mütəmadi olaraq bir-biri ilə cırpışmaqda olan fikirlərin, şübhələrin, inancların məhsulunun nəticəsidir. Əsər haqqında akademik Vasim Məmmədəliyevin bu fikri önəm daşıyır. Müəllifin üzərinə götürdüyü məsuliyyətə görə əsər boyu narahatcılığını anlamaq mümkündür.

Əsərin hər bir bölümündə başlanğıc verdiyi kəlamlar isə

mühüm əhəmiyyət kəsb edir və bu kəlamlar dünya tarixinin, habelə tarixi həqiqət axtarışında görkəmli şəxsiyyətlərin zəkalarından süzülüb gələn dəyərli fikirlərin bu günlə səsləşən meyarlarıdır. Bu kəlamlara istinadən müəllif dövlət idarəetməsindəki real imkanları müxtəlif dövrlərin özünəməxsus xüsusiyyətlərinə üyğun olaraq mahiyyətini acır və bir növ şəxsiyyəti zaman reallıqları daxilində təhlil edir. İdarəetməni isə bu proseslərin tərkib hissəsi kimi şəxsiyyətlərin konkret tarixi şəraitdəki iradəsinin məhsulu kimi acmağa calışır. Nəticədə müəllif hər dövrün siyasi gəlişmələrinin və mübarizələrinin mahiyyətini aca bilir və elmi yanaşma nümayiş etdirir. Bu təhlilin nəticəsidir ki, hüquqi dövləti, vətəndaş cəmiyyətini, totalitarizmi habelə sinfi mübarizələrin kəskinləşmə mərhələlərini hər dövrün siyasi proseslərində cərəyan edən hadisələrin ayrılmaz hissəsi olaraq şəxsiyyətlərin özlərinin söylədikləri fikirlərlə sübuta yetirir. Məsələn, "Qalibi mühakimə etmirlər", "Qanun qəbul edərkən özümü ona tabe olanın yerinə qoyuram" (II Yekaterina), Ən vicdanlı adamın əli ilə yazılmış altı sözü mənə versəniz mən onda elə şey taparam ki, ona görə onu asa bilərlər"( Rişelye), "Böyüklükdən gülünc vəziyyətə düşmək bir addımlıqdadır"(Napoleon) və s. kimi coxlu kəlamlar əsərdə yerində deyilməklə onlara cox mükəmməl tədqiqatcı şərhi verilir. Cünki müəllif idarəetməni tarix və zaman kontekstində şəxsiyyətin qarşılıqlı harmoniyasında təhlil edir və yanaşır. Bəli, müxtəlif düşüncə və təfəkkürlərin bir-birini əvəz etməsi dünyanın tez-tez məcrasından cıxmasına səbəbdir. Bəzən bunu inkişaf kimi də qiymətlədirirlər. Bu mənada müəllif şəxsiyyət anlayışının insan fenomeni üzərində mahiyyətini acır. Bəşəriyyətdə eləcə də canlı aləmdə insanın roluna dair təhlillər aparır. Müəllifin bu təhlillər zamanı ana xətti odur ki, insanı bəşəriyyətdə yalnız

müsbət kontekstdə görmək istəyir. Mülahizələrində ikiüzlüyü, riyakarlığı, paxıllığı habelə pis əməlləri bu ali varlıqdan uzaq tutmağa calışır və öz yanaşması ilə düz yola cağırır.

“Həyatda şərəf və şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər kəs özü secir” Ulu Öndər Heydər Əliyevin bu müdrik kəlamı ilə müəllif insanın üzərinə böyük məsuliyyətin qoyulduğunu önə cəkir və əsaslandırır ki, insan cəmiyyətin ictimai münasibətlərində şəxsiyyət statusu aldıqca onun ictimai borcları, xalqa, millətə olan xidmətləri də coxalır. Şəxsiyyət anlayışında isə bu məsuliyyətin düzgün dərkini və yanlış addımlar atmamağını önə cəkir. Buna görə də əsərdə müəllif insan ləyaqətinin rəhbərlikdə olarkən vacibliyini əsas meyar hesab edir. Deyərdim ki, bəşər tarixi həmişə nadanlıqdan əziyyət cəkib və dahilərin düzəldib ərsəyə gətirdiyini onlar təssüf ki, bir andaca məhv ediblər. Ona görə də Ulu Öndər Heydər Əliyevin “vəzifə insana hec nə vermir sadəcə səlahiyyət verir. Qalan hər şey onun ağlından, zəkasından, biliyindən, və mədəniyyətindən asılıdır” kimi kəlamı tarixi əhəmiyyətə malik olmaqla yanaşı idarəetmədə müdriklərin və ağıllıların secilməsini şərtləndirir. Bu kontekstdə Əli müəllim böyük şəxsiyyətlərin fəaliyyətindəki oxşar və fərqli məqamləri təhlil obyektinə cevirərək müqayisəli təhlillər aparır.

Müəllif kitabda “Dövlət mexanizmi” adlı geniş bir fəsil ayırmışdır. Burada o, hakimiyyət anlayışının, dövlət mexanizminin təhlilinə yer verməklə, həm də siyasət anlayışını geniş təhlil edir və onun idarəetmədəki roluna dair fikirlər söyləyir. Əlbəttə, siyasət hakimiyyət olan yerdə zərurətdən yaranır. Lakin təssüf ki, bu gün bəşəriyyətdə siyasəti qorxunc, insanları təsir altında saxlamaq metodu, və hiyləgərlik kimi komponentləri özündə birləşdirən anlayış kimi təlqin et-

məyə cəhd edənlər coxdur. Məncə bunlar bəşəriyyətin düşmənləridir. Əli müəllim siyasətin mahiyyətini həqiqi müdrik insanların dilindən təhlil etməyi qarşıya qoyur. Bəli, siyasət ağıl tələb edən, müdriklik sənətidir. Onu ləkələyənlərə nadanlıqdan başqa bir ad vermək mümkün deyil.

Əsərdə siyasətlə bağlı coxlu fikirlər vardır. Əli müəllim Ulu Öndər Heydər Əliyevin kəlamlarına cox müraciətlər etmişdir. Fikrimcə, bu ona görə vacibdir ki, hec bir şəxsiyyət və dahi siyasi xadim siyasətin düzgün dərk edilməsini, aliliyini, paklığını, ədalətə söykənməsini Ulu Öndər Heydər Əliyev qədər öz iradəsində və baxışlarında ifadə edə bilməmişdir. Əgər siyasət cəmiyyətlə, sıx bağlıdırsa, bəşəriyyətin taleyi isə bu addımlardan rəvac götürürsə onda siyasətin qiymətini verərkən dünya tarixinin azərbaycanlı dahisi Heydər Əliyevin siyasi irsini dərindən öyrənmək zəruridir. Məsələn, alim əsərdə cox yerinə düşən bir kəlamı daxil edir. “Dövlətin dayağını iki şey laxladır: günahkar cəza almayanda, günahsıza cəza veriləndə”. Ulu Öndərin bu kəlamı bəşəriyyəti ədalətə səsləməklə insanlığı cox yüksək pillədə tutur.

Bütün bu yanaşmaları Əli müəllim ardıcıl və bir-birinə bağlaya-bağlaya əlaqəli şəkildə tədqiq etmiş, əsərin tədqiqat dairəsini tamlaşdırmışdır. Əsərdə bütövlükdə qarşıya qoyulan problemlərin mahiyyətini acmaq məntiqi ardıcıllıqla özünü göstərir.

Dövlətin tarixi tiplərini və idarəcilik formalarını şərh edərkən də xalqın arzu istəklərini və hüquqi dövlətin prinsiplərində qanunun aliliyinə geniş yer ayırmışdır. Bunun dövlət xadimlərinin siyasətindəki yerinə nəzər salır, gələcək proqnozları şərh edir. Bu bölümdə müəllif antik mütəfəkkirlərin fikirlərinə nəzər yetirərkən sosial ədalət və hümanizmi önə cəkir, dövrün xarakterik xüsusiyyətlərinə münasibət bildirir.

Əsərdə daha maraqlı məqamlardan biri də budur ki, sivilizasiyaların müqayisəli təhlili zamanı Şərq müdrikliyinin mahiyyətinə cox dəyərli şərhlər verilmişdir. “Fiziki günəş Şərqdən doğur, mənəvi özünüdərkin daxili günəşi isə Qərbdədir”(Hegel) kəlamını avropa mütəfəkkirinin öz dili ilə acır və Şərq mədəniyyətinin dünya sivilizasiyasındakı bir cox hadisələrə başlanğıc verməsini bəşəriyyətin xəzinəsi kimi qiymətləndirir. Bu da Şərq və Qərbi öyrənərkən tarixin hər zamanlarında sanballı faktlardır.

Bütövlükdə hüquqşünas-alim Əli Rzayevin əsəri düşünürəm ki, elmi ictimaiyyatda oxucu kütləsinin tələbatını günümüzün reallıqları baxımından ödəməyə xidmət edən fündamental əsərdir və bir növ müəllif tələbatdan döğan sifarişi yerinə yetirmişdir.

Ömrünün müdrik cağında yeni yaradıcılıq və can sağlığı arzusu ilə

***Sənan Həsənov***
*Ulu Öndər Heydər Əliyev irsinin tədqiqatcısı,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru,*
*böyük elmi işci*

**Hüquq üzrə elmlər dotoru, prof. Əli Rzayevin “Şəxsiyyət. Dövlət. Möcüzə...” adlı monoqrafiyasına Rəy**

## DÖVLƏTÇİLİYİN FƏLSƏFİ, MƏDƏNİ ƏSASLARI

Yaxınlarda hüquq üzrə elmlər dotoru, prof. Əli Rzayevin “Şəxsiyyət. Dövlət. Möcüzə...” adlı fundamental əsəri çapdan çıxmışdır. Əsər öz elmi zənginliyi, məsələlərin çoxşaxəli aspektdə bütöv qoyuluşu, vahid prizmadan araşdırılması ilə diqqəti cəlb edir. Tədqiqat cəbhəsinin genişliyi və vahid məqsədin gerçəkləşdirilməsi əsərin başlıca uğurudur.

I bölmədə müəllif “insan və şəxsiyyət” fenomenini araşdıraraq, insanın cəmiyyətə adaptasiya prosesində şəxsiyyət keyfiyyətlərini mənimsəməsi üsullarını açıqlayır və diqqət etmək lazımdır ki, şəxsiyyət amillərinin inkişaf məntiqini tədqiq edən müəllif burada şəxsiyyətin təşəkkülünün təməl mənbələrinə müraciət edir. Bu mənada Əli Rzayev insan fenomenini araşdırarkən qeyd edir: “Hər bir insan fərd olmaqla onun başqalarından fərqləndirən psixi xüsusiyyətləri (temperament, xarakter, qabiliyyət), psixoloji keyfiyyətləri (təsəvvür, təfəkkür, iradə, diqqət və s.), psixiki vəziyyəti (emosiya, hiss, arzu, fikir, əhval-ruhiyyə), sosial-psixoloji cəhətləri (motiv, maraq, tələbat, mənafe və s.) vardır” (s.29).

Yəni burada fərdin genetik psixoloji kodundan çıxış edərək məntiqi şəkildə insanın, təbiətin ayrılmaz bir hissəsi kimi kainatda yerinin nəzərdən keçirilməsinə cəhd edilir. Əyani misal olaraq müəllif Aristotelin insan nəfsinin təşəkkül və inkişafı “nərdivanına” istinad edir: “Ariistotel canlı aləm nərdivanında üç pillə ayırır: birinci pillədə heyvan və

insan üçün ümumi olan bitki qəlbi, ikinci pillədə - heyvan qəlbi və üçüncü pillədə - insan qəlbi" (s.33).

Prof. Əli Rzayev Aristotelin ideyalarının davamı kimi monoqrafiyada Nəsrəddin Tusinin "Əxlaqi Nasiri" əsərinə müraciət edir. Və burada üç qüvvənin təsiri ilə (nitq, qəzəb və şəhvət) üç nəfsin (1.mələk nəfsi, 2. vəhşi nəfsi, 3. heyvan nəfsi) formalaşması ideyasını şərh edir. "Nəsirəddin Tusi insanın orta yerdə yaradıldığı fikrinə gəlir. Bu orta yerdən yüksəlib ülvi dərəcəyə çatmaq və ya yuvarlanıb ən aşağı alçaqlığa enmək insanın öz əlində olub bu əməl səy, fəaliyyət, ağıl və iradədən asılıdır"(s.34).

Monoqrafiyada müəllif orta əsrlərin və yeni dövrün məşhur filosoflarına (məsələn, Əl Qəzali, İbn Sina, E.Rotterdamski) istinad edərək demək olar ki, insan təbiətinin anatomiyasını təhlil etmiş olur. Elmi əsərin müəllifinin həyata keçirdiyi insan mahiyyətinin dərin təhlili belə düşünməyə əsas verir ki, müasir insan hələ də insani təbiətini dərk etməmişdir. Bəlkə də özünü tanımadığından o, daha çox səhv buraxır. Düşünürəm ki, bu fikir kitab boyu oxucunun ağlında tez-tez yaranacaqdır.

Monoqrafiyada şəxsiyyət xarakteristikası müəllif tərəfindən insani təməlin davamı, daha dəqiq isə, üstqurum kimi nəzərdən keçirilir. Şəxsi və insani olanın sintezi praktiki olaraq insanın şəxsiyyət kimi cəmiyyətdəki statusunun bütöv ifadəsidir. Müqəddəs Quranın dəyərli ümumiləşmələrindən, amerikan və Qərb hüquqşünaslarının fikirlərindən çıxış edərək monoqrafiyanın müəllifi Əli Rzayev belə bir nəticəyə gəlib çıxır ki, "Şəxsiyyət və cəmiyyətin qarşılıqlı münasibəti kontekstində şəxsiyyət siyasi sistemin subyekti kimi çıxış edir. Beləliklə, insanlar yalnız cəmiyyətdə, ictimai münasibətlərdə şəxsiyyət statusu alır. Şəxsiyyətlə cəmiyyətin qarşılıqlı münasibətləri dövlət-vətəndaş münasibətlərinə

transformasiya olunur və dövlət-cəmiyyət adından, şəxsiyyət dövlət-hüquq koteqoriyası keyfiyyətində vətəndaş kimi çıxış edir" (c.48).

Şəxsiyyət fenomeninin nəzərdən keçirilməsi çərçivəsində müəllif şəxsiyyətin səciyyəvi tərəflərinə də diqqət ayırır. Müəllif onlara şəxsiyyətin nüfuzu, xarakteri, qabiliyyətləri və iradi keyfiyyətlər kimi şəxsi keyfiyyətləri aid edir (s.40). Burada müəllif şəxsiyyət tipi olaraq rəhbər şəxsiyyətinə xüsusi diqqət ayırır və onun təzahr tipləri sırasında demokratik, avtokratik və liberal tiplərin üzərində dayanır. Həmçinin diqqətəlayiqdir ki, xarakterin təbiətini təhlil edərkən o, yenə də şəxsiyyətin bio-psixoloji təbiətindən çıxış edir. Bu isə rəhbər şəxsiyyətinin prestijinin, nüfuzunun, temperamentinin müəyyənləşməsi baxımından əhəmiyyətlidir. Rəhbər vəzifəlinin şəxsiyyəti, müəlifin fikrincə, özündə etik (mənəvi) keyfiyyətləri, yenilik qabiliyyətlərini, ilahi istedadı və s. ehtiva edir.

Müəllif pozitiv rəhbər şəxsiyyətinin keyfiyyətlərinin bütöv kompleksini işıqlandırır. Birinci fəslin bütöv paraqrafını müəllif şəxsiyyətin ləyaqətinə həsr etmişdir. Ləyaqətin təbiəti şəxsiyyət simasında, müəllifin fikrincə, daxili qanunauyğunluq, vicdanın diktaturasıdır ki, şəxsiyyətə ədalətli həyati qərarlar diktə edir. Birinci fəslin bu hissəsində biz həm qədim dövrün (Aristotel, Platon), həm orta əsrlərin, həm də XVIII-XX əsrlərin filosof və mütəfəkkirlərinin fikirləri ilə rastlaşırıq: "İbn Sinanın fikrincə, ləyaqətli insan özündə dörd keyfiyyəti tərbiyə etməlidir. Onlar: psixi həvəslə əlaqədar təmkinlik, nifrətlə əlaqədar qorxmazlıq, gücləri ayırdetməklə əlaqədar kamillik, qeyd olanlarla əlaqədar ədalətlilikdir" (s.67).

Ləyaqət və müdriklik – bir-birini qarşılıqlı tamamlayan keyfiyyətlərdir. Və şəxsiyyətin pozitiv keyfiyyətlərinin davamı olaraq müəllif şəxsiyyətin statusunun, onun hüquqi və-

ziyyətinin təhlilini davam etdirir. Bununla əlaqədar, müəllif burada şəxsiyyətin həyat fəaliyyətinin çox vacib və bəlkə də mərkəzi aspekti olan şəxsiyyətin statusu məsələsini nəzərdən keçririr və qeyd edir ki, "insanın (fərdin) və şəxsiyyətin sosial, hüquqi, peşə, iqtisadi, mülkü, maddi və başqa statusu" (s.80) ola bilir.

Tarixi şəxsiyyətlərin ümumi və fərdi keyfiyyətlərini nəzərdən keçirərkən müəllif əsas vurğuları talant, dahilik kimi fövqəltəbii qabiliyyətlərə qoyur:" 1) fitri istetadın, dahilik qabiliyyətinin, güclü hafizənin, daxili inamın, möhkəm və sarsılmaz irtadənin, işgüzarlıq, qətiyyətlilik, məqsəd aydınlığı, fikir və mühakimələrin inandırıcılığı, uzaqgörənliliyi, çətinliklərə sinə gərmək, keyfiyyətlərin və dönməz xarakterin olması" (s.83-84) İdeyalarını əsaslandırmaq üçün müəllif oxucunu eramızdan əvvəlki dövrlərdən eramızın XIX-XX əsrlərinə qədər olan zaman kəsiyində yaşayıb yaratmış başlıca müdrik fikir dahiləri ilə tanış edir.

Müəllif insan-şəxsiyyətin təbiətinin ümumən mürəkkəb və çoxxətli daxili aləmini nəzərdən keçirir. Məhz, monoqrafiyanın birinci hissəsində Əli Rzayev bizim qarşımızda özündə qiymətli fəlsifi-sosioloji bilikləri toplamış bir şəxsiyyət kimi aşkarlanır. Məhz bu biliklər ona tarixi şəxsiyyətlərin dövlətçilik mexanizmində və universal dövlətlərin yaranması tarixində oynadıqları rolun təhlilinə bu qədər yaxınlaşmaq imkanı vermişdir. Öz təxəyyülü və dərin fəlsəfi-hüquqi bilikləri sayəsində Likurq, Salon, Tokvil və digər şəxsiyyətlərin geniş panoramının təsvirini verə bilir. Müəllif təkcə strateji vacib ideyaları irəli sürən deyil, həm də ictimai proseslərin hərəkətini idarə etmək və öz zamanının ictimai şüurunu formalaşdırmaq iqtidarında olan rəhbər şəxsiyyətlərin qabiliyyətlərini və ilahi vergisinin təbiətini işıqlandırmağa çalışır.

Tarixi şəxsiyyətlərin dövlətçilik təməllərinin təşəkkülündəki rolu barədə ideyanın davamı kimi IV fəsildə müəllif dövlətin mahiyyəti və təbiəti barədə qədim fəlsəfi təlimlərin təhlilini davam etdirir. Burada müəllif Falesdən, Pifaqordan, Konfutsidən, Heraklitdən, Sokratdan, Platondan, Aristoteldən və Siserondan ibarət büyük bir fəlsəfi təlimlər pleyadasının təhlilini aparır. Onların təlimi nümunəsində müəllif bu gün də öz dəyərini və aktuallığını itirməmiş bir fikrə gəlib çıxır: şərq-antik əlaqəsinin fəlsəfi-hüquqi elmin təşəkkülünün əsasında durması fikrinə.

Beləliklə, müəllif, məntiqi olaraq oxucunu dövlətin təbiətinin, dövlətin və dövlətçiliyin anlaşılması üçün fikirlər söyləmiş və əsərlər yazmış Fərabi, İbn-Sina, Nizami, N.Tusi kimi Şərq müdriklərinin və filosoflarının rolunun doğru-düzgün mənalandırılmasına yaxınlaşdırır.

Bununla yanaşı müəllif orta əsr və yeni dövr Avropa fəlsəfi-hüquqi təlimlərinin mənzərəsi ilə də bizi tanış edir. Burada Makiavelli, F.Bekon, T.Hobbs, C.Lokk, Monteskye, J.Russo kimi mütəfəkkirlər təmsil olunmuşlar. Göründüyü kimi Əli Rzayev dünya fəlsəfi-hüquqi fikrinin təşəkkülü və inkişafının geniş panoramasını Şərq-Qərb çərçivəsində açmaqla elmi ideya və kəşflərin planetar mahiyyətini göstərməyə çalışmışdır.

Elmi əsərin sonuncu üçüncü hissənin orijinallığı öz əksini onda tapmışdır ki, müəllif yenidən aşağıdakı sual rastlaşır: dünya elmi öz axtarışlarında və sonrakı şərhləri və ümumiləşdirmələrində nə ilə "bəslənirdi"? Əli Rzayev belə bir nəticəyə gəlir ki, düşünən bəşəriyyət öz mənbələrində Şumer möcüzəsindən çıxış edirdi. Əli Rzayev monoqrafiyada ətraflı şəkildə S.M.Kramerin Şumer mədəniyyəti ilə bağlı əsərlərini təhlil edir, bu mədəniyyətin nailiyyətlərini vurğulayır.

Şumerlilər – insan fikrinin əsas istiqamətlərində pionerdirlər. Müəllif on beşə yaxın belə istiqamətlərdən dolğun məlumat təqdim edir: su kanallarının çəkilməsi, kərpicin hazırlanması resepti, ilk məktəbin və yazının kəşfi, ikipalatalı parlament sisteminin kəşfi, ilk siyasi sessiya (e.ə.2800), Hammurappinin qanunları (e.ə.1750), tibbi terminlər, tibbi prosedurlar, metallurgiyanın, astronomiyanın, və astrologiyanın əsasları və Şumer mədəniyyətinin özündən sonra qoyduğu bir çox kəşflər (s.339). Müəllif qeyd edir: şumeroloqlar hesab edirlər ki, türk dili öz dərin kökləri ilə hardasa şumer köklərinə qarışır.

Monoqrafiyada maraq kəsb edən məqamlardan biri də şumerlilərin siyasi hakimiyyət quruluşudur. Müəllif göstərir ki, e.ə. IV-V minillikdə Şumer-akkad cəmiyyətində, monarxik dövlət formalaşmışdı. Kənd təsərrüfatında şumerlilər artıq irriqasiya sistemindən istiadə edirdilər. Əli Rzayev Şumer mədəniyyətinin əhəmiyyətini vurğulayaraq heç də təsadüfi olmayaraq, Azərbaycan filosofu-dramaturqu M.F.Axundovun bu günümüz üçün də aktual səslənən aşağıdakı, sözlərini gətirir: "Mədəniyyət toxumu əvvəllər Şərq ölkələrində cücərmişdir." Bəs, necə olmuşdur ki, sonradan Qərb, Avropa maddi mədəniyyət cəhətincə irəli getmiş, Şərq isə geridə qalmışdır?" (s.346). Və bu ideyanın davamı kimi Əli Rzayev şumer mədəniyyətinin qonşu və uzaq dövlətlərin mədəniyyətlərinə təsirlərinin tarixini təhlil edir. Qərbin, Rusiyanın və Azərbaycanın aparıcı şərqşünaslarının köklü analizi nəticəsində Əli Rzayev bir çox sonrakı mədəniyyətləri öz sivilizasyon kəşfləri ilə qidalandıran Şumer mədəniyyətinin xeyli tarixi qatlarını aşkarlaya bilmişdir. Bununla əlaqədar, monoqrafiyanın müəllifi Şumer mədəniyyətinin Krit və Roma sivilizasiyalarının inkişafına təsirini də izləyir. Şumer sivi-

lizasiyasının təşəkkül və inkişaf prosesini və onun Avropa və Uzaq Şərq ölkələrinə təsirini yekunlaşdırarkən ümumən belə bir nəticəyə gəlib çıxır ki, dünya mədəniyyətinin təşəkkülü tarixi uzun əsrlər boyu obyektiv olaraq, qarşılıqlı təsirə və son nəticədə sintezə və ümumbəşəri dəyərlərin formalaşmasına meylli olmuşdur.

Monoqrafiyanın son üçüncü hissəsini müəllif haqlı olaraq, dövlətçilik və dövlət idarəçiliyinin təşəkkülü və formalaşmasının mənbəyi hesab olunan Şumer, Krit və İslam mədəniyyətlərinə həsr edir. Təsərrüfat və iqtisadi həyat sahəsindəki təcrübənin ümumiləşdirilməsinin ilkin cəhdləri uzaqgörən müdriklərdə paralel olaraq insan cəmiyyətinin dövlət olaraq, formalaşması zərurətinin dərkini motivləndirmiş oldu.

Son olaraq, hesab edirəm ki, Əli Rzayevin geniş spektrli araşdırmaları və məlumat bazasını özündə birləşdirən fundamental tədiqatı fənlərarası elmi araşdırmaya gözəl nümunə olaraq humanitar profilli ali məktəblərdə dərs vəsaiti kimi uğurla istifadə oluna bilər.

***R.C.Əzimova,***
*AMEA Fəlsəfə İnstitutunun*
*Sosiologiya və sosial psixologiya şöbəsinin müdiri,*
*fəlsəfə üzrə elmlər doktoru, əməkdar elm xadimi*

**Hüquq üzrə elmlər doktoru, professor**
**Əli Heydər oğlu Rzayevin**
**"Şəxsiyyət. Dövlət. Möcüzə..." kitabı haqqında**
**RƏY**

Bir gün dostlarından biri F.Engelsdən soruşur: "Qraundun sənə göndərdiyi əsəri barədə fikrin nədir?". Cavabında Engels deyir: "Mən o kitabı heç oxumaq fikrində də deyiləm, çünki müəllifinin kim olduğunu yaxşı bilirəm. Elə adamın cızmaqarasına vaxt itirməyə dəyməz". Gənclik illərindən yaddaşımda özünə yer etmiş bu hadisə sonralar mənim üçün də hansısa məqalə və kitablara münasibətdə bir zəmin rolunu oynamış, əsərlərə yanaşma prinsipini formalaşdırmışdır. Yəni, konkret olaraq, hansısa nəşr edilmiş əsərin müəllifi kimdir, hansı şəxsi keyfiyyətlərə, bilik və təcrübəyə, amala və təfəkkür tərzinə malikdir? Bu, mənim üçün nəyisə oxumağa sövq edən meyar olmuşdur.

Hörmətli Əli müəllimin çoxhəcmli, doqquz fəsildən ibarət kitabına da həmin rəhbər tutduğum mövqedən yanaşdım və mənə təqdim edilən günün elə səhərisi əsərlə yaxından tanışlığa başladım. Belə ki, müəllifi 25 ilə yaxın bir müddət ərzində artıq tanıyırdım, onun özünə tələbkar, işinə nizamlı və məsuliyyətli, insanlara obyektiv, qərəzsiz yanaşdığını, həmişə öz üzərində məqsədyönlü çalışdığını, kifayət qədər idarəetmə təcrübəsinə və biliyinə sahib olduğunu bilirdim. Qısa bir rəydə kitabın bütün məziyyətləri, təfərrüatları barədə fikir söyləmək istəyində deyiləm, buna heç ehtiyac da yoxdur, çünki rəsmi opponent və yaxud rəyçi qismində çıxış etmirəm. Ümumiləşdirilmiş şəkildə deyə bilərəm ki, Əli Rzayevin kitabı bir sıra müsbət cəhətlərinə görə məndə xoş təəssürat yaratdı:

Birincisi, kitabın ruhu var! Ruhsuz kitab, ümumiyyətlə, kitab deyil, ölü müqəvvadır, kiməsə və nəyəsə fayda vermək qüdrətindən məhrumdur. Özündə bir işıq, ruh daşımayan kitab hətta, deyərdim ki, çox ziyanlıdır. Belə "əsər"lər insanları, cəmiyyət və dövlətləri yalnız tənəzzülə, süquta sürükləyir.

İkincisi, kitabda bəşəri irsə, ictimai fikir tarixinə, böyük zəka və əxlaq sahiblərinə dərin hörmət, sayğı sərgilənir. Qüdrətli söz-fikir sahibləri, o cümlədən, nəhəg mütəfəkkirlər, filosoflar aparıcı mövzu müstəvisində oxucuya, elmi ictimaiyyətə yenidən təqdim edilir. Onların həyat və yaradıcılığına müəllifin sayğılı nəzər-diqqəti yaşadığımız dövrün, zəmanəmizin aktual problemləri baxımından xüsusən təqdirəlayiqdir.

Üçüncüsü, pozitiv ruhla yanaşı, kitab gözəl amal daşıyıcısıdır. Bu amal hədən ibarətdir? Müəllifin daxili aləmi, zehni-düşüncəsi insanları, vətəndaşlarımızı nəyə səsləyir, onlara nəyi tövsiyə edir? Dövlətə və dövlətçiliyimizə həssas və qayğıkeş olmaq, cəmiyyətimizin yeni funksional səviyyəyə yüksəlməsi üçün hamılıqla çalışmaq və bu yolda həm milli, həm də bəşəri sərvətlərdən bəhrələnməklə, elm-zəka gücünə önəm verməklə, fədakarlıq göstərməklə daim irəliləmək, yeni-yeni töhfələrə imza atmaq. Budur müəllifin amalı və mən onu alqışlayır, dəstəkləyirəm!

Düşünürəm ki, Əli müəllimin kitabı alim və mütəxəssislər, siyasətçilər, ümumiyyətlə, geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanacaq. Xüsusən gənclər, böyüməkdə olan nəsillər üçün bu kitab lazımlı və faydalı ola bilər. Müəllifə can sağlığı və yeni-yeni uğurlar arzulayıram.

***Əbülhəsən Fərhad oğlu Abbasov***
*AMEA Fəlsəfə institutunun baş elmi işçisi,*
*fəlsəfə üzrə elmlər doktoru, professor*
*18.10.2016*

## Hüquq üzrə elmlər doktoru, professor Əli Rzayevin «Şəxsiyyət. Dövlət. Möcüzə...» adlı dərs vəsaitinə

## RƏY

Dərs vəsaiti kimi təqdim olunan bu əsəri bizim fikrimizcə fundamental monoqrafiya, həmçinin spesifik ixtisaslar üçün nəzərdə tutulmuş dərslik adlandırmaq daha düzgün olardı. Görünür bunun səbəbini ilk növbədə müəllifin özünə qarşı olan yüksək tələbkarlığında, zəngin mənəvi-əxlaqi dəyərlərlə bağlı şəxsi keyfiyyətlərində, sadəliyində və təvazökarlığında axtarmaq lazımdır. O ki, qaldı kitabın mahiyyəti və məzmunu ilə bağlı fikirlərimizə onları aşağıdakı şəkildə diqqətinizə çatdırmağı özümüzə borc bilirik.

Əsərdə insan, şəxsiyyət, dövlət, onların qarşılıqlı əlaqəsi haqqında ən qədim zamanlardan mövcud olmuş nəzəri fikirlər, konsepsiyalar, eləcədə müəllifin şəxsi mühakimələri tam dolğunluğu, səlist və məntiqi ardıcıllığı ilə şərh edilir. Tədqiqat işində diqqəti cəlb edən əsas məqamlardan biri də müəllifin heç zaman öz aktuallığını itirməyən, ictimai fikir tarixinin əbədi və əzəli həmçinin əbədiyaşar mövzularından sayılan insan probleminə toxunmasıdır. Burada o haqlı olaraq, ilk növbədə, insan mövzusunu şərh edərkən insan kimdir? Onun mahiyyəti və məzmunu nədən ibarətdir? İnsan nə üçün yaşayır? İnsan həyatının mənası nədir? kimi suallarına cavab tapmağa çalışır. Bundan ötrü müəllif ilk növbədə insan fenomenini daha sonra isə şəxsiyyət kateqoriyasını, şəxsiyyətin spesifik xüsusiyyətlərini, fərd, insan, şəxsiyyət anlayışlarında eynilik və müxtəliflik probleminin həm hüquqi həm də fəlsəfi təhlilinə xüsusi düqqət yetirir. Əsərdə böyük maraq doğuran məqamlardan biri də yaddaşlardan silinməyən bö-

yük şəxsiyyətlər və onların tarix səhnəsində oynadıqları rola həsr edilib. Görünür bu da səbəbsiz deyildir. Belə ki, müasir humanitar və ictimai elmlərdə şəxsiyyət, ələlxüsus tarixi şəxsiyyətlər haqqında söz açılarkən, məlum olur ki, burada öz həllini gözləyən, bugünədək sistemli yanaşmaya ehtiyac duyulan məsələlərə tam dəqiqliyi ilə aydınlıq gətirmək zərurəti hələ də gündəmdədir. Belə olan halda əminliklə deyə bilərik ki, müəllif şəxsiyyətlə bağlı konseptual problemlərin həllində yüksək peşəkarlıq göstərərək, mövcud ədəbiyyatda olan ziddiyyətli məsələlərə həm nəzəri və praktiki cəhətdən düzgün yanaşır, adı çəkilən nəzəri müddəalar ətrafında bizim düşüncələrimizə şəffaflıq və aydınlıq gətirir. Kitabın müsbət məziyyətlərindən və maraq doğuran cəhətlərindən biri də alimin fərd, insan şəxsiyyət problemini dar, məhdud çərçivədə deyil, daha geniş kontekstdə, yəni sosial münasibətlər, sosial dəyərlər sistemində təqdim etməsidir. Başqa sözlə, hüquqi və sosial-fəlsəfi müstəvidə aparılan araşdırmalar milli-mənəvi, əxlaqi, maddi dəyərlərin yaradıcısı, eyni zamanda daşıyıcısı sayılan insan problemini dövlət və dövlətçilik, dövlət və cəmiyyət müstəvisində qarşılıqlı əlaqə, bağlılıq və təsir prinsipləri əsasında öyrənir.

Təqdim olunan əsərin təqdirəlayiq məqamlarından biri də odur ki, burada göstərilən fəsillər və bölmələr məntiqi ardıcıllıqla, sistemli şəkildə bir-birini tamamlayır. Yəni eramızdan əvvəlki dövrdən başlayaraq çağdaş dünyamızadək insan, cəmiyyət və dövlətlə bağlı mövcud olmuş siyasi, hüquqi və fəlsəfi təlimlər obyektiv və prinsipial təhlil süzcəgindən keçirilərək araşdırılır. Aparılan bu araşdırmaların qayəsini, ana xəttini isə ilk növbədə genetik yaddaş, tarixilik və konkretlik prinsipləri təşkil edir. Ümumiyyətlə müəllifin adı çəkilən kitabını əvvəldən sonadək səciyyələndirən eləcə də

başqalarındıran fərqləndirən başlıca cəhət araşdırılan bütün fəsillərin bilavasitə Şərq və Qərb, zaman və məkan, varislik və müasirlik kontekstindən öyrənilməsidir.

Kitabla bağlı başqa bir mühüm cəhəti qeyd etməmək ən azından insafsızlıq olardı. Söhbət hər fəsildə və yarımfəsildə bəşəriyyətin yarandığı gündən müasir dövrədək yaşamış görkəmli filosofların, mütəfəkkirlərin və alimlərin mövzu ilə bağlı ibrətamiz fikirlərindən, müdrik kəlamlarından gedir. Tətbiq edilən bu cür prinsip heç şübhəsiz ki, əsəri daha oxunaqlı, maraqlı və məzmunlu edir.

Görünür kitabın "şəxsiyyət, dövlət, möcüzə..." adlandırılması da təsadüfi xarakter daşımır. Çünki III bölmənin VII fəsli şumer, IX fəsli isə Quran möcüzəsi adlanır. Burada şumer tarixinin genezisi, şumer sivilizasiyasının dünya mədəniyyətinə verdiyi töhfələr, qədim şumerlərin dövlət quruculuğu istiqamətində əldə etdiyi uğurlar, həmçinin islam dini ilə bağlı təqdim olunan elmi həqiqətlər, Həzrət Əli ilə bağlı şərh edilən müqəddəs kəlamlar oxucular tərəfindən böyük maraq və minnətdarlıq hissi ilə qarşılanır.

Fikrimizcə, hüquq üzrə elmlər doktoru, professor Əli Rzayevin böyük zəhməti hesabına ərsəyə gəlmiş "şəxsiyyət. dövlər. möcüzə..." adlı əsəri Azərbaycan ictimai fikrini, daha dəqiq desək hüquq, fəlsəfə, siyasətşünaslıq elmlərini zənginləşdirən və təfəkkürün inkişafı istiqamətində irəliyə doğru atılan böyük bir addımdır. Biz müəllifin 6 il ərzində gecə-gündüz çalışaraq yazıb yaratdığı bu dəyərli əsəri yüksək qiymətləndirir və cələgək yaradıcılığında ona uğurlarar zulayırıq.

***Azər Mustafayev***
*fəlsəfə elmlər doktoru,*
*professor*

## Zamanın təhlili yeni siyasi-hüquqi baxışda (professor Əli Rzayevin "Şəxsiyyət. Dövlət. Möcüzə..." əsəri haqda)

Qloballaşan Dünyada, internetləşmə zamanında KİTABa qayıdış, oxu məntiqi günün problemlərindəndir. Bu mənada professor Əli Rzayevin gərgin axtarışlar, böyük zəhmət hesabına toparlayıb tədqiq etdiyi mövzu da məhz ZAMANın reallığıdır. Məkan dəyişməyib, dəyişən Zaman və onun məhz Möcüzələridir. Professor Əli Rzayevin "Şəxsiyyət. Dövlət. Möcüzə" əsərində üç vəhdətdə, belə desək triadada Şəxsiyyət+Dövlət+Möcüzə fenomenlərinin aşkar, bəlli, bəzən də açılmayan cizgilərini araşdırır. Və o zamandan bu zamana baxış tərzində bir Hüquqşünas məntiqi ilə bir dərketmə qabiliyyətli ictimaiyyətçi, bəzən də siyasi təfəkkürlü daxilindən gələn Xarizmasına uygun dərin məzmunlu təhlillər aparır.

Kitabda hər nə desən var: Qanun və Qanunçuluq məntiqi ilə Şəxsiyyətin formalaşması və Dövlətçilik məfkurəsi ilə paralellikdə isə Möcüzə anlayışı. Məhz bu bağlılılq əsərin özünəməxsusluğunu yeni siyasi-hüquqi baxış tərzini təsdiqləyir.

Əsər Hz. Məhəmmədin kəlamı ilə başlayır (s.17) və Ulu Peyğəmbərimizin deyimi ilə (s.411) yekunlaşır. Professor məhz mənəvi daxili əsərdə bu başlangıc və yekunla özünü açıqlayır.

Müəllif məhz nəticədə fikrini tamamlayaraq yazır ki, İlahidən gələn möcüzələr iki cürdür: əməli və söz möcüzəsi. "Çox düşündürücüdür", çox riyazi, çox fəlsəfi, çox məntiqi və inteqrativ bir yanaşmadır.

Əsərin çox diqqət çəkən məqamlarından biri də Qərb müəllifləri ilə Şərqin önəmli simalarının fikirlərini paralelləşdirilməsidir. Bax, budur Şəxsiyyətin formalaşması fəlsəfəsi, Dövləti baxış fəlsəfəsi və Möcüzəvilik...

Fikirləri qarşılaşdırmaq, eyni məntiqlə düşünən fikirləri toparlamaq, insan fenomenini araşdırmaq özü də fikirlərin Möcüzəvi Vəhdətini yaratmaqdır. Əli müəllim! Siz bu təhlili, bu araşdırmanı aparmaqla hüquqi-tarixi və siyasi-mənəvi elmi fikir tarixində yeni bir möcüzəvi tədqiq metodu yaratmağa səy etmisiniz. Və buna nail olmusunuz.

Əsər Tarixidir. Faktlar və sənədlər reallığı kitabda sistematik ardıcıllıqla verilir. Şumerlərdən başlamış günümüzün reallıqları tarixi əsərin ZAMAN dəyərinin göstəricisidir "

Əsər fəlsəfi-sosialdır. İctimai məzmunda şəxsiyyət fenomeni çox geniş mətndə araşdırılır və hətta Əli Rzayev yazır ki, "cəmiyyətin fəaliyyəti hüquqi müstəviyə keçirilir."(s.17)

Kitabda oxuyarkən diqqətimi səh.25-dəki həm anlaşılıqlı, həm də çətin-labirint bir sxematik cədvəl də cəlb etdi. Cədvəl dairəvi-Yer kürəsi şəklində, həm də oxlar-koordinatlarla istiqamətlənir, bəlkə də belə deyək, "şifrələnir". Bu da kitabın Açması, Allah və insan vəhdətinin Qurana bağlı möcüzəsidir.

Müəllif Yaradanı (Allah) yaradılışla (insan) və bəşəriyyətlə (ailə,cəmiyyət, dövlət) tendemində verməklə, hüquqi-riyazi bir analizə yol açır. Maraqlı, diqqətçəkən və olduqca düşündürücü Alim mövqeyidir.

Əsərdə psixologiya, mədəni-mənəvi cərəyanlar, siyasi-hüquqi təlimlər və mənasi siyasətə yüklənən əsas Dövlətin terminoloji məzmunu əks olunur.

Əsərin dili oxunaqlı, həm də çətin qavranılandır. Çətinliyi elmi fəlsəfi – hüquqi yükündədir. Əsər doktorantlar, tələbələr üçün əsl ensiklopedik məzmunlu əlyetərli bir internet – kitabdır. Bəli, Zaman istənilən sorgunu internetdə tapma möcüzəsidir.

Professor Əli Rzayev də gərgin zəhməti hesabına "kitaba qayıt" formulasını təsdiq edərək, məhz universal aforizmlər

qaynaqlı bir biliklər məcmusu yaratmışdır. Həqiqətən professor yazdığı kimi: "adət-ənənələr qanundan güclüdür" (s.141) .

Professor, Siz isə təsdiq edirsiz ki, Zaman internet dövrü olsa da, əsl əsər, gərəkli kitab da elə şəxsiyyətin, Dövlətin möcüzəsinin əksidir. Yəni Sizin göstərdiyiniz kimi "əməl-nəzəriyyə və təcrübənin canlı vəhdətidir" (s.235).

Əsərdə Tapdığım bir məqamda Əli Rzayevin Azərbaycançılıq məfkurəsinə öz Vətəninə olan vurğunluğunu gördüm. Professor yazır: "Tarix Şumerlərdən başlayır" (s.329). Bu yanaşma məhz professorun məntiqi özünəməxsusluğudur.

Əsərdə mifologiya, əsatirlər, rəvayətlər, bir sözlə aforizmli bir hikmətlik, müdrik kəlamların topluluğu vardır. Nə böyük əziyyət, nə çətin bir tədqiqçilik... Var olun, Professor! Bu əsər özü Sizin Şəxsiyyət kimi mənalı ömür Yolunuz, Dövlətə və Dövlətçiliyə olan hüquqçu mövqeyiniz, mənəvi daxiliniz, yüksək əxlaqiliyə söykənən Əxlaqi bir ğrnək Fenomenliyinizdir.

Bəli, Siz sonda düz yekun vurmusuz. "Elə kitab var ki, onun dadına baxmaq, elə kitab var ki, onu ən yaxşı halda udmaq, yalnız az kitab var ki, onu çeynəyib həzm etmək lazımdır". (A.Bekon) (s.406). Məhz yuxarıda söylədiyiniz fikri Siz ozünüz təsdiq edirsiniz: mükəmməl və çətin, belə deyək: Bu əsər riyazi üsullu, hüquqi məntiqə söykək, siyasi fəlsəfi bir tədqiqatdır. Məhz Bekon məntiqi ilə desək: "çeynəyib həzm etmək" gərəkdir.

Hörmət etdiyim, özü Şəxsiyyətli, Vüqarlı, Əzmkar və Zamanımızda Az Tapılan Bğyük İnsan! Əksərimizin Müraciət etdiyi Özü Şəxsiyyət olan Professor Əli Rzayev! Sizə məhz bu Zamanda belə Zamanı əks edən Əsərinizə görə Var Olun, Uğurlar.

Hörmətlə,

***Rəna Mirzəzadə.***
*sadəcə öz Adı və Soyadı ilə bəlli*

Eyni zamanda müəllifin ünvanına daxil olmuş onlarla rəyçilərin sırasından aşağıda göstərilən müəllifləri də kitaba əlavə edirik:

**1. İsmayıl Hacıyev** – Tarix elmləri doktoru, akademik. AMEA-nın Naxçıvan Bölməsinin Sədri – "Geniş təfəkkürlü alimin insanları düşünməyə sövq edən dahiyanə əsəsri"

**2. Namik Əliyev** – Hüquq üzrə elmlər doktoru, professor – "Dövlətçilik fəlsəfəsi müdriklərin gözü ilə"

**3. Namik Həsənov** – Sabiq dövlət məmuru – "Bəşəriyyətin tərəqqisini təcəssüm etdirən müdrik kəlamlarla dolu dəyərli əsər".

**4. Vəsadət Əzizov** – Tibb elmlər doktoru, professor, Respublikanın əməkdar həkimi – "Böyük tədqiqatın məntiqi nəticəsi olan ensiklopedik əsər".

**5. Şirindil Alışanov** – Filologiya elmləri doktoru, professor – "Dövlətçiliyin tarixi ənənləri".

**6. Nazim Cəfərli** – Hüquq üzrə elmlər doktoru, professor – "Zamanla səsləşən hikmətli kəlamlar".

**7. Vüqar Məmmədov** – Tibb elmləri doktoru, professor – "Dövrümüzün uzaqgörən ziyalısı".

**8. Şamil Ayrım** – Türk siyasətçisi, 20-*ci dönəm İqdır, 21-ci dönəm İstanbul müllət vəkili olmuş "İşıqlı təfəkkür və zəhmətin hesabına yaranan şah əsər".

**9. Möhsüm Möhsümov** – Hüquq üzrə elmlər doktoru – "Hikmətli kəlamlar, tarixin dərsi və zəkanın səsi".

**10. Arif Quliyev** – Hüquq üzrə elmlər doktoru, professor – "Oxucuları ovsunlayan dəyərli fikirlərlə zəngin mükəmməl əsər".

**11. Xəyyam İsmayılov** – Hüquq üzrə elmlər doktoru, professor – "Mükəmməlliyə açılan yol".

**12. Əbülfəz Hüseynov** – Hüquq üzrə elmlər doktoru –

”Müdrik alimin ibrətamiz düşüncələri”.

**13. Aqşin Quliyev** – Hüquq üzrə elmlər doktoru, Mirafərim Seyidov, Hüquq üzrə fəlsəfə doktoru – “Elmi kamillik qüdrəti”.

**14. Sakit Hüseynov** – Fəlsəfə üzrə elmlər doktoru – “Dövlətçilik dünya filosoflarının baxışlarında”.

**15. Allahverdi Məmmədli** – Filologiya üzrə elmlər doktoru, professor – “Dünya düzəninə tarixi, sosial və hüquqi baxış”.

**16. Ziba Ağayeva** – Fəlsəfə üzrə elmlər doktoru – “Böyük zəhmət və axtarışlar hesabına ərsəyə gələn orijinal və ensiklopedik məlumatlı papulyar əsər”.

**17. Hamlet Musayev** – Hüquq üzrə fəlsəfə doktoru – «Dəyərli tədqiqat əsəri».

**18. Baxşeyş Əsgərov** – Hüquq üzrə fəlsəfə doktoru – “Möhtəşəm fikir və hikmətlərlə dolu yaradıcılıq”.

**19. Mir Haşım Ağa Seyidli** – tarix üzrə fəlsəfə doktoru – “Elmə, səmimiyyətə və qürura arxalanan insan”.

**20. Oruc Məmmədov** – Hüquq üzrə fəlsəfə doktoru, dosent – “Şəxsiyyət. Dövlət. Möcüzə - üçlüyün vəhdəti”.

**21.Ələkbər Məmmədov** – Biologiya üzrə fəlsəfə doktoru – “Mənəviyyat ensiklopediyası”.

**22. Pərviz Həsənov** – İqtisad üzrə fəlsəfə doktoru, dosent – “Şərq dünyasının mənəvi irsini canlandıran qiymətli əsər”.

**23. Rauf Babayev** – AMEA-nın Polimer materialları İnstitutunun direktor müavini – “İdeal insan modelini əks etdirən əsər”.

**24. Mətləb Mahmudov** – Fəlsəfə üzrə fəlsəfə doktoru – “Həqiqətə açılan pəncərə”.

**25. Həbib Hüseynov** – Fəlsəfə üzrə fəlsəfə doktoru – “İnsan faktlarına geniş aspektində baxılan ensiklopedik əsər”.

**26. Araz Qədimalıyev** – Hüquq üzrə fəlsəfə doktoru – "İnsanları saflaşdırılmağa çağıran müdrik alim".

**27. Asif Qədirov** – Hüquq üzrə fəlsəfə doktoru – "Dolğun həyat fəlsəfəsinin incəlikləri".

**28. Vahid Əliyev** – Jurnalist – "Bu kitab bilik mənbəyidir".

**29. Adil Qurbanov** – Fəlsəfə üzrə fəlsəfə doktoru – "Böyük elmi maraq kəsb edən sadə qavranılan informasiya mənbəyi".

Bu tam siyahı deyil. Çoxsaylı oxucular müəllifə kitab haqqında şifahi olaraq müsbət fikirlərini bildirirlər.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT


1. Abbasov Ə. Nizami Gəncəvi, «İsgəndarnamə». Bakı: Elm, 1966, 197 s
2. ABŞ demokratiyası haqqında əsas mətnlər. Tərtibçi: İ. Uzofski. İqtisad və Siyasi Araşdırmalar Mərkəzi., 2005, 487 s.
3. Aforizmlər. Bakı: Qanun, 2013, 260 s.
4. Axund Əbdussalam Axundzadə. Müqəddəs peyğəmbərlik tarixi. Bakı, 1993, 140 s.
5. Azərbaycan fəlsəfə tarixi. II cild. Bakı: Elm, 2014, 684 s.
6. Bakıxanov A. Seçilmiş əsərləri. Bakı, 1984.
7. Corc Cordaq. «İmam Əli». Farscadan tərcümə edən: Famil Şirvanov. Bakı: Qanun, 2014, 312 s.
8. Əbu Hamid Əl-Qəzali. Kimyayi-səadət, (Səadət Kimyası). İ. Nəcəfovun tərcüməsi ilə. Kompyuter yığımı, IV cild, s.1. Bakı, 2013.
9. Əhməd İbn Süəb Nəsavi. İmam Əli barəsində yazılmış xüsusiyyətlər. Ən qədim əhli – sünnə kitabı. Tərcümə Rövşən Abdullaoğlu. Bakı, 2013, 136 s.
10. Əhmədov Ə. «Nikatul-Quran». Bakı: İkinci nəşr, 1986.
11. Əjdər Tağı oğlu. Qədim Ön Asiya və Qafqaz Türk tayfaları. Bakı: Nurlan, 2008, 800 s.
12. Əli Polad. Həzrət Əli. Bakı, 2004, 256 s.
13. Əli Polad. Üç min ilin hikməti. Bakı: Oskar, 2007, 719 s.
14. Əl-Qurani Kərim. Ərəb dilindən tərcümə Z. Bünyadov; V. Məmmədəliyev. 8-ci buraxılış.
15. Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. On beşinci kitab. Bakı, Azərnəşr. 1997.

16. Əsgərov Z. A. Konstitusiya hüququ. Dərslik. Bakı Dövlət Universitetinin nəşriyyatı, 2011, 760 s.
17. Fəzullah Kompani. Əli kimdir? Tərcümə edən Məhəmməd Turan . Bakı, 2005, 208 s.
18. Firdovsi. «Şahnamə». Bakı: Yazıçı, 1986, 333 s.
19. Harun Yəhya. Quran möcüzələri. Tərcümə edən Elşad Miri. B., 1994, 300 s.
20. Hegel A. Hüquq fəlsəfəsi. Bakı: Nərgiz, 2007.
21. Həsən Səffar. Nəhcül-Bəlağədə həyata baxış. Bakı, 2005.
22. Hikmət Hacızadə. Demokratiya: gediləsi uzun bir yol: demokratiya və antidemokratiya antologiyası. Bakı, 2001, 445 s.
23. İslam Sadiq. Şumerdə izim var. Bakı: Azərnəşr, 2008, 60 s.
24. Kəlilə və Dimnə. Bakı: Azərnəşr, 1982, 317 s.
25. Kramer S. M. Tarix şumerdə başlayır. Bakı: Mütərcim, 2012, 434 s.
26. M. Cəfər. Mütəfəkkirin şəxsiyyəti. Bakı: Azərnəşr, 1966, 218 s.
27. Məhəmməd Tağı. Nəfsi saflaşdırmaqdan qabaq özünü tanıma (Tərcümə). Bakı, 2005.
28. Məlikova M.F. Dövlət və hüquq nəzəriyyəsi, Dərslik, Bakı: Maarif, 1988, 383 s.
29. Mirzəcanzadə Azad. Yaradıcılıq haqqında düşüncələr. Bakı: Yazıçı, 1984, 192 s.
30. Məhəmməd Reyşəhri. İnsan: Quran və hədisdə. Bakı, 2012 s.10,12
31. Nəhcül-Bəlağə. İmam Əli əleyhis-səlamın xitbə, мəktub və hikmətli kəlamları (tərcümə və şərh), üçüncü nəşr. Bakı: İİB, Mədəniyyət Mərkəzi, 2009, 911 c.

32. Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Bakı: Elm, 1980, 256 s.
33. Nizami. Hikmət və nəsihətlər. Aforizm. Bakı: Yazıçı, 1982.
34. Nizamülmülk. Siyasətnamə. Bakı: Elm, 1987, 208 s .
35. Platon. Dövlət. Bakı: Bakı Dövlət Universiteti, 1999, 358 s.
36. Rəfiqə Əzimova. İnsanşünaslıq – XXI əsrin elmidir. Bakı: Tərcümə, 2012, 156 s.
37. Rüstəmov Y. Sosial-siyasi və hüquqi təlimlər tarixi. Bakı, 2007, 423s
38. Rzayev Ə. H. Dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı: Elm, 2005, 264 s.
39. Rzayev Ə. H. Dövlət qulluğunun hüquqi əsasları. Bakı: Elm, 2011, 480 s.
40. Rzayev Ə. H. Dövlət nəzarəti: nəzəriyyə və praktika. Bakı: Elm, 2008, 310 s.
41. Seyid Rəzi. Nəhcül-Bəlağə. Həzrət Əli (ə) xütfələri, məktubları. 2006
42. Sədi Şirazi. Bustan. Bakı: Azərnəşr, 1964, 253 s.
43. Sipovski V. D. Sokrat və onun dövrü (tarixi oçerk). Bakı: Elm, 1995. 88 s.
44. Ümumi hüquq və dövlət nəzəriyyəsi: Dərslik (V. V. Lazerevin redaktorluğu ilə) Bakı, Qanun, 2014, 492 s.
45. Yusifov Y. B. Qədim Şərq tarixi. Dərslik. Bakı Universitetinin nəşriyyatı. Bakı, 1999, 496 s.

## RUS DİLİNDƏ ƏDƏBİYYAT

46. Авдиев Б. И. История Древнего Востока. изд 3. М.: Высшая школа, 1970, 608 с.
47. Алексеев С. С. Общая теория права В 2-х-т-х. Т-1,

М.: Юридическая литература, 1981, 360 с.
48. Алексис де Токвиль. Демократия в Америке. М.: Прогресс, 1992, 560 с.
49. Альберт Сорель. Монтескье. М.: Книжное дело, 1898, 141 с.
50. Аристотель. Политика. Сочинение в 4-х т, т.4. М.: Мысль, 1983, 771с.
51. Асмус В. Ф. Античная философия. Изд. Второе. М.: Высшая школа, 1976, 543 с.
52. Асмус В. Ф. Жан-Жак Руссо (к 250-летию со дня рождения). М.: Знание, 1962.
53. Атаманчук Г. В. Новое государство: поиск, иллюзии, возможность. Славянский диалог, 1996, 223 с.
54. Атаманчук Г.В. Теория государственного управления. Курс лекций. Изд. второе. М.: ОМЕГА-Л, 2004, 584 с.
55. Атаманчук Г.В. Сущность государственной службы. Издание второе, дополненное. М.: РАГС, 2008, 312 с.
56. Атаманчук Г.В. Управление в жизнедеятельности людей. М.: РАГС, 2008.
57. Афоризмы: по иностранным источником (сост. П.П.Петров). 3-е изд. М.: Прогресс, 1985, 496 с.
58. Ахмедов Дж. Г., Рагимов Ф.Н. Личность и труд. Б.: Азернешр, 1981, 167 с.
59. Баскин М.П. Монтескье. М.: Мысль, 1965, 190 с.
60. Бачило И.Л. Факторы, влияющие на государственность. Государство и право, 1993, №7, с. 21-30.
61. Большая книга афоризмов К.В.Дущенко Изд. 12-ое, исправл. М.: Эксмо, 2012, 1056с.
62. Бутенко А.Г. Государство и его вчерашние и сегод-

няшние трактовки, Государство и право, 1973, №7.
63. Васильев Л. С. Конфуций. Вопрос истории, 1989, №3, с.89-135.
64. Васильев Л. С. История религий Востока. Учеб. пособ. М.: Высшая школа, 1983, 368с
65. Вейцман Е. М. Великий Английский материалист Томас Гоббс. М.: Знание, 1960, 48 с.
66. Воронцов В. Л. Симфония разума. М.: Молодая гвардия, 1976.
67. Гримак Р. Резерв человеческой психики. М.: Политиздат, 1989, 319 с.
68. Гумплович Л. Общее учение о государстве. СПБ, 1910.
69. Дик Хайард. Джеймс Мэдисон и конституция. Журнал «Америка», 1987, май № 36, с.2-6.
70. Доктор Рахман. Краткая история ислама (перевод с английского) М.: Имман, 2006, 409 с.
71. Еллинек Д. Общее учение о государстве. Изд. второе. С. Петербург, 1908.
72. Жан-Жак Руссо. Трактаты. М.: Наука, 1969, 685 с.
73. Жан-Ноэль Робер. Этруски. М.: Вече, 2007, 368с.
74. Занченко Г. А. Джон Локк. М.: Мысль, 1973, 206 с.
75. Захидов В. Три титана. Ташкенд: «Фон», 1973, 86 с.
76. Зиданский В. А. Государство и личности в системе государственности. Государства и право, 2007, № 10, с. 5-12.
77. Ибн аль-Мукаффа. Калила и Димна 1989, М.: Худож.лит., 1986, 303 с.
78. Ибн Сина. Избранные произведения. Т.1. Душенбе, 1989, 420 с.
79. Историки античности. в 2-х томах. Том 2. Древ-

ний Рим. М.: Правда, 1989, 640 с.
80. История государства и права Под ред. О.А.Жидкова и др. Учебник В 2-х т, Т-1 М.: НОРМА ИНФРА-М, 2004, 712 с.
81. История древнего Рима. Учебник Под. ред. В.И.Кузишина. Изд. второе и переработанное допол. М.: Выс. Школа, 1981, 336с
82. История Европы в 8-и томах. Том 1. Древняя Европа. М.: Наука,1988, 704 с.
83. Казимеж Куманецкий. История культуры Древней Греции и Рима. М.: Высшая школа, 1990, 351 с.
84. Кант И. Трактаты и письма. 1974, 304 с.
85. Касумжанов А.Х. Абу Насир аль-Фараби о государстве. М.: Мысль, 1982.
86. Книга афоризмов. Избранное из избранных (Состав. С.Халилов) М.: Инфра-М, 2012, 288 с.
87. Конституции государств Американского континента. М.: Иностранная литература, 1959, 227 с.
88. Конституционное государство. Сборник статей. С. Петербург, 1905, 353 с.
89. Конституционное право зарубежных стран. Учебник И. О. Бондаренко, Д.Е.Волкова, Д.А.Гараджаев. Харьков: Право, 2015, 846 с.
90. Корбанье Ж. Юридическая социология. М.: Прогресс, 1986, 282 с.
91. Коркунов Н.И. История философии и права. С. Петербург, 1908, 454 с.
92. Лазарев Г. М. Развитие государственной власти Древнего Мира. М.: Гос. изд-во. 1909.
93. Леонтьев А.Н. Деятельность, сознание, личность. Изд. второе. М.: Политическая литература, 1977,

304 с.
94. Ливанцев К. Е. История буржуазного государства и права. Л.: ЛГУ, 1986, 288 с.
95. Локк Дж. Два трактата о правлении. Избранные философские произведения, в 3-х т-х, Т.3. М.: Мысль, 1988.
96. Лурье С.А. Демокрит. Л.: Наука, 1970, 378 с.
97. Манфред А З. Три портрета эпохи Великой Французской Революции. М.: Мысль, 1978, 94 с.
98. Марк Тулий Цицерон. «О государстве». Баку: Азербайджанский Государственный Университет, 1928, 14с.
99. Мец А. И. Мусульманский Ренессанс. М.: Наука, 1973, 473 с.
100. Мирзаджанзаде А.Х. О пути в XXI век. Баку, Oskar, 2001, 570 с.
101. Монтескье Ш. Избранное произведение: О духе законов. М.: Полит. лит., 1955, 769 с.
102. Монтескье Ш. Персидское письмо. М.: Худ. лит., 1956, 397 с.
103. Мудрость тысячелетий. Энциклопедия. М.: Олма-Пресс, 2003, 848 с.
104. Мысли и афоризмы (состав. П.Ландесман) Баку: Азернешр, 1962.
105. Наговицын А. Е. Мифология и религия Этрусков. М.: Рефл-бук, 2000, 496 с.
106. Нарский И. С. Западно-Европейская Философия XVII в. М., 1974.
107. Немировский А. И. История древного мира (Античность). В двух частях. Часть 1. М.: Владос, 2000, 448 с.

108.Неутомимый Джеймс Медисон: Лето 89-го. Журнал «Америка», 1990, июнь, № 403,с.2-5.
109.Никола Макиавелли. Государь. М.: Попурри, 1998.
110.Пакелис В. Твои возможности, человек. М., Знание, 1984.
111.Первые 365 дней счастливой жизни: Коран, сунна, мудрость души. 2-е изд. испр. СПБ: «Диля», 2010, 416 с.
112.Платон. Апологея Сократа. М.: Соч. т-1. М., 1968.
113.Платон. Государство. Сочинение в 3-х т-х. т.3. М.: Мысль, 1971.
114.Платон. Законы. Сочинение в 3-х т-х. т.2. М.: Мысль, 1972, 647 с.
115.Плутарх. Сравнительное жизнеописание. В двух т.х. т.1. М.: Правда, 1990, 592с.
116.Плутарх. Сравнительное жизнеописание. В двух т-х. т.2. М.: Правда, 1994, 592 с.
117.Психология. под ред. Крутецкого В. А. М., Просвещение, 1989.
118.Психология личности. Тексты под ред. Ю.Б.Гинненрейтер. Изд-во Московского Университета, 1982, 287 с.
119.Редер Д. Г., Черкасова Е. А. История древнего востока. Под ред. Ю. Е. Крушкова. М.: Просвещение, 1979, 288с.
120.Рзаев А.Г. Государственная служба: организационно-правовые аспекты. Баку: Елм, 2013, 560 с.
121.Сагадеев А. В. Ибн-Сина (Авиценна). М.: Мысль, 1980. 239с.
122.Самые остроумные афоризмы и цитаты. Вожди от Ивана Грозного до Сталина. М.: Астрель, 2013,

160с.
123. Сативалдыев Р. Ш. Персидско-Таджикская политико-правовая мысль эпохи средневековья (исследование и интерпретация). «Государство и право», 2000, №2, с.97-103.
124. Словарь античности. М.: Прогресс, 1989, 704с
125. Словарь иностранных слов. 16- изд. М., 1988, 624 с.
126. Словарь по этике. М., Полиздат, 1981.
127. Советский энциклопедический словарь. М.: Советская энциклопедия, 1987, 1600 с.
128. 100 Великих диктаторов. М.: Вече, 2002, 656 с.
129. 100 Великих загадок истории. М.: Вече, 2002, 544 с.
130. 100 Великих мыслителей. М.: Вече, 2002, 688 с.
131. 100 Великих книг. М.: Вече, 2004, 480 с.
132. Таранов П. Философия сорока пяти поколений М.: АСТ, 1999, 656с
133. Таукелев А. И., Сапаргалиев Г. С. Государственные правовые взгляды аль – Фараби. Алма-Ата: Наука, 1975
134. Томас Гоббс. Левиофон или материя, форма и власть государства церковного и гражданского, М., 1936, 500 с.
135. Томас Гоббс. Философское основание учения «Гражданина», М.: Изд. Ч. А. Лемана и Б. Д. Плетнева, 1914, 264 с.
136. Тоффлер Э. Метоморфозы власти: знание, богатство и сила на пороге XXI века. М.: ООО Аст, 2001, 669 с.
137. Тураев Б. А. История древнего востока. Л.: 1935, 493с.
138. Хайруллаев М. М. Фараби – крупнейший мысли-

тель средневековья. Душанбе: Фон, 1982
139.Цицерон. Философские трактаты. М.: Наука, 1985, 382 с.
140.Чанышев А. Н. Аристотель М.: Мысль, 1984, 200с.
141.Чахид А. Аби Насир аль-Фараби. О государстве. Душанбе, 1966.
142.Черниловский З. М. Всеобщая история государства и права. М.: Юристь, 1995, 576 с.
143.Чиркин В. Е. Государствоведение. Учебник, М.: Юристь, 1999, 400 с.
144.Шамиль Аляутдинов. Высказывания Пророка Мухаммеда. Второе изд., пер. Москва, Санкт – Петербург СПб: «Диля», 2015, 416 с.
145.Щундиков К. В. Правовые механизмы: основы теории. «Государство и право», 2006, № 12, с.12-21.
146.Энциклопедия афоризмов: Мысль в слове. М.: Аст, 2003, 714 с.

## İNTERNET SAYTI

147.http: taynu-zemli.ru article/ 536
148.www.bibliotekar.ru/ii shumeru.htm
149.www.heritagenet.unesgo.kz/kz/content/history/ partret/farabi.htm
150.ru wikipedia orq/wiki / Şumer
151.quran.al shia. org / az (internet saytı)
152.forum.azəri.net
153.https: // ru wikipedia / org
154.313 news. Net
155.https//ru Wikipedia. org/ wiki/ Avtoritet

Çapa imzalanmışdır: 26.05.2017

Formatı: 60x84 1/16 Həcmi: 34 ç.v.
Tiraj 300.
«Təknur» MMC-nin mətbəəsində
hazır elektron variantdan çap olunmuşdur.

Mətbəə kitabın məzmununa, yazı üslubuna, orfoqrafiya
və qrammatikasına görə heç bir cavabdehlik daşımır.

Mətbəənin direktoru: **Ələkbər Məmmədov**

Telefon: 408-18-30; 050-222-40-25.